Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

ustad
US
sənətkarlar



# İSA MUĞANNA

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

ALTI CİLDDƏ

**1**

"AVRASİYA PRESS"
BAKI
2009

ustad
US
sənətkarlar

**İsa Muğanna.**
**Seçilmiş əsərləri.**
Altı cilddə I cild.
Bakı, "Avrasiya press",
2009, 424 səh.

Ədibin "Seçilmiş əsərləri"nin bu cildinə onun müxtəlif illərdə qələmə aldığı məşhur povestləri daxil edilmişdir.

© Azərbaycan Respublikası
Mədəniyyət və Turizm
Nazirliyi
© İsa Muğanna
© "Avrasiya press", 2009

**ISBN 978-9952-442-16-8** İsa Muğanna. Seçilmiş əsərləri

**ISBN 978-9952-442-17-5** I cild

ROMAN
**POVEST**
HEKAYƏ
MƏQALƏ
İNTERVÜ

Oxuju bilməlidir ki, 1949-60-jı illər arasında yazılmış roman və povestlərdən, oçerklərdən və bir sıra hekayələrdən imtina etdikdən sonra birinji və ikinji jildlərə daxil edilmiş əsərləri yenidən işlədim. Səbəbi həmin illərdə sovet ideologiyasının sıxıntılı çərçivəsindən kənara çıxıb kəskin tənqidlərə məruz qalıb, senzuranın tələbi ilə güzəştə getməyim, məjburiyyət qarşısında, həyatın, jəmiyyətin mürəkkəb, ziddiyyətli jəhətlərini göstərməkdən qaçmağım olub. Nejə deyərlər, getsin gəlməsin o mənəvi, ideoloci məhrumiyyətlər zamanı. Əksəriyyəti tamam yeni əsərlər kimi yazılmış bu povestləri və hekayələri altmış-yetmiş yaşlarında müəllifin, bir növ ikinji həyatının məhsulu sayın. Üçünjü-altınjı jildlərə daxil edilən əsərləri üçünjü həyatını yaşayan tamam yeni müəllifin əsərləri sayın.

***Müəllif***

# POVESTLƏR

# SAZ

*Sevincimin anası, cəfalı Firuzəm,*
*bu yanıqlı əsər hər ikimizin ürəyimizin*
*simləri üstə köklənib.*

“Fərhad ölüb, külüngünün səsi gəlir”. Bu qədimdən qədim sözlərin gizlin mənası nədirsə, dəmirçi İsfəndiyarın zindan üstündə dəmiri döyəcləyən çəkicinin səsindəki məna da eləcədir. İndi iyirmi birinci yüzilliyin insanına “külüng” kəlməsi bəlkə heç tanış olmadığı kimi, “dəmirçi” kəlməsi də ya bir şey demir, ya da arxaik – vaxtı keçmiş bir zəmanədən xəbər verir. “Qılınc”, “qalxan”, “dəmirdən çarıq” və sair, və sair, bu qəbildən hər şey “əyyami qədim”dən xəbər verə-verə üzünü gələcəyə tutmuş insandan uzaqlaşdıqca uzaqlaşır və unudulur. Əmma... Qəribə bir həqiqət var: o həqiqəti öz etiqadı qədər uca tutanlar zaman-zaman təkrar edirlər ki, “geri baxmasan, irəli gedəmməzsən!” Külüngün səsi gəlirsə, Fərhad ölübmü?! Geri baxın, ey əzizlərim və əmin olun ki, Fərhadı görəcəksiniz. Mənim keçən yüzillikdən tanıdığım dəmirçi İsfəndiyarın Fərhdla qohumluğu var, bu əsərin ilk səhifələrindəki dəmirçixana mühiti sizi məndən ayırmasın, geri dönün, baxın, görün bu qohumluq necə qohumluqdur və belə qəribə mülahizəsi olan müəllif sizə nə demək istəyir.

# POVESTLƏR

# 1

Ötən əsrin 41-ci ilindən, yəni SSRİ ilə Almaniya arasında o dəhşətli müharibə başlanandan sonra dünyamızın hər yerində olduğu kimi, İsfəndiyar kişinin evində, dəmirçixanasında və həyatında da hər şey dəyişmişdi.

Müharibədən əvvəl o evdə təkcə kiçik gəlin səhərlər lap tezdən oyanardı; inəyi sağar, qapı-bacanı çalğılayar, ocaq qalayıb çay-çörək hazırlardı.

İndi isə hələ hava qaranlıqlı ikən İsfəndiyar kişi başını yastıqdan qaldırıb bir-iki kərə "öhö, öhö" eləyir və bununla gəlinləri də, körpə nəvələri də dərhal yorğanların altında tərpənişməyə başlayırdılar. Çöllərdən şeh çəkilməmiş gəlinlərin ikisi də manqa başçıları komsomol Bənövşənin kənddən çıxıb cırıldaya-cırıldaya uzaqlaşan arabasının dalınca sahəyə tələsirdilər. İsfəndiyar kişi isə nəvələrini yanına alıb, "köhnə dudman" adlandırdığı dəmirçixananın qapısını açmağa gedirdi.

Qoca vaxtilə oğlanları Rəhmanla Bəhmənə təhvil verdiyi, oğlanları əsgərliyə gedəndən sonra yetmiş yaşında yenə özünün sahib durmağa məcbur olduğu dəmirçixananın bir küncünü dəmir-dümürdən təmizləmişdi, palaz salıb, hətta mütəkkə qoyub əməlli-başlı mənzilə çevirmişdi. Uşaqlar bütün günü bu küncdə taxta qılınc, qalxanlarını taqqıldadır, qırmızı kərpic evlərini dağıdıb yenidən qururdular, süd, qatıq doğramalarını, pendir-çörəklərini isə birgə yeyirdilər. İsfəndiyar kişi isə, beş dəqiqədənbir nəfəsini dərə-dərə körük basır, dəstəyində oğlanlarının barmaqlarının izi qalan çəkici götürüb, uzun illər ərzində döyülməkdən ortası yəhər tək çökəlmiş qədim zindanın üstündə bel, kətmən düzəldir, gavahın[1] yamayır, balta ovxarlayırdı...

Axşamlar gəlinlər manqanın arabasından düşəndə heç yerdə ləngimədən birbaş dəmirçixanaya gəlib uşaqları aparırdılar, qayınata evə qayıdana qədər vurnuxub həyəti çalğılayır, inəyi sağır, samovar qaynadır, süfrə hazırlayırdılar.

Əmma İsfəndiyar kişi evə tələsmirdi. Dəmirçixananın böyründən axan arxın üstünə ayaq körpüsü əvəzinə qoyulmuş dəmir

---

[1] G a v a h ı n – kotanın kəsəri

borunun ovuğundan konserv qutusunda araba yağı ilə əsgi parçasını çıxarıb, qara xrom çəkmələrini yaxşı-yaxşı silib parıldadır, torpaqla və otla sürtə-sürtə əllərinin his-pasını yuyur, həmişə köynəyinin döş cibində gəzdirdiyi seyrək dişli, iri, sümük daraqla saqqalının altını, üstünü darayıb sığallayır, qurum və kömür qoxuyan papağını çırpıb başına qoyur, gödəkçəsi çiynində, təsbehi əlində, zərif, nurani sifətinə nisbətən bir az kobutaraq, tökmərək bədənini şax tutub, ağır, yorğun addımlarla kəndin ortasına, kolxoz idarəsinin qabağına yollanırdı. Burda, divar dibində cərgə ilə sallağı oturub pariros, çubuq çəkən tay-tuşları ilə salamlaşıb, hal-əhval tuturdu, idarəyə girib, uzun, geniş dəhlizdə "yel fənəri"nin dövrəsinə toplaşmış camaatın arasında Komsomol Bənövşənin qəzetdən qiraətlə oxuduğu "vayenni svodka"ya qulaq asırdı. sovet sədri Qurban kişi – Qılınc Qurbanla görüşüb, onun "voyenkomat"dan, yəni hərbi komissarlıqdan gətirdiyi növbəti çağırış vərəqələrində əsgərliyə çağırılanlardan kimlərin adları olduğunu öyrənirdi, kolxoz sədrinin kabinetinə girib sabahkı "naryad"ın – iş tapşırığının verilməsində iştirak edirdi, yalnız bundan sonra, yenə pencəyi çiynində, təsbehi əlində, ağır, yorğun addımlarla evə dönürdü.

Əvvəllər, nə qədər ki, oğlanları getməmişdi, İsfəndiyar kişi kənd arasında, idarədə vaxt keçirməyi xoşlamazdı. Oğlanlarını və gəlinlərini işə yola salandan sonra həyətdə oturub, babanın əl-qoluna sürtünən qılıqlı pişik nəvələri ilə məşğul olardı. Böyük oğlu Rəhmanın bir-birindən seçilməyən, ailədə "qara pıspısalar" adlanan, ikisinin də elə bil üzlərinə kömür qarası çəkilmiş qızları əsgi-üsgüdən düzəltdikləri "bəbələr"ini babanın dizlərinin üstünə düzüb layla çalmağı tələb edərdilər. İsfəndiyar kişi usanmadan, birdən yarım saat layla deyərdi. Kiçk oğlu Bəhmənin topasaçlı, qarnıaçıq ekiz oğlanları babanın dizinin üstündə oturub "Məlik Məmməd", ya da "Padşahın taral[1] qızı" nağılını danışmağı tələb edərdilər. İsfəndiyar kişi usanmadan, bəzən hətta gündə bir neçə dəfə "Məlik Məmməd" və ya "Padşahın taral qızı" nağılını danışardı. Bir saat, para saat bağçada, ağacların arasında qurdalanması və hərdən yoldan keçən tay-tuşu ilə söhbət eləməsi hesaba alınmasa, qoca, demək olar ki, bütün günü həyətdə, nəvələrinin

---

[1] T a r a l – tənbəl, müftəxor

yanında oturardı... İndi isə elə bil evdən, ailədən aralı olmağa bəhanə axtarır, bəzən hətta idarədən qayıdanda dəmirçixanaya burulub, gəlinlərindən biri dalınca gəlməyincə çəkici əlindən qoymurdu...

Sakit, bürkülü bir yaz axşamı yenə dəmirçixanaya buruldu. Qapının dalına söykədiyi ağır dəmir lomu götürüb içəri keçdi, zil qaranlıqda heç nə görünməsə də, xırdaca mıxlardan başlamış səpici maşın və kotan ələngələrinə qədər, nəyin harada olduğunu əzbər bildiyinə görə, heç bir şeyə ilişmədən, asanca yeriyib yuxarı başda, kürənin yanında gödəkcəsini dirəkdən asdı.

Sinəsində küt ağrı hiss edirdi. Bədəni ağırlaşmışdı. Həmişəkindən fərqli olaraq, işləməyə o qədər də həvəsi yoxdu. Əmma gedib həyətdə və ya evin küncündə oturub, bütün günü kətmən vurandan sonra indi də qapı-bacada çalışan gəlinlərinin üzgün, qəmgin üzlərinə, kimisi oturduğu yerdəcə mürgüləyən, kimisi də hərdən zıqqıldaya-zıqqıldaya yemək gözləyən nəvələrinə tamaşa etməyi, öldüsü-qaldısı bəlli olmayan oğlanlarını xatırlayıb, necə deyərlər, qəm dəryasına qərq olmağı da istəmirdi.

Yavaş-yavaş əlini qaldırdı, kəndirdən tutub çəkdi. Körük xoruldadı, fısıldadı, sonra aramla uğuldamağa başladı. Kürədə üzərini qalın kül layı basmış od parçası bir ucdan işıldayıb qızardı. Qoca dirəyin haçasından qara çırağı götürüb, silkələyib nefti yoxladı, piltəni bir az yuxarı çkdi, kürədə, odun üzərində oynaşan xırdaca alov dillərindən yandırıb çırağı yerinə qoydu. Tünd qara hisli, qırmızımtıl alovun hənirindən lap alçacıq tavandan sallanmış qurumlar titrəşdi, söyüd şivindən hörülüb axırıncı dəfə, kim bilir, nə vaxt suvanmış divarların dəlmə-deşiklərində sərçələr cükküldəşib dərhal da səslərini kəsdilər.

İsfəndiyar kişi kürənin ətrafındakı boş dairədə fırlanıb dəmir qalaqlarına göz gəzdirdi. Neçə gündən bəri yerə atılıb qalmış paslı dəhrəni götürüb ora-burasına baxdı. Bu dəhrəni o taylı[1] Tat Seyidin istəklisi, alverçi Xeyrə deyilən çaxır satan arvad gətirmişdi. İsfəndiyar kişinin o arvaddan xoşu gəlmirdi. Dəhrəni atıb bir daha ətrafına göz gəzdirdi. Dibinə qırmızı kərpic tozu kimi qalın pas və dəmir qarası çökmüş ləyəndə su azalmışdı. Qoca vedrəni götürüb eşiyə çıxdı. Arxın nisbətən enli bir yerinə taxta çəllək və köhnə təkər topları atıldığına görə su boğulub göllənmişdi. Qoca vedrəni

---

[1] Cənubi Azəraycan

oraya basıb doldurdu. Dikələndə sinəsindəki küt ağrı xeyli artdı. Ömründə heç adi başağrısı da görmədiyindən, ağır yük qaldırmaqda, yeri düşsə, döşünə döyən hər hansı bir gənclə qurşaq tutmaqda və sair bu kimi şeylərdə heç kəsdən geri qalmayan bədəninin sağlamlığına möhkəm etiqadı olduğuna görə, sinəsindəki ağrıya qətiyyən əhəmiyyət vermədi, qayıdıb ləyəni su ilə doldurdu. Alverçi Xeyrənin paslı dəhrəsinə ötəri baxıb, gündüzlər nəvələrinin oynadıqları küncə fırlandı, orda divardan asılı qoltuq ağacını götürüb qayıtdı. Kürəyə – ocağa əl boyda bir dəmir parçası atıb, körüyü basmağa başladı.

Ocaqda çatıltı-patıltı qopdu, qoltuqağacının, zindanın, məngənənin, su ləyəninin üzərinə saysız-hesabsız qığılcımlar səpələndi. Dəmir parçası əvvəlcə qızardı, sonra tədricən ağardı, üstünün alovu da ağımtıl rəngə çalanda qoca körüyün ipini buraxıb necə tərpəndisə, çəkiclə kəlbətin elə bil özləri atılıb dəmirçinin əllərində hazır oldu. Qızmar dəmir parçası da elə bil öz-özünə kürədən uçub dəmirçixananın yarımqaranlığında qövs cızıb zindanın üstündə qığılcımlandı, tez-tez o yan-bu yana fırlanan kəlbətinin ucunda, fasiləsiz çəkic zərbələri altında görkəmini dəyişib uzandı, yastılandı, bir ucdan qıvrılıb tünd qırmızı bilərzik şəklinə düşdü.

Qoca dəmir parçasını ləyinin içinə atdı. Poqquldayıb buğlanan suya baxa-baxa köynəyinin qolu ilə alnının tərini sildi.

Bədəni nəmçiyib yumşalmışdı. Bayaqkı ağırlıqdan, həvəssizlikdən əsər-əlamət qalmamışdı. Cavanlıqda olduğu kimi, işləyəndən sonra qollarında, sinəsində əzələlərinin tərpənib oynaşdığını duyurdu.

Bir az da gözləyib kəlbətini götürdü, dəmir halqanı sudan çıxarıb əlinə aldı. Dəmir hələ isti idi. Başqa birisi bunu bəlkə də əlinə götürə bilməzdi. İsfəndiyar kişinin ovucları isə oddan da yanmırdı. Dəmir həlqəni çırağın işığına tutub ora-burasına baxdı, kürənin ətrafındakı müxtəlif biçimli yiyələrdən ən balacasını götürüb halqanın üstünü qaşıdı, içərisini yiyələdi, indi gümüşü rəngli bilərziyə oxşayan halqanı qoltuq ağacının ucuna keçirdi, xırdaca çəkiclə çıqçıq vurub oturtdu.

Bu qoltuqağacını İsfəndiyar kişi kəndin feldşerinin xahişi ilə Komsomol Bənövşənin qardaşı çoban Abdullanın oğlu Mağar üçün düzəltmişdi. Oğlunun Rusiyanın harasında isə hərbi xəstəxanada yatdığını biləndən sonra çoban Abdulla birdən on beş qoyununu

bazara sürüb satıb, “voyenkom” – hərbi komissar Talıbovun köməyi ilə oğlunu hərbi xəstəxanadan çıxarıb gətirmişdi. Atasının dediyi kimi, lap uşaqlıqdan əmlik əti, qaymaq, dələmə ilə bəslənməsinə baxmayaraq, Mağar cılız oğlandı; “qranat” – qumbara partlayışından sümükləri zədələnmiş, qıçları çoxdan sağalsa da, feldşerin dediyinə görə, keçmiş ağrıların şiddətindən gözü qorxduğundan qalxıb ayağını yerə basmağa cəsarət eləmirdi.

İsfəndiyar kişi qəmli-qəmli gülümsündü; feldşeri çağırıb, bir yerdə gedib, dağ ətəyində kolxozun erkək sürüsünü otaran çoban Abdullanın “sırxana”sında – qazma damında orta ocağın qırağında can ağrılarından ufacıq olmuş əsgəri nəhayət ayağa qaldırıb Abdullanı, Bənövşəni sevindirəcəyini fikirləşəndə özü də sevindi.

Əmma bu axşam qoltuq ağacını aparası olmadı; gödəkçəsini çiyninə salıb, kürədə odun üstünü küllə örtüb divara söykəndi, qoltuq ağacı əlindən düşdü. Bircə dəqiqə bundan əvvəl sinəsində oynayan əzələləri indi ağrıdan dartılıb qəfildən qurumuşdu. Bədəni soyumuşdu. İsfəndiyar kişi beləcə nə qədər dayandığını bilmədi. Ağrı azalanda gəlinlərinin gəlib onu belə büzüşük görəcəyindən ehtiyatlanıb qamətini düzəltdi. Lomu qapının dalına söykədi, arxın üstünə ayaq körpüsü əvəzinə qoyulmuş dəmir borunu adlayıb, “infarkt” sözünü eşidib mənasını yaxşı bilsə də, halının xarablığına o qədər də əhəmiyyət vermədən yavaş-yavaş evə doğru addımladı.

Demək, yenə evə gedirdi. Rəhmansız, Bəhmənsiz evə. Gəlinlərinin, nəvələrinin üzünə baxa-baxa qəm dəryasına qərq olmağa gedirdi... Burda qocanın fikri ilə birlikdə bir qədər keçmişə qayıtmaq lazımdır.

## 2

Qırx birinci ilin yazında, “Beynəlxalq həmrəylik günü” adlanan məşhur 1 May bayramı münasibətilə pəhləvan gəlmişdi. İdarənin qabağındakı meydançaya çoxlu xalı-xalça döşənmişdi. Pəhləvan qurşaqdan yuxarı soyunub burda daş qaldırırdı, əzələlərini oynadırdı, arxasıüstə uzanıb qarnının üstündə pianino çaldırırdı.

Meydançanın bir küncündə bilək yoğunluğunda uzun bir dəmir qoyulmuşdu. Camaat pıçıldaşırdı ki, pəhləvan bu dəmiri əyib,

kəmər eləyib belinə dolayacaq. Daş qaldırması, əzələlərini oynatması, yıxılıb qarnının üstündə pianino çaldırması nə qədər maraqlı olsa da, pəhləvanın həmin yoğun dəmiri kəmər kimi belinə dolayacağını hamı xüsusi maraqla gözləyirdi. "Əşi, baş tutan iş deyil!", "O yoğunluqda dəmiri də əymək olar?" – deyib şübhə edənlər də vardı.

Birdən camaatın arasından meydançaya bir cüt oğlan çıxdı. İkisi də bəstəboy. İkisi də enlikürək. Belləri, necə deyərlər, üzükdən keçərdi. Meydançanın dövrəsində xısın-xısın pıçıltı gəzdi ki, İsfəndiyar kişinin oğlanları pəhləvanla güləşmək istəyirlər. Pıçıltı sürətlə gəzib birdən də xırp kəsildi. Yeriyəndə ayı kimi yanını basan, yekəqarın, nataraz pəhləvanın yanında bu cavanlar çox zərif və yüngül görünürdülər. Tamamilə aydındı ki, dəmirçi qardaşlar, ikisi də birdən həmlə gəlsə belə, qara dağtək dayanmış pəhləvanı bəlkə heç yerindən tərpətmək də mümkün olmaz.

Baxışlarda narahatlıq, intizar oxundu. İsfəndiyar kişinin barmaqlarının arasında təsbehin çıqqıltısı kəsildi. Qoca irəli durub oğlanlarına təpinmək istədi. Əmma demə, dəmirçi qardaşların niyyəti ayrı imiş. Pəhləvana güləş təklif etmək əvəzinə, meydançanın küncündəki həmin yoğun dəmirə yaxınlaşdılar. Hərəsi dəmirin bir ucundan qaldırıb belinə dayadı və... dəmir elə bil muma çevrildi.

Camaat sevinclə, fəxrlə qışqırışdı. Təkcə İsfəndiyar kişidən səs çıxmadı. Qocanın dodaqları və saqqalının ucu titrəyirdi.

– Ayıb olsun! Ayıb olsun mənim oğullarıma da, sizə də, ay camaat!

Yenə hamı susdu. Qoca dəmirçinin belə danışması əvvəlcə təəccüb doğursa da, sonra məlum oldu: pəhləvan basılmışdı. Özü də necə pəhləvan?! Bütün ölkədə ad-san qazanmış, bütün xalqın hörmət etdiyi, sevdiyi Rəşid pəhləvan!

Sifətlərdə, baxışlarda peşmançılıq göründü. Ekiztayı kimi bir-birinin eyni olan topasaçlı qardaşların ikisi də başını aşağı saldı.

İsfəndiyar kişi təsbehini cibinə qoyub, əlini saqqalına çəkdi, "beyni qan cavanların" el-gün adətindən kənar iş tutduqlarına görə üzrxahlıq eləmək üçün münasib sözlər axtardı. Amma heç nə deyəsi olmadı. Çünki bu vaxt pəhləvan, dəmirçi qardaşların ikisini də qucaqlayıb alınlarından öpürdü, nəriltili səslə, fəxrlə: "İkinizi də Bakıya aparacam, pəhlivan eliyəcəm" – deyirdi. Bu sözlərə qardaşların münasibəti necə idi? Məlum olmadı. Çünki pəhləvanın nəriltili səsi ilə eyni vaxtda camaatın arasında başqa səslər də

eşidilirdi: Rəhmanın baldırı sınacaq! Görücü Abı deyib, o əydikləri dəmir Rəhmanın baldırını sındıracaq!”, “Dəmiri götürün ordan, verməyin daha!”, “Aşağı kəndin görücüsünün sözü yerdə qalmır, nə deyir, o da olur!”

Aşağı kənddə, yəni bir-birindən böyük arxla – kanalla ayrılan Qurbanlı, Taharlı kəndlərindən xeyli aralı meşə ətəyində, bağ-bağçalar içində, evlərinin çiy kərpic divarları bozaran Qonaqlıda “görücü” kimi tanınan, yaşı keçmiş aşıq Abı kiminsə haqqında nə isə deyirdisə, doğrudan da, sözü yerdə qalmırdı. Buna görə Abıya Xızr Abı da deyirdilər.

İsfəndiyar kişi bəd xəbər danışan adamlara sarı dönməyə də macal tapmadı. Pəhləvandan aralanıb camaata doğru yeriyndə Rəhmanın sol qıçı dəmirin həlqəsinin arasına düşüb, dizindən bir az aşağıdan necə sındısa, sümüyün şaqqıltısını eşitməyən adam qalmadı. Hay-küy içində, nədənsə təqsirkar saydıqları “kaftar falçı”ya – Xızr Abıya qarğayan qız-gəlinlərin arasından bir-birinin eyni olan iki zərif, sarışın, alagöz gəlin çıxıb, əllərini başlarına döyə-döyə, yerdə döşəli Rəhmanın üstünə yüyürdülər. Əmma meydançanın kənarından, yastı, uzun anbar binasının “ambulatoriya qapısı” deyilən yerindən, kandardan atılıb yüyürən arıq, gödəcik oğlanı görər-görməz, gəlinlər xırp dayanıb, hətta geri çəkildilər.

İsfəndiyar kişinin gəlinlərinin belə qeyri-adi hərəkətinə səbəb olan o arıq, gödəcik oğlan – feldşer Axsaq Hacı sol ayağının üstə çökə-çökə yönəlib, cibindən ağdəstək, iri bıçaq çıxarıb, Rəhmanın təp-təzə, bahalı xrom çəkməsinin boğazını, sonra buğlanan qan içində şalvarın balağını kəsdi, dərinin altından qabarmış sümüyə baxıb: “Qaldırın! Ambulatoriyaya gətirin!” – deyib geri yüyürdü.

Ləqəbindən göründüyü kimi, feldşer axsayırdı: sol qıçı anadangəlmə gödək idi. Yetim, kimsəsiz, fağır bir oğlandı. Anbar binasının küncündə, “ambulatoriya qapısı” deyilən enli, rəngsiz, köhnə qapının arxasındakı ambulatoriyada çit arakəsmənin dalına çarpayı qoyub orda olurdu. Səhərlər Hacı boz iplə, ağ, qara sapla, bir-iki yerindən hətta məftillə yamanmış, “üzü üzlər göomüş” brezent çantasını çiyninə alıb ambulatoriyadan çıxırdı, “qızdırma-lılar”ın, yəni malyariyalı xəstələrin evlərində olandan sonra yenə çantasını çiyninə alıb, sol ayağının üstünə çəkə-çəkə, toz-torpaqlı yollarla, daşlı-kəsəkli, qanqallı, tikanlı cığırlarla briqadaların,

manqaların dağınıq sahələri, tarla düşərgələri arasında taytıyırdı. “Camaatı qırıb-çatan qızdırma” kanal ətrafındakı, meşə ətəyindəki üçpara kəndin üçünü də götürdüyünə görə, məcburən “elə qızdırmalı-qızdırmalı işə çıxanlara” dərman – “xinin” paylayırdı, “iynə” vururdu, iş üstündə əli, ayağı yaralananların yaralarına yod sürtürdü, həmişə cibində gəzdirdiyi əzik-üzük “uçot dəftərini” çıxarıb “pulsuz paylanan” dərmənlərin pulunun “bölünməz fonddan ödənilməsi” üçün briqadirlərin imzalarını alırdı. Bundan sonra, hələ gün batmamış, Hacı dəmir yolu xətti boyunca uzanan kanalın qıraqlarında, qamışlıqlarda itib batırdı. Gedib baxan olsaydı, feldşerin əlehyqaz geyinib bataqlığa əhəng səpələdiyini görərdi. “Ağcaqanad yuvası” olan gölməçələrə “qara nöyüt” – mazut tökürdülər. “Ağcaqanadla mübarizə” üçün əhəngdən istifadə etmək Hacının öz “kəşfi” idi.

İlin əvvəlində dəmiryol vağzalının binasının arxasındakı düzənlikdə, xırda-xırda ağ kisələrdə çoxlu əhəng gördü. Yağışın altında qaldığından, əhəng qaynayıb, kisələri yandırıb parça-parça eləmişdi.

Qartək dümağ toz səpələnmiş düzənlikdə otlar da yanıb qaralmışdı. Kəndçi oğlu olsa da birinci dəfə idi ki, Hacı əhəngdə belə hikmət görürdü. Dayanıb fikirləşdi ki, deməli, bu əhəng bataqlığa səpilsə, ordakı qamışlıqları və qamışla birlikdə ağcaqanad süfrələrini də məhv edə bilər.

Soraqlaşdı, kisələrin sahibini nişan verən olmadı. Stansiyanın sağ-solunda, dəmiryol xətti boyunca qalaq-qalaq tökülüb qalmış gübrə və jmıx[1] kisələri kimi, bu əhəngə də sahib duran taplımadı.

Stansiya rəisi ilə danışıb, əl boyda bir kağızda karandaşla qəbz yazdı: “Mən, Qurbanlı kənd sakini Hacı Daşdəmir oğlu, 1941-ci il fevralın on üçündə yüz altmış ədəd əhənglə dolu kisəni təhvil alıb ağcaqanadla mübarizə üçün istifadə etməyə apardım”.

Qol çəkib qəbzi rəisə verdi. Kəndə qayıdıb traktorla lafet gətirdi, kisələri aparıb gölməçələrin arasında talaya boşaltdı, camaatdan köhnə, lazımsız palaz yığıb əhəngin üstünü örtdü ki, yağışın altında qalıb yandırıcı təsirini itirməsin. O vaxtdan Hacı hər axşam işdən sonra bataqlığa əhəng səpələyirdi. Əmma camaatdan hələlik feldşerin bu işi ilə maraqlanan yoxdu. Kimin nəyinə gərəkdi ki, ilanlı, qurbağalı, iyli-qoxulu gölməçələrə girib, üzərində boz buludtək ağcaqanad qaynaşan qamışlıqlara başını soxub, axsaq feldşerin

[1] Jmıx – günəbaxan qabığından düzəldilmiş qaramal yemi

orda saatlarla nə üçün itib-batması ilə maraqlansın? Bununla hərdən kəndin, necə deyərlər, rəhbər işçiləri, camaatdan isə təkcə İsfəndiyar kişi maraqlanırdı.

Axsaq feldşerlə İsfəndiyar kişini elə bil tale özü birləşdirmişdi. İlk baxışda bəlkə də qəribə və gülməli, əslində isə kədərli bir hadisə qocanın ürəyində bu oğlana rəhm oyatmışdı.

Sovet sədri Qurban kişinin "yesli zavtra vayna[1]" oxunduğu vaxtlar" adlandırdığı vaxtlar, yəni otuz doqquz-qırxıncı illərdə Hacı "ev tikdirmək, ailə qurmaq" həvəsində idi. Günlərin birində dəmirçixanaya gedib, boynunu burub acizanə xahiş eləmişdi ki, İsfəndiyar kişi, kəndin mötəbər ağsaqqallarından biri kimi, zəhmətə qatlaşıb elçilik etsin, Hacını evləndirsin. Sonra məlum olmuşdu ki, Hacının, necə deyərlər, dünyadan xəbəri yoxdur: onun istədiyi qız, – "Məhər" və ya "çekist Məhərrəm" deyilən məşhur bir adamın Orta kənd Tahirlidə olan böyük bacısı Pəri çoxdan alışıb-verişib. Özü də bir başqası ilə yox, Hacının elçilik üçün müraciət etdiyi adamın – İsfəndiyar kişinin böyük oğlu Rəhmanla!

Bir il sonra, Rəhmanla Pərinin toyunda Hacı keflənib İsfəndiyar kişinin boynunu qucaqladı: "Böyük bacını öz oğluna aldın, kiçik bacını da mənə al, imanına qurban olum, İsfəndiyar əmi!" Əmma məlum oldu ki, bədbəxt feldşerin bu dəfə də oxu daşa dəyib – kiçik bacı Tubu da çoxdan alışıb-verişib! Özü də bir başqası ilə yox, İsfəndiyar kişinin kiçik oğlu Bəhmənlə!

Bu əhvalatdan sonra Rəhmanla, Bəhmənlə, İsfəndiyar kişi ilə rastlaşanda Hacı başını aşağı əyib xəcalətindən tər tökürdü, o ailə ilə mümkün qədər görüşməməyə çalışırdı.

Əmma, necə deyərlər, talein gərdişi qoca aşıq Xızr Abının əvvəlcədən xəbər verdiyi hadisə gözlənilmədən Hacını Rəhmanın yatağının yanında "dejurnu"ya döndərdi. Niyə "dejurnu"ya? Çünki Rəhmanın "sınığı yaman sınıqdı" – sümüyü eşiyə çıxmışdı, gecə-gündüz göynəyirdi, yatmağa qoymurdu, buna görə də Hacı gecələr səhərə qədər Rəhmanın yanında mürgüləyə-mürgüləyə tez-tez "ağrıkəsici" iynə vururdu. Bu "dejurnu"luq mayın birindən onuna qədər Hacını o ailənin əməlli-başlı üzvü kimi elədi. Əmma yazıq xəcalətindən nə çəkdiyini təkcə özü bilirdi. Arıqlayıb "çöpə

---

[1] "Əgər sabah hərb olarsa, hazır ol..." – rusca bu mahnı otuzuncu illərdə Azərbaycanda da çox məhşur idi.

dönmüşdü". Bu vəziyyətdə, əlbəttə, o evdə çox qalmaq mümkün deyildi. Odur ki, bir gecə yenə "ağrıkəsici iynə" vurmağa hazırlaşanda Hacı birdən-birə şprisi yerə çırpıb, canını dişinə tutub", "Qışqırma", – deyib o "eşiyə çıxan sümüyün" üstünə tənzif qoyub necə basdısa, sümük bir göz qıpımında "yerinə düşdü". Bundan onca gün sonra isə Rəhman tez-tez alnına tökülüb gözlərinin üstünü tutan topa saçının altından feldşerə baxıb: "Ay Hacı, yerimək istəyirəm axı!" – deyib güldü. Və çox qəribə oldu ki, iyunun iyirmi ikisində, "Sovetnən Germaniyanın arasında müharibə" xəbəri çıxan gecə ayağa qalxıb, "heç nə olmamış" kimi yeriməyə başladı. Bundan bir neçə gün sonra isə qardaşlar ikisi də "mobilizasiyaya düşüb", Qurban kişi – Qılınc Qurbanın verdiyi "povestka" əllərində, "pradukt" çantaları bellərində "vayenkomata", ordan da "eşalona dolanlarla" getdilər. Və o gedən getdilər. Səsləri-soraqları da çıxmadı. Hacı isə, o evdən o çıxan çıxıb daha bir dəfə də qayıtmadı ki, Pəri, Tubu ilə, İsfəndiyar kişi ilə üz-üzə gəlib xəcalət tərinə batmasın.

## 3

Rəhmanla Bəhməndən iki şey qalmışdı: biri anbarla idarənin arasındakı meydançada bellərinə "kəmər kimi doladıqları" dəmir, biri də İsfəndiyar kişini nədənsə Rəhmandan fərqləndirib "sonbeşik – yurduma keşik" deyə-deyə əzizlədiyi Bəhmənin xəlvətdə "OdEvƏr"[1], zahirdə "Təvər" saz adlanan, qucağa sığışmayan, şirmayılı sazı idi ki, əslində İsfəndiyar kişinin özünündü; hələ əsrin əvvəlində qocalığına görə "Çürük" deyilən Çürük aşıqla o vaxtkı balabançı, sonrakı aşıq Xızr Abı, hər ikisinin istəkli şagirdi İsfəndiyar üçün bağlatmışdılar. Əmma bədbəxtlikdən Çürüklə Abının bu gün də adını sirr kimi saxladıqları çox məşhur, varlı-hallı bir adam İsfəndiyara zəhər verib səsini batırmışdı, sonra da ölümlə hədələyib, qeyri-adi gur səsi "AlOsmana qalxan"[2] sazı əlindən almağa

---

[1] OdEvƏr – Yalnız Aşıq Alı, ƏlƏsKər kimi ustad aşıqların bildikləri qədim OdƏr – "Tərik" – "Türk" dilində OdEvƏr işıq evinin (*kainatın*) həqiqəti deməkdir.

[2] AlOsman – Türkiyədə dağ adıdır. Məşhur hökmdar Osman bəyin OdƏrcə həqiqi adı ƏsMən idi; mənası: əsən (*yaradan*) əlim – oğlum. "Səsi AlOsmana çatır" ifadəsinin mənası: səsi ƏlƏsMənə, yəni Qrek, Fars, Ərəb imperiyalarından gizlədilən ƏsƏlMənə – "Süleyman" peyğəmbərə çatan

çalışmışdı. Elə o cavan vaxtlarından "ipək kimi yumşaq" İsfəndiyar yalvarıb-yaxarıb, sazı "xilas eləyib", qalın bezə büküb "mal damının harması"nda gizlətmişdi ki, vaxtı çatanda Bəhmənə versin.

Bəhmən aşıq-zad deyildi, ustad yanında olmamışdı. Əmma hələ lap körpəlikdən yaxşı –yumşaq, titrək səsi olduğunu başa düşəndən sonra Aşağı kəndə, Çürük Aşıqla Xızr Abının məclislərinə gedərdi, valehlikdən ağzı açılı, quruyub qulaq asardı, evə qayıdanda isə atasının qabağında boynunu büküb, "saz istəyirəm", – deyərdi.

Oğlunun on beş yaşı olanda, İsfəndiyar kişi, nəhayət, sazı vermişdi, Bəhmən isə toylarda, mağarlarda yenə də Çürüklə Xızr Abının əllərinə baxa-baxa, yavaş-yavaş çalmaq öyrənib, əməllibaşlı bişginləşmişdi.

Damına qom-qom qamış döşənmiş çiy kərpic evin qabağında, su quyusunun üstündə kimin əkdiyi və nə vaxt əkdiyi bəlli olmayan, yoğun, hamar gövdəsində ərəb əlifbası ilə qat-qarışıq sözlər qazılmış qədim və nəhəng qovaq ağacı vardı. Bəhmən bu qovağın başında, yastı haçada oturub sazını burda çalmağı, təzə öyrəndiyi havaları bütün kəndə eşitdirməyi sevərdi. Çekist Məhərrəmin kiçik bacısı Tubuya vurulandan sonra yerini dəyişib bir az da yuxarı çıxardı ki, "Təvər saz"ın səsi uzaqlara, bəlkə Tubugilə də getsin.

Tubuya nişanlanandan sonra qovağın başına qalxmağı tərgitdi. Çalmağında, oxumağında da dəyişiklik əmələ gəldi. Daha həmişəki kimi simləri vurhay döyəcləyib gündə bir neçə mizrab sındırmırdı. Yerdə oturub, kürəyini qovağın gövdəsinə söykəyib, çox zaman gözlərini yumub, simləri az qala birər-birər dənləyirdi, asta-asta, narın-narın, həzin-həzin çalırdı. Həmin bu vaxtlarda "AdıPünhanların" elmindən başı çıxanlar Bəhmənə bir sirr açdılar: ...başı çıxanlar, o cümlədən Çürüyün qardaşlığı Xızr Abı, Bəhmənin "xoruz təki dikə qalxıb banlamağını", "danqırhadanqır çalmağını" xoşlamayan qocalar – Çürüklə Xızr Abı cavan aşığın barmaqlarına, "səsinə-ürəyinə" necə vuruldularsa, ona hətta AdıPünhanların gizlin Elm uğrunda nələr çəkdiklərini, bu Elm üstündə "Rusun nə qədər adam qırdığını" danışdılar, sonra isə Elmdən dərs dedilər və bununla İsfəndiyar kişinin özünün də yaddaşını təzələdilər.

Oğlanları gedəndən sonra, axşamlar evdə darıxanda qoca hərdən sazı köynəkdən çıxarırdı. Eyni ilə Bəhmən kimi, kürəyini qovağın gövdəsinə söykəyib, eyni ilə Bəhmən kimi narın-narın

“dınqıldadırdı”, vaxtı ilə Çürüyün danışdığı və ən yaxın adamlarına “şərh” elədiyi məxfi “Elm dastanı”ndan bir beyti öz ürəyinə yatan şəkildə, “qol-qanadını sındıra-sındıra”, xırıltı ilə oxuyurdu:

Gəl, ey Şeşpayi-bəhrim,
Qalmadı tabanım, təhrim.
Düşmən gəlib məni kəməndə salar,
Şah babamın gözü yolda qalar.

Nə deməkdi bu “Şeşpayi-bəhr?” Bu, sirr idi. Əmma qoca hər dəfə yalnız bu beyti oxuyurdu və hər dəfə gözləri dolurdu. “Gəl, ey Şeşpayi-bəhrim! Şah babanın gözünü yolda qoyma, gəl!” – deyirdi.

Bir axşam, həmişəki qayda üzrə, araba yağı ilə çəkmələrini silib, gödəkcəsi çiynində, təsbehi əlində, idarədə vaxt keçirib evə qayıdandan sonra yenə sazı götürdü. Ancaq çalmadı. Bir tərəfini iri, uzun taxt, o biri tərəfini yorğan-döşək yığını və taxıl çuvalı tutmuş otağın yuxarı divarında, uşaqların əli çatmayan yerdən mıx vurub sazı ordan asdı.

– Tilsimləndi bu saz. Bəhmən gələnə qədər köynəkdən çıxmıyacaq,– dedi.

Sazın necə, niyə “tilsimləndi”yini isə deməyib evdən çıxdı.

Qovaqdan xeyli solda, eynilə “köhnə dudman” kimi, dirəklərin aralarına dolana-dolana uzanan ağac budaqlarından hörülmüş alçacıq “mal damı”nın qabağında qara inəklə keçənilki, builki balalarının gözləri üç cüt fanar kimi parıldayırdı. Ağcaqanadın əlində əsir heyvanlar tez-tez ayaqlarını yerə döyə-döyə, fısqırışa-fısqırışa gözlərini qocaya dikib imdad istəyirdilər. İsfəndiyar kişi damın dalına fırlanıb ordan bir qucaq quru-taqqanaq təzək gətirdi, kom-kom çayırları qaralan geniş, hamar həyətin üzərini bütün qapamış sıx yarpaqlı budaqların altında, bir neçə yerdə təzək yandırdı, kürəyini qovağın gövdəsinə söykəyib oturdu.

Təzəklərin acı tüstüsü budaqların altına yayıldıqca qocanın başının dövrəsində ağcaqanadların vızıltısı azalırdı. Heyvanların fısıltıları, ayaq tappıltıları kəsilirdi. Pəncərə arxasında piltəsi aşağı çəkilmiş yeddilik lampanın solğun işığında cərgə ilə dirəkləri bozaran balkonda qaranquşlar hərdən yuxulu-yuxulu civildəşirdilər. Qovağın başında, nədənsə, yuvasına hər il tək gəlib, tək də gedən hacıleylək dimdiyini şaqqıldadırdı. İsfəndiyar kişi uzun illərdən bəri

alışdığı bu səslər içində, qəmli-qüssəli, yenə də oğullarını düşünürdü. Cavanların ikisini də birdən sinəsinə sıxan pəhləvanı, iri, ağdəstə bıçaqla Rəhmanın çəkməsinin boğazını kəsən feldşerin həyəcanlı, qayğılı qışqırtısını xatırlayırdı.

Oğullarını müxtəlif yaşlarında, min-milyon vəziyyətlərdə – evdə, süfrə başında, səhər-səhər su quyusunun üstündə qurşaqdan yuxarı soyunub bir-birinin boynuna, kürəyinə vedrədən sü töküb şappır-şuppur yuyunan yerdə, "köhnə dudman"da körük basan, çəkic vuran yerdə və sair vəziyyətlərdə xatırlaya bilərdi.

Bəs niyə pəhləvandan başqa yalnız Hacı ilə bağlı görürdü? Niyə yenə ürəyi ağrıyırdı?

Bu gün heç bir dəfə də çəkic vurmadı. Körüyü basa-basa taqətsiz əyilib kətilə çökdü. Elə bil hardasa, nə isə müsibət baş vermişdi. Ya da elə bil nə isə olmalı idi, necə deyərlər, sümüyü duymuşdu. Bəlkə idarəyə qayıtsın, ancaq gecə yarıya qədər tay-tuşları ilə otursun, o yandan-bu yandan söz-söhbət eşitsin, fikri, xofu dağılsın?

Pəncərələrin arxasında lampanın işığı artdı. "Yük yeri" ilə, yəni yorğan-döşək yığılan künclə taxtın arasında kölgələr dolandı. İndi ya Pəri, ya da Tubu "çökək cəm"də qayınatasının "axşam qisməti"ni – "gözünə azca süd qatılmış qatığı" gətirib, "gecən xeyrə qalsın" deyib, "lap axşamdan yatmalı" idilər ki, səhərin alatoranında "öhö, öhö" eşidəndə, oyana bilsinlər, İsfəndiyar kişi isə, hələ bir xeyli də oturmalı idi.

Kənddə arvadların arasında xısın-xısın söhbət gəzirdi: "Yazıq dəmirçi bir-birindən cavan gəlinlər içində qalıb". "Gün işığında gəlinlərin üzünə baxmır, deyir yanaqlarının solğunluğunu görmək istəmirəm". "Qaranlıq qarışanacan idarədə oturub, evə gedəndə də elə həyətdə oturur, içəri baş salammır". "Belə getsə üzüləcək kişi". İdarənin qabağında, dəhlizində arvadlar arxasınca baxıb xısın-xısın danışanda, İsfəndiyar kişi onların məhz belə sözlər dediklərinə şübhə eləmirdi. Deyilənlərin hamısı doğru idi. Əmma neyləmək olardı? Bəlkə bu həyat tərzini dəyişmək lazımdı? Necə, nə yolla? Oğlanları gedəndən sonra dəmirçixanaya qayıtmaq istədiyini deyəndə, idarə heyətində heç kəs razı olmadı. Kolxoz sədri, Çeteze ləqəbli Çeteze İskəndər dedi: "Yetmiş yaşında, əlinə çəkicmi götürəcəksən, a kişi?!" Sovet sədri Qılınc Qurban təpindi: " Bizi biabır eləmə, sən Allah, İsfəndiyar kişi!" Kəndə başqa yerdən dəmirçi

gətirmək istədilər. Əmma İsfəndiyar kişinin fikri qəti idi. "Həm cəmaata azdan-çoxdan xeyrim dəyər, həm də özümün başım qarışar", – dedi və elə ordan birbaş "köhnə dudman"ın qapısını açmağa getsin? Bundan başqa neyləmək olardı? "Başım qarışsın" deyib, bütün gecəni də səhərə qədər dəmir döysün?!

Qoca tamam səbirsizləşib, yerində qımıldanıb, kəndin işıqlarına baxdı. Burda, bu sallaq budaqların altında, acı təzək tüstüsü altında saatlarla oturmaq da adamı lap təngə gətirir. Bəlkə durub sovet sədrinin yanına getsin, yerli hökumətin əli ilə oğlanlarının "polevoy poçt"una məktub yazdırsın, xəbər tələb etsin? Yaxud, bəlkə elə bu dəqiqə durub dəmiryol vağzalına getsin, rayona yola düşsün, voyenkom Talıbovun öz əli ilə məktub yazdırsın?..

Qoca bu fikirlərə necə qapıldısa, qaranlıqda bir yanının üstünə çökə-çökə, tərəddüdlə, dayana-dayana gəlib salam verib, beş addım aralıda, su quyusunun dikdirinin kənarında oturan adama diqqət yetirmədi. Yalnız feldşer ayağa qalxıb, həmişkitək yorğun və xəcalətli səslə: Gecən xeyrə qalsın, – deyəndə qoca onu gördü.

– Hacı?.. Ay oğul, sənsənmi? Çoxdanmı buradasan? Dayan görüm!..

Feldşer dayanmadı.

– Yaman darıxdım, gəldim ki, bir az saza qulaq asım, İsfəndiyar əmi... Gecən xeyrə qalsın.

Qoca təəccüblənmişdi. Nə əcəb belə, çağırılmamış gəlib Hacı? Yarası köhnəlmişdi, daha utanmırdı yazıq.

– Əylən! Belə getmə... Heç bilmirəm nədəndi, halım xarabdı, oğul. Əvvəl saz dadıma çatardı. İndi o da belə oldu. Necə deyim, heç bilmirəm necə başa salım. Tilsimləndi Bəhmənimin sazı, oğul. Çalammıram daha. Əlim gəlmir.

Hacının nazikcə qaraltısı dik dartılıb hərəkətsiz qaldı.

– Necə yəni tilsimləndi, ay İsfəndiyar əmi?!

Qoca fikrə getdi. Necə danışsın, necə izah etsin?

Kətildə oturub körük basdığı yerdəcə yatıb röya görmüşdü. Daha doğrusu, heç nə görməyib ancaq Bəhmənin səsini eşitmişdi: "Günlərin birində idarədən evə dönəndə qulağına Təvər sazda "Divanı" gəlsə, bil ki, qayıtmışam, baba".

Qoca diksinib oyanmış və indi Hacının qaraltısına baxa-baxa necə hərəkətsizdisə, beləcə donub qalmışdı: "Bu nəydi eşitdim, ya rəbbi?!"

İkinci dəfə mürgüləyib yenə Bəhmənin səsini eşitmişdi: "Saz kökdən düşsə, bil ki, mənim başımda qaranlıq var, baba". Qoca yenə diksinib oyanıb, bu dəfə heyrət əvəzinə xof içində evə yüyürmüşdü. Sazı köynəkdən çıxarıb, barmaqları titrəyə-titrəyə simlərə toxunmuşdu. Bir il bundan qabaq Bəhmənin əlləri ilə çəkilib "Divani" üstündə köklənmiş simlərin bu bir ildə kökdən düşməməsi mümkün olan şeydi, əmma bu da qocaya hikmətli bir əlamət kimi görünmüşdü. Və sazı divardan asıb, əl vurmağı qadağan eləmişdi.

Röyasını olduğu kimi danışdı, köksünü ötürdü.

– Əl vursam, qorxuram kökdən düşər. Onçun deyirəm, tilsim deyilmi?!

Hacı ağır-ağır başını tərpətdi.

– Tilsimdi. Nəsə belə şeydi. Əmbə burası da var ki, səni saxlıyan o sazdı. Açığı, elə mən özüm də sabah-sabah fikirləşirəm ki, axşam İsfəndiyar əmi çalacaq, oxuyacaq. Əmbə gələmmirəm, qıraqdan qulaq asıram. Bu axşam heç bilmirəm nə oldu, mən də elə sən təki doldum, köyrəldim, yaxın gəldim... Gecən xeyrə qalsın.

Sol ayağının üstə çökə-çökə aralandı, qaranlıqda gözdən itdi.

İsfəndiyar kişi qəhərlənmişdi.

– Yaxşı olmadı... Heç yaxşı olmadı. Bəlkə Çürükdən, bir ayrı, köhnəsi olar, saz istəyim? Yox, Abı nəsə deyər, bağrım çatlayar. – Heç hiss eləmirdi ki, öz-özünə danışırdı.

## 4

Dəmiryolun qırağında "Məhərin budkası" adlanan tikili, – qırmızı kərpicdən xırdaca bir qalaça kimi qaldırılıb, hər iki mərtəbəsində bir cüt xırdaca pəncərəsi qaralan yarımstansiya, əslində "Məhərrəmin budkası" adlanmalı idi. Əmma Məhərrəmin dul anası Mələk qarı ilə qızları Pəri, Tubu da "Məhərrəm" əvəzində "Məhər" dediklərinə görə bütün Qurbanlı "Məhərin budkası" deyirdi. On-on beş ildi ki, Məhər Moskvaya gedib, ordan Bakıya köçüb, "Çekist Məhərrəm", "Məhərrəm Abbasoviç" olmuşdu. Anası Mələk qarı, eynilə Axsaq Hacı kimi axsayan "Teymurləng" ləqəbli uzunhoqqar böyük oğlu, gəlini, nəvələri ilə birlikdə o "budka"dan Orta kənd Tahirliyə köçəndən sonra üç para kəndin üçü üçün də əlverişli olan

o yarımstansiya bağlanmışdı. Əmma hərdən gecələr o xırdaca pəncərələrdə, iki mərtəbənin ikisində də işıq parıldayırdı. Qurbanlının dəmiryol səmtində, kiçicik, çəpərsiz bağla qovaq ağacı nəzərə alınmasa, tamam açıqlıqda olan təkotaqlı, uzun balkonlu evin həyətindən boylananda pəri ilə Tubu o xırdaca pəncərələrin parıltısını görüb, gözlərini silirdilər. Çünki əvvəllər o pəncərələr Məhər, arvadı, uşaqları ilə Bakıdan gələndə parıldayıb, öz işığı ilə Pərini, Tubunu, İsfəndiyar kişini görüşə, qonaqlığa çağırardı. Müharibə başlayandan sonra isə, o xırdaca pəncərələr parıldayanda Qurbanlıdan baxanların hamısı bilirdi ki, "budka"dakı işığı daha Məhər yox, "İstrebitlnıy batalyon" – "Qırıcı batalyon" adlanan silahlılar dəstəsinin komandiri, sovet sədri Qurban kişi – Qılınc Qurban yandırırdı, "batalyon"un üzvləri, o cümlədən üç para kəndin kolxaz sədrləri o işığa yığışanda Qılınc Qurban "soveşşani" keçirib, "voyenni svodka", qaçaq-quldur, "şipyon"-filan barədə danışardı.

"Axşam qisməti"ni könülsüz-iştahsız yeyib, dəmir camı, qarğı qaşığı quyunun üstündə həmişə su ilə dolu olan vedrənin suyu ilə yuyub, aparıb balkonun altında pəncərənin qabağına qoydu, yenə qovağın altına qayıdıb, üstünü kül basan təzəkləri çəkməsinin burnu ilə tərpədə-tərpədə közərtdi, daimi yerində oturub, yenə də sinəsində bərk ağrı hiss edib, orta pəncərənin arxasında, divarda köynəyi qaralan saza baxdı, nigaran, narahat dönüb ambulatoriya səmtinə, sonra Məhərin budkasının parıldaşan pəncərələrinə boylandı.

Müharibə başlanandan bu vaxta qədər içərisi palçığı çıxarılmayan kanaldan sızan sularda – gölməçələrdə, bol şehdən bozlaşmış çəmənlikdə, tala-tala qaralan göy qamışlıqlarda qurbağalar quruldaşırdı. Budkadan solda dəmiryol boyunca solğun bir fənər işığı axırdı: drezen keçirdi. Qurbağaların qurultusundan təkərlərin səsi eşidilmirdi. Arada necə oldusa qurbağaların hay-küyü azaldı, drezenin uğultusu, təkərlərinin taqqıltıları eşidildi. Sonra işıq yavaşıyıb dayandı. Budkanın yanında, qırmızı simoforun altında drezendən kim isə düşdü. Göyün üzünü çərmə tutub qaranlığı qatılaşdırsa da, fənər relslərin üstündə ancaq bir tikə yeri işıqlandırsa da, İsfəndiyar kişi drezendən duşən adamın sürətlə kəndə yönəldiyini gördü.

Məhərin budkasının yanında drezen dayanması, drezendən adam düşüb kəndə gəlməsi nadir hadisə deyildi. Alverçi Xeyrə, yaxud yetim poçtalyon qız vaxtlı-vaxtsız vağzala gedəndə, drezendə

işləyən oğlana pul verib həmişə onunla qayıdırdılar. Hərdən stansiyada bir neçə saatlığa, bəzən bir günlüyə eşalon dayanırdı, dəmiryola, vağzala yaxın pambıq sahələrində işləyən arvadlar kətmənləri atıb kəndə yüyürürdülər, süd, qatıq, ərik, alça aparıb əsgərlərə paylayırdılar, gecikib qaranlığa düşəndə onlar da drezenə doluşub qayıdırdılar... Başqa vaxtlar, gecə yarısında yarımstansiyaya drezen gəlməsinə İsfəndiyar kişi o qədər də fikir verməzdi. İndi bəs niyə belə diqqətlə baxdı? Nədən birtəhər oldu? Məsafənin xeyli uzaqlığına və düşən adamın yalnız qaraltısını gördüyünə baxmayaraq, İsfəndiyar kişiyə elə gəldi ki, onun əynində əsgər paltarı var. O adam budkanın gur işıqlı pəncərəsinin qabağından ötəndə hətta belində arxa çantasını gördü.

Qoca dik atıldı, qaranlıqda ağrıdan qıvrılıb, cığır-filan seçmədən üzünü birbaş Məhərin budkası tərəfə tutub, burda hər addımda bitən xırda ulğun kollarına, keçən ildən qalma yovşan, biyan köklərinə ilişə-ilişə gedib, dayanıb, ürəyinin döyüntüsündən başqa heç nə eşitməsə də, heç nə görməsə də çəmənə hay saldı:

– Ay adam! A gələn!.. Ay oğul, kimsən? Əsgərsənmi?! Mən İsfəndiyaram. Dəmirçi İsfəndiyar. Qocalığın üzü qara olsun, qaraltını seçəmmirəm. Səsini çıxart, görüm kimsən?

Dinlədi. Qaranlıqda qurbağaların qurultusundan və qulaqları dibində fırlanan ağcaqanadların vızıltısından savayı heç nə eşidilmirdi.

– A gələn, səsini niyə çıxartmırsan?..

Yenə də heç nə eşidilmədi.

Sonra birdən su şırıldadı. Yüz addımlıqda kim isə gölməçəyə düşdü. İsfəndiyar kişi bunun bayaqkı əsgər olduğuna şübhə etmədi. Gölməçəyə girməyindən də məlumdu ki, ayaqlarında su keçirməyən “girzovıy sapoq” – əsgər çəkmələri vardı. Cığırı bir yanda qoyub suya girib, qar-qamışı xışdaya-xışdaya kəsəsinə kəndə gedirdi. Bir tərəfi yəqin ki, buludun altına düşüb kölgələnmiş, o biri tərəfi isə süd kimi ağaran gölməçənin içində elə bil at çapırdı.

– Ay adam! Ay oğul! Bəridən gəl, bəridən! – Qocanın səsi qırılıb zəiflədi. – Nə yaman tələsirsən, ay anan-bacın ölsün! Kimsən, kimi sevindirməyə gedirsən, ay həsrətli oğlan?! Kimin oğlusan, kimin qardaşısan, kimin ərisən? Hansı bəxtəvərin evinə gedirsən?.. Bəlkə... – Bu “bəlkə”nin dalınca gələn sözləri deməyə İsfəndiyar kişinin cəsarəti çatmadı.

Əsgər sürətlə, şarap-şurupla gölməçəni adlayıb keçdi. Uzaqda yenə çəkmələrin çappır-çuppuru eşidildi.

İsfəndiyar kişi geri döndü. Ancaq tələsmədi. Əksinə, qalın çəmən otlarının, biyanların arasında ayaqlarını sürüyə-sürüyə, yavaş-yavaş bir neçə addım atıb, dayanıb, kəndə qulaq verdi. Gecənin bu vaxtı kəndə əsgər gələndə və ya kimdənsə şad xəbər çıxanda dərhal məlum olurdu: kənddə qışqırışma, muştuluqlama, ağlaşma, gülüşmə başlanırdı, adamların səs-küyü itlərin hürüşməsinə qarışırdı. İndi bəs niyə sakitlikdi? Bəlkə xəyallanmışdı qoca, gözü alacalanmışdı?

Addım-addım kəndə yaxınlaşıb dayanırdı, dinləyirdi, yenidən yeriyib yenə dayanırdı, bir də dinləyirdi. Sifətini soyuq tər basmışdı: ürəyi də elə bil hərdən dayanıb, qaranlığa qulaq kəsilirdi.

Hardasa, deyəsən, Məhərin budkası səmtində at fınxırdı. Yüyənin gəmi atın dişlərinə toxunub cingildədi. Gölməçədəki şappıltıdan sonra səslərini kəsmiş qurbağalar orda-burda vaqqıldamağa başladılar. Kəndin ucqarında, ulduzları sayrışan bir parça buludsuz göy altında nəhəng ot tayasıtək qaralan qovağın başında hacıleylək dimdiyini şaqqıldatdı. Kənddən, camaatdan isə şadlıq bildirən bir şey eşidilmədi.

– At bu dəfə lap yaxında fınxırdı. İsfəndiyar kişi baxıb, yastı rus yəhərinin ortasında dimdik oturmuş xırdaca qaraltısından sovet sədrini – Qılınc Qurbanı tanıdı.

– A Qurban, sənsənmi?

– İsfəndiyar kişi?.. Gecəquşu təki bu vədə çöldə-biyabanda nə gəzirsən, a kişi? Dana, buzov itiribsən nədi?

Qoca dedi:

– Məhərin budkasının yanında drizindən adam düşdü. Ona baxırdım.

Qılınc Qurban bir ara duruxub, soruşdu:

– Nə adamdı?

Qoca dedi:

– Əsgərə oxşatdım, vayenniyə... Özü də bu yana gəldi, bizim kəndə sarı... Belində arxa çantası. Mən bilən, əsgəriydi, a Qurban.

Qılınc Qurbanın damağında papiros közərib quru dodaqlarını, xırdaca burnunun ucunu və qırışlar arasında iri, düşüncəli gözlərini işıldatdı. Qaranlıqda qoxusu düzənliyi götürmüş göy biyanların arabərəsində burnunu gəzdirib otlardan xırp-xırp qopararaq ağzında

yüyəninin gəmini cingildədə-cingildədə çeynəyən atın başını çəkib kəndə tərəf baxdı.

– Əsgər gələ, kənd də belə lal-dinməz ola?

Qoca dedi:

– Mən də elə ona mat qalmışam, a Qurban.

Qılınc dedi:

– Yəqin gözün alacalanıb.

– Olar, olar... Vallah, nə desən olar... – İsfəndiyar kişi səsində titrəyiş hiss edib, bir-iki ağız "ühü-ühü" elədi. – Görükür, doğrudan, gözüm alacalanıb.

– Yeri yıxıl yat, yeri! – Sovet sədri atını tərpətdi. – Mən də deyirəm, gecə vaxtı, görəsən, bu nə qaraltıdı burda. Get yıxıl yat. İlişərsən, yıxılarsan, baldırın-başın sınar, bu zülmətdə hoyuna yetişən tapılmaz!

İsfəndiyar kişinin fikri hələ də kənddə idi. "Baldırın-başın sınar" sözləri xəyalını uzağa aparsa da, kəndə boylanırdı. Sovet sədrinin xeyli gedəndən sonra cilovu çəkib atın başını geri döndərdiyini, papirosun közərtisindən işıldayan gözlərlə ona necə diqqətlə baxdığını hiss eləmirdi. Axı, əsgəri tamamilə aydınca görmüşdü. Əynində paltarını, belində arxa çantasını, hətta başında pilotkasını da seçmişdi. Bu dərəcədə də göz alacalanar?.. Yerə girdi, göyə çıxdı, hara qeyb oldu o adam?!

Atın göy ot qoxuyan isti nəfəsi yan tərəfdən qulağına vurdu, İsfəndiyar kişi diksinib başını qaldıranda yenə sovet sədrini gördü.

Qılınc Qurban hirslənmişdi:

– Sənnən deyiləmmi, a kişi? Niyə dillənmirsən?

İsfəndiyar kişinin sifəti alışıb-yanırdı. Əyilib əlini sərin ota çəkdi, buz soyuqluğunda şehdən islanmış ovucunu alnına sürtdü, köynəyinin açıq yaxasından uzadıb ürəyinin üstünə çəkdi. Ağır-ağır dedi:

– Üstünə yüngüllük, əhvalım yaman birtəhərdi bu axır vaxtlar, a Qurban. Nə deyirdin, eşidəmmədim?

– Deyirəm, o axsaq ferşil sənin eviyin böyründə-başında nə hərlənir elə?! – Qılıncın səsi sərtləşdi: – Çalırsan, oxuyursan, Çürüyün dediyini deyirsən. Bu barədə də sözüm var sənə. Bir vaxt taparam, gələrəm, danışarıq. İndi dediyim ayrıdı. Böyrü üstə çökə-çökə gedib oturur quyunun dikdirində. Qayıdanda dümağ yaylıq əlində elə gözünü silir. Niyə ağlayır o elə, sən bilən?

– Hacı? Nə olar hərlənəndə, a Qurban? Oğlumun baldırını elə sağaltdı ki, o cür sınığın heç izi də qalmadı.

İsfəndiyar kişi bu gözlənilməz söhbətdən necə üşürgələndisə, hətta drezendən düşən əsgəri də unutdu.

– Sən bunu niyə xəbər alırsan ki, a Qurban, başına dönüm?

Qılınc dedi:

– Axsağın bir də ayağı dəyməsin o tərəfə!

Qoca hiddətləndi:

– Bıy! Bu nə söhbətdi, a Qurban?!

Qılınc çox ciddi idi.

– Boş söhbət deyil hər halda. Ehtiyatlı ol, İsfəndiyar kişi, xataya salmasın bizi o axsaq gədə! Özün də get yıxıl yat! Gecənin bu vaxtı çöllü-biyabanda gəzib evini kişisiz qoyma! Çox cavandılar gəlinlərin!

Qocanın səsi boğuldu:

– Mənim gəlinlərim... hərəsi bir kişidi! Allaha and verirəm bir də belə söz gətirmə dilinə, a Qurban!

Qılınc Qurban sərt hərəkətlə cilovu çəkib, dabanlarını atın böyürlərinə çaxdı. Nal səsləri yumşaq nəm torpaq üstündə küt tappıltılarla sürətlə uzaqlaşdı. İsfəndiyar kişinin fikri də o tappıltılar arxasınca getdi.

## 5

Sovet sədri Qurban kişi – Qılınc Qurban balaca, arıq, quru, el içində deyildiyi kimi "qayışbaldır" kişi idi. Yeriyəndə alov kimi yeriyirdi. Danışanda od kimi danışırdı. Kənddə söyləyirdilər ki, "Sovet hökuməti təzə qurulanda", yəni iyriminci illərdə bu balaca kişi hər əlində bir mauzer, təkbaşına yüz qaçağın üstünə gedərmiş. Gah çoban, gah dərviş, gah da dilənçi libasında qaçaqlara lap yaxınlaşandan sonra, birdən cır-cındırının altından mauzerləri çıxarıb özünü daşın dalına verərmiş. İsfəndiyar kişi bu deyilənlərin heç birini öz gözü ilə görməmişdi, əmma hamısına inanırdı. Çünki Qılıncın indisinə yaxşı bələd idi.

Söz düşəndə tay-tuşlarının arasında inamla, qətiyyətlə deyirdi: "Qılınc Qurban əvəzsiz adamdı".

Sovetliyin üçpara kəndinin üçündə də kabineti, katibi və çiyni beşaçılanlı milisioneri vardı. Səhər-səhər üç kabinetin üçündə də ərizələrə baxır, lazımi kağızlara qol çəkir, ət, yağ, yumurta vergilərini verməyən adamların evlərini gəzir, şikayətçilərin şikayətlərini heç bir kağızda, dəftərdə qeydə almadan hamısını yaddaşında saxlayıb, hamısını da "atüstü", "ayaqüstü" həll eləyir, yəni bu günün işini sabaha qoymadan hamını razı salır, camaat çöllərə – sahələrə dağılışandan sonra o da yoxa çıxıb ya kabinetlərindən birində, ya da evində yatırdı. Gecələr isə, xüsusən müharibə başlanandan bəri, bəzən hətta səhərə qədər at belində olurdu. Kəndlərin arabərələrində, dörd-dövrələrində "çərx vururdu". Gecənin bir aləmində, qaranlıq küçələrin hansındansa guruldayıb keçən nal səsləri eşidiləndə oyaq olanlar deyirdilər: "Qılınc genə qından çıxıb. Görəsən kimi kəsməyə getdi". Bunu şəksiz-şübhəsiz hökm kimi deyirdilər. Çünki Qılınc Qurban hər saatda qından çıxmır, çıxanda isə mütləq kəsirdi. Məhz bu xasiyytinə görə çoxdandı ki, kəndlərdə oğru-əyri yox idi.

Müharibə başlayalı ətraf kəndlərdən, dəmiryol vağzalından arasıra bəd xəbərlər gəlirdi: "Anbarı yarıblar", "İlxıdan at aparıblar", "Vaqonun qapısını sındırıb taxıl çıxarıblar" və sair. Qurban kişinin sovetliyində – üç para kənddə isə əmin-amanlıq idi. Burda arvadlar ərlərini Qılınc Qurbanla qorxudurdular. Uşaqlar savaşanda bir-birini Qılınc Qurbanla hədələyirdilər. Günahkar olan tərəf dərhal səsini xırp kəsirdi. Çünki əks təqdirdə sovet sədri qından çıxa bilərdi. Bu balaca, arıq-uruq kişi, ədalət mücəssəməsinə çevrilib, necə deyərlər, ümumxalq məhəbbəti qazanmışdı. Əlbəttə, təkcə asıb-kəsməklə yox. Bütün kənddə elə bir ev, elə bir həyət yoxdu ki, orda heç olmasa həftədə bir dəfə sovet sədrinin səsi eşidilməsin. Elə bir əsgər ailəsi tapılardımı ki, fikri-zikri, dərdi-azarı Qurban kişidən gizlin olsun? Çox çətin, tək-tük. Bəlkə də heç tapılmazdı. Bu və ya başqa əsgər ailəsində buğda çörəyi və ya qarğıdalı cadı yeyildiyi də, bu və ya başqa əsgər arvadının harda addımını necə atdığı da – hər şey sovet sədrinin elə bil ovucuna yazılmışdı, əlini açanda oxuyurdu. Əgər Qılınc Qurban kiminsə həyətindən ayağını kəsirdisə, deməli, bunun səbəbi vardı. Kiminsə salamını almırdısa, deməli, bunun da səbəbi vardı. Sovet sədrinin bircə addımı və ya bircə kəlməsi də mənasız hesab olmurdu. Elə buna görə də İsfəndiyar kişi onun

arxasınca baxa-baxa qaldı. Drezendən düşən əsgəri tamam unutdu. Sonra isə hardansa – lap yaxından onun səsini eşitdi: “Mənim gözüm də, yaddaşım da məktəb uşaqlarının o kapirovalnı bumaqasındandı, İsfəndiyar kişi. Mənim gördüyümə, eşitdiyimə yaxşı diqqət yetir sən”.

Evlərin bozaran qamış damları arasında sovet sədrinin özü kimi alçacıq və özü kimi ayaqdan iti Boz atının qaraltısı görünüb yox oldu.

“Ehtiyatlı ol, İsfəndiyar kişi, xataya salmasın bizi o axsaq gədə!” Bu nə söz idi, bu nə eyham idi?! İsfəndiyar kişi hiss etdi ki, bu saatca Qurbanı görməsə, soruşub bu dəhşətli eyhamın səbəbini öyrənməsə səhərə qədər gözünə yuxu getməyəcək.

Yaxşı ki, nal səsləri yenidən eşidildi. Eyni ilə bayaqkı kimi, Qılınc Qurban yenə də qəfilcə qaranlıqdan peyda olub, atının başını çəkdi.

– A kişi, genə sənsənmi bu?!

İsfəndiyar kişi yeriyib əlini yüyənin qanadına atdı. Ürəyi ağrıyıb, sıxılıb-açılıb üzüntü ilə döyündü. Əmma qoca həmin eyham barədə birbaşa söz açmaq istəmədi.

– Xeyir ola, nə yaman gəşt eləyirsən, a Qurban? Bir şey-zad olmayıb?

Qılınc bərk tutuldu:

– İzin ver əvvəlcə səndən xəbər alım, İsfəndiyar kişi! Mənim gecələr gəşt eləməyim təzə şey deyil, bəndə-bərəyə baxmasam canım rahat olmur. Mənim azarım çoxdan bəllidi. Əmbə bax, dəmirçi İsfəndiyarın gündüz axşamacan zindan döyəcləyib, gecələr çöllü-biyabanda gəşt eləməyini başa düşəmmirəm! Nədi dərdin, a kişi?!

– Mən ki dedim, a Qurban.

Qoca əlini ota-şehə çəkib ürəyinin üstünə çəkdi.

Qılınc hirsli idi:

– Nə dedin sən? “Drizindən adam düşdü!..” Gün doğandan gün batana qədər neçə adam düşür o drizindən! Bu voyenni vremyada camaatın çoxu elə voyenni paltarı geyinmirmi! Başqa vaxtlar kürəyini çəkmirsən ağacın gövdəsindən: “Gəl, ey Şeşpayi-bəhrim! Əmbə indi belə! Niyə?!

Qoca lap pərt olub yumruğunu ürəyinin üstünə çırpdı.

– Bu zəhrimar ürək deyilən də qoymur sözümü deyim. Heç olmasa sən bir az səbirnən danış mənnən, a Qurban!

Qılınc Qurban qara meşin pencəyin cibindən “Kazbek” qutusu çıxarıb təzə papiros yandırdı.

– De görüm nə gəzirsən burda? Niyə gizlədirsən?!

– Bıyy! Allah insaf versin sənə! Gizlətmək nədi?! Vallah-billah, elə o drizindən düşən qaraltıya görə burdayam, a Qurban!

– Ayrı səbəb yoxdu?

– Yoxdu, a Qurban.

Qılınc bir az düşünüb dedi:

– İzin ver inanmayım, İsfəndiyar kişi!

Qoca lap pərtləşdi:

– Əstəğfürüllah! Mən saç-saqqalda adama niyə inanmırsan, ay başına dönüm?! Ayıb deyil?!

Qılınc deyəsən xəcalətləndi:

– Zamana xarabdı, İsfəndiyar kişi, – dedi. – Dərd-azar çoxalıb, dolanmaq çətinləşib, lap sən saç-saqqalda adamın da, baxırsan ki, nəsə bir xəlvət işi var. Mən, necə ki, bir yerli hökumət, belə şeylərin yanından düz ötəmmərəm, İsfəndiyar kişi! Düzünü de!.. İncimə, düzünü de görüm bu xəlvətdə nə işin var?

– Ay oğul, mənim nə xəlvət işim?

– Niyə qax-qurud olub qalıbsan burda?!

– Başına dönüm, demədimmi?! Drizindən adam...

Qılınc pərtləşdi:

– Adam düşdü də, çıxdı getdi də, İsfəndiyar kişi!.. Şəhərlərdə gecə saat on ikidən sonra kamendatnı çasdı. İşıq yandırmağa da qoymurlar. Bəlkə mən də kamendatnı ças eləyim?! Eliyəcəm! Mən də günü sabah car çəkəcəm ki, gecə saat on ikidən sonra eşikdə qalmaq qadağandı.

İsfəndiyar kişinin, necə deyərlər, əli-ayağı yerdən üzüldü.

– A Qurban, başına dönüm, kənd yeridi, gecə sabaha qədər minbir iş-gücü olur camaatın.

Papirosun közərtisində Qılıncın gözləri qıyıldı:

– Olur, əlbəttə! Elə ona görə deyirəm ispalkom da elə komendat təki olub, İsfəndiyar kişi. Genə deyirəm, gecənin bu vaxtı eşikdə adam görəndə yanından düz keçəmmərəm. Nədi dərdin?!

İsfəndiyar kişinin fikri haçalanmışdı. Nə idi demək istədiyi? Niyə yadından çıxdı?

– Dərd deyəndə... Allah sənə dərd verməsin, a Qurban, dərdim çoxdu, oğul... – Nəhayət, yadına düşdü: – Bayaq o nə sözüydü dedin, başına dönüm, o nə eyhamıydı?! Ehtiyatlı ol, deyirsən, xataya salmasın

bizi o axsaq?! Dedin, atını qamçıladın, getdin, mən də ki, özün deмişkən, qax-qurud olub qaldım burda. Bayaqdan bəri kəndin arasında qaraltına baxa-baxa elə onun fikrini eləyirəm ki, bu nə eyhamıyıdı Qurban vurdu?! Oxunu atıb, yayını gizlətmə, başına dönüm!..

Qılınc papirosu necə sümürdüsə, burnunun üstünə, qulaqlarının dibinə qədər xırda-xırda qırışlarla örtülmüş qarayanıq sifəti işıqlandı. Bu bir əlcə çirkin sifətə yabançı kimi görünən iri, qayğılı, hətta gözəl gözləri parıldadı.

– Bir söz xəbər alım səndən... Yadındamı, Molla Gülənin molla məktəbi vardı Orta kənd Tahirlidə?

Qoca dedi:

– Yadımdadı. Lap yaxşı yadımdadı ki, dərsini bilmiyən uşaqların ayaqlarını qaldırıb falaqqaya qoyardı, çubuqnan döyüb qançır eliyərdi. Getdin Molla Gülənin özünün ayaqlarını falaqqaya qoydun, şallaqnan döydün qançır elədin. Sonra da məktəbi bağladın, əvəzində savad kursu açdırdın. Sənnən bərabər mən təki yaşı ötkün adamlara latın əlifbası öyrətdilər. Əski əlifbanın əvəzində.

– Bunun hamısı öz yerində, İsfəndiyar kişi. Qara damda[1] molla məktəbini bağlayanda dedim günlərin birində bolşevik qanı tökəcək bu Molla Gülən. Tökdümü? Qorxma o qaniçəndən açıq danış mənnən.

Bu söhbət daha gözlənilməz oldu. Qoca Molla Gülən adında qorxunc adam haqqında eşitdiyi, bildiyi qorxunc hadisələri dilinə gətirmək istəmədi. Qılınc özü sadaladı:

– Mənim baş yoldaşıma, əri təki beli mauzerli Fənərimə zəhər verdi, bu bir. Tahirli məktəbinin direktoru Tahir müəllimin baş yoldaşını yəni özünün doğmaca bacısı qızını gündə bir dəfə təpiknən döyə-döyə öldürdü, bu iki. Çekist Məhərrəmin qardaşı "Teymurlən"gə guya kiminsə çoyutma gülləsi dəydi, bu üç. Mən, Qılınc Qurban, Bakıda Mərkəzi Komitədən başlamış, bu dörd dövrəmizdəki ən xırda-mırda kəndə-kəsəyə qədər hər yerdə xüsusi avtoriteti olan, sinəsi ordenli, medallı bolşevik, o qaniçən sinfi düşmənimizi hələ də tutdurammıram. Niyə bilirsən? Hardan biləsən? Gündüz zindan, çəkic, axşam saz: "Gəl, ey Şeşpayi-bəhrim!.." Sən təki beşcə, üççə ağsaqqal, zəhmətkeş proletariat,

---

[1] Qara dam – qazma

vaxtında, mən xəbərdarlıq eliyəndə sözümə söykək olsaydınız, elə o məktəbi bağlayandaca basdırardım o qaniçəni, Sibir bəri yanında qalardı! Dillənmədiniz heç biriniz, duasından, cadusundan qorxdunuz Molla Gülənin. Sonra qardaşı Rusetdən gəldi, NKVD nəçənniyi oldu, sizdi, mənni, hamımızın gözünün odunu aldı. Molla Gülən kimi yağı, sinfi düşmən NKVD-yə agentlik eliyə-eliyə Kommunist Bolşeviklər Partiyasına üzv olub indi!.. De görüm, niyə deyirəm bunu sənə?

İsfəndiyar kişi fikrini yığmağa çalışdı.

– Qandığım budu ki... qınayırsan məni ki, vaxtında zəhmətkeş füqərayi-kasıb proletariat təki söykək durmadıq sənin sözünə.

– Sözümə yox xəbərdarlığıma, İsfəndiyar kişi! Xəbərdarlığıma! İyirmi beşinci ildə mən Molla Gülənin falaqqasını baltanın altında xınc-mınc eliyəndə xəbərdarlığıma göz yummasaydınız bu qədər insan öldürə bilərdimi o molla?! Sinfi düşmənlərimizi NKVD-yə doldura bilərdimi?!

İndi de görüm, o axsaq gədə sizin qapıdan gedəndə niyə ağlayır?! Molla Gülən hər axşam ambulatoriyanın qabağında nə gəzir?! Malareyası, qızdırması-zadı yoxdu! Buğa təkidi! Kimsəsiz yetim adıyla saxladığı qıznan keyfdədi buğa köpəyoğlu. Bu heç. Axsağı sənin qapına göndərən Molla Gülən deyilmi, kişi?!

Qocanın dodaqları titrədi:

– Allah, amandı! Nələr danışırsan, a başına dönüm! Molla Gülən niyə göndərsin onu?! İsfəndiyar kişi atın pis qoxulu fınxırtısından dala çəkilib, yenə irəli durdu, yüyənin qanadından yapışdı.

– Mollanın nə işi var mənnən?!

– Sənnən deyil, mənnəndi! Təzə partkomumuz Komsomol Bənövşəynəndi! Otuz yeddinci ilin tutqularından sonra orda-burda tək-tük qalan kommunistlərnən – bolşeviklərnəndi işi.

İsfəndiyar kişi heyrət içində heç nə anlamırdı.

– Bir az açıq de sözünü, a Qurban, başına dönüm!

Qılınc öskürə-öskürə papirosu atıb, təzəsini yandırdı.

– Yanıram ey! Od tutub yanıram ki, iyriminci ildən bu vaxta qədər iyirmi bir il müddətində sinfi düşmənin kökünü kəsməmişik! Əksinə, otuz yeddidə dirçəlib, vəzifə tutub, qol-qanad açıb ev yıxır ocaq qaraldır indi. Qılınc Qurban da dövrəsində istribitelni batalyonu, çiynində beşaçılanı, mağmın qalıb heç nə eliyəmmir! NKVD-

yə dürtülən it xılı Gülənovların qabağında qul olub mənim bu gözəl camaatım! Dəmirçi İsfəndiyar qul olmasa, belə zillət çəkərəmmi mən?! Sənin sümüyü sınan Bəhmənini vayenkomata aparanda dedm, a bala, deyəsən, axsayırsan axı sən, bron[1] alım sənə, qayıt evinə. Vayenkomata həkimlərin kəmisyəsinə də dedim: "Bu Bəhmən yaralıdı, bron verin hələ qalsın". Bir də gördüm nə?! Mollaynan qardaşı durub baş həkimin arxasında, asta-asta: "Bas! Bas bunu getsin!" – deyirlər. Bildin?

Qoca köksünü ötürdü.

– Mən neyliyə billəm, a Qurban?!

– Necə "neyniyə billəm", a kişi?! Axsağa deyəmməzsənmi ayaq açma bu qapıya, cəhənnəm ol, get ambulatoriya xarabanda otur! Qov onu deyirəm! Qovala!

– Niyə axı, ay Qılıncımız?! Niyə qovum mən o bədbəxti?! Mollaynan onun nə alveri?!

Qılınc başını buladı.

– Yaxşı qulaq as! Molla onu verbovat eləyir, yəni ki, çalışır tora salsın. Onçun göndərir sənin qapına. Bir də o vaxt ayılacaqsan ki, kəndə hay düşüb, bəs deməzsənmi, Axsaq Hacı əvvəl bacılardan birini almaq istəyirdi, indi ikisini birdən döşdəyib!..

İsfəndiyar kişi birdən-birə titrətmə tutmuş kimi, başdan-ayağa əsdi:

– Nalayiq söz danışma!

Qılınc Qurban ətraflara boylandı.

– Bağışla, a kişi, əgər o axsaq gədə NKVD-yə agentliyə razılıq versə, onun yox, sənin yaxandan yapışacam mən. Məhərrəmin bacılarının, əsgər arvadlarının adına söz çıxsa, yəni əsgər namusu tapdalansa, o cür əzizlədiyin axsağa da yazığım gəlmiyəcək, vayenni tribunala verəcəm! Bu, deməli, belə: xəbərdalığımı elədim. İndi genə soruşuram: açıq de görüm, gecə vaxtı neynirsən burda?! Drizini-filanı burax getsin! De, kişi! Onsuz da öyrənəcəm!

Əlacsızlıqdan Qoca hətta boynunu bükdü.

– Başına dolanım, qurbanın olum, a Qurban, şübhəynən baxma mənə. İnan mənə! Kiçiyim Bəhməni yuxuda görmüşəm. Nəsə damıb ürəyimə ki, nəsə olacaq. Onçun belə narahatam, drizinə-filana baxıram. Ayrı bir şey yoxdu! İnan!

---

[1] Bron – orduya səfərbərlikdən saxlamaq üçün sənəd

Qılınc Qurban dərindən nəfəs alıb, deyəsən, bir az sakitləşdi.
– İndi bir sözüm də var. Onu da deyim, qurtaraq.
– Buyur, buyur, başına dönüm!
– Mənim ikidən-birdən əssasız söz danışdığımı eşidibsənmi?
Qoca dedi:
– Yadıma gəlmir... Bu agent-filan söhbəti də, görürəm, əsaslıdı. Molladan nə desən çıxar.
– Yaxşı kişisən...
Sovet sədri yenə cilovu dartdı, atın otu çeynəyib qurtarmasını, yəni gəmin cingiltisinin kəsilməsini gözlədi. Cingilti kəsilib tamam sakitlik çökəndə, yəhərdə burulub yenə ətraflara boylandı.
– Gecə vaxtı qurbağa dillənmiyəndə bizim bu düzdə adamın pıçıltısı da bir verstliyə gedir. Bəlkə gedək evdə söhbət eliyək?
İsfəndiyar kişi səbirsiz idi.
– Mənim evim-eşiyim qurbandı sənə. Əmbə, başına dönüm, de görüm nədi axı?
– Qulağını bəri tut... Axsaq ferşil özü də düz adam deyil. Gedib Çürükdən soruşub ki, "Şeşpayi-bəhri" nədi elə? Dəmirçi niyə elə həmişə Şeşpayi-bəhri çağırır? Yaxşı ki, Çürük açmayıb sirri. Sənin başını yemək istəmirmi o gədə?
– Nə danışdığındı, a Qurban?! Hacı?! Hacı soruşub?!
– İstəyirsən lap açıq danışım?
– Əlbəttə, əlbəttə! Açıq de, başına dönüm.
– Ferşil barədə qulağıma bir söz də dəyib.
– Nə söz?!
– Deyirmiş, davadan qabaq axsaqlığıma görə gəlmədilər mənə o bacılar. Allah mənim Allahımdı, dava saldı ki, dünya axsaqnan dolsun. Bundan sonra bayramımdır, deyirmiş, dul gəlinlərin harda göyçəyi var onu alacam!
İsfəndiyar kişi fikirləşmədən, qətiyyətlə əlini yellədi.
– Bekara sözdü! Hacını tanıyıram mən!
– Tanımırsan, İsfəndiyar kişi!
– Dünyasında inanmaram! Ferşilin dilindən elə söz çıxmaz!
Qılınc Qurban papirosunu sümürə-sümürə yenə o yan-bu yana baxdı.
– İstəyirsən bir az da açıq danışım.
İsfəndiyar kişi başını dik qaldırıb gözlədi. Bu dəfə Qılınc da tələsmədi.

– Biz, bolşeviklər, özümüz düzük, başqalarını da düz bilib, səhv eləmişik həməşə. İnsan çiy süd əmib, İsfəndiyar kişi. Bu dava zəhrimar da yaman xarab eləyir adamı. Sən də bizdənsən, hamını öz ürəyinnən ölçürsən...

– Bu açıq danışmaq olmadı!

Qılınc Qurban birdən nə isə qət etmiş kimi, əlindəki şallağı yəhərin qaşına vurdu.

– Yaxşı, lap açıq olsun!.. Sənin evində gözü var o gədənin! Ağlamağı həm hirsindəndi, Molla Güləndən qurtarammır yaxasını, həm də sənə hörməti var, hələ əli gəlmir sənə nəsə eləməyə. Əmbə eliyəcək, İsfəndiyar kişi! Hökmən nəsə eliyəcək! Malareya-zad dərmanı versə, içmə! Cavanlığında sənin səsini batıran adam da Molla Gülənnən barabər hərlənir o axsağın böyründə-başında. Axsaq agentliyə razılıq verməsə, o adamnan Molla Gülən, hökmən, hökmən məcbur eliyəcəklər zəhər versin sənə o gədə, yəni cinayət eləyib tutulsun. Bu da, deməli, belə: bu xəbərdalığımı da elədim... Di get, yıxıl yat! Gecən xeyrə qalsın!

Qoca yüyəndən yapışdı.

– Əylən!.. Əylən, a Qurban! Bu nə xasiyyətdi səndə, od-alov doldurursan adamın içinə! Çürükdən, deyirsən, soruşub, Çürük də, deyirsən, açmayıb sirri. Nolardı açanda?!

Qılınc yüyəni çəkib atın başını qocaya tərəf döndərdi.

– Sən o dəstanı yaddan çıxardıbsan, nədi?!

– Yooox... Cavanlıqda Çürükdən, Abıdan nə eşitmişəm, kəlməsinəcən qulağımdadı, a Qurban! Üstəlik, əski əlifbaynan qıyma-qıyma yazmışam. Alı dəftərdi! Rəhmətlik arvadın sandığında, elə bilirsən bu gün qoyulub. Hər il qış hüşəndə, gecələr uzananda çıxardıram dəftəri, yaddaşımı təzələyirəm. Bə nə! İtirdiyim səsimdi, aşıqlığımı itirməmişəm, a Qurban! "Şahzadə Qasım"ın harasından deyirsən, orasından xəbər verim! "Batin" – gizlin dəstan olsa da...

– Deməli, bilirsən ki, "altı ayaqlı dəniz atı" deyilən "Şeşpayibəhri" əslində ayrı şeydi?

– Əlbəttə!..

– Bilikli, məlumatdı adam olduğunu çoxdan bilirəm mən. Elə buna görə də lap mat-məətəl qalmışam ki, o cür məxfi dastanı xatalı saymırsan sən!

– Niyə sayım ki?! "Şahzadə Qasım" o vaxt məxfiydi ki, dini-İslam vardı, a Qurban. Lenin dini məhv eliyəndən sonra batin dastanlarımızın hamısını kitabda çap eləmirmi hökumət?! Özümüz də açıq danışmırıqmı?!

– Uşaqların kitablarında çap olunanlar min bir əldən keçib, xəlbirlənib, ələklənib, a kişi! Aşıqların sinəsində məxfidən də məxfidi dastanlarımız indi.

– Gizlin şeyləri demirlər axı!

– Nə olsun?! Mən deyirəm təhlükəlidi! Qılınc Qurban deyir bunu sənə! Din vaxtı "Şahzadə Qasım" niyə məxfiydi? Dəftərində varmı bu?

– Əlbəttə.

– De görüm!

– Uzundu axı, a Qurban.

– Sən gödək elə.

–Ay başına dönüm, bunu gecə səhərəcən danışırlar Çürüknən Abı, genə qurtarmır. Danışsaq, gərək ondan başlayasan ki, müsəlman deyilik. "İslam" deyiləndən min-min il əvvəldən məlumdu ki, "Allah" da, "peyğəmbər" də, "din" də həqiqətdən xəbərsiz ərəbin sözləridi. Qılıncı xirtdəyimizə dirənib millətmizə zornan "lailahəilləllah" dedirtməyiblərmi, həqiqəti açıq deyən alimlərimiz gizlənib batin olmayıblarmı?! Mənim şəyirdlik elədiyim vaxtlar Çürük Aşığnan Xızr Abı da batiniydilər. Aşkarda "Nəqşi Bənd" deyirdilər, xəlvətdə "Nəqşi Bağ"[1] deyirdilər.

---

[1] Xalqımızın hər bir kəlməsi böyük hərflə yazılan qədim OdƏr (Tərik – "Türk") dilində SafAğ (ən təmiz) adlanan Elm Alimləri, fatehlərdən gizlənmək məcburiyyətində qalanda SafAğ Elmini ərəbcə "Xürrəmi", "Həllaci", "Hürufi" və s., sonralar isə "Nəqşi Bənd təriqəti" adları altında gizlədiblər. 1941-45-ci illərdə Elmin təbliği güclənmişdi. "Boq" kəlməsinin qədim türkcə Bağ oğlu Eysarimizin SafAğ İnsanın Əli – Oğlu olduğunu bilənlər yeni adla "Heydəri" – EyOdƏri (Uca həqiqət Əri) adlandırırdılar. Bu qismdən olanlar (ustad "Aşıqlar – ƏsAğlar, "dərviş"lər – OdƏr EvƏslər, yəni ƏsEvin – Yaradan Evin Od – həqiqət Ərləri) xalq arasında Elmi yalnız Bağ ƏsƏlMən ("Süleyman" – "Solomon") adı ilə bağlayıblar. Başqa ad çəkməsələr də, söhbətlərini, moizələrini "Beş gözəlin aşiqiyəm" sətri, xüsusi "Ustadnamə" ilə başlayıb, Bağ Atanın dörd Əlinə – Oğullarına, o cümlədən on səkkiz min aləm içində Aləmimizin ƏlAğı ("Allah"ı) Ey Sara ("İsa"ya. "İsayi Məsih"ə) işarə edirdilər. Bu cür şərh SafAğ Elminin, belə demək mümkünsə, "Ustadnamə" ilə başlayan el variantı sayılırdı. "Saz"da məhz bu variant danışılır. Əslən OdƏr Əlağımızı "xristian" elan etmişlər. "İis+us" sonuncu təhrifdir. Rimdə qreksayağı adlandırıb, "xristos" sözü ilə birləşdiriblər.

İsfəndiyar kişi danışa-danışa Yer üzündə ondan – dəmirçi aşıqdan başqa bəlkə də heç kəsdə olmayan bir vəziyyətə düşdü: öz səsi əvəzində ustadının heysiz, nazik, əmma olduqca şirin, doğma səsini eşitdi. Ustadı burda yox, əlbəttə, başqa yerdə idi. Aşağı kənd Qonaqlıda, sədr Mədətin evində, ayaqlarında yumşaq qara məs, xalı-zililər üstündə asta-asta o baş-bu başa yeriyə-yeriyə danışırdı:

– ...Nəqşin, yəni on səkkiz min aləmin Sahibi “Bənd” deyil, Bağdı deyirik.

Dilimizin uca kəlməsi Bağ, anlamazların dilində “Boq”a dönüb, övladlarım.

Əvvəl çəpər bağlanardı,
İndi Bağlar çəp Ərləndi.

Bu çəpər kənd-kəsəkdə gördüyümüz çəpərlərdən deyil. Bu “çəpər” – çəp Ərdi. Yəni Elmə çəp baxan, etiqadsız Ərdi. “Çəp Ər Bağlanardı”, yəni Elm öyrənib, kürreyi-ərzdə otura-otura EySarın səsini – Ününü eşidə-eşidə Elm yayan, insanı insana bağlayan Bağ olardı. Sahiblərimizin – Kainat Bağlarının Yer üzündə övladları olan biz Bağları, Arazın o tayında, Türkiyədə, İraqda, Elm mərkəzimiz Bağdadda hər yandan çəpərləmişik, millətimizin bir qismini o biri qisminə bağlaya bilmirik... İsrayıldakılar, İspaniyadakılar, Rus, İngilis içindəkilər lap batin olublar, övladlarım.

Aşağı kənddə – Qonaqlıda Nizaminin kitabını oxuyan uşaqlar məktəbin direktoru Ələsgərdən soruşublar: “Ay müəllim, Nizami yazır ki, Camü-Cəmşid qayanın içindəydi, camın içində əbədi od yanırdı. O nə deməkdi?” Yazıq direktor necə desin ki, SafAğ Elmimizi Bağıstanda – “Bisütun”da, yəni lap qayım yerdə gizlədib, adını da gizlədib “Camü-Cəmşid” demişik, “Cam” da yanan Od da Elmimiz – həqiqətimiz deməkdi!!! Rəmzlər içində gizlədirik övladlarım. Odumuza – həqiqətimizə qrekin diliylə “at” deyirik. Gur Odumuza “Qır at”, Odər Odumuza “Dür at” deyirik! EySarımızın səsi – Ünü ilə gələn GürÜnümüzə “Quran” deyirik. OdÜn ƏsEyimizə (Uca Yaradan Yn Həqiqətimizə) – “Dəniz” deyirik. Altı qitəli Yerin sahibi ƏsƏlMənimizə[1] “Altı ayaqlı dəniz atı” deyirik.

---

[1] ƏsƏlMəni (“Süleyman” padşahı) aşıqlar çox vaxt “Ey” adlandırırlar və sözlərini “Gəl, Ey!”lə başlayırlar.

Bu rəmzin özünü də gizlətmək məqsədi ilə "Altı ayaqlı dəniz atı" əvəzində "Şeş payi Bəhri" deyirik. Şahzadə Qasımın "at"ı – Odu Ulu Bağ ƏsƏlMəndən – "Süleyman" padşahdan ayrılıb "müsəlman" kütləsi içində mühasirədə qalıb, övladlarım. AğSim – uca SafAğ İnsan ikən "Qasim"ə – "Qasım"a döndərilənimiz xilaskarını – Ulu Bağ ƏsƏlMəni çağırır, övladlarım: "Gəl, Ey Şeşpayi-bəhrim! Qalmadı tabanım, təhrim!.."

Qılıncın sərt, cod səsi Çürük Aşığın nazik, heysiz səsini qırdı:

– Bəsdi!

İsfəndiyar kişi vəcdin – hissiyyatın gücündən dolmuş gözlərini silib, daha bir az da öz qeyri-adi vəziyyətində qaldı; el içində "Mansır" çağrılan atası Mənsurun buzovlu inək aparıb sazbənd Əsədin həyətində ötürüb, içəridən Çürüyün sifarişi ilə düzəldilmiş, par-par yanan şirmayılı "Təvər" sazla çıxdığını görürdü. "Elə burdaca bir Divani çal", – dedyini eşidirdi, sağ əlinin barmaqlarında gilas qabığından "təzənə"nin, sol əlinin barmaqlarında şirmayıların soyuqluğunu, köksündə çanağın böyüklüyünü – sanbalını hiss edirdi, eyni anda da "Divani" çalan Bəhmənin çatılı qaşları altında yumulu gözlərini görür və yenə də Çürüyün səsini eşidirdi:

– "Divan"i – OdEvÜndü – Od Evi Ünüdü, övladlarım. Ününü eşidən ustadım "Divan"i üstündə deyib: Süleymanı rəmz içində gizlət, ey millətim. Altı qitəli Yerin "Allah"ına – ƏlAğ EySara da "Şeşpayi-Bəhri" de. Həqiqətdən kənar dil xoş gəlir kar-kor övladlarıma. Bilmirlər ki, Bağ ƏsƏlMəni "müsəlman"a, ƏsƏlimi "İslam"a, Vahid Həqiqət Bağı BağHəmOdu "Məhəmməd"ə döndərən, həqiqətimizi əlimizdən alan dildi!..

Qılınc şallağı yəhərin qaşına vurdu:

– Bəsdi, – dedi, – bu dediklərini bir kağıza yazıb aparıb NKVD Gülənova versələr, sinəsi ordennən dolu Qılınc Qurbanı da sənnən, Çürüknən, Xızr Abıynan bir yerdə gedər-gəlməzə göndərməzlərmi, İsfəndiyar kişi?! Otuz yeddinci ildən bəri, bu beş ildə günahsız gedən yuz-yüz bolşevikin dalınca Qılıncınızı da sındırsalar, kim qoruyar burda xəlvəti "Gəl Ey!" – deyən aşıq milləti?!

Qoca hələ də bir şey anlamırdı.

– Niyə axı, a Qurban?! Mən fəhmsizi qandır görüm, "lailahəillalah"ı gedər-gəlməzə göndərən hökumət "lailahəillalah" düşməni bolşeviki niyə göndərsin gedər-gəlməzə?! Deyirlər Stalinin xəbəri yoxdur tutulanlarımızdan.

Qılınc yəhərdən əyilib:

– Qülağını bəri tut,–deyib yenə pıçıltıya keçdi,– ƏsƏlMən yox, atamız, rəhbərimiz Stalin yoldaşın zəmanəsidi bu zəmanə, İsfəndiyar kişi! Molla Gülən kimi qansız çuğulun birisi yazsa ki, Stalinin zəmanəsindən şikayətçidi bu adam, Stalini yox, "Şeşpayi-bəhri" çağırır, neyniyərlər sənə?!

Qoca dedi:

– Kimdi Stalinin zəmanəsindən şikayət eliyən, a Qurban? Oğru-əyri yox, qaçaq-quldur, bandit-filan yox! Ağa haykırmır başımızın üstündə, bəy şallağı şaqqıldamır kürəyimizdə! Bir tikə çörəyimizi qulaq dincliyiynən yeyib gündə min yol şükür deyirik! Sən bilmirsənmi nədir mənim dərdim?! Bilmirsənmi niyə çağırıram qurbanı olduqlarımı?! Bircə dənə məktub var evdə: "Gəldik çıxdıq Qroznı şəhəri səmtinə. Adresimiz palevoy poçt nömrə üç min on iki". Vəssəlam! Stalininə də qurban olum sənin, Varaşilovuna da, Budyonnusuna[1] da! Sovet əsgərinin, deyirlər, beşaçılan nədi, heç berdankası da yoxdu. Nemes, deyirlər, avtomatnan pencər təki biçir tökür bizimkiləri! Nə qədər ki, çəkic vururam, dəhrə-məhrə, balta-filan düzəldirəm, başım qarışır bir az. Elə ki, çəkici qoyuram zindanın yanına, o köhnə dudmanda basdığım körüyün əvəzində bu sinəm körüyə dönür, canım kürəyə – ocağa dönür yanır, gözlərim dolur. Necə "Divani" çalmayım, necə "Gəl Ey!" deməyim mən bədbəxt?!

Qılınc elə hey yəhərin qaşını tıqqıldadırdı, pıçıltı ilə:

– Bağırma! Bağırma! Eşidən olar! – deyirdi.

Qoca susub əlinin arxasını gözlərinə çəkdi.

– Bir Molla Gülən olmasın, yüzü olsun! Bir NKVD Gülənov olmasın, mini olsun! Sinəm yananda, yaş gözlərimi qovuranda heç "Şeşpayi-Bəhri" də yox, "Bənd" də yox, lap belə həqiqi ad-sanlarıynan çağıracam qurbanı olduqlarımı! "Gəl Ey Bağ Atam! Gəlin Ey Əllər – Oğullar!" Gələcəklər, a Qurban! İnan!

Qılınc elə yəhəri döyəcləyirdi.

– Deməli, Qılınc Qurbanın bu qədər sözü-söhbəti hədərdi?!

Qoca bir daha gözlərini sildi.

– Qurbanı olduqlarım özləri yuxu verdilər, balamın diliynən söz dedilər, saz da tilsimləndi, üstəlik, söz də tilsimləndi. Səsim batı daha, a Qurban! Oxumuram daha!

---

[1] İlk sovet marşalları

Qılınc yenə papiros yandırıb, tüstünü dörd dövrəsinə üfürdü.

– Boy-buxunun, qolun-qılçın, maşallah, pəhləvan! Ürəyin, əksinə, belə! Toxdamaqdan ötrü sən bu zəmanənin Süleymanı Stalini çağır, a kişi! Ali Baş Komandan Stalin yoldaşın şəxsən özünə məktub yaz, adresi "palevoy poçta nömrə üç min on iki"ni yaz orda, xahiş elə ki, bu qoşa əsgər atasına bir xəbər çatdır oğullarından.

Qocanın sinəsi körük kimi qalxıb enirdi.

– Sağ ol, a Qurban. Yaxşı məsləhətdi. Əmbə... çətin davadı bu dava. Ali Baş Komandanda vaxt hardadı dəmirçi İsfəndiyarın məktubuna cavab versin?

– Verər, a kişi! Heç bilirsənmi nə qədər yazan var?! Hamısına öz imzasıynan cavab verir!

– Həə?!

– Bəli! Genə deyirəm, mənim sənə xüsusi hörmətim var, İsfəndiyar kişi. Bu kənddə elə bir təkər şini tapmaq olmaz ki sənin əlin dəyməmiş olsun ona. Kətmən vuranlarımızın əlinin ketmənisən, yer sulayanların əlinin lapatkasısan. İncimə məndən. Sənin namusun mənim namusumdu, İsfəndiyar kişi! Mənim borcumdu ki, sənin gəlinlərinin namusunu göz bəbəyim kimi qoruyum!

Qoca heydən düşmüş kimi, zindan ağırlığında əlini zorla qaldırıb yəhərin qaşında duran enli, quru əlin üstünə qoydu.

– Elə danışırsan, guya nəsə olub! Namuslu zənənin namusunu qorumağa bir səbəb olmalıdı axı!

Qılınc əlini qocanın əlinin altından çəkdi.

– Mən sənə dedim, İsfəndiyar kişi! Dedim mən əsassız söz danışmaram!

Qocanın nəfəsi təngiyirdi. İndi nə isə müsibətli bir xəbər eşidəcəyini kəsdirib, əzab-işgəncə ilə çalışırdı ki, özünü toxdaq saxlasın.

– Deyirsən... deyirsən yanı göz-qaş eləyib gəlinlərə?! Ya nə?!

– Onu görməmişəm hələ. Vicdanıma ləkə salammaram, İsfəndiyar kişi, böhtan deyəmmərəm!

– Bə məni niyə öldürürsən, a Qurban?! Uşaq-navalıq ha deyiləm, mənnən altdan-üstdən niyə danışırsan?! Ferşili mən çox təmiz, çox namuslu adam bilirəm. Sən mənim camaata qulluğuma qiymət qoyursan, çox sağ ol, ömrün uzun olsun, bu dünya durduqca sən də durasan, başına dönüm! Mən də özlüyümdə ferşilin elə gözəl insan qayğısına, zəhmətinə qiymət qoyuram. Neçə vaxtdı ülfət bağlamışıq.

Yazığın, baxtıqaranın biridi. Bir mən bilirəm o necə baxtıqara adamdı! Ha çalışıram üzü gülsün, olmur ki, olmur! Yazbaşı idarədə söhbət düşdü, dedilər bir at verək, manqaların arasında taytımasın. Yəhərli-yüyənli atı ambulatoriyanın qabağında görəndə sevindiyindən gözü doldu yazığın. Əmbə nə olsun ki, fələk vurdu yan saldı. Bu yanda, qamışlıqda suya əhəng səpəndə getmişdim əl yetirim, bir də baxdıq ki, atın başı şişib kötüyə dönüb! Ömründə eşidibsənmi ki, su ilanınının zəhəri olsun? Əmbə ferşilin atını vuranda gəldi su ilanı da zəhərli oldu. At öləndən sonra idarədə təklif elədim, dedim, təzəsini verək. Əmbə...

– Əmbə ferşil götürmədi! Dedi "mən baxtsız adamam, o atı ilan vurdu, bunu da canavar yeyəcək", hə? – Qılınc qocanın sözünü kəsib, yenə yan-yörəsinə baxdı.– Bunu mənə niyə danışırsan, a kişi?!

Həddindən artıq həyəcanlandığındanmı, ağrıdan, yorğunluqdanmı, nədənsə, qocanın yenə də fikri dumanlanmışdı. Qılıncın qara meşin şapkasının uzun günlüyü altında tünd qaraya çalan sifətinə baxıb gözlərini döydü.

– Vallah, heç özüm də bilmirəm niyə danışıram, a Qurban, başına dönüm! Yəqin demək istəyirəm ki, çox şəkkaklıq eləmə, sən də mənim gözümnən bax o yazığa!

Qılınc Qurban köksünü ötürdü.

– Nursan sən, İsfəndiyar kişi! Hərdən lap mat-məəttəl qalıram, elə bil heç bu dünyanın adamı deyilsən! Mən sənə deyirəm, o axsaq gədə düz adam deyil, namus məsələsindən danışıram, sən onun tərəfini saxlayırsan! Nə təhər başa düşək bunu?!

Qoca susdu. Hərdən, qeyri-iradi, sifətindən, boyun-boğazından ağcaqanadları qova-qova yerə baxırdı. Doğrudan da, əgər söhbət namus söhbəti idisə, əgər Hacı doğrudan da onun gəlinlərinə başqa nəzərlə baxırdısa, "qaranlıqda yaylığı ağara-ağara gözlərini silirdisə o, nə üçün feldşeri bu qədər həyəcanla müdafiə edirdi?!

Düşündü... Nəhayət, düşündü və nə qədər qəribə olsa da, həqiqət belədir ki, feldşerlə ünsiyyətinin əsas səbəbini yalnız indicə başa düşdü. Dərk etdi ki, oğlanları gedəndən sonra Hacı ilə ünsiyyətini məhz ona görə dərinləşdirməyə çalışmışdı ki, Hacı bu ünsiyyəti, dostluğu ayaqlayıb onun gəlinlərinə əyri gözlə baxmasın. Qoca bunu da yalnız indicə dərk etdi ki, feldşer onu duyurdu. Məhz duyduğuna görə də onunla üz-üzə gələndə xəcalət çəkir, tər tökürdü, sonra da... ağlayırdı!

Qılınc papiros sümürürdü.

– Gələcəm. Axşamda-sabahda bir vaxt tapıb gələcəm, belə gəşt eləməyim nədəndi, hökmən deyəcəm. Nə qədər zəhmətkeş, mərifətli adam olsan da, əyriliyin varsa, sənin əyriliyini də kəsəcəm, İsfəndiyar kişi! Bu xəbərdarlığı da elədim.

Qoca deyilənləri eşitmirdi.

– Mən inanmıram! – deyib qəfildən başını qaldırıb özü də bilmədən qışqırdı.– Mən inanmıram, ferşil Hacı mənim çörəyimi bassın! Rəhmanın, Bəhmənin əhli-əyalına baxmaz!

Qılınc diksindi. Yəhərdə dimdik qalxıb bir daha ətraflara boylandı.

– Yavaş, a kişi! Niyə çığırırsan?!

Qoca tər tökdü.

– Sən deyilsənmi məni çığırdan?! Elə sözmü deyirsən çığırmayım?! A Qurban, başına dönüm, axı niyə demirsən görüm niyə bu qədər şəkkaksan?! Neyləyib o bədbəxt, nə qələt qarışdırıb ki, belə əzrayıla dönübsən sən?!

Qılınc yenə onu bərk hirsləndirdi.

– Yavaş! Eşidən olar!

Qoca əksinə, kükrədi:

– Eşitsinlər! De görüm nə görübsən?!

– Mən sənə genə deyirəm! – Qılınc yəhərdən əyilib lap pıçıltıya keçdi: – Bayaq dedim, yalan danışıb vicdanıma ləkə salammaram.

– Əsasın yoxdu ki?! Yoxdu ki?!

– Əsas – mənim beynim! Əsas – Molla Gülən!.. Əsas – elə sözlər deyib o gədə: "Allah mənim Allahımdı, dava saldı ki, dünya axsaqnan dolsun". Çox yerəbaxan gədədi, İsfəndiyar kişi. Suyun lal axanındandı. İdarədən qayıdıram, baxıram – genə oturub... Başıaşağı, taytıya-taytıya gedir, gəlir, nə bir adamnan kəlmə kəsir o boyda kənddə, nə bir adamın çörəyini kəsir. Əmbə sənnən, özün deyirsən, ünsiyyəti var!.. Dava başlıyalı mən iki göz də satın almışam, İsfəndiyar kişi, o gədənin qarnının altını görməyə bilmirəm!

Qoca baxıb-baxıb, birdən yenə partladı:

– Sənə and verirəm balalarıyın canına, ailəmin namus, qeyrət məsələsini çıxart başından! Balalarımnan işin olmasın, a Qurban, balalarına qurban olum!

Qılınc bu dəfə tüstünü ciyərlərinə çəkdi.

– Balam olsaydı, indi mən də sən təki əsgər atası olardım, İsfəndiyar kişi!.. – Boğuq gülüb, əyilib əlini qocanın çiyninə vurdu. – Qocalırsan...

Qaranlıq çöl, ağarışan gölməçələr, ala-tala buludlu, ulduzlu göy, qamış damları bozaran sakit kənd – hər şey birdən-birə İsfəndiyar kişiyə qəmli-qüssəli göründü. Dünyada insan üçün övladsızlıqdan böyük dərd bilməyən qoca, bayaqdan bəri ara-sıra fikrini məşğul edən əsgəri də, feldşer barədə söhbəti də unudub, inilti ilə:

– Bağışla! – dedi. – Doğrudan kaftarlaşmışam! Bağışla məni...

## 6

Üfüqdən dəsdəyirmi, qıpqırmızı ay qalxırdı. Qılınc Qurbanın qara meşin şapqasının qabağında ulduz, qara meşin pencəyin dəmir düymələri işıldaşırdı. Aya dikili gözləri qıyılmışdı.

İsfəndiyar kişi bir əli ilə yəhərin şehdən islanmış qaşından tutub, altdan dik sovet sədrinin qıyılı gözlərinə baxa-baxa, indi əməllibaşlı yalvarırdı:

– Qurbanın olum, a Qurban! Ayaqlarının altında ölüm, a Qurban, onun barəsində pis fikrə düşmə. İki göz də satın almağın, ehtiyatlı olmağın yaxşıdı, çox yaxşıdı. Ancaq ferşil barədə fikrini dəyiş. Çoban Abdullanın oğlunun qıçı neçə yerdən yaralıdı. Hər gün gedir o dağ ətəyinə, Mağarın baldırının sarığını dəyişir. Komsomol Bənövşə istəyir hörmət eləsin qardaşına görə, bir qəpiyini də almır o qızın! Mənim atam da, rəhmətlik arvad da qızdırmadan üzülüb ölüb. İndi deyirlər əhli-bəşərin bir düşməni var, o da Hitlerdi. Ancaq mənim aləmimdə bu ağcaqanad ki var, Hitlerdən də betərdi. Neçə aydı o yazıq axsaq ağcaqanadnan cəngi-cidadadı. Mən də bilirəm, bütün kəndə də bəllidi ki, sən həmişə elin qeyrətini çəkibsən, elə ona görə də belə balaca qalıbsan...

Qılınc yorğun-yorğun qımışıb yenə əlini qocanın çiyninə vurdu.

– Balacalığıma sataşma, İsfəndiyar kişi, Heç xəbərin varmı ki, dünyada nə ki böyuk adam olub, hamısı boydan balaca olub? Tək birindən başqa.

Feldşer haqqında xoşagəlməz söhbəti qurtarmağa İsfəndiyar kişi özü də ehtiyac hiss edirdi, ancaq susa bilmirdi. Qılınc “tək birindən başqa” deyəndə, nəhayət, söhbət dəyişdi.

– O tək kimdi, a Qurban?

– Pyotr Pervi! Eşidibsən? Hardan eşidəcəksən?! Əslində, o da köpəyoğlunun biriydi. Bizim buraları əvvəlcə o tapdalayıb. Əmbə "veliki"di... O gün vayenkomata gedəndə ordenlərimi taxıb getmişdim. Talıbov baxdı, dedi mən bilmirdim sən belə böyük adamsan. Başladı bütün dünyanın böyük adamlarını saymağa. Möhkəmcə doladı məni. Pul yığmaqdan qudurub. Eşalondan, bir atpravkadan saxlamaqdan ötrü çağırışçı əsgərdən on min alır, deyirlər. İxtiyarım çatmasa da, yoxladacam bu işi, dədəsini yandıracam köpəyoğlunun! Sözüm bünda deyil, doladı məni deyirəm. Ürəyimdə dedim, yaxşı, sən ol mayor Talıbov, mən də olum Qılınc Qurban. Söhbət eliyə-eliyə ustubluca əlimi atdım qoburuna, tapançasını çıxardım qoydum cibimə. Axşam gəlirəm, görürəm rəngi sap-sarıdı. Əmbə vermədim tapançanı... Bu müharibə başlayan günü Moskvadan Səmərqəndə xeyli adam gedib, deyiblər gəlmişik Teymurləngin tabut-sandığını açaq. Özbəklər deyiblər Teymurləng müharibə allahıdı, tabut-sandığı açsanız müharibə başlanar. Açıblar, dava da elə o gecə başlanıb. Sözdü... Ayrı şey deyirəm. Sandığı açanda görüblər Teymurləngin skeleti düz iki metrədi. Gör indi özü nə uzunluqda olub? Bunu dedim orda Talıbova, dedim, Teymurləngi böyük adam saymırsanmı? Yox, dedi, əslində Pyotr Pervini də böyük saymıram. Napalyon lap gödək olub, onu da böyük saymıram. Bir Lenindi balacaboy, böyük adam, bir də sənsən dedi.

Qılıncın ovucunda "brauninq" işıldadı.

– Yaman göyçək şeydi, hə?

Qoca qaranlıqda gözucu baxıb, tapançanın göyçək, ya qeyri-göyçək olduğu barədə bir şey demədi.

Dedi:

– Üstündə gəzdirmə, sən Allah, a Qurban. Xatalı şeydi. Allah eləməmiş, hirslənərsən, gözünü qan tutar, əlindən xata çıxar.

Qılınc tapançanı ovcunda atıb-tutdu.

– Silah mənim iqruşqamdı, İsfəndiyar kişi. Sənin əlində çəkic iqruşqa olan kimi... Dəmirçixanada briqadirlərə hirslənən vaxtın olub?

– Başımın tükü sanı.

– Çəkici briqadirin başına endirdiyin vaxtın necə?

Qoca təəccübləndi:

– Allah eləməsin, a Qurban, nə danışdığındı!
– Deməli, İsfəndiyar kişi, ağıllı adamın əlində silah xatalı deyil. Adam özü silahın əlində olanda, orası xatalıdı.
Qocanın ayağı ulğun koluna toxundu. Əyilib, ulğundan bir şax qoparıb, asta-asta üzünə, boynuna çırpıb ağcaqanadları qovdu.
– "Adam özü silah əlində"? Bir az qəliz oldu, a Qurban!
– Əşi, sözdü deyirəm də. Çox ağır söhbət elədim sənnən bu gecə. Onçun indi belə mətləbsiz şeylər danışıram ki, fikrin dağılsın bir az. Mən özüm bir vaxt mauzerin əlində olmuşam. Mən mauzeri yox, mauzer məni aparırdı qaçaqların üstə.
– O barədə camaat yaman danışır.
– Hə?
– Sənin qaçaqları qırmağın dillərdə dastandı, a Qurban. Zalımdı, qansızdı deyənlər də var. Əmbə elələri bəy şallağı görməyənlərdi.
Qılınc qeyri-müəyyən tərzdə mızıldanıb susdu. Hələ də ovcunda şappaşap atıb tutduğu "brauninq"i cibinə qoyub, nədənsə yenə o yan-bu yana boylandı.
– Əmbə vayenkom ay axtarır ha! Qoy bir həftə də axtarsın. Aparıb stolun üstünə qoyanda yəqin qucaqlayıb öpəcək, qonaqlıq təklif eliyəcək. Bilirsən nə deyəcəm? Deyəcəm mənim böyüklüyümü təsdiq... A kişi, fikrin hardadı?
İsfəndiyar kişinin fikri doğrudan da ayrı yerdə idi. Uzaqda, ambulatoriyanın qabağında işıq görmüşdü: Hacı ocaq qalayırdı.
– Sən o söhbəti nahaq elədin, a Qurban. Ferşil barədə...
Qılınc tündləşdi.
– Özün xahiş eləyirsən ki, tutub eləməyim o gədəni, özün də söhbəti təzələyirsən!
Qoca səbəbini özü də başa düşmədən, gözünü işıqdan çəkə bilmirdi.
– Yanı sənin onu tutmaq fikrin də var?!
Qılınc şallağı o yan-bu yana fırlatdı.
– Bəy şallağını görmüyənlər düz deyirlər – qəddar adamam mən, İsfəndiyar kişi! Genə xəbərdarlıq eləyirəm, bir də qapı-bacaya çağırma onu!
İsfəndiyar kişinin əli ürəyinin üstündə idi.
– A Qurban, başına dönüm, yazıqdı! Bədbəxtdi, a Qurban! Yerli hökumətsən, sən qiymət verməlisən ona, a Qurban!

Bu yalvarışda sərt tələb də hiss olunurdu. Qılınc dözməyib:

– Bəsdi! – dedi və atı tərpədib aralandı. Əmma eynilə bayaqkı kimi yenə cilovu çəkib, papirosun közərtisini əks edən gözlərlə diqqətlə qocaya baxdı.

– Səndən bircə xahişim var. Neynirsən elə, kimnən nə təhər dolanırsan dolan, əmbə mənə yalan demə ha!

Qoca yanıb-yaxılıb, əllərini dizləirə çırpdı. Bu, Qılıncı tutdu.

– Yaxşı, yaxşı! – dedi. – Yeri get, yıxıl yat!.. Gözümə birtəhər dəyirsən. Naxoşlarsan ha, kişi! Özünü gümrah saxla! Yola-rizə az bax! Axşam salam verdim, salamımı da almadın. Çox fikirlənmə! İnşallah, bir gün bizim küçədə də bayram olar.

Mənim sözüm deyil bu, Stalin yoldaş deyib! Ona inan sən! "Bəndə bəndəm" – "Bağa bağlıyam" demə! Sultan Əmirlinin kabinetində Leninin bax bu əlim qalınlığında kitabı var. Allah, peyğəmbər-zad əleyhinə! Başa düş, nə deməkdi bu! Mən də Ağ deyiləmmi?! Bizim istribitelni batalyonun komissarıdı Sultan! Hər həftənin axırında Məhərin budkasında siyasi dərs keçir bizə. Bilirsən ki, o da Bağ nəslindəndi, Təbrizdə böyük mülkü-zadı olub Sultanın qardışa Mədədin. Bir vaxt onlar da "Bəndə bəndəm" – "Bağa bağlıyam" deyiblər. Get Aşağı kənd Qonaqlıda qapısını aç sədr Mədədin "Salam" əvəzinə "ƏsƏlim" de, gör necə bağırar: "Kəs səsini!" Qəzəbnak olma, kişi! Get! Bir də eşitməyim o "Şeşpayibəhri"ni!

Qılınc atını sürüb getdi. Dəmirçi yel vurduqca qığılcımlanan papirosun işılıtısına baxa-baxa tək bircə anlığa fikrindən ayrıldı. Qocaya elə gəldi ki, sovet sədri də davaya oğul göndərmiş olsaydı, nə onun – İsfəndiyar kişinin, nə də başqalarının haqqında düşünə bilərdi; başqasının haqqında düşünmək, özgənin dərdini çəkmək asandır.

Yavaş-yavaş kəndə doğru addımlayanda yenə də drezendən düşən əsgəri xatırladı. Doğrudanmı gözü alacalanıb, xəyallanıb?.. Gələn əsgərdisə, bəs kənddə niyə səs-səmir yoxdu?.. Qurbanlıda ev çoxdur. İki yüzdən artıqdır. Ancaq bir ildir ki, bu evlərin xeyri də, şəri də ortaqdır. Birisinin ayağına daş dəydimi, o dəqiqə hamı xəbər tutur. Birisinin gedəni gəldimi, dərhal toy-bayram başlayır, çağırışma, səsləşmə, muştuluqlama... İsfəndiyar kişi bir daha əyilib əlini otun şehinə çəkib, ovcunu alnına qoydu. Qızdırmalı adam kimi, alnı əlini yandırdı.

# 7

Və elə alnı əlini yandırdığı anda da qulağına səs gəldi. Duruxub, nəfəsini qısıb, sinəsini ağır çəkic kimi döyəcləyən ürəyinin gurultuları ilə qarışıq səsi nə qədər dinlədiyini və yerindən qopub necə yüyürdüyünü bilmədi. Çünki səs adi səs deyildi: saz səsi idi! Özü də bəridən, ucqardan, qovaq səmtindən eşidilirdi!

Lap çoxdandı, kim bilir neçə ildi ki, İsfəndiyar kişi belə yüyürməmişdi. Nəfəsi qaraldı. Boğazında gicişmə hiss etdi. Əmma dayanmadı. Çünki çalan Bəhmən idi! "Təvər" – OdEvƏr sazda "Divani"ni – OdEvÜnü bu qədər ağır samballa Kim çala bilərdi Bəhməndən başqa?! "...Qulağına Təvər sazda "Divanı" gəlsə, bil ki, qayıtmışam, baba". Demək, yuxu boş-boşuna deyilmiş! Demək, sazın tilsimi sındı!

– Oğlum gəldi!.. Ay camaat, Bəhmənim gəldi!.. – Qoca qışqırmağa çalışırdı, səsi çıxmırdı.

Həyətə yaxınlaşanda gözləri torlanmışdı. Qovağın nəhəng qaraltısı qarşısında ləngər vururdu, yanıb qurtarmaqda olan təzəklərin əlcə-əlcə qırmızı odlarının parıltıları, qızmağa qoyulmuş samovardan çıxan alov o yan-bu yana yaymalanırdı.

Qocanın köksündəki ağrı şiddətlənib yayılırdı. Başa düşürdü ki, bu yaxşı əlamət deyil. Əmma heç bir qorxu-hürkü yoxdu. Çünki indi sazın səsini daha aydın eşidirdi, simlərə təzənə[1] vuran, pərdələrdə gəzən barmaqların məhz Bəhmənin barmaqları olduğunu daha artıq inamla təsdiq edirdi. Demək, "sonbeşik – yurda keşik" məhz onun xəyal elədiyi kimi gəlmişdi: gecə vaxtı, xəbərsiz-ətərsiz, qapıdan girib gəlinlərlə, uşaqlarla görüşüb-öpüşəndən sonra, hələlik qonum-qonşuya, kəndə səs salmağı lazım bilməyib, sazı divardan endirib, köynəkdən çıxarıb, sinəsinə basıb, atasını sazla çağırmağa başlamışdı.

Qoca oğlunun sinədən gələn asta, şirin səsini eşitdi:

---

[1] T ə z ə n ə – təzən – azan, simlərin üstündə elə bil öz-özünə kənar xallar vura-vura havaları zənginləşdirən "qara gilas" qabığı; sazı təzənə əvəzinə başqa şeylə çalmaq sürtünmə verir, yumşaq təzmək-azmaq baş vermir. "Taziyanə" təhrif sözdür, təhqiramizdir. Saz haqqında təsəvvür itdiyinə görə burada qeyd olunmalıdır ki, "sim" sözü OdƏrcə həm ağ, həm uca, həm də gümüş deməkdir; saz simi adətən gümüş tozu ilə saf dəmirin əridilməsindən düzəldilərmiş

Gəl, ey Şeşpayi-bəhrim,
Qalmadı tabanım, təhrim!..

– Gəlirəm, mənim balam, gəlirəm!.. – Qapını açıb özünü içəri saldı.

Saz divarda, xalçanın üstündə, həmin yerindəcə asılı dururdu. Böyük gəlin yerə ləyən qoyub "qara pıspısalar"dan – qızlarından hansınınsa saçını yuyurdu. Rəhmanla Bəhmənin uşaqlığını xatırladan, topasaçlı, qarnıaçıq ekizlər taxtın üstündə, süfrə qırağında oturmuşdular. Kiçik gəlin onların südlə dolu nimçələrinə çörək ovurdu. Duman içində olsa da, İsfəndiyar kişi bunların hamısını görürdü. Əmma "Divani"nin sehrli-zərbli dalğaları, oğlunun səsi hələ qulaqlarında idi:

Gəl, ey Şeşpayi-bəhrim...

"Bu nədi belə, ay oğul?! Hardasan, a qurbanın olum?!" – Qoca bir də saza baxdı, bir də gəlinlərinə, nəvələrinə baxdı. Səs xırp kəsildi. Otaqda hər şey zülmətə batdı. İsfəndiyar kişi huşunu itirib yıxılıdığını hiss etmədi.

## 8

Bir az sonra gözlərini açanda, qarşısında əvvəlcə Hacının sifətini gördü. Feldşerin yun çöpüyü kimi boz saqqalı arıq sifətini, lap eynilə yun çöpüyü kimi bomboz qalın qaşlarını, dərin çuxurlarda azca şirin baxan xırdaca gözlərini gördü. Hacının üzünə heç vaxt bu qədər yaxından baxmamışdı. Yəqin ki, buna görə də, ağlı üstünə gələndə əvvəlcə feldşerin haqqında fikirləşdi: "yazıq nə yaman çirkinmiş". Bu ani fikir ötüb keçəndə, drezendən düşən əsgər də, Qılınc Qurban da, Bəhmənin "Divani"si də, divarda öz yerindəcə asılı duran saz da, hətta böyük gəlinin yerə ləyən qoyub qızının saçını yuduğu, kiçik gəlinin nimçəyə çörək ovduğu da, hər şey bütün təfsilatı ilə yadına düşdü. Və qoca birdən acı-acı gülümsündü:

– Dəmirçi İsfəndiyar da xəriflərmiş, ay Hacı!

Feldşer onun üzünə baxmırdı.

– Axşamdan gözümə birtəhər dəyirdin, İsfəndiyar əmi. Yaxşı ki, bir yana getməmişdim.

– Yoxsa işim bitmişdi, hə?

– Allah eləməsin, İsfəndiyar əmi.

– Uşaqlar hanı, gözümə dəymirlər?

Biri-birinin eyni olan zərif, alagöz, sarı gəlinlər irəli durdular. İkisi də yaşmağı burunlarının üstünə qaldırıb yaşlı kirpiklərini döyə-döyə gülümsəyirdi, sevinirdi. "Qara pıspısalar" və ekizlər analarının ətəklərindən yapışıb boylanırdılar. Uşaqların gözlərində hələ də qorxu qalmışdı.

Hardasa it hürürdü. Kəndin arasında nə isə səs-küy vardı. Bunu qulağı alanda qoca istər-istəməz dikəldi. "Bir eşiyə çıxın, görün o nə səsdi?" – demək istədi, bayaqkı halətinin təkrar olunmağından ehtiyatlanmış kimi qaşlarını çatıb yenə başını yastığa endirdi. Rəngi boğunuqdu. Qalın, cod dodaqları göyərib daha da codlaşmışdı. Yarıaçıq pəncərənin altında qaynaşan pərvanələrin arasında işıldayan yeddilik lampa yaxında olsaydı, qocanın bir az çökük gicgahlarındakı göyərtilər də aydın görünərdi. İndilikdə bunu Hacıdan başqa görən yoxdu. Feldşer qəmli və bir az ürkək gözlərlə baxıb fikirləşirdi ki, bu yıxılmaqla İsfəndiyar kişi gərək azı bir həftə yerindən qalxmasın. Yaxşı olar ki, heç tərpənməsin. Əmma Hacı bunu gəlinlərə demək, cəmi bir neçə dəqiqə bundan əvvəl qayınatanın başının üzərində göz yaşı axıtmış bacıları yenidən qorxuya salmaq istəmirdi.

Qoca barmağının işarəsi ilə nəvələrini yanına çağırdı. "Qara pıspısa"ların təzəcə yuyulub hələ qurumamış yumşaq, sərin saçlarını sığalladı. Ekizlərin birini sağ, birini sol böyründə oturtdu.

– Babanın əllərini ovuş-ovuş eləyin, – dedi.

Uşaqlar topasaçlı başlarını əyib ciddi-cəhdlə işə girişəndə qoca gülümsəyib Hacıya göz vurdu.

– İşə yarayırlar, – dedi.

Bayırda səs-küy artırdı. Həmişə bu vədə vağzaldan qayıdıb evlərə qəzet, məktub paylayan yetim qız – poçtalyon Milli – Milliyyə ilə qonşuların səsləri biri-birinə qarışırdı. İsfəndiyar kişiyə elə gəldi ki, Milli onun gəlinlərin də çağırır: "Ay Pəri! Ay Tubu!" – deyir, "muştuluq, muştuluq!" – deyir. Dəmir yolda bir tikə yeri aydınlaşdıran solğun fənər işığında, sonra Məhərin

budkasının pəncərəsi qabağında gözünə dəyib qaranlıqda yox olan əsgər paltarlı adam kim bilir neçənci dəfə xəyalında dolananda qocanın dodaqları, saqqalı titrədi. Yenə dikəlib, "Eşitmirsinizmi? Çağıranı eşitmirsinizmi, ay qızım?" – demək istədi. Əmma çağıran vardısa, bəs gəlinlər niyə hay vermirdilər? "Muştuluq, muştuluq!" – deyən vardısa, bəs gəlinlər niyə bu qədər laqeyd dayanmışdılar?.. Qoca eynilə bayaq saz səsi eşidəndə olduğu kimi, ürəyinin çapaladığını, gözlərinin torlandığını hiss etdi. Pəncərənin altında lampanın işığı azaldı, qaynaşan pərvanələr elə bil birləşib boz-bulanıq bir kütləyə çevrildi. Pəncərənin arxasında, qaranlığın dərinliyindəki xırdaca fitil alovunun sarımtıl işığı da azalanda Hacının asta, boğuq səsi eşidildi:

– Qorxma, İsfəndiyar əmi... əsas odur ki, ağrı keçdi. Qalanı da düzələcək.

Qoca canında sıxıntı, bumbuz tər hiss edirdi. Çalışırdı ki, özünü toxtaq saxlasın, gəlinlərə, uşaqlara bir şey bildirməsin.

Mümkün qədər gümrah danışdı:

– Deyəsən, balalarımı yaman qorxutmuşam, ay Hacı.

Feldşerin ovucunda ucu yoğun iynəli zorba bir şpris vardı. Qoca pərvanələri, gəlinlərini və nəvələrinin sifətlərini, yəni nisbətən uzağı seçməsə də, şprisi aydın görürdü.

– Nə yekə şeydi, a başına dönüm, mal iynəsidi, nədi?

Hətta zarafat eləmək, "mən ki mal deyiləm, bala" demək istədi. Əmma bu vaxt Millinin səsi lap yaxından eşidildi:

– Ay Pəri, Ay Tubu, ay İsfəndiyar əmi, heyy!..

Feldşer xəstəsinin sol qolunun büküləcəyindən bir az yuxarısını nazik rezinlə sıxıb, rezinin uclarını Pəriyə verdi.

– Tut bunu, mən boşalt deyəndə yavaş-yavaş burax rezini, – deyib, əyilib iynəni dərinin altına yeritdi. – Burax rezini!.. Sakit dur, İsfəndiyar əmi. Nəfəs al... yaxşı-yaxşı nəfəs al.

Qocanın bütün diqqəti eşikdəki səsdə idi. Milli lap aydınca "Muştuluq!" – deyəndə qoca, nəhayət, dözə bilmədi.

– Niyə dirək təki quruyubsunuz? Mənim başıma hava gəlib, qulağıma səs gəlir, yoxsa doğurdan Millinin səsidi?!

Gəlinlər ipək kimi yumşaq, mülayim, mehriban qayınatanın belə qışqırdığını bir dəfə də görməmişdilər. İkisi də dərhal dönüb eşiyə yüyürdü.

İsfəndiyar kişi hirsli-hirsli feldşerə baxdı.

– Eşitmirsənmi?!

Hacı bütünlüklə öz işinə qapılmışdı. Qocanın o biri qolunu çirməyib, daştək möhkəm əzələ üstündə tarım çəkilmiş tutqun dərini ordan-burdan dartışdırıb, yoda batırılmış pambığı sürtməyə və ikinci iynəni vurmağa münasib yer axtarırdı.

– Nə buyurursan, İsfəndiyar əmi?

– Deyirəm, çağıran adamın səsini eşitmirsənmi?

– Mən bir az ağır eşidirəm, İsfəndiyar əmi. O gölməçələrə düşəndən bəri qulaqlarım ağırlaşıb, – feldşer yorğun-yorğun qımışdı. – Hər yerim düzüydü, bircə qulaqlarım qalmışdı, o da düzəldi. Zəhmət olmasa qolunu boş qoy, İsfəndiyar əmi, göz dəyməsin, maşallah, bədənin dəmir kimidi, adam heç bilmir iynəni hara batırsın. Zəhmət olmasa...

– Dayan görüm!.. – Qoca gərginlikdən titrəyib eşiyə qulaq kəsildi.

– Ay Pəri, ay Tubu, boğazım yırtıldı ki, çağırmaqdan! Əlinizi cibinizə salın görüm nə çıxardırsınız! Gəldi yaralı gədə! Yarasızadı qalmayıb. Sappadan sağdı, sizə də nəsə şad xəbər gətirib!

Milliyyəyə kənddə hamı Milli deyirdi. Baldırıaçıq, arıq, uzun qız idi. Dayısı evində olurdu. Dayısı əskərliyə gedəndən sonra Millini poçtalyon qoymuşdular. Şad xəbər olanda – məktubu gəlməyəndən məktub gələndə, cəbhədən əsgər qayıdanda Milli at kimi çapa-çapa, qapı-qapı düşüb btün kəndi muştuluqlayırdı. Arvadların danışdığına görə, indi bu yetim qızın sandığında qalaq-qalaq “göy əllikliklər, qırmızı otuzluqlar” vardı, qat-qat parça, kəlağayı, qənd, çay, mampası vardı. Dəmirçinin evində çay, şirniyyat qurtaranda gəlinlər Millidən borc qənd, çay alırdılar.

İsfəndiyar kişi asta-asta, sakit-sakit nə isə deyib ona mane olmaq istəyən feldşerə əhəmiyyət vermədən babanın əllərini ovuşdurmaqdan ayrı cür zövq alan nəvələrinin birini sağa itələdi, birini sola, yorğanı üstündən atıb, ağ tuman-köynəkdə, taxtdan düşdü. Bir halda ki, “yaralı gədə”, yəni çoban Abdullanın oğlu, Komsomol Bənövşənin qardaşı Mağar “sappadansağ” olub gəlmişdi və Pəri ilə Tubuya “nəsə şad xəbər gətirmişdi” və buna görə də Milli Pəri ilə Tubuya “əlinizi cibinizə salın”, – deyirdi, İsfəndiyar kişi lap belə ölüm yatağındada olsa, yataqdan qalxmaya bilərdimi?! Əmma...

“şad xəbər” vardısa, İsfəndiyar kişi, can ağrısından ufacıq olub ayağa qalxammayan Mağarı görmək və çobana gözaydınlığı vermək üçün dağ ətəyindəki qoyun yatağına – kahaya gedəndə Mağar niyə deməmişdi o şad xəbəri?! Qoca şalvarı qıçlarına keçirib əlini çəkməsinə atdı. Köksündəki ağrı azalsa da, sinə dolusu nəfəs ala bilmədiyinə görə səndələsə də, hökmən getmək istəyirdi.

– Deyirəm, ay Qurban, əsgəri aydınca görmüşəm. Belində, deyirəm, arxa çantasınacan görmüşəm, drizindən düşdü, göldən şığanıb kəndə gəldi. Deyir, gözün alacalanıb, a kişi, əsgər gələ, kənd də belə lal-dinməz ola? Bu da sənə səs-küy, ay Qurban!

Hər gün araba yağı ilə yağlandığından dərisi sürçəkləşmiş çəkmələri çəkişdirib, ayaqlarını basdıqca qocanın əlləri titrəyirdi. Hacı onun dediklərini başa düşmədən, çəkmələri dartışdırdıqca tir-tir əsən, tamam taqətsiz əllərə, tamam qansız sifətə, dəmirçixanadakı görükdən də betər enib-qalxdıqca xışıldayan enli sinəyə baxa-baxa başını bulayırdı.

– Pis olacaq, İsfəndiyar əmi. Geyinmə! Getmə! Pis olacaq! – deyirdi.

Gəlinlərdən hansısa içəri girdi, yorğan-döşək yığınının arasından nə isə çıxardıb qapıya yönəldi. Qoca çəkmələri ilə əlləşə-ələşə, qan-tər içində, tövşüyə-tövşüyə soruşurdu:

– Nə xəbərdi?! Nə şad xəbərdi elə, a qızım?! Balalarımdandımı?! Bə o vaxt, görüşünə gedəndə niyə bir şey demədi mənə?

Kandarda saç-birçəyi üzünə dağılmış qara-bənöyüş, gözəl çöhrə göründü.

– Axşamın xeyir olsun, ay baba, mənəm – Milli. Boş-boşuna muştuluq istəmərəm mən. Canım çox ağrılıydı deyir Mağar, adım da yadımdan çıxmışdı deyir, İsfəndiyar əmiyə nə deyə bilərdim? Gəlsin, indi deyəcəm deyir.

– Bə soruşmadınmı, a Milli balam, nə xəbərdi elə?

– Necə yəni nə xəbərdi, baba?! Rəhman qardaşnan Bəhmən qardaşdandı da. Uzun əhvalatdı deyir, gəlsin, İsfəndiyar babanın özünə danışacam deyir.

– Şad xəbərdi, hə?!

– Bə nə, ay baba! Sağ-salamatdılar Rəhman qardaşnan Bəhmən qardaş. Üzlərini görməmişəm, deyir, sekretni yerdədilər, onçun məktub yazammırlar deyir.

– Sekretni... – Qoca duruxdu, elə bil nəyə isə təəssüfləndi, hətta köksünü ötürdü. Sonra yenə çəkməsinin boğazından yapışıb dartışdırdı. – Nə olar, sekretni olsun... Görməyib, deməli, üzlərini görməyib. Təki salamat olsunlar, elə-belə soraqları gəlsin... Özüm yaxşı-yaxşı danışdıraram Mağar balamı... Deməli, bir nəfər də sağ-salamat qayıtdı. Şükür, şükür! İdarədə deyirdilər iyirmi dörddə anadan olanları da çağırırlar. Kolxoz, deyirdilər, uşaq-muşağın umuduna qalacaq... Əmbə görürsünüzmü bir ucdan getsə də, gələn də var! Bir yandan bağlayan bir yandan açır! Ay bala, a Hacı, niyə elə birtəhər durubsan? Sevinmirsənmi?

Feldşer çox narahat idi.

– Niyə sevinməyim, İsfəndiyar əmi? Belə şeyə də sevinməmək olarmı?

– Bə niyə belə birtəhərsən?

Feldşer yorğun-yorğun çiynini çəkdi.

– Mən həməşə birtəhər deyiləmmi, İsfəndiyar əmi, – dedi və birdən qızarıb başını aşağı saldı.

Qoca gəlinlərinə baxdı. Onlar da qızarmışdılar.

Uzaqdan Millinin səsi eşidildi:

– Ay Xeyrə xala, ay Xeyrə xala! Ay Seyid əmi!..

İsfəndiyar kişi bu səsə qulaq asıb, yenə gəlinlərinə baxdı.

– Yetimə ləyaqətdi bir şey verdinizmi, a qızım?

– Verdik, baba. Kəlağayı verdik.

– Yaxşı eləyibsiniz. Dayısı gedəndən bəri o yazıqda da sir-sifət qalmayıb. Beş verst vağzala, beş verst bəri, onca verst yol gedir-gəlir hər gün yetim...

– Qoca əli çənəsində susub, yavaş-yavaş əyilib, birdən üzüüstə döşəndi.

Feldşerin boz sifəti qaraya çaldı.

– Dedim axı pis olacaq!

Qocanı yenə infarkt vurmuşdu.

## 9

Düz bir ay, feldşerin dediyi kimi, “pastelni rejimdə” – yorğan-döşəkdə qaldı. Ay tamamında kənd arasına, idarəyə ayaq açdı. Daha heç bir ağrı-acısı olmadığına görə, səhərlər Hacını həlim gözlərlə qarşılayırdı.

– Loğmanım gəldi. Yay yaman girib, ay loğmanım, başına dönüm. Quyunun üstü sərindi. Orda oturaq... – Belə söz-söhbət olurdu. Mağarın “sağ-salamatdılar”, “sekretni yerdədilər” sözlərini Millinin dilindən eşidəndən sonra qoca elə həmin gecə gəlinlərini Komsomol Bənövşənin evinə göndərib, bir də onları danışdırmışdı. Sonra feldşeri danışdırmışdı. Sonra da qocaya “dəyməyə gələn” sovet sədri gəlinlərlə feldşerin danışdıqlarını demək olar ki, eyni sözlərlə təkrar eləmişdi:

– Deyir, havaxt, nə təhər yaralandığımı bilmədim, gözümü açanda gördüm nasılkada[1], sanbatdayam[2]. Xirurq elə bizim bu Hacı təki arıq oğlanıydı, deyir, baldırlarımdan çoxlu minamyot askolu[3] çıxardıb böyrümdə stolun üstünə yığmışdı. Bir ovuc askol qəzetə bükdü. “Yadigar saxla” dedi, deyir. Oturdu yanımda, papiros çəkdi, deyir, sonra xəbər aldı ki, hardansan? Eşidəndə ki, burdanam, yaman sevindi, deyir, haman xirurq Mağara ki, sizin kənddən Rəhman, Bəhmən adında iki dəmirçi qardaş var burda. Budyonnunun konnı armiyasında[4] nalbənd olublar əvvəlcə, sonra sekretni kurs qurtarıb sekretni silah qayıran olublar. Məktub yazmağa izin verilmir, deyir, o sekretni yerdən. Gözün aydın, İsfəndiyar kişi. Vaxt olar, inşallah, məktub da gələr.

Gəlinlərdən, Hacıdan fərqli olaraq, Qılınc Qurban “şad xəbər”in axırında başqa sözlər demişdi:

– Çoban Abdulla sürüdə tərifli bir qoçunu qurban deyib Mağara. Dedim o qurbanlıq qoçdan nə fayda Qılınc Qurbana? Sən ayrı bir erkək kəs, yanına da beş ulduz[5] qoy dedim. Eşidəndə ki, belə hala düşübsən sən, dedim günah məndədi, İsfəndiyar kişini yaman

---

[1] Xərək

[2] Sanitar batalyonu

[3] Qəlpə

[4] Suvari ordu

[5] Konyak

sıxma-boğmaya saldım o axsağa görə, ürəyinə salıb dözməyib kişi, dedim, saxla erkəyi, dəmirçi ayağa duranda kəsərik, yeyərik-içərik ürək açıqlığıynan.

Bir şərtnən: axsağın daha ayağı dəyməsin bura, İsfəndiyar kişi! Vayonkom Talıbova zəng vurdum vağzaldan, dedim tapançan məndədi. Bir yaxşı vayenni vraçı[1] var orda Talıbovun. Onu göndər, yaxşı-yaxşı baxsın bizim dəmirçiyə dərman-dava yazsın, dedim.

Yasdığın yüngül olsun, İsfəndiyar kişi. Toxta daha. Şükr elə ki, xəbər çıxdı, Ali Baş Komandana məktub yazmağa ehtiyac qalmadı. Elə sekretni yerdə işləyənləri Sovet hökuməti ayrı cür qoruyur, İsfəndiyar kişi! Burunları da qanamıyacaq oğullarıyın! Əfəllik eləmə, axsağa açıq de ki, söz-söhbət yayılıb, daha ayaq basma bu tərəfə, açma bu qapını!..

Şad xəbərə beləcə, yeni qanqaralıq qatışdı.

"Vayenni vraç" – dümağ, dolu sifətinin altında dumağ buxağı olan adam, mayor Talıbovun "M-1" maşınında gəlib müayinə eləyib bir neçə resept yazıb Hacıya verdi, feldşerlə rus dilində nə isə danışıb getdi.

Qılıncın kəskin tapşırığına – qadağasına baxmayaraq, ötən bir ayda Hacı hər səhər, bəzən hətta gecələr də gəlib "vayenni vraç"ın resepti ilə öz puluna aldığı "iynələri" vururdu. Və İsfəndiyar kişi sıxıntılı köksünün genişləndiyini, günü-gündən möhkəmləndiyini hiss edirdi, sevinirdi ki, ailə başsız qalmayacaq. Əmma... Boz atın nal səsləri yenidən eşidildi. Qılınc şallağı çəkməsinin boğazına sancıb qəzəbdən hətta əli əsə-əsə papiros yandırıb taxtın ayaq tərəfində oyan-buyana addımlaya-addımlaya dəhşətli sözlər dedi:

– İnsan nə qədər əfəl olarmış! Dağ gövdəli dəmirçi, adlı-sanlı mötəbər ağsaqqal niyə belə kəsərsizdi?! Mən bədbəxt nə qədər fırlanmalıyam bu evin dörd dövrəsində, neçə dəfə xəbərdarlıq eləməliyəm sənə ki, bu gəl-gedin axırı yaxşı olmuyacaq?!

– Nolub ki, a Qurban?! – qocanın gözləri böyümüşdü.

Qılınc yönəlib pəncərənin altında fitili aşağı çəkilmiş lampanın işığını artırdı, taxtdan solda yorğan-döşək yığınınıdan bəridə əlvan naxışlı kilim üstündə uşaqlara yer döşəyib, özləri də yatmağa hazırlaşan gəlinlərə:

---

[1] Hərbi həkim (idarələrdə işlər rus dilində aparıldığına görə məişətə çoxlu rus sözləri keçirdi)

– Zəhmət çəkin beş-on dəqiqəliyə çıxın. Kişiynən söhbətim var, – dedi, gəlinlər çıxandan sonra isə açıq qapıdan eşiyə: – Gəl, ə! – dedi.

Hacı brezent çantası böyründə, göy köynəkli bir saz əlində, sol ayağının üstə çökə-çökə, yorğun-arğın, içəri gəlib, xəstəsinə salam verib işığa yaxınlaşanda İsfəndiyar kişi Çürük Aşığın qara cürəsinin köynəyni bir baxışdan tanıyıb, istər-istəməz maraqlandı ki: – Bə Çürük özü hanı?

– Çürük özü gələmmədi, İsfəndiyar əmi. Sovetliyimizdən əskərliyə gedən çağırışçıların otpravkasında çalıb oxuyub, əldən düşüb. Elə sazı verdi. O tilsim söhbətini Qurban əmi deyib ona, tapşırıb ki, sazını göndərsin, könlün açılsın.

Bir az əvvəl Qılınca açıq narazı baxan qoca birdən dəyişib hətta köyrələntəhər oldu.

– Pəh, Pəh! Nə nəzik ürəyin varmış, a Qurban! Əmbə... məndə saz çalası halmı var, başına dönüm!

– Sən çalmayacaqsan. Bu çalacaq, oxuyacaq, – deyib Qılınc Hacını göstərdi.

Heyrətdən İsfəndiyar kişinin ağzı açıq qaldı.

– Hacı?! Sən nə vaxtdan çalan, oxuyan olubsan, ay oğul?!

Hacının başı bir az da aşağı enib sinəsində qaldı. Çünki Qılınc kəsirdi:

– Bəhmənin sazında öyrənib! Deməmişəm sənə, indi deyirəm. Sən idarəyə gedəndə bu otururdu quyunun dikdirində: "Gətirin özüm bir az dınqıldadım, gedim". Dəfələrnən dara çəkmişəm, xəbərdarlıq eləmişəm ki, belə eləmə! Kənardan baxanlar var! Molla Gülən təki ziyankar adamlar var!.. Daşa deyirəm, divara deyirəm elə bil. Elə gəlir! Elə gəlir! İnsan deyil bu yerəbaxan. Daşdı, divardı! "Dınqıldadım, gedim!" "Dınqıldadım, gedim!.."

– Dayan bir, a Qurban! – İsfəndiyar kişi, nəfəsi təngimiş, əlini qaldırdı. – Dayan bir! Asta danış! Hirsdi danışma! Ay oğul, başına dönüm, a loğmanım, bə mənə niyə deməyibsən ki, gəlirsən "dınqıldadırsan?!" Gəlinlərə tapşırmamışammı, sənə də deməmişəmmi ki, əl vurmaq olmaz Bəhmənin sazına?!

Hacı başını qaldıra bilmədi.

– Bağışla, İsfəndiyar əmi, səhv eləmişəm.

– Necə yəni "səhv?!" Belə də səhv olar, ay oğul?!

Hacı cürəni taxtın küncünə qoyub:

– Səhvdi, – dedi. – Mağar gələndə o axşam birinci mən gördüm onu o göldən şığananda. Dedim biz hazırlaşırıq sənə qoltuq ağacı aparaq, sən belə at təki çapırsan, nədi bu belə?! Dedi, açığı, çoxdan sağalmışam mən, ay Hacı. "Vayenkom Talıbov çağırtdırıb, kəmisyəyə" saldırıb, deyib "qodnısan[1], günü bu gün otpravka[2] eliyəcəm səni". Dədəsi yanındaymış Mağarın. Hazırlıqlı gedibmiş. Çıxardıb on min Talıbovun özünə verib, on min də həkimə. Talıbov çoban Abdullaya tapşırıb ki, yataqdan[3] buraxmasın oğlunu. Demə, axşamlar oğlunu qışqırda-qışqırda duz bağlayırmış yara yerlərinə, sabaha yaxın qaynar suynan yuyurmuş duzu ki, mən gedəndə şübhələnməyim yaralardan. Açdı dedi bunu mənə Mağar. Çox qəmləndim. Allah kəssin pis işi. Əmbə həm də yaman sevindim. Dedi "səni allatmağımın əvəzində qardaşlığın Rəhmannan qardaşı Bəhmənin barəsində şad xəbərim var..." Getdik, Bənövşənin evində oturduq, danışdı. Çıxdım sevindiyimdən keçi təki tullana-tullana yüyürdüm ki, muştuluqlayım sizi. Gəldim gördüm belə iş gəlib başına. Biləndə ki, yuxuda gördüyün təki "Təvər sazda Divani" eşidibsən, ürəyim parçalandı, İsfəndiyar əmi. Özün bilirsən, nə təhər bağlıyam mən bu evə. Bir oğul da özümü sayıram sənə. Elə o gecə getdim Çürüyün yanına, danışdım əhvalatı. Dedim sazsız-sözsüz qalıb kişi. Üççə günə öyrəndim "Divani"ni. Dördüncü gecə Xızr Abı da qulaq asdı, bəyəndi. Sabahısı manqa arabasının qabağına getdim, Pəriynən Tubuya dedim indi ki belə xəbər gəlib qardaşlarımdan, olarmı gəlim "Divani"dən başqa eşitdiyim-bildiyim havaları da öyrənim o sehrli sazda, tilsimi-filanı rədd eliyək getsin? Pəri dedi "Divin canı şüşədə olan təki babamın canı Bəhmənin sazındadı. O tilsim söhbətidi babamızı sındıran. Gəl çal, öyrən, sağaldaq babamızı!" Budu, İsfəndiyar əmi... Əmbə heyif, səhv eləmişəm. Qurban əmi düz deyir, Molla Güləni nəzərə almamışam. Ambulatoriyaya gəldi o zalım adam, dedi otur stoluyun dalında, yaz: "Rayon NKVD nəçənniyi Gülənov yoldaşa. Bununla yazıb bildirirəm ki, Qurbanlı kənd sakini dəmirçi İsfəndiyar Nəqşi-Bəndi təriqəti müridi. Sovet hökuməti qurulandan əvvəl atası Mənsurnan

---

[1] Yararlısan (*hərbi xidmətə*)

[2] Göndərmək (*hərbi qulluğa*)

[3] Y a t a q – qoyun kahası

Amasiyaya gedib, Türkiyəynən əlaqəsi olub. Sonra Qazax rayonunun Kəmərli kənd sakini, Nəqşi-Bəndi alimi İsmayıl əfəndinin müridi olub. İndi də əlaqəsi var o məşhur pantürkist[1] alimnən. Qurbanlıda pantürkist təriqət yayır...” Çox təkid elədi, yazmadım. Oturdu, özü yazdı. Dedi qol çək. Dedim ölləm, çəkmərəm... Başladı böhtan yağdırmağa...

Hacı qapıya tərəf baxıb susdu.

Qılınc həddindən çox papiros çəkdiyinə görə boğula-boğula öskürüb, barmaqlarının arasında korun-korun tüstülənən “Kazbek”i kandara atdı, həmişə əsəbiləşəndə olduğu kimi, dəstəsi qızılı rəngdə cüyür ayağından, zərif şallağını çəkməsinin boğazından çəkib asta-asta dizlərinə döyməyə başladı.

– Hə! Niyə danışmırsan nə böhtandı elə?! Danış! İsfəndiyar kişi bilməlidi!

Hacının “petlisə”ləri sökülmüş əsgər köynəyinin sinəsi islanmışdı. Üçpara kəndin əsgər kişiləri kimi, yay aylarında həmişə ülgüclə qırxdırdığı başından, boz kepkanın kənarlarından da tər axırdı. Qoca aydın görürdü ki, meşin pencəyin içində, meşin şapqanın altında bürküdən o qədər də sıxılmayan Qılıncın əksinə, Hacının belə pis tərləməyi xəcalətdəndi. Qoca özü də xəcalətlənirdi.

– Lazımdımı, a Qurban?! Özün danışmayıbsanmı mənə o qansız adam nə istəyir Hacıdan?! Çox ağ eləyibsə, milisənerini göndərərsən, çağırtdırarsan idarəyə, özüm gedərəm camaatın içində cəmdəyinə tüpürrəm onun! Aydan arı, gündən duru, zəhmətkeş adamam. Lazım gəlsə, lap NKVD Gülənovun özünün də cəmdəyinə tüpürərəm! Niyə çaxnaşdırır o buraları?! Sən, özün demişkən, sinəsi ordennən dolu bolşevik, o Gülən uşağını yerlərində oturtmaq əvəzinə, niyə elə Hacının yaxasından yapışıbsan, a Qurban?!

– Gülən uşağı çox böyük yerlərə bağlıdı, İsfəndiyar kişi. Bir tərəfləri erməndi bunların. Tiflisdə Zakavkazski Vayenni Sovetin iclasında Mikoyannan görüşüblər, tapşırıq alıblar ki, Tiflisin yanındakı o Təhlə[2] kəndlərində, Borçalıda, Başkeçiddə, Qaratəpə –

---

[1] SSRİ-də Türk millətinə mənsubluğu açıq demək və yazmaq qadağan idi. “Yevrey”, “İuda” (EyOd) dilə gətirilmirdi. Şəxsən Stalinin və erməni lideri Mikoyanın başçılığı ilə “pantürkizm”ə qarşı qanlı repressiya gedirdi. Adı çəkilən İsmayıl əfəndi – “Nəqşi Bənd” alimi repressiya qurbanlarındandır.

[2] “T ə h l ə” – OdƏrcəsi: Ağ TəkƏl. Hal-hazırda “Ağ Təhlə” də deyilir

“Qardabani”də, Qazaxda, Gəncəbasarda öz adamlarını yerləşdirsinlər NKVD-də, nə qədər SafAğ alimi, təriqət əhli-filan var, siyahıya alsınlar hamısını. Bir dənə də savadlı pantürkist adam qoymaq olmaz deyib Mikoyan. Vaxtı çatanda Stalin yoldaşın özünün əmriynən yığışdırılacaqlar deyib. Bildinmi iş nə yerdədi! Bolşeviklər partiyasının üç, beş rəhbərindən biridi Mikoyan! Stalinin sağ əlidi! Bizim Mircəfər Bağırova öl desə, ölür Bağırov, qal desə qalır. Göydə günəş təki işıqlı rəhbərimiz Nəriman Nərimanovun başını yeyənlərnən pıç-pıç eliyənlərə neyniyə bilər Qılınc Qurban, İsfəndiyar kişi?! Nərimanov kitab yazıb. “Bahadır və Sona”. Bahadır türk cavanıdı deyirlər, Sona erməni qızıdı. Ermənini türknən dost, qohum-qardaş olmağa çağırıb Nərimanov. Bə erməni neyləyir? Dedim. Demədiklərimi özün bilirsən. Vaxt gələr, inşallah, əllərini, dillərini kəsərik bu Gülən uşağının. Hələlik meydan sulayırlar. Neynəyim?! Otuz yeddi, otuz səkkizinci illərdə sındırıblar bizi. Bu tərəflərdə az-çox çəkindikləri adam varsa, o da elə mənəm. Cəmdəyə tüpürmək nədi, gülləynən deşik-deşik eliyərəm cəmdəklərini! Hələlik dövran onlarındı, İsfəndiyar kişi. Buna görə də Molla Gülənin yox, Hacının yaxasından yapışmışam ki, böhtan yağ-dırmağa əsas verməsin! Danış, ə! Kişi bilməlidi Mollanın dilindən çıxanı.

Hacı yaman dara düşmüşdü.

– Deyəmmərəm, – dedi.

Şallağın ucu çəkmənin boğazına şappıldadı.

– Deməlisən!

Hacı lap yazıqlaşdı.

– Qurbanın olum, Qurban əmi! İsfəndiyar əmi dözməz. Açığı, heç mən də dözmərəm. Özümü öldürrəm!

Şallaq daha bərk şappıldadı.

– Namussuzluq damğasıynan yaşamaqdan ölüm yaxşıdı! De! Qoy bilsin nə deməkdi sənin bu evə bağlılığın! Yaxın gəlməməlisən sən bu evə! Məndən olsa, lap belə çıxıb gedərsən Qurbanlıdan! Orta kənd Tahirlidə də xətrini istəyirlər sənin, Aşağı kənd Qonaqlıda da. Məvacibnən dolanırsan. Az-çox dolanışıqlı adamlardan aldığın haqqı da dərmənə verirsən, müftə dərmən paylayırsan camaata. İclaslarda deyirəm mən bu dediyimi. Hörməti ancaq elə zəhmətnən qazanmayıbsan sən, bu ədalət qılıncı bolşevik qaldırıb sənin avtoritetini! Bu ədalət qılıncı bolşevik də kəsməlidi indi sənin

avtoritetini! Çünki nə qədər zəhmətkeşsənsə, nə qədər səxavətlisənsə, bir o qədər də murdarlaşıbsan sən bu dava vaxtı!

Hacı diksinib sapsarı saraldı.

İsfəndiyar kişi asta-asta inildəyirdi:

– A Qurban!.. A Qurban!.. Biz bədbəxtləri bədbəxt eləmə, a Qurban! Nə böhtandı, axı o böhtan?! Bir ay bundan əvvəl o çəməndə sənin dilindən çıxan sözlərdən də ağırdımı?!

Qılınc yenə "Kazbek" qutusuna əl atdı.

– Yox – dedi. – Nə ağırdı ondan, nə də yüngül. Elə o sözlərdi.

– Hə?! Bə indi niyə dedirtmək istəyirsən onu Hacıya?! Dilinə gətirsə, gərək daha üzülüşsün axı bizdən, a Qurban!

Qılınc tüstünü birbaş qocanın üstünə üfürdüyünü hiss eləmirdi. Hiddətdən gözləri oynayırdı.

– Mənim tələbim nədi bə?! Üzülüşməlidi, İsfəndiyar kişi!

Qoca əlacsız susub, istər-istəməz, cürəyə baxdı.

– Bə bu nədi, a Qurban?! Üzülüşməli adamı niyə saznan gətiribsən?!

Qılıncın gözləri bir nöqtəyə dirəndi.

– Başa düşmürsən?! Cürəni gətirtdim ki, sənin yanında çalsın Bəhmənin sazında öyrəndiyi havaları, öz qulağınnan eşit, gör ki, sən – evin kişisi evdə olmuyanda bu nakişi nə qədər gəlib-gedib, Molla Gülən qansızın "ikisini də birdən döşdəyib" deməyinə necə əsas verib!

Qoca bir daha inildəyib, tappıltı ilə yastığın üstünə düşdü.

– Hacı!.. Ay Hacı! Yaxın gəl... – Səsi zəifləmişdi. – Allah insaf versin Qılıncımıza. Kəsdi... Yaman kəsdi... Əmbə sən ayrılma məndən, oğul! Gör necə müddətdi ülfət bağlamışıq sənnən. Kim nə deyir, desin! Ambulatoriyada yox, Molla istər lap kəndin ortasında car çəksin! Camaat tanımırmı mənim bu cüt göyərçin balalarımı?! Rəhmanın baldırı sınanda necə yelpələng təki şığıdığını, o cür sınığı necə sağaltdığını indi də danışırlar. Necə yəni "dözmərəm?!" Necə yəni "özümü öldürrəm", ay oğul?! Nə qədər ki, nəfəsim üstümdədi, qoymaram sənin başından bir tük əskik olsun! Allah insaf versin Qurbana, qından çıxanda kəsməsə rahat olammır! Sənnən barabar mənim də qanımı axıtdı. Əmbə ölmərəm. Qorxma! Rəhmanımnan Bəhmənim gələnə qədər kimdi Əzrayıla can verən! Köynəkdən çıxart o cürəni! Kökləyə bilirsənmi?

Hacı qan-tər içində, ağır-ağır başını buladı.

– Yox... kökləyəmmirəm... Çürük deyir aynan yox, ilnən də öyrənmək olmur sazı kökləməyi. İsfəndiyar düz bir il şagirdlikdən sonra öyrəndi, deyir... – Yazıq feldşer, İsfəndiyar kişinin kişiliyindən sevinib, səsi titrəyə-titrəyə bir xeyli boş-boş danışdı.

Qoca da danışırdı:

– ...Baş açmıram, kökləyəmmirsənsə, bə Bəhmənin sazında necə çalıbsan o biri havaları? Bu saz keçən il köklənmiyidi. "Divani" üstədi. "Dübeyti"də çalınır bu kök üstə, "Təcnis" də... çox şey olar...

Qılıncın susmağından, bir əlilə şallağın dəstəsini dizinə döyə-döyə, o biri əlində papirosu tez-tez dodaqlarına aparmağından təhlükə hiss olunsa da, qoca da qəsdən sözünə ara vermirdi:

– "Gəraylı" da çalmaq olar... "Qaraçı" da. Sən nə çalırdın "Divani" kökündə?

– Cəmisi iki hava öyrənmişəm o kök üstündə, İsfəndiyar əmi. "Dübeyti", bir də "İbrahimi"... – Hacı gah cürəyə, gah da gözaltı Qılıncın cüssəsinə nisbətən çox iri görünən əllərinə baxırdı; İsfəndiyar kişinin bu əllərin hərəkətlərinə əhəmiyyət verməməsindən qorxurdu.

– Bir narahatlığım var, ay oğul. "Kök", "kökləmək" deyirəm, o narahatlığımı dilimə gətirəmmirəm... Soruşmaq istəyirəm, soruşammıram... Bəlkə... Dilim qurusun, kökdən düşməyib ki, Bəhmənin sazı?!

– Yox! Yox, İsfəndiyar əmi! Keçən il otpravkaya gedəndə necə kökləyibsə, eləcədi!

Qoca sevinib dərindən nəfəs aldı.

– Eydəndi, ay oğul, Eydəndi! Yəni Allahdandı! Qurbanı olduğumun nəzəri üstümüzdədi! Yoxsa, nə cür saz olur-olsun, bir ildə heç əl vuran olmasa da kökdən düşər. Köhnə dudmanda o yuxudan sonra hər gün yerə uzananda da, sabahlar oyananda da gözümü sazdan ayırammıram, yalvarıram saza: "Kökdən düşmə, ay ürəyim, ay dirəyim, möhkəm dur!" – deyirəm. Şad elədin məni, ay oğul!

Hacı da sevinirdi. Tərəddüdünü boğub soruşdu ki:

– Bəlkə tilsimi sındıraq, İsfəndiyar əmi? Mən, axı, onsuz da sındırmışam tilsimi! İzin ver Təvər sazı çalım! İzin ver!

Qoca duruxdu. Qanı qaçmış sifəti bir az da avazıdı.

– Yox!.. Yox, ay oğul! Mənsiz neyləyibsən-eləyibsən. Əl vurma daha! Simi tərpətsən, lap az-maz kökdən düşmüş olsa... bax buna dözmərəm! Cürəni çal sən. Cürəni çal. Qılıncımız da otursun, bir stəkan çayımızı içsin, dincəlsin. Yoxsa, bu nədi? Gecənin havaxtı eşiyə çıxsan, ya boz atın nal səsini eşidəcəksən, ya Qurbanın öz səsini: "A kişi, niyə yatmırsan? Bir şey-zad olmayıb?!" Çox, çox qayğıkeş adamsan sən, a Qurban. Bəd məsəl var: "El üçün ağlıyan iki gözdən olar". Bəddi! Pisdi! El üçün ağlamaq sənin gözünü birə beş işıqlı eləyib. Görmədiyin, bilmədiyin şey yoxdu bu eldə, obada. Mənim ürəyimi də gör, a Qurban! Çəkmələrini çıxart, əyləş, mütəkkəyə dirsəklən, qulaq asaq görək ferşilimizin bu şəfalı əlləri nə təhər gəzir Çürüyün bu qara cürəsinin pərdələrində. Yaxşı olub öyrənib. Çox yaxşı olub! Adam təkləşəndə saz yaman dadına çatır adamın.

Qılınc susurdu.

Hacı cürəni köynəkdən çıxartdı.

Qara cürə qara palıddan düzəldilmişdi, zaman keçdikcə qara palıd çanaq kömürləşmiş, daşlaşmışdı. Təzənə simlərə toxunanda lap ilk cingiltilərdən otağın havası cingildədi. Hacı "İbrahimi" çala-çala, səsini qısmağa məcbur edən dəhşətli yanğı ilə gözlənilməz bir beyt oxudu:

Ülkər doğub, o da aydan ucadı,
Gələn bəzirgandı[1], gedən xocadı[2],
Bir deyən yox, qardaş, halın necədi,
Məzar sandıq, İbrahimi neylədin?![3]

İsfəndiyar kişi diksinib kandara baxdı. Pəri ilə Tubu orda yanaşı durub səssiz-səmirsiz yanaqları uzunu göz yaşı axıdırdılar.

– Bah, bah! Bu nəydi oxudun, ay oğul?! Ayrı söz tapammırdınmı?!

Qurbanlıda hamı, o cümlədən İsfəndiyar kişi ilə "qoşa göyərçinlər" də bilirdilər ki, "malayeradan qırğın", yəni otuz dördüncü ildə Hacının atası ilə anası yanaşı qəbirlərdə dəfn olunandan sonra dörd yaşlı qardaşı İbiş – İbrahim gecənin bir aləmində "Anam çağırır! Anam çağırır!" – deyib, yataqdan atılıb evdən qaçmışdı.

---

[1] B ə z i r g a n – xaricdən mal gətirən tacir

[2] X o c a – xaricə mal aparan tacir

[3] İbrahim peyğəmbərin (EvƏrimin) gəncliyinə həsr olunmuş rəmzi "dəstan"dan

Hacı uşağı qəbiristanda üzüüstə döşəli tapıb aparmış, əmma səhərisi uşaq yenə evdən qaçıb yoxa çıxmışdı. Bu hadisə Qurbanlıda camaatı sarsıdıb, ətraf kəndlərdə və rayonda səs-soraq salmağa məcbur eləmişdi. Üçpara kənddə bütün evlərdə ən adi hadisələri də öz evinin – ailəsinin hadisəsi bilən sovet sədri isə, hətta qonşu rayonların NKVD idarələrinə də ərizə verib uzun müddət axtarış aparmışdı. Həmin "malareyadan qırğın" ili də sovet sədri, səkkizinci sinifdən yarımçıq çıxıb Komsomol Bənövşənin briqadasında "çörək qazanmağa" başlayan yetimi, yəni Hacını kolxozun idarə heyətənin iclasına çağırıb, heyətin qərarı ilə altı aylıq feldşerlik kursuna göndərmişdi. Altı ayda demək olar ki, hər ay "özü şəxsən" gedib yetimin kursda necə oxumağını yoxlamışdı, "dərs jurnalı"nda "əla" qiymətlərə görə, kolxozun "bölünməz fond" deyilən pulundan mükafat, yağ, pendir göndərtmişdi. O vaxtdan keçən yeddi il müddətində də sovet sədri, kolxozun sədri İskəndər kişiyə – ÇTZ İskəndərə "Axsağı unutma ha!" – deyə-deyə tez-tez mükafat verdirməyi unutmamışdı. İndi, burada "qoşa göyərçinlər"lə, İsfəndiyar kişi ilə birlikdə Hacının özünün də yumulu gözlərindən sel axıtdığı bir məqamda Qılınc Qurban birdən-birə vahimə ilə qışqırıb Axsağı kəsdi:

– Bəsdi! Bəsdi! Belə şeylərnən ürəyimi yumşaldammazsan mənim, maşennik köpəyoğlu! Çıx burdan! Rədd ol! Tez, tez rədd ol, gözüm görməsin səni! Cürəni də götür! Çürük orda, o biri maşennik axsaqnan bacısının başına yığışan qız-gəlinə dastan danışır Abıynan, Abının sazınnan. Qara cürə əlimdə olmuyanda səsim çıxmır deyir. Apar ver! Bu gecədən, bu dəqiqədən etibarən maşennik Hacıdı sənin adın! Axsaq Hacı öldü daha məndən ötrü! Rədd ol!

Gəlinlər, ikisi də eyni tərzdə, əlerini ağızlarına basıb, hönkürtülərini boğub kandardan sağa, sola çəkildilər. Hacı tir-tir əsən əllərlə köynəyi cürəyə geyindirə-geyindirə, gah dərmən-dava ilə dolu brezent çantasına, gah da İsfəndiyar kişiyə baxa-baxa, deyəsən, qocanın nə isə, deyib-danışmasını gözləyə-gözləyə qapıya yönəldi. Əmma qocanın dillənəsi halı yoxdu. Təngnəfəslikdən işgəncə çəkə-çəkə beynində təkrar olunan kəlmələri dilinə gətirməyə çalışırdı:

– Sən neylədin, a Qurban?! Sən neylədin?! Qan tökdün! Qan tökdün, a Qurban!..

## 10

Bu dəfə Aşağı kənd Qonaqlının ambulatoriyasında "sestra"lıq eləyən və elə Sestra çağrılan rus qızının hər gün təkidlə təkrar etdiyi "pastelnı rejim"lə yenə bir ay yorğan-döşəkdə qaldı.

Hər il olduğu kimi bu ilin avqustunda da "pambığın sovka[1] vaxtı" camaat yeddi yüz hektara yaxın sahələrə səpələnib, bir topa alov kimi doğan günəş görünəndən batana qədər "sovka" qurdu yığışdırıb yandırmaqla, hər suvarmadan sonra meşətək qalınlaşıb pambıq kollarını basan bürkülü sirkanları yoluşdurmaqla məşğul idi. Sifətləri, əlləri, bilərləri cadar-cadar gəlinlərdən gündə biri Sestranın tapşırığı ilə ÇTZ İskəndərin icazəsilə "dejurnı" qalıb, gah taxtın, gah da kilimin üstündə, nəvələrinin arasında mütəkkələri, yastıqları yan-yana, üst-üstə yığa-yığa "ölçük" – evcik quran qayınatanı "rejim"dən kənar işlərdən çəkindirməyə çalışırdılar, qaranlıq dünyada qara Divin yamanlığına, işıqlı dünyada Ağquş – Simurğun yaxşılığına, Məlik Məhəmmədin igidliyinə uşaqlarla birlikdə minbirinci dəfə qulaq asa-asa Qılıncın təklifi, idarə heyətinin qərarı ilə ÇTZ İskəndərin hər həftə "şəxsən gətirib", vedrəyə yerləşdirib quyuya salladığı toğlu cəmdəyindən qənaətlə kəsə-kəsə gah şişdə, gah qazanda, gah da "saplıca"da – tavada iştahaçan xörəklər bişirir, bağçadan yay armudu, şöytəli, gavalı, alça yığıb Sestraya verirdilər ki, meyvə sevməyən xəstəsini "vitaminnən leçit" eləsin. "Qara pıspısa"larla topasaçlıların arasında əzizlənən "uşaq kimi şeyə" dönüb dörd divar arasında qalmağı, yalnız hərdən Sestranın icazəsilə qovağın altına, dövrəsi daşlı-qumlu "quyu üstü"nün sərinliyinə çıxırdı, idarə ilə köhnə dudman səmtindən "qaraltı" gözləyirdi ki, "xəstəyə dəyməyə" gələn tay-tuşları ilə söhbət eləsin. Əmma tay-tuşların hərəsinin öz dərdi-azarı, işi-gücü vardı. Feldşer isə o gedən getmişdi. Daha gözə dəymirdi. Qılınc da beş-üç gündənbir, elə yəhərin üstündən "Nə təhərsən?", "Könlün nə istəyir?", "Çürüyü göndərimmi?" – və sair belə suallar verib gedirdi. Könül açan bircə bu idi ki, qovağın "kəlləsində çala yuvasına" tək gəlib tək gedən hacıleylək bu il "cüt gəlib, cüt bala" çıxartmışdı. Əmma könül açanların könül küsdürməyi də vardı. Qovağın kəlləsində dimdiklər şaqqıldayar-şaqqıldamaz qoşa oğulla qoşa gəlin, qoşa nəvələr şaq-

[1] Pambıq sahələrində çox yayılmış xəstəlik

qıltılardakı anlaşılmaz qəm-kədər içində, göz qabağında dayanıb, məngənəyə dönüb qocanın köksünü sıxırdılar. Bu sıxıntı "maşennik Hacı"nı da, onun evdən qovulduğundan sonra baş vermiş qorxunc bir hadisəni də göz qabağına gətirirdi.

Taxtdan düşüb, hələ də "Sən neylədin, a Qurban?! Qan tökdün, a Qurban!" – deyə-deyə Hacının ardınca çıxanda, birinci dəfə olduğu kimi yavaş-yavaş əyilib üzüüstə döşənmişdi. Huşsuzluqdan ayılıb qoluna sancılmış "iynə"nin ağrısını hiss edəndə feldşerin qayıtdığını güman edib sevindi. Əmma Hacı əvəzində sestranın çiyinlərinə tökülmüş, ağa çalan saçları arasında tünd qızılı, dəyirmi sifətini, iri, ala gözlərini, sonra Qılıncın əvvəlkindən fərqli, dərinləşmiş qırışlarla kəsik-kəsik quru üzündə, kədərli, düşüncəli gözlərini gördü. Köksündə yenə də şiddətli ağrı vardı.

Dili elə bil öz-özünə tərpənib, həmin sözləri təkrar etdi:

– Qan tökdün, a Qurban! Qan tökdün!..

Həmişə gümrah, bir az qalınaraq, bir az da xırıltılı səsi əvəzində tamam yad bir adamın zəif, iniltili səsini eşidib, buna xeyli təəccübləndi. Sonra birdən narahat olub gözlərini ətrafına dolandırıb gözləri yaşlı göyərçinlərini, nəvələrini axtarıb, gəlinləri yenə kandarda, uşaqları kilimin üstündə gördü. Əlini qaldırıb gəlinləri yaxına çağırmaq istədi, əlinin "köhnə dudman"dakı böyük çəkic kimi ağırlaşdığını hiss etdikdə, narahatlığı daha da artdı: səs heç, görsəydilər ki, əlini də qaldıra bilmir, yazıq gəlinlər ürəklərini yeyib qurtarardılar.

– A qızım, yaxın gəlin. Balalarımı da yaxın gətirin, sözümü eşitsinlər. Gəlinlərlə uşaqlar, dərhal taxtın ayağına yığışdılar. – Eşidin, birkərəlik arxayın olun... – Qoca bu sözləri hələ birinci dəfə yıxılandan sonra demək istəmişdi, necə olmuşdusa unutmuşdu. İndi mütləq deməli idi ki, gəlinləri sakitləşsinlər.

Nəfəsinin düzəlməyini gözləyib yenidən başladı:

– Eşidin... arxayın olun, lap yüz yol yıxılsam da, mənə heççə şey olası deyil. Qoşa gedənlərim qayıdana qədər əzrayıla can vermərəm! Etiqadım var, ölmüyəcəm! Qurban deyir bu zəmanənin sahibi Stalindi. İyirminci ildə bu kənddə füqərayi-kasibə firqəsiynən Nərimanova birinci mən yaşasın demişəm. Səndən vurtut altı ay sonra partiyaya girmişəm mən. O vaxt Leniniydi, Nərimanovuydu o zəmanənin sahibləri, indi Stalindi, ona da yaşasın deyirəm, Ali Baş Komandanlığında möhkəm olsun, bu ağır

davadan çıxartsın milləti!.. Əmbə bu yerin göyü də var. Bilirsiniz, Eylərdi cəmi bəşər övladının pənahı! Əgər mən ölmüyəcəm deyirəmsə, inanın ki, mənə dedirdən var bunu!.. – Qılıncın yanında gəlinlərin ikisi də yerə baxırdı. İkisi də yaşmağı lap yuxarı qaldırmışdı. Dillənmirdilər. – Eşitdinizmi nə dedim?

– Eşitdik, baba. Eşitdik.

– İnandınızmı ki, ölmüyəcəm?!

– İnandıq, baba... İnandıq. Bu kənddə inanmıyan yoxdu sənin inandıqlarına, baba!

– Lap arxayın oldunuzmu ki, ölmüyəcəm?!

– Olduq, baba, olduq.

– Di gedin ocağınızı qalayın, samovarınızı qoyun. Neçə vaxtdı ayaq açıb, əmbə heç hörmət eliyəmməmişik hörmətli qonağımıza!.. Altdan-üstdən danışan deyiləm mən, a Qurban. O bədbəxt burda olanda ağır söz dedim. Əmbə mən bilirəm kimsən sən. Hörmətini itirmərəm, a Qurban!

Hörmətli qonağın sifətinin qırışları boğuq qaraya, qırışların araları isə sarıya çalırdı. Taxtın küncündə oturub, qabağında qırmızı ulduzu parıldayan şapqasını qaşlarının üstünə basıb, fikirli-fikirli pariros çəkirdi. Qatı tüstü ağzından, burnundan yavaş-yavaş çıxıb şapqanın günlüyü altında göllənirdi, başını çulğalayıb çevrə-çevrə yayılırdı.

Birdən sərt hərəkətlə başını qaldırıb taxtın o biri küncündə oturan Sestraya:

– Bu kişinin etiqadı ürəkdəndi, – dedi. – Ölmüyəcəm deyirsə, deməli, ölmüyəcək. Aparıram bunu Çürüyə, Abıya qulaq assın. Komsomol Bənövşənin o maşennikiynən özü söhbət eləsin, toxtasın!

Sestranın üzündə etiraz görünsə də dillənmədi.

İsfəndiyar kişi isə elə heyrətli çevikliklə dikəldi ki, hətta özü də heyrətləndi.

– Yaşa, a Qurban! Ürəyinə qurban olum! Səhv eləməmişəm mən, nazikdi ürəyin! Nə qədər əzazil adamsan, o qədər də rəhmlisən! Gedək! Gedək! Düzü, a Sestra qızım, vayenkom Talıbovun göndərdiyi doxturnan Hacının məni yorğan-döşəyə salmağıynan, sənin də “Pastel! Pastel!” – deməyiynən heç razılaşammıram ürəyimdə. Nə naxoşluğum olub ayaq üstə keçirmişəm ömrüm boyu...

## 11

Köhnə dudmanın qabağında "meydan" adlanan, tapdanmaqdan otu-ələfi gedib sarımtıl gilli torpağı çıxmış köhnə xırmanlar yerindən o yanda, ay aydınlığında ağ daşları birər-birər seçilən ikimərtəbə evin birinci mərtəbəsində, örtüksüz pəncərələr arxasında iki lampa yanmağından da məlumdu ki, orda yığıncaq vardı. Çoban Abdulla bir dəfə bu yaz, Komsomol Bənövşə "partkom" – partiya təşkilatçısı seçiləndə qızına qoç qurbanı demişdi, bir də Mağarı "kəmisyəyə saldıranda" oğluna qoç qurbanı demişdi. Evin böyründə, mal töyləsi ilə divarın arasında alovlanan uzun ocağın üstündə qoşa qazandan və töylənin çardağının altında ağaran dərilərdən məlumdu ki, qurbanların ikisi də kəsilmişdi. Əmma partkomluğa keçəndən bəri "oruc-morucu", "qurban-murbanı" xoşlamayan Komsomol Bənövşə qurban paylarını evlərə paylamayıb, özü kimi "ərsizləri" – dulları, "əzizlərindən qara kağız gələn" qız-gəlini, bir də Milli – Milliyə kimi yetimləri çağırmışdı ki, həm qismət kəssinlər, həm də aşığa qulaq asıb xoş hal getsinlər. Hər şeydən xəbərdar Qılınc, Bənövşənin bu işindən razı danışsa da, "sapsağlam baldırlarını topa-topa bintnən sarıtdıran maşennik"ə görə hədsiz narazılığını – qəzəbini də gizlətmirdi. İsfəndiyar kişini taybatay açıq qapıdan xüsusi hörmətlə içəri ötürüb kandardan adlayar-adlamaz alçaq tavanlı geniş otağın dördündə – yuxarısındakı stolun böyründə "partkom kabineti"ndən gətirilmiş böyük kresloda yayxanıb bintli qıçlarını qabağa uzatmış Mağarı görəndə burda da qəzəbini gizlətmədi:

– Bir ona bax, sən Allah, a kişi! Gör camaatı necə əbləh yerinə qoyublar! Bu nə partkomluqdu, əşi?! Dilim yanaydı sənin namizədliyini verəndə, a Bənövşə! Bu dərəcədə də maşenniklik olarmı?! Neyləyim indi mən?!

İsfəndiyar kişi uc-uca calaqlı kilimlər, dəyirmi döşəkcələr üstündə iki divar uzunu iki qabaq-qarşı cərgə ilə ipcin-ipcin bardaş qurmuş, yüngül çit geyimli, kəlağayılı, qıymaçalı qız-gəlinə – "kəndin bədbəxtləri"nə baxıb, belə bir yığnaqda sovet sədrinin qanqaralıq salmağından xoşu gəlmədiyini gizlətmədən, astadan:

– Yaxşı deyil, a Qurban, – dedi.

Əmma Qılınc özündə deyildi. Gözlərini dümağ ağaran qıçlara zilləyib, tüfəngi sol çiyninə keçirib, pencəyin sağ cibindən qoşa

tiyəli iri bıçaq çıxartdı. Mağara doğru şığıyıb, bıçağın kiçik tiyəsini əvvəlcə bir qıçın dizinin yanından bintin altına saldı, xışıltı ilə kəsib sarğını çıxartdı, sonra o biri qıçın sarğısını kəsdi, balaqları cırılmış sarı qalife şalvardan irəli uzanıqlı qıçların hərəsinə bir təpik ilişdirib qız-gəlinə tərpəf döndü. Gözləri hədəqədən çıxırdı. Qara, qaysaqlı dodaqları titrəyə-titrəyə, səsi haçalana-haçalana qışqırdı:

– Gedənlərinizin belə qayıtmağını istiyərsinizmi?!

İki cərgənin ikisi də tutulmuşdu. Heç kəs dillənmirdi. Gecdən-gec, quru-taxta sinəli, quru-taxta sifətli, ağbirçək arvad – alverçi Xeyrə dal divarın dibindən dillənib, dərdli-dərdli:

– Lap belə əlinin, qolunun biri olmuyaydı, şikəst gələydi, belə gəlmiyəydi, ay ispalkom!– dedi.

Qılıncın barmaqları “Kazbek” qutusunu eşələyirdi.

– Dünyagörmüş arvadsan sən. De görum, belə biabırçılıqdan sonra Bənövşə qala bilərmi partkomluqda?!

Xeyrə arvad ağır-ağır başını bulayıb, stolun arxasında ayaq üstə donmuş, avazımış ətli-canlı partkoma baxıb bu dəfə dillənmədi.

Bənövşə özü asta, boğuq, hətta bir qədər xırıltılı səslə:

– Qardaşımnan barabar məni də bədbəxt elədin sən, Qurban kişi, atamı da bədbəxt elədin! – dedi.

– Bunu sən gərək qardaşın gələn günü fikirləşəydin!.. – Qılınc əlləri əsə-əsə papiros yandırdı. – Mənmi bədbəxt elədim?! Sən, partkom, niyə razı oldun belə şeyə?!

Bənövşənin avazımış üzü göyə çaldı.

– Bu kənddə... üçpara kənddə hamıya məlumdu ki, otuz doqquzuncu ildə Fin müharibəsində ərimin üstünə minamyot snaryadı düşdüyünü öz gözünnən görən rus kapitanı iki dənə qırmızı ulduz ordeni, bir “za otvaqu” medalı gətirib, o meydanda çıxış elədi, ayıb olmasın, bir gecənin gəlini olan bu Komsomol Bənövşənin igid həyat yoldaşını çağırışçı cavanlara nümunə göstərdi!.. Bağrıma qara daş basdım, dörd ildə üçpara kənddən məni istiyən cavanların hamısını rədd elədim, dedim: “Murtuzum ölməyib məndən ötrü!” Sən necə bolşevik Qılınc Qurbansan, mən də eləcə Komsomol Bənövşəyəm! Sənə kim ixtiyar verir belə şey eləyirsən burda?! Dastanda oxumuşuq: “Ər eldən gələr, oğul beldən gələr. Qardaşı hardan allam?!” Qardaşdı bu! Canım-ciyərimdi mənim! Dədəm onu otpravkadan saldırıb gətirib baldırlarına duz bağlıyan günü başa düşdüm ki, gizlin qalmıyacaq bu, vayenni tribunala veriləcək qar-

daşım! İlan kimi dil çıxartdım, yalvardım dədəmə, razı olmadı. Buraxmadı oğlunu. Neyniyək indi, yoldaş sovet sədri?! Qurban kəsib dədəm, qız-gəlini yığıb. Öz əlinnən sarıyıb bu bədbəxtimin baldırlarını, oturdub burda ki, baxın, görün, müharibəlik deyil oğlum. Camaat bilmirmi nə təhərdi Mağar?! Hamı, hamı bilir ki, qardaşımnan vidalaşıram mən bu gecə. Çünki səndən əvvəl NKVD Gülənovun adamı gəlmişdi bura. Belə çığır-bağır salmadı o kişi. Eşiyə çağırtdırdı məni, dedi: "Qılınc Qurban məlumat göndərib. Vidalaş qardaşınnan".

Qılınc başını əyib, tüstünü döşü uzunu aşağı üfürdü.

– Sən elə komsomol vaxtından söz altında qalan deyilsən... Vidalaşan adam sarğısız-filansız, güllə qabağına gedən qızıl əsgər təki oturdardı qardaşını! Çağır çoban Abdullanı, desin görək indi nə qədər verib Gülənovun adamına – Molla Gülənə?!

Bənövşənin kirpikləri titrədi.

– Dədəm burda deyil. Mağarı kəndə göndərəndən bəri ayağı dəyməyib onun bura. Molla Gülənin üzünü görməyib bu necə ayda!

İsfəndiyar kişi bu vəziyyətdən dəhşətlənə-dəhşətlənə, gah kilimin üstündəki doğranmış sarğılara, gah Mağarın dümağ, yara-xorasız qıçlarına, gah da Bənövşəyə baxa-baxa nə isə demək istəyirdi. Əmma Qılınc aman vermirdi:

– Yaxşı deyiblər, yalançının yaddaşı olmaz! İndicə demədinmi ki, "dədəm öz əlinnən sarıyıb bu bədbəxtin baldırlarını, oturdub burda ki, baxın, müharibəlik deyil, oğlum!"

Bənövşə tutulub qaldı. Mağar onsuz da özünü itirmişdi. Qoyun yatağında – kahada bəslənməkdən şişib əprimiş sifəti pörtmüşdü. Qılınc ağ qıçlara baxıb:

– Dur, – dedi. – Şalvarını dəyiş, sapoqlarını geyin, pilotkanı başına qoy, adama oxşa bir az, gəl otur yerində. İndi həqiqətən vidalaşmalıdı bacın sənnən. Elə biz də daş-divar deyilik. Yəqin ki, ştrafnoy batalyona göndərəcəklər. Salamat qalsan, bu dəfə uzağlığıynan elinə-obana qayıdacaqsan, genə üz-üzə gələcəyik... Görürsənmi, irəlini, gerini, sabahkı günümüzü də fikirləşirəm mən. Sovet hökumətidi bu, bala! Sənin atanı, bacını soyan Gülənovdan – filandan savayı, belə bolşeviklər də var hələ. Məndən savayı, budu bax, durub yanında, az qalır ağlasın, belə gözəl ağsaqqallarımız da var. Belə adamların yurdunda namussuz övladlar olmamalıdı, bala! Dur deyirəm, əşi! Qızıl əsgər paltarında otur qabağımızda. Rəhmanın

Bəhmənin barəsində mənə dediyini kişinin özünə də danış. Xəstə-xəstə durub gəlib ki, kəlmələşsin sənnən, toxtasın.

Mağarın əprimiş ət içində batmış xırdaca qulaqlarının diblərindən tər süzülürdü. Deyilənləri heç eşitmirmiş kimi, şivil qalıb tərpənmirdi. Bənövşənin göy "nəlbəki gözləri"nin əksinə, xırdaca gözlərində elə qorxu vardı ki, İsfəndiyar kişinin hətta yazığı gəldi, ürəyi ağrıdı.

– Qalx, başına dönüm, qalx, get, geyin gəl... – Divar dibində, döşəkçə üstündə cürə sazla Təvər sazı yanaşı qoyub, özləri də yanaşı oturmuş qoca aşıqları göstərdi. – Çoxdandı ustadlarımızın sazını, sözünü də eşitmirəm. Dustaq qalmışam dörd divar arasında, sənnən kəlmələşməyə də gələmmirəm... Qurban əmin düz deyir, başına dolanım. İnşallah, qayıdarsan, Gülənuşağı təki allahı da pul olan namussuz, qeyrətsiz adamlara uymazsan daha...

Qapı tərəfdən nəriltili, bəlağətli səs eşidildi:

– Bismillah ər rəhman irrəhim! Bu kəndin ən namussuz, ən qeyrətsiz adamı Gülən uşağına namussuz, qeyrətsiz deyir!.. – Molla Güləni hündür, dolu gövdəsinin yanında nəp-nazik yetim qızın – Millinin biləyi əlində, qara uzun sifətində iri, domba gözləri işıldaya-işıldaya, təmkinli, zəhmli addımlarla ağır-ağır yaxınlaşıb, İsfəndiyar kişinin beş addımlığında ayaq saxladı. – Nə kəlmələşəcəksən onnan, a xoşqeyrət qayınata?! Rəhmannan Bəhmənin barəsində danışdığının hamısı yalandı! Budyonnu nədi?! Nalbənd nədi?! Sekretni yer nədi?! Sən bu yetimə qulaq as, gör nə deyir!.. De, bala!

Milli biləyini Mollanın nəhəng, qara əlindən qoparıb, qoşa ovuclarını üzünə basıb hönkürdü.

– Yox! Yox!.. Yox! Yox!.. – Hönkürdükcə, çit donun altında titrəyən döşlərinin üstünü göz yaşı ilə isladıb, ordan-burdan dikələn səs-küylü qız-gəlinin arası ilə ona-buna ilişə-ilişə eşiyə qaçdı.

Millinin əvəzində Molla Gülən özü danışırdı:

– Oğullarıyın ikisindən də qara kağız gəlib. Üç ay bundan qabaq, elə yaralının gəldiyi vaxtlar. Yazığı gəlib sənə yetimin. Gəlinlərinə yazığı gəlib gizlədib kağızı. Sonra qorxub ki, üstü açılar, üzü danlanar. Gedib Mağara yalvarıb ki, kəndə gələndə deynən sağ-salamatdılar. Bu da danışıb. Bunun da yazığı gəlib sənə, ay yazıq bədbəxt! Mənim özümün də yazığım gəldi, yetimə dedim cır yelə ver kağızı. Yasa batmaqdansa, umuddu olmaq, gözləmək yaxşıdı hər halda. Bu mən! Bu da sən: "Cəmdəklərinə tüpürüm!.." Niyə, ay bədbəxt?! Axsağı sən özün evinə dadandırmasaydın, eldə-obada

görünməmiş namussuzluğuna göz yummasaydın mənim hardan ağlıma gələrdi ki, o gözükölgəli nacinsnən danışım orda, ambulatoriyanın qapısının dalında, ayaq basmasın sənin qapına! Sənin yerinə mən olsam, bu dəqiqə rədd olub gedərəm burdan, zəhər içərəm ki, belə ad-sannan bir də çıxmayım bu camaatın içinə!

İsfəndiyar kişi eşitmirdi. Millinin “Yox! Yox!” qışqırtısından, hönkürtüsündən, bir də Mollanın “qara kağız... üç ay bundan qabaq... qara kağız” sözlərindən başqa, beynində heç nə yox idi. Birdən-birə səssiz-ünsüz qaraltılara çevrilmiş qız-gəlinin arasından qapıya, sonra da ay işığında evinə doğru, ayaqlarını sürüyəndə elə bil illərin uzaqlığında qalmış röyasını, Bəhmənin səsini xatırladı: “Saz kökdən düşsə... Saz kökdən düşsə...” Ardınca həyətə, içəriyə bir aləm adam getdiyini də bilmədi. Dünya ağırlığında ayaqlarını daha bir addım da çəkə bilmədiyini, taxtın üstünə zorla qaldırıldığını da bilmədi. Bir tərəfində Çürüyün, o biri tərəfində Abının, ayaq tərəfdə göyərçinlərinin, pişiklərinin xısın-xısın ağladıqlarını da bilmədi.

Ertəsi günü gözlərini açanda isə Çürüklə Abını da gördü, göyərçinlərini də, pişiklərini də. Bunların arasında hönkürtülü Milli ilə “qansız”, qorxunc Molla Gülən də görünüb yox oldular. Sonra möcüzə baş verdi: Tubunun nazik, həlim səsindən az-maz fərqli bir səs də eşitdi:

– Dedim babamı niyə öldürürsən, Qurban əmi?! Hacının adını namussuz qoymaq bizim adımızı namsussuz qoymaq deyilmi?! Nə qədər yalvardım buraxmadı. Apardı dama saldı. Dustaq damına!

Bir möcüzə də baş verdi: İsfəndiyar kişi dikəlib, daha heç kəsi görmədən, heç nə eşitmədən taxtdan düşdü. Əyni geyincəkli idi. Çəkmə əvəzində, qış aylarından kandarın bir tərəfində qalmış qaloşlarını geyindi, papağını başına qoydu, pencəyini çiyninə saldı. Həyətə çıxıb, köhnə dudmana gedən cığıra çıxanda, hətta təsbehini də çıxarıb, özünün düşündüyü kimi, “nəfəsini çiyinlərindən” alsa da, lap köhnə təmkini, ədəb-ərkanı ilə meydandan Komsomol Bənövşənin evinin böyründən keçib “ortalığa” – idarənin qabağına getdi. Orda – divar dibində sallağı oturub yəqin ki, sədrin – ÇTZ-nin yolunu gözləyən tay-tuşlarının açıq-aşkar narazı baxan gözlərinə diqqət yetirəndə heyrətindən donub birdən qışqırdı:

– Deyilənlərə niyə inanırsınız?! Mənim gəlinlərimi tanımırsınızmı?! Dərdimə şərik qalmaq, baş sağlığına gəlmək əvəzinə üz

döndərirsiniz məndən?! Dəmirçi İsfəndiyar – namussuz!.. Gör bir başıma nə iş gəldi!.. – Yanıb yaxılırdı, boğulurdu.

İçəridən qadın səsi eşidilirdi. Komsomol Bənövşə, heç bir hadisə baş verməmiş kimi, təzə qəzetdən "vayenni svodka" oxuyurdu.

Qoca keçib getdi.

İdarədən bir az o yanda, dikdirdə bozaran "dustaq damına" doğru süründü.

"Dustaq damı" deyilən bu yarıuçuq daxmaya lap çoxdandı ki, adam salınmamışdı. Qılınc özü də, camaat da, o cümlədən İsfəndiyar kişi də fəxr edirdi ki, "daha adam salınmır dustaq damına". Hər dəfə daxmaya gözü sataşanda qoca ürəyində Qılınca dua oxuyurdu. İndi isə... "Gör bir məni nə işə saldı, sağ olmuş! Oğlumsanmı, qardaşımsanmı, nəyimsən ki, namusumu qoruyursan sən mənim, a sağ olmuş?! Gör bir necə biabır oldum!" – Qovrulurdu, boğulurdu.

Daxmadan xeyli aralı dayandı.

Qapıda qıfıl yoxdu. Qılınc cəftəni basıb qıfıl əvəzinə nazikcə bir çöp keçirmişdi.

Qoca dönüb geri baxdı.

– Dikdirə qalxammıram, – dedi.

Nəfəsini dərib xahiş elədi ki, qapını açıb Hacını buraxsınlar. Lakin elə bil hamı sözləşmişdi: Heyrətlə çiyinlərini çəkirdilər, gözlərini bərəldirdilər ki, Qılınc Qurbanın bağladığı qapını necə açaq?! Necə çıxardaq biz onun çöpünü?!

Qoca dişini-dişinə sıxıb, bütün gücünü toplayıb dikdiri qalxdı, çöpü çıxarıb atdı. Təpiyi ilə vurub qapını açdı.

Günəş çoxdan doğsa da pəncərəsiz dam qaranlıqdı. Kiflənmiş saman iyi gəlirdi. Feldşerin isə həniri çıxmırdı.

Qoca bir addım irəli yeridi.

– Ay oğul, yatırsan nədi?

Hacı, əlbəttə, yatmırdı. Ağlayırdı.

Qapının arasında İsfəndiyar kişinin tanış qamətini görəndə axsağı birdəncə yaş boğmuşdu. Öz acizliyini bildirmək istəməyib, səsini içinə salmışdı.

Əmma susmaq mümkün olmadı. Qoca yaxınlaşıb çiyninə toxunanda Hacı hönkürdü.

– Göz verib işıq vermir!.. Sən ki məni tanıyırsan, İsfəndiyar əmi! Sən ki mənim ürəyimə öz ürəyin kimi bələdsən. Əyri göznən baxarammı mən sənin ailənə?! Molla Gülən də bir yandan yapışıb

xirtdəyimdən. Gəldi, qapının dalından başladı ki, əsgər ailəsinin namusuna toxunan adama güllələnmə kəsir vayenni tribunal. Sən, deyir, silistdə ifadə ver ki, dəmirçimiz Nəqşi-Bəndi İsmeyilin müridi. Dəmirçini Qılınc Qurban saxlayır, Qılıncı da Sultan Əmirli saxlayır, pantürkistdi deynən, deyir, hamısı! Gəlinlərə görə getmirəm deynən, deyir, NKVD-nin tapşırığıynan gedirəm ki, öyrənim görüm özgə kim var pantürkistlərdən. Belə de, deyir, yaz, qol çək, ver, buraxsınlar səni... Qılınc Qurban əbləhdi, deyir, səni buraxıb onun özünü tutacaqlar, deyir. Sultan Əmirli də tutulanda sənə ali savadlı həkim diplomu verəcəyik, rayzdravatdelin[1] böyüyü eliyəcəyik, deyir. Gör necə dolaşdırıblar məni, İsfəndiyar əmi! Necə çıxım mən bu tordan?! Qurban əmiyə danış, deynən sənin xeyrinə deyil feldşeri tribunala verməyin! Hörməti, şöhrəti dağ boyda, Qılınc Qurban deyəndə hamının dili ortasından iki yarılır, nə deyir, hamısına inanırlar! Lap salamat qalsam da, bu biabırçılıqdan sonra camaat içinə çıxa billəmmi, İsfəndiyar əmi?!

Qoca feldşerin qolundan tutub ayağa qaldırdı.

– Bəsdi. Danışma.

– Yox, yox... danışmaya bilmərəm, İsfəndiyar əmi! Otuz dördüncü ildən bəri səkkiz ildə çəkdiyim zəhmətin hamısı hədər getdi! Necə danışmayım?! Suya girməkdən baldırlarımı yel tutub, gecələr səhərəcən sızıltıdan yatammıram. Qulaqlarım da ağır eşidir. Bunun əvəzində, hörmət, məhəbbət əvəzində, bircə günün içində camaatın nifrətini qazandım! Hədər getdi hamısı, zəhmətim puç oldu, ömrüm puç oldu!

Qoca özü də boğula-boğula çəkib onu eşiyə çıxartdı.

İdarənin qabağı adamla dolmuşdu. Arvadlar, qocalar, yeniyetmələr boy-boya verib dikdirdə dayanmış bu iki nəfərə baxırdılar.

Feldşer yaylığını çıxarıb əl-qolu əsə-əsə üz-gözünü sildi. Əmma qəhərini qaytara bilmədi.

– Ora bax, necə baxırlar! Elə bil qan düşmənlərinə baxırlar!..

Qoca özü də yıxılmamaq üçün feldşerin qoluna girdi.

– Loğmanın naxoşunun qolundan tutmaq əvəzinə naxoşu loğmanın qolundan tutur, – deyib, hətta gülümsəməyə çalışdı.

Çəkib dikdirdən endirdi, sifətini yandıran baxışlar altında birbaş evinə sarı apardı.

---

[1] Rayon İcraiyyə Komitəsinin (RİK-in) sağlamlıq (səhiyyə) şöbəsi

– Fikir eləmə, fikir eləmə, başına dönüm! – deyirdi. – Qurban səhv iş tutub. Əlbəttə, danışmaq lazımdı. Evdə səni elə yaralayanda gözünün içinə dedim: "Qan tökdün!" Bir az sındı onda. İndi heç bilmirəm niyə bu qədər zalımlaşıb genə. Yarası, yəqin ki, elə o Molla qansızdandı, Enkevedidəndi. Türkiyə ağırlığında daş düşsün başına o Enkevedi Gülənovun, Mikoyanı-filanıynan bir yerdə! Beş il bundan əvvəl yığışdırdılar basdılar Sibirə az-çox qabaqda olanlarımızı. İndi genə başlayıblar! Heyif, əlim çatmır, yuxarılarda möhkəm adamlarımız var hələ. Eylərimizdən möhlət istəyirəm, yaşatsınlar məni. Bu ürək müxənnət aman versin... yuxarılara gedim.

Sağda-solda dirək-dirək durub heyrətlə tamaşa edənlər vardı.

İsfəndiyar kişi heç kəsə baxmasa da, elə adamların hərəkətsizliyindən anlayırdı ki, idarənin qabağında olduğu kimi, burda da hamı heyrətlənirdi, qol-qola, çiyin-çiyinə gedən bu iki nəfəri heç kəs dərk etmirdi.

Qoca köksünü ötürdü.

– İnşallah, hər şey yaxşı olar, başına dönüm! İnşallah! – dedi və birdən xırp dayandı.

Milli Komsomol Bənövşənin mal töyləsinin çardağının altında, kölgədə durub ona baxırdı.

Birdən yerindən qopub yüyürdü. İsfəndiyar kişi qızın qaçıb ondan gizlənmək istədiyini güman etdi. Əmma Milli kənara yox, birbaş onun yanına yüyürdü. Hər iki əli ilə qocanın biləklərindən yapışıb, titrəyə-titrəyə əllərindən öpməyə, nə isə pıçıldamağa başladı.

Qoca əllərinin dərisinə yapışan isti-qaynar, nəm dodaqların təmasına ikrah hissi ilə biləklərini qızın əllərindən qoparıb dala çəkildi.

– Bu nə deməkdi, bala?!

– İsfəndiyar baba, məni bağışla! Bağışla mən başıbatmışı! O vaxt kağız gələndə ürəyim gəlmədi verim. Pərini də, Tubunu da çox istəyirəm mən, səni də! İstəmədim umudunuzu üzəsiniz!..

Yenə də ağrı başladı. Hacını da, namus müsibətini də "vayenni tribunalı" da unudub, hər biri bir zindana dönmüş qıçlarını zorla tərpədə-tərpədə, qaloşlarını cığırın kələ-kötürlərinə çırpa-çırpa özünü həyətə çatdırdı. Pencəyi çiynindən salıb, öz daimi yerində – qovağın altında oturub, kürəyini ağacın sərin gövdəsinə söykədi. Köksünün indi lap əsl körük kimi lap hündür qalxıb çökəldiyini görə-görə, gözlərini qaldırıb açıq qapıya, açıq pəncələrə baxdı.

Göyərçinlər ikisi də kandarda quruyub bəri boylanırdılar. Pişiklər taxtın üstündə, süfrənin dövrəsində səliqə-sahmanla oturub nə isə yeyirdilər.

Millinin qızğın əllərini yada salan, əmma o əldən fərqli ılıq bir əl əlinin üstünə enib biləyini-nəbzini tutdu, sonra köynəyin qolunu çırmadı.

Qoca köksünü ötürdü.

– Vurursan vur iynəni. Əmbə bu xına o xınadan deyil, ay loğmanım.

Hacı dillənmirdi.

Qovağın kəlləsində hacıleylək dimdiyini şaqqıldatdı. Məhərin budkası tərəfdə drezenin uğultusu, relsdən relsə keçən təkərlərin taqqıltıları eşidildi. Əmma qoca bu dəfə o səmtə boylanmadı.

Feldşer çantasını açıb, bir parça kağızın üstünə bir neçə rəngbərəng həb qoyub bükdü, aparıb gəlinlərə verib, nə isə tapşırıb qayıtdı. Əlini ağacın dibində çantasının üstünə qoyub qocaya baxdı.

– Gedirsən?

– Hə... Getməliyəm, İsfəndiyar əmi. Ora qayıdıram. Dustaq damına.

Qoca ağır-ağır başını buladı.

– Nə yaman tələsirsən dustaq başına?! Zəhmət çək içəridən sazı gətir... Tilsim sınıb, oğul. Gətir... Sənə borclu qalaram çalmasam... oxumasam...

Feldşerin kirpikləri islandı. Üzündən aydın görünürdü ki, bu vəziyyətdə qocanın nə çalmağına inanırdı, nə də oxumasına. Əmma sazı gətirməyinə gətirdi. Köynəkdən çıxarıb qocanın dizlərinin üstünə qoydu. Bir az sonra "Təvər" sazın ağır, gur "Divani"sinə zəif, üzgün, xırıltılı səs qarışdı. Lakin oxuyan İsfəndiyar kişi deyildi, simlərə toxunub sazın kökdən düşdüyünü eşidəndə təzənəni barmaqlarının arasından salıb bircə saniyədəcə keçinmişdi.

Gəlinlər hələ bilmirdilər. Hacı isə qocanın hələ eşitdiyini güman edə-edə göynəyirdi:

Gəl, ey Şeşpayi-bəhrim,
Qalmadı tabanım, təhrim...

# TÜTƏK SƏSİ

## YAXŞI ADAMLAR

Necə oldu, səmum hardan əsdi ki, doyunca yuxuya da həsrət qala-qala gecə-gündüz işləyən qazanccıl adamlar birdən-birə zəlilləşib, "aclıq" adlanan dəhşətin pəncəsində, bir tikə çörəyə də möhtac olub, üstəlik, zülm altına düşdük?! Fikirləşirəm, sualıma cavab əvəzində illərin uzaqlığında "pəpə, pəpə, a mənə pəpəə!" – deyən körpənin səsi çəkib məni o uzaqlığa – 1942-ci ilə aparır, indi acı xatirələrə dönmüş o müharibə dövrünün hələ əsgərlik yaşı çatmamış vətəndaşına çevirir.

– Pəpəə... Pəpəə!..

"Pəpə"nin hardan, necə əmələ gəldiyini bilmək üçün, "pəpə" qurtaranda səsini içinə salmağı bacarmaq üçün gərək heç olmasa mən yaşda, yəni on beş yaşında olasan. Qardaşımın isə hələ üççə yaşı var.

– Pəpə-ə-ə...

Anam cınqırını da çıxarmır. Uşaq onun əl-qolundan çəkişdirir. Anam yenə dillənmir. Dillənsə, yəni oyaq olduğunu bildirsə, gərək yenə durub Mehbalı əmigilə getsin, "üzünə üzqaralığı çəkib borc istəsin". Mehbalı əmigildən isə iki dəfə almışıq. Üçüncü dəfə getmək... Yox!.. İndi elə onlar da biz kökdə deyillərmi?!

Uşaq boynunu burub yan-yörəsinə baxır, sonra taxtın üstündə yorğan-döşəyin arası ilə mənə sarı sürünür. Gəlib böyrümdə oturur. Baxışını, nəfəsini hiss edirəm və nəhayət, yenə səsini eşidirəm:

– Pəpə-ə-ə...

Səsimi çıxardımmı? Nə deyim?

Xəyalımdan keçir ki, möcüzə baş verə, sözlə qarın doyurmaq mümkün ola. Nə qədər danışaram, təki bu "pəpə, pəpə" qurtarsın.

Başımın dövrəsində ağcaqanad vızıldayır, hərlənib-fırlanır, hərdən lap gözümün qabağından ötən uzun, heybətli xortumunu sancmaqdan ötrü münasib yer axtarırmış kimi, hey vurnuxur. Sonra birdən vızıltısı kəsilir; ağcaqanad qulağımın yumşaq yerinə qonub, əmin-arxayın öz işini görməyə başlayır.

Sızıltıdan gözlərim yaşarır. Ancaq anam kimi, mən də oyaq olduğumu bildirmək istəmirəm. Fikrimdən keçir ki, kaş mən də Tapdıq kimi qulağımı tərpədə biləydim.

Bir il bundan əvvəl Tapdıq mənim şagird yoldaşım idi. O da altıncıda oxuyurdu. Atalarımız müharibəyə gedəndən sonra yeddinci sinifdə çox könülsüz oxuyub, tez-tez analarımızla pambığı kətmənləməyə gedə-gedə dərsdən soyuduq, bu il yeddincini qurtarhaqurtarda isə “nemeslərin Mozdokacan gəldiklərini” eşidib, “oxumağın daha nə mənası var?!” – deyib, ikimiz də məktəbdən qaçıb, Mehbalı əminin manqasında kotançılığa getdik.

Bir dəfə şumun kənarında, ocaq qırağında oturmuşduq, çörəklərimizi odda qızdırıb, nahar eləyirdik. Birdən uzaqda, Qonaqlı meşəsinin “vayenni çast” deyilən yerində zenit toplarının gurultuları başlandı. Əvvəllər buna “manevr” – “məşq” deyirdilər və biz gurultulara o qədər də fikir vermirdik. Sonra məlum oldu ki, “manevr”-zad deyil; Qroznı səmtindən bu yana “nemes”lərin “razvedçik” – kəşfiyyatçı təyyarələri gəlir, “vayenni çast”ın zenitçiləri də məhz o təyyarələrə atırlar. Maraqlanıb baxırdıq, əmma heç bir təyyarə-zad görmürdük. Bu dəfə isə, tər-təmiz, dərin göyün lap uzaq dərinliyində arı kimi vızıldaya-vızıldaya fırlanıb dalınca nazik tüstü dairəsi buraxan “razvedçik” təyyarəni də gördük, təyyarədən xeyli aşağıda partlayan “snaryadların” – mərmilərin pambıq kimi lopa-lopa ağaran tüstülərini də gördük.

Mehbalı əmi əllərini dizlərinə çırpırdı.

– Bah, bah! Allahın yanına qalxıb köpəyoğlu! Çatmır atılanlar! – dedi. – Evimiz yıxıldı, ay uşaq! Yaşlılarımızın hamısı partiyaçı, cavanlarımızın hamısı komsomol! Qıracaq faşist hamımızı, ay uşaq, qıracaq!

Necə deyərlər, yasa batdıq. Əmma Tapdıq mən kimi mısmırıqlı deyildi. Birdən pıqqıldayıb, mənim dizimi basıb gizlincə Mehbalı əmiyə işarə etdi: çörək yedikcə Mehbalı əminin qulaqları tərpənirdi. Tapdıq ikinci dəfə dizimdən basıb, yenə işarə ilə “indi mənə bax” – dedi və burda mən ilk dəfə onun bədəninin başqa hərəkət edən əzalarıtək qulaqlarını da tərpətdiyini gördüm.

Vızıldayıb qulağıma qonan ağcaqanad o “razvedçik”lə o qulaqları yada saldı. Tapdıq kimi qulağımı tərpədə bilməsəm də, çıxış yolu tapdım; yorğanın altından qıçımı uzadıb dabanımı taxtın quru

yerinə vurdum, uşaq taqqıltıya dönüb o tərəfə baxanda, əlimi qulağıma atdım, ağcaqanad rədd olub getdi.

– Pəpə-ə-ə!..

"Hardan tapım, ay gözümün işığı?! Kimin üstə gedim?!"

Qırx birinci ilin iyununda müharibə xəbəri çıxandan sonra atam gedəndə qoyunumuz vardı. Payıza yaxın qara inək danasını təpəndə, yəni süddən kəsiləndə Mehbalı əminin məsləhətilə "evin kişiliyini öhdəmə götürüb", qoyunun ikisini Ağtəpə bazarına aparıb balaca bir motala dəyişdim ki, inək doğana qədər yavanlığımız olsun. Tapdıqla böyük qardaşı Cümrünün "qışa qovurma" elədiklərini eşidəndə yenə kişiləşib, qoyunun ikisini də Ağtəpəyə aparıb yağlı qoça dəyişib gətirib kəsdim ki, "bizim də qovurmamız olsun, uşaq korluq çəkməsin". Əmma bu "kişi"nin xəbəri yoxmuş ki, Tahir müəllim, yəni atam "qumarbaz" imiş, "ondan-bundan borc alıb", anamın dayısı Molla Güləni də "soyub quru yurdda qoyubmuş!" Molla dayı gəlib bu xəbəri deyəndə anam qəhərlənib "inanma, ay oğul, dayım özü soyğunçudu" desə də, yenə "kişiləşib" "döl" düşəndə uşağa bircə dolça olsa da süd sağmaqdan ötrü qoyunun birini saxlayıb, qalanını "borca verdim".

Mehbalı əmi həmişə deyirdi: "Çörəyim kotandan çıxır". Odur ki, bütün fikrim-zikrim kotançılıqda idi. Hər səhər Qara inəyi aparıb El yolunda naxırçı Məsinin örüşə apardığı naxıra qatıb qayıdıb, buzovu mıxdan açıb, arxın qırağındakı göy otluğa hörükləyəndə artıq gün doğduğuna görə çay içməyə, hətta qaqaşın qarnını qıdıqlayıb güldürməyə, yəni anamın kefini açmağa da vaxtım qalmırdı.

Haçansa bir qoçumuz da varmış. İri burmabuynuzlu quru başı qalmışdı və bu baş balkon dirəyimizə mıxlanmışdı. Anamın axşamdan hazırlayıb buynuzdan asdığı çörək çantamı götürüb, artıq kənddən çıxmaqda olan Mehbalı əmi ilə Tapdığa çatmağa tələsirdim ki, kişi hirslənməsin. Əvvəllər, yəni kotançılığa təzə başladığım günlərdə yer şumlayanda, bir qayda olaraq, Mehbalı əmi kotanın macını tutardı. Tapdıq zəncirin üstünə minərdi, mən isə, əkin-tikindən o qədər də başı çıxmayan, "nərmə-nazik müəllim oğlu" kimi, ancaq irəlidə öküzləri yedəkləməyə yarayardım.

Əmma günlər keçdikcə daha "nərmə-nazik müəllim oğulluğundan" çıxırdım, hətta mac tutmağa başlamışdım.

Hərdən kotan torpağın altında yoğun ağac kökünə və ya sal daşa rast gəlib, çatıldayıb dik atılıb böyrü üstə aşırılanda məni də

arxasınca sürükləyib şırımın arasına, kəltənlərin üstünə çırpırdı. Kəllər, xirtdəyə qədər torpağa işləmiş kotanın ağırlığından qurtaranda müvazinətlərini saxlaya bilməyib, birdən irəli şığıyırdılar. Mən isə, şumda xərək, yəni şumlanmamış yer buraxdığımı görüb, təngnəfəs, yenə kotanın dalınca cumurdum. Tərs kimi, kol-koslu, daşlı yerlər həmişə bir-birinin ardınca gəlirdi. Tir-tir əsən, qıpqırmızı, tərli əllərimlə macından yapışdığım kotan nəzərimdə məni dalbadal daşa-torpağa çırpan, canlı, güclü bir məxluqa çevrilirdi. Əmma macını buraxmırdım. Bu vaxt gah Tapdığın yanıqlı-yanıqlı "vay-vay" dediyini, gah da Mehbalı əminin acıqlı səsini eşidirdim:

– Sənə neçə kərə demişəm mac tutmaq sənin işin deyil! Burax!.. – Qoca hirsli-hirsli qolumdan, biləyimdən çəkişdirirdi. Xır-xır xırıldayırdım. Şırımın arası ilə, kotanın dalınca səndələyə-səndələyə addımladıqca qıçlarımın titrədiyini hiss edirdim. Əmma macı buraxmırdım. Nəfəsim kəsilə-kəsilə, əməlli-başlı boğula-boğula, Mehbalı əmiyə cavab verməyə çalışırdım:

– Özün deyirsən, yüz əlli kişidən yüzü gedib, hər adam üç adamın işini görməlidi. Deyirsən? Deyirsən! Xahiş eləyirəm, macal ver, qoy heç olmasa bir adamın işini görüm!

Bədənim əzik-əzik olsa da, taqətdən kəsilsəm də, indi özümü də heyrətləndirən inadla məcdən əl çəkmirdim. Əlacı kəsilən Mehbalı əmi yanımca addımlayırdı, tez-tez köksünü ötürə-ötürə məsləhət verirdi:

– Kotan ilişəndə tez qaldır, üzə çıxart, təzədən sanc!.. Məci əymə!.. Şırımı nazik götür, xərək qalmasın!.. Xərək yerdə toxum üzdə qalır, qurda-quşa yem olur! Başa düşdün?!

Hərdən şumladığımız yerlə anamgilin işlədiyi tarlanın arası yaxın olanda Mehbalı əminin qarısı Tapdığın anası ilə, mənim anamla bizim şum yerimizə gəlirdilər. Qatıq, olanda ayran gətirirdilər.

Bir dəfə anamgil gələndə, tərs kimi, mən yenə yıxıldım. Anam əlində ağaran qatıq bankasını iri, qara bir kəltənin üstünə qoydu, şumun arasında çöməlib kəlağayısını gözlərinin üstünə çəkdi. Cınqırını belə çıxartmasa da, ağladığını bildirən bir hərəkətə yol verməsə də, sifətinə bürüdüyü kəlağayının bircə anda necə islanıb ləkələndiyini gördüm. Mehbalı əminin qarısı da şalının ucunu gözlərinə yaxınlaşdıranda Mehbalı əmidən heybətli bir qışqırtı qopdu:

– Rədd olun burdan!

Anamgil gətirdikləri şeyləri elə şumun ortasındaca qoyub, çəkilib getdilər.

Mehbalı əmi ilə Tapdığın qarşısında yıxılmağa dözürdüm mən. Anamın gözünün qabağında o cür biabırçı tarappıltı ilə düpdüz uzanmağım isə mənim kişiliyimi, ailə başçılığımı yerə vurmuşdu. Anam, əlbəttə, təkcə o bir banka qatığı öz yanında mənə yedirtməyə yox, həm də "kotandan çörək çıxardan" oğlunun necə işlədiyinə baxmağa gəlmişdi. Əcəb göstərdim!..

Qəhər məni boğurdu.

Kotan əllərimin altında titrəyə-titrəyə, yumşaq çatıltı, xırıltı ilə çayırlı xam torpağı doğraya-doğraya gedirdi. İrəlidə zəncir səslənir, həlqələr həlqələrə sürtünüb xırçıldayırdı. Tapdığın tənək çubuğu vıyıldayır, bir də kəllər tövşüyürdülər. Bu qarışıq səslər arasında həm də öz nəfəsimin elə bil boru içindən çıxan güyültüsünü eşidirdim. Mənə elə gəlirdi ki, Tapdıq kəlin belindən istehza ilə mənə baxır. Dost olsaq da, "nərmə-nazik müəllim oğluna" hərdən elə rəhmsiz istehza ilə baxırdı ki, mən buna dözməyib sıxıldığımı hiss edirdim. İndi isə, nəinki sıxıldığımı, qızardığımı, hətta elə bil anbaan əriyib əslində olduğumdan da balaca bir uşağa çevrildiyimi hiss edirdim.

Birdən kürəyimə nə isə bir ağırlıq düşdü. Eyni vaxtda böyrümdə, pəncələri altında kəltənləri basdalayıb əzə-əzə mənlə yanaşı gedən tozlu, ağır soldat çəkmələri gördüm. Necə oldu, xəyalım necə çaşdı ki, əlini kürəyimə qoyub yanımca addımlayan bu adamı atam hesab etdim? Yəqin ona görə belə oldu ki, çətin vaxtlarımda həmişə atamı, "bütün Tahirlinin fəxri Tahir müəllimi" – "bütün uşaqların istəkli direktoru"nu xatırlayırdım; mənə elə gəlirdi ki, birdəncə böyürdən çıxıb, həmişə məktəbdən qayıdanda olduğu kimi, əlini kürəyimə qoyacaq, həlim, yumşaq səsi ilə "necəsən, Nurididəm?" – deyəcək. Nə isə... Bir də xəyalım yəqin ona görə çaşdı ki, mən sərt, zəhmli Mehbalı əminin günlərin birində əlini kürəyimə qoya biləcəyini heç cür təsəvvür edə bilməzdim. Əmma indi kürəyimdəki ağırlıq onun əlinin ağırlığı idi. Enli pəncələri altında kəltənləri basdalayıb əzə-əzə böyrümcə gedən çəkmələr də onun çəkmələri idi. Bayaqdan Tapdığın baxışları altında əriyib balacalaşıb, cılızlaşan bədənim elə bil dəqiqəbədəqiqə böyüyüb, ağırlaşıb siqlətləndi, qıçlarım, biləklərim, macdan yapışmış barmaqlarım

elə bil qurğuşunla doldu. Ciyərlərimdə bir genişlik, sinəmin əzələlərində daş bərkliyi hiss etdim və nə isə çox möhkəm bir şeyə ilişib çatıldayan kotanı torpağın ağır layı altında asanlıqla qaldırıb yenidən torpağa sancdım.

İrəlidə Tapdığın qəhqəhəsi eşidildi.

– Ha gözünə dönüm! – deyib tənək çubuğunu vıyıldatdı. Bu sözləri mənə dedi, yoxsa kəllərə? Fərqi yox idi, elə sevinmişdim ki, hətta gözlərim dolmuşdu.

Mehbalı əmi isə heç nə demədi. Əlini kürəyimdən çəkib dala qaldı və deyəsən "çay qaynatmağa" getdi.

"Çay qaynatmaq" kotançıların dilində dincəlmək demək idi. Mehbalı əmi mənə o qədər "get çay qaynat" demişdi ki, hətta bizim nəsildən – Tahirlidən olduğuna baxmayaraq özünü "Ləzgi" adlandıran, familiyasını da Qalayçıoğlu yazdıran briqadirimizin bizdən uzaqda işləyən başqa kotançıları mənim adımı "Çayçı" qoymuşdular. "Ha, gözünə dönüm!" sözlərindən sonra, axır ki, istehzalardan təhqirli "Çayçı"lığı eşitməkdən canım qurtarmışdı. Gözlərimi silib vəcdlə qışqırmaq, hətta öyünmək istəyirdim.

Bu hadisədən sonra hər dəfə əlimi kotanın macına atanda mən o dəqiqə Mehbalı əminin əlini kürəyimdə hiss edirdim. "Çay qaynatmağa" gedəndə də, bel götürüb şumun xərək qalmış yerlərini belləməyə gedəndə də Mehbalı əmi elə bil əlinin birini mənim kürəyimdə qoyub gedirdi.

Günlər keçdikcə biləklərimin, qollarımın, sinəmin əzələlərində doğrudan da qurğuşun ağırlığı, daş bərkliyi hiss edirdim. Bəzən mənə elə gəlirdi ki, bu cür əzələlərlə hətta bütün sutkanı maşıntək fasiləsiz işləyə bilərəm.

Lakin, əlbəttə, insan heç vaxt maşın ola bilməz.

MTS[1]-dən bizim kolxoza nə vaxtsa bircə traktor verilmişdi, onun da nəyi isə çatışmırdı. Traktor sədr Cəbrayılın həyətində, ot-ələf arasında qaralırdı, gecələr üstündə sədrin hinduşqaları yatışırdı, toyuqları oraya – "tara" çıxırdı. Biz kotançılar elə işləməli idik ki, payızda qırx birinci ildəkindən iki dəfə artıq taxıl səpib, həm hərbi fonda, həm MTS-ə, həm də camaata taxıl çatdıra biləydik.

---

[1] MTS (maşın-traktor stansiyası) – Kolxozlara hər beşillikdə bir dəfə texnika verib əvəzində "naturplata" (məhsulla ödəmə) adı ilə hər il (hər il!) hazır məhsul vergisi alırdı.

Sədr Cəbrayılın iclasda dediyi sözləri hamı "qulağında sırğa" eləmişdi: "Rusiyanın yarısı nemesin çəkməsinin altındadı. Ukrayna yoxdu, Belorusiya yoxdu! Gərək onların əvəzində də taxıl verək".

Baş kanaldan, Baş kənd Qurbanlı tərəfdən bizim Orta kənd Tahirlinin sahələrinə bir arx gedirdi ki, onun da suyu pambığı suvarmağa ancaq çatırdı. Göylərin suyuna ümid bağlayıb, vur-hay şumlayırdıq. Gün doğandan şər qarışana qədər, aylı gecələrdə isə hətta gecə yarıya qədər şumlayırdıq. Bəzən kəllərin nə vaxt dayandıqlarını, Tapdıq zəncirin üstündə, mən isə kotanın dalında, ayaq üstəcə haçan yuxuya getdiyimizi bilmirdik. Belə hallarda Mehbalı əminin deyintisini eşidib, tezcə Tapdığı haylayırdım. Yenə kəllər fısıldaşır, zəncir cingildəyir, zəncirin həlqələri xırçıldayırdı, əllərimin altında mac titrəyirdi. Yalnız kəl otaranımızın səsinə diksinib oyananda başa düşürdüm ki, Mehbalı əminin deyintisini də, işlədiyimi də yuxuda görmüşəm. Qaranlıq meşənin harasındansa kəl otaranımız bizi səsləyirdi:

– Ay Tapdıq! Ay Nuru! Ötürün gəlsin!

Canları islaq-tərli, ağızları köpüklü, üzgün-ölgün heyvanları boyunduruqdan açıb, kəlotarana təhvil verəndən sonra evə qayıdanda, hər şeydən əvvəl özümü taxtın üstünə yıxmağa tələsirdim. Çox zaman anamın çarıqlarımı necə çıxartdığını belə hiss etmirdim. Əmma qulağıma səslər gəlirdi: "Anan ölsün, anan ölsün!.." "Bir adam üç adamın işini görməlidi..." "Çörəyimiz kotandan çıxır... Çörəyimiz kotandan çıxır". Yalnız bu sonuncu səs bir neçə dəfə təkrar olunandan sonra, özümü zorlayıb güc-bəla ilə gözlərimi açırdım.

Belə, necə deyərlər, ölü kimi yatdığım gecələrdən birində bir hadisə baş verdi. Və o hadisədən sonra məndə gözlənilməz bir dəyişiklik əmələ gəldi.

O əcaib dəyişikliyi heç kəsə arzulamıram.

Başıma nə gələcəyini bilsəydim, heç evə qayıtmazdım, anama ismarıc yollayıb, uşaqlardan birinin yanında yatıb qalardım. Ancaq həmişə olduğu kimi, yenə birbaş evə, özümü taxtın üstünə salmağa tələsdim, həmişə olduğu kimi, yenə də ölü kimi düşüb qaldım.

İndi təsəvvür eləyin ki, o cür yatan və həmişə də doyunca yuxuya həsrət qalan adam, gecənin bir vaxtı birdəncə gözlərimi açdım və hələ heç məni nə oyatdığını, yuxumun nə üçün dağıldığını

fikirləşməmiş, ağzımda çörək hiss etdim. Hər gün yediyim qarğıdalı cadı, arpa kələfətiri yox, buğda çörəyi!

Qaqaşım adəti üzrə yerin içində sakitcə oturub, anamın həftədə iki dəfə yalnız qaqaşımdan ötrü bişirdiyi buğda çörəyini yavaş-yavaş gəvələyirdi. Uşaqdakı fəhmə bax ki, yatan qardaşının ağzının açıq olduğunu görüb, çörəyindən bir tikə qırıb ağzıma qoymuşdu!

Necə yemiyəsən?!

Çeynədim, uddum və... və elə bil ömrümdə ilk dəfə buğda çörəyi yeyib qarğıdalı cadından, arpa kələfətirindən çiyrindim və... ağlıma hardan, necə gəldi ki, aclıq olacaq?

Pəncərədən çölə baxırdım. Ay işığında, durğun, bürkülü havada qarğıdalılarımızın yarpaqları ölüşgəyib sallanmışdı. Fikirləşdim ki, durum geyinim, arxda su varsa qarğıdalıya su açım. Əmma bunun əvəzində gözlərimi anamın əlindəki nimçədə çörək parçasına, pendirə dikdim. Başa düşürdüm ki, buğda çörəyindən nəinki bir qismət yeməyə, heç qoxlamağa da ixtiyarım yoxdur. Küncdə, tərsinə çevrilmiş vəl tayının üstündə un çuvalı vardı. Atam gedəndə bu çuvalı dolu qoyub getmişdi. O vaxtdan ötən bir ildə çuval yapıxıb, bir çərək hündürlüyündə qalmışdı. Atam uzaqdan-uzağa hardansa xəbər alırdı: "Balamın buğda unu qurtarmayıb ki?" Bu səs qulağıma gələndə taxtdan necə atılıb, evdən necə çıxdığımı bilmədim. Həyətimizdə atamın hələ təzə evləndiyi vaxtlar əkdiyi tut ağacının haçasından kətməni götürüb qarğıdalını kətmənləməyə başladım. Fikirləşirdim ki, qarğıdalı çox yansa, əlacım kəsilsə, bərk ayaqda sədri də, cuvarı da yuxuya verib su oğurlaya bilərik. "Bilərik" deyirəm çünki belə işlərdə Tapdıq mənim daimi köməkçim idi. Nə isə. Səhərə qədər işlədim.

Anam pəncərənin qabağında oturmuşdu.

– Özünü üzmə, anan ölsün!.. Anan ölsün!.. – Səhərə qədər yalvardı.

Mən də ona yalvardım:

– Yat, ay ana, qurbanın olum! Yat!

Alt paltarımda idim. Ayaqlarım yalın idi. Kətmənin ağzından qopan torpaq çılpaq qıçlarımı döyəcləyirdi. Hərdən dırnaqlarıma daş-kəsək dəyirdi. Əmma ağrı hiss etmirdim: kotanın böyrünə-başına çırpılmaqdan bədənim keyikib taxta kimi hissiz olmuşdu.

Qarğıdalılarımızın hündürlüyü hələ bir metr də deyildi. Ancaq mən fikrimdə artıq məhsul toplayırdım. Məhsulun yarısını buğdaya

dəyişdirmişdim, Qonaqlı meşəsində "İskəndər ağanın dəyirməni" deyilən dəyirmanda üyüdüb gətirmişdim, vəl tayının üstündə, eynilə atam gedəndə olduğu kimi, dolu çuval dururdu. Bu vaxt, bunların hamısının elə xəyal olaraq qalacağını deyən olsaydı kətməni yerə yox, qaldırıb başıma çaxardım. Lakin... kim peyğəmbərlik eləyə bilərdi!

Səhərisi yolda, həmişə olduğu kimi, dərdimi açıb Mehbalı əmiyə danışdım.

Dedi:

– Xoflanıbsan.

Soruşdum ki, xoflanmağımın əsası varmı?

İri-iri, durğun, yorğun gözlərlə bir xeyli üzümə baxdı.

– Var, – dedi. – Buğda paylanmıyacaq bu il.

"Paylanmıyacaq?!" Niyə?!

Niyəsini demədi.

Yol boyu öz-özünə mızıldanırdı:

– Pis adamlar var... Pis adamlar var...

O "pis adamlar" üçpara kənddən hələ əskərlik yaşı çatmayan, "uçota" salınmayan cavanlarımızı özlərini "bığı burma cavanları"n əvəzində "müharibəyə basırdılar, hökumətin əsgər ailələrinə göndərdiyi vaqon-vaqon pal-paltarı "vayenkomat"da kapitan Arşalusun köməyi ilə Ağtəpə bazarına ötürüb camaata "çöpnən çərtdək" verirdilər. Bəs buğdamıza necə əl uzadırdılar?! Məlum deyildi...

Buğda çuvalı tamam boşalanda anam çuvalı tərsinə çevirdi, süfrənin üstündə oxlovla çırpıb bir cam un çıxartdı. O bir cam undan iki xəmrəli çörək oldu. Qaqaşım o iki çörəyi beş gün yedi. Altıncı günün gecəsi yenə bir dəhşət oldu.

"Pəpə, pəpə"ni eşidəndə anam yorğan-döşəkdən qalxıb, küncdə duvağın üstündə süfrəyə bükülü saxladığı "cad"lardan – qarğıdalı çörəyindən kəsib gətirdi.

– Al, al, gözümün işığı, – dedi.

– Bu acı deyil, bu şirin pəpədi, ye, – dedi.

Bilənlər bilirlər ki, qarğıdalı cadı ancaq bir gün az-çox yumşaraq qalır, sonra isə daşa dönür.

Qaqaşım cad parçasını bir basdı, iki basdı, dişləyə bilmədi. Sonra əlindən salıb, qəribə – dəhşətli sızıltı ilə ağladı.

– Pəpəəə!..

Bəlkə də ilk “pəpə, pəpə” olduğuna görə mən buna heç cür dözməyib, taxtdan atılıb eyvana qaçdım. Eyvan dirəklərindən birinin dibinə çöküb, qulaqlarımı tutub hönkürdüm. Bir də o vaxt ayıldım ki, əkinimizin kənarlarından, arxın qıraqlarından biçib, qurudub yığdığım tayanın yanında güllə guruldadı. Beşaçılanın lüləsindən püskürən alovla birlikdə qığılcım səpələndi. Tahirlidə, ümumiyyətlə, sovetliyimizin üç kəndinin üçündə də belə gurultular heç də az olmadığına görə, o qədər də təəccüblənmədən həyətə çıxıb, sıx ulduzlu göy altında gəyənimiş, yəni xeyli işıqlanmış qaranlıqda Boz atı və sovet sədrimiz Qılınc Qurbanı tanıdım.

Meşin şapqasının qabağında ulduzu, belində enli kəmərin toqqası, qucağında beşaçılanın çaxmağı işıldayırdı. Tez-tez dönüb kəndimizin tən ortasından keçən El yolu tərəfə boylandıqca, gözləri də ulduzların işığını əks edib parıldayırdı... Qılınc Qurbana belə valehliklə, diqqətlə tamaşa eləməyimin səbəbi bu idi ki, bu bapbalaca, eyni zamanda çox güclü və çox cəld kişi atamın hələ Komsomol Tahir adlandığı vaxtldardan – iyirminci ildən, ən yaxın dost – qardaşlığı idi. Bütün kənd “Qılınc Qurban” deyirdi, atam isə “Bolşevik Qurban” deyərdi. “Mənim bolşevik qardaşımın nə mauzerindən boş-boşuna güllə çıxır, nə də tüfəngindən”, – deyərdi. Yəni elə ki, atırdı, qaçaqdan, quldurdan hökmən kimi isə vururdu, ayaqlarına ip salıb, atın quyruğunda sürüyə-sürüyə gətirib El yolunun ortasına çıxarırdı. “Qudurmuş it vurmuşa” – qaçağa, quldura, soyğunçuya lənət oxuyardı. Heç bilmirəm, otuz neçənci il idi, səkkiz-on yaşım ancaq olardı, atamın kəskin etirazına baxmayaraq, bir dəfə mən də getdim ki, “qudurmuşa” baxım. Dağdağan Alı deyilən məşhur, qorxunc bir qaçaqdı; ağalardan, bəylərdən, yəni sinfi düşmənlərdən olmasa da, iyirminci ildə Sovet hökuməti qurulanda, gah meşədə odunçulardan, “sajen”çılardan, yəni hökumət üçün ağac kəsib, başını, ayağını xırxılayıb “sajen” yığanlardan çörək alırdı, gah fermalardan dana, qoyun-quzu aparırdı. Qısası, müftəyeyən “qudurmuş” idi o Dağdağan, yəni tək Alı. Getdim gördüm “ölü qudurmuş” inildəyə-inildəyə, “Ya Allah! Ya Rəsul!” – deyə-deyə ayağa qalxdı, xançalını qından siyirib ayaqlarına bağlı çatını kəsdi və elə xançal əlində, köynəyi, şalvarı, çəkmələri qan içində, El yolu ilə üzü aşağı çıxıb getdi. Qurban əmi – Qılınc Qurban isə dalınca baxa-baxa qaldı. Və sonra təəccüblü sözlər dedi: “Bunun qaçaqlığının nəsə

ayrı səbəbi var. Sağ qalsa, meşəyə yolunuz düşəndə bunun payını da aparın həməşə”. O vaxtdan Qurban əmi – Qılınc Qurbanı atamla yanaşı tuturdum. “İstrebitelni batalyon” – Qırıcı batalyon adlanan, arxa cəbhədə nizam-intizam üçün təşkil edilmiş batalyonun komandiri təyin olunandan sonra, batalyon üzvlərindən sədr Cəbrayılı nə isə vacib, təcili işə çağırmaq lazım gələndə Qurban əminin beşaçılanının guruldaması lap adi bir şey olsa da, bizim həyətdə guruldaması, əlbəttə, təəccüblü idi. Gözümün yaşını silib ata yaxınlaşdım. Əmma Qurban əmi mənə yox, öz məşhur kəhərini çapa-çapa gələn sədrə baxırdı.

Cəbrayıl çatıb cilovu çəkdi.

Qurban əminin əksinə Cəbrayıl hündür, ağbəniz adamdı. El yolunda sədrin ardınca baxan qız-gəlindən eşitmişdim ki, yer üzündə ikinci belə gözəl kişi ola bilməz. Qurban əmi də onun məhz gözəlliyini xoşlamırdı.

– Xeyir ola, a Qurban? Belə rahat gecədə belə trevoqa nədən ötrüdü? – Cəbrayıl gülümsünüb, şapqasını dala itələyib, qeyri-adi geniş alnını açıb daha da gözəl göründü.

Qurban əmi şallağını evə tərəf uzatdı.

– Bu kimin evidi?

Cəbrayıl tutuldu.

– Bıyy! Bu nə sualdı, a Qurban?

– Səsini kəs və huş-guşnan qulaq as! Nə səsdi elə?

Bayaq hönkürüb qulaqlarımı tutandan sonra “pəpə, pəpə”ni eşitmədiyim kimi, gurultudan sonra da eşitmirdim. İndi isə...

– A mənə pəpəəə!..

Yaş məni boğdu, beynimə uğultu düşdü, atlıların nə deyib-danışdıqlarını, nə vaxt getdiklərini bilmədim. Bir də o vaxt ayıldım ki, briqadirmiz Qalayçıoğlunun gəlini – anbardar Zibeydə qarşımda dayanmışdı, kim isə kök bir kişi çiynindən ağır xurcun düşürüb, tövşüyə-tövşüyə, öskürə-öskürə papiros yandırırdı.

Xurcunun bir gözünün ağzında un ağarırdı, o biri gözündə bidon vardı.

– Sədr göndərib. Un öz əməkgününüzə düşür. Bal sədrin öz qapısındakı yeşiklərdəndi. Uşağa korluq verməyin.

Zibeydə, ardınca da közərən papiros uzaqlaşıb getdi. Anam qaqaşım qucağında, gəlib dinməz-söyləməz, bidonun qapağını

götürdü, barmağını işıltılı, qatı bala batırıb, fırlaya-fırlaya qaldırıb qaqaşımın ağzına soxdu.

Nə qədər ki, atam getməmişdi, qaqaşımı anam da atamın dili ilə "Şöşü bala" çağırırdı. Atam gedəndən sonra anam daha "Şöşü bala" deyə bilmirdi. Qaqaşım barmağı sümürüb, balı udub, o an da ağzını balıq kimi açanda, burda anam bir ildə bəlkə də birinci dəfə gülüb:

– Şöşü bala! Bu qədər bal yemək olmaz axı, Şöşü bala! – dedi.

Sonra Şöşü balanı mənim qucağıma qoyub, ləyən, su gətirib elə buradaca xəmir yoğurmağa başladı...

O un da qurtardı. O bal da qurtardı.

Hey deyirəm "səmum hardan əsdi?!" anamın sözləridir. Qulaqlarımda "pəpə, pəpə", bu müsibətin səbəblərini axtarıram. "Pis adamlar... Pis adamlar..." Neyləyiblər o "pis adamlar"?

Bunu Mehbalı əmi bilir. Mən isə yaxınlarımızı yaxşı tanıyıram: atalarımızı, analarımızı, dostlarımızı...

...Tapdığın anasının adı Söylü idi. Mənim anamınkı Əsmət. Əmma bilənlər bilirdilər ki, həqiqi adı Asmik idi. Mənə özü danışmışdı ki, ulu babası nə vaxtsa bizim bu ətraf kəndlərə gəlib "kirvəlik" eləyən ermənilərdən imiş, adına da elə "gələn kirvə" deyirmişlər. Kiminsə oğlunun sünnət toyunda deyib: "Gələn deyiləm mən, Gülənəm". O vaxtdan adı Gülən qalıb. O Gülən kirvənin törəmələri Gülənuşağı olub elə müsəlmanlaşıblar ki, bizim kəndə kartof gətirib taxıl aparan "Baran erməniləri" deyilən Barana erməniləri "hayes, Turkes" soruşanda bunlar "türkəm" deyiblər. Bu "türkəm" deyənlərdən biri o ulu erməninin adını daşıyan Gülən, yəni anamın dayısı hətta molla məktəbi qurtarıb Molla Gülən olub özü də molla məktəbi açıbmış. Əmma Molla Güləni nə Qurban əmi – Qılınc Qurban xoşlayırdı, nə atam, nə anam özü, nə də mən. Buna görə də onun adının yaxşı adamlar sırasından qəti çıxarmışam. Bu dayının bacısı qızı Əsmətin adını isə, anam olduğuna görə yox, həqiqətdə də yaxşı insan olduğuna görə yaxşılardan birincilərin sırasında deyirəm.

Tapdığın anasına Sürməli Söylü də deyirdilər.

Əvvəllər, yəni hələ müharibə başlanmamış uşaqlar mənim qulağıma pıçıldayırdılar ki, "sürməli" guya ayağı sürçək arvadlara deyirlər. Mən buna inanmırdım. Birincisi, ona görə ki, Söylü xana

gözlərinə sürmə-zad çəkməzdi. Yadımdadır ki, anam gülümsünüb elə bil qibtə ilə deyərdi: “Söylünün gözləri qüdrətdən sürməlidi”. İkincisi də, “Sürməli” adını ona bir başqası yox, öz əri Muxtar əmi vermişdi. Pis ad olsaydı. Deyərdimi?!

Muxtar əmi ayar adamdı. Çöldə – sahələrdə, kolxozçuların arasında da, idarədə də heç vaxt sakit dayanmaz, elə danışıb-gülərdi. Axşamlar, idarədə işlərini qurtarandan sonra, boş vaxtlarında, özü dediyi kimi, “arvadını qoltuğuna vurub”, tut ağacının altında “böyrünü xalçaya verib Tahir müəllimnən gap eləməyə” gələrdi. Əmma atamla “gap eləmək” əvəzinə, öz arvadı ilə zarafata başlardı: “Samavarı gətir xalçanın yanına qoy zümzüməsini eşidək, özün də gəl gözümün qabağında əyləş, öz əlinnən çay süz, Əsmət bacının xətrinə dəyməsin, sənin əlindən çaya məxsusi ətir çökür, mənim Sürməli Söylüm, sürməli gözlərinə quzu kəsim!” Beləcə başlayıb, tər tökə-tökə, hərdən “oxay!” – deyə-deyə armudu stəkandan çay içib, samovar tər-təmiz boşalana qədər danışardı. Axırda isə “hökumət papirosu” çəkən atamla “maxorka” çəkən Mehbalı əmiyə hökmən “Siz çəkən deyilsiniz”, – deyib tənbəki kisəsindən “saçaqlı tütün”lə “cığala kağız” çıxarıb, “Arvadın eşqinə bir eşmə də dəmliyək və rəvan olaq təxti-xabımıza sarı!” – deyərdi.

Muxtar əmi ilə oturanda atam da zarafatcıl olurdu: “Sədrimizə baxın! Fikri-zikri Söylünün yanında, təxti-xabda! Başa düşmürəm bu kəndi necə idarə eləyirsən!” Muxtar əmi guya ciddiləşib deyərdi: “Söylü olmasa bircə gün də sədrlik eliyəmmərəm. Başın haqqı doğru sözümdü, müəllim! Bax, budu deyirəm: o gün ki, gördün Söylü yanımda yoxdu, bil ki, Muxtarın ruhu bədəndə deyil! Get qəbrimi qazdır!”

Muxtar əmi belə danışanda, Tapdıqla mən bir kənarda bir-birimizi dümsükləyib, ucaboy, gözəl arvadın öz “kartofburun, yekəqarın” ərinə necə vurğun-vurğun tamaşa etdiyinə baxırdıq.

Mən Muxtar əmidən başqa heç bir ağsaqqal, qarasaqqal yanında heç bir zarafata, sərbəst rəftara yol verəməyən, komsomolluq illərinin “revolveri” – tapançası hələ də evimizdə saxlanan, kənd arasında qaşları çatılı gəzən, məktəbdə “atası Nur Məhəməd təki nur-ipək” olan, evdə qəzet, kitab oxuyan, şeir yazıb siyirməsində “qıfıl altında saxlayan” atamla sakit, susqun anamı Tapdığın ata-anası ilə müqayisə edərdim və belə şən ata-anası olduğuna görə ona qibtə etdiyimi Tapdıqdan gizlətməzdim.

Qırx birinci ilin yayında “vətəni müdafiə edək” şüarı çıxanda, başqa könüllü gedən kommunistlərlə birlikdə atam ərizə verəndə Muxtar əmi də yazdı.

Bir gündə getdilər, bir gündə məktub göndərdilər “Mazdokda qırılan Azərbaycan diviziyası” barədə xəbər yayılandan sonra bir gündə də “qara kağızları” gəldi.

Mən anam sarıdan arxayın idim. Anam toxtaqlı, dözümlü qadındı. Tapdığın anası isə... yox, o, ayrı cür idi.

Mehbalı əmi bizim nəsildən olsa da, nədənsə əslini gizlədib Tahirli əvəzində familiyasını Qalayçıoğlu yazdıran briqadirimiz, ağsaqqallarla bizə gəlirdilər. Kandarda qaloşlarını, ayaqqabılarını çıxarıb, əllərini bığlarına, saqqallarına çəkə-çəkə yuxarı başa addımlayıb, yerbəyerdən “Ya allah! Ya Allah!” – deyə-deyə taxtın üstünə qalxırdılar, orda anamın əlüstü saldığı süfrənin dövrəsində səliqə-səhmanla bardaş qurub səsiz-səmirsiz otururdular. Kənddə şirniyyat tapılmadığına görə armud qaxı ilə, moruq qurusu ilə çay içib, elə hey yaslı-yaslı susurdular. Gah qarşılarında buğlanan stəkanlara, gah diqqətlə otağımızın çılpaq divarlarına, künc-bucağına, gah da atamın yazı stolunun böyründə, kətildə susqun oturan anama baxırdılar. Danışmağa başlayanda isə, bir-birinin sözünü kəsə-kəsə anama ürək-dirək verirdilər: filan kənddə filankəsin ərindən də, yaxud filankəsin oğlundan da qara xəbər çıxıbmış. Əmma heç beş gün keçməmiş məktub gəlib. Yaxud: filan kənddə filankəslərin ərlərinin yanından adam gəlib, deyir “sekretni” yerdə işləyir, məktub yollamağa ixtiyarı yoxdur və sairə... O deyilən xəbərlərdən bizim kənddə niyə çıxmırdı? Bu barədə nə anam soruşurdu, nə də qocalar bir söz deyirdilər.

– Frontda[1] belə şeylər çox olur, bala. Sən heç umudunu üzmə, – deyib ağsaqqalların arasında xüsusi hörməti olan Mehbalı əmi söhbətə yekun vururdu.

Yazı stolunun o tərəfində, divarda iki şəkil vardı. Birində anam stulda oturub, qucağında gombul yanaqları, işıldayan gözləri ilə kuklaya oxşayan bir uşaq tutmuşdu. O kukla guya mən idim. İkinci şəkildə əllərini şalvarının ciblərinə soxub, geniş, qabarıq sinəsini irəli verib, başını dala atıb, damağında uzun müştüklü papiros tutmuş,

---

[1] Cəbhə

beli revolverli oğlanla bir əlini belinə, o biri əlini taxta qoburlu mauzerinin üstünə qoymuş balaca bir kişi şəstlə dayanmışdı. O revolverli oğlan atam Komsomol Tahirdi, yanındakı gödək kişi isə Qurban əmi – Qılınc Qurbandı.

Mən gözümü açıb dünyaya baxanda atamı saçsız görmüşdüm. Dediyim kimi, kənd arasında qaşları çatılı, məktəbdə nur-ipək, evdə oxuyan, yazan, bağçada işləyən atamın şəkildəki oğlana heç bir oxşarı yoxdu. Amma anam gündə bir kərə o şəklin tozunu silirdi və bu vaxt mütləq onu divardan götürüb uzun müddət, elə bil nəfəs çəkmədən tamaşa edirdi. Belə hallarda bir neçə dəfə pıçıltısını eşitmişdim: "Balalarını yetim qoyma, ay Tahir..."

Anam taxtdan düşüb tələsmədən qaloşlarını, ayaqqabılarını geyinən qocaları da eyni sözlərlə ötürürdü:

– Təki balaları yetim qalmasın. Mən heç nə istəmirəm, şil olsun, topal olsun, ancaq balalarının içinə qayıtsın.

Bu sözləri deməyə dili necə gəlirdi? Mən, əlbəttə, etiraz edirdim. Ancaq həm də ürəyimdə sevinirdim ki, demək anam toxtaxlıdır.

Tapdığın anası isə, dediyim kimi, ayrı cür idi.

"Qara kağız" gələn günü kəndin ortasında, El yolunda arvadın necə qiyyə çəkib hönkürdüyünü xatırlayanda canımdan üşütmə keçirdi. Ətrafına toplaşmış arvadların onu qınadığına və hətta Tapdığın da acıqlandığına baxmayaraq, arvad dəli kimi baş-gözünü yumruqladı, saçlarını yoldu. Həmin axşam Tapdıqgilə gedəndə mən o gözəl qadının bir neçə saatdaca sapsarı saraldığını, "sürməli" gözlərinin dövrəsində qara ləkələr əmələ gəldiyini gördüm.

Arvad vaxtı ilə Muxtar əminin "təxti-xab" adlandırdığı böyük çarpayıda, yoğan-döşəyin arasında arxasıüstə uzanıb, donuq gözlərini tavana dikmişdi. Elə bil can verirdi.

Tapdıq çarpayının ayağında boynunu büküb anasına baxırdı. Deyəsən mənim gəldiyimi hiss etmirdi.

Ayaqlarımın ucunda ehtiyatla yaxınlaşıb, mən də çarpayının aşağısında dayandım. Tapdığa bir söz deməsəm də, belə dar gündə dostumla heç olmasa yanaşı dayanmağı özümə borc bildim.

Bir az sonra Tapdığın böyük qardaşı Cümrü gəldi.

O vaxt Cümrüyə Dəli Cümrü demirdilər. Çünki hələ dəli olmamışdı. Özü də çağırışçı idi. Qalın parçadan özünə arxa çantası tikdirmişdi, içinə də yun corab, qulaqlı papaq və sair bu kimi şeylər

qoymuşdu. “Uruset soyuqdu”, – deyirdi. Müharibədən, əsgərlikdən söz düşəndə isə “Günlərimi sayıram”, – deyirdi.

Tapdıq həm boy-buxundan, həm də sifətdən atasına oxşayırdı. Cümrü isə anasına çəkmişdi. Bizdən cəmi iki yaş böyük olmasına baxmayaraq, kürəyinin arxasında Tapdıq kimisinin və ya mən kimisinin ikisi gizlənə bilərdi.

Hələ müharibədən əvvəl, məktəbdə oxuduğu vaxtlar da elə bu cür enlikürək idi. Atamla Muxtar əmi yanaşı dayanıb, papaq əvəzində başında çalağan yuvasıtək bir topa qapqara saç gəzdirən bu pər-budaqlı oğlanın boy-buxununa, yerişinə, duruşuna tamaşa eləyib, qürurla gülümsəyərdilər: Muxtar əmi öz oğlu ilə, atam öz şagirdi ilə fəxr edərdi. Bizim, yəni Tapdıqla mənim isə, şübhəsiz, qürurumuz həddini aşıb lovğalığa çevrilərdi. “Cümrü qağamız hər ikimizin qardaşımız, hər ikimizin dostumuz idi. Kolxozumuzda “Staxanovçu”[1] adı alan kolxozçuların haqqında qəzetlərə məqalə göndərib çox vaxt “atkaz”[2] alsa da, özünü “müxbir” adlandıran köhnə sinif yoldaşımız Müxbir Məlik özünü bizim ən yaxın dostu saysa da, Cümrünün yanında mənə həmişə əyri baxırdı, “Cümrünü məndən çox istəyirsən!” – deyirdi.

Atalarımız gedəndən sonra Cümrü də məktəbi buraxdı. Qalayçıoğlunun briqadasına yazılıb, o da kotançılığa başladı. Mehbalı əmi ilə Qalayçıoğlu bir neçə gün dalbadala danlayıb-dalaşıb, “Heç olmasa doqquzuncunu qurtar!”, “Sən zehinlisən. Buraxma məktəbi!” – dedilər. Əmma Cümrü qayıtmadı məktəbə. “Dava vaxtı nə oxumaq, ay atası rəhmətliklər! Vayenkoma ərizə yazmışam, arxa çantamı da tikdirib hazır qoymuşam. Bu gün-sabah çıxıb-gedəsiyəm!” – dedi. Qocalarımız: “Bu dava çox pis davadı. Kim bacarır, yayınsın bu davadan”, – desələr də, divarlarda “Vətəni müdafiə edək!”, “Vətən çağırır!” şüarlarını “sarsaqlayan”, “saf-saman danışan” qocalarımızın sözlərindən daha əsaslı saydığımıza görə, Qağamızın: “Ərizə yazmışam”, – dediyini eşidəndən sonra Tapdıqla mənim Cümrü sarıdan qürurumuza gizlin bir qibtə qarışdı.

Qoşa konvertlərdə qoşa “qara kağızlar” gələn günü nədənsə Cümrü anasına yaxın durmadı. Cod dərili, iri əllərilə enli qayış

---

[1] Staxanovçuluq – sürətlə işləyib çox məhsul verən rus fəhləsi Staxanovun adı ilə bağlı təbliğat, istismar üsulu

[2] Otkaz – rədd cavabı

kəmərinin toqqasını sıxaraq, topasaçlı başını dik tutub, ağsaqqalların arasında dayandı. Mənə elə gəlir ki, Tapdıq da məhz qardaşının o cür ürəkli-dirəkli dayandığını gördüyü üçün özünü ağlamaqdan saxladı. "Mənə elə gəlir ki", – deyirəm, çünki əslində mən özüm də elə Cümrüyə baxıb, göz yaşımı içərimdə boğdum.

Söylü arvad elə bil doğrudan da can verirdi, hərdən sinəsi dolub-boşalmasaydı və bu vaxt burun pərləri titrəməsəydi, biz yəqin ki, şivən qopardıq.

Cümrünün "kartof" burnu sıxılmışdı, qaysaqlı dodaqları göyərmişdi. Gözləri eynilə anasının gözləri kimi, bir nöqtəyə dirənmişdi.

Dillənməyə cəsarət eləmirdim. Haçandan-haçana ehtiyatla Tapdığa tərəf əyildim:

– Bəlkə Revazı çağıraq?

"İrəvaz doxdur" deyilən adam gürcü idi, elə Gürcüstanda da işləyirdi. Əmma "malareya" deyilən qaraqızdırma bizim üçpara kəndin camaatını əməlli-başlı təntitdiyinə görə Revaz – İrəvaz doxdur tez-tez Baş kənd Qurbanlıya gəlib orda Axsaq Hacıya – Feldşer Hacıya dərs deyirdi, Aşağı kənd qonaqlıda rus qızı Sestraya dərs deyirdi, bizim Orta kənddə isə həftədə iki-üç gün qapı-qapı gəzib "xinin" – qızdırma dərməni paylayırdı, "iynə" vururdu.

Mən "Revaz" deyəndə Tapdıq başını buladı.

– Revazlıq deyil, – dedi.

Sonra təəccüblə üzümə baxdı.

– Sən niyə burdasan?!

Dedim:

– Bəs neynəyim?

Dedi:

– Anayın yanında ol! Get!

Mən cavab verməmiş, arxadan Cümrünün gur səsi eşidildi:

– Onun anası kişi qızıdı!

Başımı qaldırıb, məndən azı iki qarış hündürlükdə Cümrünün iri, parıltılı gözlərini gördüm.

Bir əlini Tapdığın, bir əlini də mənim çiynimə qoyub, sinəsilə bizi çarpayının dəmirinə sıxıb, anasına baxdı. Ağır-ağır, deyəsən, qəhərdən boğula-boğula, nəfəsini dərə-dərə dedi:

– Qara kağızı gələn tək bizimkidimi, ay ana?! Saçını-birçəyini yolub yelə verməknən atamı qaytaracaqsan?! Mən heç, bu Tapdıq balana yazığın gəlmirmi?!

Söylü arvad dillənmirdi. Oğlunun sakitlikdə otaq dolusu çıxan boğuq səsini elə bil heç eşitmirdi.

– Qoşa oğul anasısan... saçına-birçəyinə dən düşüb, neçə-neçə ölüm-itim görübsən, özünü niyə itirirsən, ay ana?!

Cümrü bu sözləri deyə-deyə çarpayının böyründən hərlənib, anasının başı üzərində durdu. Qaşlarını sıx-sıx çatıb, bir müddət səssiz-ünsüz dayandı. Sonra ağır-ağır çevrilib bizə necə baxdısa, Tapdıq da, mən də onun nə demək istədiyini dərhal başa düşüb eşiyə çıxdıq. Ancaq hələ qapıdan aralanmamış dayanıb geri baxmağa məcbur olduq.

Cümrü çarpayının böyründə diz çöküb, əyilib, ana uşağı kimi üzünü anasının üzünə söykəmişdi.

– Mən də dözəmmirəm axı, ay ana! Atamı mən də çox istəyirəm axı! – Birdən bütün bədəni ilə silkələnə-silkələnə hönkürdü.

O hönkürtünü ömrüm boyu unutmuyacam.

Kənd arasında, camaat içində topasaçlı başını dik tutub şəstlə dayanan, öz toxtaqlı görkəmilə Tapdığa da, mənə də nümunə göstərib ürək-dirək verən Cümrü qağamızın birdən-birə elə yana-yana hönkürməsi, müsibətimizin necə böyük olduğunu bizə yenidən anlatdı.

Tapdıqla, ikimiz də divar dibində, quru torpaq, daş-kəsək qırıntıları üstünə düşüb, baş-başa verib, bir-birimizi qucaqladıq. Qəribədir ki, atamla Muxtar əminin yoxluğunu, analarımızın bədbəxtliyini məhz belə qucaqlaşanda anlamışdım.

Gözümün yaşını silib başımı qaldıranda içəridə lampa yanırdı. Yerdə, xalça üstündə çoxlu arvad oturmuşdu. Ortalığa paltar töküb ağlaşırdılar. Vaxtilə Muxtar əminin əynində dəfələrlə gördüyüm göy kitel, qara qalife şalvarı tanıyanda dərhal geri dönüb Tapdığın biləyindən yapışdım, heç nə izah etmədən, onu həyətin qaranlığına çəkdim: atasının paltarının sovxatək ortalığa töküldüyünü görməməli idi.

Hələ axşamdan arvadlar bizim qapıya da gəlmişdilər. Əmma anam onları heç içəriyə ayaq basmağa da qoymadı. Gözucu mənə baxıb dedi:

– Evimə ağlaşma salmıyacam.

Qalayçıoğlunun gəlini anbardar Zibeydə xahiş elədi ki, anam heç olmasa "Tahir müəllimin köynəyindən, şalvarından bir şey"

versin. Bu kök, hörmətli gəlin vaxtilə atamın yaxşı oxuyan istəkli şagirdi olmuşdu. Ancaq anam onun xahişini də qəbul eləmədi. Atam kimi o da “Zibeydə” yox, “Ziba” deyib, sakitcə:

– İncimə, Ziba. Bir kağız yox, yüzü gəlsin, Tahirin paltarını ortalığa töküb ağlaşma qurmuyacam! – dedi.

Zibeydə ağladı. Arvadlar isə, anamdan incimiş kimi, narazı gözlərlə bir-birinə baxıb yavaş-yavaş dağılışdılar.

İndi Tapdıqgilə yığışmışdılar. Məncə onlar Muxtar əmiyə yas saxlamaqdan çox hərəsi öz dərdini “qara kağız”a dönən əzizini ağlayırdı. Yoxsa, bu qədər dəhşətli sızıltı, göynərti ilə ağlaşardılarmı?

Hiss elədim ki, o göynərtilərə mən necə dözə bilmirəmsə, Tapdıq da eləcə dözə bilmirdi, elə buna görə də atasının paltarının ortalıqda görməməli idi.

Tez-tez dayanıb geri baxsa da, qolunu buraxmadım.

– Anam öləcək! Nuru, anam öləcək! – deyirdi.

Tapdıq, deyəsən, bir az sakitləşmişdi.

– Cümrünün ağladığını görməmişdim, – deyib qaranlıqda geri boylandı.

Hiss etdim ki, qardaşı sarıdan da narahatdır. İstər-istəməz fikirləşdim ki, Cümrü niyə o cür hönkürdü? Arvadların o cür sızıldaşmasına niyə izin verdi?

Birdən onu darvazada gördüm. Demə, çıxıbmış.

Yolun o tərəfindən naxırçı Məsinin qaranlıqda itib-batmış daxmasından tütək səsi eşidilirdi. Məsi adətən axşamlar təklikdən darıxanda durub daxmanın damına qalxardı, orda oturub tütək çalardı. İndi də çalırdı. Görünür, yenə darıxırdı.

Cümrü vaxtilə Muxtar əminin kətilsayağı düzəldib darvaza dalına qoyduğu kötüyün üstünə çökdü. Ulduzların işığında parıldayan gözlərlə, özü də elə bil təəccüblə Məsinin daxmasına tərəf baxırdı.

Ona yaxınlaşıb dedim:

– Gedirik anamı yollayaq, gəlsin bu gecə Söylü xalanın yanında qalsın.

Cümrü dillənmədi.

Mən axşamüstü anamın arvadları qapımızdan necə qaytardığını danışdım və məsləhət gördüm ki, Cümrü qağa da o cür eləsin, yoxsa, o cür ağlaşmadan Söylü xalanın əhvalı daha da xarablaşar.

Cümrü yenə dillənmədi. Onsuz da dərdlə dolu olan bu yay gecəsində, naxırçı Məsinin tütəyinin dalğa-dalğa gələn səsi də elə bil kimə isə yas tuturdu. Cümrünü də indi elə bil o yaslı səsdən başqa heç nə mapaqlandırmırdı.

Məni heyrət götürdü. Bayaqkı hönkürtü hara, indi mənim sözümə heç əhəmiyyət verməməyi hara? Qağamız birdən-birə niyə belə laqeyd idi? Xeyirli məsləhətə niyə qulaq asmırdı? Anasından əlini üzmüşdü, nəidi?!

Birdən, bu buludsuz, ulduzlu gecədə elə bil ildırım çaxdı.

– Nə baş-beynimi tökürsünüz! Cəhənnəm olun burdan! – Cümrü necə qışqırdısa, Tapdıqla mən diksinib, heyrətlə bir-birimizə baxıb darvazadan tezcə uzaqlaşdıq. "Heyrətlə" deyirəm, çünki Cümrünün heç bir səbəbi olmadan, bizlə belə kobud rəftar eləməsi görünməmiş şey idi.

Deyirlər ürəkdən ürəyə yol olur. Biz öz "gözəl qağamızla", "pəhləvan qağamızla" fəxr edirdik. O isə, həmişə bizi əzizləyirdi. Xüsusən atalarımız gedəndən sonra. Biz gündüzlər çöldə yer şumlayıb, axşamlar gah Tapdıqgilin, gah da bizim həyətimizdə qarğıdalını kətmənləyəndə Cümrü birdən böyürdən çıxıb bizi qucaqlayırdı. "Qadanızı alım, a qeyrət dağarcıqları!" – deyirdi. Və bizi yatmağa göndərib, kətməni özü götürüb, bəzən səhərə qədər kətmənləyirdi. Mən gecənin bir vaxtı yorğun düşüb taxtın üstündə uzananda, birdən yenə də Cümrünün səsini eşidirdim: "Nuru kişi necədi, Əsmət xala?.." Gəlib başımın üzərində dayandığını, diqqətlə üzümə baxdığını hiss edirdim. "Uşaqlar yaman işləyirlər, ay Əsmət xala. Yeməyinə-içməyinə yaxşı fikir ver, sən Allah. Bu gün-sabah mən də gedəcəm, yurdda bunlar qalacaqlar. Yaxşı fikir verin, üzülməsinlər, Əsmət xala".

Tapdıq da, mən də, hər yerdə, həmişə qağamızın qayğısını, nəvazişini duyurduq. Mehbalı əmi ilə Qalayçıoğlu nədənsə onu "kobud", "qabağından yeməyən" adlandırırdılar. Biz isə, Cümrüdən həssas, Cümrüdən nəcib ikinci bir adam tanımırdıq.

Bu il yazbaşı, Novruz bayramından sonra ümumi iclasda sovet sədri Qurban əmi – Qılınc Qurban təklif elədi ki, kolxozdan iki boyun kəl, bir kotan ayrılsın, hər gün bir əsgər ailəsinin "qapısı", yəni həyətyanı sahəsi əkilsin. Sədr Cəbrayıl dedi: "Malakan kəndində arvadlar şalvar geyinib kişilərnən bərabər çöldə yer

şumlayırlar, axşamlar da bel götürüb qapıdakı yerlərini belləyirlər. Bizimkilər niyə belləməsinlər?..”

İclasda qarışıqlıq düşdü. Qalayçıoğlu əlini xançal dəstəyinə qoyub ortalığa çıxdı. Dedi: “Malakan malakandı, müsəlman müsəlmandı! Papağını yerə soxum o kişinin ki, əsgər arvadının əlinə bel verib yer bellədir!..”

Arvadlar özləri məsələyə qarışmasaydılar, kişilərin arasında bəlkə də əməlli-başlı qalmaqal qopacaqdı. Çünki sədr Cəbrayıl nə qədər gözəl kişi idisə, bir o qədər də qürurlu idi, yəni söz götürən deyildi; səhnədə stolun dalından çıxıb, elə özü kimi caydaq, zabitəli Qalayçıoğlu ilə qabaq-qarşı dayanıb, birdən əlini atıb briqadirin xançalını qından çəkdi: “Əvvəla, iclasa xançalla gəlməyin kişilik deyil, a bizə nakişi deyən! İkincisi, müharibə bircə il də çəksə, kənddə başıpapaqlı qalmıyacaq. Bax buna görə deyirəm işləsinlər, indidən alışsınlar zəhmətə!”

Qalayçıoğlu xançalını sədrin əlindən alanda necə oldusa tiyədən tutdu, didik-didik taxta döşəməyə al-qırmızı qan çiləndi. Həmin bu vaxt arvadlar yerbəyerdən qalxıb küy qaldırdılar. Köhnə istəkli sədrimizin – Muxtar əminin istəkli Sürməlisi səhnə ayağında görünəndə isə küy yatdı. Söylü arvad yox, elə bil Muxtar əmi özü öz nüfuzu ilə hamını sakitləşdirib dedi: “Raykomumuz Sultan Əmirli yoldaş məktəbimizin direktorundan mənim yeddincini qurtarmağım barədə yoxlama istəyib, məni kursa göndərmək istəyir ki, gəlim kəndimizdə rəhbər işdə olum. Özüm razılıq vermişəm. Qismət olar gedənlərimiz qayıdar, o vaxt, inşallah, genə arvad arvad olar, kişi də kişi. Həmişə dava olmuyacaq ha!..”

Anası belə danışanda Cümrü arxa tərəfdə, qapı ağzında, toqqasından qoşa əlli tutub dayanmışdı. İşarə ilə bizi, yəni cavanları yanına çağırıb dedi: “Gedin hərəniz bir bel gətirin. İdarənin qabağında gözlüyəcəm”.

O axşamdan başlayıb, şumdan o qədər üzgün qayıtmayanda hər bir əsgər ailəsinin həyətyanı sahəsini bellədik.

Uşaqlardan bəziləri dözmürdülər. Məsələn, Məlik hərdən beli atıb, əkinin kənarında üzüüstə torpağa sərilib dərhal yuxuya gedirdi və həmişə də ağzından selik axırdı. Bu vaxt Cümrü onu ehmallıca qucağına götürüb otluqda uzadırdı, papağını Məlikin başının altına qoyur, pencəyini də üstünə salırdı.

Axırıncı gecə, səhərə yaxın iş qurtaranda qağamız əlindəki beli torpağa sancıb bircə-bircə bizi qucaqladı, yenə də: "Qadanızı alım, a qeyrət dağarcıqları!" – dedi.

Təkrar deyim ki, Tapdıq da, mən də, Müxbir də Cümrü qağamızdan həssas, pəhləvan qağamızdan nəcib ikinci bir adam tanımırdıq. Yəqin ki, elə buna görə də onun birdən-birə Tapdıqla mənə qışqırması, hətta "Cəhənnəm olun!" – deməsi məni sarsıtdı. Qağamızın hirsli, parıltılı gözləri bir müddət xəyalımdan getmədi. Nə qədər düşünsəm də Cümrüdəki bu qəribə dəyişikliyə bir səbəb tapa bilmədim.

Bilmirəm hardasa oxumuşam, ya da kimdənsə eşitmişəm ki, insanın ən böyük xoşbəxtliyi uzaqgörənliyindədir. Burdan belə nəticə çıxarmaq olar ki, demək, ən böyük bədbəxtlik bədbəxtliyi qabaqcadan görməməkdir.

Hardan biləydik həssas qağamıza, pəhləvan qağamıza Dəli Cümrü deyiləcək?!

Cümrünü darvaza ağzında, kötük üstündə qoyub, Tapdıqla yanaşı, bizim evə sarı gedəndə, mən vaxtı ilə Muxtar əminin "arvadını da qoltuğuna vurub" bizim həyətə, tut ağacının altına gəldiyi günlərimizi, Tapdıqla bir-birimizi dümsükləyib, "kartofburun, xaşalqarın" ərinə vurğun-vurğun tamaşa edən arvada baxıb pıqqıldaşdığımızı xatırlayırdım, indi donuq gözlərini tavana dikib hərəkətsiz qalmış Sürməli Söylünü Aşağı kənd Qonaqlıda Çürük aşığın danışdığı "Məsim və Diləfruz" dastanında "Məsimin həsrətindən dili tutulmuş Diləfruza" oxşadırdım. "Arvad-kişi" söhbəti olan iclasda elə danışandan sonra günlərin birində Cəbrayıl kişi müharibəyə gedəndə hökmən sədr seçiləcəyini gözlədiyim Sürməlinin gözlərindəki dəhşətin, lal-dinməzliyin keçəcəyinə şübhə eləmirdim.

Hardan biləydim ki, həssas, incə qağamız kimi həssas, incə anası da elə dəli kimi olacaq?!

Muxtar əmidən "qara kağız" gələndən sonra heç altı ay da keçmədi ki, Sürməlimiz ərə getdi. Özü də kimə?! Sədr ərinin yerində oturan sədrə! Arvadlı-uşaqlı Cəbrayıl kişiyə!

Bu əcaib xəbəri mən bir səhər Qara inəyi naxıra qatmağa gedəndə Məsidən eşitdim.

Yeri gələndə səbəbini deyəcəm. Məsiyə xüsusi hörmətim vardı. Muxtar əminin istəklisi, Qağamın, Tapdığımın anası barədə

ədəbsiz sözlər, ağlasığışmaz xəbər dediyini eşidəndə istər-istəməz yumruğumu düydüm.

– Kim deyib sənə bu murdar şayəni?!

Əmma Məsi məni inandırdı ki, Sürməlimiz doğrudan da ərə gedib. Özü də, dediyim kimi, sədr ərinin yerində oturan sədrə! Arvadlı-uşaqlı Cəbrayıla! Rayonumuzun ən məşhur, ən ləyaqətli adamı Sultan Əmirlinin ən yaxın dostlarından birinə, yəni ən ləyaqətli bir kişiyə! "Murdar şayə" deməyəydim, nə deyəydim?! Ağıla sığışan şey deyil, axı!

– Ay sağ olmuş, axşamdan bəri kəndə çaxnaşma düşüb, sən də deyirsən inanmıram! – Məsi başı qarmaqlı, dəmirli çomağını çiyninə qaldırıb naxırın dalınca tələsdi.

Mən Tapdıqgilin həyətinə yüyürdüm.

Bizim kəndin cəmi iki küçəsi, daha doğrusu, sağ-solu bağ-bağçalı iki torpaq yolu vardı. Biri El yolu deyiləndi ki, tən ortadan keçib, deyilənə görə hansı əsrlərdənsə Bərdəyə, Naxçıvana, Təbrizə qədər gedərmiş. İkinci yol da geniş idi. El yolundan fərqli olaraq, haçalanırdı. Haçanın biri Qalayçıoğlunun uzun, alçaq evinin yanından ötüb kəndin ayağında Yanıq dikdir deyilən tərəfə gedirdi. İkinci haça isə günbatana sarı, Tapdıqgilin eyni ilə Qalayçıoğlunun evinə oxşayan uzun, alçaq evinin qabağından meşəyə gedirdi. Bu yolu təngnəfəs yüyürəndə mən kənddə doğrudan da bir çaxnaşma hiss edirdim. Səhər-səhər ocağı tüstülənən həyətlərdə, çəpərlərin arabərəsində, beşbir, üçbir olub ucadan nə isə danışan arvadları, geniş, tozlu yolda dağınıq ordu kimi səpələnib Tapdıqgil tərəfə boylanışan tay-tuşlarımı görürdüm.

Anama rast gəldim. Gözləri yaşlı idi. Qolumdan tutub, məni sakitcə geri döndərdi. Dedi:

– Ora getmə, oğul.

Dedim:

– Niyə?

Dedi:

– Olan olub, keçən keçib. Gedib neyniyəcəksən?

Dedim:

– İnanammaram mən. Söylü xala niyə belə şey eləyib?! Nə olsun ki, Muxtar əmidən qara kağız gəlib! Bəlkə əsir düşüb, bəlkə sekretni yerdə işləyir. Bu arvad dəli olub, nədi?! Yanında qoşa oğlanları!.. Muxtar əmini çox istəyirdi axı, ay ana!

Anam kəlağayısının ucu ilə gözlərini sildi. Mənim başımın üzərindən darvazaya sarı baxıb səsi titrəyə-titrəyə dedi:

– İstəməyinə Söylu xalan indi də istəyir. Onlar bir-birini cavan oğlan, cavan qız təki istəyirdilər.

– Bə birdən-birə nə oldu bu arvada?!

Mən özüm də hiss etmədən qışqırırdım. Anam isə həmişəki kimi sakit və qəmli idi. Arada əyilib, mənim şalvarımın dizinə yapışmış pıtrağı qopardı, sonra yenə qolumdan tutdu.

– Ora getmə. Pis işdi, oğul. Çox pis! Gedək, evdə danışaram.

– Burda danış!

Arxamda Məlikin batqın, hirsli səsini eşitdim:

– Əsmət xalanı bezdirmə, ay axmaq! Necə danışsın o sənə o cür biabırçılığı?! Tapdıq səni soruşur axşamdan bəri. Gəl deyim necə olub.

Anamdan ayrılıb Məlikin üstünə cumdum.

– Budu bax, yazmışam hamısını, – deyib əlini pencəyinin qoyun cibinə atdı, qeyri-adi uzun, sarı sifəti kimi uzun, sarı bloknotunu göstərdi. – Revaz doxdur deyir əvvəl mənə oxu görüm düzmü, yazıbsan, sonra göndər qəzetə. "Kommunist" qəzetinə göndərəcəm bu dəfə! Bilirsən, Nuru, əsgər ailəsini dağıtmaq çox ağır cinayətdi...

Mən səbirsizlikdən boğulurdum, Muxbir isə elə hey çərənləyirdi.

– Əşi, dayan! Bloknotunu cibinə qoy! Olanı danış! – dedim.

Dedi:

– Olan çoxdan olub, heç kəs xəbər tutmayıb. Muxtar əmidən qara kağız gələn günü olub, ey! Cəbrayıldaymış, demə, qara kağız. Revaz doxdur deyir NKVD-nin "Emadin"ində üç adam gəlmişdi sizin rayondan bizim Qaratəpəyə – Qardabaniyə. Cəbrayıl da yanlarındaydı, deyir. O cür kişi uşaq təki ağlayırdı, deyir. Lap belə, hönkürürmüş ki, "belə kağızı mən necə verim Muxtarın arvadına?!" Gələnlərdən biri Revaz doxdurdan bir boçqa çaxır alıb, Qaratəpədən də bir quzu alıb, kəsdirib, soydurub, gəliblər bura – Tapdıqgilə. Söylü xalaya deyiblər Muxtarnan kef elədiyimiz günlər yadımıza düşdü, gəldik qardaşımızın evində yeyək-içək, sənnən söhbət eliyək, oğullarıyın, özüyün ehtiyacını bilək. Söylü xala razılıq eləyib. Deyib oğullarım işdədilər. Özü setka[1] taxıb başına,

---

[1] Arıdan qorunmaq üçün dəmir tor

yeşikdən rumka çıxardıb, təzə bal kəsib, yağ qoyub, fətir qoyub. Ocaq qalayıb, gətirdikləri quzudan kabab çəkib, qalanını doğrayıb, qazan asıb ki, bozartma eləsin. Bozartma hazır olanda, yəni evə girəndə görüb Cəbrayıl ağlayır, içir, ağlayır, içir. Deyib bizim sədr heç belə içən deyildi, niyə bu kökə saldınız onu, ay qardaşlar? İstəyib adam çağırsın kənddən, Cəbrayılı evinə aparsınlar. Əmbə o gələnlər gülüşüblər, deyiblər sədriniz lazımdı bizə. Elə sən özün də lazımsan, yaxın gəl, əyləş. Söylü xala deyib bizlərdə arvad oturmaz kişi məclisində... Revaz doxdur deyir çox pis gülüşürdülər o gələnlər. Cəbrayıl ağlayırdı, deyir, onlar gülüşürdülər. Ürəyimə nəsə dammışdı, deyir. Bir də onu gördüm ki, biri qalxıb qapını bağladı, ikisi Cəbrayılı yıxdı, ciblərindən konyak şüşəsi çıxartdılar, yerə vurub boğazını sındırdılar şüşənin, konyakı tökdülər Cəbrayılın boğazına. Sonra da, deyir, Söylü bacını yıxdılar Cəbrayılın yanına, bir şüşə konyak da onun boğazına tökdülər. İkisini də, deyir, soyundurdular, lüt-üryan, tulladılar bədbəxt Muxtarın "təxti-xab" dediyi kravatın üstünə. Gülüşdülər ki, indi deyə bilərsən qara xəbəri. Çıxdılar getdilər, deyir. Darvazada maşına minəndə məni qorxutdular, deyir. "Dilindən çıxsa, əl-qolunu bağlayıb Kürə tulluyarıq", – dedilər, deyir. Axşamacan ac-susuz, qapı-qapı düşüb xinin payladım, deyir, qızdırmalılara, əmbə Söylüynən Cəbrayılın başına gətiriləni heç kəçə danışammadım. Çünki maşın NKVD-nin maşınıydı, deyir. Axşama yaxın Cəbrayıl "qara kağız"ı stolun üstünə qoyub, geyinib, sürünüb çıxıb evdən, doxdura deyib: "Arvad açmıyacaq bu sirri. Sən də özünnən qəbrə aparmalısan". Niyə? "Çünki bu NKVD səmumdu, – deyib, – "NKVD-nin sirrini bilənləri səmum aparar əvvəl-axır", – deyib. Yazıq İrəvaz əsim-əsirdi danışanda. Min dəfə dedi: "Bax, açma ha heç kəsə. Bilsələr danışırıq, mənnən bərabər sən də yoxa çıxarsan!" "Cəbrayılın, Söylünün təəssübünü çəkmə, – dedi, – çünki təəssüb çəkənləri də aparar səmum". Söylü xalaya dönə-dönə təpiniblər özləri ki, "Oğulların səs-küy salsalar, ikisini də nemesin gülləsinin qabağına basarıq!" Gör ey, Nuru! İndi bildinmi yazıq Sürməli niyə o haldaydı o axşam, biz "qara kağız"ları oxuyanda?! – Yenə bloknotunu göstərdi. – Başdan "qara kağız"ı yazmışam: "Sizin əriniz Muxtar Əlmədədoğlu vətən uğrunda döyüşlərdə qəhrəmancasına həlak oldu. Ali Baş Komandan İosif Stalin". Sonra yazmışam ki, Rayon Partiya Komitəsinin birinci

katibi Sultan Əmirli yoldaş bu qızıl əsgər arvadını partiya kadrları kursuna göndərməli idi. Lakin...

– Dayan! Məlik... de görüm... “qara kağız” gələli altı aydı. Biz niyə bilməmişik bu əhvalatı?!

Məlik arsız-arsız güldü.

– Hardan biləcəydin? Revaz doxdur açmayıb, arvad özü açmayıb. İndi mən də açmazdım. Əmbə bilirəm ağıllı oğlansan, ağzı möhkəmsən... yoxsa səmum səni aparar.

– Dayan! NKVD otuz yeddinci ildə qorxuluydu. Onu bilirəm. İndi yenə qorxuludusa, bəs Revaz özü niyə danışıb bunu sənə?

– Deyir partlayaram, a bala. Ölərəm yazdırmasam. Qoy gəlsinlər əl-ayağımı bağlasınlar, necə deyiblər, o cür, Kürə tullasınlar, əmbə cəzalarına çatsınlar o insanlıqdan məhrumlar!.. Qılınc Qurbana danışıb, ordan ikisi də gedib Sultan Əmirliyə xəbər verib...

– Sultan Əmirliyə?!

– Hə də! Gör ey, Nuru! Qeyrətə bax kişidə!.. Sultan Əmirli deyib özüm gələcəm kəndə. Siz, deyib, daha heç kəsə deməyin, açıb-ağartmayın öldürərlər ikinizi də. Gəlib ordan ki, Cəbrayılı görsün...

– Sultan Əmirli?

– Yox, ey! Revaz! Gəlib Cəbrayıla da tapşırıb ki, Sultan Əmirlinin tapşırığıdı, açıb-ağartma. Altı ayda hər həftə, hər ay dönə-dönə tapşırıram, deyir. Dünən Cəbrayılı heç yerdə tapammayıb. Bir uşaq deyib Muxtar əminin evindədi sədr, qonaqlar var orda. Ürəyimə nəsə damdı, deyir, yüyürdüm getdim, gördüm hamanca adamlardı. Sədrnən Söylünü genə leş eləyib, soyundurub basıblar “təxti-xaba”. Gülüşə-gülüşə bal yeşiyini açıb tüstüynən arını boğa-boğa bal çıxardırmışlar. Revaza deyiblər: “Hazırlaş, Kürdən qarın dolusu su içib gəbərməyə!” “Sultan Əmirli kimdi bizim yanımızda ki, əbləh-əbləh gedib danışıbsan ona?!” – deyiblər. “Elə Sultanınızın özünü də bu dostu Cəbrayıl kimi eliyəcəyik! Niyə?! Revaz deyir baş açmaq olmur niyə belə qəddar düşməndilər?!”

– Dayan, Məlik! Tapdıqgil bilirlərmiş ki, o adamların işidi?

– Yox, əşi! Nə danışırsan?! Dəlinin biridi Tapdıq, desəm, gedər birbaş NKVD-yə, güdaza verər özünü. Cümrü qağamız da gedər. Bə nə!.. Demə onlara bu danışdığımın heç birini! Qoy elə Cəbrayılnan düşmən olsunlar...

– Dayan! Məsi, axı deyir özləri evləniblər!

– Hə! Orası elədi. Revaz deyir sədr deyib: “Belə namussuzluğu götürəmmərəm daha. Arvadımı günü bu gün boşuyacam, sənnən kəbin kəsdirəcəm”. Söylü xala deyib: “Mən ölüyəmmi kəbin kəsdirəcəksən?!” Sədr deyib: “Razı olmasan əvvəlcə sənə bir güllə çaxacam, sonra özümə!” Arvad deyib: “Muxtarın balalarına nə cavab verəcəksən?!” Sədr deyib: “Nə olar, olar”. Revaz deyir: “Mən də dedim evlənin”. Əmbə sonra özüm də qorxdum, deyir, öz məsləhətimdən. Nal səsi eşitdim, deyir, pəncərədən baxdım, gördüm Qılıncdı, tez çıxdım qabağına. Qılınc Qurban nəsə yaman qaşqabaqlıymış. Soruşub ki, “genə neynirsən sən bu qapıda?!” Revaz deyib: “Muxtarın arvadı da qızdırmalıdı, ay ispalkom, iynə vururam”. Deyib: “Gözündən görürəm yalan danışırsan. Yuxusuzam, gedirəm dincəlim. Bir azdan gələcəm Muxtarın arvadını görməyə, evdə olsun”. Yazıq Revaz, elə orda, darvazanın dalında vurnuxa-vurnuxa qalıb, bilməyib neyləsin.

Neyləyə bilərdi Revaz? Söylü xala razılaşıb. İşləri korlayıb Muxtar əmimizin istəkli arvadı! Heç təsəvvür eliyəmmirəm, Nuru, necə uzanıb Cəbrayılın altına!

Mənim canımdan üşütmə keçdi.

– Ağzını dağıtma! – dedim, – “Altına uzanmaq” nədi?!

Zəhləm gedir Müxbirin bu xasiyyətindən – yersiz hırıldamağından. Gülüb dedi:

– Altına uzanıb, mən də deyirəm uzanıb! Nə tərs-tərs baxırsan üzümə! Axşam qışqırtı-bağırtı düşəndə birinci elə mən eşitdim, sonra Məsi gəldi, gördük iş-işdən keçib. Tüpürdüm mən Söylü xalamıza! Məsi lap betər tüpürdü. Hamı tüpürdü ey, Nuru, hamı”... Tapdıq səni gözləyir. Qapılıbsan Şöşü balaynan öz qapı-bacana, dünyadan xəbərin yoxdu. Özünü öldürər Tapdıq ey, bilirsən?! Gedək. Bu gün hamımız işdən qalmışıq. Sabah Qalayçıoğlu dədəmizi yandıracaq. Vaxtım varkən, deyirəm, gedib stansiyadan yola salım məqaləmi. Tapdığı heç kəsə etibar eləmə, özün apar evinizə, Əsmət xala öyüd-nəsihət versin, sakitləşdirsin.

Darvazanın ağzında çoxlu arvad-uşaq vardı. Yalnız burda başa düşdüm ki, Tapdıqgilə üz vermiş bədbəxtlikdən təkcə mən xəbər tutmamışam.

Demə, bütün kənd gecəni yatmayıb!

Evin həyətə baxan dörd pəncərəsinin dördünün də taxtaları qırıq-qırıq olmuşdu. Qapı yəqin ki, balta küpü ilə döyülməkdən əzilib çatlamışdı. Bunlara göz gəzdirib, vurnuxub Tapdığı axtardım. Əmma nə onu tapdım, nə də Cümrünü.

Qalayçıoğlunun briqadasından o biri kotançıların, səpinçilərin manqabaşçısı, həmişə elə söyüş söyən "ağızdan avara" Bolu mənlə hərlənib-fırlanırdı:

– Əclaf köpəyoğlu, Əzrayıl oğlu Əzrayıl məhv elədi Müxtar əminin ailəsini! – deyirdi.

– Cəbrayıl deyil daha, Əzrayıldı! – deyirdi.

Məlik dedi:

– Bura bax, Bolu! Mən tələsirəm, getməliyəm. Sən danış Nuruya burda olanları. Sonra da Tapdığı tapın.

Məlik getdi. Bolu məni həyətin nisbətən sakit tərəfinə, arı yeşiklərinin üzərindəki çardağın altına çəkdi.

– Sən bizdən yaxınsan Tapdığa, Cümrüyə. Heyif, öz gözünnən görmədin nələr oldu burda. Yaxşı qulaq as, bil hər şeyi, kömək elə Tapdıqgilə, bu Əzrayıl köpəyoğlu bir də ayaq basmasın bu qapıya... Hə qulaq as.

Dünən Cümrü dedi işdən bir az tez gedək, bizim bağçada bir az qurdalanaq. Gəldik, gördük pəncərələrin taxtaları örtülüb yayın bu istisində, daldan bağlanıb. Üstəlik, qapı da bağlanıb daldan. Demə, köpəyoğlu gəlib girib arvadın yanına ki, Tapdıqgil gəlsinlər görsünlər iş-işdən keçib.

Arvadlar deyirlər, elə çöldə, işin üstdə də fürsət düşdükcə arvadı yanlayırmış, əmbə arvad bac vermirmiş.

Hə, onu deyirdim, qapını daldan bağlı görəndə gördüm Cümrünün rəngi ağarıb. Dedi: "Evim yıxılıb, yəqin anam özünü öldürüb".

Deyirəm, kaş elə olaydı, Nuru, o Əzrayıl köpəyoğlunun altına yıxılmaqdansa, özünü öldürsəydi, min dəfə bundan yaxşı olardı. Ev yıxıb ey, ocaq qaraldıb köpəyoğlu!

Bolunun sözünü kəsib xəbər aldım ki:

– Bəs bu qapı-baca niyə bu kökdədi? Cümrügil eləyiblər?

– Bə kim eliyəcəydi! Cümrü baltanı götürdü, cumdu qapıya. Bir balta da Tapdıq götürdü... Quruyub qalmışdıq hamımız, Nuru.

Deyirdim bu yazıq qardaşlarınkı heç gətirmir. Ataları belə getdi, indi də girib içəridə analarının meyidini görəcəklər. Elə bunu fikir eləyirdik, bir də gördüm nə?!

– Nə?!

– O Əzrayıl köpəyoğlu pəncərənin qırıq yerindən əlini uzadıb Cümrünün baltasının küpündən yapışdı, dedi: “Biz evlənmişik!”

Cümrü bilirsən beş eləsinə cavab verər. Baltanı çəkdi aldı, elə endirdi ki, Əzrayıl vaxtında çəkilməsəydi, cəhənnəmdəydi indi. Çəkildi, əmbə elə o dəqiqə də qabağa durdu, genə tutdu Cümrünün baltasını, dedi: “Qanuni evlənmişik. Ailəmdən çıxmışam, ailəyə gəlmişəm. Siz qardaşları yaxşı tanıyıram mən. Rəhmətlik Muxtar zahirən nə qədər rahat adamıydı, daxilən o qədər sərtiydi. O rəhmətliyə çəkibsiniz siz ikiniz də. Bildim ki, lap ayaqlarınızdan öpsəm də razı olmazsınız belə işə. Muxtar sarıdan yaramız təzədi hamımızın. Mən özüm də belə şey eləməzdim, ananız da. Bir işdi olub. Qardaşını da çək qapıdan. Vaxt gələr, söhbət eliyərik...” Bir sicilləmə nitq dedi köpəyoğlu. Bir də onda gördük Cümrü sol əlini uzatdı qırıq yerdən, xirtdəyindən yapışdı. Gözləri kəlləsinə çıxdı o tir boyunlu, çinar boylu köpəyoğlunun. Xırıldadı, Nuru! Elə xırıldaya-xırıldaya dedi: “Bərk bas! Müqavimət göstərmirəm. Bas, öldür. Haqqın var! Olmamalıydı bu iş”. Elə dedi, elə bil doğrudan da peşmanıydı köpəyoğlu. Cümrü nə gördü onun üz-gözündə, Allah bilir. Əlini çəkdi Əzrayılın xirtdəyindən. Baltanı divara çırpdı. Gərək özün öz gözünnən görəydin nə hala düşmüşdü o gözəl qağamız. Üz-gözü əyiş-üyüş olmuşdu, Nuru! Hamımız qorxduq, Tapdıq əlindəki baltanı necə atdısa, o qırıq yerdən Əzrayılın düz gicgahından tutdu. Dala çəkildi, yıxıldı əclaf. Bir də ta Qılınc Qurban gələnə qədər səs çıxmadı heç birimizdən. Məlik quyunun üstündən vedrədə su apardı, qaldırdı vedrənin qırağını Cümrünün ağzına söykədi, yalvardı ki, içsin. Bir qurtum da içmədi. Sonra Tapdığın ağzına tutdu vedrəni, o da içmədi. Burda olsaydın, deyərdin ölüblər ayaq üstə, dişləri kilidlənib. Qurban əmi də çox çalışdı, su içirdəmmədi heç birinə. O gördüyün Qılınc Qurban da elə bil ayaq üstəcə ölmüşdü. Qapqaraydı. Vedrəni yerə qoyub, daha əl-qolunu da tərpədəmmirdi. Dillənəndə səsini də tanımadıq: “Cəbrayıl, çıx!.. Cəbrayıl, çıx!.. Cəbrayıl, çıx!..” – Elə buydu dediyi.

Lap sonradan-sonraya hərəkətə gəldi. Tüfənginin küpüynən qapını döydü.

Demə, başı lap pis çapılıbmış əclafın. Qapını açıb kandara çıxanda başdan-ayağa qan içindəydi. Beşaçılanı əlindəydi.

Qurban əmi baxdı, dedi:

– Tüfəngnən niyə çıxırsan camaatın qabağına?!

Dedi:

– Vərdiş eləmişəm. Tüfəngsiz günüm olmayıb heç vaxt... – Sınmışdı köpəyoğlu.

Qurban əminin milisəneri də burdaydı. Deyəsən başa düşdü iş nə yerdədi, yeridi, beşaçılanı aldı əclafın əlindən.

– Qurban əmi dedi:

– İyirminci ildə bəylərin adamlarıynan vuruşmada bir yoldaşımız təsadüfən öz yoldaşımızı vurmuşdu. Tüfənginin lüləsini sıxdu ağzına, ayağının baş barmağıynan tətiyi çəkdi, qurtardı. Nəydi o yoldaşımızın adı, yadındadımı?

Əclaf dedi:

– Yadımdadı. Müslümüydü adı. Revkomun şoferiydi.

Qurban əmi dedi:

– Bundan sonra da yaddan çıxartma Müslümün kişiliyini. Lazım olar.

Güldü əclaf, Nuru! Güldü. Dedi:

– Müdrik adamsan. Yaxşı məsləhət verdin.

Qurban əmi hirsləndi. Dedi:

– Tribunala verirəm səni! Əskər ailəsi dağıdıbsan sən! Çəkmələrini çıxart! Qonaqlı meşəsinin qaratikan yoluynan aparacaq səni milisənerim! Qaratikan dolsun ayaqlarına! Muxtarın arvadıynan kef çəkməyin əvəzində ta güllələnə qədər yatammıyacaqsan ayaqlarıyın sızıltısından!

Əyildi, soyundu çəkmələrini əclaf. Milisənerin atının döşündə, tüfəngin qabağında, ayaqyalın getdi.

– Getdi?! Bəs Məlik deyirdi burdadı?!

– Düz deyir Məlik... Ayaqyalın yeriyəmmirmiş heç ərköyün "gözəl kişi" nakişi! Taxta-tuxta qırıntılarına ayağını basandaca əyildi, çökə-çökə getdi. Ürəyimizdən tikan çıxdı. Ağsaqqallar gəldilər. Qalayçıoğluynan Mehbalı əmi. Cümrüynən Tapdığı apardılar. Biz

də dağılışırdıq. Bir də gördük, budu ha Əzrayıl! Milisəner nədi, zad nədi?! Sultan Əmirlinin "Emadin"indən düşdü nakişi! Ayaqlarında qəttəzə qara xrom çəkmə! Belində naqan! Başında eyniynən Qılıncımızın şapqası təki qabağı ulduzlu qara meşin şapqa! Maşının işığında, təzəbəy təki, sağdışlı, soldışlı. Sağında şəxsən Sultan Əmirli, solunda bayaq "tribunal" deyən Qılıncımız! Yer qaçdı ayağımızın altından, Nuru! Mat-məəttəl, baxa-baxa qaldıq.

Raykom katibimizi üzbəsurət görməmişdim mən əvvəllər. Yaman zəhmli-zabitəli adamıymış. Hamı özünü yığışdırdı həyətdə. Hirsli-hirsli, salamsız-kalamsız, soruşdu ki:

– Cəbrayıl kişi tribunala verilsə, kim olar kolxozunuzun sədri? Qılınc Qurban sovet sədridi, üçpara kənddə qanun-qaydaya baxır. Təsərrüfat adamı deyil. Başqa bir adamınız varmı?!

Nə deyə bilərdik? Qalayçıoğlu – qoca. Mehbalı əmi – qoca. Bizdən iki-üç yaş böyük cavanların hamısı – çağırışçı. Biz də ki, özümüzü "kişi" saysaq da, sədr çıxarmı bizdən?

Sultan Əmirli dedi:

– Möhtərəm Qılınc Qurbanınız həqiqətən qılıncdı. Ədalət mücəssəməsi adını düz veriblər ona. Harda bir əyrilik gördü, gərək kəssin əyriliyi, namussuzluğu, qeyrətsizliyi. Əmma bu dəfə səhv eləyib Qılıncımız!..

Çox şey dedi katib. Bir başqa vaxtda danışaram. Bədbəxtçiliyimizə bax ki, Cümrüynən Tapdıq maşını görübmüşlər. Maşının işığında da Əzrayılı!.. Mehbalı əminin həyətindəymişlər. Bir də onda ayıldıq ki, yenə bir balta Cümrünün əlində, biri də Tapdığın əlində! Biri sağdan cumdu maşının üstünə, biri-soldan. Tarrak! Tarrak!

– Maşını?! Katibin maşınını?!

– Hə, Nuru, hə!.. Ömrümdə elə yüyürməmişdim. Uşaqlar da mənnən barabar, töküldük Cümrünün üstünə, baltanı aldıq əlindən. Əmbə Tapdığı tutammadıq. Əlimizdən çıxdı, şığıdı Əzrayılı vursun. Yaxşı ki, Qurban əmi iti tərpəndi, qucaqladı, baltanı əlindən aldı, qışqırdı ki, bir dəfə qanını tökübsən, onun özü də cinayətdi. Əmbə bağışlanır o cinayət. Öldürsən, heç kəs bağışlamaz səni. Mən də bağışlamaram. Atan gedib, anan bədbəxt olub. Sən də getsən, ikiqat bədbəxt olmazmı anan?!

O yandan Cümrü gəldi, nə gəldi! Üz-gözü yenə elə əyişüyüşdü ki, heç tanınmırdı. Daha nə biz tərpəndik, nə də Qurban əmi

dillənə bildi. Ağır-ağır, səndələyə-səndələyə yeridi yapışdı Sultan Əmirlinin kitelinin yaxasından.

– Cümrü?!

– Hə, Nuru, hə! Ağzını açırdı, yumurdu, səsi çıxmırdı. Elə silkələyirdi Sultan Əmirlini! Elə silkələyirdi! Dəmir məngənəydi, daşıydı qağamızın əlləri. Heç birimiz qopardammadıq o əlləri katibin yaxasından. Katib özü də itələyirdi bizi: "Dəyməyin! İşiniz olmasın!.." Silkələdi, silkələdi, taqətdən düşdü, qollarını saldı yanına, ikiqat oldu, elə o cür ikiqat, Tapdığın əlindən tutdu, çəkdi apardı. Mehbalı əmi də dallarınca getdi.

Tutulub qalmışdıq hamımız. Bilmirdik neyliyək.

Əzrayıl əyildi, Sultan Əmirlinin kitelinin düymələrini yığışdırdı yerdən, Muxtar əminin, Cümrünün, Tapdığın yox, elə bil öz evinin qapısını açdı:

– Buyurun, – dedi. – Buyurun, yoldaş Əmirli.

İçəridə nə dedilər, nə danışdılar, orasını bilmirəm. Təxminən bir saat çəkdi söhbətləri. Çıxanda katib yenə dedi:

– Cəbrayıl öz vəzifəsində qalmalıdı. Hərbi vəziyyətdi. Kolxoz nizamnaməsinə rəayət eləmirik. Yəni sədrləri seçmirik, təyin eləyirik. Arxa cəbhədə sədr də komandirdi indi. Komandirinizə tabe olmalısınız, əmrlərinə sözsüz əməl eləməlisiniz!

Mindi maşınına, çıxdı getdi.

– Sonra nə oldu?

– Nə olmalıydı ki? Dağılışıdıq getdik.

Bolu cibindən qəzet parçası, maxorka[1] çıxartdı. Atalarımız gedəndən sonra "kişi"lərin hamısı "eşmə", yəni öz əllərilə kağıza bükdükləri maxorka çəkirdilər.

Bu səhər mən də ömrümdə ilk dəfə "eşmə" çəkməyə başladım...

---

[1] Maxorka – ucuz rus tütünü

## ƏZRAYIL

Demə, müsibətimiz hələ təzə başlanırmış.

Rayonumuzun Sultan Əmirli kimi zəhmli-zabitəli rəhbərinin heç bir etiraza yol verməyən "arxa cəbhədə sədr də komandirdi" sözləri hamının dilində-ağzında gəzsə də Bolunun "Əzrayıl" kəlməsi rəhbərimizin dediyindən doğru çıxdı. O dəhşətli gecədən sonra gözləri titrəyə-titrəyə, sifəti əyilə-əyilə, lal-dinməz, Qalayçıoğlu ilə işə gedən, Qalayçıoğlu ilə işdən qayıdan və Qalayçıoğlunun evində qalan qağamızla birlikdə Tapdıq da, mən də, Məlik də, Bolu da, bütün başqa kotançılar, səpinçilər də "komandir"ə tabe olmadıq. "Komandir sədr" isə on-on beş gün heç bir əmr vermədən, qaraqabaq gəzəndən sonra birdən-birə təzə dil açıb, Boludan da betər söyüş söyməyə başladı. Sonra şallağının şaqqıltısını da söyüşə qatdı və beləcə, əməlli-başlı Əzrayıla çevrildi. Bunu gördüm, dərk elədim, əmma günlərin birində o Əzrayılın öz qanadlarını mənim üzərimdə də gərəcəyini bilmirdim. Çünki mən hamının hörmət bəslədiyi Tahir müəllimin oğlu – direktor Tahirin oğlu idim. Qəti inamım vardı ki, nə qədər zalımlaşsa da Cəbrayıl məni incitməz. Əmma nəzərdən qaçırırdım ki, mən də Cəbrayıla Əzrayıl deyənlər arasında, tabe olmayanlardan biri idim və mənim bu vəziyyətim nəinki Tahir müəllimi, hətta "qara kağız"ı, yəni dərdlilərdən olduğumu da unutdurmuşdu.

Hadisə mənim birdən-birə üzülməyimdən başlandı.

Səhər-səhər yaxşı işlədik. Hava qızanda hiss etdim ki, gözlərim torlanır. Bədənim ağırlaşmışdı. Kotanın arxasınca qıçlarımı güclə çəkirdim. Əmma həmişə olduğu kimi, yenə də inadla macdan yapışıb buraxmırdım.

Şum meşədə – talada gedirdi.

Kəllər boyunduruqdan açılanda tezcə özümü kölgəyə verib oturdum və... daha qalxa bilmədim. Şumun ətrafındakı seyrək, hündür palıdlar yerlərindən oynayıb başıma fırlanırdı. Budaqların arasından görünən günəş gah saralır, kiçilib uzaqlaşır, gah da sürətlə yerə yaxınlaşıb parlaqlaşırdı.

Mehbalı əmi ilə Tapdıq qarşımda peyda olub mənə baxırdılar. Dodaqlarının tərpəndiyini gördüm, səslərini isə eşitmirdim. Arada

Mehbalı əminin tək bir kəlməsini – “Yat!” – dediyini qulağım aldı. Bununla da gözlərim qapandı. Böyrü üstə göy otluğa düşəndə, yer ortasından yavaş-yavaş çökəlib elə bil məni uddu, dünyadan uzaq, rahat bir aləmə apardı.

Nə qədər yatdığımı bilmədim. Oyananda günün nə vaxtı olduğunu müəyyənləşdirməyə fürsət tapmadım: keçən il “Nemes”lər – almanlar rayonumuzdan harayasa sürgün olunanda Cəbrayılın bir almandan on min manata aldığı “Xarle” adlı ildırım sürətli hündür atı başımın üzərini almışdı.

Bu “Xarle” çox göyçək at idi. Gecə-gündüz arpa yeməkdən kökəlib, tükünü töküb daha da gözəlləşmişdi. Hələ Muxtar əminin vaxtında səhərlər Cəbrayıl kəhəri su quyusunun üstünə çəkib çimdirəndən sonra kəndin arasında “cövlan eləməyə” buraxardı. “Xarle” isə, doğrudan da cövlan eləyərdi. Havalı-havalı süzüb, insan kimi, gözlərindən gülə-gülə kəndin arasında itləri, toyuqları qabağına qatıb qovub pərən-pərən salmaqdan zövq alırdı. Bu vaxt mən onun uzun, qüvvətli boynu üzərində qürurla dikələn balaca başına, par-par yanan tünd qırmızı sağrılarına tamaşa eləməyi xoşlayardım.

Bu gün birinci dəfə “Xarle” mənə Cəbrayılın özü kimi – Əzrayıl kimi heybətli göründü. Şallaq şaqqıllayanda at üzərimdə şahə qalxıb kişnədi. Mehbalı əmi qolumdan yapışıb geri çəkməsəydi, bu harın at məni vura bilərdi.

– Qudurubsan nədi?! Uşağı niyə ayaqladırsan!.. – Mehbalı əminin səsi idi. Yuxudan kal qalxdığıma görə yenə başım fırlanırdı, ətrafımdakıları yaxşı görmürdüm.

Mehbalı əmi bar-bar bağırırdı:

– Çək bunun cilovunu! Hamımızı qırmaq niyyətindəsən, nədi?!

Cəbrayıl daha pis bağırırdı:

– Mən qırmasam da qırılacaqsınız! Az-çox insan olanlarımızın hamısı ərizə verib, könüllü gedib ön cəbhəyə! “Arxa cəbhə” deyiləndə qalanların hamısı xalq düşmənidi, müharibə vəziyyətindən istifadə eləyib cib doldururlar! Tək-tük qalan ləyaqətlilərinizin hamısını mənim kökümə salırlar! Qanmırsınız! Havadar olmaq əvəzinə murdarların dəyirməninə su tökürsünüz. Gün doğandan gün batana qədər bir kəlmə eşidirəm: “Əzrayıl! Əzrayıl!” Mən

Əzrayıllıq eləyim, siz də görün necə olar Əzrayıl! Niyə yatırsınız günün bu sərin vaxtı?!

– Ay Cəbrayıl, tifillər dözmürlər! Dedim bir balaca dincəlsinlər. İnsafın yoxdumu?!

– Yoxdu! İnsaf nədi?! Kəllər hanı? Niyə açıbsınız boyunduruqdan?

– Heyvan da candı, heyvan da dincəlmək istəyir, ay sədr!

– Tapın gətirin bu dəqiqə! Haydı!

– Mən özüm gedərəm. Uşaqları incitmə! Niyə bu sifətə düşdün sən, Cəbrayıl! Xəbərin varmı ki, adamlıqdan çıxıbsan?!

Havada şallaq vıyıldadı.

Bir an sonra mən özümü və hətta Tapdığı da "Xarle"nin döşündə gördüm. Kənd arasında döşləyib qovduğu itlər, toyuqlar kimi bizi də itələyə-itələyə yıxa-yıxa qovurdu.

– İt təki döyəcəm hamınızı! Döyə-döyə ağıl qoyacam başınıza! Nə atalarınız tanıyırdılar dostlarını, düşmənlərini, nə də siz tanıyırsınız! Kor uşağı kor! Beyniniz heyvanat yığnağı! Hanı heyvanlar?! Niyə uzağa buraxıbsınız? Heyvan uşağı!.. Böyüyümüzün sağında Markaryan, solunda Qriqoryan oturub, o da siz təki qanmır!..

Başımın üzərində yenə şallaq vıyıldadı. Dəstəsi çiynimi, ucunun enli yeri qarnımı tutdu. Əynimdə yalxı köynək olduğuna görə elə bil qarnıma od yapışdı. Əmma bu rəhmsiz zərbədən çox məni söyüş yandırdı: "heyvan uşağı!"

"Komandir sədr"in üzünə qayıtmağın, tabesizliyin nə olduğunu mən bütün aydınlığı ilə başa düşürdüm: bilirdim ki, bu, əməkgününə düşən gəlirin kəsilməsi, bağçamızın, qarğıdalımızın susuzluqdan yanması, anamın gedib Əzrayıla yalvarması, daha nələr, nələr deməkdir. Bununla belə, dözə bilməyib geri çevrildim, atılıb, "Xarle"nin cilovundan yapışdım.

– Söyüşünü geri götür! Heyvan özünsən! – deyib o biri əlimlə Əzrayılın qucağında çəpəki duran tüfəngin soyuq lüləsindən yapışdım.

Son vaxtlar çölə, meşəyə atlananda Cəbrayıl beşaçılanı heç vaxt çiyninə keçirmirdi. Güllə ilə doldurub, qucağında hazır saxlayırdı. Kənddə arvadların danışdığına görə Cümrüdən qorxurdu. Kim bilir, bəlkə də təkcə Cümrüdən yox, can-ciyərimiz Muxtar əminin namusunun tapdalanmağına dözməyib üzünə qayıda bilənlərin hamısın-

dan qorxurdu: Boludan, Məlikdən, Həbəş Qara deyilən "qabağından yeməyən" yoldaşımızdan, bəlkə hətta ədalət mücəssəməsi Qılıncımızdan... Əmma bu fikirlə yanaşı, hərdən beynimdə başqa bir fikir də dolanırdı. Bayaq Cəbrayıl "sağında Markaryan, solunda Qriqoryan" deyəndə yenə həmin fikir oyanıb Əzrayılı Şöşü balaya bal göndərən Cəbrayıla çevirdi. İndi isə... Cəbrayıl deyildi bu "heyvan uşağı" deyən!.. Təhqirdən boğula-boğula beşaçılanı dartışdırdım. Nə üçün? Bilmirdim. Bircə bunu hiss edirdim ki, tüfəngi ondan qopartmaq lazımdır.

Əlbəttə, qoparda bilmədim. Soyuq və zəhmli dəmir lülə əlimdən çıxdı. Əmma daha geri çəkilmək olmazdı. Atılıb "komandir"in ot rəngli təzə zabit köynəyinin yaxasından yapışdım, yəhərə bitişmiş kimi tərpənməyən nəhəng gövdəni çəkib yıxa bilməyəcəyimi başa düşsəm də, heç olmasa dırnaqlarımı onun üzünə çatdırmağa çalışdım. Əmma həmişə hər yerdə olduğu kimi, indi də Tapdıq məndən cəld tərpənmişdi. Artıq atın belində idi, fınxıra-fınxıra yerində oyur-oyur oynayan Xarlenin sağrısında dizləri üstə durub, arxadan qollarını Əzrayılın çənəsinin altına sıxmışdı.

At yenə şahə qalxdı, cilovu mənim əlimdən qoparıb yana sərpildi, o an da Əzrayılla Tapdıq çatalaqlı yerə yuvarlandılar.

Xarle hara isə yox oldu. Mən şumun arası ilə bizə doğru yüyürən Mehbalı əminin qaraya çalan sifətini, sonra pələng cəldliyi ilə atılıb yerdən beşaçılanı qapan Tapdığı gördüm.

Güllə şaqqıldadı. Uzaqlarda, meşənin dərinliklərində dolu gurultusutək xarıltı eşidildi. Əmma Tapdıq güllənі havaya atmışdı.

Mehbalı əmi özünü yetirib tüfəngi onun əlindən aldı.

Qəribə idi ki, Əzrayılın üzündə heç bir qorxu əlaməti yox idi. Beş addımlıqda dayanıb ağır-ağır tövşüyürdü...

Kəlləri Məliklə Həbəş Qaranın şumladıqları yerdən bir az aralı, bulaqlı, selli-sulu, sərin cəngəllikdən tapdıq.

Məlik əl eləyə-eləyə bizə tərəf yüyürürdü.

– Dayanın! Dayanın! Qalayçıoğlu Cümrünü zornan tutub saxlayıb o yanda. Tir-tir əsir qağamız, elə hey deyir: "O nə güllə idi?! O nə güllə idi?! Görün Tapdıq necədi? Görün Tapdıq necədi?!" Elə biz də dəli olduq ki, nə güllə idi elə?

Tapdıq cibindən qəzet parçası, maxorka çıxartdı.

– Qağama deynən qaqaşıyın kefi əladı. Dilim tutulmuşdu, danışammırdım deynən mən də elə qağam təki Əzrayılı atdan yıxdım, beşaçılanı əlindən aldım, guruldatdım, dilim açıldı.

Məlik gözlərini döydü.

– Demək, sən atdın gülləni?!

– Hə.

– Vurmaq istəyirdin nədi?!

Tapdıq eşməni yerə çırpdı.

– Nə sorğu-suala tutubsan məni?! Get deynən qaqaşın igid oğlandı, Əzrayılın başının üstdən güllə atıb, qorxudub, deyib günü bu gün kənddən rədd olub getməsən öldürəcəm səni!.. Nə baxırsan üzümə?! Yeri, mən deyəni de qağama, sakit olsun.

Gözləri sorğu-sualla dolu olsa da Məlik getdi.

Tapdıq fikirli-fikirli, əyilib eşməni yerdən götürdü. Dodaqaltı mızıldanırdı:

– Qorxmadı... Qorxmadı. Əmbə qorxacaq!

Nə dediyini başa düşsəm də soruşdum ki:

– Nə deyirsən?!

Atasına oxşaması ilə fəxr edən zarafatcıl, oynaq, şux qardaşlığım öz fikrinə necə qapıldısa, bundan sonra da mənim söz-söhbətimi eşitmədi. Yenə də elə o cür dodaqaltı mızıldanırdı:

– Getməlidi! Kənddən getməlidi! Sultan Əmirlinin maşınını yox, lap özünün başını əzərəm baltaynan!..

Beləcə aramsız, öz-özünə danışa-danışa qalmışdı. Mən isə, bütün diqqətim onun sözlərində olsa da, qəribə idi ki, eyni zamanda, ağır-ağır tövşüyən Əzrayılı görürdüm. Daha doğrusu, Əzrayılın qorxusuz-hürküsüz sifətini. Və hiss edirdim ki, nə isə çox pis hadisələr olacaq. Çox pis...

Tez-tez maxorka büküb, eşməsini sümürə-sümürə, sinəsi xışıldaya-xışıldaya elə hey “Getməlidi!” – deyirdi. – Ya ölməlidi, ya getməlidi! Ya ölməlidi, ya getməlidi!” – deyirdi. Sonra isə, Mehbalı əminin bütün günü qışqırmağına: “Çəkmə o zəhrimarı! Çəkmə!” – dediyinə heç fikir vermədən, tüstüdən və eyni sözləri təkrar etməkdən böyrünü kəlin böyrünə, ayaqlarını zəncirə dirəyib, susub, ağır-ağır, əlindəki tənək çubuğunu yellədirdi...

Payız yaxınlaşdıqca hava sərnimək əvəzinə daha da qızırdı. Ayaqlarımızda çarıqlarımız quruyub dəmirə dönürdü, kəlləri cəngəlliyə aparanda əvvəlcə ayaqlarımızı isladırdıq, sonra başımızı. Mehbalı əmi yenə də mənim “nərmə-nazik müəllim oğlu” olduğumu yada salmışdı, bəzən məni heç öküzləri yedəkləməyə qoymurdu, gah “çay qaynatmağa”, gah da əlimə balta verib meşədən tənək çubuğu kəsməyə göndərirdi.

Deyirdim:

– Qalayçıoğlu mənə də siznən bərabər əməkgünü yazır. Siz işləyirsiniz, mən avara-avara gəzirəm!

Tapdıq bu deyintiyə tamam laqeyd idi. Mehbalı əmi isə sallaq qaşları altından zəhmlə üzümə baxmaqla kifayətlənib, yalnız hərdən: “Kotançılıq ağırdı. Kotançalaq ağırdı”, – deyirdi...

Hiss etdiyim, sıxıla-sıxıla gözlədiyim “çox pis hadisələr”dən biri heç ağıla gəlməz – gözlənilməz oldu.

O günü yenə hava od tutub yanırdı. Kəllər dillərini bir qarış çıxardıb xırıldayırdılar. Mehbalı əmi ilə Tapdıq özləri də başdan-ayağa su içində idilər. Mən gah əlimi kotanın macına atıb Mehbalı əmini əvəz eləməyə, gah da zəncirin üstünə qalxıb Tapdığı düşürməyə çalışdım, mümkün olmadı. Axırda Mehbalı əmi məni yenə “çay qaynatmağa” yolladı.

Onlar, ikisi də tutqun idi. Heyvanlara da, özlərinə də zülm eləyib fasiləsiz şumladılar. Yalnız gün əyiləndə heyvanları boyunduruqdan açdıq, zora düşmədiklərinə görə çox da təntiməyən öküzləri talaya ötürüb, kəlləri cələyə apardıq ki, çeyillikdə bir az yatışsınlar.

Cələyə yaxınlaşırdıq ki, birdən irəlidən, bulaq səmtindən Bolunun boğazının yoğun yerinə sala-sala oxuduğu dəhşətli bir mahnı eşitdik:

Ağ fətir, əmlik əti
yaxşıdımı, a kolxoz sədri?
Ağcamaya xanım... tü
yaxşıdımı, a kolxoz sədri?!

Uşaqlardan birinci Məlik hırıldadı. Sonra qalanları şaqqıldaşdılar.

Bu mahnını biz, "poyezd"lər – qatarlar yaralı əsgərlərlə dolu olduğu üçün heç kəsə bilet satılmayanda vaqonun üstünə minib Qaratəpə bazarına gedəndə alverçi uşaqlardan eşitmişdik və bizim sədr o bəzəməli sədrlərdən olmadığına görə mahnını unutmuşduq. İndi kim xatırlamışdı?

Tapdığın sifətində qan qalmadı.

– Müxbir əclafın işidi. Yaxşı ki, adını çəkməyib anamın...

Mən axmaqlıq elədim, dedim:

– Əzrayıl köpəyoğlu əmlik kababı tıxışdıranlardan deyil.

Tapdığın gözlərindən od çıxdı!

– Kəs səsini!

Ətraf qalın sirkənlik və qanqallıq olduğuna görə yolun ortası ilə topuğa qədər toza bata-bata yeriyirdik. Mehbalı əmi öz yorğun yabısının belində donqarlanıb qabaqda gedirdi. Yabının ayaqlarından qalxan toz havada asılıb tərpənmirdi. Mən həm bu tozdan və bürküdən, həm də öz həyəcanımdan boğula-boğula qardaşlığımın dərdinə şərik olmaq üçün sözlər axtarırdım. Onun belə ağır havada aramsız eşmə sümürməsi də məni bir yandan sıxırdı. Sinəsi xışıldaya-xışıldaya maxorkanın tüstüsünü ciyərlərinə dolduran dostumu heç bir sözlə ovundura bilməyəcəyimi dərk etdikcə lap təntiyirdim.

Necə oldusa, taxtın üstündə bardaş qurub gah süfrədəki stəkanlara, gah da otağın künc-bucağına baxa-baxa anama ürək-dirək vermək üçün söz axtaran qocalar yadıma düşdü, özümü gülünc bir rolda görüb daha da sıxıldım. Bundan bircə dəqiqə sonra isə, mən daha pis vəziyyətdə idim: Tapdıq birdən-birə, eynilə Muxtar əmi kimi qırıq-qırıq, şirin-şirin güldü!

Əlində, nazik uzun boynu, xırdaca, buğda dənəsi irilikdə başı və torbatək sallanmış xaşal qarnı olan, yaşıl rəngli bədheybət bir cücü vardı. Tapdıq barmaqlarının ucu ilə cücünün uzun dal qıçlarından yapışmışdı. Cücü özündən iki dəfə böyük, ot rəngli qanadlarını çır-

pıb dartınırdı, boynunu o yan-bu yana əyib ağzından sarımtıl maye ifraz edirdi. Tapdıq isə... Bəli, gülürdü!

– Hə, çalış, çalış çıx əlimdən, beyinsiz heyvan! O boyda yam-yaşıl meşəni qoyub nə gəzirsən bu tozun içində, ay heyvan! Başdan-ayağa yamyaşıl yaradıb səni yaradan ki, orda olasan. Bə niyə tozluğa çıxıbsan, ay heyvan! İndi mən neyniyəcəm, xəbərin var? Öl-dü-rə-cəm səni, ay heyvan!

Yenə də tut ağacını gördüm. Tutun ala kölgəsində mütəkkəyə dirsəklənib gözlərindən gülən Müxbir əmini gördüm: “Xəbərin varmı indi mən neyniyəcəm, ay Sürməli? İndi qoltuğuma vuracam səni, gedəcəm... Hara?.. Təxti-xaba!..”

Mehbalı əmi atının başını çəkib hirsli-hirsli Tapdığa baxdı. Sallaq qaşlarını bir az da sallayıb, yenə belini donqarlandırıb yabısını sürdü. Tapdıq isə bir müddət yenə cücü ilə danışdı.

– Sən elə belə adi cücü deyilsən, faşistsən, ay heyvan! Bizim o həcv yazan əlləm-qəlləm Müxbir “Kommunist” qəzetində öz gözləriynən oxuyub ki, faşistlər bizim tərəfə xəstəlik yayan zəhərli həşərat atıblar, paraşutnan. Sən o zəhərlilərdənsən, ay heyvan! Vacibdimi ki, paraşutnan atsınlar. Burdasan sən, daxili düşmənsən!

Kəndin girəcəyində, nəhayət, cücünü yerə çırpdı, çarığının burnu ilə basıb qarnını partlatdı. “Faşist” cücü söhbəti qurtardı. Əmma Tapdıq yenə də mənim nə isə deyib-danışmağıma, anlaşılmaz səbəbə görə qırılmış ünsiyyətimizi bərpa eləməyə imkan verməyib, özü yenə də gözlərindən gülə-gülə qəribə bir söhbət başladı.

– Mehbalı əminin yabısı niyə bir dəri, bir sümükdü? Bilirsən? Hardan biləsən, ay müəllim oğlu? Bu yazıq yabının arıqlığının səbəbini bilməkdən ötrü gərək biləsən ki, Mehbalı əmi bu yazığa gecələr də rahatlıq vermir. Həftədə azı iki dəfə şığanıb Qazağın İncə dərəsinə, Türfə deyilən yerə gedir. Yəni qırx kilometr o yana, qırx kilometr bu yana. Bu elədimi səksən kilometr? Səksən də üstünə gəl. Həftədə yüz altmış kilometr yol gedən yazıq yaxşı ki, sağdı hələ. Əvvəllər gecədə bir çanaq arpa verərdi buna Mehbalı əmi. İndi üyüdür arpanı.

Danışa-danışa hərdən ayaq saxlayırdı.

– Qoy getsin Mehbalı əmi. Qoy getsin deyirdi. Niyə? Bunun səbəbi kəndə çatanda məlum oldu.

Meşə yolu Baş kənd Qurbanlı səmtindən gələn kanalın arxın körpüsündən keçib kəndə girəndə solda Dağdağan Alının kimsəsiz “qaçaq damı” ilə çal-çəpəri dağılmış xaraba bağı və bomboş əkin sahəsi, bir də naxırçı Məsinin damı görünürdü, sağda isə, qabığı tökülmüş dümağ, uzun kərənsayağı ağac budaqları ilə hasarlanmış mülk – Muxtar əminin evi, alma, armud, ərik, şöytəli, gavalı ağaclarından ibarət beş cərgə bağı, nəhəng çardaq altında tünd yaşıl rənglənmiş arı yeşikləri görünürdü. Məktəb illərində biz bu mülklə Dağdağanın “qaçaq evi”nin arasındakı genişliyə yığışardıq, Cümrü qağamızla Tapdığın ciblərində gətirdikləri meyvələrdən yeyə-yeyə birbaş yerdə – quru torpaq üstündə oturub direktorun – atamın “Müəllimlər otağı” adlanan otaqdan payladığı, təpinə-təpinə oxutdurduğu kitabları şapkalarımızın, kepkalarımızın üstünə qoyub “dirədöymə”, “çilikağac”, “sümükatma” oynayardıq. İndi, bunlar hamısı, dörd gözlə oxuduğumuz “Kapitan qızı”, “Tom Soyerin macəraları”, “Dəfinələr adası” və sair maraqlı kitablarla birlikdə uzaq xatirələrə dönmüşdü. Kotanları, zəncirləri, boyunduruqları şumun üstündə qoyub, kəlləri, öküzləri kəlotaranımıza təhvil verib, gəlib körpüdən keçib genişliyə çıxanda həmişə kitablı, “dirədöymə”li, “çilikağaclı”, “sümükatma”lı günlərimizi, sevimli direktorumuzu, istəkli sədrimizi xatırlayıb qəmlənirdik. “Cəbrayıl-Əzrayıl” müsibətindən sonra isə, mülkün qabağından keçəndə, ağsaqqalların Tapdıqla Cümrünü öz aralarında apardıqlarına baxmayaraq, hökmən gərginləşirdik, mənim gözlədiyim “pis hadisələr”i hamı eyni gərginliklə gözləyirdi.

Bu dəfə necə oldusa Mehbalı əmi Tapdığa iki kəlmə: evə gəl ha! – deyib irəli getdi, Qalayçıoğlu isə, ikinci, üçüncü kotanların kotançıları ilə, o cümlədən Cümrü ilə arxada qaldı. Mənə elə gəlir ki, məhz ağsaqqalların birinin irəli getdiyinə, o birisinin geridə qaldığına görə “pis hadisə” üçün şərait yarandı və mülkün qabağından keçəndə Tapdıq birdən eşməsini yerə çırpıb, darvazaya yaxınlaşıb, eynilə qağamız kimi, üzü əyilə-əyilə, dodaqları əsə-əsə, Bolunun cəngəllikdə oxuduğu həmin mahnını qışqırdı:

Ağ fətir, əmlik əti
yaxşıdımı, a kolxoz sədri?
Ağcamaya xanım..... tü
yaxşıdımı, a kolxoz sədri?!

Yolun qırağından daş-kəsək yığa-yığa, pəncərə taxtaları təzələnmiş, balkon dirəkləri palıdı rənglənmiş evin qapısını nişan ala-ala əlinə keçəni oraya yağdırmağa başladı.

– Çıx, Əzrayıl köpəyoğlu! Namussuz, qeyrətsiz, heyvan, çıx rədd ol bu evdən! Mən qoymaram sən bu evdə binələnəsən! Öz evindəkilər də nifrət eləyilər sənə, ay heyvan! Qızların çəngə-çəngə saçlarını yolurlar, yelə verib qarğayırlar. "Ahımız tutsun səni, ay namussuz atamız!" – deyirlər. Arvadın görücü Abıdan soruşub, Abı deyib "gözləmə ərini", oradaca yıxılıb arvadın, can verir, ölür, ay heyvan! Gör neçəsini bədbəxt eləyibsən, ay heyvan! Getməlisən sən bu kənddən! Getməlisən! Yoxsa, sağ qalmıyacaqsan! Eşidirsənmi?! Sağ qalmayacaqsan!..

Tapdıq hönkürdü.

Mən özümü itirmişdim. Yazıq qardaşlığımın hər kəlməsi bir daşa dönüb bədbəxt Söylü xalanın qapısı ilə bərabər mənim beynimə çırpılırdı, bütün bədənimi tir-tir əsdirirdi.

Neyləyə bilərdim?

"Xarle"nin uzun, dərin, parıltılı rus yəhəri arı yeşiklərinin qabaq tərəfində köhnə pətək ramkalarının üstündə idi, "Xarle" özü isə hündür alma, armud cərgələrinin arasındakı yaşıllığa hörüklənmişdi. Bəri başdakı ağaclardan birinin haçasına qoyulmuş ulduzlu şapqadan da məlumdu ki, Əzrayıl da bağda idi, ya da içəridə... Əmma eşiyə çıxmırdı ki, çıxmırdı.

Tapdığın daş-kəsək atmaqdan lap taqətsizləşdiyini, qışqırmaqdan, hönkürməkdən lap boğulduğunu görəndə daha özümü saxlaya bilməyib ona qoşuldum. "Nərmə-nazik müəllim oğlu" da, nəhayət, özündən – iradəsindən asılı olmayaraq, sözün həqiqi mənasında mübarizəyə girişdi. Qəzəbdən, kindən, nə qədər daş-kəsək yağdırdığımı bilmədim. Bir də o vaxt ayıldım ki, Mehbalı əmi mənim, Qalayçıoğlu isə Tapdığın üstünə cumub, qollarımızdan yapışıb tozun içində sürüyürdülər...

Bu hadisə ertəsi gün də təkrar olundu, o birisi gün də, üçüncü gün də. Dəhşət bunda idi ki, yoldaşlarımızın bizə qoşulduğuna baxmayaraq, qağamız əlini də tərpətmirdi. Gözləri titrəyə-titrəyə, kənardanca baxıb, baxıb, üzünü döndərib gedirdi. Niyə? Hardasa kimlərsə "havalanıb Cümrü, havalanıb" desə də, laqeydliyini mən heç cür anlamırdım. Dəhşət bir də bunda idi ki, Tapdıq o mahnını

hər axşam qışqırırdı. Diqqət yetirin, “oxuyurdu” demirəm. Məhz qışqırırdı. Səsi haçalana-haçalana. Mən buna da dözmürdüm. İçərimdə kəskin etiraz, qışqırtıya qarşı qışqırtı hiss edirdim. Əmma “nərmə-nazik müəllim oğlu” qışqırmırdı. Əksinə, Tapdığın xətrinə dəyməkdən qorxa-qorxa, astadan: “Ananı təhqir eləmə”, – deyirdim.

Tapdıq dillənmirdi.

Dəhşət bir də bunda idi ki, nə mahnıya cavab gəlirdi, nə də qapının üstünə yağan daşa, kəsəyə. Ev susurdu. Bağ, həyət-baca susurdu.

Dördüncü axşam, nəhayət, qapı açıldı.

Əzrayıl dolu kimi yağdırdığımız daş-kəsəkdən qətiyyən çəkinmədən, başına, alnına, üzünə dəyən daşların qabağında əlini üzünə tutmağı da lazım bilmədən, ağır-ağır üstümüzə gəlirdi. Son vaxtlar Tapdığın səsinə səs verənlərin, sədri görəndə: “İşləməyin, ə!” – deyib bir növ tətil edənlərin sayı artdıqca, Əzrayıl öz ildırım “Xarle”sinin belində gah pambıqçıların, suçuların, gah da kotançıların ara-bərələrində qəfil burulğan kimi burulub-fırlanırdı, arvadların qarğışlarını, öz qızları Nisə ilə Gülnisənin nə isə deyə-deyə ağlaşdıqlarını eşidəndə hökmən hamıya, hamıya cavab verməyə çalışırdı: “Bədbəxtlikdi bu! Bədbəxtlikdi, olub! Bəladı, düşmüşəm! Mən adamlıqdan çıxmışam, siz adam olun, işdən soyumayın!..” – və sair belə-belə sözlər bağırırdı. Sözü keçməyəndə isə şallağını işə salıb kotançıları, suçuları döyürdü.

Gəlişinə baxdım.

Belə gəlişlə indi də döyməyə gəlirdi? Məlum deyildi.

Lap, lap ağır-ağır yaxınlaşıb Tapdığın biləyindən tutdu, ovcundakı iri, çəlpəşikli daşı alıb yerə tulladı, dayanıb üzünə baxdı. Mən hətta sevinəntəhər oldum: “Qorxur! Axır ki, qorxdu köpəyoğlu!..” Əmma elə o an da bunun əksinə fikirləşdim. Çünki bu vaxt Tapdıq artıq yerdə – Əzrayılın çəkməsinin altında idi.

Hər tərəfdən tökülüb o nəhəng gövdəni toz-torpağa bələnib yumaq kimi yumrulanmış arıq-cılız bədənin üzərindən kənara itələdik. Mən Tapdığı qucaqlayıb yerdən qaldırdım və bu həngamənin içində üst-başının tozunu çarpmağa başladım. Yəqin ki, elə bu yersiz hərəkətimə görə Tapdıq məni çox pis itələdi, yıxılıb özüm də toz-torpağa batdım.

## CƏBRAYIL

Kanalın o tərəfində, təxminən yüz-yüz əlli addımlıqda traktor guruldadı. Sonra molotilkanın[1] uğultusu o gurultuya qarışdı. Muxtar əminin həyətində pas atmış qırıq traktorun əvəzində təzəsinin, üstəlik də camaatı cana doyduran yorucu, üzücü xırmanlar əvəzində molotilka gətirilməsi Əzrayılın xidməti olsa da, o gurultu, uğultu bizi az-maz da olsa sevindirmədi. İyundan, iyuldan bəri kanalın o tayında analarımızın, bacılarımızın təmizlədikləri xırman yerlərində "ilanyalı taya" vurulub qalmış buğda, arpa, kəndigələn[2] dərzilərinin, nəhayət, indi – avqustda molotilka ilə döyülməyə başlanması bu deməkdi ki, əgər gecə-gündüz fasiləsiz döyülsə, taxıl məhsulumuz uzaqbaşı on günə, yarım aya hazır olacaq. Əmma bundan, dediyim kimi, sevinmədik. Əzrayıl quyunun üstündə vedrədən üzünə su çırpıb, qurulanmadan, yəhəri götürüb "Xarle"nin belinə qoyub, qayışları bərkidər-bərkitməz, minib "xırman yeri"nə – molotilkanın yanına səyirdəndən sonra, qocalarımızın qışqır-bağırına baxmayaraq, Tapdığın ardınca biz də oraya yönəldik.

"Molotilka" deyilən dörd avtomobil təkəri üstündə vaqonsayağı şeyi biz keçən il sürgün edilən "Nemes" kəndlərində görmüşdük. Vaqonsayağının qabaq tərəfində dəyirman boğazına – su navalçasına oxşayan quyu kimi bir yerində qarmon kimi dilim-dilim enli dəmirlər silkələnə-silkələnə dərinə gedirdi. Taxıl dərzinin "bəndəm"ini – kövşəni açıb o silkələnən dəmirlərin üstünə tullayırdılar, dəmirlər dərzi aşağıya sürüyəndə quyu kimi yerdə nə baş verirdisə, sünbülün dəni ayrılıb vaqonsayağının dalından çuvala, kisəyə tökülürdü, saman kimi doğranmış kövşən isə havaya sovrulub beş addımlıqda qalaqlanırdı. Gəlinlərdən, qızlardan canları az-çox saz olanlar hər on beş-iyirmi dəqiqədən bir dolan çuvalı, kisəni kənara çəkib, sürüyüb aparıb xırman yerlərində uc-uca calanan kilimlərin üstünə töküb yayırdılar ki, taxıl qurusun. Yaşlı arvadlar isə samanı "yığan" dediyimiz dəstəkli taxta parçası ilə yığanlayıb – kürüyüb aparıb yenə xırman yerlərinə qalaqlayırdılar.

---

[1] Taxıldöyən

[2] Kəndigələn – köhnə zəminin sünbülündən tökülmüş dəndən "özügələn" keyfiyyətsiz taxıl

Əzrayıl “Xarle”ni həmin saman qalağının üstünə buraxıb, çuval, kisə daşıyanlara kömək edirdi. Toz-torpaq içində, tövşüyə-tövşüyə gəlib molotilkanın yanında nəfəsini dərən Tapdıqla kotançılara gözucu da baxmadan, alnından, çənəsindən qan damcılaya-damcılaya işləyirdi. Uşaqlar isə, Tapdığın dalınca necə yüyürmüşdülərsə, necə deyərlər, nəfəslərini çiyinlərindən ala-ala dayanıb, nə isə olacağını gözləyirdilər.

Nə ola bilərdi?

Bolu, Məlik, Həbəş Qara, hamımız bir-birimizə baxırdıq. Gözlərimiz sualla, həyəcanla dolu idi.

Tapdıq, nəhayət, yerindən tərpənib, belindən kəmərini açıb, molotilkanın böyründə qıjıltı ilə fırlanan enli çarxa doğru gedəndə də mən bir şey anlamadım. Bir enli çarx da on addım o yanda guruldayan traktorun böyründə fırlanırdı. Örkənsayağı uzun, qalın, möhkəm bir brezentin bir tərəfi o çarxa, bir tərəfi bu çarxa geyindirilmişdi. Traktor o çarxı fırladırdı, çarx brezenti fırladırdı, brezent də molotilkanın çarxını fırladırdı. Tapdıq kəmərinin ortasını brezentin dalına keçirib necə çəkdisə, brezent çarxdan çıxıb şaqqıltı ilə yerə düşdü, ilan kimi qıvrıla-qıvrıla traktora doğru süründü. Molotilkanın içindəki motorun qıjıltısı kəsildi. Yuxarıda, molotilkanın “ploşşadka” deyilən enli taxtası üstündə dərz açan qızlar əllərini saxlayıb aşağıya, çarxın yanında əli kəmərli duran Tapdıqla alnı, çənəsi, əlləri qanlı Əzrayıla baxdılar. Uşaqlarla birlikdə, mənim gözüm də üz-üzə dayanıb tövşüyən düşmənlərin üzlərində idi.

Traktorun gurultusu da kəsildi. Və bu qulaqbatıran sükut içində Tapdığın dilindən çıxan “ana söyüşü”nü eşitməyən qalmadı.

Kəmər şappıldayıb Əzrayılın qanlı alnında qırmızı şırım saldı.

– Sənin ananı! Sənin arvadını! Sənin qızlarını! Sənin bütün ölənlərini, qalanlarını!

Bu dəhşətli söyüş yağmuru nə qədər uzandısa, kəmərin şaqqıltıları da bir o qədər uzandı.

Əzrayıl tərpənmirdi. Şişmiş, göyərmiş dodaqları da tərpənmirdi, əmma o dodaqların arasından bir kəlmə eşidilirdi:

– Vur!.. Vur!.. Vur!..

Arada, necə oldusa, gözüm uşaqlara sataşdı və burda birinci dəfə hiss etdim ki, Əzrayıl nə qədər Əzrayıldırsa, Tapdıqla mən və elə hamımız da eləcə Əzrayıllarıq, bu adamı kənddən qovmayınca,

ya da canını almayınca əl çəkmiyəcəyik. Mən bunu hiss edər-etməz, əlim elə bil öz-özünə işləyib kəmərimi belimdən açdı. Kəmərin ucundan tutub ağır dəmir toqqalı tərəfini necə rəhmsizliklə fırlatdımsa, dəmir Əzrayılın gicgahını parçalayanda uşaqlarla birlikdə özüm də qorxdum. Eyni vaxtda Bolunun dəmir toqqası da elə haman yerə dəyəndə arvadlardan, qız-gəlindən qışqırtılar qopdu:

– Öldürdünüz! Öldürdünüz, a bədbəxtlər!

– Çataq-çataq eliyəcəklər hamınızı! Belə də qansızlıqmı olar?!

– Dağılışın! Tez! Dağılışın! Qılınc gəlir! Qılınc Qurban gəlir!

– Bu oxlanmışınızı da aparın, gedin burdan!..

Tapdığı bizim üstümüzə, bizi körpü tərəfə itələdilər. Əmma Əzrayılın gözlənilməz hərəkəti yenidən sükut çökdürdü.

O, saman yığınından sünbül seçə-seçə, dodaqları sünbüllü, başını qaldırıb bizə baxan "Xarle"sinə doğru getdi, yəhərin qaşından asılmış tüfəngin çaxmağını qorxunc şaqqıltı ilə açdı, köynəyinin döş cibindən bir "daraq"[1] qızılı, zəhmli patron çıxarıb darağa basdı, çaxmağı irəli verib lüləyə patron saldı.

Xırman yerlərində hamı heykələ dönmüşdü. Cınqırını çıxaran yox idi. Çaxmağın şaqqıltısı, çaqqıltısı ilə birlikdə, dodaqları sünbüllü, dimdik, hərəkətsiz duran, gözləri böyümüş "Xarle"nin uzaq, batqın kişnərtiyə oxşayan heybətli səsi də eşidilirdi.

Növbəti "pis hadisə"ni at bizdən əvvəl bilirdi. Buna görə də Əzrayıl əyilib çəkməsinin bir tayı ilə corabının bir tayını çıxaranda at birdən titrədi. Əzrayıl tüfəngin küpünü yerə qoyub, lüləni ağzına saldı, çılpaq ayağının baş barmağı ilə tətiyi çəkəndə at necə hərəkət elədisə, güllənin açıldığı anda tüfəng Əzrayılın əllərindən qopub kənara düşdü. Eyni anda Qurban əmi – Qılınc Qurbanın Boz atı da kişnədi, ardınca qışqırtısı eşidildi:

– Boğaza güllə sıxmaq kişi işidi! Uşaq-muşağı niyə qana salırsan, ay nakişi?! Özünü vuran idin, o gecə, Muxtarın "təxtixab"ında sərxoşluqdan ayılanda vuraydın, biz də rəhmət oxuyaydıq ki, bəs, rəhmətliyin qeyrət damarı da varmış!

Əzrayıl arxasıüstə samanın yanına yıxılmışdı. Yüyürüşüb, ətrafına yığışıb aydın görürdük ki, güllə ağzının bir tərəfini aparmışdı.

---

[1] Bir daraq – beş güllə patron

Başının altında qan göllənirdi. Qurban əmi – Qılınc Qurban isə atdan düşmədən elə qışqırıdı:

– İrəvazı tapın, ay uşaq! Minin bunun Xarlesinə tez tapın gətirin doxduru! Əsgidən-zaddan yandırın, içəridən, eşikdən basın yarasına, qan aparmasın bu iti! Sultan Əmirli yoldaşın dediyinə görə lazımlı itdi bu it! Qoymayın ölsün!

Bizlərdən heç kəs Xarleyə yaxın durmadı. Gah Nisə, Gülnisə, "Böyük Nisə", "Bala Nisə", "almayanaq bacılar" adlandırılan, hərəsinin yanaqlarında bir cüt qıpqırmızı alması olan bacılardan biri qıymaçasını hardasa yandırıb, alovlu-alovlu gətirib ovucları ilə basdalayıb alovu söndürüb qığılcımlı qara külü atasının sol üzünün içərisinə, eşiyinə bir az da toqqalardan dağılmış gicgahına basdı. O birisi bacı – Bala Nisə ətəklərini çirməyib, kişi kimi yəhərə atılıb körpüyə tərəf fırlanmadan, kanaldan tullandırıb Aşağı kənd Qonaqlı Sestrasının köhnə kümxanada – barama damında açdığı ambulatoriyaya doğru çapdı.

Xırman yerləri ilə ambulatoriyanın arası çox deyildi: kanalın böyük, yastı təpə belində idi. Bir gözümüz qan boğazına dolduqca xırıldayan, öskürən Əzrayılda, o biri gözümüz Xarle ilə bala Nisədə, gördük ki, Bala Nisə hələ ambulatoriyaya çatmamış qışqırırdı:

– Ay İrəvaz, dədəm özünü vurdu! Ay İrəvaz doxdur, dədəmi qan aparır! – deyirdi.

Buna görə də qız hələ təpəyə çatmamış, Rəvaz doxdurun gödək, gombul qaraltısı, çantası böyründə təpədən aşağı yuvarlandı. Bala Nisə hamımızı açıq heyran qoyan, eyni kişi hərəkətilə yerə atılıb, Revazın dalından qaldırıb yəhərə yıxdı. Xarle kanalın həmin yerindən bəri tullanıb, yəhərdən qoşaəlli yapışmış sifəti avazımış həkimi yaralıya çatdıranda bala Nisə də kanalın həmin yerindən şığanıb, yayın bürküsündə bütün qız-gəlin kimi yalxı geyindiyi çit donunun ətəklərindən su süzülə-süzülə özünü yetirib Əzrayılın böyründə yerə çökdü.

– Qorxma! Qorxma, ölmüyəcəksən, ey bizi öldürənimiz! Qurban əmi düz deyir, nakişi nakişidi! Əmbə bu gün kişilik elədin, yerə soxduğun başımızı dik tuta bilərik daha!..

Bu həngamənin içində hamını heyran edən Bala Nisənin islaq çit donun altından dərisinin rənginə qədər görünən qadın gözəlliyi

də bir heyranlıq yaradıb, bayaqkı yerindən – malatilkanın böyründən tərpənməyən Tapdıqdan başqa hamımızın qıpqırmızı qızarmağımıza səbəb oldu. Mənə elə gəlir ki, növbəti pis hadisədə nə isə, hələ heç birimizin anlamadığımız yaxşı, sevindirici bir cəhət də vardı, məhz bu cəhətə görə də, sarsıntıdan özümüzü itirsək də, Bala Nisənin gözəlliyini də gördük.

Xırman yerindəki ikitəkərli "qara araba"nı, yəni dağda-daşda da işlədilməsi mümkün olan arabanın içinə küləş yığdılar, kilim saldılar, bütün sifəti, başı ağ bintlə çalın-çarpaz sarınmış yaralını qaldırıb kilimin üstünə qoydular.

Bolu böyrümdə fısıldayırdı.

– Ona bax! Uzunluğuna bax köpəyoğlunun, ayaqları arabadan eşikdədi! – dedi.

Bu "köpəyoğlu" o günü Bolunun dilində sonuncu söyüş oldu.

Ağsaqqallarımız çörək yeyib, dincəlib bütün kəndi sevindirən gurultuya, uğultuya gələndə birinci Tapdıq dillənib:

– İndi görün necə işliyəcəyik! – dedi. Və hamımızın ilk dəfə gördüyümüz, boy-buxununa yaraşmayan mötəbərliklə "ümumi iclas" elan eləyib, eynilə atası, anası kimi, yaşlı adam ciddiyyəti ilə, Məlikin sözü ilə desək, "əməlli-başlı nitq irad elədi": – Arvadlar... qızdı-gəlinni hamısı getsin. Biz qalırıq. Qalayçıoğlunun briqadasından kotançılar, səpinçilər, bir də ki, aydın məsələdi, traktor. Əsəd... işıqlaşanacan işləyəcəyik. O başdan çörəyimizi yeyib elə burda da yuxumuzu alarıq, qalıb genə işləyərik. Bircə xahişimiz var, hörmətli briqadirimiz sədrliyi öz üstünə götürsün, izin versin şumu dayandıraq on-on beş gün, taxılı keçirək malatilkadan ki, ayın axırında həm vayenni fondun taxılını verək, həm də camaata paylayaq, arvad-uşaq ac qalmasın.

Qalayçıoğlu ilə Mehbalı əmi qaş-qabaqlı susurdular.

Tapdıqdan bu dəfə hikkəli qışqırtı qopdu:

– Nə var?! Nədi genə xoşunuza gəlməyən?!

Qocaların əvəzində Qurban əminin qəhqəhəsi eşidildi:

– Ay camaat, bu lap Muxtardı ki! Gəlsəniz elə bunun özünü sədr seçək? – Qəhqəhə xırp kəsilib birdən-birə tənbehə çevrildi: – Çox baş aparma! Ana uşağısan sən hələ! Şumu dayandırmaq olmaz. Çünki taxıl planı üç qat artırılıb. Şum ləngisə səpin də ləngiyər, qışa düşər, toxum yeriməz don torpağa, şaxta vurar, bu günki xeyri-

niz sabah şərə dönər! Qandın?! Bir də belə hoqqabazlıq görməyim səndən! "Ümumi iclas elan eliyən"imizə baxın! – Boz atın başını çəkib, bir az susub, yenə danışdı: – Cəbrayıl vayenni tribunala getməlidi! Gizlin sözü, açıq sözü, nəyi var, hamısını danışıb ya bəraət almalıydı, ya güllələnməliydi. Elə olmadı, belə oldu. Hamısının taqsırı özündədi. Özünü vuran kişi vaxtında vursaydı, namus güdən oğullar da əl-qol tərpətməzdilər. Tribunaldan, NKVD-dən-zaddan adam gələndə belə danışın hamınız. – Yəhərdən əyilib, Məlikin köynəyinin çiynindən yapışıb, qəribə – hədsiz qəzəblə atın yanınca çəkə-çəkə bizdən aralandı. – Sən dilini dişiyin arasında saxla! – dedi. – İrəvaz da, sən də lal olun! Kimdilər o adamlar, bilirsənmi?! Niyə elə eləyiblər, bilirsənmi?! Heç nə bilmirsən! Heç nə! Mən, sinəsi ordennən dolu bolşevik, köhnə atryad nəçənniyi, indi istrebitelni batalyon komandiri, onların qabağında sluşu[1] dururam. Zor nəçənnik deyirlər o üçlüyün başçısına. Zor! Bildin?! Elə itirər, izin-tozun da qalmaz!

Qurban əminin bu sözlərini Məlikdən başqa tək mən başa düşdüm. Revaz doxdur arabayla getməsəydi, bir də o başa düşərdi.

Fikirləşdim ki, Qurban əminin Məlikə xəbərdarlığı mənə də aiddir: Cəbrayıl özü müsibətə düşə-düşə heç kəsə heç nə açmırsa, hətta Qılıncımız da "dili dişin arasında saxlamağı", "lal olmağı" bu qədər vacib sayırsa, mən necə aça bilərəm?

Traktor guruldayıb, molotilkanı da uğuldadıb fikrimi qırdı. Qılıncımızın tapşırığına baxmayaraq, Tapdıq əli çuvallı Zibeydəni molotilkanın dalından qırağa itələyib özü çuval götürəndə biz də işə girişdik. Kimi nərdivanla "ploşşadka"ya qalxdı ki, dərz açsın, Kimi "yığan"dan yapışdı ki, samanı yığanlasın, kimi "ilanyalı" tayadan molotilkanın yanına dərz daşımağa getdi, kimi də yaba götürüb hazır dayandı ki, daşınan dərzləri "ploşşadka"ya qaldırsın. Mən isə Tapdığın yanında qaldım ki, növbəti çuval dolanda kilimin üstünə aparmağa kömək eləyim. Əmma etiraf etməliyəm ki, Tapdıqdan aralanmamağımın başqa səbəbi vardı: bayaqdan bəri fikrimdə "Əzrayıl" deyə bilmirdim, elə "Cəbrayıl" deyirdim. Nədənsə hədsiz səbirsizliklə öyrənmək – bilmək istəyirdim ki, görüm, zabit köynəyinin döş cibindən çıxan o bir "daraq" patron, çaxmağı elə şaqqıldadıb "darağ"ı "maqazin"ə basan, çəkmənin bir tayını

[1] Tabe, müti

çıxarıb atıb, lüləni ağzına salan o möhkəm, sakit əl, sahibini o cür sevən o ağıllı heyvanın gözləri, hərəkətləri tək məni yox, elə hamını sarsıdıbsa, hələ də kinli görünən Tapdıq bu sarsıntıya necə baxır? Daşdır, divardır nədir mənim bu can-ciyər qardaşlığım?! Mənlə bərabər, indi yəqin ki, bütün uşaqlar daha “Əzrayıl” deyə bilmədiyi halda, bu daşda, divarda heç olmasa cüzi bir dəyişiklik əmələ gəlməyibmiş?!

Hava ağarışlanana qədər işləyib elə ordaca quru torpaq üstünə döşənişəndə yanaşı düşdük. Gün doğanda oyanıb, Traktorçu Əsədə xüsusi göndərilmiş buğda xəmrəlilərindən bala batıra-batıra acgözlüklə doyunca yeyib, üstündən yarpız çayı içəndə, yəni əhvalımız az-çox yaxşı olanda da yanaşı olduq, ayaq üstə şirin-şirin mürgü vura-vura şuma gedəndə də qoşa getdik, əmma bircə kəlmə soruşmağa da cəsarətim çatmadı: Tapdığın daimi qıyılı, xırdaca gözlərinə, ovurdları batıq, quru, boz sifətinə heyrətli zəhm, zabitə gəlmişdi.

Bu yeni Tapdığa heç kəs, o cümlədən ağsaqqallar da yaxın düşə bilmirdilər. Şumdan sonra gəlib körpüyə yaxınlaşanda baxışlarımız açıqca yalvarırdı ki, sola – xırman yerinə doğru dönməsin, əmma Tapdıq hər axşam eyni inadla sola burulurdu və biz də hərəsi bir dolu çuval ağırlığında qıçlarımızı zorla tərpədə-tərpədə onun dalınca gedirdik ki, arvadları, qız-gəlini evlərinə göndərib gecə növbəsində də özümüz işləyək.

On günmü keçdi, yarım aymı? Bilmirəm. Bir axşam yenə körpüyə yaxınlaşıb sola burulanda xırman yerindən Bala Nisənin qışqırtısını eşitdik:

– Gəldi! Sədr gəldi, ay camaat!

Adətən “dədəm” deyərdi. Hətta müsibətdən sonra da.

İndi isə “sədr” dedi və Bala Nisə ilə birlikdə, molotilkanın dövrəsindəki arvadlar, qız-gəlin, hamı:

– Sədr! Sədr... Cəbrayıl! Cəbrayıl! – dedi.

Xarle kanalın qırağı uzunu ağaran cığırla rahatca yorğalaya-yorğalaya, çənəsində bint sarğı ağaran sahibini açıq-aşkar sevinişən qız-gəlin yığnağına gətirirdi.

Mən köksümdə çırpıntı, təlatüm hiss etdim. Çünki qız-gəlinlə, ahıl arvadlarla birlikdə bizim ağsaqqallar da açıq-aşkar sevinirdilər. Sədr molotilkaya yaxınlaşanda Mehbalı əmi hətta əlini qaldırıb sədrə salam verdi.

– Allaha şükür, xata sovuşdu! Həməşə ayaq üstə, ay Cəbrayıl! – dedi.

Yalnız bundan sonra məlum oldu ki, Tapdığın üzündə donmuş zəhm, zabitə əbəs deyilmiş. Dabanı üstə fırlanıb körpüyə doğru elə qətiyyətlə getdi ki, hamımız çaşbaş qaldıq: bizdən də döndü?! Dalınca gedək, getmiyək?..

Diqqətimizi yenə Cəbrayıl çəkdi.

– Şad xəbər gətirmişəm, – deyirdi. – Sabah gəlib vayenni fondun taxılını aparacaqlar. Zibeydə qapan-tərəzini işə salsın, bu gecə çəkək, hesablayaq fondun taxılını. Sonra vedemost tutaq, sabah axşama əməkgününə taxılınızı alın!

Arvadlardan alqış eləməyən, qız-gəlindən sevinməyən qalmadı. Xəbər, əlbəttə, məni də, yoldaşlarımı da sevindirirdi, hardan biləydik ki, məhz bu şad xəbər – "əməkgününə taxıl" xəbəri pis hadisələrdən daha birinin başlanğıcı idi!

Bütün gecəni tər içində, dinməz-söyləməz, çuval, kisə daşıyıb, hava ağarışlananda Traktor Əsədin mazutlu, his-paslı üzündə qənd kimi ağaran dişlərini heç vaxt örtməyən dodaqlarını tərpədib: Həvəsdi, bəsdi! Həvəsdi, bəsdi! – dediyini eşidər-eşitməz, üstünə taxıl sərilmiş kilimlərin qıraqlarına döşənişdik, həqiqi, mənada ölü kimi hərəkətsiz qalıb, bir də üzümüzdə, başımızda, boynumuzda Günəşin hənirini hiss edəndə gözlərimizi açıb Aşağı kənd Qonaqlının əkin sahələrinə gedən kanalın o tayından traktor gurultusundan da qat-qat güclü gurultu eşitdik, sonra rayon mərkəzi ilə Qonaqlının arasındakı Kəsəyolda uzun bir maşın karvanı gördük. Sanadıq, on iki "vayenni maşın" idi.

Məlik dedi:

Belələrinə top qoşurlar. Kuzasına da topçular özləri minirlər. Bunlardan yekə maşın yoxdu dünyada.

"Yekə maşınlar" hamımızı heyrətləndirə-heyrətləndirə, toz-duman qaldıra-qaldıra kanal boyunca yaxınlaşanda gördük ki, nə dallarında top var, nə də kuzalarında topçu əskərlər.

Cəbrayıl Xarlesinin belində, əks tərəfdən – ambulatoriya səmtindən gəldi. Atdan düşdü, birinci maşının ayaqlığında durub o yan-bu yana boylanan ağsaçlı, ucaboy kapitana əl verdi.

– Bax hazırıq, yoldaş kapitan, – dedi. – Əmbə maşını çox gətiribsən. Beş-altısı da bəs elərdi.

Kapitanın qaşları da ağappaqdı. Çənəsinin altı – buxağı qırış-qırış olub sallanmışdı. Qonaqlı meşəsində, Palıdlıq adlanan yerdə “Zemlyanka”ların[1] qapılarından başlamış zenit toplarının ətraflarında “snaryad”[2] yeşiklərinə qədər yarpaq rəngində boyanmış “vayenni çast”a süd, qatıq aparıb, əvəzində “buxanka” – çörək aldığımız bir günümüz olmuşdu. O vaxt bu qoca kapitanı orda görüb, “buxanka”ları da elə ondan almışdıq: “Bir də gəlməyin. Diviziya göndəriblər bura. Çörək çatdırammırıq”, – demişdi. Cəbrayılla danışanda indi də çənəsi titrədi, səsinə hıqqıltı qarışdı:

– Mən əmr quluyam, Cəbrayıl. Əmr verildi ki, on-on iki maşın apar, nə var doldur gətir. Rayon hökumətinin qərarıdı.

Cəbrayıl şallağını çəkməsinin boğazına sancıb əlini üzünün sarğısına atdı, binti yuxarı-aşağı dartdı, parta-part qırıb tökdü. Dərin yara yerinə – şırıma qan doluşdu. Sinəsi heyrətli hündürə qalxıb çökəldi. Yara yeri kimi, gözləri də gözümüzün qabağındaca qan çəkirdi.

– Necə yəni “hökumətin qərarı?!” Hökumətin bu camaatı ac qoyarmı, a kişi?!

Kapitan dillənməmiş maşın karvanının dalından toz içindən qara “Emadin” peyda olub, xırman yerinin hamarlığında səssiz-səmirsiz axıb, birinci maşından bir az aralı dayandı. Günün altında parıldayan şüşənin dalında nəhəng bir adamın qaraltısı o yan-bu yana yırğalandı, əmma çıxmadı.

Arxamda Məlikin qısıq, xoflu pıçıltısını eşitdim:

– Zorra, Gülənovdu. Zor nəçənnik deyiləndi.

Gözüm nəhəng adamda, dodaqlarım titrədi:

– Zor?! Demək, budu Sürməlimizi qəhbə eliyən!

Zor nəçənniyin hər kəlməsi güllə kimi açılırdı:

– Bura bax, ey! Əxlaqsız! Hökumətin adresinə bircə kəlmə də desən, bu naqanın yeddi gülləsinin yeddisi də qarnına dolacaq! Əsgər acdı! Səni alman faşizmindən qanı bahasına qoruyan əsgər! Sənin camaatıyın qarğıdalısı var həyətyanı sahələrdə! Gəzmişik, baxmışıq! Qarğıdalı əkinlərinin aralarında lobya var, maş var! Yaman gündə jmıx[3] da yeyər sənin camaatın! Qızıl Orduya jmıx yedirtmək olmaz! Qandın?!

---

[1] Qazma

[2] Mərmi

[3] Jmıx – Günəbaxan qabığından hazırlanmış malqara yemi

Nə demək olardı?!

Əmma Cəbrayıl dedi:

– Azdan-çoxdan var qanacağım, nəçənnik. Qəzet yazır, radio danışır. Ukrayna, Belorasiya, Don sahili... Volqa boyu qaratorpaq zona... taxıl verən torpaqların hamısı faşistin çəkməsinin altındadı. Ermənilər, gürcülər taxıl becərmirlər. Bir Orta Asiya respublikalarıdı, bir də bizik. İkiqat, beşqat artıq taxıl verməliyik. Əmbə üçqat, beşqat artıq işləməkdən ötrü də tox qarın lazımdı, nəçənnik. Qarğıdalımız sentyabrın axırında yığılır. Qurunması, üyünməsi oktyabrın axırına çəkir. O vaxtacan nəynən dolansın bu gördüyün quru-taqqanaq skelet arvad-uşaq?! Fondun taxılını da artıqlamasıynan verək bu saat, icazə olsa, MTS-in naturplatasını da. Məhsulun heç olmasa beşdən biri qalmalıdı!

Zor nəçənniyin qaraltısı yenə o yan-bu yana yırğalanıb çıxmaq istədi, köklükdən çıxa bilmədi.

– Arestovat naxaqa padlesi.

Maşınlardan ikisinin qapısı taraqqa-taraq açılıb-örtüldü, köynəklərinin boyunluqlarında "kubik"ləri, şapqalarının qabaqlarında ulduzları parıldayan iki zabit, ikisi də qoburlarını açıb, naqanlarını çıxarıb Cəbrayılın üstünə cumdu.

Əmma Cəbrayıl, necə deyərlər, bir göz qırpımında Xarlenin yanına atılıb, beşaçılanı yəhərin qaşından götürdü, eynilə özünü vuranda olduğu kimi, köynəyinin cibindən bir "daraq" patron çıxarıb "maqazin"ə basdı, çaxmağı bağlayıb, barmağı tətikdə:

– Mən istrebitelni batayondanam, ə – dedi, – özümü, qanun-qaydanı silahnan qorumağa haqqım var!

Şüşənin dalında qaraltı yenə o yan-bu yana yırğalandı və bu dəfə çox çətinlikldə sürünüb "Emadin"dən düşdü.

Arxamda Məlikin pıçıltısını eşitdim:

– Vurar bu sədri! Vurar!

Zorun özü də dedi:

– Vurram səni, ay əxlaqsız naxaqa!

Qabaq tərəfi yuxarı dartılmış parusin kitelin altında yekə bir nağaradan da yekə qarnı vardı. Kitel islanıb arvad döşləri kimi nəhəng döşlərinə yapışmışdı. Parusin şalvarın paçasının arası da su içində idi. Hər biri bir alma gözlərinin dövrəsindəki çökəklərə də tər dolmuşdu.

– Tüfəngi təhvil ver! Təslim ol! Yoxsa vurram deyirəm!

Cəbrayıl ağır-ağır başını buladı.

– Ölümündən qorxanlardan deyiləm mən, nəçənnik.

Zor, necə deyərlər, istidən ölürdü. Gözlərini qıyıb, günəşə doğru baxıb:

– Uzatma! – dedi. – O tüfəng mənim imzamnan verilib sənə. Sədrliyinə də raykomun bürosunda dostun Sultan Əmirliynən bərabər mən də razılıq vermişəm.

Cəbrayıl dodaqlarını əyib, üzünün bir tərəfilə güldü.

– Sultan Əmirlinin yetirdiyi partiya kadrlarının başlarını yeməknən məşğulsan sən, nəçənnik. Bilirik! Əvvəl-axır mənim də başımı yeyəcəksən. Əmbə bu gün bir şey eliyəmmiyəcəksən. Naqanını qobura qoy. Fondun taxılını çəkmişik qapan-tərəzidə, çuvalların üstünə yazmışıq yeddi yüz altmış kilo. Yəni fond planımız nədi, onu veririk. Meşəyə diviziya dolduğunu, sənin özüyün gəlməyini nəzərə almaq lazımdı, əlbəttə. İdarə heyətinin iclasını çağıraram günü bu gün, razılıq alıb bir ton da özümüz göndərərik arabalarımıznan. Çıx get, nəçənnik. Acizanə yalvarıram, çıx get. Bu afiserlər aparарlar fond taxılını...

Cəbrayıl çox danışdı. Hər kəlmədən-kəlməyə fəxrimizə çevrilə-çevrilə, köksümüzü qürurla qabarda-qabarda kişiliyini-mərdliyini, insanlığını-ləyaqətini göstərdi. Axırda Mehbalı əmi ilə Qalayçıoğlu da, arvadlar da, nəhayət, hətta xırman yerinə sürünə-sürünə gələn, ikiqat belini düzəldə bilməyən yüz on yaşlı Qadı kişi ilə tay-tuşları da söhbətə qarışanda, başdan-ayağa su içində olan Zor qızlardan su istəyib, içib, daha bir kəlmə də demədən "Emadin"inə minib getdi.

Məlik pıçıltı ilə.

– Gəlin ura qışqıraq! Ura qışqıraq! – deyirdi. Əmma mən Tapdığı unutmamışdım.

– Olmaz, – dedim.

Sevincimizi başqa cür ifadə elədik. Bolunun keçən il almanların sürgünündən bir-iki gün əvvəl "Nemes" kəndindən gətirdiyi on iki illik "boçka" çaxırı bir-birimizə xəlvəti göz vura-vura, yəni Cəbrayılın sağlığına içə-içə keflənib, elə kefli-kefli işlədik. Əmma axşam qayıdanda qanımız qaraldı. "Əsli və Kərəm"dəki kimi "Lələ köçmüşdü, yurdu qalmışdı": taxıl büsbütün aparılmışdı. Cəbrayıl isə həbs edilib "vayenni kanvoy" qabağında aparılmışdı.

Gecələr yuxusuzluq bahasına dəmiryol stansiyasında, vaqonlarının belləri də adamla dolu olan “Yerevan-Bakı”, “Tiflis-Bakı” qatarlarının “poyezd ayağında” meyvə satıb pul qazanmağı bacaran “əlli-ayaqlılar”ımızdan hansılarsa, Alverçi Xeyrə deyilən məşhur çaxırsatan arvaddan bir on iki litrlik “boçka” da gətirdilər. Kefdən – “dəm”dən yox, bu dəfə “qəmdən içən” on beş yaşlı kişilər Muxtar əminin evi ilə Dağdağan Alının “qaçaq damı”nın arasındakı genişlikdə, qabaq-qarşı qoyduğumuz iki kərən üstündə qabaq-qarşı oturub, gecəyarıdan keçənə qədər içdik. Naxırçı Məsi qazmasının damında biz dağılışana qədər tütək çaldı. Tapdıq Məsinin bir tərəfində, Cümrü qağamız o biri tərəfində oturub, donqarlanıb, öskürüşə-öskürüşə “eşmə” çəkirdilər. Çağırırdıq, gəlmirdilər. Yalvarırdıq, gəlmirdilər. İstəyirdik çaxırımızı, pendir-çörəyimizi yığışdırıb onların yanına – dama gedək, icazə vermirdilər. Göndərdiyimiz çaxırdan isə, hərəsi bir dolça içib daha içmirdilər. Hamımız hiss edirdik ki, qardaşlar yavaş-yavaş bizdən ayrılırdılar. Cismən yox, əlbəttə, daxilən başqalaşıb, daxilən də ayrılırdılar.

## CÜMRÜ

Müharibədən əvvəl Cümrü qağamız da tütək çalardı. Revaz doxdurun və analarımızın qəti qadağasına görə “vərəmli gədə” ilə, yəni Məsi ilə heç kəs ünsiyyət bağlamırdı. Təkcə qağamız “vərəmdən-zaddan qorxmayıb” axşamlar Məsi damda tütək çalanda tez-tez gedib ondan tütək çalmaq öyrənmişdi.

“Tütək” deyəndə, əslində buna mən şərti olaraq “tütək” deyirəm. Məsi özü “şümşəd” adlandırırdı. “Tütək deyil bu, şümşəddi”, – deyirdi. Yarım metr uzunluğunda, baş barmaq yoğunluğunda “fleyta” – yantütəyisayağı, dəmir “truba” – boru idi. Üçpara kənddə kim “şümşəd” çalmaq istəyirdisə, Baş kənd Qurbanlıda dəmirçi İsfəndiyarın dəmirçixanasına gedirdi və cavanlıqda Aşağı kənd Qonaqlıda Çürük Aşığın şagirdi olub, sonra aşıqlığı atıb dəmirçi olan İsfəndiyar kişi “pulsuz-parasız” düzəldirdi, üstəlik, “şümşədə daha yaxşı çıxan saz havaları” öyrədirdi ki, “ustada rəhmət oxunsun”. Deyilənə görə yaşı “otuz yeddiynən qırx arasında olan” Məsi

də “mən cavan gedəcəm bu dünyadan” – deyə-deyə məhz özünə “rəhmət oxutdurmaq” üçün, naxırı hərdən Qonaqlı meşəsindəki “Qamışlı göl” səmtinə aparıb, ordan qarğı-qamış kəsib “şümşəd” düzəldib həvəsi olanlara çalmaq öyrədirdi.

Əmma qağamızın öyrənməsi heç də həvəsə görə deyildi.

Eli-obası, yəni hardan gəldiyi, ata-anası, qohum-əqrəbası barədə bir kəlmə də danışmayan bu gəlmə adam öz sirrini nədənsə təkcə qağamıza danışmışdı, qağamız isə heç kəsə heç nə deməyib, yalnız Tapdıqla mənə açmışdı ki, “Bəy oğludu naxırçımız. Atasını, qardaşlarını beş il bundan əvvəl güllələyiblər. Anasını, bacılarını Sibirə sürüblər. Tək özü qaçıb, üç il Dağdağan Alıynan hərlənib, sonra adını dəyişib, atama pənah gətirib. Atam deyib: “Nə qədər ki, Sovet hökuməti var, otuz yeddinci ildə güllələnənlərin oğul-uşaqlarına yer yoxdu bu torpaqda. Naxıra get, çöldə ol. Axşamlar da gözə dəymə”. O vaxtdan Məsi naxırı səhər lap tezdən çölə aparıb, bir də qaranlıq qarışanda gətirirmiş, Muxtar əminin bir gecəyə tikdirdiyi qazmaya qapılıb, şümşədini də elə orda çalarmış. Yalnız müharibə xəbərindən sonra səfərbərlik günü Tahirlinin bütün qızgəlini on yeddi-on səkkiz yaşlarında yüz nəfər cavanlar dəstəsinin sağ-solu ilə ağlaşa-ağlaşa “vayenkomat”a gedəndə Məsi naxırı başlı-başına buraxıb “üzə çıxıb”, şümşədinin səsini ağlaşanların səslərinə qatmışdı və elə o vaxtdan da: “Üzə çıxma, ay bədbəxt sinfi düşmən! Üzə çıxma!” – deyən sovet sədrinə “içəridə bağrım çatlayır”, – deyib damda çalmağa başlamışdı. Cümrü qağamız da elə o vaxtdan həqiqi adı Musa olan “vərəmli gədə” Məsinin dərdinə şərik çıxıb dama ayaq açmışdı və dediyim kimi, heç də həvəsi olduğuna görə yox, Məsinin təkidinə görə çalmaq öyrənmişdi.

Nə qədər ki, məktəbdən qaçmamışdıq, dərsimiz qurtarandan sonra bizim evdə, ya da Tapdıqgildə çörək yeyib, darvaza qabağına çıxardıq, orda – kötük kətilin üstündə oturan qağamızın birinci saz havası sayılan “Divani”dən başlamış, sonuncu hava sayılan “Müxəmməs”ə qədər, saysız-hesabsız havalarına qulaq asardıq. İşdən qayıdan qızlar, gəlinlər yolda ayaq saxlardıldar. Qağamız ciddi, təmkinli, bizə göz vurub, topa saçlı başını dik qaldırıb, gözlərini yumub daha da şövqlə çalmağa başlardı.

Qızlar, gəlinlər, yolda daş-kəsəyə toxunub səs salmaqdan da çəkinə-çəkinə yavaşca yaxınlaşıb, Cümrünün oturduğu kötüyü

dövrəyə alardılar. Üzlərində, gözlərində köyrək, qəmli təbəssum, “gözəl Cəbrayıl”dan da gözəl qağamıza tamaşa edərdilər. Xüsusilə Qalayçıoğlunun sonradan anbardar olan gəlininin, hərəkətsiz dayananda da yırğalanan Zibeydənin titrəyən sinəsindən də köyrəldiyini görərdik. Qağamız beləcə, öz “şumşəd”i – qarğı tütəyi ilə kəndimizin qız-gəlininin ürəyində gizlin sevgilərin yanğısını üzərə çıxarardı.

Tapdıqla mən, ikimiz də, heç bir şək-şübhəyə yol vermədən qəti inanırdıq ki, bütün kənddə Cümrü qağamıza vurulmayan qız, gəlin qalmayıb. Əmma orasını da bilirdik ki, bu heç də o mənada, yəni pis mənada vurulmaq deyildi. Gendən-genə baxmaq, gizlincə köks ötürmək, heç nəyi açıb ağartmamaq şərtilə, saflıqlarını qoruya-qoruya vurulmuşdular. Qoruya-qoruya deyirəm, çünki qızlarımızdan hər birinin öz nişanlısı vardı, gəlinlərimizin də hər birinin, aydın məsələdir ki, öz əri, uşağı. İşin bu tərəfinə qağamız da xüsusi diqqətlə yanaşardı. Odur ki, tütəyini çalıb qurtarandan sonra heç gözlərini də açmayıb, burnunu çəkib: “Ay uşaq, burnuma zənən iyi dəyir. Deyin məni qana salmasınlar, çıxıb getsinlər”, – deyərdi və qızlar, gəlinlər də gülüşüb dağılışardılar.

Atalarımız gedəndən sonra Cümrü tütəyi çörək çantasının dibinə basıb, yalnız hərdən çıxardırdı. Hətta axşamlar dama qalxıb tütək çalan Məsiyə acığı tuturdu. Qaşlarını sıx-sıx çataraq: “Bəylərinə yas tutdu qurtardı, indi də bizimkilərə yas tutur!” – deyirdi.

Bəs necə oldu ki, özü yenidən tütək çalmağa başladı?

Bu barədə fikirləşəndə mən qoşa “qara kağız”ı oxuduğumuz günü, Söylü xalanın “təxti-xab”da döşəli qaldığı axşamı xatırlayıram. O axşam Cümrünün darvaza ağzında, kötük üstündə oturub, yolun o tərəfində, damda tütək çalan Məsiyə necə qulaq asdığını, bu vaxt biz ona yaxınlaşanda birdən-birə “Cəhənnəm olun!” – deyib necə qışqırdığını görürəm. Mənə elə gəlir ki, Cümrü elə o vaxt havalanmışdı. Əmma Tapdıq bu fikirdə idi ki, bədbəxtlik, Əzrayılın əli beşaçılanlı qapıya çıxıb: “Evlənmişik!” – dediyi anda olmuşdu. Tapdıq qəhərdən boğula-boğula deyirdi: “Qağamın gözlərinin titrədiyini birinci dəfə mən onda gördüm”. Cümrü bütün günü gözləri titrəyə-titrəyə, sifəti əyilə-əyilə gəzib heç kəslə danışmamış, axşam yenə gözləri titrəyə-titrəyə birdən: “Məsi çalır! Eşidirsinizmi, çalır!” – qışqırıb, bu anlaşılmaz qışqırtısı ilə hamını

qorxuya salmış, sonra: “Mən də çalacam!” – deyib tütəyini çantadan çıxarıb, evlərinin damına qalxıb, səhərə qədər “Rufani”[1] çalmışdı. Səhər camaat evin qabağına toplaşıb, hələ də damdan düşmək istəməyən və hey tütəyini piləyən bədbəxti səsləmişdi. Ancaq Cümrü heç kəsin səsini eşitməmişdi. Mən xəbər tutub həyətə yüyürəndə o, hələ də çalırdı. Tapdıq adamların arasında, üzünü Mehbalı əminin böyründə gizlədib ağlayırdı.

Bir azdan qapı açıldı. Cəbrayılın bintlə çalın-çarpaz sarıqlı sifəti göründü.

– Bədbəxtliyimiz azıydı... bu yandan da bu bədbəxtin başına hava gəlib. Çıxın gedin işinizin dalınca! – dedi.

İri bir daş parçası Cəbrayılın bintli başına toxunub keçdi, açıq qapıdan içəri düşüb orda nəyi isə sındırdı. Mehbalı əmi ilə Qalayçıoğlu, yerdən ikinci daşı qapıb Cəbrayılın üstünə cuman Tapdığı tutdular və zorla çəkib, sürüyüb həyətdən uzaqlaşdırdılar.

Əvvəllər qağamıza “cavanların qağası” deyən camaatımız hələ ordan – həyətdən dağılışmamış “Yazıq havalı!”, “Yazıq dəli!” – dedi. Çünki “yazıq havalı” Cümrü hələ də “Rufani” çalırdı!

Mehbalı əmi ilə Qalayçıoğlu Tapdığı haraya isə ötürüb qayıtdılar. Bir-birinin ardınca, nərdivanla dama qalxdılar.

Mehbalı əminin balaca, sonsuz qarısının əli ürəyinin üstündə qalmışdı.

– İtəliyəcək!.. Kişini damdan itəliyəcək, ay camaat! – deyirdi və titrəyə-titrəyə “ovsun” pıçıldayırdı.

Əmma yazıq havalı itələmədi, əksinə, qocaların yaxınlaşıb qollarından tutduğunu da hiss etmədi. Mehbalı əmi ilə Qalayçıoğlu onu damdan endirib apardılar.

Cümrü qağamızdan belə ayrı düşdük. Həm daxilən, həm də cismən ayrı.

Daha Cümrü ikimizi də birdən qucaqlayıb: “Qadanızı alım, a qeyrət dağarcıqları!” – demirdi. Daha bizim əvəzimizdə gecələr səhərə qədər kətmən vurmurdu. Mehbalı əmi ilə Qalayçıoğlu bizi ona yaxın getməyə, dindirməyə də qoymurdular.

Gecələr Mehbalı əmi Cümrünü həyətdə – ocağın qırağında oturdub saatlarla nə isə danışırdı. Sonra, hədsiz arıq-quru, hədsiz

[1] “Hürufani”

enli çiyinlərini qabağa əyib sinəsini çökəltmiş bədbəxt "vərəmli gədə" səssiz-səmirsiz gəlib ocağın bir tərəfində otururdu. Mehbalı əminin qarısı öz qədim, "cehizlik" samovarını gətirib dəyirmi "cehizlik sini"sinin bir tərəfinə qənd əvəzinə armud qaxını, o biri tərəfinə "yarpız çayı" qoyandan sonra Məsinin özünün dediyi kimi, "ölünü də dirildib söhbətə qoşurdu". Nə danışırdı? Bilmirdim. Çünki mən ocağa yaxınlaşanda Məsi hökmən səsini kəsib gah dəmir tütəyini çıxarıb elə bil qəsdən çalardı ki, başqa söz-söhbət olmasın. Mən orda – ocağın qırağında çox oturanda isə: "Sən get Tapdığın yanında ol. Təkdi Tapdıq", – deyirdi. Ya da: "get yat", – deyirdi. Yəni məni Cümrüdən aralamağa çalışardı. Mehbalı əmi isə elə həmişə: "Dəlilik deyil, Cümrününkü dəlilik deyil", – deyirdi.

Qarı elə orda – ocağın yanında yer döşəyirdi. Mehbalı əmi Cümrünün bir tərəfində, Məsi o biri tərəfində yatırdı. Mən hərdən çox nigaran – narahat qalıb, gecənin bir vaxtı öz həyətimizdən baxıb görmüşdüm ki, Cümrü oyanıb "su üstünə" gedəndə Mehbalı əmi ilə Məsi də o dəqiqə dikəlib, qağamızın sağ-solu ilə gedirdilər.

Bütün bunlar çox şübhəli şeylərdi.

Çöldə, şumda Tapdıqla mənim susqunluğumuza fikir verdikcə Mehbalı əmi yenə həmin sözləri təkrar edirdi:

– Cümrününkü dəlilik deyil... Cümrününkü dəlilik deyil...

Bir dəfə Tapdıq qamçı kimi dartılıb dodaqları titrəyə-titrəyə qışqırdı:

– Necə yəni deyil?! Mən uşaq-zadammı aldadırsan?!

– Uşaq olmuyanda nəsən? – Mehbalı əmi də qışqırdı. – Baban yaşda adam sənə deyir: "Dəlilik deyil!" Cümrü bir az havalanıb, keçib gedəcək. Sizi görəndə yadına ayrı şeylər düşür. Siz ona yaxın getməyin, doktorsuz-filansız, biz özümüz sağaldacağıq. Gərək aradan keçsin, soyumalıdı o. Başa düşdünüzmü?

Başa düşməyinə düşürdük. Əmma Mehbalı əminin sözlərini adi təsəlli hesab edirdik. Çünki Cümrünün "havalanması" gündən-günə şiddətlənirdi.

Birinci günlər gözləri titrəyə-titrəyə, heç kəslə danışmadan, hirsli-hirsli gəzib-dolananda bunun doğrudan da adi havalanma olduğuna və müəyyən vaxtdan sonra keçib gedəcəyinə ümid bəsləmək olardı. Əmma Məsi ilə yoldaşlığındakı qəribəliklər bizi dəhşətə gətirirdi.

Bu bürkülü avqust gecələrində, taxtda, hətta gözlərimə yuxu gedəndən sonra da tütək səsi eşidirdim. Arada nədənsə diksinib hövlnak oyanırdım. Şöşünün böyründə gözləri açıq uzanmış anama baxırdım, ehtiyatla, pıçıltı ilə:

– Bunun axırı nə olacaq, ay ana?.. Nə olacaq?.. – deyirdim.

Yazıq anam hardan biləydi nə olacaq?..

Avqustun iyirmisindən iyirmi birinə keçən gecə həmin kərənlərin üstündə qabaq-qarşı oturub, pendir-çörəyimizi “boçka”mızı, stəkanlarımızı qəzetlərin üstünə qoyub çaxır içəndə Məlik dedi:

– Bu gecə quyruq doğur. Quyruqlu ulduzu görmək istəyən yatmasın, otursun burda.

Məlik hər il eyni vaxtda belə deyəndən sonra məclisimiz gecə saat ikiyə qədər uzanırdı. Əmma hər il gecə saat birlə iki arasında günbatan üfüqdən bir az hündürdə peyda olub, uçub gedib kəhkəşana qovuşan “quyruqlu ulduz”u tək bir dəfə Qaratəpə bazarının hündür yerindən görüb heyrətdən qışqırışandan sonra nədənsə daha görmürdük. Əmma “quyruğun doğduğu”na heç kəs şübhə eləmirdi. Çünki o dümağ, uzun quyruqda nə hikmət vardısa, gecə saat birlə iki arasında avqustun bürküsü birdən-birə “sınıb” elə soyuyurdu ki, hətta pencək geyinməli olurduq. Və bundan sonra daha orda – kərənlərin üstündə oturmurduq.

Müxbirimizin bu ilki xəbərindən sonra isə oturmalı olduq.

Səbəb Məsi ilə Cümrü idi.

Qoşa tütəkdə “Rufani” çala-çala gəlib, gözlənilmədən yanımızda – kərənin üstündə oturub, dinməz-söyləməz, stəkanları doldurub içən Məsi ilə Cümrü biri-birinin sözünü kəsə-kəsə:

– Bu havanı hamı çalmalıdı! Hamı! Hamı! – deyəndə bu sözlərə qapılıb qalıb tərpənmədik.

Məlik bir az keyflənmişdi. Elə hey “hürufani” mızıldanırdı.

– Cümrü havalıdı, Tapdıq davalıdı. Cümrü havalıdı, Tapdıq davalıdı! – deyirdi.

Əmma ona fikir verən yoxdu. Fikrimiz-diqqətimiz “bəy balası”nda idi.

“Bəy balası”nın əynində dümağ, yaxası biləkləri, ətəkləri qızılı naxışlı Ukrayna köynəyi, ayaqlarında sarı-qızılı “bəynişin” xrom çəkmə, belində də sarı-qızılı, enli kəmər vardı. Naxırçı Məsi birdən-

birə dəyişib, ovurdları çökək, uzun, ağ üzünə işıq saçan iri, yaşıl gözlərinin gözəlliyi ilə hamını heyran qoyan orta yaşlı bir bəyə çevrilmişdi.

Yerevanda pedaqoji institutun tarix fakültəsini qurtarıb evə diplomnan gedəndə atam dedi: "Gizlət bu diplomu. Çünki Musa deyilsən sən, bu gündən etibarən Məsisən. Familyanı özün seç, heç biz də bilmiyək. Təzə adnan, təzə paspotnan gedib Tahirli adında kənddə qohumunu tapacaqsan. O qohumuyun, Qılınc Qurban adında çox ədalətli, vicdanlı bir bolşevikin himayəsində qalacaqsan. Qismət olsa, bir də, inşallah, Stalin adında cəllad cəhənnəmə vasil olandan sonra görüşəcəyik..."

"Stalin adında cəllad?!" Mənim canımdan elə üşütmə keçdi ki, hətta büzüşüb hərəkətsiz qaldım.

Uşaqlar məndən betərdilər. Direktor Tahirin dilinin əzbəri, Muxtar Əminin, Qılıncımızın gözlərinin işığı, böyük rəhbər Stalin yoldaşa "Stalin adında cəllad" demək olar?! Alman faşizminə qarşı ədalət müharibəsinin Ali Baş Komandanı haqqında belə ləyaqətsiz sözlər danışan bu sinfi düşmən aramıza necə soxulmuşdu?! Qurban əmi – Qılınc Qurbanın belə bir adamı, hamımızı çaşdırıb, sarsıdıb, nə hala saldısa, nəinki etiraz edən, heç dillənən də tapılmadı.

Qağamız, Məsinin çörək çantasından bir qoşa ovuc dolusu qarğı tütək çıxarıb, səssiz-səmirsiz, hərəmizin əlimizə bir tütək basdı.

– Çalın! Çalın! – deyib, özü yenə də "Rufani" çalmağa başladı. Məsi isə ayağa qalxıb qoşa kərənlərin arasında gəzinə-gəzinə, elə bil ilk dəfə gördüyümüz sirli, anlaşılmaz bir möcüzəyə çevrilmişdi. Səsi elə qəmli idi ki, elə bil "Rufani" üstə oxuyurdu:

– Min doqquz yüz ikinci ildə Qazax qəzasının Dağ Kəsəmən kəndində Xoyxanuşağı deyilən məşhur Xoy xanının yaxın qohumlarından birinin ailəsində anadan olmuşam. Qazax seminariyasında həkimin fikrincə ikinci ildə yox, beşinci ildə anadan olmuşam, buna görə də, soruşan olanda o inadkar həkimi xatırlayıb deyirəm: "Yaşım otuz yeddi ilə qırx arasındadır". Həqqəpnəs, yəni həqdən verilən yaşım düz qırxdı. Bu qırx illik vərəmli sinəmə əsrimizin bir möhürü basılıb. On səkkizinci ildə Xoyxanı ilə Doktor Nəriman Nərimanovun qurduqları milli dövlətin möhürüdür. Xalqımızın oğullarından kim sinəsini açıb möhürü göstərirsə, o sinəyə güllə çaxılır. Buna görə də siz görmürsünüz elə adamları.

Birini indi tanıdınız. Güllə çaxılmayıb hələ sinəmə. Əmma çaxılacaq.

İkinci bir möhürlü ilə üçüncüsünü indi tanıyacaqsınız.

On doqquzuncu ilin yazında Nəriman Nərimanovun özü ilə Hümmətin bolşeviklər partiyasından on beş atlı gəldi. Dağ Kəsəmən kəndində Xoy xanı Fətəli Xanın gizlin evində iclas oldu. Nərimanovdan dərs alıb Fətəli xanın yanında siyasi fəaliyyət göstərən otryadçılar o on beş nəfər Hümmətçi ilə "Məramnamə" imzaladılar, möhür basdılar. O "Məramnamə"yə görə Fətəli xannan Azərbaycan Cümhuriyyətinin başçıları Nəriman Nərimanovun yazdığı Azərbaycan Respublikası "Proqramı"nı qəbul edib, həmin gündən etibarən vahid dövlətdə birləşmişdilər. Həmin "Məramnamə"ni imzalayan otryadçılardan biri bizim indiki sovet sədri Qılınc Qurban idi. İkincisi Muxtar Əlmədədoğlu idi. Cümrü ilə Tapdığın atası – Muxtar əmi adlı istəkliniz mənim böyük bacım Sürməlini, sonradan Söylü çağrılanı Xan əmim Fətəli xanın evində görüb vurulmuşdu. Zəmanə başqa zəmanə idi – təlatümlü idi. Həmin iclasın səhərisi, Nərimanovun şəxsi icazəsi ilə, otryadçılar əlavə bir gün də Dağ Kəsəməndə qalıb, otryadçı Muxtarla Sürməliyə toy elədilər. Bunu mən əsrimizin böyük hadisələri sırasına daxil edirəm. Çünki həmin gün mənfur "sinfi düşmən" ideyasının əksinə, Xan qızı Sürməli ilə rəiyyət sayılan Muxtar Əlmədədoğlu, sinfi mənsubiyyəti nəzərə almadan, kəbin kəsdirdilər. Böyük Hümmət partiyasının təşkilatçısı, Azərbaycan Respublikasının rəhbəri – doktor Nəriman isə Qazax Qəza İnqilab Komitəsində çıxış edib, bu ilk Şura ailəsinin üzvlərini "Əsrin qaranquşları" adlandırdı. O ilk bahar müjdəçilərinin biri arxadan vurulub. İkincisi, mənim gözəl bacım tapdalanıb, o evdə döşəli qalıb. Çörəyini mən bişirirəm.

Bir hadisəni də bilin.

On yeddi il sonra, otuz yeddinci ilin yanvarında ailəmizin bir hissəsi İrəvanda idi, qalanı Dağ Kəsməndə mənim yanımda. Gündüzlər seminariyada proqramdankənar, gizlin "hürufi" dərsi[1] deyirdim. Axşamlar Xan əminin ailəsindən Dağ Kəsəməndə qalan cavanlarla görüşürdüm. Məşhur Aşıq Sadığın şagirdi sifətilə çalıb-

---

[1] Hürufilik – Nəsiminin həyatı və türkcə "divan"larından seçmələr Qazax rayon məktəblərində qeyri-rəsmi tədris edilmirdi.

oxuyurdum, guya ailəvi şənlik eləyirdim, əslində isə, “qərəvəlli” danışıb məclisi güldürə-güldürə, arada indi burda hər gün eşitdiyiniz “Rufani” – “Hürufani”, “Mansırı” – “Mənsuri” üstündə Yunis İmrənin, Nəsiminin şeirlərini şərh eləyirdim, yəni həqiqət dərsi keçirdim. Dünyanın keçmişi və gələcəyi haqqında həqiqət əsərlərinə “Cavidannamə” deyirdik onda. Bir vaxt gələcək, sadəcə olaraq, Elm deyəcəyik... Mətləbdən uzaqlaşmıyaq. Bir axşam seminariyadan qayıdanda gördüm Xan əminin həmin gizlin evinin yan otağından atamın qışqırtısı gəlir. İrəvanda idi atam o vaxt. Qışqırtını eşidəndə bildim ki, gəlişi boş-boşuna deyil.

Qapıda köhnə Hümmətin otryadçılarından qoca bir kişi dayanmışdı. Məni tanıdı, buraxdı.

Atam qışqırırdı ki, “Hələ iyirmi-iyirmi üçüncü illərdə Doktor sizə nə qədər dedi “Stalin kommunist deyil! Bolşevik deyil! Casusdu Stalin! Hər gün istintaqa çağırtdırır məni xəstə ürəyimə hər gün bir cür zərbə vurur!..” Yazıq doktor nə qədər xəbərdarlıq elədi ki, inanmayın Stalinə! Erməni, Gürcü adında casuslardan ibarətdi Bolşeviklər partiyamız!..” Gördüm Muxtar yeznəm ağlayır! Qılınc Qurban! Hamısı!.. Atam qışqırırdı, onlar ağlayırdılar. Böyüklərimizin işinə qarışmaq istəməsəm də, özümü saxlıyammadım. Cibimdə komsomol bileti, dilimdə rəhbərimiz Stalinin adı, Əzrayıl kimi yeridim atamın üstünə: “Necə yəni Stalin kommunist deyil, ata?! Sən nə danışırsan?!”

Atam yapışdı çiynimdən, necə silkələdisə, dişlərim şaq-şaq elədi. “Ayıl! – dedi. – Qəflət yuxusundasınız hamınız! Muğanlı kənd sakini Rus Qurban Moskvada Krupskayadan[1] xəbər gətirib ki, Doktoru öldürtdürüb Stalin. Kirovu öldürtdürən də odu! Maksim Qorkini öldürtdürən də odu!.. Krupskaya xəbər göndərib ki, bütün SSRİ-də kommunistləri qırırlar. Yoldaşlara çatdır, yaşayış yerlərini, iş yerlərini dəyişdirsinlər, gizlənsinlər...”

Sizin heç nədən xəbəriniz yoxdu. Otuz yeddinci ildə Tiflisə, İrəvana, Daşkəsənə nə qədər məsul vəzifəli işçilərimiz köçdü. Əmma gizlənəmmədilər. Stalinin osobı otdeli[2] qırdı-çatdı hamını!

Keçən ildən bəri hər gün, hər gün qara kağız gəlir gedənlərimizdən. Hamanca Stalinin osobı otdelçiləri “yoldaşı” deyirlər

---

[1] N a d e j d a  K r u p s k a y a – Leninin arvadı

[2] Xüsusi şöbə (operativ siyasi işlə – “çistka” ilə məşğul idi).

bizimkilərə. Yəni faşistin yoldaşı! Mənə hər gün xəbər gəlir cəbhədən. Hər gün! Bütövcə bir diviziyamızı arxadan vurub qırıb Osobı otdel! Mənim əzizim-gözüm, sizin istəkliniz Muxtar əmi də, dedim, arxadan vurulub! Tahir müəllim də! "Stalin" adında, adı-sanı bəlli olmuyan bir casus oturub Kremldə Nərimanovçuları qırır. Bizim əzizimiz Qılınc Qurban da otryadını Məhərin budkasına yığıb: "Yaşasın Ali Baş Komandan Stalin yoldaş!" – qışqırır! Dalınca da "İnternasional" oxuyurlar: "Qalx ey lənətlə damğalanmış ac və çıplaq məzlum dünya!.." Gözləriniz dəyirmilənməsin! Keçən il yüz nəfər cavan yola saldıq burdan. Səfərbərlik günü. Bir nəfər də gizlənmədi. Hanı, niyə məktub gəlmir heç biridən? Qara kağız! Qara kağız! Niyə? Çünki qırıblar qardaşlarınızı, ay on beş yaşlı "qeyrət dağarcıqları!" Cümrü yuxusunu itirib, səhərə qədər həqiqət havası çalır, ədalət istəyir göydən. Gözləriniz dəsdəyirmi, baxırsınız ki, bəs, dəli olub yazıq qağamız! Necə dəli olmasın?! Məlik guya sirr saxlayır, ona-buna xəlvəti pıçıldayır, sonra da deyir: "Açmayın heç kəsə. NKVD qırar hamımızı". Qırmırmı?! Dağdağan Alı niyə qaçaq düşüb?! Bütün mahalda igidlik timsalı olan İskəndər ağa gəzərdi ağ at belində bu kəndlərdə. Hanı o İskəndər ağa?! Niyə qaçaq düşüb?! Gözümüzün qabağında Cəbrayılınızı öz dilinizdə Əzrayıla döndərən, sonra da qara maşına basan mənəmmi?! Mənim mələk misallı bacımı damın altında döşəli qoyan kimdi?! Tapdığı gözü yaşlı qoyan kimdi?! Gecə də heyvan kimi işləyirsiniz gündüzü də. Bəs niyə acsınız?! Hanı sizin qazancınız?! Necə yəni "diviziya gəlib?!" Diviziya nədi, bir kavaleriya polkudu, onun da özünün azuqəsi, pşenosu[1]-filanı! Bu gün-sabah Arazın o tayına adlayacaq polk, azuqəsini də ordan alacaq. Bəs bizdən gedəni kim yeyir?! Bəsdi əbləh-əbləh gecə-gündüz dəridən çıxa-çıxa quru çörəyə də möhtac qaldınız!

Çal, Cümrü! Sən çal, mən də danışım, ayıldım bu əbləh qeyrətliləri!..

Cümrü başı sinəsində, topa saçı alnında, gözlərimin qabağında, ağır-ağır əlini uzadıb, Məsinin kəmərinə sancılı şümşədi çıxartdı. Bu dəmir tütəyə burda mən ilk dəfə yaxından baxıb gördüm ki, qarğı tütəkdə, zurnada, balabanda olan, hər birisi bir dırnaq sədəfinə oxşayan, sapla qarın-qarına sarıqlı qoşa qamış – "cırtdağan"

[1] Buğda yarması

əvəzinə bu dəmir tütəyin ilan boğazı kimi uzun boğazında nə vardısa, Cümrü barmaqlarını bir-birindən azca aralı deşiklərin – dillərin üstünə düzüb, sinəsini qabardıb nəfəs verəndə o uzunluqda, o qalınlıqda dəmir elə bil titrəyib inildədi. Nə çaldı Cümrü? Fikir vermədim. Çünki o Məsi də inildədi və sinifdə gəzinən müəllim kimi gəzinə-gəzinə, ağır-ağır danışmağa başladı:

– Sizin düşdüyünüz müsibət bütün millətin müsibətidi, ay uşaqlar. Qədim müsibətdi.

Yaxşı-yaxşı dinləyin.

Qədim əyyamda, İskəndər Zülqərneynin zəmanəsində, dildə-ağızda bir nağıl varmış. Nizami Gəncəvi "Sirrlər xəzinəsi"ndə yazıb o nağılı. Oxuyubsunuz: "İskəndər və bərbər".

İskəndər Zülqərneynin buynuzu varmış. Dəlləklər İskəndərin başını qırxanda buynuzu görürmüşlər. İskəndər hamısını öldürürmüş. Dəlləklərdən biri İskəndərin ayaqlarına yıxılıb, yalvarır ki, öldürmə məni, sirri açmaram. İskəndər razılaşır, buraxır dəlləyi. Bir müddətdən sonra dəllək görür qarnı şişib və şişidikcə şişir. Loğmana gedir dəllək. Loğman deyir qarnında sirr var. Şişməyi o sirrdəndi. Get bir kor quyu tap, sirrini o quyuya danış, şiş çəkiləcək. Dəllək gedir çöldə-biyabanda bir quyu tapır, üzüüstə döşənir, nə ki var deyir: "İskəndərin buynuzu var. İskəndərin buynuzu var". Ayağa qalxanda görür şiş çəkilib. Sevinir, çıxır gedir.

Ay keçir, il dolanır. Yağış yağır, o kor quyudan qarğı-qamış bitir.

Bir çoban, sürüsünü çəkib quyunun yanından keçəndə bıçağını çıxarıb bir qamış kəsir, tütək düzəldir, dodağına söykəyib çalanda tütəkdən səs gəlir: "İskəndərin buynuzu var, buynuzu! İskəndərin buynuzu var, buynuzu!"

Nə deyir bu nağıl? Sirr yerdə qalmaz? Bəli, sirr yerdə qalmaz.

Bəs o buynuz nədi? Necə yəni "İskəndərin buynuzu var?" Divdi nədi İskəndər?

Bəli divdi, qaniçəndi.

Fars təbəələri Qrek İskəndərin adını göylərə qaldırıblar. "Peyğəmbərdi" deyiblər. Çünki İskəndər farsa hakimiyyət verib, bizim qanımızı içib!

Öyrənin, çalın Cümrü qağanızın payladığı tütəkləri. Həqiqət havası çalın! El-oba içində deyəmməzsiniz, heç olmasa öz-

özünüzə deyin: "Stalinin buynuzu var, buynuzu! Stalinin buynuzu var, buynuzu!"

Zəmanəmizin İskəndər Zülqərneynidi Stalin. İskəndər öz zamanında neyləyibsə, Stalin də onu eləyir: qanımızı içir!.. – Məsi yenə inildədi: – Doymur Div! Doymur!..

Hamımız xoflanmışdıq.

Mən hətta üşürgələnirdim: "Necə yəni qanımızı içir?! Rəhbərimiz, Ali Baş Komandan Stalin bizim qanımızı içir?! Direktor Tahirin, Nur Məhəmməd babamın qanlarını içən ağaları, bəyləri qırdıran Stalin bizim qanımızı içir?! Qurban əmi – Qılınc Qurbanın səcdəgahı Stalin bizim qanımızı içir?!"

Məncə, uşaqlar da elə bu cür, içərilərində danışa-danışa qalıb, istəkli naxırçımız, "vərəmli gədəyə", şümşəd çalan "bədbəxt sinfi düşmənə" etiraz edə bilmirdilər.

Məsi isə susub, qaşlarını çatıb bizim halətimizə baxırdı. Hərdən köksünü ötürürdü, öskürürdü. Əlini ağzına tutub ağır-ağır nəfəs alırdı.

– Belə getmiyəcək... Ayılacaqsınız... Ayılacaqsınız, – deyirdi. Sonra yenə susub, yenə öskürüb, əlini ağzının üstünə tutub, elə bil bizdən kiminsə nə isə deməyini gözləyirdi. Əmma uşaqların donu açılmırdı ki, açılmırdı. Hətta Tapdıq da, kərənin üstündə ikiqat olub, dizlərini qucaqlayıb, dodaqlarının arasında sönmüş eşməsi kimi, özü də sönmüş-soyumuş, hər şeyə laqeydləşmiş kimi görünürdü.

Cümrü də hərəkətsizdi. Əmma ay aydınlığında aydın görürdüm ki, qağamızın yenə də gözləri titrəyirdi, üzü əyilirdi.

Qışqırtısı elə gözlənilməz, elə heybətli oldu ki, hamımız diksindik.

– Niyə dillənmirsiniz?! Niyə dillənmirsiniz?! Niyə dillənmirsiniz?! – Azı beş dəqiqə "Niyə dillənmirsiniz?!" – deyə-deyə qışqırıb-bağırıb, dümağ olub suya batdı. Sonra, burda ilk dəfə tütəklərimizi bircə-bircə ciblərimizdən, kəmərlərimizin altından çıxarıb, dodaqlarımızın arasına soxa-soxa taqətsizlikdən titrəyə-titrəyə daha heybətli oldu. – Çalın! Niyə çalmırsınız?! Həqiqət havası çalın! Həqiqət! Stalinin buynuzu var, buynuzu! Stalinin buynuzu var, buynuzu! Çalın!..

Çalmağı bacarsaydıq da, əlbəttə, çalmazdıq.

Lap təntiyib, üzülüb susdu. Əmma daha bizim yanımızda oturmadı. Özü tütəyini çıxarıb, üzünü kəndə tutub, "Rufani" çalmağa başladı. Elə bu vəziyyətdə də yavaş-yavaş, addım-addım bizdən aralandı.

Mehbalı əminin uzun qaraltısı evinin qabağında əllərini dizlərinə çırpırdı.

– Evin yıxılısın, a vərəmli! Ocağın qaralsın, a bəy! Tahirlini xaraba qoyacaqlar, ay evin xaraba qalsın! Səsini kəs onun! Sənin sözündən çıxmır, ağzını yum onun!..

Dəhşət oldu ki, Tapdıq da səsini qardaşının səsinə qoşdu:

– Stalinin buynuzu var, buynuzu! Stalinin buynuzu var, buynuzu!..

Kərənlərin yanında hələ də heç kəsin donu açılmırdı. Heç kəs dillənmirdi. Mən nə hala düşmüşdümsə yanımızda təkcə Məlikin hərdən mızıldandığını: "Biri havalıdı, o biri davalıdı", – dediyini evə gedəndən sonra xatırladım.

Gözlərimə qor dolmuşdu. Şöşü oyanıb "pəpə, pəpə"yə başlamışdı. Əmma beynimi döyəcləyən "pəpə, pəpə" ilə birlikdə Məsinin, Cümrünün, Mehbalı əminin səsləri də səslənirdi. Tapdığın qışqırtısı hamısından qorxunc idi: "Stalinin buynuzu var, buynuzu! Stalinin buynuzu var, buynuzu!.."

## HAVALI QARDAŞ

Xurcunun bir gözü dolusu buğda unu qurtarmışdı. Çuvalımızın dibi dolaması arpa unu isə eləcə dururdu. Çünki səhərdən axşama qədər arpa çörəyindən ancaq tək biri kəsilirdi, o da demək olar ki, heç yeyilmirdi, nə anam bir əlcədən artıq yeyə bilirdi, nə də mən. Şöşü isə anamın zorla yedirtdiyi pencərdən – "əvən kövənci", "unnuca" sıxmasından sonra həmin vaxtda – gecənin yarısında oyanıb "pəpə, pəpə"yə başlayanda, quru-taqqanaq çörəyi əlindən salıb bir tikə də yemirdi.

Belə gecələrdən birində Şöşü "pəpə, pəpə"sini dəhşətli inadla sızıldayanda mən daha heç cür dözə bilməyib, taxtdan atılıb, nəyin bahasına olursa-olsun buğda çörəyi tapmaq fikrinə düşdüm və eşiyə çıxar-çıxmaz gözüm Mehbalı əminin həyətində ocağa dirəndi.

Bizim evin arxası gündoğana, "ağ yel" deyilən şiddətli küləyə qarşı idi, qabağı "qara yel" deyilən, həmişə bulud, yağış gətirən asta küləyə qarşı, Mehbalı əminin evi isə tərsinə – üzü ağ yelə tikilmişdi ki, istəkli qonşusu Tahir müəllimlə "həyət-həyətə" olsun.

Bizim həyətlə çardağın altındakı ocaq yeri ilə Mehbalı əminin həyətində çardağın altındakı ocağın arası, sanamışdım, düz yüz addım idi. Gecələr o həyətdə, o çardağın altında ocaq qalananda orda, necə deyərlər, adamın dişləri sananırdı. Buna görə də eşiyə çıxar-çıxmaz Mehbalı əmi ilə Cümrünün əllərində qarğı qaşıq, qatıq doğraması yediklərini və süfrədəki bütöv çörəyi görüb, ayaqlarım o tərəfə getməsə də, istər-istəməz, məhz o tərəfə meylləndim.

Əmma getmədim. Şöşünün sızıltısından aralanıb, El yolunun qıraqlarında, Məlikgillə Bolugilin qarğıdalı əkinlərinin səmtindəki kimsəsizlikdə, sonra yenə o süfrədəki o çörək səmtində, hərdən ayaqüstə mürgüləyə-mürgüləyə üfüq ağarana qədər gəzindim. Bir də o vaxt ayıldım ki, çörək çantam çiynimdə idi, uzun hoqqar Qalayçıoğlu ilə Mehbalı əminin arasında gedən Cümrüyə, daha doğrusu, Cümrünün papaq götürməyən topasaçlı başına və kürəyinin heyrət doğuran qeyri-adi eninə tamaşa edə-edə işə gedirəm. Yeridikcə beynimin qapağı tərpənirdi, zoqquldayırdı, Şöşünün səsi: “Pəpə, pəpə!”, “A mənə pəpə!” – deyirdi və mən Cümrünün kürəyinə baxa-baxa o süfrədə o çörəyi görürdüm.

Sağ-solumda, arxada kimlərinsə toz layı içində küt ayaq səslərini eşidirdim. Ağladığımı görən vardımı? Vardısa, niyə soruşmurdular ki, niyə ağlayırsan? Görən yoxdusa, niyə yoxdu? Hərə öz dərdini çəkirdi? Əlbəttə... Fikirləşdim ki, on beş yaşlı kişilər deyəsən heç kişiləşə bilmirdilər. Həqiqətən kişi olsaydılar, öz-özünə axıb ağzına dolan selə laqeyd qalardılarmı? Şapqasının qabağındakı ulduzu kimi parıltılı, qəzəbli gözlərlə atın belindən Cəbrayıla baxıb: “Bu ev kimin evidi?! O göynəyən uşaq kimin uşağıdı?!” – deyən Qurban əmi – Qılınc Qurbanın kişiliyinə bərabər bircə kişi olsaydı, “Bu ağlayan oğlan niyə belə ağlayır?” – deyən tapılsaydı, əlbəttə, Şöşü bala bu dəfə də səsini kəsərdi. Kişi nədi, on beş yaşlılar bəlkə hətta adamlıqdan çıxmışdılar. Qalın toz layı içində ayaqları küt-küt tappıldayan adamlar elə bil heç biri-birindən əziz məktəb yoldaşlarım deyildilər, Mehbalı əminin, Qalayçıoğlunun, Cümrünün, analarımızın, qız-gəlinlərimizin ayaqlarından qalxıb havada asılan toz içində, səssiz-ünsüz qaraltılardı. Məhsulumuz o yekə maşınlara doldurulub aparılandan, Cəbrayıl tutulandan sonramı belə olmuşdular? “Sinfi düşmən”in dilindən elə sözlər eşidib, Ali Baş Komandanımıza, direktor Tahirlə Muxtar əminin, Qılınc Qurbanın,

müəllimlərimizin dillərinin əzbəri Stalin adına yaxın da gəlməyən o sözlərə etiraz edə bilməyəndən sonramı belə olmuşdular?.. Kimdir o nəhəng "Zor nəçənnik?! Kimdilər o boyunluqları "kubik"lilər, Cəbrayıla silah çəkənlər?! Məliklə Revaz doxdurun Qılınca, Qılıncın Sultan Əmirliyə şikayətindən niyə cavab çıxmırdı?! Hərbi fondun taxılı ilə birlikdə kolxozun – camaatın taxılını silib-süpürüb aparanlar, üstəlik, o mərd, o igid sədri də aparanlar niyə heç qorxmurdular, çəkinmirdilər ki, bu görünməmiş ədalətsiziliyi nəinki Bakıya, lap Moskvaya, Ali Baş Komandanın özünə yazan ola bilər?! Doğrudanmı "əsgər acdır?!" Acdırsa, Cəbrayıl niyə etiraz eləyir?!

Zoqqultulu başımdan nə "pəpə, pəpə" çıxırdı, nə də "pəpə" ilə bağlı cavabsız suallar.

Şum yerindəki seyrək palıd ağaclarından birinin kölgəsinə çatanda yerə döşənib, bütün günü döşəli qaldım. Çörəyimi yarpız çayına batıra-batıra yeyib, hələ də zoqquldayan beynimdə "pəpə, pəpə" kəndə qayıdanda da evə baş salammadım.

Yenə də o ocaq, o süfrə səmtində gəzinirdim.

Mehbalı əmi ocağın yanında bozaran kilimin üstündə, mütəkkəyə dirsəklənib mürgüləyirdi. Cümrü süfrənin qırağında hərəkətsiz oturmuşdu. Bir azdan qarı "qatıq sərnici" dediyi, gümüş kimi ağ, balaca sərniclə iki dərin dəmir cam, iki qarğı qaşıq, üç xamralı çörək gətirib o süfrəyə qoymalı idi, Mehbalı əmi mürgüdən oyanıb Cümrünün qaşığı ilə Cümrünün camına öz qaşığı ilə öz camına qatıq qoyandan sonra çörəyin birini Cümrünün camına, o birini öz camına doğramalı idi. Gecə yarıdan keçəndən sonra, kənd yuxuda olanda o süfrənin qırağına bir başqası da gəlib o çörəkdən bir parça yeyib, büzüşüb qardaşının böyründə yatırdı!

Alaqaranlıqda, böyrümdə eşmə işıldadı.

– O çörəyə baxırsan?

Diksindim.

– Yox! – dedim.

– Baxırsan!.. – Tapdıq bu dəhşətli kəlməni bir neçə dəfə təkrar edib, necə səssiz addımlarla gəlmişdisə, eləcə də getdi...

Sürməli müsibətindən üç-dörd gün sonra zəncirlərimizi arabaya qoyub aparıb Baş kənd Qurbanlının dəmirçixanasında düzəltdirib qayıdanda Mehbalı əmi hardansa arabaya gözləri açılmamış boz bir küçük qoyub evə gətirmişdi. Yazıq sonsuz qarı küçüyü arxa

salıb toz-torpağını yuyanda məlum olmuşdu ki, küçük boz deyil, qumraldır, boynu, başı qaraya çalır.

Qarı baxıb: "Qarabaş", – dedi. Və küçüyün adı Qarabaş oldu.

Günlərin birində Mehbalı əmi cibindən ülgüc çıxartdı. Qarabaşı dizlərinin arasında sıxıb, qışqırda-qışqırda qulaqlarını kəsdi. Qarı xəkəndazı götürüb ocağın qırağından qızğın qorla doldurdu və gətirib küçüyün yaralı qulaqlarının üstünə səpdi.

Qarabaşdan tükürpərdici çığırtı qopdu.

O gün, o gecə və səhərisi küçüyün zingiltisi ara vermədi.

Gah divar dibində, toyuqların eşələndiyi çuxurlara qısılıb yaxınlıqda adam görəndə titirəyə-titirəyə zarıyırdı, gah da yeridikcə qalxıb-düşən yumşacıq qulaqlarının əvəzində qalmış güdmülləri otaələfə sürtə-sürtə, evin dövrəsində vurnuxub, başının üzərində buludtək qaynayan milçəklərdən yaxasını qurtarmağa çalışırdı.

Bir axşam küçük gəlib bizim eyvana çıxmışdı. Əllərilə başını qucaqlayıb, dirəyin dibində sızıldayırdı.

Gözlərim doldu. Küçüyü qucağıma aldım və birdən fikirləşdim ki, bunu aparmağı bəhanə eləyib Mehbalı əminin həyətinə getsəm nə olar?

Getdim.

Tapdıq da ordaydı. Çörəyini yeyib, dizlərinin üstünə yoğun, sarıqızılı qamışlar qoyub, firəngi[1] ilə qamışların qabıqlarını soyurdu.

Mehbalı əmi kilimin küncündə bardaş qurmuşdu. Onun da dizlərinin üstündə bir dəstə təzəcə kəsilib gətirilmiş qamış vardı. Qoca kəmərinə qayışla bağlı bıçaqla qamışın başını, ayağını kəsirdi, qabığını təmizləyib ocağın alovuna tuturdu. Qamış tünd palıdı rəngə düşüb, ordan-burdan pələng dərisi kimi xal-xal olanda, Mehbalı əmi onu Cümrüyə ötürürdü.

Mən niyə birtəhər idim, Cümrünün üzümə baxmağa niyə cəsarət etmirdim?

Küçüyün qulaqlarının diblərini sığallaya-sığallaya elə hey süfrəyə üst-üstə yığılmış boş camlara baxırdım.

Mehbalı əmi sallaq qaşlarını sallayıb yalnız əlindəki qamışla məşğul olsa da, mənə elə gəldi ki, fikri məndədir.

---

[1] Fransa ilə ticarət zamanlarından qalmış bıçaq

Küçük qucağımda zığıldayıb əlimi yaladı. İndicə gördüm ki, yazığın yaraları şişib. Sükutdan sıxıla-sıxıla nə isə bir söz demək xatirinə dedim:

– Olmazdımı bunun qulaqlarını kəsmiyəydin?

Mehbalı əmi nədənsə narazı fısıldayıb dedi:

– Olmazdı.

Yenə də nə isə demək xatirinə dedim:

– Niyə olmazdı?

Mehbalı əmi bu dəfə lap bərk fısıldadı.

– Müəllim oğlu olanda yəni kənd uşağı deyilsənmi? Bilmirsənmi itin qulağını niyə kəsirlər? Kəsilməsə itlərnən boğuşanda qulağı dişə keçər!

Cümrü böyrümdə dərindən nəfəs aldı, köksünü ötürdü. Onun beləcə, bizim hamımız kimi köksünü ötürməsi mənə çox qəribə gəldi. Demək nə isə düşünürdü? Demək bizim hamımız kimi nəyinsə dərdini çəkirdi?.. Cümrü qağamız əvəzində böyrümdə tamam başqa, ordları Məsinin ordları kimi çökmüş, sifəti uzanmış, göz qapaqları şişmiş yad, anlaşılmaz bir adam oturmuşdu. Köksünü ötürməsi, Mehbalı əminin hərəkətlərindən heç də fərqlənməyən adi hərəkətlərlə əlindəki firəngi ilə qamışı təmizləməsi, sevindirmək əvəzinə, məni vahimələndirirdi. Dəli deyildi?! Havalanmışdı?! Bəs gözləri niyə titrəyirdi, üzü niyə əyilirdi?!

Qarabaş qucağımda bir də zığıldadı. Ehtiyatla qulaqlarının dibini sığalladım. Yenə də sükutdan sıxıldım. Dedim:

– Bəlkə bunun qulaqlarına bir şey sürtək?

Mehbalı əmi dedi:

– Nə sürtəcəksən?

Dedim:

– Nə bilim, qatrandan-zaddan. Heç olmasa çivin[1] yığılmasın.

Mehbalı əmi hey narazı fısıldayırdı.

– Lazım deyil. İt ağrıya tablı olmalıdı.

Mənə elə gəldi ki, Mehbalı əmi küçüyü bəhanə eləyib gəldiyimi də duyur və elə buna görə belə acıqlı-acıqlı "it ağrıya tablı olmalıdı" deyir.

Mən – it?! Əlbəttə! İtdən də pisdim! Mehbalı əmi belə şeyi götürərdimi?!

---

[1] Ç i v i n – milçək

Bu cür dəhşət içində, birdən Cümrünün həmişəki köhnə – diqqətli baxışını üzümdə hiss etdim:

– Şöşü oyanıb yenə?

Özümü necə itirdimsə, necə axmaqladığımı bilmədim:

– Qağa, sən də eşidirsən onu?!

Cümrü dillənməyib başını qamışın üstünə endirdi.

Tapdıq bozardı:

– Kar deyil!

Belə qəfil bozluq-sərtlik məni daha da sıxdı. Qan-tər içində dedim:

– Mən nə sürtüm indi bunun qulaqlarına?

Demə, Mehbalı əmi hövsələdən çıxıbmış:

– Əşi, nə yapışıbsan bu küçüyün quyruğundan, ay rəhmətliyin nəvəsi! Qoymazsan dərdimizi çəkək?!

Gözümün qabağında, təzəcə düzəldilmiş bir tütək gördüm. Ocağın oynaq işığında Cümrünün dodaqları da titrəyirdi.

– Apar ver Şöşü balaya... oyananda... Çal, qulaq assın. Sonra öyrət, üfürsün.

Qağamızın bizdən uzaqlaşdığını, yadlaşdığını, hər gün hər yerdə görüb nə qədər sarsılırdımsa, indiki bu sərbəst danışığından bir o qədər çox sarsıldım: ağlı başında idisə, bu sifətin sahibi nələr çəkirdi?!

Cümrünün çənəsinin sağ-solunu qara, sıx saqqal basmışdı. Gözlərinin altı çökmüşdü, yanaqlarının sümükləri qabarmışdı. Boğazında seyrək, qara tüklər arasında iri hülqumu ağarırdı. Mənim tanıdığım, sevdiyim, bircə baxışından ürəyini oxuduğum qağamız yox olmuşdu, əvəzində, öz qapalı dünyasında yaşayan, yalnız cismən mənə yaxın olan bir adam meydana gəlmişdi. Mənim tutulub, qapanıb qalmağıma da qəribə diqqətlə baxıb, birdən tütəyi dodaqlarımın arasına soxdu.

– Çal!

Başımı aşağı saldım. Dedim:

– Çala bilmirəm axı.

Tapdıq da bir tərəfdən:

– Çal! – dedi. – Hamı öyrənir, çalır! Çala bilmiyənlər də çalırlar. Sən niyə çalmırsan?

Arada Mehbalı əminin deyintisini də eşidirdim:

– Çal deyirlər çal də. Görmürsənmi məni də qoşublar özlərinə. Hər axşam qarğı-qamış arıtlayıram tütək düzəldirəm! Naxırçı bəyimiz məni də bədbəxt eliyəcək siznən bir yerdə. Neynəyim? Elnən gələn toy-bayramdı deyirlər. Olsun! İskəndərin buynuzunun yerinə ayrı buynuz deyək, gəlsinlər kürüsünlər, aparsınlar hamımızı! Dünənəcən pis adamlarıydı milləti güdaza verənlər, indi yaxşılar da pislərə qoşulublar! Bolşevik Muxtarın oğlu Tapdıq nə deyir gör: "Stalinin buynuzu var!" Bolşevik Tahirin oğlu niyə qıraqda qalsın?!

Mehbalı əmi ümumiyyətlə deyingən olsa da, bu dəfəki deyintisi qurtarmırdı.

Cümrünün gözləri tir-tir əsirdi.

Əlacsız qalıb, tütəyi dodaqlarıma yapışdırıb var gücümlə pilədim, dillərin üstündə barmaqlarımı oynatmağa çalışdım. Tütəkdən necə əcayib, həm də məzəli səslər çıxartdımsa, əvvəlcə Tapdıq güldü, sonra Cümrü, sonra isə, hətta qocamız qəh-qəhə çəkdi.

– Allah səni güldürsün, ay müəllim oğlu!

Cümrü əlini çiynimə şappıldatdı.

– Çal!.. Çal!..

Heç bir havacata uyğun gəlməyən hamanca əcayib səslərlə hər üçünün beynini dəng eləyə-eləyə bir xeyli "çaldım".

Nəhayət, Mehbalı əmi əlindəki qamışı tütəyin üstünə vurub:

– Yaxşı, bəsdi, bəsdi, – dedi.

Tütəyi dodaqlarımdan aralayıb Cümrüyə sarı uzatdım. Yenə gözləri titrədi.

– Mənə niyə verirsən?

– Bə kimə verim?

– Şöşü balaya! Dedim ki, ona ver bu tütəyi üfürsün. Biz qoymarıq Şöşü bala ağlasın!

Qağamız tamamilə sağlam bir adam kimi danışırdı və bu, lampa işığını əvəz edən ocağın işığında işıldaşan qamışlarla, hamıya paylanan tütəklərlə "Stalinin buynuzu var, buynuzu!" – qışqırtısı ilə heç uyğun gəlmədiyinə görə, "qaniçən" kəlməsini Məsinin dilindən eşidəndə necə üşürgələnmişdimsə, indi də eləcə üşürgələnib, Cümrü əvəzində elə bil heybətli qaçaq Dağdağan Alıya baxdım. Necə yəni "Biz qoymarıq Şöşü bala ağlasın?!" "Tamamilə sağlam" – "ağlı başında" qağamız dəli deyildisə, bəs bayaqkı o "çal, çal" nə idi?!

Ocaqda saqqız odunu yanırdı. Qıpqırmızı köz alovun altından sürüşüb, yayılıb köhnə ağ küllüyə yığılmış qamış qabıqlarını da alışdırır, ətrafımız aydınlaşırdı, bir az kənarda isə qaranlıq qatılaşırdı. El yolunda, toz içində küt tappıltılar eşidə-eşidə Qalayçıoğlu ilə Mehbalı əminin arasında gedən Cümrünün kürəyinə baxa-baxa gözlərimdən sel axıdanda tənhalığımı xatırladım və qamış qabıqlarının alovu ilə qaranlıq arasında gəzən gözlərimdə yenə də hamanca selin ilk damcılarını hiss etidm. Çünki qara dərin dəmir cam üstündə bir dənə də xamralı buğda çörəyi gətirib, dizlərimin qabağına qoyub, "ye", – deyib gedən qarı qağamız barədə fikirləşdiklərimi dağıdıb, bütün varlığımı Şöşüyə, elə bil lap uzaqlardan qərib durna səsi kimi gələn "əppək, əppəyə" bağlamışdı.

Küçüyü qucağımdan götürüb kilimin küncünə qoyub, qamış qabıqlarının alovunun işığından qaçmağa, yəni üzümü gizlətməyə tələsdim.

– Ey!.. Noldu?! Qarı qismət qoyub bura! – Mehbalı əminin səsi idi.

Elə bil pıçıldaşdılar. Sonra Tapdığın səsi gəldi:

– Əylən! Qağamı gözlə!

Güman elədim ki, bayaq "biz qoymarıq Şöşü bala ağlasın" deyən qağamız indi o çörəyi də gətirir.

Demə, bayaq evdən çıxanda qapını açıq qoymuşam.

Müharibə xəbəri çıxandan sonra koprativin, yəni yeganə dükanımızın qabağındakı "boçka"da – çəlləkdə neft yoxa çıxdığına görə, Ağtəpə, Qaratəpə bazarlarından "od qiymətinə" doldurduğumuz altı litrlik neft qabımız boşalanda anam lampanı yalnız axşamlar bir-iki saatlığına yandırıb söndürürdü. Buna görə də hələ eyvana çatmamış, açıq qapıdan içəri boylananda yeddiillik lampamızın sarımtıl işığını görüb başa düşdüm ki, kibrit dənəsinə də qənaət etdiyimz halda, gecənin bu vaxtı lampanın yanmağı boş-boşuna deyil. Revaz doxdurun balaca boyunu, bir az irəli əyili boğazını, uzun burnunu lampanın altında, atamın xırdaca yazı stolunun yanında görəndə nəinki Cümrünü, hətta bayaq "qərib durna səsi"nə oxşatdığım səsi də unutdum: anam xəstələnmişdi?! Revazı kim çağırmışdı?

Özümü içəri salıb anamı ayaq üstə, sağ-salamat görüb, diksinib Şöşüyə baxıb Şöşünü də öz daimi yerində sağ-salamat görüb, gözlərimi Revazın üzünə dikdim. Əmma həkimimizin üzündə

həmişəki, adi yorğunluqdan-üzgünlükdən başqa heç nə görmədim. Kəndin arasında, çöllərdə-sahələrdə necə burnu uzunu – yerə baxa-baxa gəzirdisə, indi də eləcə çıxıb getdi. Demə, bir vaxt Qurban əmi – Qılınc Qurban necə Şöşünün səsinə gəlmişdisə, Revaz da eləcə, səsə gəlibmiş. Uşağın xəstəlikdən-filandan yox, aclıqdan ağladığını başa düşüb, indi gedir ambulatoriyadan çörək gətirsin.

Anamın gözləri qupquru, göyümtül şüşə kimi idi. Sifəti avazımışdı. Elə soyuq, elə laqeyd danışırdı ki, elə bil söhbət lap adi bir şey üstündə idi. Yazıq, bədbəxt, həssas, incə anam da bədbəxtliyinin son həddində kütləşmiş kimi görünürdü.

Necə yüyürdüyümü, El yoluna doğru gedən balaca qaraltıya çatıb, Revazın iri, ağır, tüklü əllərini qamarlayıb necə öpdüyümü, necə yalvardığımı bilmədim.

– Qurbanın olum, ey gözəl insan! – deyirdim.

– Lazım deyil çörək! Gətirmə! Cümrü gətirdi. Vallah, var! Gətirdi! – deyirdim.

Yazıq Revaz da elə bil eynilə anam kimi, bədbəxtliyin son həddində, soyuq-soyuq: "Hə, yaxşı... Hə, yaxşı", – deyirdi.

Evə qayıdanda elə hey gözlərimi silirdim. Yoldaşlarımın fikrincə "direktorun kitab tərəcəsindən kitab oxumaqdan savayı, əlindən heç nə gəlmiyən", zəif, aciz "müəllim oğul"luğuma görə, özümə nifrət edə-edə, üzümü anamdan gizlətməyə çalışıb, taxtın qabağında hərəkətsiz duran Cümrüyə doğru getdim ki, Şöşünün səsini kəsən qağamıza da nə isə deyim. Əmma... çörək əvəzində, Şöşünün əllərinin arasında qarabaşı görüb, duruxub, sonra qəribə, anlaşılmaz sevinclə güldüyümə özüm də məəttəl qaldım.

Qarabaş Şöşüyə baxırdı, Şöşü də Qarabaşa. Şöşü qarnı dingildəyə-dingildəyə güldükcə elə bil Qarabaş da gülürdü.

Məsinin şümşədi kimi uzun, yoğun qamış tütək astadan səslənəndə Şöşü ilə birlikdə Qarabaş da Cümrüyə baxdı. Bir az sonra ikisinin də gözləri süzüldü.

Dərd içində məni də yuxu tuturdu. Cümrü hələ də asta-asta çalırdı.

Səhərə yaxın açıq pəncərənin arxasında, tut ağacının sağsolunda üfüq ağaranda Tapdığı qağamızın böyründə gördüm. Eşməsi dodaqlarının arasında, sifəti dümağ, gözləri qıp-qırmızı, qaşları düyünlü dayanıb Cümrünün çalıb qurtarmasını gözləyirdi...

Birdən-birə məlum oldu ki, "düzü-dünyanı", yəni hər yeri şumladığımıza baxmayaraq, az-maz arpa toxumluğundan başqa, səpin üçün bir çuval da taxılımız yoxdur. Mehbalı əmi, Qalayçı-oğlu, Revaz doxdur, bir də Qadı kişi kimi çox yaşlı qocalar, yığışıb əvvəlcə MTS-ə getdilər ki, gələn il "naturplata" ilə bir yerdə qaytarmaq şərtilə borc toxumluq alsınlar. Demə, o üç nəfər pis adamdan biri elə MTS-in direktoru imiş; qocalarımızın Tahirlidən, "Cəbrayılın kolxozundan" olduqlarını eşidəndə əlini naqana atıb: "Bir də ayağınız dəyməsin bu kabinetə! Stalin yoldaşı təhqir eləmisiniz! Elliknən sürüləcəksiniz!" – deyib.

Qocalar raykoma, Sultan Əmirlinin qəbuluna gediblər ki, bəlkə katibin özünün xahişilə kolxozlardan toxumluq yığsınlar, əmma orda da o üç pis adamdan birinə – MTS "Politatdelinin[1] nəçənniyi" ilə rastlaşıblar; o da əlini naqana atıb: "Nə hünərnən gəlibsiniz rayoma? Sultan Əmirli sizə toxumluq versə, onu da siznən bərabər sürərik!" – deyib. Qocalar öz aralarında məsləhətləşiblər ki, NKVD-nin həyətindəki dustaqxanada "yatan, gözləyən" Cəbrayılla görüşüb məsləhət alsınlar. Əmam orda o üç pis adamdan lap pisi – Zor nəçənnik özü naqana əl atıb: "Yurdunuzda turp əkdirəcəm!" – deyib.

Bu hadisədən sonra əlimiz işdən soyudu.

Qurban əmi – Qılınc Qurban Sovetliyin o biri kəndlərindən ayağını çəkib, bizim idarədə oturub sədri əvəz eləyirdi. Səhərlər, axşamlar hirsindən qarala-qarala qışqırırdı ki, "Pambığı kolun üstə qoymaq cinayətdi! MTS-in Politatdeliynən NKVD bura vayenni tribunal gətirəcək". Bilirdik ki, Qılınc Qurban düz deyir. Əmma hamı eyni sözləri təkrar edirdi: "Toxumluq versinlər!" "Cəbrayılı buraxsınlar!"

Sıxıntı, üzüntü içində, bir səhər ertə biri-birindən gözlənilməz xəbərlər yayıldı: Məsi qaçıb Dağdağan Alıya qoşulub; Qurban əmiyə tapşırıq verilib ki, "istrebitelni batalyon"u səfərbərliyə alıb qaçaqları tutsun; Mir Cəfər Bağırov Sultan Əmirlini Bakıya çağırıb töhmət verib, əmr eləyib ki, "naxırçı Məsi" adı ilə gizlənən təhlükəli

[1] Siyasi şöbə – ən yüksək həkimiyyəti təmsil edən partiya təşkilatlvrından da üstün salahiyyətləri olan operativ orqan

sinfi düşməni himayə edən adamların, o cümlədən Qılınc Qurbanın “silistə” çəkilməsinə özü cavabdeh olsun; əgər Qılıncı tutdurmasa Sultan Əmirlinin özü məsuliyyətə alınacaq... Bu xəbərləri kəndin arasına dağılmış naxırı buzovlardan ayırmağa çalışan yoldaşlarımdan eşidib, qara inəklə danası qabağımda, həyətə qayıdanda Məliklə rastlaşdım və daha qorxunc bir xəbər də eşitdim:

– Tapdıqnan Cümrü də qaçaq düşəcəklər. Dağdağan Alı ismarıc eləyib ki, əl-ayağı tutan gəlsin silah verim, Türkiyəyə keçirim. Yoxsa eşalona basıb sürəcəklər hamını! Kənd xaraba qalacaq, deyib, nemes kəndi təki...

Məlik özü də Dağdağan Alıya qoşulmaq fikrində idi.

– Əmbə heç bilmirəm anamdan, bacımdan ayrı dözərəmmi, Nuru? Tapdığa dedim bəlkə elə arvad-uşaq da getsin biznən. Sibirdə çürüməkdənsə, sərhəddə qırılmaq yaxşıdı. Əsmət xalaynan danış, Nuru. Anan razı olsa, mən də danışaram anamnan, deyərəm direktorun qucağı körpəli arvadı da gedir, sən niyə getmiyəsən...

İnəklə dana cığırdan burulub Mehbalı əmigilin qarğıdalısına girirdi. Əvvəllər mən belə şeylərə yol verməzdim, kəmərimi açıb qara inəyi döyməkdən də çəkinməzdim. İndi isə, birdən-birə hər şey gözümdən düşdü. Heyvanları Mehbalı əmi ilə qarısının min bir əzabla becərdikləri qarğıdalının içində qoyub evə tələsdim ki, görüm anam bilirmi bu xəbərləri, nə fikirləşir, nə deyir?

Əmma anamın əvəzində gözlənilməz bir adamla, eyvanda məni gözləyən “soyğunçu dayı” Molla Gülənlə danışmalı oldum.

“Soyğunçu dayı” Molla Gülən kəndimizin ən uzun adamı Qalayçıoğlundan da uzun idi. Burmabuynuz qoç kəlləsinə baxa-baxa dirəyin yanında dirək kimi durmuşdu. Mənə elə gəldi ki, o kəlləni aparmaq istəyir. Əmma, demə “soyğunçu dayı” bu dəfə daha qiymətli şeylər üçün gəlibmiş.

– Anan o qara kağızı göndərilən, allah yanında üzü qara bolşevikinizin sovxasını qıymır mənə. Ağzı dualı bəndəyə qıyılmıyacaqsa, kimə veriləcək o günahkar bəndənin pal-paltarı?! Genə soyğunçu deyir can-ciyər dayısına! Sən də anan təki qıyımsızlıq eləsən sovxa sandığının qıfılını sındıracam. Çünki, əslində, mənasız gəlməmişəm. Komsomol Tahirin naqanı hökumətə təhvil verilməlidi! Gəl, sovxa açarı al anandan, aç o sandığı! Naqan nədi,

“soyuq silah” deyilən xançal, bıçaq da yığışdırılır bu kənddən! Könüllü ver, dokumentə yazılsın ki, könüllü təhvil verdi. Yoxsa, xatası var. Gəl!

Mən duruxub, atamın hər şeydən, hətta tərəcədəki kitablarından da qiymətli, demək olar ki, müqəddəs saydığı naqanını tələb edən adamın qara üzünə baxa-baxa qaldım.

– A gədə, eşitmirsənmi?! Verməsən, xatası var deyirəm! Qardaşım özü gəlsə, pis olar!

Nə qədər təəccüblü olsa da, Molla Güdən dayının bir bacı ilə bacı qızından başqa qardaşı olduğunu birinci dəfə eşidirdim.

– Zor nəçənniyin zoruna bələdsən ki! Qohum-qardaş tanımır mənim o zır qardaşım! Söz vermişəm ki, kənddə qohum-əqrəbadan özüm yığacam silahı. O kafirinizin naqanını burda qoysam, mənim özümü də damlıyar ey, bala! Hökumətin göstərişi var! Gəl xoşluqnan ver. Yoxsa, qıfılı sındıracam!

Eyvanımızın bir tərəfində buxarı vardı. Qış aylarında çardağın altındakı ocaq yeri əvəzində anam buxarıya od salırdı, yazda, yayda isə damımızdan sərin hava çəkib eyvanımızı yaylağa döndərən buxarının çökəyinə sacayağı, sac, oxlov, maşa, dəhrə və sair belə-belə şeylər yığırdıq. Soyğunçu dayı heç də hədə ilə yox, sakit qətiyyətlə “sındıracam” deyib, ağır-ağır gedib buxarıdakı dəmir şişlərdən birini götürəndə mən də istər-istəməz o tərəfə yönəlib, buxarının böyründəki küncdən yabamızı götürdüm və nədənsə onun sakit qətiyyətini təqlid elədim.

– Sandığa yaxın getsən bu dörd barmaq yabanın barmaqlarını diblərinə qədər qarnına soxacam! – dedim. – Dəmir şişi qoy yerinə, çıx get, – dedim. – Necə vaxtdı başa düşəmmirəm nə təhər dayısan sən, əri əsgərlikdə olan bacın qızının qapısından iki qoyun istədin, verdim. O iki qoyundan başqa, özgə nə aparıbsan burdan? Niyə soyğunçu qalıb adın? Qismət olar, atam qayıdar, özü soruşar səndən. İndi get, bir də bu tərəfə ayaq basma – dedim.

Anam kandarda əlləri üzündə donub qalmışdı.

Soyğunçu dayının isə, deyəsən, heç tükü də tərpənmirdi. Ağır-ağır yeriyib, yabanın sapını qoşa ovuclarımdan asanca çəkib çıxarıb, küncə tullayıb, sol əlinin arxasını ağzımın üstünə necə çırpdısa, qabaq dişlərimin xırıltısını eşitdim. Ağzım qanla dolub yaxama, yerə töküldü.

Nədənsə gözlərim qaralsa da, nəhəng qaraltının nəhəng əlinin anamın yaxasına uzandığını, rəngi getmiş ipək lentdən asılı açar topasını qopardığını aydınca gördüm. Soyğunçu içəridə, tutacağı səmtinə açılan pəncərənin altında əlvan naxışlı dəmirləri işıldaşan sandığın qabağında əyilib, açar topasının içindən açar seçəndə mən də içəridə idim, yabanın barmaqlarının işlənməkdən ağarmış uclarını soyğunçunun ürəyinə dirəmişdim.

Yabanı bərk basmasam da, dəmir barmaqların dibləri qızardı, qan yayılıb sarımtıl əsgər köynəyinin kürəyini islatdı.

Soyğunçu bir əli qıfılda, o bəri əli açarda, tamam hərəkətsiz qalıb, lap astadan:

– Öldürrəm, yabanı çək, – dedi.– Mənim kəsdiyim başa sorğu yoxdu, a başın batsın, – dedi.

Qıçlarımı titrətmə götürdü. "Əlini çək sandıqdan, qalx, çıx get" demək istədim, dilim söz tutmadı. Ömrümdə belə hala düşməmişdim. Bir gözüm soyğunçunun qızartısı artan kürəyində, bir gözüm anamda, deyəsən, nə isə bir məsləhət, kömək gözlədim.

İndi təsəvvür edin ki, bu vəziyyətimdə qarabaşla Şöşünü yanımda gördüm. Sonra soyğunçunun əlinin uzanıb Şöşünün boğazını qamarladığını gördüm. Anam hıçqırıb, kandardan üzü bəri, yerə sərildi. Yabanın sapını buraxıb, başdan-ayağa titrəyə-titrəyə, anamı qucaqlayıb arxasıüstə çevirib, o dəqiqə də yenə yabanı qapdım. Əmma kim isə yabanı əlimdən aldı.

O axşam Revaz doxdurun dediyi kimi, "ürəyim zəif imiş", buna görə də soyğunçunun əlini Şöşünün boğazında görəndə anam necə yıxılmışdısa, əlimdən çıxan yabanın yuxarı qalxıb-enib çırpıldığı yerdə uzun, qara qıllı biləyin şaqqıltı ilə sınıb sallandığını görəndə, eynilə anam kimi birdəncə heydən düşüb üzüüstə sərilmişdim.

Gözlərimə işıq gələndə Tapdığı gördüm. Yabanı qoltuğuna alıb, anamın yanında çöməlib dizinin üstündə saxladığı sənəkdən[1] qurtaqurt su töküb anama içirtdi.

Soyğunçu qan içində idi. Sandığa söykənib, sinəsi atlana-atlana, köynəyin biləyindən kənar bir şey kimi sallanan göyərmiş sağ əlinin ikiqat biləyinə baxırdı.

---

[1] Səhəng

Tapdıq sənəyin ağzını qanlı ağzıma, qırılıb tökülmüş qabaq dişlərimə söykəyəndə ağrıdan inildədim, "lazım deyil" demək istədim, deyəmmədim.

Bir inilti də böyürdən eşidildi:

– Mənə də su ver, a gədə!

Tapdıq sənəyin dalını qaldırıb, özü içib öskürə-öskürə:

– Sən dur süpürül burdan! – deyib, soyğunçunu dala itələyib döşəməyə yıxdı. Açar topasından açar seçib sandığımızın qıfılını açdı, atamın paltarlarının üstündən barabanında güllələrin sarı "piston"ları parıldayan "revolver"i götürüb, barmağını tətiyə saldı.

– Çıx! Sənin ananı...

Soyğunçu sol əlilə sağ əlini yerdən qaldırıb, ayağa qalxıb, səndələyə-səndələyə eyvana çıxdı. Kürəyinin qanı şalvarının dalını da qızartmışdı.

Tapdıq qana baxırdı.

– Əlinə qurban olum, a müəllim oğlu! İndi həqiqətən qeyrət dağarcığısan! – dedi.

Sonra "revolver"in barabanını fırlada-fırlada bir xeyli susub, kandara qalxıb, gedə-gedə dedi:

– Silahları yığırlar. Qurban əmi istəyəndə gizlətmə mənim apardığımı. Qoy bilsin ki, Komsomol Tahirin tapançası qaçaq Tapdığa qismət oldu.

– Qaçaq?! – Yönəlib qolundan yapışdım. – Nə danışırsan?! Sarsaqlama, Tapdıq! Muxtar Əlmədədoğlunun, Komsomol Tahirin yetirməsi qaçaq?! Qılıncımız qoyarmı sən qaçaq düşəsən?!

Cavab vermədi, Revolveri aparıb getdi.

## QILINC

Sentyabrın axırına yaxın, demək olar ki, hər il eyni ağ yel əsməyə başlayanda, qarğıdalı şaxlarını bircə, ikicə gündə sapsarı saraldıb, hətta tamam qurudurdu. Belə günlərdə "on beş yaşlı kişilər" oraqla, dəhrə ilə silahlanıb həyətyanı sahələrə cumurdular. Keçən il, müharibənin başlanmasından cəmisi üç ay keçdiyinə və "gedənlər"in, yəni səfərbərliyə alınanların yerləri hələ o qədər bilinməsə də, biçib şaxlarını bir yana, özünü bir yana yığırdılar. Bu

il, “qara kağızı” gələnlərin sayı artandan sonra, gedənlərin çoxunun evlərini “pəpə, pəpə” dəhşəti götürdüyünə görə “kişilər” “kolxozun işinə tüpürüb” gündüzləri də, ağ yelin altında vıy-vıy vıyıldayan qarğıdalının arasından çıxmırdılar. “Gecədə bir qapını” yox, indi “sutkada iki, üç qapını” biçib yığırdılar, üstəlik, qarğıdalını sərib qurumağa qoyurdular ki, tezliklə dənələyib çuvallara doldurub dəyirmana aparsınlar, üyündükcə çanaq-çanaq, yəni tez-tez gətirib arpa cadını, şirin, köyrək, sarı kəhrəba cadla əvəz eləsinlər.

Şöşü baladan iki-üç yaş böyük “Şöşü balalar” da vardı ki, bunları nə Cümrünün payladığı tütəklər ovundururdu, nə də “Qarabaşlar”. Həyətdən həyətə keçib dəhrələri, oraqları şaxlara şaqqaşaq döyəcləyən “kişilər”in külək vıyıltısına qarışan bu şaq-qıltılarından başqa bir kəlmə də eşidilmirdi. Hərdən yalnız Bolu Dağdağan Alını söyürdü.

Ağ yel başlayandan bəri gecələr soyuq olduğuna görə Mehbalı əmi ilə Cümrü daha eşikdə yatmırdılar. Tapdıq isə, revolveri, gül-ləlləri ilə birlikdə, köynəyinin qoynuna qoyduğu gündən “qaçaq damın”nda qalırdı. Məlik Tapdıqla bizim aramızda gedib-gəlib əlaqə saxlayırdı ki, Dağdağan Alıdan “gəlsinlər” xəbəri gələndə yığışıb gedib silahlanaq, Qurban əmi – Qılınc Qurbanla rəsmi danışıq aparıb razılıq alaq ki, “istrebitelni batalyonun biznən işi olmasın”, gecənin birində Tovuz-Göyçə yolu ilə kəsəsinə gedib sərhəd səmtinə toplanaq, Məsi orda bizi Dağdağana təhvil versin, Dağdağan isə bizi sərhəddin harasındasa açıq yerindən Cənubi Azərbaycana, ordan da Türkiyəyə ötürsün.[1] Məsinin yoxa çıxdığı gündən, Məlikin hər gün təkrar etdiyi bu “plan”ı əvvəlcə anam, sonra da mən “havayı söhbət” adlandırsaq da, nəinki “kişilər”, hətta qocalarımız da bu fikirdə idilər ki, “buynuz” əhvalatının axırı ya sürgün idi, ya da “o taya addamaq” – Türkiyəyə keçmək. Məhz buna görə də qarğıdalı xışıltıları içində, külək vıyıltısı altında şaq-qaşaq dəhrə, oraq döyəcləyənlər gərgin sükuta dalmışdılar. Bolunun söyüşləri sükutu daha da dərinləşdirirdi. Dinməz-söyləməz, yalnız

[1] Kəndlərdə xəbər yayılmışdı ki, “rus, erməni Politotdelçi”ləri Azərbaycanın Naxçıvan diviziyasını qırandan sonra bizimkilər nemes tərəfə addayıb, ordan da Türkiyəyə gedirlər. Əsgərlikdən qaçıb, Arazdan şığanıb o taya keçənlər də var. Əmbə ruslar Cənubi Azərbaycana dolduğuna görə orda qalmaq təhlükəlidir, gərək hökmən Türkiyəyə keçəsən”.

baxışlarla danışan “kişilər”in bir-birinə nə dediklərini mən sözsüz də başa düşürdüm: “Xəbər gedib Bağırova çatıbsa, Sultan Əmirliyə töhmət verilibsə, Qılınc Qurbanın “silistə çəkilmək” – tutulmaq təhlükəsi yaranıbsa “istrebitelni batalyon” boş durarmı?!

Növbə bizim qarğıdalıya çatanda axşama yaxın idi. Külək, nəhayət, yavaşımışdı. Anam atamın, Muxtar əminin vaxtında olduğu kimi, tutun altına gəbə saldı, mütəkkə düzdü, alov püskürən samovarı, dəmkeşində yarpız ətirli dəm çayniki ilə birlikdə gətirib siniyə qoydu, öz bağımızın bal kimi şirin yay armudundan kəsib qurutduğu qaxla dolu nimçələri süfrəyə düzüb, yalnız Muxtar əmi ilə direktorun evində salamat qalmış “Təbriz stəkanlarına”, yəni armudu stəkanlara çay süzəndən sonra, gözlənilmədən bir yekə tava dolusu “unnuca dovğası” gətirdi.

Əmma nə o çaydan içən oldu, nə də o dovğadan.

Tapdıqla bizim aramızda gedib gələn Məlik El yolu səmtindən yüyürə-yüyürə, tər içində: – Vurublar! Vurublar! – dedi. – Dağdağannan Məsini, ikisini də vurublar! Gətirirlər!

Uşaqlar gəbənin dörd dövrəsindən dik atıldılar.

Dediyi xəbərin dəhşətinə baxmayaraq, Məlik süfrəyə, samovara göz gəzdirdi.

– Kefə baxırsınız! Tapdıqnan Cümrü El yolunun ortasında qucaqlaşıb ağlayırlar, siz burda kefə baxırsınız! Məsinin, deyirlər, sinəsi deşik-deşikdi güllədən. Dağdağanın sələmət yeri yoxdu bədənində. Əvvəlcə Cəbrayıl atıb, deyirlər, sonra “istrebitelni batalyon”un yüz üzvünün yüzü də, hərəsi bir güllə atıb ki, Dağdağanın qanı tək Cəbrayılın üstə qalmasın.

Bolu bir əlilə Məlikin boynundan tutub, o biri əlini ağzına basdı.

– Hüdüləmə! Ağılnan-başnan de görək... Necə yəni Cəbrayıl atıb?! Cəbrayıl NKVD-nin türməsində... bu gün-sabah sürülməlidi camaatıynan bərabər. “İstrebitelni batalyon” hara, o hara?!

Məlik El yolunu göstərdi.

– Odu bax! İki meyitin ikisi də arabada! Dustaq sədrimiz də arabanın qabağında, çiynində beşaçılan, belində patrondaş! Dağdağanın qohumlarını dağıdır yoldan: “Yaxın gəlməyin! Sizi də onun yanına uzadaram”.

Bolu gözlərini döydü.

“İki meyidin ikisi də arabada”, “El yolunda idisə”, “dustaq sədrimiz də arabanın qabağında idisə”, “çiynində beşaçılan, belində patrondaş, Dağdağanın qohumlarını dağıdırdısa”, bunu eşidənlər Məlikin daha nə dediyinə qulaq asa bilərdilərmi? Tutun altından həyətə güllə kimi atılıb, ordan da yola cumduq. Əmma Məlik bizdən geri qalmayıb, tövşüyə-tövşüyə qışqırırdı:

– Dayanın! Qulaq asın! Siz axı bilmirsiniz iş nə yerdədi. Cəbrayıl günahsızdı! Vallah, billah! MTS-in politetdelinin nəçənniyi Moskvaya teleqram vurub ki, Azərbaycanda sinfi düşmənlər peyda olublar, antisovet təbliğat aparırlar, şəxsən Stalin yoldaşın adına təhqiramiz sözlər deyirlər, erməni millətinə mənsub olan NKVD nəçənniyi Gülənovdur camaatın arasında milli ədavət salanlar... Eşidirsinizmi?! Dotələblik eləməyin! Əvvəl bir eşidin, görün iş nə yerdədi. Sultan Əmirli Bakıya zəng vurub. Mir Cəfər Bağırov deyib “Azərbaycanın daxili işlərini Azərbaycan rəhbərliyi həll etməlidir. Moskvaya teleqramın təşəbbüsçülərini cəzalandırın”. Sultan Əmirli də çağırıb o politotdel köpəyoğluynan Zor nəçənniyi, raykomun bürosunda müzakirə eləyib, delolarına[1] yazılmaq şərtiynən partiya töhməti verib. Onlar da Cəbrayılı çıxardıblar dustaqxanadan, deyiblər “Dağdağan Aliynan “naxırçı bəyin” gizləndikləri tərəfləri iki adam yaxşı tanıyır, “istrebitelni batalyon” üzvlərinin arasında. Biri Qılınc Qurbandı, biri də sən. Gedin tapın, öz əliniznən güllələyin, meyitlərini aparın Tahirlidə, Qurbanlıda, Qonaqlıda gəzdirin, göstərin, oralarda dinc oturmuyan cavanlara dərs olsun. Xüsusən, deyiblər, naxırçı bəynən əlaqədə olanlara yaxşı-yaxşı başa salın, cızıqlarından çıxmasınlar. Yoxsa, həqiqətən sürərik hamısını”, deyiblər. Qandınızmı?! Qurban əmi çağırmışdı məni. Dəmiryolunda, Məhərin budkasının qabağında yaxamdan yapışdı, sürüdü o arabanın yanına, meyitləri göstərdi. “Budu, bax, aqibətiniz belə olacaq! – dedi. – Get başa sal yoldaşlarını, özün də yığışdır müxbirliyini-filanını!” – dedi. Nə vaxtacan belə dotələblik eliyəcəksiniz, “qeyrət dağarcıqları?!” Özümü gözə soxmadığıma görə hamınız yaddan çıxarıbsınız kimdi bu zəvzək Məlik. Bu xarabanın

---

[1] “Delo” (liçnoe delo kadra) – İdarə, müəssisə işçisinin şəxsi sənədləri. Şifahi elan edilən töhmətdən fərqli olaraq, “delo”ya yazılan töhmət ciddi cəza sayılırdı. İki dəfə yazılı töhmətdən sonra işçi partiyadan çıxarılanda daha heç vaxt vəzifəli olmurdu. Üstəlik, ləyaqətsiz adam sayılırdı.

komsomol təşkilatçısı deyiləmmi mən?! Bu əllərimnən komsomol bileti paylamamışammı mən sizə?! On dörd-on beş yaşlılarınızı on altı yaşlı yazmışam anketlərinizdə ki, təşkilatımızda komsomolçunun sayı çox olsun, sözü ötə olsun, məktəbdə, kolxozda əyri iş görənlərin əleyhlərinə əl qaldıranda hesablaşsınlar siznən! Adam yerinə qoymursunuz məni, səsimi çıxartmıram. Siz təki elə mən özüm də Cümrü qağamıznan Tapdığın sazına oynayıram. Əmbə qaydası var axı hər şeyin, a "qeyrət dağarcıqları!" Məsələnin məğzini öyrənib-bilməmiş daşa tutduq Cəbrayılı, "Əzrayıl" elədik. Mən bax bu istəkli müəllim oğlumuzu başa saldım iş nə yerdədi, umud elədim ki, qardaşlığı Tapdığın əl-qolunu yığar, siz də özünüzə yığışarsınız. Tərsinə elədi Nuru! "Əzrayıl" ha "Əzarγıl!" Davanız, qalmaqalınız dünyanı ağzına götürdü. Sədrimiznən bərabər taxılımız, toxumluğumuz da getdi. Nə yaxşı ki, atası rəhmətlik Qılıncımıznan Sultan Əmirlimiz varıymış, belə müsibətnən qaytarıblar indi sədrimizi. Səhvinizi təkrar eləməyin! Tapdığın tərəfini saxlamayın bu dəfə! Məni adam yerinə qoymur Tapdıq. Revaz doxdurnan getdik qaçaq damına, istədik birtəhər qandıraq ki, Cəbrayıl günahsızdı. Tapança çəkdi üstümə: "İtil burdan! Süpürül burdan!.." Daha dil tapammıram mən onnan. Umud sizədi!..

Ürəyim elə pis çırpınırdı ki, nə hamıdan irəlidə qulac-qulac addımlayan Boluya bir kəlmə çatdıra bilirdim, nə də Bolunun arxasınca yortanlara. Nəfəsim qarala-qarala, tək Məlikin özünə:

Mən sənin tərəfindəyəm. Sənin tərəfindəyəm! – deyirdim.

Yola çatıb dayandıq.

Dəmiryol, Məhərin budkası deyilən yer Baş kənd Qurbanlıdan o yanda – gündoğanda idi. Cəbrayılla araba və "istrebitelni batalyon"un üzvləri də günbatan tərəfdən gəlirdilər. Məlikin məlumatından məlum oldu ki, Məsi Aşağı kənd Qonaqlının sədri, Sultan Əmirlinin qardaşı Mədəd Əmirli ilə də yaxın imiş, naxırımızı Qonaqlı şumları səmtinə aparanda oralarda Mədəd kişinin kotançıları ilə də söhbət eləyirmiş – təbliğat aparırmış ki, müharibəyə aparılanda elə birinci gündən "nemes" tərəfə adlansınlar, Türkiyəyə keçsinlər. Demə Qonaqlıdan da Dağdağan Alıya qoşulmaq fikrinə düşənlər varmış. Buna görə də Qurban əmi – Qılınc Qurban Dağdağanlı dağ deyilən yerdə vurduqları qaçaqların meyitlərini Məhərin budkasının qabağına gətirib, oraya drezinlə gedən NKVD

işçilərinə göstərib raykoma məlumat yazdırandan sonra arabanı birbaş Qonaqlı səmtinə sürdürüb, işdən qayıdan camaata göstərib, deyilməli sözünü-söhbətini deyib, kəndə girmədən, qaytarmışdı ki, burada və Qurbanlıda da gəzdirib, yenə Məhərin budkasının qabağına aparsın və drezinlə rayon mərkəzinə göndərsin. Məlik məsləhət görürdü ki, sağdan-soldan El yolunun qıraqlarına axışıb arabanı gözləyən "arvad-uşağa qarışaq, batalyonnan gələn NKVD işçilərinin gözlərinə görünmüyək".

Yola çatıb dayananda da Məlik sözünə ara vermirdi:

– Tapdığnan Cümrünü də qırağa çəkin. Aranızda saxlayın ikisini də. Tapançanı alın Tapdıqdan! Cümrünün cibində bıçaq var. Tütək qayırdığı firəngi. Bülöyləyib almas təki eləyib. Bacarsanız onu da alın!..

Mən yenə də üşürgələnirdim. Ürəyim sıxılırdı. Soyuq tərdən köynəyimin islandığını hiss edirdim.

Məlikə baxdım. Yazıq Müxbir məndən betər idi.

"Kişilər" bizi təlaş içində qoyub irəli getdilər. "Tapdıqnan Cümrünü qırağa çəkmək", "aramızda saxlamaq", "tapançanı almaq" üçün? Xeyr! Yolun ortasına yeriyib, orda gözlərini, yanaqlarını silə-silə arabanı gözləyən qardaşların sağ-solunda cərgələndilər.

– Evimiz yıxıldı, Nuru! Tapançanı alammazsanmı ondan?

Yazığın əli titrəyirdi, mənim qolumu da titrədirdi.

– Verməz, – dedim. – Tapdığı tanımırsanmı?

Qolumdan çəkdi.

– Gəl, köməkləşək alaq, – dedi. – Məsini çox istəyirdilər bu havalı, davalı bədbəxtlər. Cəbrayıldan çox yanıqlıdılar! Gəl!

– Yox! – dedim. – Tapdıqdan tapança istiyəmmərəm mən.

– Niyə axı?! Direktorun deyilmi tapança! Niyə alammırsan?

Məlikin suallarının cavabında Molla Gülənin köynəyinin biləyindən kənar bir şey kimi sallanan əlini gördüm. Dedim:

– Tapdığındı indi o tapança, atamın deyil.

Məlik, yəqin ki, hər şeyi bildiyinə görə, sözümü başa düşüb əlini qolumdan çəkib yola meyilləndi.

– Bəlkə Bolu...

Əmma nə Boludan kömək istədik, nə də o birilərdən. Aydın görürdük ki, boy-buxunca Cümrü ilə tən gələn Boludan başlamış, sifətcə əsil zənci – kobud, bədəncə mən kimi cılız Həbəş Qaraya

qədər, hamısı sarsılıb, tutulub kütləşmişdi; Məlikin sözlərindəki təhlükəni heç kəs hiss eləmirdi.

Qarğıdalıları biçiləndən sonra çılpaqlaşmış kəndin hər iki tərəfindən axışıb, eni mənim addımımla otuz addım olan yolun hər iki tərəfində dirək-dirək, hərəkətsiz duran camaat da eynilə "kişilər" kimi tutqun və küt idi. Müxtar əminin mülkü ilə Qaçaq evinin arasındakı genişlikdən toz içində tıqqıltısız gələn arabanın qabağında qara meşin şapqası, qara meşin pencəyi işıldayan Qılınc özü də, atları yedəklərində, tüfəngləri çiyinlərində, nizami qoşun qaydasında – iki sıra batalyon üzvləri də tutqun və küt kimi idilər.

Bütün kənddə və bütün yolda elə dəhşətli sükut vardı ki, hətta iki, üç yüz addımlıqdan yolu döyəcləyən nal guppultuları, atların fınxırtıları da eşidilirdi.

Guppultular, fınxırtılar yaxınlaşdıqca, yolun ortasında hasar kimi hərəkətsiz duran cərgədə az-maz əl-qol tərpənişləri də azalırdı. Məliklə məndən başqa, on ikiyə qədər altıncı sinif şagirdi, məncə, bir-birindən xəbərsiz, qeyri-iradi, çiyin-çiyinə söykənirdi, on iki nəfər kotançı kişi kotanla hodaq, arasında zəncir kimi tarımlaşıb, kəndimizdə adi hadisəyə çevrilmiş növbəti pis hadisənin bu dəfə necə baş verəcəyini gözləyirdi.

Cəbrayıl yorğun, səssiz addımlarla yaxınlaşıb, toz-torpaq içində də tər-təmiz – qapqara qalmış, yumşaq, gözəl xrom çəkmələri biri-birindən xeyli aralı, meşin pencəyin qollarından sallaqlı, şişgin əlləri zindan ağırlığında, qaməti əyili, gözləri yerdə, dayanıb köksünü ötürdü.

Üzündə yara yerindən – şırımdan başqa, boyun-boğazından gözlərinin içinə qədər sarılıq çökmüşdü. NKVD-nin dustaqxanasındamı belə xəstəhal olmuşdu, Məsiyə, Dağdağana güllə atandan sonramı? Niyə dillənmirdi? Yolundakı hasarın ortasında Tapdığın qıyılıb görünməyən gözlərindəki hədsiz düşmənliyi, Cümrünün tir-tir əsən gözlərindəki hədsiz düşmənliyi görmürdümü?!

Mən sonradan-sonraya hadisə olub qurtaranda başa düşdüm ki, Cəbrayılın dayanıb susduğu, Tapdıqla Cümrünün nə isə eləməyə hazırlaşdıqları saniyələrdə arabaya baxmırdım. Yalnız Qurban əmi arabanın arxasından irəli yeriyəndə, enli taxta üstündə yanaşı uzadılmış üzləri açıq meyitləri gördüm və o anda Cəbrayılın qarşısındakı hasara, daha doğrusu, Tapdığa baxmalı oldum. Soyğunçu

dayının biləyini sındıranda sifəti necə idisə, indi də elə idi: dümağ, sakit, rəhmsiz, öskürə-öskürə xırıldayırdı:

– Sən nə hünərnən qayıtdın bura?! Əlmədədoğlu Muxtarın oğlanları yəni bu qədərmi ölüdülər ki, anamızı zorluyan heyvan sağ-salamat qalsın, üstəlik, başımızın üstündə ağalıq eləsin?!

Qurban əmi Cəbrayılla yanaşı dayanıb papiros çəkirdi.

– Sən əvvəl mənə qulaq as! – dedi. – Bu gün mən danışıram hər yerdə. Çünki Muxtarın ailəsinin namus məsələsindən başqa dərdlərimiz də var. Tahirlinin cavanları gediblər. Yerdə qalan yeniyetmələr, açıq deyirəm, böyüksüz-başsız qalıb cızıqlarından çıxıblar. Odu ki, sizə aid sözümü əvvəlcədən komsomolunuza demişəm. Tərbiyəli oğlandı o. Bilirəm çatdırıb sözümü. İndi dalına qulaq asın iş nə yerdədi... Boş-boşuna deyilməyib ki, yaman yeyənin olsun, yaman deyənin olmasın... "Vərəmli gədə" dedik, yazığımız gəldi sinfi düşmənə. Hörmətimizi qanmadı, qudurdu, sarı-qızılı bəy çəkmələrini geyindi, qızıl ilana döndü, zəhərlədi cavanlarımızı! "İsgəndərin buynuzu var!.." O birisi sinfi düşmən Mollaya da elə bu lazımmış. Gizlin agentliyi açıq oldu, getdi rayonda car çəkdi ki, Qılınc Qurbanın sovetliyində antisovet təbliğat gedir!

Məktəbinizdə "İsgəndərin buynuzu"ndan başqa şeylər də oxuyubsunuz:

"Vur, vur ki, gətirməyibdir arpa!
İnsan da dözərmi bu şarpa-şarpa?"

Haman bü bəylərin dilindən yazmayıbmı bunu Mirzə Ələkbər Sabir? Atalarınızın, babalarınızın kürəyindən zol çıxardanlardan deyilmi bu naxırçı bəy?! Qılınc Qurban niyə mauzer bağladı belinə, niyə beşaçılan aldı çiyninə?! Bu Cəbrayıl da mənnən, Muxtarnan, Tahirnən çiyin-çiyinə vuruşmayıbmı dərimizi soyan bəylərə qarşı?! İndi də vuruşmada vurduq bunları. Bəli, vuruşmada!.. Dağdağan mağazini qırx güllə tutan PPŞ avtomatnan yatmışdı qaya dalına. Güllləni elə yağdırırdı başımızı qaldırammırdıq. Bəy balası qayanın belinə çıxıb, qorxusuz-hürküsüz, nitq irad eləyirdi: "Rusiyanın axırı çatıb! Nemes Moskvadadı! Ağlınızı başınıza yığın! Bizə güllə atmayın! Nemes gələndə divara söyküyərik hamınızı!.." Eşidirsiniz?! Faşistə arxalanırdı, bizdən qorxmurdu bu naxırçı bəy! Kin yerdən-göydən çıxanda qorxu olmur insanda. Qılınc Qurban yaxşı bilir belə şeyləri. Çox kinni düşməniydi bu naxırçı bəy! Kini

gözünü görün necə tutmuşdu ki, bu üçpara kəndin sürülmək təhlükəsini də görmürdü. Dedim: "Azdan-çoxdan qeyrətin varsa, o vərəmli canına qurban vermə bu sovetliyin min altı yüz ailəsini!" Nə desə yaxşıdı? "O min altı yüz ailənin içində bir nəfər də insan yoxdu. Heyvandı haması!" – dedi. Bax elə bu məqamda Cəbrayılın tüfəngi açıldı. Dağdağanın gülləsi qurtarmışdı. Bəyini yaralı qoyub, atlanıb qaçmaq istəyirdi. Cəbrayılın gülləsi onu da yıxdı... Bilirsiniz, mən tribunala verirdim bu adamı. Rayonumuzun rəhbəri, dostum, qardaşım Sultan Əmirlinin bunu xilas eləməyiynən də razı deyildim. Öz mərdliyiynən, öz kişiliyiynən xilas elədi özünü Cəbrayıl. Çox söz deyə billəm mən indi bu kişinin barəsində. Kəfəni boğazına dolayıb, NKVD Gülənovun, MTS politatdelinin barəsində burdan – kənddən yazılanların üstünə özü də yazıb qoyub, göndərib. Aparılan taxılınız da qaytarılacaq. Üstəlik, MTS-dən toxumluq da veriləcək, sabahda-birisigündə, inşallah, səpinə başlayacaqsınız...

Bu an Məlikin pıçıltısını eşitdim:

– Nuru! Tapdığa bax!

Tapdıq əlini açıq yaxasından salıb, tərdən islaq köynəyin qoynunda revolverin dəstəsini sıxmışdı. Yaxşı ki, Qurban əminin gözü aldı o əli, meşin pencək elə bil öz-özünə aşağı sürüşüb, Qurban əminin əynindən düşüb, o an da xışıltı ilə havaya qalxıb, quş kimi uçub Tapdığın üzünə çırpıldı. Qurban əmi özü də quş kimi uçub pencəyi Tapdığın başına bürüdü. Revolver də elə bil öz-özünə çıxıb Qılınc Qurbanın enli qayış kəmərinin altına sancıldı. Kişilikdən çıxıb özlərini itirmiş uşaqların qalın toz layı içində arxasıüstə döşəli Tapdığı yerdən qaldırmağa da kişilikləri çatmadı. Qurban əmi özü Tapdığın biləyindən yapışıb qaldırdı. Əmma bunun ardınca elə bir hərəkət elədi ki, necə deyərlər, ayağım yerdən üzüldü. Şilləni necə çaxdısa, Tapdıq guppultu ilə toza batıb üzüüstə qaldı.

Mən özümdə deyildim. Hönkürtüdən əsə-əsə yüyürüb, qardaşlığımı qucaqlayıb, qaldırıb, ömrümdə ilk dəfə özümdən böyük adama bozardım:

– Niyə vurursan?!

Və burada ilk dəfə Qılıncımızın baxışından sıxılıb "Qılınc Qurban" adının zəhmini hiss etdim.

Qılınc pencəyini geyinib, revolverə işarə elədi.

– Budu bax, buna görə vurdum! Uşaq əlində oyuncaq deyil bu!

Dedim:
– Tapdıq atmazdı!
Qılınc duruxdu.
– Atmazdı?! Necə yəni atmazdı?!
Dedim:
– Adam vuran deyil o! Meşədə Cəbrayılın tüfəngini almışdıq. Tapdıq vurmadı onu. Gülləni havaya atdı.
– Niyə? Qorxdu?
– Yox. Qorxaq deyil Tapdıq. Nə qədər sərtdisə, bir o qədər də yumşaqdı. Ondakı ürək heç kəsdə yoxdu! Sən nahaq vurdun onu, Qurban əmi!
Qılınc gözlərini döyürdü.
– Başa düşmürəm, bala. Silahdı bu. Genə deyirəm: oyuncaq deyil. Adamın özünü əlində oyuncağa döndərir bu... Fikirləş gör nə deyib dostun: “Komsomol Tahirin tapançası qaçaq Tapdığa qismət oldu”. Dağdağanlı dağa qaçmaq istəyirmiş. Cəbrayılı vurub, sonra qaçmaq!.. Mən boş-boşunamı danışdım bu qədər Cəbrayılın barəsində. Lazım gəlsə, canını qurban verər o sizə. Bu sovetlikdə hamıya və hər şeyə cavabdeh bir adam kimi tələb eləyirəm: bugünkü fəaliyyətinə görə buradaca hörmətinizi bildirin ona, sonra da Stalin yoldaşı yad, Hitleri doğma bildiklərinə görə qanlarına bulananların cəmdəklərinə tüpürün, mən də gedim necə lazımdı o cür daklad eləyim ki, Tahirli kənd sakinləri, böyüklü-kiçikli, hamılıqla Ali Baş Komandanımıza böyük məhəbbəti olan arxa cəbhə əsgərləridilər!..
Qılıncımıza iki nəfər diqqətlə qulaq asırdı. Biri məndim, biri də Məlik. Bütün arvadların, qız-gəlinin, hətta arabanın sağ-soluna yığışmış qocaların da gözü Tapdıqla Cümrüdə idi. Çünki Tapdıq Cümrünün yaxasından qoşaəlli yapışıb, hönkürtüdən boğula-boğula yalvarırdı:
– Öldür onu! Öldür onu! Öldür! – deyirdi. Cümrü isə, heç nə eşitməyən kimi, heç nə anlamyan kimi, küt-küt o yan-bu yana boylanırdı.
Bülövlənməkdən gümüş kimi ağarmış firəngi Tapdığın əlində parlayanda Qılıncımız nədənsə bu dəfə tələsib-təntiməyib:
– Pah! Pah! Sən nəymişsən, ay bala! – deyib Cəbrayıla baxdı. – Mən necə deyim ki, taqsır yoxdu səndə?! Özüm taqsırkar bilə-bilə səni, bir aləm şey dedim, bugünkü qeyrətinə görə əvvəlki qeyrət-

sizliyini bağışladım. O bağışlamır! Görürsən ki?! Bir dəfə demişəm, genə deyirəm: ya genə Müslüm təki elə, ya da diz çök bu qeyrətli balamızın qabağında, vursun bıçağını, sənin də canın qurtarsın, o bədbəxtin də, bizim də! Yoxsa, bu nədi?! Havaxta qədər çəkəcək bu, Cəbrayıl?! Niyə lalsan?! Heç olmasa, bir söz de buna, biz də bilək fikrindəki nədi?

Cəbrayıl hey köksünü ötürürdü. Yorğun-üzgün:

– Nahaq danışdırırsan məni, – dedi.

Sonra birdən başını qaldırıb, səsini də qaldırdı:

– Fikrimdəki budu ki, camaatımızın nə ağsaqqalında ağıl var, nə də qarasaqqalında! Bu səhər qanına buladığım rəhmətlik düz deyirdi. Heyvansınız! Başda sən, Qılınc Qurban, ayaqda da bax bu "qeyrətli balamız", hamınız heyvansınız!

Qılıncımız bir neçə dəfə diksinib dik atıla-atıla qışqırdı:

– Cəbrayıl!.. Cəbrayıl!..

– Nə "Cəbrayıl!" Hanı Cəbrayıl?! Yoxam mən daha! Əzrayılam, canalanam! Qatiləm! O günahsız bəynən o igid qaçağın canını alan sənin bu "qeyrətli bala"yın da canını alar! Sənin özünün də!..

İrəli yeriyib, sol əlini bıçağın qabağına verib, sağ əlilə Tapdığın yaxasından yapışıb Cümrünün üstünə tulazladı. Yarıbayarı arıqladığına, rənginin saraldığına baxmayaraq, Cəbrayılın sinəsində, qollarında dəhşətli qüvət görünürdü. Sol ovcunu qanla doldupmuş uzun firəngini yerə çırpıb, çəkməsinin nallı dabanı ilə vurub sındırdı. Dili də elə o nallı dabanı kimi idi, Qılıncımızı sındırırdı:

– Sən ikiqat Əzrayılsan, Qılınc Qurban! İyirminci ildən bəri keçməyibsən! Revkomda Sultan Əmirlidən dərs alanda necə yekəbaşıydınsa, indi eləcəsən! Mənim ağlım çatdı, gördüm rusun, erməninin əlindədi Şura hökuməti, Sultanımızın burda necə əli cardadı, Nərimanımızın da Bakıda əli cardaydı. Yalvardım-yaxardım, dedim "Hümmət" firqəsinin adı qalıb, özü yoxdu, bizim deyil daha bu hökumət, Allaha-tanrıya bax, gedək Qazağın Türfəsində Nəqşibəndi alimlərindən dərs alaq, öz millətimizin oğullarına qoşulaq, Mustafa Kamal paşaynan birləşək, gələk rədd eliyək burdan bu içərimizə dolan Gülən-müləni! Dəli oldun, bar-bar bağırdın, revkomu başına götürdün: "Gülənuşağı qaynayıb-qarışıb biznən! İnternasyonalçıyıq biz, millətçi deyilik!" Və sairə və ilaxirə! Sultannan gizlin getdik, həftədə bir gecə dərs aldıq, ta iyirmi

beşinci ildə Nəriman öldürülənə qədər elm öyrəndik! Sən qanmazdan gizlin alim olduq. Sən ağzı otdu heyvanıydın, heyvan olaraq da qaldın! Şura iti!..

Qılıncımızın gözləri qıyılmışdı.

– Cəbrayıl! Dəli olma, Cəbrayıl! Sən antisovet deyilsən! Məni təhqir eləmə! Qanmaz adam deyiləm mən! Xalq "Ədalət mücəssəməsi" deyir mənə!..

Cəbrayılın qızları ilə Revaz doxdur yerdə tozun içində açdıqları dərman çamadanının yanında quruyub, barmaqlarının uclarından qan axan yaralıya yalvarırdılar. Yaralı isə nə yarasının dərinliyini görürdü, nə Revazı, nə də qızlarını.

– Xalqın səndən betər heyvandı! Uşaqlarımızın göbəyi qurumamış "kirvə" erməni girir ötürür ocağımızın başında, dişimizi sanayır, sən "Ədalət mücəssəməsi" – "ədalət qılıncı" da yapışırsan yaxamızdan ki, "deyin görüm naxırçı Məsinin Musa bəy olduğunu kim çuğullayıb NKVD-yə?!" "Deyin görüm plandan artıq taxıl əkməyimizi kim çuğullayıb politotdelə?!" "Deyin görüm Dağdağan Alının Dağdağanlıda qaldığını kim çuğullayıb?!" Sənin özündən soruşan lazımdı ki, de görək, Mola Gülənin molla məktəbini bağlıyandan sonra niyə elçi düşdün erməni qızı Asmik – Əsmətə?! Komsomol Tahiri niyə göy elədin Gülənuşağına, ay beyinsiz "internasional?!" "Otryad"dakı – bu "istrebitelni batalyonda"kı beyinsiz "bolşevik"lərin beyinsizliyindən deyilmi ki, "rekomendasiya" verdilər, partiyaya doldurdular Gülənuşağını?! Get bir erməni rayonu tap ki, NKVD nəçənniyi, MTS politotdeli, vayenkomu bizdən olsun! Tapammazsan! "Pekarnı"sına gedirlər bu uşaqlar ermənінin, üççat, beşqat artıq qiymətə çörək istəyirlər körpələrindən ötrü, çörəkçi erməni soruşur: "hayes, turkes?!" "Turka çorakımız yoxdu" deyir! Sənin burda toxumluğunu da yığışdırıb aparırlar! Niyə?! Çünki başda Mir Cəfər Bağırovun "internasiyonal"çı heyvandı, ayaqda da sən – sovet sədri Qılınc Qurban! Köpəyoğlusan indi əgər məni öz əlinnən güllələməsən!

Qılıncımızın dodaqları titrəyirdi.

– Ağzından nə çıxdığını bilmirsən! Günü bu gün çatdıracaqlar Bağırova! Tək özünü yox, belə ərrik boylu gözəl-gözəl qızlarını da güdaza verirsən, Cəbrayıl! Xəbərdarlıq eləyirəm, arvad-uşağını da damlıyacaqlar! Başlarına pis iş açacaqlar! Ayıl! Yoldaş Bağırovun adresinə dediyinə görə üzr istə bu dəqiqə!

Arabanın yanından Mehbalı əminin səsi gəldi:
– Düz deyir Qurban! Ağlını başına yığ, üzr istə!
Qurban əmi pencəyinin cibindən papiros qutusu çıxartdı, açıb irəli uzatdı.
– Al! Çək! Özünə gəl! Mir Cəfər Bağırov söyülməli adam deyil! Üzr istə!
Cəbrayıl üzünü kənara tutdu.
– Heç başa düşəmmirəm, vuruşmalarda igidliyinnən bu qorxaqlığın necə uyuşur. Mənim arvad-uşağımın yox, özüyün tutulmağından qorxursan! Tülkü!
Qurban əmi papiros yandırıb müşdüyü Cəbrayılın dodalarının arasına soxdu.
– "Şura iti" dedin, dözdüm. "Tülkü" deyirsən Qılınc Qurbana, buna da dözürəm. Özümə görə yox, mən bu camaata görə qorxuram, Cəbrayıl. Asta danışıram indi, eşidən olmasın. Qulağını bəri tut. Muxtarnan Tahir niyə elə tez-tələs ərizə verib könüllü getdilər müharibəyə? Deyəcəksən onlar da sən təki beyinsiz bolşevikdilər? Xeyr, elə deyil, Cəbrayıl! Sultan deyir Bağırovun sağında, solunda oturan Markaryannan Qriqoryan otuz yeddi-otuz səkkizinci illərdə öz əllərinnən güllələyiblər bizim "Hümmət"çiləri! Naxırçı Məsinin – Musa bəyin gəlib burda binələnməyi qurğuymuş deyir Sultan. Qəsdən toxunmayıblar bu "Hümmət"çi bəyə ki, sovetliyi antisovet elan eləsinlər, Sibirə, Qazaxıstana sürsünlər. Bütün Azərbaycanda bu cür qurğuları var, deyir, Markaryannan Qriqoryanın! Cəbrayıl mənim sağ əlimdi deyir Sultan, ona görə ləkələdilər, deyir. Muxtarnan Tahir qalsaydılar, onları da ləkəliyəcəydilər, deyir. Sən ki bilirsən bunun hamısını. Niyə artıq söz danışırsan?!
Cəbrayıl papirosu tez-tez sümürüb, tüstüdən boğula-boğula:
– Mənim günahsızlığımı qandır bu qanmazlara! – dedi. – "Cəmdəyə tüpürmək"-filan söhbətini də yığışdır! Bəsdi milləti ağzı otlu heyvana döndərdiyimiz! Həqiqəti aç bu qardaşlara, tanısınlar düşmənlərimizi!
Bir az sükut oldu.
Qurban əmi nə isə düşünüb-daşınıb, sonra birdən yenə qılınclaşdı.
– Xəbərdarlığımı qanmadın, Cəbrayıl! İşin üstünü açsan, bil ki, doğrudan da öz əlimnən güllələyərəm səni! Sən də öl, Sürməlimiz

də ölsün, bu cavanlar buynuzlularnan döyüşə girişib güdaza getməsinlər!

Cəbrayıl lap boğulub papirosu da sınıq firənginin yanına atıb, xıncıb elə bil acığını soyutmağa çalışdı.

– Tək bu cavanlar yox, hamı bilməlidi həqiqəti! Elliknən ayağa qalxmalıyıq! Sultanın başçılığıynan, hökumətin özünün kağız üzərində qalan qanunlarına əsaslana-əsaslana hər yerə yazmalıyıq, mübarizə eləməliyik! Yuxarıda Mikoyandan, Markaryandan, Qriqoryandan, aşağıda burdakı qudurmuş qaniçənlərdən xilas olmalıyıq, ya da elliknən sürgünə getməliyik!

Bu sözlər də Cəbrayılla Sultan Əmirlinin "Nəqşi-bəndi alimliyi" kimi, elə gözlənilməz və maraqlı idi ki, bütün camaatla birlikdə hətta qardaşını qucağına sıxıb buraxmayan Cümrünün qolları arasında Tapdıq da gözlərini Cəbrayıla dikib duruxub, yəqin soruşmaq istəyirdi ki, o nə həqiqətdir, biz qardaşlar nəyi bilməliyik?

Əmma heç kəs dillənmədi.

Cəbrayıl özü dedi:

– Eşidin! Ağsaqqallı, qarasaqqallı, uşaqlı, böyüklü, oğlanlı, qızlı, hamı eşitsin, bilsin. Stalinin sağ əli, vəzifəsi "xalq komisarı", özü xalq düşməni Mikoyanın başçılığıynan bütün əhalimizin sürülməsi haqqında qərar hazırlanıb Ali Baş Komandanın təsdiqinə verilib. Biz Nəqşi-bəndi alimləri, haman bu bədbəxt Dağdağanımızın köməyiynən Türkiyəyə məktub göndərdik. Türkiyədən SSRİ-nin müttəfiqləri İngiltərəyə, Amerikaya yazıblar, müttəfiqlər də Stalinə yazıblar ki, Azərbaycan xalqı İrana, Ermənistana, Gürcüstana, Rusiyaya verilən torpaqlarının qaytarılmasını tələb eləyir. Stalin yaralı ilana dönüb, Bağırovun üstünə qışqırıb ki, bu tələbnamənin təşkilatçılarının "milli dişi"[1], yəni milli qeyrəti sındırılmalıdı. Odu ki, gözünüzün qabağında belə bədbəxtliklər baş verir. Arvadından savayı zənənə gözünün ucuynan da baxmıyan Cəbrayıl öz silahdaşı, dostu Muxtarın arvadını zorlayır, Muxtarın oğulları da başlarına dəstə yığıb Cəbrayılın qəsdinə dururlar! Kimdi bu işin təşkilatçısı? Bədbəxt "vərəmli gədə" naxırçı Məsi baxtına kor olub o damın belində şümşəd çala-çala əcəl gözləyirdi. Niyə bəy paltarı geyindi birdən-birə?! Niyə Nəqşi-bəndi havamı çaldı, niyə dedi "Stalinin buynuzu var?!"

---

[1] Rusca "naüionalğnıy zub"dan hərfi tərcümə

Qurban əmi Cəbrayılın çənəsinin altına gəlmişdi.
– Bəsdi! Bəsdi! Bəsdi! – deyirdi.
– Mən sənin komandirinəm, əmr eləyirəm! Səsini kəs! – deyirdi.
Cəbrayıl daha da kükrəyirdi:
– Eşidin! Bilin! Lenini öldürən də o buynuzludu! Nərimanımızı öldürən də odu! Ermələri qabağa verib "Hümmət"çiləri qırdıran da odu! "Cəmdəyə tüpürmək" nədi?! Musa bəynən Dağdağan Alını bu torpaqdan kənara verməməlisiniz! Qəbirləri ziyarətgah olmalıdı!..
Atamın revolveri kəmərin altından çıxanda mən, özümü dəhşətə gətirən dəhşətlə qışqırdım:
– Qurban əmi! O tapançanı düşmənə atarmış atam! Vurma Cəbrayılı! Vurma! Düşmən kəsilərik sənə! Hamılıqnan düşmən kəsilərik!
Mənə elə gəlir ki, məhz mənim dəhşətli qışqırtıma görə tapançanın lüləsi tərsinə çevrildi, güllə əvəzinə dəmir "rukoyadka" – dəstək Cəbrayılın yaralı üzünə şırımın üstünə çaxıldı.
Tozun içinə elə bil tir döşəndi.
Qızlar hönkürüşdülər.
Qılınc revolveri yenə kəmərinin altına taxıb, qocalara: – Çəkilin ordan! it leşləri təki sürütdürəcəm yernən bu itlərin meyitlərini! – dedi.
Və dediyini elədi: sarı-qızılı çəkmələrlə Dağdağanlı dağın yovşanlıqlarında bozarmış qara xrom çəkmələri yolun qırağına tulazlayıb meyitlərin ayaqlarına çatı bağladılar və doğrudan da "it leşləri təki" çəkib, tappıltı ilə yerə salıb, arabanın dalınca sürüdülər. Mən yalnız o çatılı ayaqları gördüm. Batalyon üzvləri ilə atlarının ayaqlarından çıxan toz dumanı yolun sağ-solunda camaatı da dumana bürüdü.
Araba xeyli aralanandan sonra da hamı dirək-dirək quruyub qalmışdı. Tərpənən yalnız yara üstündən yara alıb, toz-torpaq içində oturan Cəbrayılla qızları, Revaz, bir də səssiz-səmirsiz surə oxuya-oxuya əlini üzünə çəkən, səlavat çevirən Mehbalı əmi idi. Nal tappıltıları aralanandan sonra sükutu birinci pozan da Mehbalı əmi oldu; surəsini oxuyub qurtarıb, qəfildən qollarını qaldırıb əllərini şappıltı ilə dizlərinə çırpdı, üzünü göyə tutub, hönkürtü ilə Allahı çağırdı:
– Ay gözəgörünməz! Ay gözəgörünməz! – dedi. – Yaxşıynan yamanı gözün seçmirmi, ay gözəgörünməz?! Nə vaxta qədər pisin əli yaxşının üstündə olacaq?!

Cəbrayıl ağır-ağır başını bulayırdı.

– Gözəgörünməz cavab versəydi nə dərdimiz olardı, ay ağsaqqal! – dedi. – Həqiqəti gizlətməyin bu cavanlardan! Qılıncımız kəsir mənim dilimi. Söylünü də qorxudub: "Oğullarını güdaza vermə!" – deyib. Bədbəxtliyimizin şahidini də qorxudub: "Dilini dişinnən tut!" – deyib. Həqiqət açılmasa, belə ağır günah sahibi, əxlaqsız, murdar adam sədrlik eləyə bilərmi burda?! Pambıq çöldə qalıb! Şum dənsiz qalıb! Mühasiblikdə iş getmir! Svodka göndərən, çek yazdıran, bankdan pul alan yoxdu! Qış qapının ağzını alıb. Tək quru qarğıdalıynan necə dolanacaq bu heyvanat?! Evləri gəzmişəm bircə-bircə, sabun almağa da imkan qalmayıb! Uşaqların canına bit daraşıb! Arpa çörəyi yeməkdən bağırsaqları quruyub hamısının. Budu, Revazı danışdırın, görün necə bədbəxtsiniz!

Mehbalı əmi də elə hey başını bulayırdı.

– Düzəlmiyəcək, ay bala. Düzəlmiyəcək, düzəlmiyəcək, – deyirdi.

Cəbrayıl onun sözünü kəsib qışqırdı:

– Necə yəni "düzəlmiyəcək?!" Niyə düzəlməsin?!

Mehbalı əmi yavaş-yavaş yaxın gəldi.

– Çünki pis adamlar var, ay bala. Pis adamlar var, – dedi.

Cəbrayıl kiçik qızı Bala Nisənin güc-bəla ilə bükdüyü eşməni Revazın eşməsinin odundan yandırıb, sağlam əlilə həkimin çiynindən tutub ayağa qalxdı.

– Bu gün neçə dəfədi təhqir eləyirəm sizi. "Heyvanat" deyirəm, dillənmirsiniz! Bu qədər məzlumlaşmaq olmaz! Bəri yığışın. Özüm danışım hər şeyi. Başımıza açılan oyunu lap açıq danışacam! Sonra gedin Söylünü danışdırın, görün necə "evləndiriblər" bizi!..

Araba səmtində, toz-duman altında beşaçılan guruldadı. Demə Qılıncımızın qulağı biz tərəfdə imiş. Uzaqdan-uzağa qışqırdı:

– Nə çərənləyirsən orda?! – dedi. – Sənin sədrliyə qaytarılmağın səhvdi! Başın beşdi, nədi sənin, kimə böhtan atırsan?!

Yenə hamı dirək-dirək qurudu. Yenə sükut çökdü...

## KİŞİLƏR

Gün batdı. Təzələnmiş ay da batdı. “Razvedçik” təyyarənin dərin göy dərinliyində növbəti arı vızıltısından və zenit toplarının növbəti gurultularından sonra Qılıncımızın əmri ilə pəncərələr qara pərdə tutulduğuna görə kəndə elə zülmət çökdü ki, yol tərəfdən ayaqlarını sürüyə-sürüyə gəlib eyvanda qarşımda dayanan adam səsini çıxardana qədər qaraltısını tanıyammadım.

– Məsinin damına köçmüşəm, – dedi. – Cümrünü buraxmadı Mehbalı əmi. Xəbərimiz olmayıb, tək qalanda özünü döyür qağam... O firəngini boş-boşuna itiləməyibmiş. Ağsaqqallar yollarda sağ-soluynan gedib-gəldikləri vaxtdan bilirmişlər ki, qağam özünü öldürmək istəyir... Qorxma. Bir dəqiqə də gözdən qoymur Mehbalı əmi. Deyir: “çox danlayıram, qəmlənir, yumşalır, tütək çalır, ağlayır...”

Anam, yəqin ki, Tapdığın səsini eşidib qapını açdı.

Kim isə bazara gedəndə bizim neft qabını da aparıb doldurub gətirmişdi. Əmma anam, hətta belə qaranlıqda da, Şöşünü yatırandan sonra o dəqiqə lampamızın fitilini aşağı çəkirdi; kolxozdan pul paylanmağına ümidi yoxdu, atamın məvaciblərindən “qırtıb yığdığı” pul isə, dediyinə görə, “qəpik-quruş” qalmışdı; fitili lap axşamdan endirib neftə qənaət eləməkdən başqa çarəsi yoxdu. Yalnız qonum-qonşu, tanış-biliş gələndə fitili qaldırıb qapını açırdı ki, eyvana işıq düşsün, gələn adamı görsün, soyğunçu dayı-filan kimilərini evə buraxmayıb elə eyvanda danışsın.

Tapdığı, əlbəttə, içəri çağırdı.

Tapdıq getmədi.

El yolundakı hadisələrin üstündən cəmi üç-dörd saat keçdiyinə baxmayaraq, işıq zolağında elə bil tamam başqa-tanınmaz bir adam dayanmışdı: gözləri quyuya düşüb, daha da xırdalaşıb, elə bil hətta qaralığını itirib bozarmışdı. Zarafatla “kartof” elədiyimiz bir az yumrutəhər burnunun sağ-solundan çənəsinin sağ-soluna doğru iki uzun xət-qırış əmələ gəlib Tapdığın yaşını birdən-birə beş-altı yaş artırıb, əməlli-başlı dünyagörmüş adama döndərmişdi. Hətta səsi də durub-toxtamış adam səsi idi – dərdli, yorğun:

– İki aydan çoxdu canıma su dəymir. Dəyişəyim orda qalıb, Əsmət xala. Lap ölürəm... nurunun dəyişəyindən bir dəst... vedrə,

dolça... bir də, mümkünsə, qara çırağınızı ver bu gecəliyə. Sabah Ağtəpədən alaram, sizinkini qaytarram.

Anamın dodaqları tir-tir əsdi. Gözlərindən yaş ələndi. Beləcə, səssiz-səmirsiz ağlaya-ağlaya evlə çardağın arasında vurnuxdu. On-on beş dəqiqə də çəkmədi ki, üç tərəfinə qarğıdalı şaxı döşəyib xırdaca otağa çevirdiyimiz çardağın altında ocaq qalayıb, qazanda su qızdırdı. Payız, qış aylarında dördüncü tərəfini kilimlə örtüb hamam elədiyimiz çardaq çimmək üçün hazır olanda Tapdıq, barmaqlarının arasında gödəlmiş eşməni yerə atıb birdən-birə, bayaqkı səsin əksinə, lap körpə uşaq səsi çıxara-çıxara ağlayıb, anamın əllərindən yapışdı, gah bu, gah o biri əlini öpə-öpə yalvardı:

– Bağışla! Bağışla, əziyyət verirəm, Əsmət xala. Məlik danışdı hər şeyi. Sonra da Revaz doxdur gəldi danışdı. Bilirəm indi, necə olub. Əmbə mən qayıdammaram daha o evə. Məlik “anan”, “anan” deyəndə başımdan ağrı qalxdı. Ana deyəmmərəm mən daha ona, Əsmət xala. Heç bir günahı olmasa da üzünə baxammaram daha... Mehbalı əminin qarısı əldən-ayaqdan düşüb. Deyinir. “Özüm-özümə yüküydüm. qardaşın da bir yandan yük oldu, çəkəmmirəm” dedi, öldüm yerə girdim. Burya da ölə-ölə gəldim! İt iyi verir paltarım! Bağışla məni, ayağıyın altında ölüm, Əsmət xala! Bircə bu gün çək əziyyətimi. Sabah sabun da alıb qoyacam o dama. Vanna, qazan, qab-qacaq, hər şey yığacam ora, qağamı da aparacam...

Yazıq anam nə qədər ağladı! Nə qədər yalvarıb-yaxardı ki, Tapdıq dama-zada getməsin, elə burda – bizdə qalsın, qarıya yük olursa, Cümrü də gəlsin; Muxtar Əlmədədoğlunun ailəsilə direktor Tahirin ailəsi elə həmişə birevli olub, indi də olsun; Tapdıq razılaşmadı. Çimib, qurulanıb, mənim iki dəst alt paltarımdan birini, özünün üst paltarını – “kotana”, yəni işə geyindiyi köhnə, qalın boz köynəklə köhnə, boz kəstümünü geyinib, anasının qara ipək saçı kimi yumşaq, uzun saçını arxaya darayıb, armud qaxı ilə yarpız çayı içəndən sonra, qarnı kürəyinə yapışdığına baxmayaraq, bir tikə də çörək yeməyib qara çırağın fitilini ocaqdan yandırıb getdi.

Çırağın yelləndikcə uzanıb gödələn alovu yol boyunca uzaqlaşıb, sağa burulub Məsinin damının qabağında yoxa çıxana qədər balkonda dayanıb, arada bir qədər yadlaşandan sonra yenidən doğmalaşmış qardaşlığımın dalınca boylandım.

Şöşü içəridə zıqqıldayırdı. Qara inək, eynilə keçənilki kimi, sentyabrın əvvəlində buğaya gedib öynəlik-gündəlik südünü bir

litrə endirəndən sonra anam qatığı daha tavada yox, yarımlitrlik bankada çalırdı, qalan yarım litr südü isə Şöşü ilə mənim aramda bölüb, qaqaşımın tələbatı çox olanda paylarımıza su qatdığına görə axşamlar bu vaxtlar yarıyuxulu zıqqıldayıb "pipi, pipi" deyirdi ki, "pipi"sini eləyəndən sonra daş kimi düşüb, bir də düz saat üçdə oyanıb "pəpə, pəpə"sini desin, arpa çörəyinin acılığını elə bil əlində hiss eləyib, yerə atıb, növbəti ağlamağını da ağlayıb yorulub yatsın.

"Zıqqıldayırdı" deyirəm. Əslində, "zıqqıltı" nədir, elə bil haray təpirdi ki, nə qədər qatıq, süd doğraması yemək olar?! Nə qədər "unnuca" dovğası içmək olar?! Nə qədər "pəpə" gözləmək olar?!

Beynimdəki bu haraya qapılıb, dalınca boylandığım çıraq işığını unutmuşdum. Əmma birdən yenə uzanan, gödələn alov gördüm: kəndin harasındansa gedib damın qabağında yox oldu, yəni dama girdi. Sonra bir elə alov da gördüm. Sonra birini də! Daha sonra birini də! Bu nə idi?! Məsinin damında nə baş vermişdi ki, belə zülmət içində o qədər gedən vardı?!

Çıraqsız getmək çətin olsa da, yerimdən qopub yüyürdüm.

– Ay bala! Hara?.. – Anam idi. "Cehizliyim" adlandırdığı, "yeləni", yəni dörd dövrəsi və "gölü", yəni ortası qara xaçlarla bəzənmiş sarı kilimin arasına yorğan-döşək büküb mənim qucağıma qoydu.

– Apar, – dedi.

Yüyürüb, El yolu ilə getdiyimi ayaqlarımın altında qalan toz yumşaqlığından bilə-bilə Məsinin damı səmtinə çatıb o yana keçdiyimi qoşa kərənlərin ağartısından görüb, bir az geri qayıdıb alçaq, dar çardağa çatanda ürəyim çapaladı: damın-qazmanın dərinliyində on-on beş qara çıraq alovlanırdı. Alovların ara-bərəsi adamla dolu idi.

Yüyürüb özümü içəri saldım və... nə gördüm? Qalayçıoğlunun briqadasının kotançıları, bütün "kişilər", hərəsinin yanında bir palaz, kilim, yorğan-döşək, qab-qacaq, maddım-maddım mənə baxırdılar.

Birdən Məlik pıqqıldadı. Bunun ardınca hamısı şaqqıldaşıb güldü. Məni də gülmək tutdu.

Məlik xüsusi ləzzətlə gülürdü.

– Hamısı yorğan-döşək, qab-qacaq gətirib. Birinin də yadına düşməyib ki, yemək gətirsin. Tahirli kənd komsomol təşkilatı adından həm təşəkkür elan edirəm hamınıza, həm töhmət elan edirəm, həm də təklif edirəm ki, səhvimizi düzəldək.

Heç yarım saat da çəkmədi ki, Bolu çaxır "boçka"sını alverçi Xeyrənin evində "siləməmə doldurub" damcılada-damcılada gətirib damdakı orta dirəyin dibinə söykədi. İki camışları sağıldığına görə kənddə hamıdan varlı sayılan Qaralar – Həbəş Qara ilə kiçik qardaşı Qora bir ləyən dolusu "duzunu yemiş", yəni bərkimiş pendirlə beş dənə kəhrəba kimi sapsarı qarğıdalı cadı gətirib süfrə açdılar. Qalayçıoğlunun özü kimi uzun-hoqqar oğlu Ləzgi bir qazan qarğıdalı, lobya hədiyi gətirib kəl boyunları kimi qalın qabarlı əllərini qaynar qazana basa-basa hərənin qabağına bir qoşaovuc hədik qoydu, cibindən dədəsinin köhnə tütün torbası dolusu göy duz çıxarıb, Məsinin qara ocaq daşları, ağ külü qalmış ocaq yerinə baxa-baxa susan Tapdığı dümsüklədi.

– Anam tapşırdı ki, duzu mıxdan-zaddan assın, yerdə qalsa nəm çəkər, – dedi. – Dədəm də tapşırdı ki, gecə burda sənin yanında qalım.

Ləzginin bu sözlərindən sonra Məlik yenə pıqqıldadı.

– İndi ki, bu qədər palaz-malaz, yorğun-döşək, qab-qacaq-filan gətirilib, təklif var ki, elə hamımız burda qalaq!

Bolu dedi:

– Hələ bir stəkanlarınızı hortdadın! Mısmırıqlı müəllim oğlunun suyu sıçrayıb Tapdığa, o da mısmırıqlı olub. İçək onun sağlığına, qaş-qabağı açılsın!

Qalın, qara dodaqlarını biri-birindən aralamayan Həbəş Qara da ağzını açdı:

– Biz səni nə təhər istəyirik Allah da elə istəsin, ay sədr oğlu. Məndən olsaydı, vallah, elə sənin özünü sədr seçərdik öz aramızda, – dedi.

Və kiçik qardaşına göz-qaş elədi ki, o da bir söz desin.

Qora isə, həmişə, hər yerdə olduğu kimi, böyük qardaşının sözünü təkrar elədi:

– Vallah, elə səni sədr seçək, ay Tapdıq.

Qara Qoranın səhvini düzəltdi:

– Aramızda sədr!

– Hə, öz aramızda!

Məlik dedi:

– Kim razıdı, əlini qaldırsın!

Bolu dedi:

– Hortdadın! Sədrimizin sağlığına!

“Kişilər”in bu sözləri və bundan əlavə çoxlu sözləri beynimə həkk olunub. Çünki bu gecə damda səslənən bu adi sözlərdə qeyri-adi qayğı vardı. Hamıya, hər şeyə diqqət yetirən “mısmırışlı müəllim oğlu”ndan başqa, bütün “kişilər” danışırdı.

Tapdıq isə gözlərini ocaq yerinə zilləyib dillənmirdi.

Çiməndən sonra payız gecəsinin soyuğundan soyuqlamış kimi tez-tez öskürürdü. Əlini yavaşca uzadıb qara-qırmızı çaxırla dolu stəkanı götürdü.

– Məsinin ruhunun sağlığına, – dedi.

Bir az susub, sonra:

– Məsiynən Dağdağanın ruhlarının sağlığına, – dedi.

Bir az da susub, sonra:

– Qara kağızı gələnlərimizin... qırılan diviziyada qırılanlarımızın hamısının ruhlarının sağlığına, – dedi.

Ruh sağlığına içəndə stəkanı-stəkana vurmaq əvəzinə, stəkan tutan əllərinin arxalarını bir-birinə vuran ağsaqqalarımızın adətinə ciddi riayətlə, sükut içində içib, məclisimizi belə gözlənilməz axara salan hörmətli sədr oğlunun çörək kəsməyini gözlədik ki, biz də çörək kəsək. Əmma, demə, damın girəcəyində dayanıb bizə fikir verən varmış.

Cəbrayıl idi.

Dar, alçaq girəcəkdə başını əyə-əyə içəri endi.

– Ayılırsınız! – dedi. – Yoldakı o “it leşi”-filan söz-söhbətindən sonra Məsinin, Dağdağan Alının ruhlarının şərəfinə içirsinizsə, deməli, yaxşını yamandan seçirsiniz.

Üzü eynilə xırman yerindəki kimi sarıqlı idi. Sarğı başının üstündən, sol qulağının dalından gəlib çənəsini sıxdığına görə, yaralı tənzifli əlini üzünə tutub sağ əlində eşməni dodaqlarına söykəyib, tez-tez, az-az çəkirdi.

– Mən sizdən hörmət-izzət gözləmirəm. Daha doğrusu, istəmirəm mənim hörmətimi saxlıyasınız. Çünki ağsaqqalınızın dediyi pis adamlardan da pisəm mən. Eşidin, qulağınızda qalsın: “kirvə erməni”, “dost erməni” deyə-deyə casusu ocağının başında oturdan millətə nifrinim[1] var mənim! Nəqşi-bəndi alimindən soruşublar: “Düşmənin kimdi?” Deyib: “Kim cahildi, odu düşmənim”. Bir vaxt

---

[1] Hədsiz nifrət

gələcək, yaşa dolanda siz də nifrət eliyəcəksiniz öz doğma xalqınıza! Bax o vaxt adam olub yavaş-yavaş qanacaqsınız müsibətlərimizin səbəblərini...

Məlik, bir gözü Tapdıqda, Cəbrayılın sözünü kəsdi:

– Başa düşmüşük... Bilirik hər şeyi...

Cəbrayıl çox kəskin:

– Yox! – dedi. – Siz hələ heç nə bilmirsiniz!.. Məsinin bu balaca damında dünya dolusu sirr var. Müharibə xeyirliknən qurtarsa, məktəbə qayıtsanız, bu dam da o vaxta qədər salamat qalsa, açaram burdakı sirrləri, onda deyərsiniz: "Bilirik hər şeyi..." Gördüm yığışırsınız, gəldim deyim ki, işə çıxmasanız pis rəftar eliyəcəm siznən. Çox pis!.. Döşünüzə önlüık bağlamalısınız, analarınıznan, bacılarınıznan bir yerdə, səhər gün doğmamış sahədə olmalısınız. Adambaşı yüz kilo pambıq yığmamış çıxmıyacaqsınız kolun arasından. Bu on beş nəfərdən sabah axşam Zibeydənin anbarının qabağında ton yarım pambıq təhvil almalıyam mən. Gecəynən rayona svodka[1] verməliyəm yığım barədə, səhərisi gedib toxumluq tələb eləməliyəm ki, çisəkli günlərdə pambıq islaq olsa, yığım dayansa səpinə gedəsiniz!.. Yük sizin belinizdədi. Neyləyək! Muxtar, Tahir, mən, ÇTZ deyilən İskəndər Qılınc Qurbanın otryadına qoşulub döyüşə gedəndə sizdən yaşlı deyildik. Baxtımız gətirmədi, Nərimanov əlimizdən getdi, pis adamlar daraşdılar stollara. Pislərin əmriynən yaxşılarımızı güdaza veririk indi. Bizim taleyimizdən ibrət götürün! Dara düşəndə bax bu cür yığışın, tutun bir-birinizi, dayaq olun!.. Qılıncımız bir yandan kəsir, siz də bir yandan. Bir dəfə boğazıma güllə sıxdım, bir də sıxım, nə olsun?! Azdan-çoxdan ağlınız varsa, fikirləşin, məndən də, Qılıncımızdan da betər gözü kölgəli, vicdanı ləkəli qalarsınız!..

Demə, girəcəyə bir adam da gəlibmiş.

– Məni özünə tay eləmə! – dedi.

Qılıncımız idi; sol əli sol döşündə – tüfəngin qayışında, sağ əli asta-asta çəkməsinin boğazına çırpılan şallağın dəstəyində, bizə, süfrəmizə baxırdı.

Bir də dedi:

– Tay eləmə məni özünə!

---

[1] Svodka – təsərrüfatın gedişi haqqında məlumat. "Kolxoz" – "kollektivnoe xozəystvo" ilə bağlı rus sözlərindəndir.

Aşağı endi, qayışı çiynindən çıxartmağı ilə tüfəngin küpünü "boçka"ya çırpmağı bir oldu; "boçka" çilik-çilik dağıldı, qara-qırmızı çaxır sellənib, hələ əlimizi də vurmadığımız "cad"ları, pendiri, hədiyi də qara-qırmızı boyadı.

– Yaz başının işıldaquşu təki işıldaşa-işıldaşa yığışırsınız naxırçı bəyin damına! Bu boyda kənddə bir nəfərin də xəbəri yoxdu ki, gecələr bu damın bacası pusulurdu. Pusquçu Dağdağanın qohum-əqrabalarının sinfi düşmənnən pıç-pıçlarına qulaq verib burdan gedirdi Qonaqlı meşəsində vayenni çastın komandirinin telefonunu zırıldadırdı: "Alyo! NKVD-ni ver!" Bəyənmədiyin Qılınc Qurban xəbərdar elədi bura yığışan qanmaz uzunqulaqları! Qılınc Qurban qaçırtdı istəkli Məsinizi!.. Mən bilmirəm, Cəbrayıl, sən nə vaxt qanacaqsan ki, bu hökumətnən gizlənpaç oynamaq olmuz! Nə vaxt qanacaqsan ki, vayenni vremyadı, vayenni tribunal zəmanəsidi?! Yazıq canım, gecələr sənin o təzə məskəniyin həyətində samovarın trubasından çıxan qığılcımı da gözdən qaçırtmırdım ki, çuğul görər qığılcımı, deyər gedim görüm kimdi Cəbrayılın qonağı! Söylüyə neçə dəfə xəbərdarlıq eləmişəm ki, naxırçını evə çağırmasın Cəbrayıl, çağırsa da tez yola salsın. Qaçırtmasaydım, batalyonu sənnən bir yerdə üstünə aparmasaydım, bilirsənmi nolardı?! Eşalondaydı indi bu kənd, sənnən, mənnən, bu yetim-yesirlərnən bir yerdə tırıqqa-tırıq yol gedirdik indi Sibirə!.. Dəridən çıxdım mən bu işi axıra çatdırana qədər! Əmbə indi sən genə xataya salırsan camaatı! Necə yəni "ayılırsınız?!" Ayıldıb bu bədbəxtləri də özün təki antisovet eliyəcəksən?! Çıx burdan! Hamı çıxsın! Qapını bağlayıram! Bir də ayağınız dəyməsin bu xarabaya!

Cəbrayıl tənzifli əlini tənzifli üzünə söykəyib, başını endirib birdən-birə qəmlənmişdi. Daha bir kəlmə də deməyib, dönüb ağır-ağır çıxdı.

Sonra biz palazları, yorğan-döşəyi, qab-qacağı yığışdırmağa başladıq. Yalnız çıraqları da yerdən, harmalardan[1] götürüb qapıya meyllənəndə gördük Tapdıq bayaqdan necə oturmuşdusa, eləcə də oturur və qalxmaq fikrində deyil.

Qılıncımız:

– Qalx! – dedi.

---

[1] Harma – damın torpaq divarı ilə ağac divarı arasında yer

Tapdıq yenə tərpənmədi.

Məlik qoltuğundakı yüngül yorğan-döşəyi, əlindəki çırağı yerə qoyub, təhlükənin qabağını almağa tələsib, özünü Tapdığın üstünə saldı.

– Qurbanın olum, qalx gedək! – dedi.

Tapdıq yenə tərpənmədi.

Daha elə pis, qorxunc sükut çökdü ki, mən hətta eşikdə boz atın fınxırıb ağzında yüyənin gəmini cingildətdiyini eşitdim və bundan daha da vahimələndim; dəfələrlə görmüşdüm ki, sahibi əlini, şallağını, tüfəngini işə salmağa hazırlaşanda boz at həsmişə tez-tez fınxırıb yüyənin gəmini çeynəyirdi. Fınxırtı, cingilti təkrar olundu. Mənim vahiməm lap həddini aşdı, yəqin elə buna görə də birinci kişiliyi mən göstərdim: əlim-qolum titrəyə-titrəyə yeriyib Tapdığın böyründə oturdum.

– Mən də çıxmıram! – dedim.

İkinci kişiliyi Qalayçıoğlunun oğlu Ləzgi göstərdi: gəlib Tapdığın o biri tərəfində oturdu.

– Mən də çıxmıram! – dedi.

Bayaq Cəbrayılın sifəti necə ağarmışdısa, indi Məlik də elə ağardı. Yerindən atılıb, Qılıncımızın əlini qamarlayıb tüfəngin qayışının üstündə dönə-dönə öpməyə başladı:

– Qurbanın olum, Qurban əmi, hirslənmə! Cəbrayıla söz vermişik, gün doğmamış sahədə olacayıq, adama yüz kilo yığmamış çıxmayacayıq kolun arasından! Səpin də bizim boynumuzdadı! Qapılarımızdan yığdığımız qarğıdalı çox nəmdi. Evlərə odun daşımalıyıq ki, peç qalasın, hamı, qarğıdalını qurutsun, dəyirmanlıq eləsin. Bütün kəndə odun yarmaq asan deyil, Qurban əmi! Uşaqların xətrinə dəymə, qurbanın olum!

Ömrümdə Məliki belə görməmişdim. Həmişə böyüklərin sözlərinə qüvvət verə-verə özünü də böyük adam yerinə qoyan Müxbir əməlli-başlı ağlayırdı.

Qılıncımız əlini qayışdan çəkmədən Məlikin əlini dala itələdi.

– Bu damda adam qalmamalıdı! O gorbagorun sözü-söhbəti olmamalıdı! Ümumiyyətnən, Məsi, Musa deyilənin izi-tozu da silinməlidi bu kənddən! O tütəkləri də yığışdaracam, ocağa tökəcəm!

– Tütəkləri də?! – Tapdıq idi. Başını qaldırıb ağır-ağır, bircəbircə bizi gözdən keçirdi.

– Bu kişi nə dediyidi?! Verərsinizmi tütəkləri?!

Yenə həmin pis, qorxunc sükut çökdü. Yenə də fınxırtı, cingilti eşidildi.

Bu dəfə də birinci mən kişilik elədim:

– Tütəkləri verməri͏k, Qurban əmi, – dedim.

Sonra Bolu kişilik elədi:

– Bacılarımın boğazından kəsib cad satmışdım poyezd ayağında, pul yığmışdım ki, dəyişək alım uşaqlara. Çaxıra verdim! Çaxıra ki, Muxtar Əlmədədoğlunun yurdunda qalan oğlunun dərdini dağıdaq burda! Vurdun sındırdın boçkanı. Ömrümdə yadımdan çıxmıyacaq sənin bu qətrəhmliyin, Qurban əmi!

Bolu da oturdu.

Vahiməli sükut uzandıqca uzandı.

Uşaqlar dinməz-söyləməz, biri-birinin ardınca palazları, yorğan-döşəkləri yerə, çıraqları harmaya qoyub oturduqca Qılıncımız da dinməz-söyləməz, ona-buna baxırdı.

Axırda lap astadan, Qılınca yaraşmayan boğuq, hətta elə bil qəhərli səslə:

– Sürüləcəyik... Qoymazlar qalaq. Sürəcəklər! – dedi.

Birdən-birə yorulmuş, lap üzülmüş kimi hıqqıltı ilə əyilib dirəyin dibinə çökdü. Pencəyin qoyun cibindən “palazqulaq” deyilən uzun-uzun qara yüzlüklər çıxarıb Bolunun dizlərinin üstünə atdı.

– Xeyrə arvadın özündə var bu boçkalardan. Yaxşı çörəyi, konservası-zadı da var o soyğuncu qancığın. Al gətir... Qılıncımı sındırdınız, bu gecə içəcəm siznən!

Beləcə, vahimə şadlıqla əvəz olundu.

Əmma bu şadlığın ömrü bircə gecəlik idi.

Səhər, hələ gün doğmamış, sədrin Qalayçıoğluna “naryad”ından[1] məlum oldu ki, yığılan pambığın sahədən daşınması üçün təmir edilən arabalarından birini Tapdıqla mənə, birini də Məliklə Boluya veriblər ki, “qapılara” – həyətlərə odun paylayaq və qurudulub “dəyirmənlik” olan qarğıdalının ununu dəyirmändə “nobat”a, yəni növbəyə qoyub üyündükcə ləngitmədən sahiblərinə gətirək.

Bütün kənddə Revazla anamdan başqa heç kəs bilmirdi ki, mənim ürəyim balta vuran ürək deyildi. “Naryad”ı biləndə anam yaman qorxdu, istədi gedib idarədə etiraz eləsin. Qoymadım.

[1] Gündəlik iş üçün rəsmi tapşırıq

– İndi elə hamı cansız deyilmi, ay ana! – dedim və eyni zamanda fikirləşdim ki, düz demirəm; səhərdən axşamacan əlinə keçəni ağzına təpən gombul Həbəş Qara ilə ona-buna odun yarmaqdan dəmirə dönmüş quru Qaranın əvəzində, odunun Tapdıqla mənə tapşırılması səhvdir. "İdarə həyəti adlanan", ətrafı taxta hasarlı meydanda köhnə araba ələngələri, təkər, şin qırıqları arasında "hərəsi bir batman" paslı dalta yığını içindən balta, nacaq seçəndə də başa düşdüm ki, yox, bu nə mənim işimdir, nə də Tapdığın.

Dedim:

– Bəlkə sədrə deyək?

Tapdıq başını buladı.

– Qılıncımızın işidi bu. Bizi qəsdən ayırıb uşaqlardan.

İstər-istəməz soruşdum ki:

– Niyə?

Tapdıq hirsləndi:

– Necə niyə?! Başın var işlət, gör niyə ayırıb!

Bu hirs mənə qəribə-anlaşılmaz göründü. Əmma "başımı işlətdim" və bütün aydınlığı ilə dərk etdim ki, dünən gecə yarıdan keçənə qədər bizlə stəkan döyüşdürdüyünə baxmayaraq Qılıncımız heç də sınmayıb, əksinə, bu odunçuluğu Tapdıqla mənə cəza kəsib ki, El yolunun sağ-solunda bütün evlərə odun çatdırmaq üçün gecəni gündüzə qatıb, yoldaşlarımızdan ayrılıb təklənək, yorulub-üzülüb, Məsi, tütək, buynuz söhbətlərinə imkan tapmayaq.

"Siznən stəkan döyüşdürürəm... Unnu bəyin mülkündə nökərçilikdə hər gün belə içib lül olan bəylərin çəkmələrini çəkdiyimi, iyindən baş çatdıyan ayaqları yuduğumu görürəm. Naşükür olmayın! Sovet hökumətinin qədrini bilin! Lümbülüm-lüt proletariat balalarına məktəb verən Stalin konstusyasına[1], Stalin yoldaşın özünə səcdə eləyin!.." – Nə qədər belə nəsihət eləmişdi! Və mən özlüyümdə Qılıncımızın sözünə qüvvət vermişdim ki, "kolxoz", "MTS", "politatdel", "NKVD" və sairə belə-belə şeylər camaatı cana doydursa da, hamının dilində-ağzında gəzən "ağa, bəy zülmü"nü yaddan çıxarıb, ağa, bəy düşməni Stalinin başına buynuz qondarmağımız, əlbəttə, ədalətsizlikdir.

---

[1] Konstitusiya

Kəlləri boyunduruğa qoşduq. Baltaları, nacaqları laydıra[1] taxıb, çörək çantalarımızı da üstündən asıb, arabanın qabaq tərəfində yanaşı oturub, bəribaşdan yorğun, könülsüz, yola düşdük.

Tapdığın çatılı qaşları, çökək sinəsi, boğuq öskürəyi, hamısı Məsi idi. Fərqi bunda idi ki, eşməni eşmənin oduna yandırırdı və bir kəlmə də demirdi.

Körpüdən keçəndə El yolundan sola burulmalı, kanal boyunca Qonaqlı meşəsinə getməli idik. Əmma kəllər bizim kotan kəllərindən olduğuna görə, vərdiş elədikləri yolla düzünə çəkdilər.

Tənək[2] məndə idi, sağdakı kəli vurmaq istədim ki, sola bassın.

Tapdıq, nəhayət, dillənib:

– Dəymə, – dedi. – Qoy hansı cəhənnəmə çəkir çəksin!

Məni heyrət götürdü.

Dedim:

– Öz meşəmizdə quru odun yoxdu axı, ay Tapdıq. Adı meşədi, özü uzaqbaşı yüz palıd, o da sanı qoz təki, hamısı ərbeşiklərin gözünün qabağında! Bircə budaq da kəssək yeri ağappaq görünəcək. Bu boyda kənddə odun verməkmi olar ordan?

Qardaşlığım yenə anlaşılmaz oldu; yenə də qəribə hirslə:

– Olar!.. Hər şey olar! – deyib tənəyi əlimdən aldı, arabanın qolu üstündə dik qalxıb kəlləri döyəcləyə-döyəcləyə bağırmağa başladı: – Allahın, bəndənin hayıfını sizdən alacam! Gündə iki ayaq, üç ayaq yaş odun daşıyacam o xaraba meşədən bu xaraba kəndə! Doldursunlar peçlərə, üfürsünlər, ətəkləsinlər, gözləri tökülsün tüstüdən, canları çıxsın! O qırılan diviziyada qırılanlardan sonra niyə yaşasınlar burdakılar?! Adammı var burda! Düz demirlərmi ki, heyvanatdı?! Boyunduruqdadı hamısı! Hansı cəhənnəmə sürürsən sür!..

Bağırmaqdan, öskürməkdən boğulub qolun üstünə çökdü, toz-torpraqdan bozarmış, çör-çöpdən didilib ordan-burdan dərisinin ağı çıxmış tufliləri yolun kələ-kötürlərinə dəyə-dəyə ayaqlarından düşəndə də arabanı saxlamayıb, hələ də nə isə deyirdi.

Araba gedə-gedə yerə atıldım, tufliləri götürüb, yüyürüb mindim. Yazıq Tapdıq nə hala düşmüşdü! Soyuq tər elə bürümüşdü ki,

---

[1] Arabanın sağ, sol söykəkləri

[2] Çubuq əvəzi nazik tənək

sifəti, boynu müşəmbələnmiş kimi işıldayırdı. Kotançılığımızın lap birinci günü şumladığımız meşəətəyi sahəyə çatanda kəllər dayandılar. Qaşlarının düyünü açılmayan qardaşlığım yerindən tərpənmədən, şumun yancağındakı yoğun, yastı-yappa palıdları göstərdi.

Dedi:

– Camaatımız bu il elə bil əlini dünyadan üzüb, uzun-uzun illərin mala, qoyuna, keçiyə palıd çırpmaq vərdişini də tərgidib.

Ağaclarda yarpaqların araları palıdla dolu idi. Şabalıd kimi qonurlaşmış iri-iri palıd hətta o vəziyyətində Tapdığı da tərpətdi.

– Çırp... qara inəyin südünü artırar, – dedi.

Fikirləşdim ki, palıd çırpmağın nə mənası var? Axı, çuvaldan – kisədən-zaddan heç nə gətirməmişdik; istər-istəməz, təəccüblə üzünə baxdım. Əmma çuval, kisə barədə dilimi tərpətməyə də qoymayıb, yenə həmin qəribə hirslə:

– Nə baxırsan! – dedi.

İtaətlə başımı endirib, ayaqqabılarımı çıxarıb, şagird vaxtlarımızda “turnik”də “meymunluğumuz”u yada salıb, əlimi alçaq, sallaq budaqlardan birinə atıb, corablı ayaqlarımı qalın, cod qabıqlı gövdəyə dirəyib ağacın haçasına çıxdım, ordan da təpiklə silkələnməsi mümkün olan nazik budaqların aralarına qalxdım. Üç-dörd təpik də bəs elədi ki, yetişib ötmüş palıd qozadan çıxıb dolu kimi tarappa-tarap yağsın.

Yuxarıdan, yarpaqların aralarından baxdım ki, yer dolub, azı bir çuval palıd var.

Dedim:

– Bəsdimi?

Dedi:

– Bəsdi.

Nacaqları laydırdan çıxarıb ağacın altına tulladı. Baltalardan birini kəmərinə sancıb arabadan endi, gəlib ağır-ağır, lap üzülə-üzülə mənim yanıma çıxdı. Nəfəsini dərib əkin sahələrimizin aralarındakı şırım-şırım yaşıl güzdəklərə[1], uzaq, hamar çöllərdə pambıq sahələrinin aralarında da şırım-şırım görünən yaşıllıqlara boylandı.

– Hə, müəllim oğlu, odunçu oldun! – deyib köksünü ötürəndə tamam başqa, elə bil min il görmədiyim əziz, doğma adamımın

---

[1] Yaz başını xatırladan təzə payız otu

üzünü gördüm: qəminə təbəssum qarışmışdı. – Vaxt varıydı, kitab əlindən düşməzdi. “Tom Soyerin macəraları”, “Dəfinələr adası”, “Başsız atlı”, “Kapitan qızı”. Nələr, nələr!.. Dədəm də, dədən də qağamı bizdən çox istəyirdilər. Əmbə sənnən, mənnən də fəxr eləyirdilər: “Çox elmli olacaqlar bunlar, ay Tahir!” Qulağımdan getmir dədəmin sözləri... Yaman elmli olduq, ay müəllim oğlu! Qılınc Qurban qoymuyacaq oxumağa! Əmbə yaxşı tanımır o məni! Muxtar Əlmədədoğlunun Tapdığı Unnu bəyin nökərinə nökərçilik eləmiyəcək! Ağzıotdu heyvan olmaram onun qabağında!

Baltanı kəmərinin altından çıxarıb yerə atdı.

– Bax belə!.. Düş arabanın içinə bir-iki qucaq ot döşüyək, palıdı yığaq dolduraq, gedək! Məlikin sözü olmasın, təklif edirəm. Razı deyibsənsə, o biri baltanı da gətir, hıqqırhahıqqır, qan-tərə bataq, düşək nacaqları götürək, arıtdıyaq kəsdiyimizi necə lazımdı, odunçuluq eliyək, gedək Qurban əmimizin tərifinə qulaq asaq, sonra da gedək qan qusaq!..

Boz at hardan, necə gəlmişdi?! Qılıncımız cin idi, şeytan idi, nə idi ki, belə birdən-birə ağacın altında peyda olmuşdu?!

– Oduna yox... Çörəyə göndərmişik sizi... Şöşü baladan ötrü çörəyə! – dedi.

Bir az susub, sonra:

– Mənə yox, camaatınıza nökərçilik eliyəcəksiniz! – dedi.

Bir az da susub, sonra:

– Qılınc Qurban nəkaradı sizi qoymasın oxumağa?! – dedi.

Qardaşlığım mənə baxdı, mən qardaşlığıma. İkimiz də başımızı endirib, necə deyərlər, dirigözlü öldük.

Qılıncımız deyinirdi:

– Böyük, kiçik qalmadı! Yanı milisənerli sovet sədrini də sayan yoxdu! Zor nəçənnik qənim olsun sizə! Bax elə bu yaşıl ağacı doğramağın üstündəcə həbs cəzası düşür. Bəhanə axtarır zor Zorra ki, ananızı ağlar qoysun! Ondan qoruyuram mən sizi! Özgə neynəyir bu Qılınc bədbəxt?! Düşün, palıdınızı yığın, sürün Meyvəliyə. Orda gözlüyəcəm. Ləngiməyin!

Boz at yorğa süzüb, necə səssiz gəlmişdisə, eləcə də uzaqlaşdı.

“Meyvəlik” deyilən yer də meşə idi. Kəndin ayağında məktəbimizdən o yanda sıx qaramıx, göyəm kolluqları ilə başlayıb, getdikcə qalınlaşan moruxluqdan, iydəlikdən, qızılcalıqdan ibarət

idi. Yalnız orda-burda cır alma, armud, yemşən ağacları vardı ki, bu da odun üçün yaramazdı. Təəccüb içində getdik.

Qılıncımız Boz atı qalın boz otluğa buraxıb, bir kötüyün üstündə oturub, əyilib dirsəklərini dizlərinə dayayıb, başı aşağı, papiros çəkirdi.

Arabanın tıqqıltısına dikəlib bizə baxanda donub qaldıq: Qılıncımız ağlayırdı! Nə olmuşdu, nə müsibət baş vermişdi ki, Qılınc Qurbanın gözlərindən yaş çıxmışdı?! Əlbəttə, çox maraqlandıq. Əmma dillənəmmədik.

Gözlərini silmədən, qaramıxlığı, göyəmliyi göstərdi.

– Bura selavdı bir vaxt. Su çox gölləndi, iri ağaclardan biri də kökü üstə qalmadı. Baltalarınız, nacaqlarınız qalsın, girin bu selava baxın, görün nə qədər hazır odun var! Kəndin qulağının dibidi. Axşamacan üç-dörd qapıya odun verə bilərsiniz.

...Meyvəlik meşəsinin girəcəyindən düz yarım ay, gündə dörd-beş ayaq odun daşıdıq. Əmma Qılınc Qurbanın yaşlı gözləri gözlərimizin qabağından getmədi. Fürsət tapdıqca ondan-bundan soruşurduq. Heç kəs, hətta Məlik də heç nə bilmirdi. Təkcə Mehbalı əmi, yəqin ki, nə isə bildiyinə görə müəmma ilə başını yırğaladı.

– Pis adam çoxdu... çoxdu, ay bala. Pis adam!.. Qılınc Qurban təki kişiləri də ağladırlar! – dedi...

## “PƏPƏ, PƏPƏ!”

Peçlərin sağ-solunda kilimlərin, palazların üstünə sərilib, quruduqca çuvallara doldurulan qarğıdalıdan dişimizə vura-vura, yəni dişləyib dəyirmənliyini yoxlaya-yoxlaya evləri gəzdik. Malyareyadan – qızdırmadan üzülüb, elə o peçlərin sağ-solunda döşəli qalıb işə çıxmayanların və Şöşübalaları olanların hərəsindən yarım çuval qarğıdalı götürüb arabamıza yükləyib, Qonaqlı meşəsində Qarasu yaxası adlanan yerdə İskəndər ağanın dəyirməninə getdik və gözlərimizin qabağından getməyən göz yaşlarının səbəbini yalnız orda bildik.

Uzun mal töyləsindən seçilməyən dəyirmənin belində Qurban əminin, Cəbrayılın pencəyinin eyni olan qara meşin pencəkdə, qara meşin şapqada, bu qaralığın arasında çox yaraşıqlı görünən sarı

köynəklə sarı qalifedə və Məsinin çəkmələrini yada salan sarı-qızılı çəkmələrdə, beli patrondaşlı, çiyni qoşalülə tüfəngli, bəstəboy bir adam dayanıb diqqətlə bəriyə – yola baxırdı.

Bizim arabanın dalınca gedən arabada Məlik dəhşət içində "booy" elədi.

– Booy! Unnu bəy!

Bolu qorxdu:

– Ola bilməz!

Tapdıq çuval qalıqlarının üstündən geri baxdı.

– Nə sarsaqlayırsan, ə! – dedi. – Dədəmin dilindən eşitmişəm ki, Unnu bəy otuz səkkizinci ildə Arazdan şığanıb keçib o taya. Ordan da gedib Türkiyəyə paşa olub, yəni general!

Məlik çuvalların üstündən tappıltı ilə tullanıb, gəlib bizim arabaya dırmandı.

– Muxtar əmi onu da demirdimi ki, Unnu bəy, bolşevik kamandirləri təki meşin geyinərdi, sultanı bığ qoyardı. Odu bax sultanı bığ!

Dəyirmənlə aramız xeyli olsa da, qoşalüləli adamın çənəsindən sağa-sola çıxmış sultan bığını görər-görməz mən o dəqiqə "ho, ho" eləyib, tənəyin ucunu kəllərin qabağına uzadıb arabanı saxladım.

Qoşalüləli adam dəyirmənin üstündən endi.

– Arabaları qoyun dursun, özünüz gəlin, – deyib içəri getdi.

Bu nə deməkdi? Necə yəni "arabaları qoyun dursun"?! Qarğıdalımızı götürmüyəcəydi?!

Tamam çaşqın, tutqun yeriyib Qarasuyun yaxasındakı çökəkdə yoğun, uzun dirəklər qalmış köhnə dəyirmən uçuğuna enib, ordan içəri keçəndə sarı torpaqlı, gilsavağı divarların arasında çiyin-çiyinə dəydik. Çünki sağımız, solumuz saysız-hesabsız çuval qalaqları ilə elə dolmuşdu ki, alaqaranlıq dərinlikdə uğuldayan qoşa dəyirmən daşlarının yanına getmək üçün bir adam keçəsi cığır qalmışdı.

Qoşalüləli adam daşlardan bir az bəridə, bacanın işığında dayanmışdı.

– Gəlin, gəlin, – dedi.

Sıralanıb getdik.

Çuval qalaqlarını göstərdi.

– Görürsünüz, nobat yoxdu, – dedi.

Bir az susub, yenə çuval qalaqlarını göstərdi.

– Baxın, görün tanıyırsınızmı? – dedi.

Baxdıq. Tanıdıq: bizim anbarın boz-ala çuvalları! Xırman yerimizdən daşınan taxılımız!

Cibindən "vayenni çast" əsgərlərinin satdıqları aliminium portsiqar çıxartdı. Portsiqardan uzun, bahalı papiros çıxartdı, dirək haçasında saralan qaraçıraqdan yandırıb, dördümüzə də bircə-bircə diqqətlə baxıb:

– Tanıyıram hamınızı. Atalarınıza oxşayırsınız, – dedi.

Papirosunu çəkib, bir az da susandan sonra:

– Qılınc Qurbana xəbər çatdırmışam, bilir, – dedi.

Bir az da susandan sonra:

– İçəridə ard unu[1] boğur adamı. Çıxaq eşikdə danışaq, – dedi.

Çıxdıq.

Qabağımızca arabalara doğru gedə-gedə, geri baxa-baxa danışırdı:

– Bayaq eşitdim sözünüzü... Unnu bəy deyiləm mən. Ordenli şairiniz Səməd Vurğunun əmisi İskəndər ağayam... Bir vaxt varıydı... Unnu bəyi qoşa daşların arasına yıxdım, dedim tərpənsən daş beyniyin qatığını una qarışdıracaq. Heç tərpənmədi. İndiki Qılınc Qurbanınıza, o vaxtkı qurbanlıq qoyun təki boynuburuq Qurbana dedim gəl hayıfını çıx. Qurban baxdı gördü bəy başdan-ayağa una batıb, dedi "belə Unnu bəyə toxunmaram mən, özün necə tüfəngli, tapançalısan, məni də bu cür tüfəngli, tapançalı elə, bu Unnunun yeddi arxadan dolananlarını qırım-çatım, bəlkə onda günümüz ağarar..." Tüfəng də verdim, başına adam da yığdım.. Xülaseyikəlam, o vaxtdan o Unnunun adı qaldı Unnu bəy!.. Bu təzə dəyirməni mən tikdirmişəm. Bir dəyirmənim də Qarayazı meşəsindədi. Biri də Əskipara meşəsindədi. "Niyə bu qədər?.. Camaata yaxşı un verirəm. Yaxşı çörək!.. Səmədimiz şerinə görə qalacaq tarixdə. Mən də bu cür qalaram. Gedənlərimizin, qırılanlarımızın oğul-uşağına çörək verməknən... Əmbə indi belə oldu. Vayenni çastdan gecə də saldat gəlir, gündüz də. Qaraulunu çəkirlər taxılın. Üyüdürəm, daşıyıb aparırlar. Qurban bilir. Dedim göndər uşaqları. Dəyirməndə yer yoxdu, açığa yığdırram qarğıdalını, üstünü örtdürrəm, yağan-əsən dəyməsin. Daşıyın o köhnə dirəklərin arasına qoyun, gedin, işinizdə olun. Əmbə Qılınc Qurbanı incitməyin ha! Cəbrayıla da ismarlamı-

---

[1] Dəyirmən daşlarının kənarlarından qalxan un tozu

şam, hamılıqnan qədrini bilin Qurbanın. Odu bu saat sizi saxlıyan. Erməni, rus dartıb yeyir xalqımızı!..

Dinməz-söyləməz, daşıyıb deyilən yerə yığdıq. Əllərimiz sallana-sallana, kor-peşman, dərd-qəm içində, arabalımıza mindik.

İskəndər ağa danışardı:

– Təkəm burda... Adam içinə çıxammıram. Əmbə xəbər gətirənlərim, xəbər aparanlarım var. Darıxmayın. Çörəyiniz olacaq. Lap tezliknən... Gedin, uğur olsun!

Getdik.

Bir həftə də çəkmədi ki, gecənin yarısında eyvanda, dirəyin dibində barmaqlarımı qulaqlarıma tıxayıb, oturub, o sultanı bığlı kişinin "lap tezliknən" sözlərini xatırlayırdım ki, birdən Tapdığın əllərini qulaqlarımda hiss etdim.

– Tıxama! Bəsdi! Gəl! Un var! Gedək gətirək.

Anam adəti üzrə, səsə çıxıb qapını aralı qoydu. Lampanın işığında Tapdığın gözləri parıldayırdı.

– Bu müəllim oğlunu yaman zəvzəv böyüdübsən sən, ay Əsmət xala. Direktorumuz ciyərli kişiydi. Kimə oxşayıb bu əfəl?

Zarafatından da hiss elədim ki, necə olubsa, işimiz düzəlib.

– Gec gələcəyik, Əsmət xala. Gözləmə, yıxıl yat, – deyib qolumdan çəkdi. – Gəl, ay əfəl!

El yolunda papiros işıltıları vardı. Yaxışlaşanda eşmələrin tez-tez alovlanan qəzetlərinin işığında gördüm bütün dəstə burdadır, hamısı da sevinir.

Məlik çənəsilə məni göstərib Tapdığa baxdı.

– Bilirmi?

Tapdıq başını buladı.

– Bilsə, getməz bu.

Məlik dedi:

– Bilməlidi. Gedib əliboş qayıtsa pis olar.

Tapdıq dedi:

– Dədəsi ayrı cür tərbiyə eləyib bunu. Biz təki deyil.

– Məlik bir də dedi:

– Bilməlidi!

Sonra tapdığın etiraz eləmədiyini görüb açılışdı:

– Məsələ belədi, Nuru. İskəndər ağanın sözü yadındadımı? "Xəbər gətirənlərim, xəbər aparanlarım var". Dağdağan təki, Məsi

təki qaçaqlarıymış İskəndər ağanın dediyi adamlar. Qarayazı meşəsindən, Ələsin qalını[1] deyilən, yerdən ismarlayıb gətirdib. Dəmir yolunda eşalondan vaqon açıblar, itələyib qoyublar tupikə. Məhərin budkasının yanındakı tupikə. O vaqondan gətirəcəyik unu. Bir yekə vaqon dolusu undu...

Mənim canım çimildəşdi.

– Oğurluq eləyirsiniz?!

– Yox, oğurluq deyil, Nuru.

– Bə nədi?!

– Məsəl var, oğrudan oğruya halaldı. Bizim ruzumuzu əlimizdən alanların unudu o vaqondakı.

– Vayenni fondun?!

– Yox, Nuru, yox! Məni boş-boşuna qoymayıblar komsomol təşkilatçılığına. Hökumətin əleyhinə deyiləm mən. Əmbə qırılan diviziyada qırılanlarımızın xəbəri gələndən sonra mən cəbhədən qaçanlarımızda günah görmürəm. İskəndər ağanın çağırdığı qaçaqlar bizim düşmənlərimizin düşmənləridi. O un da, dedim urzumuzu kəsən düşmənlərimizin unudu. Yüz tondumu, min tondumu, bilmirəm. Əmbə çoxdu. Sağımızda, solumuzdakılar – Qurbanlılar, Qonaqlılar qaranlıq qovuşandan bəri atlı, ulaqlı, vurhay daşıyırlar. Bizim qocaqoltaqlar sən təki danışıblar qaçaqlarnan: "Eşalonnan daşınan un vayenni fond unudu! Acınnan qırıllıq, pencər, ot yeyərik, əsgərin ununa əl uzatmarıq!" Bizi də elə ağsaqqallar belə ləngitdilər. Bundan artıq ləngimək olmaz daha. İşıqlaşanda yəqin bütün NKVD töküləcək ora – vaqonun yanına!..

– Dayan! – dedim. – Qurban əmi niyə icazə verir belə şeyə?!

Məlik qımışdı.

– İskəndər ağa axşamdan qonaq çağırıb meşəyə Qurban əmini, başını qarışdırıb ki, maneçilik eləməsin camaata.

Mənim heyrətim, dəhşətim sözlə deyiləsi deyildi. Əmma marağım da hədsiz idi.

İdarə həyətinin darvazasının qabağından keçəndə soruşdum ki, bəs arabadan-zaddan aparmırsınızmı?

– Yox, yox! – dedilər. – Taqqıltı salmaq olmaz. İri qaraltı olmaz. Xəlvət işdi axı, ay Nuru!

---

1 Qaçaq Kərəmin kiçik qardaşı ƏlƏslə dəstəsinin gizlin məkanı. Müharibə illərinin qaçaqları da həmin qalında – cəngəllikdə qalırdılar.

Özümü saxlaya bilməyib, bir də “oğurluqdu bu!” – dedim və peşman oldum: qabağımca yortan Tapdıq geri dönüb elə bağırdı ki, bütün dəstə dayanıb bizə baxdı.

– Qayıt! Get otur dirəyin dibində, barmaqlarını tıxa qulaqlarına! Uşağın boynu çöpə dönüb! Əsmət xalanın gözünün yaşı qurumur! Bu əxlaq dərsi deyir mənə! Rədd ol! Qayıt!

Başım sinəmə endi.

Bütün yolu daha dillənəmmədim.

Qurbanlı ilə dəmiryolunun arasındakı çəmənlikdə su gölməçələrində ayaqlarımız, üst-başımız islana-islana gedib Məhərin budkasının yanında dayanmalı olduq.

“Budka” deyilən yerin ətrafından başlamış, sulu-selli çəmənlikdən sağa-sola doğru yer elə ağarmışdı ki, elə bil qar yağmışdı, qatı qaranlıq gəyənimiş – işıqlanmışdı.

Vaqon, “budka”dan – yarımstansiyadan bir az aşağıda, sürtülməkdən işıldayan relslərlə yanaşı “tupik”i – qoşa, qısa relslərin üstünü bütün tutmuşdu. Yəni çox uzundu. Boz-ağımsoy dəmir vaqondu. Qapısı darvaza təki açılmışdı. Qapının dalında cırılıb dağılmış, ağızlarının tikişləri sökülmüş kisələrdən o tərəfdə toxunulmamış kisə yığını ağarırdı.

Hardasa at fınxırdı. Diksinib “budka”nın o yan-bu yanına baxdıq. Mənə elə gəldi ki, yəqin Qurban əmidir, necə deyərlər, dədəmizi yandıracaq. Əmma atın rəngi tünd idi, “budka”nın böyründəki dəmiryol tirlərindən – “şpal”lardan birinə bağlanmışdı. Diqqətlə baxanda gördük “şpal”ların üstündə qucağı beşaçılanlı bir adam oturub. Cəbrayıl?!

– Mənəm, – dedi. Əlində “vayenni çast” əsgərlərinin qatığa, suya dəyişdirdikləri xırdaca fanarı parıldadı.

– Məlik, gəl, al bunu, – dedi, – o yazını göstər oxusunlar, inansınlar ki, soyğunçuluq eləmirik, soyğunçulardan haqqımızı alırıq!

Məlik yüyürüb fanarı gətirdi.

– Tez olun! Tez! Tez! – deyə-deyə qabağımızca yeriyib vaqonun yana sürçüdülmüş dəmir qapısının üstündə, iki adam boyu hündürlükdə qara yazını işıqlandırdı. Dedi: – Biri ruscadı: “Vsyo dlya fronta”. O heç, altındakına baxın, ermənicədi: “Hay, halal ela”. Yəni “halalın olsun, erməni”. – Üzünü mənə tutdu: – Bildinmi iş nə

yerdədi, ay müəllim oğlu?! Vayenni fond adına bütün rayondan yığıblar taxılı, İskəndər ağanın Qarayazıdakı, Əskiparadakı dəyirmənlərində üyüdüblər, belə hökumət kisələrinə doldurublar, hamısının da üstünə yazıblar: “Hay, halal ela”. Baxın!

Baxdım. Qapının ağzındakı partlamış, sökülmüş kisələrin hamısının üstündə qara rəngdə çap hərfləri vardı: “Hay, halal ela”.

Mənim beynimdə sual pərçimlənmişdi: “Qorxuları yoxdumu bu hayların?!”

Məcbur olub sualı dilimə gətirəndə Cəbrayıldan qəzəbli cavab aldım:

– Bir respublikanın ki, xazeyinləri Markaryannan Qriqoryan ola, orda kimdən qorxsunlar sənin baban Gülənin törəmələri?!

Səsim batdı.

Cəbrayıl “budka”nın belinə qalxmışdı. Tüfəng əlində, o yan-bu yana boylanırdı.

– Baban həməşə gülüb bizə: “kirvə – gir evə” deyərmiş həyasız-həyasız! İndi də törəmələri gülürlər: “Hay, halal ela”. Axşamdan bəri dağıdırıq vaqonu, Zor nəçənniyin sorağı yoxdu! Heç sabah da gəlmiyəcəklər, o biri gün də. Çünki tək mən deyiləm burda əli tüfəngli gözlüyən. İşinizdə olun!

Məlik fanarın dəyirmi işığını yuxarı qaldırdı.

– İndi ora bax! “Kirovakan. Polevaya poçta nolevaya”.

Baxdım. Oxudum: “Kirovakan. Polevaya poçta nolevaya”.

– “Nolevaya”. Yəni sıfırıncı. – Məlik əlini ağzına tutub güldü. – Həqiqi sıfra döndərdi qadasın aldığım İskəndər ağa! Di götürün, kim nə qədər bacarır o qədər götürsün. Artığını tökün! Hayıfınız gəlməsin! Odey, Qurbanlının, Qonaqlının uşaqları görün nə qədər töküblər yerə-yurda!

Birinci Bolu tərpəndi. Qapının ağzındakı ağzı sökük, yarıboş kisələrdən birini qucağına alıb mənim belimə qoydu. Sonra dolu, ağır bir kisəni çiyninə qaldırıb:

– Gəl, Nuru! Mən sənnən getməliyəm. Tapşırıq belədi. – dedi.

Vaqondan aralananda soruşdum:

– Uşaqları niyə gözləmədin?

Dedi:

– İkibir, üçbir, dağınıq getməliyik. Cəbrayıl tapşırıb Məlikə. Ehtiyat igidin yaraşığıdı.

Bir az susub, sonra dedi:

– İslansaq da genə çəmənlikdən getməliyik. Ayaq izini, undan töküləni sel-su batırsın. Yola, quruya çıxsaq hökmən iz qalar. Möşöyləri[1] çox sürüyüblər o yan-bu yana, mıxa, taxta-tuxtaya-zada keçib, işıqda görəcəksən yırtıq-sökükdü hamısı...

Bolu tövşüyə-tövşüyə, hıqqana-hıqqana elə hey danışırdı.

– Geri qalma. Ayaqlı ol bir az. Qorxma, yorulsan, möşöyünnən bir yerdə özünü də götürrəm! İraq ata-anamdan, eşşəkdən betər olmuşam bu yay. Malatilkaynan talvarın arasında çuval daşımaqdan baldırlarım elə xamlayırdı ki, sabahısı kotanın dalınca yeriyəmirdim. Budlarıma baxırdım soyunanda, deyirdim şişibdi-nədi, bu yoğunluqda da budmu olar!..

Qaranlıqdan eyməndi-xoflandı, ya nə? Niyə çox danışırdı?

Belə-belə şeylərdən o qədər danışırdı ki, mənim hələ Qurbanlıya çatmamış taqətdən düşüb yarımçıq kisənin altında xırıldadığımı eşitmədi.

Qurbanlının alt tərəfindən keçib kanal boyuna çatanda da danışırdı:

– Körpü uzaqdı. Buralarda bir yerdən şığanaq, kəsə gedək. Yaman ağırıymış bu dolusu. Azaltmağa heyfim gəlir. Ölsəm də azaltmaram. Lap iməkləsəm də azaltmaram!..

Xəbəri yoxdu ki, mən daha iməkləyirdim. Çiyinlərim elə bil doğranırdı. Dizlərim dəhşətli ağrıdan qatlanıb yerə dəyəndə əllərimi, biləklərimi, qollarımı da ağrı götürdüyünə görə əvvəlcə üzüüstə döşənib çalışdım ki, kisə belimdən aşırılmasın. Lap azca – beş-on saniyə nəfəs alıb dirəklənməyə çalışsam da ayağa qalxammadım, elə dörd əl-ayaq üstə getdim.

Nəfəs borusu deyilənim elə daralmışdı ki, boğazımdan əməllibaşlı xırıltı, uğultu, güyültü çıxırdı.

Bolu daha danışmırdı.

Kanalın qırağının alçaraq bir yerində döşünü torpağa verib:

– Bir az dincələk, – deyəndə gördüm öyüncək gombulumuz da iməkləyirmiş.

Boğazımın güyültüsü azalanda nəfəsindən hiss elədim ki, deyəsən o da boğulurmuş.

---

[1] Meşok – kisə

Arxada – gölməçələrdə sular şappıldadı. Sonra çaparaq gedən at nəfəsi kimi fıs-fıslar, ayaq tappıltıları eşidilə-eşidilə yaxınlaşıb, bizdən otuz-qırx addım aralı keçib getdi.

Dedim:

– Bolu, uşaqlar körpüyə gedirlər. Bəlkə biz də gedək?

Dedi:

– Əşi, Tapdıq, Məlik cürəfəsiz şeylərdi. Yəqin lap alayarımçıq möşöylərdən götürüblər, onçun elə uzaqdan hərlənirlər kəndə. Mənimki, görmürsənmi, yüz kiloluq möşöydü. Dincələk, bu saat keçərəm arxdan, qayıdıb səninkini də keçirrəm.

Dedim:

– Yaxşı, sən deyən olsun. Yazıq uşaq cadı, hədiyi görəndə yumruqlarını başına çırpır. Mən axmaq bir-iki dəfə o cür eləmişəm, görüb. İndi qəşəngcə döyür ey özünü! Kəsə gedək. Anam yatmayıb. Yoğursun, əlüstü kələfətir eləsin, yazıq qaqaşım yesin. Səndən nə gizlədim, elə özümün də ortam üzülüb!

Bolu əlinin birini kisənin qulpundan çəkib yumruğunu yerə çırpdı.

– Baisin evi yıxılsın! Düzü-dünyanı götürmüşdü taxılımız!..

Yenə nə isə demək istəyirdi ki, birdən Məhərin budkası səmtində dalbadal beşaçılan guruldadı. Bunun dalınca dəmir yolun bəri yanında və o tərəfində gurhagur, çata-çat düşdü. Qurban əminin qışqırtısı güllələrin səslərinə qarışdı:

– Eeey! Qazağın Muğanlısından Pirtökən Məhəmmədsən[1] sən. Dəstəndəkiləri də tanıyıram! Bir faşist hökuməti yox, on beşi olsun, Sovet hökuməti yıxılan deyil! Padmaskvoydan[2] qoparağını götürüblər faşistin! Eşidirsənmi, ay Pirtökən? Sovet ordusu hücuma keçib, ay bədbəxt! Amerika da Rusun tərəfindədi!.. İngilis də Rusun tərəfindədi! Onlar da o yandan başlayırlar hücuma! Hitlerin vayıdı! Arvad-uşağınızı bədbəxt eləməyin, təslim olun! Ya da özünüz könüllü üzə çıxın, tövbə eləyin, ay Pirtökən! Qorxma, güllələmiyəcəklər. Danışmışam, NKVD-də işliyəcəksiniz, o biri qaçaqları üzə çıxardacaqsınız! İnan mənə!

---

1 ƏlƏsin qalınında gizlənən qaçaqlardan ən məşhuru. 1943-cü ildə öldürülüb.

2 Moskvaaltı

Cavab əvəzində dəmir yolunun o yanındakı xırlıqda-daşlıqda çoxlu nal səsləri şaraqqa-şaraq salıb, Qonaqlı meşəsinə doğru uzaqlaşdı.

Bir az sonra istrebitelni batalyonun atları gölməçələrdə şarappa-şarap salıb, gedib Qurbanlıya doldu.

Qurban əminin səsi "budka" səmtindən gəlirdi:

– Alimliyini gözümə soxurdun! İndi nə deyirsən, ay quldurbaşı? İskəndər ağa Vəkilovun arxasında Səməd Vurğun təki əjdaha dayanıb! Sənin arxanda duran kimdi?! Bədbəxt Sultan nə təhər çıxardacaq indi səni NKVD-nin dustaqxanasından?! Havaxtacan oyun açacaqsan sən mənim başıma, Cəbrayıl?!

Cəbrayılın səsi də lap aydın eşidildi:

– Sinən doludu ordennən. Bu Gülənuşağının əməllərini niyə çatdırmırsan yuxarılara?!

Qılıncımızın səsi alçaldı:

– Sultannan vayenni çastda palkovnikin yanındaydıq. Səkkiz çuval çıxartdıq dəyirməndən, doldurduq maşina göndərdik. Zibeydədə hazırdı toxumluğunuz. Oğrubaşılığa qarışıb başın, səpini yaddan çıxardıbsan! Sür Xarleni! Bütün sovetlikdə, evlərdə bir dənə də möşöy qalmamalıdı! İşıqlaşana qədər hamısını qaytarmalıyıq, doldurmalıyıq yerini. Gün çırtanda nə o vaqon burda qalmalıdı, nə də düzü-dünyanı ağardan tökülüntü! Erməninin kartofu da qalmayıb deyir Sultan. Gülənuşağının kəndi Vartanada it əti yeyirmişlər. Bu Zor köpəyoğlu Vartanadan bu vayenni çasta qədər başını maşının kabinkasının qapısına döyüb, palkovnikin kabinetinə girəndə yıxılıb, tir-tap, özündən gedib. Ayılanda deyib uzaqbaşı bir həftəyə, on günə çörək göndərməsən, səni də vuracam, özümü də. Fikir ver, gör iş nə yerdədi, Cəbrayıl! Bilirsən, sürgün planı ermənidən çıxıb. Çoxdan yiyələnməyə çalışırlar onlar bizim yurd-yuvamıza! Bu "kirvə – gir evə" deyənlərin qanını içərəm! Əmbə Qılınc Qurbanam mən. Ədalətim var! Ac qılınca çapar deyirlər. Sür, sür! Sabah açılır. Bir dənə də möşöy qalmasın Tahirlidə! Mən gərək hələ stansiyaya da gedim. Gürcülərə yalvarmışam, paravoz göndərsilər. Kirovakana gedən eşalon Naftuluqdadı. Parovoz tez çatdırsın bu vaqonu ora!

Qurban əmidən çox söz eşitdim. Hamısına da özlüyümdə haqq verdim.

Dedim:

– Mən belə çörək yeyəmmərəm, Bolu! Boğazımdan keçməz. Qaqaşıma da verməzəm!

Boludan səs çıxmadı. Mən geri dönüb vaqona doğru iməkləyəndə o da mənim dalımca iməkləməyə başladı.

"Budka" səmtində, dəmiryolun yanında kimlərsə, əllərində lapatka, bel, kanalın bir tərəfini deşib, gurhagur axan suyu undan ağaran düzəngaha yönəldirdilər. Biz köməkləşib, kisələri vaqona qaldırıb qayıdanda su düzəngahın yarıdan çoxunu götürüb ağartını aparmışdı.

## YAXŞI, PİS ADAMLAR

Evə baş salammadım. Çörək çantamı buynuzdan asılı qoyub, gözlərimdən yuxu tökülə-tökülə yüyürüb, dən-buğda çuvalları ilə dolu arabanın dalınca ayaqlarını sürüyə-sürüyə səpinə gedən yazıq, ölüvay uşaqlara qoşuldum.

Yenə manqalara bölünmüşdük. Üçpara kəndin üçünə də qulluq eləyən dəmirçi İsfəndiyar öldüyünə görə səpin dırmıqlarımızın tökülmüş dişlərinin əvəzində diş saldıra bilməyib, dəmirağac, qaraağac çubuqlarından "Təpən"[1] düzəltdik. Mehbalı əmi qarısının önlüyünü toxumla doldurub, belinə bağlayıb "Bisimillah! Bərəkətli olsun, ya Rəbbim!" – deyib, ovuc-ovuc dəni şuma şırhaşır səpə-səpə qabağımızca getdi. Tapdıq, kotançılıqda olduğu kimi, zəncirin üstünə qalxıb, gah boyunduruqda, gah da kəllərdən birinin belində otura-otura təpəni səpinçinin dalınca çəkdirdi. Mən isə, əlimdə yüngül lapatka, təpənin dalınca, üzdə qalan dənləri torpağa basa-basa getdim. Lal-kar kimi dinməz-söyləməz, tənəffüslərdə hədik, meyvə qurusu – qax yeyə-yeyə və elə qax ilə də yarpız çayı içə-içə soyuqlar başlayana – qırov düşənə qədər səpdik.

Sükutumuz, əslində sükut yox, yas kimi bir şey idi. Həvəs yox, fərəh yox, analarımız, bacılarımız, Şöşü balalarımız quru qaxac! Başımızın üzərində zenit mərmilərindən uzaq göy qatında qorxusuz-hürküsüz, cəzasız faşist təyyarəsi!.. İskəndər ağa Vəkilov yoxa çıxmışdı. Danışırdılar ki, Qarayazı meşəsində, Muğanlı kəndində ev tikdiribmiş, Novruz adında oğlu ilə iki qızını o evə köçürübmüş

---

[1] Taxıl səpinində dırmığı əvəz edir; toxumu torpağa təpib, şumu hamarlayır.

ki, özünün başına bir iş gəlsə, dəyirmənləri uşaqları işlətsinlər. Əmma özü yoxa çıxandan sonra oğlunu tez-tez NKVD-yə aparırlar, danışdırırlar, əziyyət verirlər. Buna görə də üç dəyirmənin üçü də bağlı qalıb; dəyirmən daşlarını "dişəyən" – üyütmə "diş"ləri itiləyən tapılmır. Yəni kəndlərdə dəyirmənə bələd bir adam qalmamışdımı?! Bu qədər ac-yalavac insanın dərdini yüngülləşdirəsi bir rəhbər-filan yoxdumu?! Mən yəqin bilirdim ki, Mehbalı əminin də içi qaynayırdı, Tapdığın da. Əmma işimizlə bağlı qırıq-qırıq sözlərdən başqa heç nə deyəmmirdik.

Mehbalı əmi tək bir dəfə dözməyib:

– Səbirli olun, ay bala. Səbirli olun, – dedi.

Onda da Tapdıq bağırdı:

– "Ölmə, eşşəyim, ölmə, yaz gələr, yonca bitər!" – deyib, süfrəmizdəki soyuq qarğıdalı hədiyini ovuclayıb kənara tulazlayıb, yazıq kişinin qəddini əydi.

Mən Muxtar əmi ilə atamı hər beş-on gündənbir xəngəl bişirtdirib araq içdikləri vaxtlar anamın çardaqdan asılı ələkdə saxladığı qurutlardan qalmış duzu üzünə çıxmış bir qurut tapmışdım, qara inəklə danasının palıdından bir xeyli gətirmişdim ki, səpin yerimizdə qaladığımız ocaqda şabalıd kimi qovurub qurutla yeyək. Əslində, bu qovrulmuş palıdla qurut o qədər də pis nemət sayılmırdı; bu neməti biz dünyanın düz vaxtların da yeyirdik. Əmma Tapdıq onu da tulladığı hədiyə bərabər tutdu; süfrənin qırağından dik qalxıb, ocağın qorunun altında qovrulduqca çathaçat partlayan palıdları təpiyilə vurub toz-torpağa qatışdırdı, ayaqlayıb əzik-üzük elədi. Sonra axşama qədər hodağa minmədi. Yazıq ağsaqqala nə qaldı deməsin?!

– Tüpürüm sənin səbirinə, əkininə, səpininə! Noyabr, dekabr, yanvar, fevral, mart, aprel, may, iyun, iyul! Doqquz aydan sonra taxılı yetişəcək möhtərəm ağsaqqal Mehbalı kişinin! Malatilkadan çıxacaq, İskəndər ağanın xaraba dəyirmənində nobata qoyulacaq, əgər dəyirmən işləsə! Bu da on ay!.. Toxumdan oğurlayıb qaynatdığı hədik boğazından keçmir camaatın! Qarğıdalını kirkirədən keçirirlər, yarmasını qaynadırlar hər gün! Hər gün! Hər gün! Sabah-birisigün bu da olmuyacaq! Qadı kişi deyir həftədə bir dəfə də ayaqyoluna gedəmmirəm, qarın-bağırsağım quruyub, ədalət

qılıncımız özü, istrebitelni batalyon üzvləriynən bir yerdə, hər ay payok alır hökumətdən! Un! Ət konservası! Balıq konservası! Qənd! Yağ! Hər şey! Boyunları təkər topudu hamısının! Niyə qoymadılar dağıdaq o "hay, halal ela" vaqonunu?! Neyniyək indi, a kişi?! Zor nəçənniyin it əti yeyən hayı buğda çörəyi tıxışdırsın, direktor Tahirin balaları Qara inyəin axurunda palıda diksinlər gözlərini?! Əsmət xala deyir axşamda-sabahda vaxt tapın gəlin dananı aparın Qaratəpə bazarına, görün hazır un tapılarmı orda, dəyişdirin una, yoxsa uşaq əldən gedəcək!.. Soraqlaşdım, belə ikiillik danaya – yazabuğaya ikicə pud arpa verirlər Qaratəpədə! Buğda deyənin qulağını kəsirlər! Neyniyək, deyirəm?! "Səbirli olun, ay bala! Səbirli olun!" Əkin-səpindimi səbir, əkək-səpək, yığaq, səbirli olaq?! Sən arxayınsanmı ki, bu səpdiyimizdən yığılandan bir şey qalacaq əlimizdə?! Muxtar Əlmədədoğlu on beş sürüyə çatdırmışdı qoyun fermasını, indi heç ikisi də qalmayıb sürünün! Hara daşıyır o yekə maşınlar bizim qoyunu, malı?! Pendirə, yağa niyə həsrətdi bu camaat, a kişi?! Niyə "arxa cəbhə" deyirlər bizə?! Həqiqətən arxa cəbhədisə, niyə bu kökə salıblar bu arxanı? On altı yaşım tamam olur indi mənim, on yeddiyə keçirəm. Hay Arşaluys çağıracaq həkim kəmisyəsinə salsın, təzə yaş versin, bassın eşalona! Gedərəmmi?! Qırılan diviziyanı ön cəbhədə qırsınlar, arxadakıları da arxada qırsınlar, gözümüz görə-görə, ağlımız kəsə-kəsə gedək biz də qırılaq?!

Hətta şər qarışana yaxın kəndə qayıdanda da soyumamışdı.

– Altmış yaşlılara əlli yaş verdirir Arşaluys, raboçi batalyona basır![1] Əlli yaşlılara qırx yaş verdirir, on-on beş gün "ras-dva"[2] keçdirib ön cəbhəyə basdırır, basmadığını da soğan qabığı təki soyur, lüt eləyir! Məlik deyir yuxarılara yazmaqdan barmaqlarım qabar olub, elə bil kor quyuya daş atıram, səsi də çıxmır! Açıq imzaynan yazır ey! Deyir qoy mənə də çoyutma güllə dəysin, kəndimizin bu gününü görməyim! Qılınc Qurbanın üzünə qayıdır Qurban əmisinin istəkli Müxbiri, ay "səbir", "səbir" deyən!..

Beləcə, bütün günü öskürə-öskürə, boğula-boğula deyinəndən sonra, gözlənilmədən:

---

[1] Cəbhə xəttində səngər qazmaq üçün batalyonlar

[2] Hərbi təlim

– Özünə ayrı hodaqçı tap! – dedi və nə sabahısı işə çıxdı, nə də sonralar. Mən hodaqçı oldum, Mehbalı əminin qarısı lapatka götürüb, çala-çuxurlarda büdrəyə-büdrəyə, yıxıla-yıxıla təpənin dalına düşdü. Elə qarı da xəbər verdi ki, Muxtarın kiçiyi, yəni Tapdıq "Dağdağannı gədəsini", yəni Bolunu da səpindən saxlayıb, Əsmətin danasıynan bir qoyununu aparıb dəyər-dəyməzinə arpa ununa dəyişdiriblər, "Tahirin", yəni atamın çəkmələrini satıb, "uşağa", yəni Şöşüyə bulka-mulka alıblar.

Bu xəbəri eştdiyim günün axşamısı qoşa kərənlərin yanına çatanda yoldaş burulub Məsinin damına getdim və həm məzəli, həm də fikirləşəndə adamı dəhşətləndirən bir hadisənin şahidi oldum.

Məzəli bu idi ki, kolxoz idarəsindən Muxtar əminin zarafatla "şah təkti" adlandırdığı hündür, arxası naxışlı kreslonu oğurlayıb, damın ortasında kilimin üstüünə qoyub, Tapdığı "şah", damı "şah sarayı" elan eləyib, Bolunun bu dəfə vedrədə gətirdiyi çaxırdan dolça ilə, camla içə-içə "diringiyə süzürdülər", yəni qaval, dəf əvəzinə sini çala-çala olynayırdılar. Orta dirəyin haçasında və harmalarda qara çıraq çox olduğuna görə qaranlıqdan işığa düşəndə gözlərim qamaşdı, işığa alışanda isə, "şah təxti"nin dövrəsində Boludan, Həbəş Qara ilə Qoradan başqa, hətta Məliki də tamam "pyan" – sərxoş gördüm. Sonra birdən gözüm Cümrünün üzünə dirənib qaldı; qağamız orta dirəyin dibində, ocağın qırağında oturub, başını sinəsinə əyib, elə bil tüstüdən yaşarmış gözlərini silir, əslində isə çənəsinin dərisi titrəyə-titrəyə ağlayırdı.

Yaxınlaşıb Tapdığı dümsüklədim.

– Qağam niyə ağlayır?!

Gözləri axa-axa güldü.

Dedi:

– Əbləhdi qağam! O sən təki, sən də qağam təki axmaqsınız! Qaratəpədən qayıdanda gördük fermamızın sürüsü meyvəlikdədi, çobanın da başı qarışıb, göyəm qurusu tıxışdırır kolluqda. Qoyunun ağzını tutdum, aşırdım Bolunun belinə! Odu bax! Məsinin xançalı da odu ocağın qırağında, axşamdan bəri yalvarıram ki, kəs öz əlinnən harasından istəyirsən, külləmə elə, ye, ay qağa! Ağlayır elə axmaq!

Dirəkdən asılı qoyun cəmdəyinin bel sümüyü ilə bir budu qalmışdı.

Yumruğum öz-özünə düyünləndi. Necə vurduğumu bilmədim. Tapdığın burnundan qan töküldü.

Çıxıb gedirdim. Bolu pencəyimin boynundan yapışıb necə çəkdisə, arxasıüstə aşırıldım.

– Şah buyruğundan çıxmaq olmaz! – deyib, ayaqlarımdan yapışıb, sürüyüb aparıb ocağın qırağına tulladı. Əlini döşünə qoyub kresloya doğru baş əydi.

– Bunun cəzası nədi, şahım?

Tapdıq üst-başı qanlı, sinəsi xışıldaya-xışıldaya güldü.

Dedi:

– Cəzası – kabab!.. Bizim halal qismətimizi oğurluq sayanın cəzası oğurluq ət kababıdı! Oturt orda, qaqaşının yanında, kababı bas ağzına! Üstdən də camnan çaxır!

"Qaqaşının yanında" deyəndə elə bildim Cümrünü deyir. Sonra əlini uzatdığı tərəfə baxıb, elə yıxılı-yarıuzanıqlı halımda, Şöşü ilə yeddi-səkkiz uşaq gördüm; qapıdan sağda, kilim üstündə dövrə vurub, bardaş qurub, əlləri, üz-gözləri küllü-kömürlü, vurhay ət dartışdırırdılar.

Xeyli vaxtdı Qarabaşı görmürdüm. Havaların hələ bir az istirək vaxtları Şöşünün əlindən tutub buraya – Tapdığın yanına gələndə küçük də dalımızca düşüb, ayaqlarımıza dolaşa-dolaşa gəlib getmişdi. İndi birdən-birə gördüm bu küçük daha o küçük deyil: xeyli irilənmişdi. Şöşünün böyründə üzüüstə döşənib, lap yekə bir ət parçasını – külləmə kababı əllərinin arasında sıxıb çəkişdirirdi.

Bolu sürüyüb məni Qarabaşın o biri tərəfində kilimin ütünə çaxdı, ortalıqdan uzununa kəsilmiş iri bud külləməsi götürüb ucunu ağzıma soxdu. Yedirdib, üstündən də, "Şah"ın buyurduğu kimi, bir cam çaxır içirtdi.

Sifətimə, canıma alov doldu. Ürəyim çırpındı. Başım qıjıldadı. Şöşü qalxıb gəlib, böyrümdə fısıldayıb-tısıldayıb başını dizimin üstə qoyub yatdı. Qarabaş da gəlib qucağımda sərələnib xumarlandı. Sonra məni də yuxu tutdu.

Bir də o vaxt ayıldım ki, Cəbrayıl Tapdığın qabağında dayanıb bağırırdı:

– Bax gör, neçəsini saxlayıbsan işdən?! Pambıq qozalanmalıdı![1] Taxıla dondurma suyu verilməlidi! Qocalı-qarılı, qızdı-gəlinli şilkütdü hamı! Kimi işlədək?!

---

[1] Soyuğa düşüb açılmayan qozaları yığıb, dırnaqla açıb qurutmaq

Tapdıq kresloda saymazyana yayxanmışdı. Məsinin qılınc kimi uzun, ağdəstə, parıltılı xançalı əlində idi. Dili dolaşa-dolaşa:

– Get!.. Get burdan! – dedi. – Şah sarayıdı bura! Burdakılar da şahın əyanlarıdı! Öl desəm ölərlər, qal desəm qalarlar! Bildin?! Lap belə canın çıxsa da çıxmıyacayıq işə! Cəhənnəm ol!

Cəbrayıl Məlikə tərəf döndü.

– O vedrədən su vur bunun üzünə!

Məlik güldü.

– Çaxırdı vedrədəki!

Cəbrayıl dedi:

– Sən ki, ağıllı oğlanıydın, niyə qoşuldun bu dəli-divanələrə?!

Məlik elə gülürdü-hırıldayırdı:

– Ağlı başında olan NKVD-dən material yazarmı? Təzə-təzə başa düşürəm ki, elə mən özüm də dəli-divanəyəm. Mən də getmiyəcəm naryada! Bizim işimiz ayrıdı indi.

Gözlənilmədən Tapdıq da eynilə Məlik kimi hırıldadı.

– Niyə soruşmursan nədi işiniz?

Cəbrayıl soruşdu:

– Nədi?!

Tapdıq ciddiləşdi. Dedi:

– Oğurluqdu indi işimizin adı! Hünərin var qoru kolxozuyun malını, qoyununu! Hər jün üçünü-beşini kəsib paylıyacayıq camaata! Bu əlimdəkini görürsənmi? “Soyuq silaş” deyirlər buna. İstisi də varımdı! Güllələdiyiniz “sinfi düşmən” çoxlu tüfəng, tapança yeri demişdi mənə. Bir Zor nəçənnik yox, onu gəlsin! Bir istrebitelni batalyon yox, yüzü gəlsin! Pulemyotumuz var! Çapayev təki biçib-tökərik boynu yoğunlarınızın hamısını! Çıx deyirəm sənə! O, Qılınc Qurbanıydı, biclik elədi pencəyini bürüdü başıma, tapançanı aldı. Sən alammazsan! Bax, sayıram: bir, iki, üç... beş deyəndə xançalı soğacam qarnına! Cəhənnəm ol!

Cəbrayıl başını buladı.

– Hayıf... hayıf səndən, ay oğul!.. Ayıl, danışarıq.

Tapdıq kreslonun üstündə dik qalxdı. Səndələyib xançalı əlindən saldı.

– Mən sənnən danışmıyacam daha! Niyə çıxmırsan o evdən, a köpəyoğlu?! Vurulubsan Sürməli Söylüyə! Onçun çıxmırsan!.. Ayığam mən! Lap ayığam! O vaqondan bir at yükü un veribsən

köhnə arvadınnan qızlarına! Üç möşöy! Bir at yükü də təzə evinə gətiribsən! Qılınc da Zor oldu, qaytartdırdı bizimkiləri, bə səninkini niyə qaytartdırmadı?! Çünki ikiniz də bir bezin qırağısınız! Dalaşırsınız, söyüşürsünüz, sonra genə bir olursunuz! “Payok” basışdıran xainlər! Satqınlar!..

Baxdım ki, Qılıncımız da burdadır; qapının ağzında dayanıb, o da elə Cəbrayıl kimi, başını bulayırdı. Elə o cür də – başını bulaya-bulaya çıxdı. Cəbrayıl da Qılıncın dalınca çıxdı. Demə Mehbalı əmi ilə Qalayçıoğlu da gəlib çardağın altında dayanıbmışlar.

Mehbalı əmi içəri gəldi, Cümrünün qolundan tutub dirəyin dibindən qaldırdı.

– Xarab oldular balalarımız, ay oğul! Dava salanın evi yıxılsın. Adam olmaz daha bunlardan! Gəl! Sən ayrı cürsən. Qoymaram qalasan burda!

Bircə cam çaxır məni nə hala salmışdısa, uşağı götürüb evə getmək əvəzinə yenə yatdım. bir də o vaxt ayıldım ki, burnunun deşikləri pambıqlı Tapdıq qabağımda dayanıb qıçlarımı təpikləyirdi.

– Bəs deyilmi köpdüyün, ay əfəl! Qalx, gedirik.

Şöşünü yanımda görməyib hövlləndim.

Bolu dedi:

– Apardım uşağı.

Başa düşmədim.

– Hara?!

Bolunun domba gözləri bir az da dombaldı.

– Necə hara, ə? Üstüaçıq yatmışdı uşaq. Qorxdum soyuq dəyər. Apardım Əsmət xala dedi qaraqızdırma məni də üzdü, quyudan su çəkəmmirəm, Nurunu göndər gəlsin. Dedim qoyun almışıq Qaratəpədən, alışma böləcəyik, Nuru gec gələcək, nə deyirsən mən eləyim. Su da çəkdim, odun da yardım, ocağı da qaladım. Evdən intizarın olmasın. Tərpən! Üzünə su vur, ayıl!

Tapdıq damın dalında lapatka ilə yeri qazırdı. Qara ilə Qora o qazılan yerdən palaza bükülü şeylər çıxardırdılar, palazları açıb şeyləri yerə yığırdılar. Ləzgi o şeylərdən birini götürüb, qaranlıqdan bəri – çıraqların işığına çıxanda, həmişə birdən-birə vahimələnəndə olduğu kimi, bədənim çimildəşdi: Ləzginin əlində qılıncımızın beşaçılanı kimi “kavalerist” tüfəngi vardı! Yəni gödək, yüngül beşaçılan!

Palazları o qazılan yerdən dartıb çıxartdıqca açdılar. Hərəsi bir beşaçılan götürdü. Hərəsi belinə bir patrondaş bağladı.

Qışqırmaq, nə isə soruşmaq, bilmək istəyirdim. Əmma dilim söz tutmurdu. Axırda kim isə mənim də belimə patrondaş bağladı, bir başqası çiynimə tüfəng aşırdı. Çıraqları söndürdülər. Qapını bağlayıb qıfıl asdılar. Səhərin alaqaranlığında itidən iti addımlarla, yorta-yorta bizim evin dalından o yana – düzənliyə çıxdıq. Ordan da "Çal" deyilən çal-göy yovşanlı alçaq dağlara doğru yortduq.

Elə təngnəfəsdim ki, hava xeyli işıqlansa da, gözüm yolu seçmirdi. Yalnız üfüq qızarıb çalın aşırımlarını saraldanda gördüm, bildim ki, üçpara kəndin dağ ətəklərində qaralan yataqlarından[1] hansınasa yaxınlaşmışıq.

Bolu yavaşıyıb barmağı ilə alnının tərini silib çırpdı.

– Əylənin bir özümüzə gələk. Gec gəlmişik axı, ay Tapdıq. Bu vədə də heyvan çıxartmaqmı olar yataqdan? Odu bax, hamısının olacağından[2] tüstü çıxır. Oyanıblar çobanlar!

Tapdıq qəzet, tənbəki çıxarıb eşmə eşdi.

– Bax o bəridəki yatağın olacağında, çobanların gözünün qabağında çaxmağı çəkəcəm dabana, deyəcəm filan qədər qoyun aparmalıyam sizdən, kəsib ətini Tahirlinin evlərinin arasında alışma eləməliyik! Allah verər, vaxtı çatanda camaat qaytarar borcu, Allah verməz, halal eləyin hamıya!

Bir az sükut oldu.

Sonra Məlik dedi:

Məncə, bu yataq Qurbanlınındı. Deməzlərmi gedin öz sürülərinizdən aparın?

Tapdıq dedi:

– Bu gün burdan aparaq, gələn həftə özümüzkündən, o biri həftə də Qonaqlının yataqlarından.

Məlik "hm" elədi:

– O qədər çapqınçılıq eləməyə kim qoyar bizi, ay Tapdıq!

Tapdıq dedi:

– Qorxan qayıtsın! Xəbər al Boludan, gör Dağdağan bu kahalardan nə qədər erkək cəmdəyi göndərirmiş bizim bədbəxt

---

[1] Kaha (qoyun yatağı)

[2] Yatağın girəcəyində çobanların olduğu yer

camaata! Dağdağan Alının tüfəngini niyə aşırdın çiyninə, niyə gəldin bura?!

Məlik dedi:

– Gəldim, çünki sizdən ayrılmaq istəmirəm. Əmbə ehtiyatlandığımı da gizlətmirəm. Qılıncımız tutdurar hamımız.

Tapdıq cibindən Qaratəpədə satılan "spiçkə" – kibrit çıxarıb eşməsini yandırdı.

– Özün getdin orda, damda NKVD-dən material yazmaqdan qorxmuyan adam indi niyə qorxur?!

Qılınc Qurban nə desən eliyər. Yəni döyər, söyər, lap belə, özünün dustaq damına da salar beş-üç gün. Əmbə NKVD-yə verməz bizi. Düzdü?! Özümüzəmi aparırıq heyvanı?!

Məlik razılaşdı.

– Yaxşı, gedək, – dedi.

Getdik və elə yatağın söyüd şivindən hörülmüş qapısını açıb içəri doluşandaca hamımız özümüzü itirdik.

Qurbanlının sədri Müxtar əmi ilə atamın qardaşlığı ÇTZ İskəndər ocağın qırağında, uzunqulaq palanının üstündə oturub, yekə, ağ bir sininin içində yekə bir bıçaqla yekə bir aşıqlı[1] sümüyünün ətini doğrayırdı.

Bizə bir xeyli təəccüblə baxıb, yəqin ki, tüfəngləri, patrondaşları hələ üzlərinə ülgüc dəyməmiş kişilərə yaraşdırmayıb, nəhəng qarnı, nəhəng yanaqları, nəhəng buxağı titrəyə-titrəyə qəhqəhə çəkdi.

– Bu nə yaraq-yasaqdı, a bala?!

ÇTZ İskəndərin gözləri də nəhəng və qorxuncdu. Əmma kişi güləndə o qorxunc gözlərin qəribə-zümrüdü rəngi par-par yanıb, sifətinə də əməlli-başlı yaraşıq verirdi və ÇTZ traktoru dönüb gözəl bir adam olurdu.

Gülüb, beləcə birdən-birə gözəlləşib, elə gülə-gülə də soruşdu ki:

– Çapqınçılığamı gəlibsiniz?

Tapdıq dedi:

– Adını nə qoyursan qoy. Əmbə heyvan ver aparaq. Qızdırma biçdi-tökdü Tahirlini. Molla Gülən on gündən, yarım aydanbir bir evdə çənə bağlayır, Quran oxuyur. Qarnı tox olsa, bu kökə düşərmi camaat, ay İskəndər əmi?!

---

[1] Budun aşağı hissəsi

ÇTZ-nin gözlərinin qapaqları endi, sifəti çirkinləşdi.

– Bilirəm, ay oğul. Qurbanlı da, Qonaqlı da elə gündə deyilmi?! Qonaqlının sədri Mədəd də, mən özüm də, sizin təzə sədriniz də hər həftənin axırında raykomun bürosunda danışırıq. Az ağlayın, deyirlər, ölkə sizin sovetlikdən də pis gündədi. Bakıda adambaşı dörd yüz qram çörək verirlər. Çox vaxt o da vaxtlı-vaxtında olmur deyirlər. Bu "malyariya" deyilən qaraqızdırma da götürüb hər yeri tif, qarın yatalağı, nə bilim nə?! Allahın sabunu da tapılmır! Hələ nədi bu?! Sonrası var bu müharibənin!.. Aparın. Nə qədər istəyirsiniz aparın. Özümün üç toğluluq[1] qoyunum var burda. Sovet hökuməti insafsız çıxdı, on qoyundan artıq qoyun vermir evbaşına. Artırmağa qoymur! O Zor-filan köpəyoğlunu yedirdirəm, qanunu pozuram özüm. Çünki dolanammıram ayrı cür. Allah belə yekə-yekə yaradıb nəslimizi-kökümüzü, hərəmizin qarnımız bir çuvaldı, neyniyim?!

Belə dərd-azar danışa-danışa birdən yenə güldü.

– Sağ-salamatdısa, yolunu bəridən salsın atın Əlmədədoğlu, onun sözləridi "Çuvalqarın İskəndər", "ÇTZ İskəndər". Direktor Tahir də çox istəyirdi mənim xətrimi. Bir vaxt varıydı, sizin bu təzə sədriniznən – Muxtarnan, indi raykom katibimiz, o zamankı revkom sədrimiz Sultan Əmirliynən Türfəyə gedirdik. Bilirsiniz, Qazaxın İncə dərəsindədi o Türfə, yəni təmiz, saf, insan saflığı, insan gözəlliyi barədə dərs keçirdik orda xəlvətcə. İsmayıl əfəndi varıydı, Mahmud əfəndi varıydı. Alim kişiləriydi hamısı. Sultan Əmirlinin nəslindən-kökündəndilər. Bax o alimlərdən elə dərs almışdıq ki, deyirdik heç bir addım da əyri addım atammarıq daha biz, bu qan-qadalı hökumətdə qalammarıq, oğul-uşağımızı da götürək qaçaq Arazın o tayına. Nə oldu?! "Qaçaq, qaçaq" deyə-deyə ilişdik qaldıq! Vəzifəli olduq! Günahsızlara zülm eləyib xirtdəyəcən günaha batdıq!.. Qurban deyirdi, Muxtarın kiçik oğlu qaçaqçılıq xəyalına düşüb, Məsiynən Dağdağan Alının məxfi cəbbəxanasının üstündə oturub, Tahirlinin yeniyetmələrini də qoşub özünə, əllərini işdən soyudub. Cəbrayıl da, deyir, gözükölgəli olub, xətrinə dəyəmmir Muxtarın oğlunun... Sənə yaraşarmı Meyvəlikdə heyvan tutasan kolxozun sürüsündən?! Gecənin bır yarısınacan Məsinin o damından aşağıda, kərənlərin üstündə oturub dərdləşmişik

---

[1] Bir toğluluq iyirmi qoyun deməkdir.

ki, neyniyək, nə əlac tapaq bir az yoluna qoyaq bu bədbəxt millətin işini?! O qədər oturduq ki, sizin kababınızın iyində, dedim sizi bilmirəm, ay Qurban, mən getdim çoban Abdullanın yatağına kabab yeməyə!.. Gülürəm də arsız-arsız mən də hortdatmışam bir az Xeyrə arvadın o çaxırından... Gəlibsiniz, oturun. Yaxşı-yaxşı kişilərin balalarısınız. Yeyin-için, halalınız olsun. Aparın alışmanızı da eləyin. Əmbə bu tüfəngləri, patrondaşları zil – düzən qaytarın qoyun yerinə, üstünü torpaqlayın, dilinizi də dişiniznən tutun! Əvvəl-axır sürmək fikrindədilər bizim milləti. Ola bilər silah da lazımımız olar. Di oturun! Canım da qurbandı sizə! Millətimin balaları!..

Tapdığın gözləri dolmuşdu. Necə birdən gəlmişdisə, eləcə də birdən çıxdı. Biz də, əlbəttə, o dəqiqə çıxdıq. Yol boyu bir kəlmə də danışmadan, qayıdıb, beşaçılanları, patrondaşları həmin palazlara büküb o qazılan yerə doldurduq, üstünü torpaqlayıb tapdaladıq.

İşimizi təzə qurtarmışdıq ki, Qalayçıoğlu, damın girəcəyində ikiqat əyilə-əyilə, əlində gödərək bir odun parçası, içəri girdi. Ləzgini o odun parçaı ilə nə qədər və necə döydüyü sözlə deyiləsi deyil. Bircə bunu deyim ki, o ağır odun parçası Ləzgiyə yox, mənə dəyirdi. Briqadir o odun parçasını sönmüş ocağın qırağına tullayıb gedəndən sonra bir xeyli heç birimiz tərpənmədik. Yəni nədənsə Ləzgiyə dava-dərman eləmədik. Yalnız Revaz doxdur, yəqin ki, elə Ləzgioğlunun xahişi ilə gəlib Ləzginin əynindən paltarı çıxarıb başdan-ayağa qançır olmuş çılpaq bədənin yanında köksünü ötürüb başını bulayanda Tapdıq birdən-birə tarappıltı ilə dizləriüstə düşüb Ləzgini qucaqladı.

– Qurbanın olum, bağışla məni! Qurbanın olum! – deyib hönkürdü.

Sonra hamımız ağlaşdıq. Çünki Revaz doxdur Ləzginin boğazına nə qədər dərman töksə də, qoluna, buduna nə qədər iynə vursa da Ləzgini ayıldammadı... Qalayçıoğlu yenə ikiqat əyilə-əyilə içəri girib, eynilə Tapdıq kimi birdən-birə tarappıltı ilə dizləri üstə düşüb hönkürdü. Sonra şalvarının cibindən islaq, əzik-üzük yaylıq çıxarıb gözlərini sildi, boyca elə özü boyda, bədəncə nazik oğlunu qucağına alıb apardı.

Camaatımızın adəti ilə cənazəni həmin gün, hələ günəş batmamış yerdən qaldırıb qəbiristana qədər yüyürə-yüyürə apardılar. Biz, hamısının beli sınmış kimi, əyilib büzüşüb balacalaşmış "kişilər" dəfnə getmədik. İdarə həyətindən bir az aralı, El yolunuvn qırağında

"yığnaq yeri" adlanan uzun, alçaraq təpə kimi yerdə Tapdığın sağ-solunda oturub qaldıq. Məktəbdən qaçıb kotançılığa getdiyimiz, əsgər ailələrinin "qapıları"nda – həyətlərində tər içində çalışdığımız vaxtlardan bəri özümüzü boya-başa çatmış yetkin oğlanlar, atalarımız kimi yaxşı kişilər saya-saya, bu sakit, baharsayağı ılıq noyağr günü birdən-birə kiçilmişdik – uşaqlaşmışdıq, yaxşı ikən pis olmuşduq, başımızı qaldırıb bir-birimizin üzünə də baxammırdıq. Hamımız başa düşürdük ki, daha Qalayçıoğlunun, Mehbalı əminin, Qurban əmi – Qılınc Qurbanın, Cəbrayılın üzünə də baxa bilmiyəcəydik. Vəziyyətimiz necə olacaqdı? Yenə işləyəcəydikmi? Pambığı qozalamağa, əkinlərə dondurma suyu verməyə gedəcəydik, yoxsa məktəbə qayıdacaydıq? Bəs şil-küt camaatımızın, Şöşü balalarımızın axırı necə olacaqdı? Məlum deyildi. Uzandıqca uzanan müharibə ilə birlikdə bizim axırımız da məlum deyildi.

Demə, Qalayçıoğlu da "istrebitelni batalyon"un üzvü imiş, tüfəng, patron da alıbmış, əmma nə batalyon komandirinə, nə də batalyon komissarı[1] Sultan Əmirliyə tabe olurmuş; hərdən Məhərin budkasına, "siyasi dərs"ə getsə də başqa işlərə qarışmırmış. Buna baxmayaraq, bütün batalyon yığışıb qəbiristana, dəfnə getmişdi.

Qabaqda Qurban əmi ilə Ləzgioğlu, böyür-başdan da atlılar, atlarını yedəkləyə-yedəkləyə El yolunun yuxarısından Yığnaq yerinə yaxınlaşanda Məlik birinci görüb ayağa durdu.

– Qalxın! Qalxın gedək! – dedi.

Tapdıq da ayağa qalxdı.

Əmma elə bir hadisə baş verdi ki, hamımız yerimizə mıxlanıb qaldıq.

El yolunun aşağısında, Qalayçıoğlunun evi səmtindən gələn yazıq, susqun, daimi qəmgin qağamızın boyu göründü. Buna əvvəlcə hamı adi bir şey kimi baxdı. Çünki hərdən elə bu cür susqun, əzgin gəlib yanımızda oturub, eləcə də getməyi indi daha "Dəli Cümrü" olmuş qağamızın dəliliyi sayılırdı.

Əmma bu dəfə başqa cür oldu.

Batalyon üzvləri atlarını idarə həyətinin darvazasından o yana ötürüb, beşbir-üçbir gəlib Yığnaq yerinin dikdirində şinellərinin ətəklərini altlarına yığıb, cərgələnib oturdular. Batalyonun

[1] Və ya "politik" – siyasi rəhbər

“paltaratonkası”[1] sədrin təzə evi səmtindən taraqqa-taraq gəlib dayananda o maşından dörd dənə nəhəng qulplu qazanda ətri adamı dəli eləyən mal bozartması, bir nəhəng qulplu qazanda da “duzsuz”, yəni halva düşürdülər. Dikdirin yastıraq beli uzunu çoxlu kilim, süfrə döşədilər. Hər kişinin qabağına bir büküm dümağ fətirlə bir cam bozartma qoydular. Molla Gülən dodaqaltı mızıldana-mızıldana dua oxuyub, əyri biləkli əlini üzünə çəkib, o biri əlini fətirə uzadanda Yığnaq yerinə elə pis marçamarç, fıshafıs düşdü ki, mən, açığı, hamımızı tamahlandıran ehsanla birlikdə, rayonumuzun, kəndlərimizin yaxşı, sayseçmə adamları sayılan bu adamların it yeyişlərindən də çiyrinib, dirsəyimi Tapdığın böyrünə ilişdirib dedim:

– Niyə ilişdik biz burda?!

Tapdıq çənəsilə yolu – Cümrünü göstərdi.

Dedi:

– Odu bax, ona görə.

Qağamızın əlində Məsinin uzun, dəmir şümşədı parıldayırdı.

Ağır-ağır, üzgün-üzgün yaxınlaşıb, marçıldaşanların qənşərində dayanıb bir xeyli ona-buna baxdı. Cərgənin ortasında Ləzgioğlu ilə Qurban əminin yanında oturub yemək əvəzində papiros çəkən Cəbrayılı görəndə Cümrü şümşadı dodaqlarına qaldırdı.

Çaldığı havanın adını mən indi də bilmirəm. Çünki o vaxt orda tutulub-sehrlənib, qəhərlənib, boğulub, heç kəsdən soruşmadım. Sonralar, yəni məktəbi qurtarıb Bakıya gedəndən sonralar isə heç yerdə hes bir çalğıçıdan eşitmədiyim, çox, çox yanıqlı ürəksökən bir hava idi.

Marçıltılar kəsildi.

Kəndin ara-bərələrində dördüncü, beşinci siniflər də on iki, on üç yaşlarında, əlləri tütəkli uşaqlar göründülər. Bunlar bir vaxt Məsinin sağlığında Mehbalı əminin çardağının altına yığışardılar, Məsi şümşədin dillərində üç-dörd barmaq vurub, əllərini dizlərinin üstünə qoyub uşaqlara o üç-dörd barmaq havasını dönə-dönə təkrar etdirərdi. Məsi yoxa çıxandan sonra bunlar Qalayçıoğlunun həyətində həmişə Ləzgi ilə üz-üzə şümşəd çalan qağamızın başına

[1] Ton yarım yük götürən yük maşını

yığışardılar. Axır vaxtlar isə Cümrü, şümşəd dodaqlarında, kəndin arasına düşəndə bunlar da Cümrünün dalınca düşərdilər. Bizim tərk etdiyitmiz yeddinci sinfin on altı oğlanı ilə iki qızından – Nisə ilə Gülnisə – Bala Nisədən, cəmisi on səkkiz şagirddən fərqli olaraq, üçüncü, dördüncü siniflərin şagirdləri əlli nəfərə qədər vardılar. Bu əlli nəfərdən azı otuzu yığnaq yerində, Cümrünün sağ-solunda yığışdı, həmin yanıqlı, qəhərli havanı tütəklərinin nazikcə, köyrəkcə səslərini güclü səsə döndərib şümşədin qalınaraq səsinə qoşdular.

Qalayçıoğlu cərgədə hamıdan hündürdə duran başını endirib, həmin islaq yaylıqla gözlərini silirdi. Qurban əmi də, Cəbrayıl da başlarını endirmişdilər.

Cümrü şümşədi dodaqlarından ayırdı.

Uşaqlar da ayırdılar.

Tapdıq böyrümdə idi.

Dedi:

– Bax, indi görək nolacaq!

Soruşdum ki, sənin işindimi?

Dedi:

– Əlbəttə! Gör qağam nə oyun açacaq Əzrayıl köpəyoğlunun başına!

Dedim:

– Genəmi “Əzrayıl” deyirsən?! Taqsır yoxdu axı onda, ay Tapdıq!

Dedi:

– Səsini kəs! Ora bax!

Qağamız şümşədi Cəbrayıla doğru uzadıb, dinməz-söyləməz, ağır-ağır irəli yeridi. Başı açıqdı. Saçları yapıxıb alnının, qulaqlarının üstünü tutmuşdu. Cəbrayıl şapqasını çıxarıb dizinin kündəsinə qoymuşdu. Onun saçları da yapıxıb alnının, qulaqlarının üstünü tutmuşdu. Cəbrayılın nə qədər yansa da, ağlığını saxlayan sifətində zilqara, qalın bığı olmasaydı və ya qağamızın elə bığı olsaydı, deyərdin Cəbrayıla Cəbrayıl yaxınlaşır.

Gedib iki addımlığında elə o cür – əliuzanıqlı dayandı.

Lap astadan, həmincə yumşaq, həlim səsi ilə dedi:

– Al... sən də çal.

Cəbrayıl dedi:

– Mən tütək çalan deyiləm, axı, ay oğul!
Cümrü dedi:
– Tütək deyil bu. Şümşəddi. Türfədə şümşəd da çalıbsan. Qaval da çalıbsan. Müridləri oynadıbsan. Özün də oynayıbsan. Al! Çal! Yanındakıları da oynat! Qurban əmini də oynat!
Cəbrayıl dedi:
– Bura yasdı, ehsandı, oğul!
Bu an böyrümdə necə sərt qışqırtı qopdusa, hamımız diksindik.
– Muxtar Əlmədoğlunun evində də yasdı! Bə sən orda niyə ağ fətir, əmlik əti, ağcamaya xanım ...tü yeyirsən! Qalx, köpəyoğlu. Çal! Oxu! Oyna!
Həmincə damda çaldığı ağ sini Tapdığın əlində peyda oldu. Pencəyinin altında kəmərinə sancıb kürəyində gətiribmiş. Dambırha-dambır döyəcləyə-döyəcləyə qocamızın yanına yeridi.
– Qağa, çal! Ay uşaqlar çalın! O “Buynuz” havasını!
Şümşəd dilləndi. Tütəklər səs-səsə verdi.
Tapdığın gözləri dərin çuxurlarda oyur-oyur oynayırdı. Qışqırtısı kəndi götürmüşdü:
– “İskəndərin buynuzu var, buynuzu!..” “İskəndərin buynuzu var, buynuzu!..” Sən o birisini de! Gəlsinlər səni da aparsınlar NKVD-nin dustaqxanasına! Bassınlar ştrafnoy batalyona! Sənin də qara kağızın gəlsin! Belə biabırçılıqnan niyə sağsan sən, ay namus-suz köpəyoğlu! Oyna deyirəm sənə! Oxu deyirəm! O birisini! “Stalinin buynuzu var, buynuzu!..”
Qurban əmi ayaq üstə idi. Əli tüfəngin tətiyində idi.
– Mən vuracam bu uşağı, ay camaat! Qan qana qarışacaq! Maşina basın bunu! Tez olun! Qana salmayın! Tez basın maşina! Birbaş dəlixanaya! Döyün! Döyün, görk olsun! Sonra aparın!
Tapdığın cılız bədənini elə yerindəcə təpiyin altına salıb əziş-dirdilər. Ağ sini hələ yol aşağı dığırlanırdı, Tapdıq isə artıq maşının üstündə idi. Batalyon üzvlərindən biri çəkməsinin pəncəsini yazı-ğın belinə qoymuşdu, o birisi qıçlarının üstünə. Maşın yola düşəndə də elə o cür – pəncələri Tapdığın üstündə getdilər.
Demə, qağamız lap üzülübmüş. Gah maşının dalınca yüyürmək istəyirdi, yüyürəmmirdi. Gah geriyə – Qılıncımıza doğru yüyürmək istəyirdi, yüyürəmmirdi. Beləcə, bir neçə dəfə, təngnəfəs irəli-geri gedəndən sonra dayanıb üzüüstə döşəndi.

Uşaqlar, böyüklü-kiçikli hamımız Cümrünün başına yığışdıq. Özü arxasıüstə çevrilmişdi. Bir vaxt yolda Mehbalı əmi Allahı çağırdığı kimi, Cümrü də Allahı çağırırdı:

– Hardasan?! Hardasan, ay Gözəgörünməz! Qaqaşımı apardılar! Balaca qaqaşımı, Tapdığımızı apardılar axı, niyə qoyursan, a kişi?! Sənin də buynuzunmu var, a kişi?!

Batalyon dağılışmışdı. Körpə uşaqları da ordan-burdan səsləyib aparırdılar. Cümrü isə hələ arxasıüstə idi. Gözləri axşamın uzaq, ala-tala buludlarında gəzirdi. Üzgün səsi hey çağırırdı, elə hey deyirdi:

– Sənin də buynuzunmu var?! Sənin də buynuzunmu var?!

# QURU BUDAQ

## MOLLA GÜLƏN

### 1

“Molla Gülən”... “Molla Gülən”... Kimlər, nələr, necə heyrətli işlər-əməllər bağlı idi bu adla! Bir də bir tut ağacı vardı ki, o da “Molla Gülən” adı ilə bağlı idi.

Nurunun dediyinə görə, bu tut ağacı on səkkizinci əsrdən – ulu babamızın vaxtından qalmışdı. Babamız Nurməhəmməd də meyvəsindən yemiş və kölgəsində dincəlmişdi, atamız Tahir müəllim Tahirli ilə anamız Əsmət də bu ağacın meyvəsindən yemiş və kölgəsində dincəlmişdi. Nəhayət, biz də – Nuru, Bibixanım və mən də bu ağacın cır-xırda, şirin, qumral meyvəsindən ilbəil doyunca yeyir və kölgəsində dincəlirdik.

Tutun yaşıl tacı altından eyvanımızın dirəyinə qədər uzanan bir budağı qurumuşdu. Biz o budağı kəsmirdik. Qış bərk gəlib qapı-bacanı qar basanda, odunumuz qurtarıb möhtac qalanda da, budağı kəsmək heç birimizin fikrimizdən keçmirdi. Niyə? Çünki bu adi budaq heç də adi budaq deyildi.

Mənim yaşımdan çox-çox əvvəl, iyirminci illərdə, bu budaqda cavan, qaraşın, telli bir oğlan fırlanarmış. Həm də elə məharətlə fırlanarmış ki, indi bizim evin böyür-başında qanqallı, sirkənli kalafaları bozaran qazma damların üstünə dəstə-dəstə qızlar, gəlinlər çıxıb tamaşaya durarmışlar.

İndi bizim məktəbdə hamının Molla müəllim adlandırdığı təsərrüfat müdirinə o vaxt Molla Gülən deyərmişlər. Molla Gülən həm özünün molla məktəbində dərs deyərmiş, həm də dua yazarmış, ölü yuyarmış, kəbin kəsərmiş, ona-buna həcv yazarmış. Həcvləri duasayağı – üçkünc qatlayıb, öz yanında saxladığı yetim bacısı qızına verib, tənqid hədəfi olan adamın özünə yollayıb, sifariş elərmiş ki, dişə dəyən bir şey göndərməsən həcvin külli-aləmə yayılacaq.

Günlərin birində Molla Gülən baxıb görüb ki, özünün gözəllər gözəli sayılan arvadı Xatun da həmin oğlana tamaşa eləyir. Örpəyin altında Xatunun hətta köks ötürdüyünü görəndə Molla daha dayana bilməyib, oğlanın üstünə cumub, deyib: “Səni belə fırladan şeytandı. Bu əməldən əl çəkməsən Allahın qəzəbinə keçəcəksən!”.

Oğlan o vaxtlar bizim kənddə Allahı danıb şapkasının qabağına qırmızı ulduz taxan komsomollardanmış. Molla Gülənin sözlərinə şaqqanaq çəkib gülüb və məşhur həcv ustasının özünü elə ordaca həcvə tutub:

Molla Gülən gülləndir,
Öz xeyrini billəndir.
Boğazına torba sal,
Əlindən tut, diləndir.

Molla Gülən bu oğlanda belə qabiliyyət olduğunu bilmirmiş. Odur ki, əvvəlcə çaşıb qalıb, damların üstündən qız-gəlinin şaqaşaq güldüyünü eşidəndə isə, bir kəlmə “Lənətullah” – deyib gedib.

O gecə bütün qazmalarda uşaqlı-böyüklü, hamı oğlanın həcvini təkrar edib, axır ki, Molla Gülənin özünə də cavab verildiyindən danışırmış, evlərə dua əvəzində göndərdiyi üçkünc kağızlarla camaatı dartıb yeyən həyasız soyğunçunun dilini kəsdiyinə görə oğlanı tərifləyirmişlər. Əmma səhərisi oğlan, doğrudan da, “Allahın qəzəbinə keçib”: budaqda fırlanmağa başlayar-başlamaz qopub başı üstə yerə dəyib, huşunu itirib, döşəli qalıb.

Bu vaxt ətraf damların üstü yenə də qız-gəlinlə dolu imiş. Oğlanın necə pis yıxıldığını hamı görsə də, heç kəs yerindən tərpənə bilməyib, camaat qorxu və heyrət içində donub qalıb.

Molla Gülən isə, əksinə, dərhal hərəkətə gəlib, təntənə ilə ortalığa çıxıb, tut ağacının altında sərili qalmış oğlanı göstərib, qışqırıb ki, “Gördünüzmü, cəmaət, nə oldu?! Mənim sözümü çevirənin, Allahı danıb şeytan əməlinə qurşananın aqibəti bax belə olar!”

Göz qabağındaca baş verən bu hadisə camaatı necə xofa salıbmışsa, vaxt keçsə də oğlana yaxın düşməkdən çəkinirmişlər. Tək bir qız, Molla Gülənin lənətindən və Allahın qəzəbindən qorxmadan yüyürüb, örpəyini arxın suyunda isladıb oğlanın üzünə, alnına sürtüb.

O oğlan bizim atamız komsomol Tahir direktor Tahirmiş.

O qız bizim anamız Əsmət imiş.

Atam gözünü açıb məsələnin nə yerdə olduğunu başa düşəndə anamın üzünə baxıb gülümsəyib, soruşub ki, "bəs Molla Gülənin qəzəbindən qorxmadınmı?"

Anam cavab verib ki, "qorxmadım, çünki dayım gecəykən gəlib bu budağa sabun sürtəndə görmüşdüm".

Atam elə ordaca deyib ki, "bu yaxşılığın əvəzində sənə bağışlamaq üçün sinəmdə ürəyimdən savayı heç nəyim yoxdu, qayıdanda evdə dayının təpiyinin altına düşmək istəmirsənsə, bir də o evə dönmə, al ürəyimi, ver əlini, gedək kəbinimizi kəsdirək".

Üçpara kənddə sovetliyin sədri Qılınc Qurban təsdiq edir ki, doğrudan da, elə o günü, yəni atam budaqdan yıxılan günü, Qılınc Qurban şəxsən öz əli ilə Tahirlə Əsmətə kəbin kağızı verib, sonra da Molla Güləni atın qabağına salıb aparıb, budağa sabun sürtüb komsomola sui-qəsd düzəltdiyinə görə səsini alıb, yəni vətəndaşlıq hüququndan məhrum eləyib.

Bu hadisədən sonra Molla Gülənlə atamın arasında dəhşətli ədavət başlayıb. Atam hər il yay aylarında Bakıya, müəllimləri təkmilləşdirmə kursuna gedəndə Molla gecələr, əlində dəyənək, bizim evə hücum çəkərmiş. "Bu ayaqlarnanmı gəldin sən bu dağılmışa?!" – deyib-deyib dəyənəyi anamın topuqlarına döyəclərmiş. "Bu əllərnənmi qulluq eləyirsən o Şura itinə?!" – deyib anamın əllərini ocağa, qızmar odun içinə basarmış; topuqlarını qana bulamayınca, əllərini tuluqlatmayınca qəzəbi soyumazmış.

Anam topuqlarına bağayarpağı bağlayar, əllərinə mürəkkəb və "sim suyu" sürtərmiş, atam qayıdana qədər yaralarını sağaltmağa çalışarmış ki, işin üstü açılmasın, dayısı ilə ərinin arasında düşmənçilik böyüyüb ölüm-itimlə qurtarmasın. Yəqin anamın səbirindən şirnikdiyinə görədir ki, sonralar Molla Gülən onun hətta qarnına təpik vurarmış, "Burdan züryət olmamalıdı!" – deyərmiş. Belə ciddi-cəhdə baxmayaraq, o telli oğlanla o igid qızın əvvəlcə Nuru – Nur Məhəmməd, sonra da Şöşü bala – Şövkət adında bir cüt oğlu olmuşdu və böyüyəndə, onlar da eynilə ataları kimi, həmin budaqda fırlanmağa başlamışdılar.

Qırx ikinci ildə, alman faşistlərilə müharibənin ən ağır vaxtında, mənim cəmi üç yaşım olanda anama "qara kağız" gəlmişdi: "Sizin əriniz Tahirli Tahir Nurməhəmməd oğlu vətən uğrunda döyüşlərdə qəhrəmancasına həlak oldu".

Ali Baş komandan İosif Stalin".

Qırx üçüncü ildə mənim cəmi dörd yaşım olanda anam ölmüşdü.

Elə o vaxtlar da budaq birdəncə qurumuşdu. Mən gözümü açıb budağı elə belə – quru görmüşdüm. Qabığı büsbütün töküldüyünə görə, gündüzlər uzaqdan baxanda tutun yaşıllığı altında sümüyə oxşayırdı, gecələr pəncərəmizin işığı üzərinə düşəndə nəhəng bir fil dişi kimi ağarırdı; ağac əvəzində elə bil donqarbel, qıllı bir fil tək ayağının üstündə dayanıb evimizin keşiyini çəkirdi.

Biz, Nuru ya da mən, budağa atılıb çəkinməyə, fırlanmağa başlayanda, belə fırlanmaq daha kənddə təzə şey olmasa da, bizim də tamaşaçılarımız tapılırdı. Bir zaman damlardan boylaşan qızlar, gəlinlər, indi artıq saç-birçəkləri ağarmış arvadlar, Nurunun və ya mənim fırlandığımızı görəndə istər-istəməz ayaq saxlayırdılar. Bəziləri köksələrini ötürüb, bir-birinin sözlərini təkrar edə-edə "oğul atanın kövşənini əkər", – deyirdilər. Bəziləri isə, nə isə çox tutqun, gizlin məna ilə baxırdılar və bir kəlmə də demədən başlarını bulayırdılar.

İllər keçdi. Qardaşım, doğrudan da, "atasının kövşənini əkdi", atam kimi məktəb direktoru oldu. Mən isə...

Mənim taleyim başqadır. Çünki o tutqun baxışlardakı gizlin mənanı oxuyub, o mənanın dəhşətinə laqeyd qala bilməzdim.

## ÖLÜM HÖKMÜ

## 2

Məktəbimiz kənddən bir az aralı düzənlikdə, Meyvəlik adlanan meşəliyin, yəni kiçik meşənin ətəyində, ətrafa nisbətən hündürlüyünə görə şərti olaraq təpə adlandırılan geniş bir sahədə, yağışdan, günəşdən, toz-torpaqdan rəngi dəyişməyən qənd kimi ağ daş hasar içində idi.

Ağ hasarın üç qırmızı "kəsiyi" – üç dəmir darvazası vardı.

Darvazalardan biri məktəbin binasının dalında, meşə tərəfdə idi ki, onu Nuru bizim – yuxarı sinif uşaqlarının xahişi ilə açdırmışdı. Tənəffüsdə zəng vurulanda ordan birbaş meşəyə cumurduq, ilin bəhrəli çağlarında arxların qıraqlarında qaralı, qırmızılı salxımlarla sallanıb öz xiridarlarını gözləyən moruqdan, ya da yemşəndən,

göyəmdən tələsə-tələsə dərib ağzımıza təpirdik, əllərimiz, ağzımız qapqara, təngnəfəs yüyürüb bu darvazanın açılmasına razılıq vermiş direktorumuzdan, meşəmizdəki bolluqdan və özümüzdən razı, sinfə doluşurduq.

Bizim meyvəyə hərisliyimiz və bu hərislik üzündən hərdən dərsə kecikməyimiz, əlbəttə, müəllimlərimizin xoşuna gəlmirdi. Xüsusilə, Molla müəllim əsəbiləşir və hər dəfə mütləq deyinirdi.

Doğrudur, Molla müəllim daha bizə dərs demirdi. Birinci sinifdə bizə yazmaq, oxumaq, toplamaq, çıxmaq öyrətmişdi, bununla da qurtarmışdı. Təsərrüfat müdirliyinə keçəndən sonra daha sinif də götürmürdü. Demək istəyirəm ki, bizim davranışımıza göz qoymağa onun heç bir haqqı yoxdu. Bununla belə, göz də qoyur, üstəlik hələ deyinirdi də.

– Ağzıqara tülküyə dönüb genə hamısı! Aşağı sinif nə ibrət götürsün bunlardan? Allahı istərsən, izin ver bağlayım o darvazanı, yoldaş direktor. Bir maşın daşdı, bir-iki möşöy də sement. Hördürüm, qurtarsın canımız o darvazadan. Səninkindən savayı bizim uşağımız da var axı o sinifdə!

Əmma bu sinif barədə Nurunun öz fikri vardı.

– Müharibə balalarıdı. Vitaminsiz böyüyüblər. Meyvəyə hərislik bunlarda təbii ehtiyacdı, – deyirdi.

Müharibənin üstündən, yəni qırx beşinci ilin "9 may" qələbə günündən on bir il keçəndən sonra belə demək bir qədər qəribə görünsə də, yəqin ki, həqiqət belə idi; Nuru ağılsız danışan deyildi. O qədər müəllimin içində, hamıdan cavan olmasına baxmayaraq, məhz onu direktor qoymuşdular. Boş-boşuna qoymamışdılar ki? Kənddə deyirdilər ki, "rəhmətlik atası komsomol Tahirin yerinə direktor keçməyi o rəhmətliyin sovet hökümətinə xidmətiynən bağlıdı". Bu deyiləndə, əlbəttə, həqiqət vardı. Əmma, məncə, qardaşımı hər şeydən əvvəl, məhz həssaslığına, başqalarının duya bilmədiyini duymaq qabiliyyətinə görə irəli çəkmişdilər. Bizim sinifdəki uşaqların meyvəyə hərisliyinin səbəbini hamıdan əvvəl başa düşüb, hətta hərdən dərsə kecikməyimizə haqq qazandırması özü qardaşımın həssaslığını göstərmirdimi?

Doğrudur, üzümüzə baxanda vitaminsizlikdən bizdə heç bir əlamət tapmaq olmazdı. Tək bir nəfər – Ruqiyyə deyilənə görə, uşaqlıqda sümük vərəmi keçirmişdi. O xəstəliyin izləri indi də üzündə

idi. Qalan səkkiz nəfərin isə, mən də daxil olmaqla, belə demək mümkünsə, hamının yanağından vitamin yağırdı. Ətli-canlı, dolu-kırbıd. Mənə, məsələn, "Zırpı Şöşü" deyirdilər. Molla müəllimin oğlu Ramazana "Sıpa Ramazan" deyirdik. İdman müəllimimiz Tapdıq müəllimin böyük qardaşı Dəli Cümrünün saxlayıb böyütdüyü əkiz yetimlərə "Kömbə-Köpüş" deyirdik. Bununla Nurunun fikri o qədər də uyuşmurdu. Əmma hər halda, qardaşım düz deyirdi və fikrinin doğruluğuna heç bir şübhəsi olmadığına görə idi ki, Molla müəllimin zəhlətökənliyinə əhəmiyyət verməyib, o daldakı darvazanı bağlatdırmırdı.

Meyvəlik meşəliyində yüzə qədər ağac növü vardı. Haqq-hesaba vuranda demək olar ki, bunun üçdən biri meyvə ağacı idi. Alma-armuddan başlamış, zoğala, əzgilə qədər, nə istəsən, hətta ilin bəhrəsiz vaxtlarında, lap qışın ortasında da ağıza almağa bir şey tapılardı; yerdə qalın qar ağardığı halda, yuxarıda, çılpaq budaqlarda qırışıb qurusa da dadını itirməyən göyəm qaralırdı, qızılca qızarırdı. Bütün qışı uşaqlardan hansının cibinə əl atsaydın, göyəm qurusu, ya qızılca tapardın.

Yalnız yazın ilk günlərində, qahır-quhurluq başlayanda meyvəsiz qalırdıq. Əmma onda da boş oturmurduq. Qar yerdən götürüləndən sonra gah üfüqlərdə tayalanan, gah da göylərdə qoşun-qoşun gəzişən buludlara boylanıb, o buludların səslənməsini gözləyib, nəhayət, ilk gurultunu eşidəndə yenə meşəyə cumurduq; böyüklər deyirdilər: "Yemliyi, qazayağını göy guruldayandan sonra yeyərlər"; buna çox inanardıq, torpağın üstünə nəm keçən kimi yapıxmış xəzəlin ara-bərəsindən baş vurub qalxan, səmənitək kom-kom göyərən yemlikdən, qazayağından ovuc-ovuc yoluşdurub ağzımıza təpirdik. Əllərimizdə, dodaqlarımızda yaz yağışının soyuğu, damağımızda bol şirənin nübar təmi, bir-birimizə baxanda ləzzətdən gözlərimiz süzülürdü. Əllərimiz, ağzımız gömgöy, yenə də yüyürüşüb tövşüyü-tövşüyə sinifə doluşurduq.

Molla müəllim, əlbəttə, yenə deyinirdi:

– Bəli də! İndi də otlamaq dövrü başlandı!..

Bu vaxt yüyürməkdən istilənmiş nəfəsimdən göyərti ətri ilə birlikdə mənim bu adama nifrətim, kinim yayılırdı:

– Heyvan özünsən! Keçmişdə soyğunçu molla olubsan sən. Elə indi də xəlvəti mollalıq eləyirsən. Direktorumuzun xasiyyətinin

yumşaqlığından istifadə eləyib dürtülübsən məktəbə! Heç olmasa dilini gödək elə!.. – və sairə, belə-belə sözlər yağdırırdım.

Molla müəllim o dəqiqə səsini kəsirdi. Niyə qorxurdu məndən? Bu çox ağır söhbətdir. Yeri gələndə, əlbəttə, danışmalıyam. Hələlik bunu deməyliym ki, mən səsimi qaldırar-qaldırmaz, kirpikləri titrəyirdi, köhnə həyasızlığının ifadəsini saxlayan öd rəngli uzun sifətində qorxu görünürdü və dərhal səsini içinə salırdı. Əmma tutduğunu buraxan adamlardan deyildi; aradan bir az keçəndən sonra yenidən deyinməyə başlayırdı:

– O vitamin darvazası bədbəxt eləyir uşağı. Evimizi yıxır o vitamin darvazası!.. Dərsdə ağzı qara oturmaqları bir yana, fikri-zikri elə meşədə olanda mən qorxuram ağzı-burnuynan bərabər zehni də qaralsın uşağın!

Ona görə deyinmirdimi ki, anadangəlmə küt oğlunun – Sıpa Ramazanın pis oxumağına haqq qazandırsın, sabahları "Kamal attestatı" imtahanında müəllimlər Sıpaya qiymət vermək istəməyəndə o – Molla müəllim kütlüyün günahını Nurunun boynuna qoysun: "Sən elədin hamısını! Sənin o darvazan elədi! Zəhmət çək tapşır, uşağı kəsməsinlər!" – və sair belə sözlər desin?

Nuru hərdən narazılıq eləyirdi: "Molla deyinəndə dillənmə sən, yaxşı deyil". Nurunun ən yaxın gənclik yoldaşı, idman müəllimimiz Tapdıq müəllim isə, əksinə, həmişə haqq verərdi mənə: "Öləsi köpəyoğludu o Molla!" Və mən də Tapdıq müəllimə haqq verirdim; vaxtıilə kurs qurtarıb adının böyrünə "müəllim" sözü yapışdırsa da, bizə yazmaq, oxumaq öyrətmiş olsa da, mənim təsəvvürümdə o, yalnız Molla Gülən idi – anamın o rəhmsiz, vicdansız dayısı! Bu öd sifətli adamın bütün varlığını komsomol Tahirə, Qılınc Qurbana və ümumiyyətlə "Şuraya, yəni Sovet hökümətinə, Stalinə nifrətdən ibarətdi. Məsələn, bircə fakt. Məktəbimizin qabağındakı düzəngahda Stalinin general heykəli qoyulanda hətta biz, o vaxtkı birinci sinif şagirdləri də meyvəlikdən dəstə-dəstə gül-çiçək bağlayıb rəhbərimizin dörd dövrəsini bəzəyəndə Molla Gülənin bizi meşəyə aparıb gətirən Tapdıq müəllimə necə qışqırdığı indi də qulağımdadır: "Hər gün bir araba zibil daşıyıram mən bu heykəlin yanından! Özünüzün dəliliyiniz bəs deyilmi ki, bu uşaq-muşağı də dəli eləyibsiniz?!" Boyca Molla Güləndən xeyli gödək Tapdıq müəllim aşağıdan yuxarıya elə bir şillə çəkmişdi ki,

o öd üz titrəyə-titrəyə qalmışdı. Mənim nifrətim o vaxtdan başlanmışdı. Buna görə də, hətta "vitamin darvazası" mövzusunda danışdıqlarından da gərginləşib yumruqlarımı düyünləyirdim. Adının böyründəki "müəllim" kəlməsi ilə qarşıma sədd çəkən adamın özünə yaxın düşməsəm də, onun Sıpasına mütləq nə isə bir xətər yetirməyə çalışırdım. Əmma qəribə idi ki, mənim belə gərginləşən vaxtlarımda Nuru həmişə birdəncə qarşımda peyda olurdu, qardaşıma yaraşdırmadığım sərtliklə:

– Şöşü, farağat dur! – deyirdi.

Bu qəribə idi ki, Nurunun belə gözlənilməz sərtliyi ədəbiyyat müəllimimiz Səlim müəllimi kövrəldirdi; "Zırpı Şöşü"nün bu istəkli müəllimi əlini başıma çəkib, baxışı ürəyimə işləyən iri, göy gözlərini üzümə dikib, sakit-sakit doluxsunurdu:

– O hürəyən it vaxtıilə çox adama hürüb. Tutur adamı o it. Özü də pis tutur. Aralı dur ondan.

Səlim müəllimin bu anlaşılmaz kövrəlməyi məndə heç kəsə, hətta Nuruya da açmadığım fikirlər oyadıb, budaqda fırlanmağımıza baxan o tutqun gözlərdən oxuduğum mənanın dəhşətini xatırladırdı...

## 3

İkinci darvaza binanın qənşərində idi, məktəbimiz yarıminternat olandan sonra Molla müəllimin xüsusi həvəslə tikdirdiyi, xırda-xırda pəncərələrdə dəmir barmaqlıqları ilə dustaqxanaya oxşayan, alçaq, uzun təsərrüfat korpusu ilə qarajın arasından o yana – kəndə açılırdı ki, ordan biz məktəbə gəlir və məktəbdən gedirdik.

Nəhayət, "yan qapı" dediyimiz üçüncü və axırıncı bir darvaza da vardı.

Yan qapının çöl tərəfində, vaxtıilə uzun illər boyu tapdandığı üçün ot əvəzində indi kom-kom qanqal bitirən, müəllimlərimizin "Maarif yurdu" adlandırdığı geniş, boz bir düzənlik də vardı. Günəşli bir sentyabr səhəri bir kitabımı, bir dəftər və bir karandaşımı Bibixanım bibimin tikdiyi aşırmalı çit çantama qoyub ilk dəfə məktəbə yollananda mən o düzənliyə getmişdim. Çünki o vaxt məktəbimiz orda idi. Yağışdan yeyilib şırım-şırım olmuş çiy kərpic divarında sarı, qızılı saman çöpləri işıldayan alçacıq bina idi.

Müəllimlər otağından savayı cəmi beş otağı vardı. Nuru ilə Tapdıq müəllim də, Tapdıq müəllimin böyük qardaşı dəli Cümrü də orda oxumuşdular.

Biz isə orda əlli dördüncü ilə, yəni səkkizincini qurtarana qədər oxuduq.

Günlərin birində partaları, yazı taxtalarını, xəritələri, stol və stulları, Səlim müəllimin "Adəm ata və Həvva ana" adlandırdığı, mənim isə Molla Gülən və Ramazan adlandırdığım, birisi böyük, o birisi balaca skeletləri və sair şeyləri təzə binaya daşıdıq.

Bu ilin mayında, qələbə günündən sonra isə məktəb əvəzində mən orda qatı toz dumanı içində traktor qaraltısı gördüm.

O bina uçurulmalı deyildi. Çünki, əvvəla, 9 may qələbə gününün bir ilinin tamamında, yəni qırx altıncı ildə qoyulan Generalissimus heykəli həmin "Maarif yurdu"nun qabağında idi. İkincisi, orda – "Maarif yurdu"ndakı müəllimlər otağının divarında, bizim məktəbin bünövrəsini qoyan adamın – komsomol Tahirin – Tahir müəllim Tahirlinin şəkli vardı. Səlim müəllim Bakıya çoxlu məktub yazmışdı, ordan böyük-böyük alimlərin – fiziklərin, matematiklərin və bir yazıçının şəkilləri göndərilməli və burda "Tahir məktəbinin yetirmələri" başlığı altında bir "stend" – şərəf guşəsi düzəldilməli idi. Tapdıq müəllim təklif eləmişdi ki, o stendə iyirminci illərdə Tahir müəllim Tahirliyə və ümumiyyətlə maarif, mədəniyyət işlərinə yaxından köməyi dəymiş atasının – Muxtar Əlmədədoğlunun və "millətin baxtı-iqbalı maarifdədi", – deyən azsavadlı köhnə bolşevik Qılınc Qurbanın şəkilləri də vurulsun. Tapdıq müəllimin böyük qardaşı Dəli Cümrü "Baş kənd", "Yuxarı kənd" dediyimiz Qurbanlıya gedib Qılınc Qurbanın şəklini tapıb gətirmişdi. Orda kim isə Cümrüyə demişdi ki, Qurbanlının kolxoz sədri ÇTZ İskəndərlə "Aşağı kənd" dediyimiz Qonaqlının kolxoz sədri Mədəd kişi də, onun qardaşı – raykom katibimiz Sultan Əmirli də "Maarif yurdu"na çox əmək sərf eləyiblər, məsləhətdir ki, bu adamların şəkilləri də asılsın. Cümrü Qurbanlıdan qayıdıb bu söhbəti qardaşına danışanda, bunu camaatımız da eşitmişdi, qoca-qoca kişilər, qarılar, vaxtılə Tahir müəllim Tahirlinin məktəbində oxuyub sonra müharibədə həlak olmuş oğullarının, nəvələrinin şəkillərini gətirib məktəbdə "şəkilyığan müəllimə", yəni Səlim müəllimə verirdilər. "Özü gedib,

adı qalsın", – deyirdilər. "Ad-san da bir ayrı cür nemətdi. Baş ucalığıdı", – deyirdilər. Beli bükülmüş, əldən-ayaqdan düşmüş Arı qarı titrəyə-titrəyə, hıqqıldaya-hıqqıldaya məktəbin qabağına gəlib: "Ay bala, bunu o şəkil yığan müəllimə verin", – deyəndə və mən hamıdan əvvəl özümü yetirib qarının xahişini çatdıranda Səlim müəllimin qışqırtısı bütün məktəbə yayılmışdı: "Muzey olacaq, muzey! Komsomol Tahir adına xalq muzeyi!"

Başqaları kimi Səlim müəllim də mənə "Zırpı" deyirdi. Yarızarafat, yarıciddi: "Heç bilmirəm nə vaxt yontulacaqsan", – deyirdi. Müəllimin xəbəri yoxdu ki, hər dəfə muzey söhbətini eşidəndə, onun bu yontulmamış, zırpı şagirdi xəlvət bir yer axtarırdı ki, ağladığını heç kəs görməsin. Əmma sevinən, əlbəttə, tək mən deyildim. Mən kimi xəlvətə çəkilib hönkürən olmasa da, kimi az, kimi çox, hər halda hamı sevinirdi.

Kəndimizdə elə bir ev yoxdu ki, orda Ali Baş Komandan Stalinin göndərdiyi məktub olmasın: "...Sizin əriniz Tahirli Tahir Nurməhəmmədoğlu vətən uğrunda döyüşlərdə qəhrəmancasına həlak oldu. Ali Baş Komandan İosif Stalin.", "...Sizin əriniz Muxtar Əlmədədoğlu vətən uğrunda döyüşlərdə qəhrəmancasına həlak oldu. Ali Baş Komandan İosif Stalin." Və sairə. 1941-45-ci illərdə "qara kağız" adlanıb ölüm xəbəri olan bu məktublar "Faşizm üzərində qələbədən sonra şan-şöhrət məktublarına dönmüşdü və mən qapı-qapı düşüb, Nurunun, Tapdıq müəllimlə Səlim müəllimin adından şan-şöhrət məktublarını yığıb, Bibinin zərli mücrüsündə saxlayırdım ki, vaxtı çatanda hamısı "stend"ə vurulsun. Mənə elə gəlirdi ki, bu işə hətta Molla müəllim də sevinməlidir. Köhnə düşməninin, qatı düşməni Komsomol Tahirin yenidən şöhrətlənməsi, Tahir məktəbinin "bir ayrı cür nemətə", "baş ucalığına" çevrilməsi, əlbəttə, xoşuna gəlmirdi, məktəbimizin xeyrinə olan hər bir iş Molla müəllimi ancaq təsərrüfat müdiri kimi sevindirirdi; muzey söhbəti də, yeni bir təsərrüfat sahəsi, yəni yeni ştat, pul-para söhbəti kimi, hesabla, onun xoşuna gəlməli idi. Doğrudur, təzə binaya daşınandan sonra, Molla müəllim köhnə binaya fikir vermirdi. Müəllimlər otağından başqa, siniflərin hamısının qapı-pəncərəsini açıq qoyub getmişdi (harda isə kələm becərirdi, içəriyə toyuq-cücə, it-pişik, hətta kölgələnməyə uzunqulaq-filan da

dolurdu; bürkülü günlərdə meyvəlikdə bürkülənən uzunqulaqlar buraya axışanda lap pis batırırdılar. Bəzən dərs vaxtı pəncərədən baxıb hansı bir nacinsin isə köhnə siniflərdən birində şalvarını aşağı saldığını da görürdüm. Əmma təbiətcə nə qədər səbirsiz adam olsam da, bütün bunlara səbirlə baxırdım və o alçacıq binada Tahirli adına muzey düzəltməyə başlayacağımız günü gözləyirdim. Fikirləşirdim ki, ö gün yetişəndə, o şalvarını salan nacinsin murdarladığı yeri öz əlimlə təmizləyəndə də çiyrinməyəcəm, sonra Molla müəllimin qapı-pəncərə üçün taxta-filan almasını, usta-filan tapmasını belə gözləməyib, yoldaşlarımla köməkləşib, sarı, qızılı saman çöpləri işıldayan o divarları başdan-başa suvayacam, ağardacam, sonra ən görkəmli yerdən Tahir müəllim Tahirli ilə onun ən sadiq dostları – silahdaşları Muxtar Əlmədədoğlu ilə Qılınc Qurbanın şəkillərini asacam, sonra Tahir məktəbinin yetirmələrinin – vətən uğrunda döyüşlərdə həlak olanların şəkillərini, o fizikin, matematikin şəkillərini... Ən görkəmli yerdə isə, vaxtıilə Komsomol Tahirin öz əllərilə qırmızı taxta ramkaya salınmış böyük portreti – Stalinin şəklini və həmin şan-şöhrət məktublarını... Sonra... Həm yaxşı dəf çalan, həm də gözəl rəssamlığı olan yoldaşımız Qara İsmayılla oturub gözəl sözlər, mətnlər yazacayıq... Hardan biləydim ki, bütün bunlar elə arzu olaraq, xəyal olaraq qalacaq?! Mən bu arzuda, bu xəyalda ikən, birdəncə məktəbə səs yayıldı ki, buldozer gəlib köhnə məktəbi uçurur. Bunun necə gözlənilməz, necə heyrətli xəbər olduğunu demək artıqdır. Dərsin qurtarmağını da gözləməyib, sinifdən dəhlizə, ordan da eşiyə atıldım və bayaq dediyim kimi, məktəb əvəzində qatı toz-duman içində buldozerin qaraltısını gördüm. Bir az sonra mən yan qapının arxasında, hasarın dibində cərgələnib duran camaatın arasında idim, tarappatarap yıxılan, dağılan divara tamaşa edənlərə ilişə-ilişə vurnuxub qardaşımı axtarırdım. Kəndimizin demək olar ki, bütün camaatı bu düzənlikdə idi. Mənim tanıdığım, tanımadığım qocalar da, hətta bir zaman titrəyə-titrəyə, hıqqıldaya-hıqqıldaya məktəbin qabağına gəlib, "şəkil yığan müəllimə" şəkil gətirən Arı qarı da burda idi, Aşağı kənd Qonaqlıda Qarışqa qarı çağırılan əkiz bacısının qolundan yapışıb, başı əsə-əsə, ona-buna nə isə deyirdi, nə isə xəbər alırdı, əmma heç kəs cavab vermirdi; küləyin qovub bu tərəfə gətirdiyi tozun

altında, yas yerində dayanmış kimi susurdular. Məktəbi niyə uçururdular?! Kim göstəriş vermişdi?! Kim icazə vermişdi?!

Nurunu hasarın küncündə tapdım. Başqaları kimi o da yasa batmışdı, başını endirib siqaret çəkirdi.

Özümü onun üstünə saldım, buldozerin qulaqbatıran gurultusu içində var səsimlə qışqırdım. Beynimdəki saysız-hesabsız sualın əvəzində ancaq bir neçə söz deyirdim:

– Qağa, bu nə işdi?! Qağa, bu nədi?!

Nuru üzünü yana çevirdi.

– Çox köhnəlmişdi. Saxlamaq olmazdı, – dedi.

Sonra Səlim müəllimi gördüm; hasarın dibində oturub, hara-yasa, tozun qatı yerinə baxırdı. Onun yanında Tapdıq müəllim də tozun qatı yerinə baxırdı. İstər-istəməz mən də o tərəfə baxdım. Əvvəlcə traktor qaraltısı gördüm. Sonra yoğun, uzun bir zəncir gördüm. Sonra isə... zəncirin o biri ucunu hündürdə heykəlin boğazında görəndə gözlərimdə ildırım çaxdı. İçərimdə alov qaynadı. Sifətim odlandı: Molla müəllim nərdivan qoyub zənciri düyünləyirdi.

– Qağa! Dəlimi olubsunuz?! – Necə qışqırdımsa, hasarın diblərindən, ətrafımdan hamı mənə boylandı. Sonra yerimdən qopub, yüyürüb nərdivanı necə itələdimsə, Molla müəllim guppultu ilə yerə sərilib, hələ yuxarıda meyitə dönmüş kimi, hərəkətsiz qaldı.

Məktəbimizdə bütün müəllimlərə, şagirdlərə, kəndimizdə bütün camaata çoxdan məlumdu ki, Moskvadan respublikalara məktublar göndərilmişdi, Sovetlər İttifaqı Kommunist Partiyasının baş katibi Nikita Sergeyeviç Xruşşov – “Nikişka” “Stalin şəxsiyyətinə pərəstişi” tənqid eləmişdi. Guya Stalin hərbi xəritə ilə yox, qlobusla komanda verirmiş, yəni Ali Baş Komandanlığı, generallissimusluğu, şəxsiyyətinin böyüklüyü – hamısı yalanmış! Bu xəbər çıxanda, həmişə, hər yerdə “Şura”nı, Stalini söyə-söyə gəzən Molla müəllim müəllimlər otağında birinci dillənib: “Paatonnan! Bu boyda da yalan olarmı, əşi!”, “Hitlerin belini qıran Stalin deyilmiş, bə kimmiş, a kişilər!” – deyib, tək məni yox, söyüşlərini eşidənlərin hamısını heyrətləndirmişdi. Bundan sonra “Xruşşov Stalinin heykəllərini götürdüz” xəbəri çıxanda yenə də Molla müəllim birinci dillənib: “Paatonnan! Bu Xruşşov lap ağ elədi ha! Özünə gücü çatmayıb, indi heykəlindən qisas almaq istəyir, nədi?!”

– deyib, heykələ görə Tapdıq müəllimdən şillə yeyəndən sonra ağıllanmış kimi görünmüşdü. Bəs bu nərdivan nə idi, bu zəncir nə idi?! Yuxarı kənd Qurbanlıda, Aşağı kənd Qonaqlıda kolxoz idarələrinin qabağındakı heykəllər, rayonumuzun mərkəzində, dəmiryol vağzalının meydanında, indi Gürcüstana verilib "Qardabani" adlanan Qaratəpə şəhərində, ondan o yanda Tiflisə, Qoriyə, Batumiyə ekskursiyaya gedəndə gördüyümüz nəhəng-nəhəng heykəllər sağ-salamat durduğu alda, yəni Xruşşovun göstərişinin əksinə, SSRİ-nin bütün xalqları "faşist üzərində qələbənin təşkilatçısı, dahi sərkərdə adlandırılan generallissimusun heykəllərini göz bəbəyi kimi qoruduğu halda, Tahir məktəbinin – "Maarif yurdu"nun bu əzəmətli şan-şöhrətinə kim qəsd eləmişdi?! Özü də necə qəsd! – boğazına zəncir!..

Meyid dirilib dikəlib, əllərini başına, boynuna sıxa-sıxa, bəbəkləri ağaran nəhəng gözlərini üzümə dikdi. Hıqqıldadı, zarıdı:

– Bildim elə sənsən nərdivanı itələyən!.. Komsomol dədəni dingildədən, oynadan şeytandı deyərdim bir vaxt. O şeytan budu bax – atanız, rəhbəriniz Stalin! Dingildətdi, nişan qoyub tüfəng atdırdı, döşlərinə Varaşilovski strelok[1] taxdı, "yesli zavtra voyna" oxutdurdu, sonra da apardı avtomatnan biçdi-tökdü, qırdırdı hamısını! Sənin millətinin düşmənidi bu heyvərə! Qardaşın çoxdan bilir bunu! Qardaşıyın qardaşlığı, istəkli Tapdıq müəllimin də bilir. Bayramlarda sənə Səməd Vurğunun "Rəhbərə salam" şeirini oxutduran o biri istəkli Səlim müəllimin də bilir! Sən qanmırsan, ay zırpı qanmaz!

Məni heyrət götürmüşdü. Dedim:

– Necə yəni qırdırdı hamısını?! Sən nə çərənləyirsən, a kişi? "Vətən uğrunda döyüşlərdə həlak olanları" SSRİ-nin xilaskarı Stalin qırdırıb?!

Dedi:

– Get qardaşından soruş, nələr eləyib bu generallissimus cəllad!

Yenə də içimdən alov qalxdı, sifətim yandı.

– Cəllad?!

Bayaq dediyim kimi Nurudan da gizlətdiyim dəhşətli fikirlərimi nə qədər gizlətsəm də, burda özümü saxlayammadım.

Dedim:

---

[1] Atıcılara verilən döş nişanı

– Sən özünsən cəllad! Sən özün adam öldürübsən!..

Bundan sonra nə dediyimi bilmədim. Çünki Nuru bir qolumdan, Tapdıq müəllim o biri qolumdan yapışıb məni geri çəkəndə xilaskara "cəllad" deyən adam pilləkəni qaldırıb, heykəlin kürəyinə söykəyib, dırmanıb zəncirin düyününü bərkitdi və hələ yerə düşməmiş yuxarıdan traktorçuya tərəf qışqırdı.

– Çək, ə! Sür! – dedi.

Traktorun tırıltısı nəriltiyə çevrildi, o nərilti şaqqıltıya, gurultuyu qarışdı. Heykəl boynuna, ortasına və nazik, zərif çəkmələrinə ilan kimi dolanmış zəncirlə birlikdə üzüüstə gedəndə Səlim müəllimi qarşımda gördüm.

– Olmalıdı bu! Olmalıdı, Şöşü bala! – deyirdi.

– Ədalətsizlikdi! Haqsızlıqdı! Faşizmi məhv eliyən bu kişidi! Düz deyil bu heykəli götürmək. Ancaq göstəriş var. Neyliyək?! – və sair belə-belə sözlər deyirdi. Əmma heç biri beynimə girmirdi. Gözlərim yenə buldozerin qaraltısına dirəndi.

– Bəs onu niyə dağıdırsınız?! Ona da göstəriş var?! Səlim müəllim Nuruya baxdı, Nuru Səlim müəllimə.

İkisi də birdən:

– Yox, – dedi. – Ona göstəriş yoxdu.

İstər-istəməz bir də soruşdum ki:

– Bəs nə işdi bu?!

Nuru da gözlərini məndən yayındırdı, Səlim müəllim də.

Tapdıq müəllim dedi:

– Molladı onu uçurtduran. Qardaşına güvənir. NKVD Gülənova! Bu əfəllər də dillənmirlər. "Maarif yurdu"ndan üz əlini, Şöşü! Molla Gülənin köhnə düşmənçiliyi yedi sənin şan-şöhrətini!

Nuru başını bulayırdı.

– Tapdıq! Sən neynirsən, ay Tapdıq?!

Sonrasına qulaq asmadım. Həmin qatı tozun altına cumub buldozerin üstünə atıldım, son iki ildə bizə "mexanizatorluq" dərsi deyən, yəni traktordan, pambıqsəpən maşından başlamış, Səlim müəllimin zarafatyana ifadəsi ilə "beynimizə dəmir-dümür dolduran" qəribə Göygöz adında oğlanı "sidenye"dən kənara – yerə tolazlayıb motoru söndürdüm. Necə deyərlər, ürəyim ağzımdan çıxırdı. Oturacaqda ikiqat olub nəfəsimi dərdim. Sonra dərin sükut içində

mənə baxan camaata baxdım. Ayağa qalxıb, neylədiyimi o qədər də anlamadım, əməlli-başlı bir nitq dedim:

– Bu Göygöz bu buldozeri hardan gətirib, aparıb ora qoyacaq. Molla ola-ola müəllim olan o cəllad da o heykəli necə yıxıb, elə qaldırıb qoyacaq o pyedestalın üstünə, öz xərcinə sementdədəcək, betonnadacaq!.. Odur bax, Tapdıq müəllim, danışdırın, görün nə deyir. Bu üçpara kənddə, bütün rayonda Stalinin barəsində yaxşı-yaman danışmayan adam yoxuymuş vaxtıilə. Tapdıq müəllim hətta söyüş söyürmüş. Güllələnən sinfi düşmənlərə görə. Mən uşağıydım onda, hamınızın yaxşı tanıdığınız, "Ədalət mücəssəməsi", "Ədalət qılıncı" dediyiniz Qılınc Qurban tutdurub Qazaxdakı dəlixanaya saldırıb Tapdıq müəllimi, sonra özü gedib deyib: "Dəli-zad deyil bu, çox mötəbər bir kommunistin birinin oğludu, sinfi düşmən sözünə uyub, Stalin yoldaşın barəsində pis söz deyib". Çıxarıb ordan, aparıb NKVD-yə, rəsmi yazıb, Tapdıq müəllimə iş kəsdirib, sonra da ştrafnoy batalyona yazdırıb, müharibəyə göndərtdirib. Tapdıq müəllim deyir Stalinə, köhnə bolşevik Qılınc Qurbana, ümumiyyətlə, Sovet hökumətinə nifrətim eləydi ki, bir güllə də atmadım, səngərdə gizləndim, nemes gələndə əllərimi qaldırdım. Ayıb olmasın, şalvarını aşağı çəkib baxıblar orasına, salıblar təpiyin altına. Deyir "ha dedim Yevrey deyiləm, türkəm, Sovetin əlindən Türkiyəyə qaçanlarımızın yanına getməkdən ötrü keçmişəm siz tərəfə, heç qulaq da asmadılar". Huşunu itirənəcən əzişdiriblər. Hamınız bilirsiniz, baxtı gətirib, bizimkilər hücuma keçəndən sonra gözünü açanda görüb özümüzünkülərdi, "Za rodinu! Za Stalina!" – qışqıra-qışqıra gedirlər. Avtomatı basıb əzik-üzük döşünə, üççə il "Za Stalina!" – deyə-deyə Berlinə qədər gedib. Niyə? Tək elə faşistə nifrətinə görəmi? Xeyr! Deyir "hamısı bizim azırbaycanlılarıydı məni xilas eliyənlər: Dörd yüz on altıncı Azərbaycan diviziyası!" Deyir "Zatı qırığın biriydim, o diviziyaya düşənə qədər. Millətimi orda tanıdım". Deyir "əslində, Berlindən qayıdıb instituta imtahansız qəbul olunandan sonra hər kanikulda, ildə üççə dəfə pulsuz sanatoriyada pulsuz yeyə-yeyə pulsuz müalicə olunub belə pəhləvana dönəndən sonra bildim Sovet nədi, Stalin konstitusiyası nədi, Stalin kimdi?" Səndən soruşuram, Molla Gülən, Sovetlər İttifaqından başqa harda var belə şeylər? Pulsuz təhsil! Pulsuz müalicə! Pulsuz sanatoriya! Və sairə!.. Mən hələ

bilmirəm kimdi Xruşşov! Sən bilirsənmi? Xeyr! Sovet hökumətini nə qədər söysən də, Nikişka hakimiyyəti alandan sonra sən özün də gözümüzün qabağındaca dəyişdin. İndi nə olub? Niyə yenə cəllada döndün birdən-birə, ay cəllad?! “Burdan züryət olmamalıdı!” – deyə-deyə Əsmətin qarnına təpik vuran Molla Gülənsən sən! Öz xərcinlə günü sabah heykəli bərpa elətdirməsən, bu Zırpı Şöşünün təpiyinin altında öləcəksən! Maarif yurdunun bu divarını da öz xərcinə bərpa elətdirməsən, düz gedəcəm rayon maarif şöbəsinə, təsərrüfat müdirliyindən çıxartdıracam səni! Qoy camaat desin, haqlıyam mən, ya yox?!

Buldozerin üstündən yerə atılıb müəllimlərimizə, Nuruya tərəf yönəldim. Onlara da nə isə çox vacib sözlər demək istəyirdim. Əmma yolda qabağıma bir dəstə qadın çıxdı. Hamıdan əvvəl Arı qarı, qolunu Qarışqa bacısının qolundan çıxarıb mənim boynuma doladı, başımı əyib o üzümdən, bu üzümdən marçıldatdı.

“Marçıldatdı” deyirəm, çünki bu söz mənim ordakı sevincimi daha aydın ifadə edir: “... Sizin əriniz vətən uğrunda döyüşlərdə qəhrəmancasına həlak oldu”, – sözlərindəki şərəfə görə “qara kağız”ları mənə verən ağ saçlı gəlinlər də eynilə Arı qarı kimi, o üzümdən, bu üzümdən marçıldatdılar... Müəllimlərimə yaxınlaşanda Səlim müəllimin səsini eşitdim:

– Səməd Vurğun boş-boşunamı deyib ki:

Qardaş, müqəddəsdir bizim qanunlar,
Rəhbərin əlilə yazılmış onlar!

Maarifin, mədəniyyətin, kütləvi məcburi savadlanmanın qədrini bilmirik biz hələ. Bu maarif yurdu – Tahir məktəbi olmasaydı, belə Şöşü balalar yetişərdimi bu kənddə?! Nəriman Nərimanov özü yoxlatdırıb, öz əlilə yazıb ki, cəmisi dördcə faiz savadlı adam varmış bu tay Azərbaycanda! Xanlar, ağalar, bəylər oxutdururmuşlar uşaqlarını, çünki pulnandı o vaxt təhsil! Bədbəxt kəndçinin, fəhlənin özü kimi, övladını da cəhalət zülmətində cahil saxlayırdılar ki, dünyadan başı çıxmasın, bu tayda çar Rusiyasının qulu olsun millətimiz, o tayda Farsın!.. Səlim müəllimdən sonra Qılınc Qurban danışdı.

– Maarifsiz insan kordu! – dedi.

Sonra həmin Göygöz əlini qaldırıb:

– İcazə verin mən də sözümü deyim, – dedi. – Köhnə məktəbi yox, elə bilirdim atamın mülkünü uçurduram, – dedi.

Molla Gülənlə, şagirdlərin arxasında tək dayanmış Sıpadan başqa hamı, hamı sevinirdi. Mən isə özümü, necə deyərlər, sözün əsl mənasında qəhrəman saydım. Yalnız qaranlıq qarışandan sonra pəncərəmizin işığının altında nəhəng fil dişinə baxanda coşqunluğum söndü; budağa baxa-baxa heykəlin boynuna, bədəninə, çəkmələrinə dolanmış zənciri gördüm, çünki traktor gedəndən sonra və camaat dağılışandan sonra da zəncir heykəlin üstündə qalmışdı.

Gecənin bir vaxtı nədənsə diksinib oyanıb, şalvarı qıçlarıma keçirib, qaranlıqda ayaqqabımı tapmayıb, elə ayaqyalın yüyürüb gedib gördüm heykəl yoxdur. Qarovulçumuz Rza kişi mənim əməllibaşlı qaynadığımı, titrədiyimi görsə də, heç nəyi gizlətməyib, uzun qamış müşdüyünün ucunda siqareti közərdə-közərdə, tez-tez “Pah! Pah!” – deyə-deyə dəhşətli bir hadisə danışdı:

– Pah! Pah! Bu Molla nəymiş, ay bala! Gədəsinnən, hərəsinin əlində bir küplü balta, gəldilər tarappatarap, bircə saat baltaladılar. Deyirəm, ay Molla, görmürsənmi, baltaynan doğranası şey deyil, get iki boyun, üç boyun kəl gətir, apar dəmirçixanada-zadda doğratdır, ya da kran gətir, krannan qaldır, maşına, arabaya-zada qoy apar. “Yox” ki, “yox!” “Bunun kəlləsini .....! Şəklinnən yanaşı qoyulan anasını .....! Arvadını, qızını ..... Pah, pah! Nə qədər iləndi it təki! Ata-oğul, guppagup, qol-qıç elədilər o boyda heykəli. İki dəfəyə sürütdülər traktornan. “Bu kəlləsini ..... xərc çəkib kran-zad gətirmərəm! Bax belə sürütdəyib atacam kolxozun dəmirdümürünün arasına!” Deyirəm, əşi, neyləyib sənə bu Stalin deyilən? Qardaşıyın biri NKVD nəçənniyi! Əlinin altında filan qədər milisəner, söküb yeyir camaatı! O biri qardaşın Ermənistanın böyük bir şəhərinin böyügü! Özün bu boyda internatın var-dövlətinin yiyəsi! Arxanızda da Mikoyan boyda dağınız! Oturub Kremldə! Stalinin vaxtında necəydi, indi də eləcə, fələyə kələk demir! Niyə belə it təki ilənirsən, axı, sən, ay Molla?! Deməynən, Xruşşov zəng eləyib İrəvana, Moskvadan ki, Stalinin kadrosudu bunun o böyük qardaşı. İşdən çıxardıb, partiyadan çıxardıb, evini-eşiyini müsadirə eləyib, deyir, “Xruşşov belə-filan”. Mircəfər Bağırov Bakıdan zəng eləyib bizim rayona, partiya töhməti verdirib bu biri qardaşına, – Zor

nəçənniyə. Deyir, "mənə də sədəməsi dəyəcək bu kəlləsini .....!" Dedim: "Nuru insaflı adamdı, qorxma, çıxartmaz səni işdən". Nə desə yaxşıdı?! "Ay Rza, sən nə fəhmsiz adamsan! Təkcə o Tapdıqnan onun o Zırpısı bəsdi ki, qardaşlarım təki məni də şəxsiyyətə pərəstiş adına bağlayıb dəysinlər dalımdan". "Qorxuram", dedi, "yoxsa bu qədər hay-küy nəyimə lazımdı mənim!" Fəhm elə, ay bala! Gör nədi indi bu Molla! Pah, pah!..

Nurudan, Səlim müəllimdən, Tapdıq müəllimdən, "zavuç" – tədris üzrə direktor müavini Zöhrə müəllimdən gizlin papiros çəkən şagirdlərdən biri də mən idim; Rza kişidən bir siqaret alıb yandıranda, yalnız indi gördüm ki, qurşaqdan yuxarı çılpağam. May gecəsinin sərinliyinə baxmayaraq, zənciri heykəlin boğazında gördüyüm anda olduğu kimi, içərimdə alov qaynayırdı. Sifətim yanırdı.

– Bağışla, Rza dayı, heç bilməmişəm çılpaqlığımı, – deyib qarovulçunun oturduğu yerdən – təzə məktəbin dəhlizindən çıxıb, Maarif yurdunun qabağında bozaran "pyedestala" tərəf getdim. Sonra nə baş verdi, – ayaq üstə mürgülədimmi, yoxsa, sarsıntılardan sonra başımda-belimdə nə isə olduğunu, burasını demirəm, birdəncə heykəli öz yerində – pyedestalın üstündə gördüm. Özü də necə?! Ağaran üfüqün işığında Stalinin mənə baxan gözlərini və dodaqlarının ağır-ağır tərpəndiyini gördüm. Nə dedi? Eşitmədim. Bir an sonra nə canlı Stalin vardı, nə də ki, əlbəttə, heykəl. Komsomol Tahirin oğlu Şövkət Tahirlinin öz sevimli rəhbəri ilə ilk görüşü belə oldu. Evə gedib, yuxum qaçdığına görə pəncərənin arxasında budağa baxa-baxa fikirləşirdim ki, Molla Gülən olmasaydı, yəqin ki, indi heykəl də yerində olardı, Maarif yurdunun o dağılan divarı da. Birdən yenə o gözləri, o tərpənən dodaqları gördüm və o dodaqların səssiz dediyi sözü səssiz eşitdim: "Oldür! Xalq düşmənidi![1] Öldür! Öldür!.." Bu səssiz sözləri ertəsi gün də, sonrakı günlər, gecələr də beynimdən çıxmadı: "Öldür!.. Öldür!.. Öldür!.." Nuru "imtahanlar başlayır, əlində kitab görünmür", – deyəndən sonra, Bakıdan – Maarif Nazirliyindən göndərilmiş imtahan sualları kitabını açanda da söz beynimdə idi: "Öldür!.. Öldür!.."

[1] 1937–38-ci illərdə "Xalq düşmənləri" adı ilə kütləvi həbslərin, qətllərin üstündən on ilə yaxın müddət keçsə də, "xalq düşməni, "sinfi düşmən" ifadələri hələ də dildə-ağızda idi.

**4**

Evimiz təkotaqlı idi. Çiy kərpicdən dörd divar, taxta döşəmə, taxta tavan, vəssalam. Qocaların hələ də hər yerdə danışdıqları kimi, "cavanlığı Qılınc Qurbannan çiyin-çiyinə, ağaynan, bəynən vuruşmalarda keçdiyinə görə, "var-dövlət, mal-mülk düşkünlərini görməyə gözü olmayan" Komsomol atamız iyirminci ildə anamız Əsmətlə evlənəndən sonra, bu divarları qaldırmağa başlayanda nəzərə almamışdı ki, bir vaxt gələcək, Nuru və Şöşü adında oğulları olacaq, Nuru yaşa dolub Bakıya, instituta imtahan verməyə gedəndə, tarix fakültəsinin dekanlığında, şüşə qapı arxasında makina çıqqıldadan Bibixanım adında bir qız görəcək, bir könüldən min könülə vurulub, elə həmin ili o qızı özü ilə bu evə gətirəcək, Şöşü bala isə böyüyüb, qardaşının ülgücünü üzünə sürtməyə başladığı, özünü hər cəhətdən kişi saydığı bir vaxtda da, Nuru və Bibi ilə bir damın altında yatmaq məcburiyyətində qalacaq, bir-birini cüt göyərçin kimi sevən ər-arvadın məişət həyatını müəyyən mənada məhdudlaşdırmalı və özü də bundan müəyyən mənada əzab çəkməli olacaq.

Təzə ev tikdirməyə, ya da heç olmasa, böyürdən bir otaq artırmağa, əlbəttə, imkanımız vardı. Tapdıq müəllim kimi, ilbəil qazandığını kurortlarda qoyan bir adam təzə ev tikdirməyi bacarmışdısa, biz niyə bacarmayaydıq? Əmma ev barədə söz düşəndə Nuru həmişə mənim sözümü kəsirdi: "Bizim evimiz sənsən, Şöşü bala. Dünyanın işini bilmək olmaz. Müharibə-zad başlayar yenə, əlim başımda olmaz, korluq çəkərsən", – deyirdi. Və hər ay maaşından artırdığı pulu aparıb rayonumuzun əmanət kassasına qoyub, mənim təhsil illərim üçün saxlayırdı.

Otaq əvəzində mənim burda arakəsməm vardı. Döşəməmiz və tavanımız kimi yağlı rənglə palıdı rənglənmiş, Bibinin hər gün əsgi ilə silib parıldatdığı qəşəng, faner arakəsməm, çarpayım, tumbam və kitablarımla birlikdə özüm də çox vaxt burda olurdum, qolqıçımı sərbəst uzadıb, arxası üstə, üzü üstə, böyrü üstə, yorğanlı, yorğansız, keyfim necə istəyirdisə, o cür də yatırdım. Cüt göyərçinlər arakəsmənin o yanında öz işlərində olurdular. Mən də burda – kitablarımın, şeir dəftərlərimin arasında, düşüncələrimin, arzu və

xəyallarımın gizlin hökmdarı Ruqiyyənin xəyalı ilə birlikdə. Bu cəhətdən arakəsmə mənə sözün əsl mənasında kef verirdi. Nurunun öz çarpayısından düşüb, yalın ayaqlarını döşəməyə ehtiyatla basa-basa o biri çarpayıya keçdiyini, göyərçinlərin sevişməyə başladığını hiss edəndə isə aydın məsələdir ki, vəziyyət dəyişdi; qulaqlarımı tutmağa məcbur olub, hətta narahatlıqla çevrikməyə başlayırdım.

Göyərçinlərim, əlbəttə, məsələni duymuşdular, hələ altıncı sinifdə ikən ara-sıra xəlvətə salıb ülgücü siyirmədən götürdüyüm vaxtlardan əhvalatı bilirdilər; gündüzlər baxışları ilə, him-cimlə sevişəndə nə qədər fərəhlənsəm də, gecə sevişmələrindən narahat olduğumu hiss eləmişdilər. Həddindən artıq qısıq davranmaları və Nurunun hərdən pıçıltılı deyinti ilə “Allah kəssin belə yaşayışı. Heç bilmirsən necə tərpənəsən”, – deməyi məsələni mürəkkəbləşdirirdi. Qalxanda mən anamı görürdüm. Anam da taxtdan qalxıb, döşəyin altından yapıxmış yun çıxarıb, sol ayağının dabanına qoyub əsgi ilə sarmalayırdı, sağ ayağına ayaqqabı geyinir, döşəmədəki ayaqqabını çarpayının altına itələyib, səhərin qaranlığında axsaya-axsaya həyətə çıxıb, mənim də yaddaşımda qalmış, qırx üçüncü ildə arıqlıqdan ölmüş qara inəyimizin nəslindən qara düyüşü sağırdı, qayıdıb iki boşqaba süd tökürdü, boşqabın birini atası müharibəyə gedəndən sonra məktəbi atıb kotançılıq eləyən böyük oğlunun, o birisini süd qoxusuna oyanıb yuxulu-yuxulu qarnını qaşıyan, qarınqulu kiçiyinin – Şöşünün qabağına qoyurdu. Oğullarını yemləyib qurtarandan sonra Şöşüsünü qalın yun şalla belinə sarıyıb, bir ayağının üstünə çökə-çökə, manqabaşının kətmənlə dolu arabasına çatmağa tələsirdi. Arabaya çatanda kətmənləri o yan-bu yan eləyib Şöşüsünü oturtdururdu, arabaya çatmayanda isə, elə Şöşüsü də belində, ta sahəyə qədər axsaya-axsaya, hərdən yolun qırağında oturub dincini ala-ala gedirdi. Camaat soruşurdu: “Nə olub ayağına yenə, ay Əsmət?” Cavab verirdi ki, “qara düyüş tapdalayıb yenə”. Heroqliflə ayaqqabıların dərisində çap olunmuş roman belə başlanırdı. Məni elə bu başlanğıcdan qəhər boğurdu. Romanın axırına yaxınlaşanda isə, damarlarımda qanım donurdu, kürəyimdə, başımın dərisində soyuq cimildəşmə hiss edirdim. Bu vaxt onu ölüm yatağında, son nəfəsdə görürdüm; gah qanqrenadan şişib göyərmiş qıçına, gah maddım-maddım baxıb gözünü döyən Şöşüsünə, gah da çarpayının böyründə, döşəmədə bükülüb yumağa

çevrilmiş Nurusuna, gah da qəzəblə uğuldaşan, “Sən öldürməsən biz öldürəcəyik o qatili!”, “Sən öldürməsən, biz öldürəcəyik!” – deyən cavanlara baxa-baxa: “Yox! Yox! Yox!” – deyirdi.

“Vəsiyyətimə qulaq as. Aman günüdü, kin saxlama, mənim balam!” – deyirdi.

“Hər nə bədbəxtlik törəyirsə, insanın insana kinindən törəyir, mənim balam, unutma bunu! Bir əlin od olanda, o biri əlin su olsun”, – deyirdi.

“Atanızın cavanlığı zəmanənin qarışıq vaxtına düşüb. Beyni qan olub, qızışıb, dayımın səsini aldırıb, əlini hər yerdən üzüb, urvalığını kəsib. Dayım da düşmən kəsildi hamımıza. Axırda da hayıfını məndən aldı. Aman günüdü, qisasçılıq eləmə, mənim balam!” – deyirdi.

“Vəsiyyətimi sırğa elə, as qulağından. Atanızın səhvini düzəlt, fürsət düşəndə o mürvətsiz Mollanın əlini ilişdir bir yerə, çörəyi olsun, kin saxlamasın sizə!” – deyirdi.

“Atanız sinfi düşmən sayırdı dayımı, “xalqı soyub-talayıb” deyirdi. İndi bu “arxa cəbhə” deyiləndə qalanların arasında elə varlılar əmələ gəlib ki, dayım yalandı onların yanında...” – Uzun idi vəsiyyət. Göz yaşından sel idi, axdıqca axırdı.

Mənim qanımı donduran da məhz axdıqca axan sel idi.

Nuru vəsiyyəti yerinə yetirmişdi: Molla Gülənin Molla müəllim olmasına kömək eləmişdi. Ona aşağı siniflərdə dərs vermiş, sonra da təsərrüfat müdiri qoymuşdu... Təzə məktəbin giriş tağından bir az yuxarıda, ağ daşlar arasında seçilən tək qırmızı daşın üstündə dolaşıq ərəb əlifbası ilə yazı vardı. Əvvəllər, yəni hələ bina istifadəyə verilməmiş, o yazını hamı naxış bilirdi. Bir gün Səlim müəllim baxıb gördü ki, naxış-zad deyil, adi yazıdır. Özü də necə yazı: “Əməli Molla Gülən!”

Səlim müəllim o sözləri oxuyub əvvəlcə qəh-qəh çəkdi: “Xəbərimiz yoxdu, məktəbimiz Molla Gülən adına imiş!” – dedi.

Sonra sifəti ağardı, gözlərinin maviliyi sifətinin əksinə, tündləşib qaraldı və Səlim müəllim, belə heybətli görkəmlə Molla Gülənin üstünə yeridi:

– Poz onu bu dəqiqə! Tez!

Molla Gülən dedi: “Direktorumuzun qohumları erməni ustaları gördülər çox zəhmət çəkirəm mən burda. Dedilər bir kağıza yaz ver adını, naxışlayaq bura. Mən də yazdım. Niyə pozum, ay Səlim müəllim?”

Cavabı Tapdıq müəllim verdi: "Özüyün salamat qaldığın bəs deyil, üstəlik, istəyirsən bu qondarma adın da qalsın burda?!"

Molla Gülən daha dillənməyib, iskənə, çəkic götürüb, nərdivan qoyub, "əməli Molla Güləni" öz əllərilə pozmağa məcbur olanda da Səlim müəllimin hirsi soyumamışdı: "Barakallah! Naxallığına barakallah, kişi!" – deyirdi.

Qardaşım isə bir kənarda sakitcə gülümsəyirdi: "Molla Gülənliyi tutub, ıbir balaca səfehləyib. Dünya dağılmayıb ki!" – deyirdi.

Nuru hətta o "Əməli Molla Gülən!"ə – o biabırçılığa səbirlə baxırdı və qardaşım öz dözümündən çox razı idi: "Anamın vəsiyyətinə qulaq asmasaydım, kim bilir, axırımız nə olardı?" – deyirdi.

"Çox güman ki, dayımı da məhv eliyərdim, özümü də", – deyirdi:

"Dayımı!.." Molla Gülən və dayı! – bir araya sığışan şeydimi?..

Nuru bir böyük qardaş kimi, həmişə, hər yerdə mənə nümunə olsa da, hiss edirdim ki, bu məsələdə qardaşımın yolu ilə gedə bilməyəcəm; vəsiyyətlə birlikdə, ürəyimə dolub damarlarımda qaynayan kinimi yatıra bilmiyəcəm, harda isə, nə vaxt isə Molla Güləndən intiqam alacam!

Ayaqqabıları əlimdən nə vaxt aldılar, kim apardı, harda gizlətdi? Bilmirəm. Mən ayaqqabıları tələb edəndə, o günü Nuru birinci dəfə səsini qaldırdı:

– Vermiyəcəm! – dedi.

"Birinci dəfə" deyirəm, çünki doğrudan da belə idi, o vaxtacan mən Nuruda bu qədər sərtlik görməmişdim. Hər hansı bir hərəkətimdən narazı qalanda da, danlaq, məzəmmət əvəzində, eynilə məni əzizləyəndə olduğu kimi, əlini başıma çəkirdi. "Mənim Şöşü balam!" – deyirdi və onun bu kövrək mülayimliyi mənə hər cür danlaqdan, məzəmmətdən daha güclü təsir göstərirdi. Əgər mən ayaqqabıları tələb edəndə qardaşım yenə də əlini başıma çəksəydi, "Mənim Şöşü balam" desəydi, bəlkə də iş ayrı cür olardı. Əmma Nuru bu dəfə mənim tanıdığım, öz ürəyim qədər bələd olduğum Nuruya heç oxşamayan, eynilə qardaşlığı Tapdıq müəllim kimi kəskin xasiyyətli bir adam sərtliyi ilə başını dik qaldırıb gözlərimin içinə baxdı:

– Vermiyəcəm!.. Vermiyəcəm!.. İstəmə!

Niyə belə oldu? Mənim ipək xasiyyətli, həssas qardaşım öz kiçik qardaşının, övladının sarsıntılı vaxtında birdən-birə niyə bu

cür rəhmsizləşdi? Düşünürəm və mənə elə gəlir ki, ayaqqabıları tələb etdiyim dəqiqələrdə Nuru hər şeyi duymuşdu; mənim kinimin gücünü, onun özünün tutduğu yolun əksinə bir fikrə düşdüyümü sözsüz-söhbətsiz, bütün aydınlığı ilə başa düşmüşdü; biz iki qardaşın bu nöqtədə birdən-birə ayrıldığımızı görüb narahat olmuşdu, odur ki, mənə acıqlanmaya bilmədi:

– Özünü ələ al! Olan-olub, keçən-keçib. Anamızın qəbrinin üstə ot bitib... – Nuru eyni sərtliklə, qırıq-qırıq danışırdı. – İyirminci, otuzuncu, qırxıncı illərdə çox şeylər olub... Tarixçiyəm mən. Bilirsən, dissertantam, arxivlərdə, bağlı qapılar dalında elə sənədlər saxlanılır ki, oxusan, avtomat götürərsən, qabağına çıxan erməninin hamısını güllələyərsən. Əmma inan mənə, ermənidə günah yoxdu. Xaricdən doldurublar onları bizim içərimizə. Kirvə-filan eləyiblər, qohumlaşdırıb yaxşı-yaxşı yerləşdiriblər. Sonra da elə düşmünlik salıblar ki, hətta bax belə ayaqqabı müsibətləri olub... “Cəllad” dedin sən ona orda – heykəl uçurulanda. Bütün kənd bildi niyə deyirsən “Adam öldürübsən... Gecə-gündüz axışdılar kabinetimə: “Aman günüdü, Şöşünün ürəyini yumşalt, bir də qan düşməsin...” Sənin istəklin Sol gəldi, Aşağı kənd Qonaqlıdan Çürük Aşıq kimi adam gəldi ki, “mənim məclisimə gətir qardaşını, bilik verim, ilahi vicdan verim”.

Nurunun sözünü kəsdim:

– Başa düşmürəm, necə yəni “ilahi vicdan”? Vicdanın ilahisi, qeyri-ilahisi də var?

Dedi:

– Gedərsən o kişinin məclisinə, başa salar... Mənim cibimdə partiya bileti var. Kommunistdi adım. Çürüyün məclisinə getsəm, birinci elə bax bu müdafiə elədiyim dayımız material yazar ora-bura. Partiyadan çıxarsalar, bilirsən, işdən də çıxardarlar. Vaxtını deyəcəm məclisin, get yaxşı-yaxşı qulaq as Çürük Aşığa. Ondan sonra özün öz başın-beyninnən müəyyənləşdirəcəksən: səbəbi nədi bu ayaqqabı müsibətinin? Atamız haqlı olub, ya Molla Gülən? Bəlkə elə hər ikisi haqsız olub?..

Yenə sözünü kəsməyə məcbur oldum:

– Atamız haqsız?!

Nuru yerə baxdı.

– Atamız inqilab eləyib, maarif çırağı yandırıb, kəndimizi işıqlığa çıxarıb. Allah rəhmət eləsin atamıza! İndi zəmanə başqadı.

Adamlarla yola getmək lazımdır. Dil tapmasan, yola getməsən heç kəs sağ ol deməz sənə. Yaxşıynan bərabər pisnən də yola getməlisən. Güzəşt lazımdır, əzizim. Güzəşt!

– Qatilə güzəşt?

– Bəli! Hətta qatillə də yola getməlisən! Hər bir qatil xəstədi, əzizim! Sənin səbirin geniş olmalıdı! Ürəyin böyük olmalıdı! Bağışlamağı bacarmalıdı!

– Nəyi? Anamın ölümünü bağışlayım?!

Nuru daha danışmadı. Düşüncəli gözlərlə bir xeyli o yan-bu yana baxandan sonra, elə bil başqa söz tapa bilməyib yenə:

– O kişinin məclisinə get, – dedi. – “İlahi vicdan” ifadəsi Tanrıya məxsusdu. “Bağışla” deyən də odu, əzizim!

– Mən tanrı deyiləm! – dedim.

Və səhərisi məktəbə gedəndə, kandardan içəriyə ayaq qoyan kimi Sıpanı döydüm və var səsimlə qışqırdım:

– Molla Gülən qatildi! Molla Gülən qatildi!

Məktəbə çaxnaşma düşdü.

Nurunun kabineti ilə klubun arasında sütunlu foyemiz adamla doldu. Şagirdlər də, müəllimlər də Molla Gülənlə burnu qanamış Sıpası da – hamı burda idi. Təkcə Nuru görünmürdü.

– Əvvəla, Molla Gülən yox, Molla müəllim deməlisən! Mollalığın daşını mən çoxdan atmışam, bala! Əlimdə vəsiqəm var. Müəllimlik vəsiqəsi! Sovet hökuməti verib!.. – Öd rənginə yox, üzü indi sarıya çalırdı. Səsi də dəyişmişdi: həmişəki kimi deyintili yox, sakit idi, mötəbər idi. – İkincisi, bura məktəbdi, maarif ocağıdı, artıq-əskik danışmaq olmaz burda. Müəllimə böhtan deməyin üstündə, yəni nüfuzdan salmağın üstündə şagirdə neyləyirlər? Məktəbdən qovurlar!.. – Beləcə, mötəbərcə danışa-danışa yeriyib əlini sütunlardan birinin dalına – divara uzatdı. Zil elektirk zəngi məktəbi başına götürdü. Uşaqlar və müəllimlərin əksəriyyəti çəkilib getməyincə o, barmağını zəngin düyməsindən ayırmadı. Nəhayət, sakitlik çökəndə mən direktorumuzu qarşımda gördüm.

– Zəngin sənə dəxli yoxdu?! Sinfə get!

– Gedəcəm, qağa.

– Qağa nədi?! Qağa yox, burda məktəbin direktoruyam mən!

Özümü topladım, dedim:

– Mən bu adamı məhkəməyə verəcəm. Anamın ayaqqabılarıynan ifşa eləyəcəm!

Nurunun rəngi ağardı. Dedi:
– Nə ayaqqabı!.. Ayaqqabı-zad yoxdu!..
Dil-dil ötən Şöşünün dili kəsildi; qəhər məni boğdu.
Nuru işarə elədi, Molla Gülən rədd olub getdi.
Qardaşımın əlini çiynimdə, sonra başımda hiss etdim.
– Şöşü bala... Gözümün işığı... Belə olmaz, əzizim!
Ağladım. Dedim:
– Sən onu burdan qovmalısan, qağa! Sən nahaq barışıbsan onnan... Nahaq kömək eləyibsən ona! Xahiş eləyirəm, yalvarırıam sənə, qağa, tərəfini saxlama qatilin!.. Gəldim, Sıpasına rast oldum burda, qan başıma vurdu... Bibiyə demişəm, sənə də deyirəm: öz səhvini düzəltməsən, mən rahat durmayacam!..

## 5

Demə, Səlim müəllim söhbətimizə qulaq asırmış.
Gülümsəyə-gülümsəyə yaxınlaşıb bir əlini mənim, o biri əlini Nurunun kürəyinə qoydu:
– İki qardaş, iki əqidə! Komsomol Tahirin mübarizə ruhu və zəmanəmizin liberalizmi üz-üzə! – deyib qəh-qəh çəkdi. Gözlərimdə səma vardı, günəş vardı. Beynimdə bir beyt qığılcımlandı:

Gülüb günəşə dönürsən,
Fəqət, heyif, tez sönürsən...

Sərtləşmişdi: – Uşağı korlama! Ürəyinin atəşini söndürmə, direktor! Şöşü bu gün bizim hamımızın, bütün kollektivin çoxdankı tələbini ifadə elədi. Nə yapışmısan o Mollanın ətəyindən?! Başqa təsərrüfat müdiri tapmırsan?! Nə çoxdu kənddə orta təhsilli müəllimlər, dərssiz oturub evdə, məktəbə həsrətnən baxanlar azdımı?! Yalvarırlar ey! Sən nurum-pirim deyib tutmusan Molladan, internatı da vermisən onun ixtyarına, maşını da. Xətrinə dəyməsin, bir az belə birtəhər görükür ey! Şübhəli demirəm ha, əmbə hər halda müəmmalıdı! Çürük Aşıq deyir: “Tezliknən dünya dəyişəcək, babalarımızın elmi Marksın, Engelsin, Leninin kitablarını heçə-puça döndərəcək”. Bunu eşidib məclisdən qaçmısan. İndi də qaçırsan. Əmbə Şöşünü ora itələyirsən: Get! İlahi vicdan dərsi al-filan!..

Əmbə başa düşmürsən nədi o "ilahi vicdan"adlanan, liberallıq deyil! Əksinə, barışmazlıqdı! "Öyrət!" – deyir tanrımız "qatili bağışla" demir, "Öyrət, kamilləşdir! Kamil insanın vicdanı ilahi vicdandı", – deyir. Babalarımızın elmidi bu. Şərlə yoldaş olan Xeyir kor olur. Şərlə, yəni cahil insanla! Kimdi o Molla?! Cəhalət mücəssəməsi deyilmi?! Bəs onu müdafiə eləyən kimdi?! Cahilin – Şərin yoldaşı deyilmi?! Kor deyilmi?! Görmürsənmi ki, o bircə nəfər Şər qüvvə bütün məktəbi korlayır?!

– Bıy! Direktora nə oldu?! – Bu Molla Gülənin səsi idi.

Nurunun ürəyinin sıxıldığını uzaqdan-uzağa, həm də bizdən əvvəl görüb yüyürmüşdü...

...O gecə arakəsmənin arxasından baxıb bibini çarpayıda oyaq gördüm. Düşünürdü? Bəlkə heç düşünmürdü? Yatırdı? Əmbə bir az sonra onun pıçıltısını eşitdim. Özü də necə pıçıltı!

– Qurban olum Şöşü balama! Əlbəttə, öz balamdı! Məktəbini qurtarsın, evləndirəcəm, balasına da öz balm kimi baxacam!.. Tez evləndirək, lap tez! Razısan?..

Nuru, əlbəttə, razılıq verdi və Bibi orda, öz çarpayısının üstündə, qardaşımın qolları arasında kövrəldi, mən isə burda – arakəsmənin arxasında, Ruqiyyənin xəyalı ilə birlikdə.

Belə məziyyət!

O gecədən sonra Nuru ilə Bibinin pıçıltılarını "Sehrli güzgü" adlandırdım. Doğrudan da belə deyildimi? "Sehrli güzgü" olmasaydı, qardaşımla Bibinin sevgi ilə dolu ürəklərini bu qədər aşkar görə bilərdimmi?!

Bir dəfə isə...

"Sehrli güzgü" mənə bir cüt ayaqqabı göstərdi. Bir tayı tamam təzə, qara, o biri tayı isə lap köhnə, boz, yırtıq-sökük qadın ayaqqabısı.

Nuru lap astdan:

– Anamın ayaqqabılarıdı, – deyəndə mən dikəlib fanerin arasından baxdım və o ayaqqabıları Bibinin əlində gördüm.

– Rəhmətə gedəndə paltarını yetim-yesirə payladıq. Sizin tərəfləri bilmirəm, burda adətdi, gərək paylayasan. Bircə elə bunlar qalıb – ayaqqabılar. İstəmirdim Şöşü görsün, yaman həssasdı. Damda saxlamışdım. İndicə gözümə sataşdı, fikirləşdim ki, ailəmizin keçmişi barədə sənə heç nə danışmamışam. Bax, bax bu ayaqqabılara, sonra dəhşətli bir hekayə danışacam sənə.

–Baxıram... – Bibi əllərində ayaqqabıları o yan-bu yana çevirdi. – Ananınkıdı deyirsən?

– Axırıncı ayaqqabılarıdı.

– Bəs niyə belədi? Biri təzə, biri köhnə.

– Səbir elə...Anamın dabanında yara çox dəriniydi. Hərdən üstü örtülürdü, sevinirdik. Deyirdik, deyəsən, sağalır. Sonra qövr eləyirdi, yenə açılırdı... Sən, Bibi, belə sağalmaz yaraları görməyibsən. Ona görə də nisgil-filan deyirsən, fikir çəkirsən. Danışacam sənə hər şeyi... İnsan çox vaxt öz xoşbəxtliyini dərk eləmir. Xoşbəxt ikən, görürsən özünə dərd axtarır. İncimə, xüsusən qadınlar belədi. İnsan qənaətlənməyi bacarmalıdı, öz qismətinə "şükür" deməyi bacarmalıdı, Bibi. Danışacam sənə... Səndən əvvəl bu evdə anam yaşayıb. Anamın başına gələnləri biləndən sonra onun taleyilə öz taleyini müqayisə elə. Belə müqayisələr hamıya lazımdı, Bibi. Sənə də...

Nuru siqaret yandırıb çarpayıya uzandı, bir əlini başının altına, siqaret tutan əlini sinəsinin üstünə qoyub, gözlərini mənim arakəsməm tərəfə çevirdi.

– Bax gör oyanmayıb ki?

Bibi səssiz addımlarla mənə sarı gələndə yorğanı başıma çəkdim, nəfəsimi içimə saldım.

Bibinin Bakı ləhcəsi ilə "şap-şup" dediyi çəkələkləri döşəməyə sürtülə-sürtülə uzaqlşdı.

– Yatır, – dedi və mən yenidən dikəldim.

– Yaxşı... İndi otur... Ayaqqabıları ver mənə. Otur burda, yanımda, qulaq as...

Biri vardı, biri yoxdu, Bibi, bizim əsrimizin iyirminci illərində, sənin indi sakin olduğun bu kənddə bir oğlan vardı... Bir az mənə oxşayırmış, bir az da bizim Şöşü balaya. Boylu-buxunlu, telli bir oğlan... İndi Şöşü balanın hər səhər fırlandığı quru budaq ki var, o budaq o vaxt yamyaşılmış...

Qardaşım danışıb qurtardı. Hekayəsi isə qurtarmadı; mənim ürəyimə doldu, damarlrımda qaynamağa başladı. O hekayə mənim ürəyimin döyüntüsünü dəyişdirdi, boynumda ağrı, başımda uğultu əmələ gətirdi... Çarpayımdan nə vaxt atılmışdım? Ayaqqabıları Nurunun sinəsinin üstündən alıb, öz sinəmə sıxıb arakəsmənin dalına keçdiyim dəqiqədən nə qədər, neçə gün keçmişdi? Bilmirəm. Ancaq bunu yəqin bilirəm ki, o günlərdə mən nə bir şey yeyib-içdim, nə kitab oxuyurdum, nə şeir yazırdım, nə də yuxu yatırdım.

Anamın ayaqqabılarını gah dizlərimin üstündə, gah da sinəmdə tutub dururdum. Arakəsməyə kimlər isə aramsız gəlib-gedirdilər. Qarşımda dayanırdılar, sağ-solumda oturub, əllərini kürəyimdə, saçlarımda gəzdirir, nə isə deyirdilər. Kimlərdi bunlar? Müəllimlərimdimi? Yoldaşlarımdımı? Revaz doktorla şəfqət bacısı idimi? Yalnız hərdən, duman içində qardaşımın avazımış sifətini, Bibinin yaşlı gözlərini görürdüm. Hərdən də Səlim müəllimin çopur yanaqlarını, mavi gözlərini, Tapdıq müəllimin Nikolay Ostrovskiyə[1] oxşayan, ovurdları batıq sifətini görürdüm. Sonra yenə hər şey dumana bürünüb yoxa çıxırdı, qarşımda təkcə ayaqqabılar qalırdı: bir tayı tamam təzə, qara, o biri tayı lap köhnə, boz, cırıq-sökük... Dərisindəki qırışlar... Qırış deyildi onlar, anamın dabanında ömrü boyu qövr eləyən, ilbəil açılıb təzələnən, sağalmaq bilməyən yara idi. Anam özü dünyadan getsə də, yarası qalmışdı; mən onu sığallayırdım, sağaltmaq istəyirdim. Qırış deyildi onlar, bütün dünyada təkcə mənim oxuya bildiyim heroqliflərdi. Səlim müəllimin şəxsi kitabxanasından aldığım şeir kitablarının, romanların əvəzində indi mən herqliflə çap olunmuş, oxuduqca qurtarmayan bir roman oxuyurdum. Balaca, arıq, zərif, ancaq hər ağrıya dözümlü bir qadın, indi Bibinin yatdığı çarpayıda yatırdı...

Qardaşımın bu halında, hesabla, indi mən onun qayğısına qalmalı, su və ya dərman gətirməyə qaçmalı idim. Əmma bunun əvəzində Molla Gülənin üstünə cumdum.

– Yaxın durma! – Qışqırıb döşündən itələdim. Sonra Nurunu qucağıma alıb kabinetə apardım, divanda oturdub qrafindən su içirtdim...

Anamın ölümündən on iki il sonra Molla Gülənlə mənim düşmənçiliyim belə kəskinləşdi. Bu düşmənçilik, necə deyərlər, sözün əsl mənasında qarşılıqlı idi. İnternatda maaliyə və təsərrüfat işlərini planlaşdırmaq üçün gələn üç nəfər komissiya üzvü ilə hardasa yağlı-buğlu yeyib-içib Maarif yurdunun meydanında gəzinəndə dediyi sözlərə diqqət yetirin: “Stalinin adını kitablardan siz necə yerli-dibli silirsiniz, mən də bu uçuq binanı elə siləcəm burdan, bu böyüklükdə “heykəl meydanı” deyilən meydanıynan bir yerdə!

[1] Rus yazıçısı, “Polad necə bərkidi” romanının müəllifi

Soğan əkəcəm burda. İnternatdan ötrü əla soğan!” Özlüyümdə yəqinləşdirdim ki, təzə binadan sinfin pəncərəsindən gördüyüm, köhnə binada şalvarını aşağı salan o murdar, o nacins də bir başqası deyil, məhz o öd üzlü adamdır, həm də orda, köhnə binada qəsdən oturur, “Tahirin məktəbinin içinə belə eləyirəm!” – deyir. Bundan sonra Maarif yurdu ilə meydana tez-tez baş çəkmək, qaraulçumuz Rza kişi ilə kəlmələşib, hər dəfə: “Ayıq ol ha, Rza dayı! Bir şey olsa xəbər elə mənə”, – deməyə vərdiş elədim. Belə axşamlarda həmişə heykəli görürdüm. Dodaqlar yenə də səssiz tərpənirdi: “Öldür!.. Öldür!.. Öldür!..” Belə vaxtlada nədənsə yenə də çox ağrılı olduğuma görə, həyətimizə qayıdanda atamın budağına sarılırdım, tərə batıb başımın ağrısından xilas olana qədər fırlanırdım. Qəribədir ki, o cür fırlananda bir dəfə heykəlin gözləri və dodaqları əvəzində “Padeniya Berlina” kinosunda, öz bağında yer kətmənləyən Stalini gördüm. Kinodakı əli kətmənli Stalin yoxa çıxdı, generalissimus şapqasının kənarlarından dümağ saçları görünən qoca, nurlu rəhbər tutun altında peyda oldu, mənə baxıb, gülümsünüb yox oldu. Sonra Lenini gördüm; barmağını jiletinin döşündən çıxarıb, əlini Molla Gülənin döşünə doğru uzadıb qəzəblə dedi: “Kulak!..”[1] Bütün bunları – gördüklərimi, hisslərimi, fikirlərimi mən Səlim müəllimə danışırdım. Səlim müəllim məni diqqətlə dinləyir və hər dəfə Nuru ilə təklikdə söhbətə gedirdi. Bu söhbətlərin məzmunu məndən demək olar ki, gizlin saxlanılsa da, böyürdən-başdan keçəndə hərdən bəzi sözləri qulağım alırdı.

Birinci söhbətdən.

Səlim müəllim:

– Uşaqlara maksimum ədalətpərəstlik öyrədirik, onlar da haqlı olaraq bizdən maksimum ədalət tələb eləyirlər.

Nuru:

– Uşaqlara həyat öyrətmək lazımdır. Həyat, bütün ziddiyətlərilə. Şöşü çox dik yeriyir. Sınmalıdır. Yumşalmalıdır. Mən özüm sındırmasam, sabah başqaları sındırarlar, özü də pis sındırarlar.

Səlim müəllim:

– Heyfin gəlmirmi o mərdliyə, Nuru?!

Nuru:

– Yox.

---

[1] “Lenin oktyabrda” filmindən kadr

Səlim müəllim:

– Dəhşətli adamsan!

Nuru:

– Sən isə idealistsən, Səlim müəllim. Fantazyor və idealist!.. Mən Şöşünü çox sevirəm. Balamdı mənim. İcazə ver balamı özüm tərbiyə eləyim!..

Onların bu söhbətinə pəncərənin dalından qulaq asdım. O günü birinci dəfə dərsdən yarımçıq çıxdım. Bütün günü meyvəlikdə təkbaşına gəzib-dolandım. "Sınmalıyam?! Yumşalmalıyam?! Molla Gülənin öd üzü günü-gündən ennənsin, gözləri qızmış buğa gözlərinə dönsün! Sıpası "Kamal attestatı" alıb vəzifəli, pullu eşşək olsun, komsomol Tahirin oğlu sınıq, dilsiz-ağızsız rəzilə dönsün!.. Necə yəni "özüm sındırmasam, sabah başqaları sındıracaq?!"

İkinci söhbətdən.

Nuru:

– Direktorum olmusan, müəllimim olmusan, hörmətini saxlayıram. Əmbə hər şeyin həddi var. Əl çək mənim yaxamdan!

Səlim müəllim:

– Ay əl çəkdim ha! Qardaşlığın Tapdıq səni döymək istəyir. Fikirləş, gör nə deməkdi bu!

Nuru:

– Mollanı qovmuyacam.

Səlim müəllim:

– Qovacaqsan, qardaş! Dalına yaxşıca bir təpik də ilişdirəcəksən!..

Üçüncü söhbətdən.

Nuru:

– Bəsdi! Bəsdi! Tapdıq sürüdü məni, təpiklə döydü! Açıq danışdım mən onnan. Çox açıq! Dedim dissertasiyamın mövzusuna görə burdan – rayondan birbaş Moskvaya açıq imzaynan material yazıblar Gülənovlar: "Atası Tahirli millətçi idi, məşhur otryad komandiri Qılınc Qurbanın müavini vəzifəsində – siyasi rəhbər adı daşıdığına baxmayaraq, ərazimizdəki erməniləri güllələyirdi. Cinayətin üstü açılanda Tahir Tahirli kənddə Gələn kirvə adı ilə tanınan ermənininin nəslindən – Molla Gülənin bacısı qızı Asmiklə (Əsmətlə) evlənib, millətçiliyinin, vətənimizdə xalqlar dostluğuna düşmənliyinin üstünü örtdü..." Aydındımı, Səlim müəllim, nə vəziyyətdəyəm mən?! Qardaşlığım Tapdıq birdəncə sındı bunu

eşidəndə. Üzr istədi. Dedi: "Dünyamız dağılsın, ay Nuru! Bu zəhrimar "millətçilik" damğasını böyüyümüzə də yapışdırırlar, kiçiyimizə də! Heç bilmirəm hansı cəhənnəmə rədd olaq bu ermənilərin əlindən!"

Səlim müəllim:

– Bu bizim ümumi bəlamızdı. Molla Gülən isə konkret yaradı. Kəsilməlidi!

Nuru:

– Bəsdi dedim! Bəsdi! Anamın vəsiyyəti var dayısı barədə. Kəsəmmərəm bu yaranı! Qurtardıq.

Səlim müəllim qəh-qəh çəkdi.

– Rəhmətlik Əsmət "soyğunçu" adlandırırdı Mollanı. "Soyğunçu dayım" deyirdi.

Nuru:

– Qurtar deyirəm! Mənim ürəyim xəstədi, Səlim müəllim! Müharibə illərində çox ədalətsizliklər görmüşəm, üç yaşlı Şöşü "pəpə, pəpə" deyə-deyə sızıldayanda qulaqlarımı tutub saatlarla sızlamışam. O vaxtdan xəstədi bu ürək zəhrimarım!

Səlim müəllim:

– Ürəyin yox, beynin xəstədi! Beynini sağlamlaşdıra bilsək, ürəyin öz-özünə sağalacaq.

Nuru:

– Müalicən yaxşı nəticə vermiyəcək.

Səlim müəllim:

– Niyə?

Nuru:

– Sən məni öldürəcəksən!

Səlim müəllim:

– Bu çətinlikdən qurtarmağın bircə yolu budu ki, yaranı kəs. Və dissertasiyanı tez ver, görsünlər millətin kimdi, beynəlmiləlçi-internasionalist kim!

Nuru:

– Mənim dissertantlıq müddətim qurtarıb. Universitetin rektoruna ərizə yazdım, o da xüsusi komissiya təşkil elədi, mənim mülahizələrimi yoxlatdırdı. Məlum oldu ki, "Nəriman Nərimanov və Azərbaycanda inqilabi şüur" mövzusunu hərtərəfli işləmək üçün Bakıdakı tarixi materiallar kifayət deyil, Kreml arxivinə xüsusi

icazə lazımdı. Yazdılar bunu, axırda da bircə sümlə: "Mövzunun işlənməsini məsləhət bilmirik!.." Bu heç. İndi rektorun yazdığı dərkənara – rezalyusiyaya bax: "Mövzunun başlığı, heç bir rəhbər işçinin adını çəkmədən, "Azərbaycanda inqilabi şüur" şəklində saxlansın". Nədi bu, Səlim müəllim?!

Səlim müəllim:

– Bu fakt sənə haq vermir ki, həyata münasibətini kökündən dəyişdirəsən!

Nuru:

– Hanı bizim milli partiyamız "Hümmət"?! "Hümmət"in rəhbərinin adı niyə pozulsun?! Aydın deyilmi ki, Azərbaycanda həqiqət məfhumunu kökündən məhv eləyiblər?!

Səlim müəllim:

– Yalan danışırsan! Bu millət həmişə, hər vaxt həyatın bütün sferalarında mübariz olub! Nərimanovun adının dissertasiyadan pozulması sənin öz acizliyindi! Çıxartma Mollanı, görərik axırı necə olacaq?!

Bu, axırıncı söhbət oldu. Mən də susdum, Səlim müəllim də, Nuru da. Daha nə deyə bilərdik? Qardaşım o öd üzlü adamın dalında dağ kimi dayanmışdı. Getdikcə o öd üzlü adam özü də qayaya, dağa çevrilməyə başlamışdı. Mənim o adama nifrətim isə yolu tutulmuş vulkana dönmüşdü.

Klubda bir hadisə oldu. O hadisə hər şeyi dəyişib vulkanın yolunu açdı...

## KİN

## 6

Klubda işıq sönüb ekran parıldayanda mən Ramazanın qabaq cərgədən balıq ağzı kimi dəyirmi, dar ağızlarını nəfəs-nəfəsə tutub nə isə pıçıldaşan əkizlərin – Kömbə ilə Köpüşün yanından qalxıb, əyilə-əyilə bizim böyrümüzdəki, daha doğrusu, Ruqiyyənin sağındakı yerə keçdiyini gördüm. Ürəyim çırpındı, gicgahlarımda döyüntü hiss etdim. Əmma tərpənmədim. "Sakit, sakit! Öl, Şöşü, əmbə farağat dur!" – deyib özümü toxtatmağa çalışdım. Çox ola bilsin ki, Ramazan

yenə də o hiyləli, aravuran əkizlərin vəsvəsəsinə uymuşdu. Bəlkə də, həmişə kino veriləndə olduğu kimi, onu tovlaşdırıb, yenə: "Oğulsan, get Şöşünün gözünün qabağındaca otur Ruqiyyənin böyründə", – demişdilər. Bu, olan işdi. Əmma inanmadım ki, mənim belə yaxınlığımda Ramazan əlini tərpətməyə ürək eləsin.

Əlini deyirəm, çünki qızlarla oturub-duranda dil tərpətməklə arası yoxdu:"Boğazım quruyur", – deyirdi və sözlə ifadə olunmalı hissini əli ilə bildirirdi. Bunun üstündə Ramazanın dəfələrlə burnunun qanını axıtmışdılar. Həm də o qədər axıtmışdılar ki, burnu öyrəncəkli olmuşdu. Üzünün uşaq kimi yumşaq, qırmızı ətinə adi şillə dəyəndə də burnundan qan açılırdı.

Qabaq cərgədən gəlib Ruqiyyənin böyründə oturanda bərk fısıldadı və çox qəribədir ki, bu dəfə əvvəlcə dilini tərpətdi:

– Bura yaxşıdı, – dedi.

Mən də tərpəndim:

– Sıpa, bax ha!.. – deyib pıçıltı ilə xəbərdarlıq elədim və arxayınlaşıb ekrana baxdım.

"Arşın mal alan" kinofilminə, necə deyərlər, Allah bilir neçə dəfə baxmışdıq; rayonumuzun mərkəzində elə bil kim isə nədənsə Tahirli kənd orta məktəbinin qəsdinə durmuşdu ki, vaxtilə göndərilən "Lenin Oktyabrda", "Padeniye Berlina" və sair belə-belə kinoların əvəzində hər ay, hər ay "Arşın mal alan"ı göndərsin. Səlim müəllim kolxoz idarəsindən rayona hər ay zəng vurub kimi isə danlayırdı, hətta söyürdü ki, "bir də göndərsən dədəni yandıracam!", əmma yenə də "Arşın mal alan"ı gətirirdilər! Bu kinofilmi başdan-ayağa əzbər bilirdik. Necə deyərlər, lap zəhləmizi aparmışdı. Bircə yaxşı cəhət vardı ki, artistka Leyla Cavanşirova ekranda görünər-görünməz, uşaqlar bir ağızdan deyirdilər: "Ruqiyyə gəldi!", "Buna bax ey, elə bil ekiz bacıdılar!", "Bir almanın iki üzüdülər ey!" – və sairə.

Bu gözəl sözləri eşidəndə mən, əlbəttə, hökmən Ruqiyyəyə baxırdım. Bu dəfə də baxdım və gördüm ki, Ruqiyyə ağlayır!

Ramazan dümdüz, fasfarağat oturmuşdu. Yəni əl tərpədən adama oxşamırdı. Bəs Ruqiyyə niyə ağlayırdı?!

Üzünü mən tərəfə, çiyninə sarı tutub, yumub-yumub tökürdü.

Ruqiyyə belə ağlayanda mən həmişə onun balaca vaxtını xatırlayırdım: on il bundan əvvəl sinfə gəldiyi günü...

Qızların hamısının başı açıq idi. Saçlarına əlvan lentlər bağlanmışdı. O isə başına güllü şal örtmüşdü. Uzun donu və saçaqları ayaqlarına qədər sallanmış şalı ilə o, bir arşın boyda əkə-pikə arvada oxşayırdı.

Uşaqlar o "arvad"ın ətrafına yığışdılar. Ordan-burdan dümsüklədilər. "Qarı, Arı qarı!" – dedilər, gülüşdülər. Mən də güldüm. Çünki iri gözlərlə maddım-maddım ona-buna baxan bu gözəl "qarı"dan mənim də xoşum gəlmişdi.

Birdən kim isə şalı başından çəkdi. Kim isə "Əyriçiyin!" – dedi. Sonra qızların hamısı bir ağızdan "Əyriçiyin! Əyriçiyin!" – deyib qışqırışmağa, atılıb-düşməyə başladılar... Mən sonralar başa düşdüm ki, onda qüsur tapdıqlarına görə bu balacalar hələ o vaxt ürəkdən sevinmişdilər. Mən – balaca kişi isə, dünyadan bir şey qanmasam da bunun necə murdar bir sevinc olduğunu hələ o vaxt duydum və orda ömrümdə birinci dəfə yumruq işlədib yoldaşlarımı özümdən narazı saldım. Onda birinci dəfə Ruqiyyə mənim böyrümə qısılıb ağladı. Eyni ilə indiki kimi, səssiz-səmirsiz.

Ruqiyyə elə qızlardandır ki, üz-üzə gələndə, baxan kimi deyirsən: "Necə gözəldir!" Və bu vaxt, əgər murdar süd əmməyibsənsə, ürəyində pərəstişdən savayı heç bir kənar hiss olmur. Pərəstiş və hər bir saf ürəkli gənc üçün təbii, təmiz, yüksək arzu. Təmizliyi, yüksəkliyi ilə bərabər bu arzu həm də o qədər müqəddəs olur ki, sən bunu qəlbindəki sehrli əzabla, qəm-qüssə ilə birlikdə elə ömrün boyu arzu kimi yaşatmaq istəyirsən.

Ruqiyyə kimi isə xoşbəxt eləmək üçün yaranmışdı. Əmma nə edəsən ki, o özü xoşbəxt ola bilmirdi. Kənd arasında, yolda-izdə rastlaşdığı adamların baxışlarındakı pərəstişdən də, arxasınca deyilən "Günüqara necə gözəldi!" sözlərindən də əzab çəkirdi. Xüsusilə iki kəlmə ləyaqətlə danışmağı da bacarmayan kütün birisinin – Sıpanın ona yaxınlaşmasına dözə bilmirdi. Ramazan dinməz-söyləməz oturub indiki kimi əlini tərpətməyəndə də, elə təkcə bu yaxınlığı ilə elə bil demək istəyirdi ki, sən şikəstsən, onsuz da heç kəs səninlə ömrünü bağlamayacaq, küt də olsam, axmaq da olsam, razılaş, axı sənin ayrı əlacın yoxdur. Və Ruqiyyə eyni ilə on il bundan əvvəl ilk dəfə sinfə gələndə olduğu kimi, üzünü çiyninə Sarı tutub səsiz-səmirsiz yaş axıdırdı.

Mənim də gözlərim doldu.

Ramazanın gözləri ekranın işığını əks edib şüşə kimi işıldayırdı. Deyəsən heç nə hiss eləmirdi. Yəni Ruqiyyənin əzabını və mənim duyduğumun bəlkə mində birini də duymurdu. Özümdən asılı olmayaraq mən yenə onun haqqında fikirləşməyə başlamışdım. Başımın ağrısı tuta bilərdi. Odur ki, əvvəlcədən işimi görüb sakitləşmək üçün tələsmədən ayağa qalxdım.

Mənim zərbələrimə Ramazan əvvəllər də heç vaxt zərbə ilə cavab verməzdi. "Vitaminsiz böyüyənlərin" arasında hamısından yoğun olsa da, mənə əl qaldırmırdı. Birdəfəlik gözünün odunu almışdım? Yoxsa, ürəyimdəki kin barədə atası ona nə isə deyib ehtiyatlı olmağı tapşırmışdı?.. Hər nə isə, atası mənim qabağımda qınına çəkildiyi kimi, oğlu da heç vaxt müqavimət göstərmirdi.

Özünü müdafiəyə gəldikdə isə, Ramazan bunu bacarırdı: hələ mən yerimdən tərpənməmiş niyyətimi yəqin ki, instinktlə anlayıb, üzündəki daima kütlük ifadəsi dəyişməsə də, yazıq-yazıq boynunu burdu:

– Vurma, Şöşü! Qurbanın olum, vurma, Şöşü!.. – Beləcə yalvarıb qolumu boşaldırdı.

Bu dəfə instikt də ona kömək eləmədi. Heç ağzını açmağa da macal tapmadı. Yumruq dəyəndə çöküb, stolun qabağı qalxan oturacağı ilə söykənəcəyinin arasına girdi. Elə bu vəziyyətdə bir əli ilə burnunu tutdu, o biri əli ilə cibindən pambıq çıxarıb burnunun deşiklərinə basdı.

Əkizlər yanımızda hazır idilər. Balıq ağızlanını açıb, muncuq gözləri parıldaya-parıldaya bu işin davamını gözləyirdilər.

Əmma mən daha tərpənmədim; dayanıb, Ramazanın rədd olub burdan getməsini gözləyirdim.

Birdən onun üzündə məni təəccübləndirən qəribə ifadə gördüm. Bu, Ramazanda əvvəllər heç vaxt rast gəlmədiyim inad ifadəsi idi; stulda yerini rahatlayıb, hətta qıçını qıçının üstünə apardı, burnunun iri deşiklərində pambıq ağara-ağara başını qaldırdı, bir qolunu Ruqiyyənin stulunun söykənəcəyinə uzadıb ekrana baxdı. Bu, heyrətli inad idi.

Əkizlər böyrümdə dingildəyib pıçıldaşdılar:

– Malades, Ramazan! Qalxmır, ə, görürsünmi! – Qızışdırırdılar Kömbə ilə Kopuş murdarlar!

Elə buradaca ağızlarını mənim qulaqlarıma söykədilər. Biri sağdan, o birisi soldan:

– Heç xəbərin varmı Sıpa getmir universitetə, kənddə qalır? Ruqiyyə də qalır! Sən gedirsən, Sıpa qalır! Ruqiyyə də qalır!..

Sinfimizdə xəlvəti "Anti-Şöşü" dəstəsi yaranmışdı. Yaradıcıları da bu dəhşətli, paxıl, hiyləgər əkizlər idi.

Bu dəfə lap iyrəndim "Anti"lərdən.

Sonra çiynimdə Tapdıq müəllimin quru, sərt əlini hiss etdim, nə isə dediyini və boğuq öskürəyini eşitdim. Ramazanın arxa tərəfində də kimlər isə tərpəşir, nə isə qışqırırdılar. Ancaq mən qarşımdakı nifrət hədəfimdən başqa heç kəsi görmürdüm; başım ağrılı, yumruqlarım düyünlü idi.

Nə oldu, nə keçdi? Təfsilatını demirəm. Çünki, əslində, sevimli müəllimimin də sözünə heç bir əhəmiyyət verilmədən, döyəclədiyim sifətdən, əzdiyim ağız-burundan başqa heç nə görmürdüm. O dəqiqələrdən yadımda qalan bir də budur ki, birdən Ruqiyyənin qaçıb klubdan çıxdığını görüb, bundan sonra, nəhayət, Ramazanın canından əl çəkdim.

## 7

Ruqiyyənin dalınca yönəldim.

Klubla Nurunun kabinetinin arasında geniş dəhlizdə təkqatar uzanan daş sütunlardan birinə söykənib, boğula-boğula ağlayırdı. Məni görüb hıçqırtıya ara verdi. Kəlağayısının ucunu çiyninə çəkib, tez dönüb məktəbdən çıxdı. Belə çıxması açıq-aydın deyirdi: "Dalımca gəlmə". Getməyə bilərdimmi? Göz yaşlarını silməli deyildimmi? Yoxsa, bu göz yaşları da aramsız axanda dönüb ürəyimə tökülməyəcəydimi?!

Sağ əlimin pəncəsi ağrıyırdı. Buna fikir vermədim. Çünki, necə deyərlər, ürəyim daha betər ağrıyırdı. Sabah-birigün tərcümeyihalımı, ərizəmi yazıb qoyacam attestatın üstünə, göndərəcəm, sonra da özüm yola düşüb gedəcəm, Ruqiyyə qalacaq. Anasını "damın altında tək qoymaq" istəmir. Qalıb məktəbdə işləyəcək; Nuru söz verib, özü deyir ki, Ruqiyyədən gözəl pioner dəstə rəhbəri olar... Məndən sonra Ruqiyyəni Sıpadan kim qoruyacaq?!

Onun o cür səssiz-ünsüz ağlamağının səbəbini kim başa düşəcək?! Heç kəs!.. Özüm də bilmirəm necə olubsa, haradasa, kiməsə dilimdən qaçıb ki, "Stalinin ruhunu görürəm". Deyəsən qaraulçumuz Rza dayıya açmışam, o da dilini saxlayammayıb, bütün məktəbə yayılıb ki, "Şöşü dəli imiş!" Öz yanımda Zırpı deyirlər. Zırpı Şöşü, "Dəli Şöşü!". Çünki "Ruqiyyəyə hamı "şikəst qız", "əyriçiyin" deyir, tək Şöşü "Gözəl Ruqiyyə" deyir! İş belə getsə, bəlkə elə onun üzünə qarşı da "Şikəst" deyəcəklər! "Sıpaya qismət olsa, fikirdən, dərddən doğrudan da şikəst olar". "Yox!" deyirdim, Ruqiyyə xoşbəxt olmalıdır. Bu mənim bircə kəlməmdən asılıdır. Tək bir kəlməmdən. Mən o kəlməni deməliyəm. Mütləq deməliyəm! Nə vaxt? İndii? Olmaz! Niyə? Nədir məni dillənməyə qoymayan? Bilmirəm. Bircə onu bilirəm ki, indi demək olmaz.

Darvazaya gədər yanaşı getdik.

Darvazada ayaq saxladı. Kəlağıyısını gözlərinin üstünə çəkdi. Yoldaşlarımızın yanında və camaat arasında mənə baxmaq istəyəndə həmişə belə eləyirdi – kəlağıyını lap aşağı çəkirdi ki, gözləri görünməsin, sirri bilinməsin. Sonralar bu onda vərdiş olmuşdu. Uşaqlar tənəffüsə çıxanda, sinifdə ikimizdən başqa heç kəs qalmayanda da o dəqiqə kəlağayını gözlərinin üstünə endirirdi, sirrini hətta məndən, onun ürəyinin çırpıntılarını öz ürəyində hiss edən oğlandan da gizlətməyə çalışırdı. Bu vaxt mən özümü görməzliyə vururdum, gözümü yayındırırdım ki, qoy doyunca baxsın.

İndi yenə gözümü yayındırdım. Yerə, göyə tamaşa elədim.

Ay doğmuşdu. İri, parlaq ay təzəcə qalxıb Meyvəliyin arxasında durmuşdu. Belə sakit yay gecələrində meşəni bürüyüb ağacların arasında yatan duman indi narahat idi, vitamin darvazasının dalından pambıq tayasına oxşayan başını qaldırıb-endirirdi. Dumanın nəm nəfəsi üzümə dəyəndə, bir az əvvəl Ramazanın xirtdəyindən yapışan vaxt içərimdən qalxan alovun sönmədiyini, sifətimin hələ də yandığını hiss edirdim.

Son bir neçə ildə xırda – doğranmış daşla döşənib sonra asfaltlanmış El yolunun asfaltı şehdən islanıb işıldayırdı. Bu enli, işıltılı xətt burdan, darvazanın qabağında başlayıb, uzanıb evlərin arasında, sıx qələmə ağaclarının kölgəsində batıb, bir də kəndin yuxarısındakı "ortalıq" deyilən dikdirin dibində ağarırdı. Yolun qırağı uzunu düzülü dirəklərin başında zəif işıqlı lampaların seyrək

cərgəsi saralırdı. O sarı işıqlardan axırıncısının altında, ortalıqdan xeyli sağda, gilənar ağaclarının arasında, kənddəki daş evlərdən seçilən alçacıq, çiy kərpicdən bir ev vardı. Kinodan çıxanda həmişə Ruqiyyəni o evin on-on beş addımlığına qədər ötürürdüm. Gilənar ağaclarının arasında əvvəlcə zəncir cingiltisi və it səsi eşidilirdi, sonra qapı açılır və kandarda arıq, ağbirçək bir arvad qaraltısı görünürdü. O arvad Ruqiyyənin anası Səyalı xala idi.

Qızını qarşılayıb içəri ötürəndən sonra Səyalı xala həyətə enib, həmişə bir müddət orda – gilənar ağaclarının arasında, sarı lampanın altında dayanıb mənə baxardı, mən də ona baxardım. Nə o bir söz deyərdi, nə də mən. Ancaq mənə elə gəlirdi ki, Səyalı xala ürəyində mənə yalvarırdı, nə isə çox kövrək sözlər deyirdi, xoş arzular diləyirdi, eyni zamanda məni məzəmmət eləyirdi; soruşurdu ki, nə vaxtacan orda duracaqsan, a qurbanın olum? Mən səni çağıra bilmirəm, cürətim çatmır, bəs özün niyə gəlib-gəlib birdən elə dirənirsən?! Səni bu evə qədəm basmağa qoymayan nədir, a xoş diləyim, arzu-kamım?! Səyalı xala beləcə səssiz-ünsüz danışıb, yalvarıb, nəhayət, köksünü ötürüb, qamətini əyib ayaqlarını sürüyə-sürüyə gedib, açıq qapının arasında, içəridən düşən işığın altında yenə qaraltıya çevrilirdi, mən isə Səyalı xalanın baxışlarından axıb ürəyimə dolmuş qüssədən qurtarmaq üçün nə isə eləmək istədiyimi başa düşsəm də, heç nə eləmədən hərdən yalnız köhnə bir şerimi zümzümə edə-edə könlümü açmağa çalışırdım:

Bilmirəm bu nə qaydadı,
On beşə yaş deyən yoxdu?
Boyum baxın nə boydadı,
Əmbə bir qız verən yoxdu...

Sonrası heçdi, lap lotuyana beytlərdi. Üç ildi ki, buna aşıqlarımızın “ay alagöz”, “ay qaratel” şeirlərini də əlavə eləyib, necə deyərlər, “vədənin yetişməsini”, yəni heç olmasa on səkkiz yaşımın tamamını gözləyirdim ki, Bibinin arzuladığı kimi, “lap tez” evləndirsinlər!.. Bu gecə, “kamal attestatı” imtahanları ərəfəsində, on səkkiz yaşımın tamamına cəmisi bir həftə qaldığı, sevgimin, niyyətimin aləmə car çəkildiyi bir vaxtda daha şeir-meirlə könül açmaq, yəni səbirli olmaq – gözləmək mümkün deyildi. İndi dillənməli idim: Ürəyimin yanğısın – sevgimi dilimə gətirməli

idim. Hətta Sıpa da, nəhayət, iradə göstərdi: oturduğu yerdən qalxmadı. Ağzını açmasa da, dilini tərpətməsə də axır ki danışdı: "Sevirəm!" – dedi. "Evlənəcəm!" – dedi. "Sən gedirsən, mən qalıram", – dedi. "Ruqiyyənin yanında mən oturmalıyam!" – dedi. Mən isə hələ də susurdum. Səyalı xala ilə üz-üzə dayananda da susurdum. Ruqiyyə ilə beləcə tək qalanda da.

"Sevirəm" desə də, əlbəttə, Ramazan onu heç vaxt sevməyəcək: o şüşə gözlərdə ürək görünmür; küt və kor ehtirasdan savayı orda heç nə yoxdur... Qulağıma bir səs gəldi: "Düz demirsən. Qərəzli fikirləşirsən! Sənin o cür yumruqlarına dözüb Ruqiyyədən əl çəkməyən adamın ürəyində nə isə olmamış olmaz!.." Hardan gəldi bu səs?.. Kim demişdi bunu?.. Fikirləşdim yadıma gəlmədi; elə bil özüm-özümə etiraz eləyirdim ki, "Düz demirsən, qərəzli fikirləşirsən!"

Gilənar ağaclarının arasında zəncir cingildədi. İt nədənsə, hürməyib, ayın işığında gözləri parıldaya-parıldaya düz mənə baxıb, hətta quyruğunu yellədi. Bu nə deməkdi? Belə çıxdı ki, Ruqiyyəgilin iti də daha isinişmişdi mənə, tanıyırdı, şırvanırdı! Mən isə... Niyə susurdum? Mane olan nə idi? Utanırdım? Necə deyərlər, əsla! Utanan üz hardaydı məndə?! Deyəsən nə isə tamam başqa, etiraf etmək istəmədiyim bir hiss məni dillənməyə qoymurdu. Məhz o hissi içərimdən çıxarmaq, məhv eləmək üçün iradəmi toplamağa çalışdım. Əzizlərim gecələr mənim sevgimə pıqqapıq, şirin-şirin gülüşməsəydilər, mən bəlkə hətta evdən perikmək dərəcəsinə gələrdim. Yaxşı ki, pıqqapıq başlanırdı; yorğanı başlarına çəkib uğunurdular. Gülmək zor gələndə, bəzən hətta qalxıb elə çıl-çılpaq eşiyə qaçıb, tutun altında, ya da evin böyründə doyunca gülüb, sakitləşəndə qayıdırdılar. Bu vaxt, əlbəttə, mən də gülməyimdən qalmırdım. Bütün şagirdlərin nəzərində otuz yaşlı yox, lap toxtamış adam olan hörmətli tarix müəllimimiz Nuru müəllimin, yoldaş direktorun qısa tumanda – "trus"da qaçmasına necə gülməyəsən?.. Əzizlərim mənim sevgimə elə-belə, sevincdən gülüşürdülər. Mən özüm isə Nurunun "trus"undan başqa hər qısıqlığıma, cəsarətsizliyimə gülürdüm.

Mənim taleyimin çoxları üçün ibrətamiz cəhətlərini yazan eloğlumuz yaşca məndən çox böyük olsa da, "həyatımın intim tərəflərindən heç nəyi gizlətməməyi" xahiş etdiyinə görə,"arakəsmənin məziyyətləri" adlandırdığı "məziyyətləri" öz qabiliyyətim

çərçivəsində “cızma-qara eləyib verməyə” söz vermişdim.. Əmma heç bilmirəm bu “məziyyətlər” onun nəyinə gərəkdi?

Bir dəfə Səlim müəllim “dərsdənkənar əlavə saat” adlandırdığı ədəbiyyat dərnəyində bizə – şeir həvəskarlarına Nazim Hikmətin bir şeirini oxudu:

“...Mən bir ceviz ağacıyam Gülhanə parkında...
Nə sən bunun farkındasan, nə polis farkında...”

...Müəllimimizin “vətəndən tərik Nazim”, “didərgin Nazim” adlandırdığı şairin o şeiri məni necə tutdusa, o gecə arakəsmədə təzə bir dəftərin üstünə “Şövkət Tahir. Şeirlər” yazıb ilk səhifədə yazdım:

“Bilən varmı niyə getdi,
Əsmətini niyə atdı
Mənim atam?
İllər boyu sevgilisiz,
İsti, soyuq səngərlərdə
Necə yatdı mənim atam?
Bilən varmı
Harda, kimə
Güllə atdı mənim atam?
Bilən varmı
Harda, necə
Əbədi yuxuya getdi
Mənim atam?!”

Çox qəribə, bir qədər anlaşılmaz “Sol” ləqəbli eloğlumuz bu şeiri də “araksəmənin məziyyətlərindən” adlandırdı. “Nazimvari deyil, sənin öz təbiətindən yaranıb şeirin”, – dedi. Bu tərif-təsdiqdən həvəslənib, sonralar bu cür şeirlər yazıb, üzünü köçürüb Sola verdim.

Sol, Nurunun kabinetində oturub stəkanda çay içə-içə Aşağı kənd Qonaqlının məşhur qoca Çürük Aşığı “Mənsuri” havasına oxutdura-oxutdura tez-tez gözlərini silirdi.

“Nuru müəllimə demişəm, sənə də deyirəm. Çürüyün məclisi olacaq, sən də gəl”, – dedi.

Sonra yenə gözlərini silib “Gəlsən, arakəsmənin məziyyətləri artacaq”, – dedi.

“Bakıda mən özüm də elə o arakəsmə kimi bir yerdə tək oluram. Belə tənhalıq çox şey verir qələm əhlinə”, – dedi.

“Sən heç fikir eləmə. Bu dünyada hər insanın öz təkrarolunmaz həyatı var, hər təkrarolunmaz həyatın da təkrarolunmaz bəhrələri olur”, – dedi.

Bu son sözləri tezliklə özlüyümdə təkrar etdim...

Arakəsmənin ən təkrarolunmaz məziyyətlərindən biri bu idi ki, gecələr mən öz yeddilik lampamın fitilini aşağı çəkəndən sonra Nuru ilə Bibinin sirli “yastıq söhbətləri”nə qulaq asırdım.

Ərlə arvadın yastıq söhbətinə qulaq asmaq, əlbəttə ki, ən azı tərbiyəsizlikdir. Bunu mən boynuma alıram. Əmma, eyni zamanda, hərəkətimə bəraət verməmək da olmur. Söhbət sənin haqqında gedəndə necə qulaq asmayasan? Belə hallarda hətta yorğanı başına çəkib eşitmək istəməsən də, yorğanın harası isə öz-özünə qalxır, pıçıltılar radio dalğaları kimi axıb qulaqlarına dolur və sən istər-istəməz vəziyyətə tabe olub huş-guşla dinləyirsən.

Bir dəfə Bibinin Bakıdakı qadın qohumlarından pis bir məktub gəlmişdi. Bibinin uşağı olmadığına görə, özünü müalicə etdirmədiyinə görə ona nə isə yazmışdılar. Hələ axşamdan onlar – Bibi ilə Nuru eşikdə, tutun altında oturub o məktub barədə danışırdılar. Gecə yarıdan keçəndə, ayaqlarının ucunda içəri gəlib Bibinin çarpayısının üstündə oturdular. Xeyli keçəndən sonra mən Nurunun pıçıltısını eşitdim:

– Naftalana da gedə bilərcən. Etiraz eləmirəm. Ancaq bu sonsuz müalicələr üzür axı səni, Bibi. Sənin həyatın, sağlamlığın mənim üçün hər şeydən əzizdir, vallah, Bibixanım!

Bibi köksünü ötürdü:

– Sən alicənab adamsan, nisgilini məndən gizlədirsən, – dedi.

– Nə nisgil?.. Nisgil-zad yoxdu məndə,– Nuru yumşaqca etiraz etdi. – Qanımı qaraldan odu ki, sən belə fikir çəkirsən... Nahaq, vallah, nahaq, Bibi. Şöşü kimindi? Bizim öz balamız deyilmi Şöşü bala? Öz uşağın kimi sevmirsənmi sən onu? Niyə axı kiminsə sonsuz deməsinə görə il boyu dərmən yeridəsən bədəninə?! Dərmənin rəngi çıxır üzünə, baxıb deyirlər gör nə kökdədi! Sözümə bax, kəs bu dərmən-davanın arasını. Ye, iç, gəz! Camaat sənin üzünə baxanda sən Şöşü balanın boyuna bax!..

Bir ara susdular. Pıçıltılar əvəzində qulaqlarımda öz ürəyimin döyüntülərini eşitdim. Bibi niyə dillənmirdi?..

Nurunun mənim haqqımda o sözlərindən sonra belə yaxın canciyərimlə nəfəs-nəfəsə dayandım, arakəsmənin dalında səssiz-ünsüz dediyim sözləri burda ilk dəfə cəsarətlə dilimə gətirdim:

– Ruqu!.. Mən sənə qurban olum, mənim Ruqum – Ruhum – Ruqiyyəm! Təklikdə mən sənə əvvəlcə “Ruqu” deyirdim. Sonra “Ruqum” dedim. Ömrümün axırınacan Ruhum deyəcəm. Çünki sənsiz mən ruhsuz, hissiz, quru cəsəd olaram!.. Bugün-sabah imtahanlar başlayır. Məktəbi qurtarırıq... Zöhrə müəllimə savadsızlığını gizlədib dərs hissə müdiri oldu, coğrafiyadan dərs demədi bizə. Nuru deyir rayonumuzun maarif şöbəsinə, Bakıya – Maarif Nazirliyinə material yazıblar ki, coğrafiyadan dərs keçilmədiyinə görə Tahirli məktəbinə verilən “Kamal attestat”larında bu fənndən qiymətin yeri boş qoyulmalıdı, ya da şərti qiymət yazılmalıdı. Yəni, ən aşağı “kafi” –”orta”qiymət. Əgər coğrafiyadan dərs keçilmiş olsaydı, bu fənndən də “əla” alsaydım, mənim adımı qızıl medala təqdim eliyəcəkdilər. Demək istəyirəm ki, medalist olsaydım, universitetə imtahansız qəbul olunardım, sonra da lap asanca qiyabi şöbəyə keçərdim, qayıdıb elə bu ilin sentyabrından, Səlim müəllimlə yanaşı, ədəbiyyatdan dərs deyərdim. Səni də hökmən qiyabiçi eliyərdim. Medal olmadı, neyniyək, olmasın. Qiyabiyə bəlkə elə-belə də keçmək olar, məncə. Lap belə keçirməsələr də... gör nə deyirəm. Universitetdə də hökmən əlaçı, Stalin təqaüdçüsü olmalıyam. Adi, aylıq təqaüd yüz qırx manatdı deyirlər, onnan dolanmaq olmaz. Əmbə Stalin təqaüdü gör nə qədərdi: dördcə yüz manat!.. Yüz qırx da səninki üstünə gələndə – beş yüz manat! Otaq kirələmək də olar, lap xan kimi yaşamaq da!.. Bu dediklərimdən belə nəticə çıxart ki, avqustda, yəni üççə aydan sonra toyumuzdu, Ruhum!.. Nuru ilə Bibiyə mən “Qoşa göyərçinlərim” deyirəm. Yuxarı kənddə Axsaq Hacı adında bir feldşer varmış müharibə vaxtı. Ölənə yaxın Çürük Aşığın şagirdi olub, aşıqlıq da eləyib, Yunis İmrənin adından gəraylılar yazıb. Bu “Qoşa göyərçinlər” onun sözüdü.

Cənnət quşu qumrudular
Qoşa-qoşa göyərçinlər.
Xaliqimin nurudular
Qoşa-qoşa göyərçinlər.

Yurdumuzu tərk etməzlər,
Həccə, Məhşədə getməzlər,
Minbirimə tək deməzlər
Qoşa-qoşa göyərçinlər.

Mən Yunisəm, imrənirəm,
İmrən, yəni sev deyirəm,
Bu kəlamla ayrılıram
Sizdən, qoşa göyərçinlər!

"Qoşa göyərçinlər"imin yuvasındakı arakəsməmin o yanında – tut ağacının böyründə bir yuva da biz tikdirərik, Səyalı xalanı da apararıq ora, təklik çəkməz!.. Bu qədər ürək sözü, deyirəm sənə, niyə dillənmirsən, Ruhum?! Aç qaş-qabağını. Daha heç kəs sənin xətrinə dəyəmməz! Bayaq hamı başa düşdü ki, mən səni heç kəsə vermərəm!

Ruqiyyə heç vaxt ucadan danışmazdı. Partadan əlini qaldırıb, ayağa qalxıb dərs söyləyəndə də elə asta, elə həzin söyləyərdi ki, müəllim məcbur olub partaya lap yaxın gedərdi ki, o səsi eşidə bilsin. İndi də həmincə asta, həzin səsi ilə birdəncə dedi:

– Mən sənə ərə getmərəm.

Nə?! Heykəl meydanındakı kimi, birdən-birə içərim alovlandı. Üzüm odlandı.

– Ruqu! Nə deyirsən, Ruhum?! Necə yəni "sənə ərə getmərəm?!"

Başını qaldırıb üzümə baxdı. Lap uşaqlıqdakı – birinci sinifdəki kimi, boynunu bükdü, səssiz-səmirsiz ağladı.

– Mən nifrət eləyirəm sənə...

Qışqırdım:

– Nə danışırsan?!

Elə ağlaya-ağlaya dedi:

– İnsan deyilsən sən. İnsanı da o cür döyərlərmi?!

Yenə qışqırdım. Ağacların altında it mırıldadı. Səyalı xala qapının arasına çıxıb mənim qışqırtılarımı eşitdi:

– Odu insan olmuyan! Odu, Sıpadı heyvan! Atası da heyvandı! Üstündə müəllim adı olmasa, yaşca məndən elə çox böyüklüyünə də baxmaram, atasını daha pis döyərəm! Xıncım-xıncım eliyərəm! Qatildi o, Ruhum! İllərlə döyüb mənim anamı! Dabanını qançır eləyib! Qanqrenadan ölüb anam! Bilmirsənmi sən bunu?!

Dedi:

– Bilirəm. Mən hər şeyi bilirəm. “Qatil” nədi?! Qurban əmi – Qılınc Qurban bizə gəlir tez-tez, oturur, çay içir, dərdləşir anamnan. Deyir: “Nə təhər eliyək bu Molladan qurtaraq bu camaatın yaxasını? Sən, deyir, şikayət yaz Mir Cəfər Bağırova, aparım Bakıda öz əlimnən verim ona”, – deyir. Anam heç razı olmur. Çünki Molla Güləndən qorxduğumuz təki biz heç əzrayıldan-zaddan da qorxmuruq.

– Niyə?! Neyləyib o heyvan sizə, Ruhum?! Gizlətmə!

Dedi:

– Qurban əmi hamıya danışıb onsuz da. Niyə gizlədim? Dədəmdən qara kağız gələn vaxtlar bir poçtalyon qız varıydı onun – Mollanın evində. Millayyəydi adı. Milli deyirdilər. O Milli qara kağızı gətirəndə Molla da gəldi bura – bizə. Mənim beş yaşım vardı. Əmbə yadımdadı hamısı. Çoxlu danışdı, təsəlli verdi anama Molla Gülən. Sabahısı genə gəldi. Altdakı gün genə gəldi. Ayağını kəsmədi o ili bizdən. Qışda yaman qar yağmışdı. Qapımızın dabanı qırılmışdı. Kilim tuturduq ora. Əmbə genə soyuq kəsirdi adamı. Tez-tez odun gətirirdim, peçi doldururdum ki, qonağımızın canı qızsın... Bir də içəri gələndə gördüm anamı qucaqlayıb deyir: “Siğə də elə kəbindi. Bu saat oxuyum siğəni, Allah, peyğəmbər də eşitsin, bu körpə Balan da eşitsin ki, mən Allahın, peyğəmbərin izniynən tuturam sənin qolundan...” Çığırdım mən onda. Çox pis çığırdım, qucağımdakı odunnarı üstünə yağdırdım onun. Sonra bilmədim noldu. Gözümü açanda gördüm anam ağlayır, İrəvaz doxtur da yumurta sındırır, yumurtanın sarılarını tökür çay dəsmallarının üstünə, sığallayır, yayır... Sümük vərəmi-zad keçirməmişəm mən. Qucağımdakı o odunnan vurub çiynimi sındırmışdı o heyvan dediyin heyvan. İrəvaz doxtur yaxı yaxdı sinəmə, sarıdı. Üstünnən də taxta çilikləri düzdü, sarıdı, dedi bir aydan sonra çağırarsan məni, özüm açaram sarğını. Gəldi, açdı. Gördük bax belə olub, əyri qalıb çiynim. Bildinmi?! Heyvan nədi?! Qurban əmi deyir agentdi o! Özü də buranın yox, Moskvanın agenti! İldə bir dəfə Mikoyanın özünün qəbulunda olur, deyir. Qazağın Türfəsində dərs alanlarımızın siyahılarını aparır, deyir. Müharibədən sonra Arazın o tayından gələnlərimizdən – demokratlardan da dərs keçənlərimiz varmış orda. Aşıq Hüseyn Cavan gəlirmiş Şəmkirdən[1]. İndi heç biri gəlmir, deyir.

---

[1] Şəmkir – əsli; ŞəmOdƏr

Çünki xəlvəti zəhərləyirlər deyir, ora gələnləri. Suynan-zadnan. Aşıq Hüseyni də zəhərləyiblər, deyir, o da öləcək, deyir. Bildinmi direktorumuz niyə quzudu Mollanın qabağında?! Səni bilmirəm, əmbə məni də öldürtdürəcək o. Çünki sirrini bilirəm. Anamı da zəhərləyiblər. Anam da öləcək. Bildinmi?! Sənin özünü də salamat qoymaz o! Gülənuşağı deyilənlər daraşıblar rayonun canına! Qurban əmi ağlayır. Qılınc Qurban ey! Ağlayır! Deyir lap tezliknən türk deyilən qalmıyacaq bu torpaqda! Başa düşdünmü, ay Zırpı?! Bildinmi niyə getmərəm mən sənə?! Sənnən fərqi yoxdu onun! Sən də bax elə cəlladın birisən! Diz çökür Ramazan, ayaqlarından öpür, "Qurban olum, vurma!", – deyir, genə vurursan! Adamsanmı sən?! Nolsun ki, belə şunalısan, əlaçısan, nə bilim şairsən guya! Nifrət eləyirəm sənə! Bir də ötürmə məni! Heç yaxınıma da gəlmə! Dindirmə! Get! Get burdan!..

Səyalı xalanın yanaqları islanmışdı.

Necə getdim? Hara getdim? Bilmədim. Yadımda qalan budur ki, heykəl meydanında tez-tez başımı, boynumu tuta-tuta yeridikcə, ağrıdan guppuldayan beynimdə həzin bir səs ötürdü. Əmma Ruqiyyənin yox, heç vaxt eşitmədiyim başqa bir səs idi; heç vaxt eşitməsəm də, yəqin bilirdim ki, atamın səsi idi. Atamın ruhunun səsi: "Toxta! Sarsılma, mənim balam! Özünü üzmə, Şöşü balam! Ruqu – Ruhun da çox istəyir səni, qardaşın da! Sakit ol! Saki tol! Get budağımıza sarıl, qorxma, qurtaracaq ağrıların..." Budağa sarılanda da eşitdim bu səsi, arakəsmənin dalında da, hərdən hətta Səlim müəllimin "əlava saat"ında – dərnəkdə də, imtahana hazırlaşanda da... Çox heyrətlidir, tamam anlaşılmazdır ki, necə olmuşdusa, atamın səsini eşitdiyimi və hərdən fikrimdə o səsə cavab verməyimi Nuru da bilmişdi, Bibi də, müəllimlərlə uşaqlar da...

## 8

Asta yel başlamışdı. Pəncərənin arxasında yarpaqlar xışıldayır, mənə Meyvəlikdəki tək-tük, nəhəng qovaq ağaclarını, hətta küləksiz havada da titrəşən, gah bu, gah o biri üzlərini günəşə çevirən yarpaqları xatırladırdı. Məktəbin hasarı diblərindən ucalan qələmə ağacları da, məktəbimizin özü də indi elə bil əlçatmaz uzaq xatirəyə dönürdü.

İstər-istəməz dikəlib o tərəfə boylandım.

Qələmlərin qatarı qıpqırmızı idi, elə bil yanırdı.

“Sabah yağış olacaq. Axşamüstü belə asta yel əsəndə, üfüq qızaranda sabahısı yağış yağır”. Bu, fikrimi dağıtmaq cəhdi idi. Əmma mümkün olmadı.Gah Ruqiyyənin baxışı, gah qəmli, gah qəzəbli, gah həsrətli baxışı, gah da Nurunun avazımış sifəti tavanın yağlı rəngində siqaret közərtisi ilə birgə əks olunan ağ çöhrəsi gəlib qarşımda dayanırdı. Fikrim dağılmaq əvəzinə daha da cəmlənib, beynimdə elə bil ağır bir şeyə çevrilirdi, mən tərpənəndə o da tərpənirdi və bu vaxt ağrıdan nəfəs ala bilmirdim.

Canımı dişimə tutub, gözlərimi açıb, bu dəfə qələmələrə, məktəbə yox, pəncərənin arxasında budağa baxdım. “Ata! Atacan!.. Yanıram, mənə kömək elə, atacan! – Beləcə yalvarmağa başladım. – Sənə danışmışam, bilirsən, mənim üç əzizim var. Bir cüt göyərçinim və ruhum var. Üçünün də qanadı mənəm, üçü də mənlə uçur. Mən yansam, kül olsam, onlar necə uçarlar, sürünə-sürünə qalmazlarmı?! Sən mənə ürək veribsən, atacan, sevgi ilə dolu ürək! Nə isə qeyri-adi bir iş görmək, bəlkə lap qeyri-adi şair olub. Əzizlərimi xoşbəxt eləmək qüdrəti veribsən! Əmma indi o qüdrət yanır. Ürəyimin odu qüvvətimi yandırır, atacan! Mənə kömək elə. Ağrıdan ölürəm. Kömək elə, heç olmasa bircə saat yatım...” – Bunu deyib yerimdən necə qopduğumu, pəncərədən atılıb, budaqda nə qədər fırlandığımı bilmədim. Yadımda qalan budur ki, fırlandıqca, yaradıcım mənə deyirdi: “Yatacaqsan. Qorxma, Şöşü balam, heç nədən qorxma! Sakit ol, Şöşü balam, sakit ol!..” Yenə də həmin həzin, gözəl səsilə danışırdı,komsomol Tahir barədə təsəvvürüm başqa olsa da, bu həzin səsin atamınkı olduğuna heç bir qırıq da şübhə eləmirdim.

“Yaxşı, bəsdi. İndi get uzan, yat. Ağıllı ol, mənim balam, üstünü örtməyi yaddan çıxartma. Tərlisən. Lap su içindəsən, soyuqlarsan. Özünü qoru, mənim balam! Nuru üçün, Bibi üçün, Ruqiyyə üçün qoru! Uzan... bax belə. Ört üstünü, bax belə... Yuxun gəlmir? Qorxma yatacaqsan. Axı dünən heç yatmayıbsan. Bax, yadında qalsın, yuxusuzluq sənə ziyandı. Xəstələnsən, yorğan-döşəyə düşsən, heç bilirsən nə olar? İmtahanlardan qalarsan!.. Niyə diksindin, Bibidir, gəlib baxır ki, görsün indi necəsən?..” Dedim: “Bəs o alov nədi, ata?! Məktəb yanır?!”

Atamdan cavab gəlmədi.

O nə yanğıdı axı?! Bəlkə Molla Gülənin bəridə, təsərrüfat korpusunda saxladığı qaz balonları partlamışdı? Elə isə korpus niyə sağ-salamatdır?.. Məktəblə bizim Evin arasındakı köhnə kalafalardan birinin yanından keçəndə qıçlarıma nə isə ilişdi. Baxdım ki, şaldır. Bibinin üstümə saldığı yun şaldır, kəmərimin toqqasına ilişib. Şalı qoparıb atdım. Yenə irəli baxanda isə, birdən dayanıb mat-məəttəl qaldım. Axı bu yanğın deyildi. Qələmlərin üstündəki qızartının içində qaynayan tüstü də heç tüstü deyildi, toz idi. Duman kimi qatı toz. Özü də çox qəribə idi ki, bu toz axını köhnə məktəbin yerindən gəlirdi, qələmələrin asta-asta yırğalanan budaqlarının arasında burulub, qaynayıb məktəbin damına qalxıb, orda da üfüqün qırmızı rənginə boyanıb, küləyin altında sürətlə o yana – “vitamin darvazasına” doğru enirdi. Mən bu toza tamaşa eləyib, yanğın olmadığına görə heç bir sevinc duymadan, əksinə, ağlıma gələn fikirdən üşürgələnib, sola burulub, köhnə məktəbin yerinə tərəf yönəldim. Yatmışdımmı? Yuxuda idimmi? Röyamı görürdüm? Vaxtilə divar uçurulanda gördüyüm mənzərə niyə təkrar olunurdu?!

Toz dumanının içində ikibir-üçbir və tək-tək dayanmış adamların tanış qaraltıları görünürdü. Eynilə o vaxtkı kimi, motor gurultusu ətrafda nə isə deyib danışanların səsini batırırdı. Bu nə olan şeydi ki, iki il əvvəl uçurulub, yeri düzlənmiş divar yenidən necə uçurula bilərdi? Bəlkə dəli olmuşdum?! Yox?! Röya idisə, bəs adamları niyə belə aydın görürdüm, tozun qoxusunu niyə bu qədər hiss edirdim?! Yox, röya deyildi!

Adamlara göz gəzdirdim. Ramazanı, atasını gördüm, Kömbə ilə Köpüşü gördüm. Bir az bəridə isə Səlim müəllimi, o qəribə “Sol”

təxəllüslü eloğlumuzun boynunda o yan-bu yana yellənən uzun saçlarını gördüm, sonra yanaşı dayanıb tozun içində hərəkətsiz duran Nuru ilə Tapdıq müəllimi gördüm.

Adi vaxtlarda yoldan maşın keçəndə də ağzını, burnunu tutub kənara qaçan Tapdıq müəllim, indi, çox qəribə idi ki, tozun lap qatı yerində siqaret çəkən Nurunun tez-tez püskürdüyü qatı tüstüdən də çəkinmirdi.

Heç nə anlamadan onlara yaxınlaşdım. Bu iki nəfərin qarşısında mən eyni dərəcədə günahkardım. Belə yaxınlaşanda, hesabla, onlardan üzr istəməli, klubda – ictimai yerdə öz hərəkətimlə hər ikisinin qanını qaraltdığıma görə məni bağışlamaqlarını xahiş etməli idim. Əmma bunun əvəzində, işin nə yerdə olduğunu başa düşəndə, məndən heybətli bir qışqırtı qopdu. Nə dedim? Heç nə. Sadəcə qışqırdım. Eyni vaxtda elə bil içərimdən nə isə üzülüb düşdü və bu məni birdən-birə heysizləşdirdi. Sonra nə oldu? Bir kəlmə də deyə bilmərəm. Bu dəqiqələrdə mənim içərimdə nə baş verdiyini danışmaq, bir insan ömrünü danışmağa bərabərdir; İmkanım olsa, bu dəqiqələrimi də cızma-qara eləyib verəcəm Sol eloğlumuza. Özüm bəlkə şeir yazdım. Başqa şeyə qüdrətim çatmaz. Əmma deməliyəm ki, heysizləşib, Nuru ilə Tapdıq müəllimin yanında torpağa çöküb, bir müddət beləcə qalandan sonra, ayağa qalxanda tamam başqa adamdım; klubdakı Zırpıdan da Zırpıya döndüyümü hiss edə-edə, ağır-ağır traktorun qaraltısına doğru getdim.

Divarlardan əsər-əlamət də qalmamışdı. Heykəl meydanının divar yerləri səmti tamam şumlanmışdı. Səlim müəllim orda, şumun bərisində ayağının birini kotanın üstünə qoyub, Molla Gülənlə qabaq-qarşı dayanmışdı. Rəngi dümağ idi, gözlərinin maviliyi, qaralmış kimi görünürdü. Həmişə deyib-gülən, zarafatından qalmayan müəllimlə bu qəzəbli adam bir-birinə o qədər də oxşamırdı; hirsindən boğula-boğula, kotana, traktora və məktəbin yerinə işarə edə-edə Molla Gülənə nə isə deyirdi. Molla isə tez-tez əlini kotanın macına – tutacağına uzadırdı. Bu vaxt onların sağ-solundakı adamlar da mübahisəyə qoşulurdular.

Molla kotandan əl çəkib camaata sarı döndü. Cibindən iri yaylıq çıxarıb, öd üzünü bozartmış tozun arasında şırım-şırım işıldayan təri sildi və birdən heybətlə qışqırdı:

– Nə olub, ey?! Məkkə ayağıdı, nədi bu yer?! Ocaqdı, pirdi nədi?! Niyə qoymursunuz işimizi görək?! Bu boş-boşanağa səcdə eləmək yaxşıdı, yoxsa əkmək, becərmək, xeyir götürmək?! Niyə dillənmirsiniz? – Nurunun üstünə cumdu. – Niyə belə dönüb qalıbsan, a yoldaş direktor? Niyə ağıl qoymursan bu qara camaatın başına?!

Qardaşım dillənmirdi, heç başını da qaldırmırdı.

Molla Gülən qayıdıb Səlim müəllimin üstünə cumdu.

– Çəkil kənara! – deyib, mənim üçün tamam anlaşılmaz bir hökmlə müəllimin döşündən itələdi. Səlim müəllim yəqin heç gözləməzdi ki, təsərrüfat müdiri əl qaldıra bilər ona; yəqin elə gözləmədiyinə görə də bərkinəmməyib, arxasıüstə tozun içinə sərildi.

Camaat çaxnaşdı; ordan-burdan yönəlib, müəllimin qolundan tutub qaldırdılar. Öd üzlü adam isə, daha heç kəsə fikir vermədən, kotanı düzəldib traktorçuya qışqırdı:

– Sür!.. Ə, sür demirəmmi?! Nə baxırsan mal kimi?!

Kotan torpağa sancıldı. İrəlilədi. Sonra xırp dayandı. Səlim müəllim özünü traktorun qabağına atmışdı. Tırtılın lap bir qarışlığında uzanmışdı. Sifəti qar kimi idi, mavi gözləri qapqara.

– Meyidimin üstdən keçəcəksiniz! – deyirdi. – Əclaf! Pul kisəsi! Tahirin oğlunu yolundan döndərə bilərsən, Tahirin adını şumlaya bilməzsən! – deyirdi. – Məqəddəs torpaqdı bura! Müqəddəs! – deyirdi. – Qılınc Qurban sənin mollaxanənı dağıdanda hay-həşirin dünyanı tutmuşdu. Mollaxana deyil bura, Maarif yurdumuzdu! – deyirdi. – Bakıda, Şəkidə, Şamaxıda... hər yerdə hakimsiniz! “A kirvə, buyur, başa keç”, – deyə-deyə qudurtmuşuq hamınızı. Bəs deyilmi?! – deyirdi.

Öd üzlü adam burda bir də partladı:

– Budu bax səni danışdıran! Millətçilik! Nərimanovçuluq! Açıq yazmışam yuxarıya, dədəni yandıracaqlar, pantürkist köpəyoğlu!..

İçərimdən yenə də birdən-birə alov qalxdı, sifətim odlandı, gözlərim torlandı. Qarşımda – üç addımlığımda Səlim müəllimin qolundan çəkişdirə-çəkişdirə əyilib-qalxan Molla müəllim büsbütün yoxa çıxıb, əvəzində Molla Gülən qaldı. Anamın ayaqqabılarında heroqriflərdən oxuduğum dəhşətlər bir-birinə qarışıb,

beynimi qaynadıb başıma qıjıltı saldı. Anamı yenə çarpayıda gördüm; gah maddım-maddım baxıb gözünü döyən Şöşüsünə, gah şişib göyərmiş qıçına, gah da çarpayının böyründə bükülüb yumağa çevrilmiş Nurusuna baxdı: "Aman günüdü, kin saxlama, mənim balam! Hər nə bədbəxtlik törəyirsə, insanın insana kinindən törəyir, mənim balam!.." Bu vəsiyyətə qulaq asmaq daha mümkün deyildi.

Birdən işıq oldu; məktəbin həyətində Rza dayının hər iki-üç aydan bir təzələdiyi iri lampa parıldayıb bu tərəfi də aydınlaşdırdı və mən öd üzü lap aydın gördım.

Ürəyimdən keçəni Molla necə bildi? Bilmirəm. Birdən dala çəkilib, heybətli gözlərlə mənə baxdı.

Mən isə tələsmədən, bütün iradəmi, qüvvəmi toplaya-toplaya onun üstünə yeridim; hiss edirdim ki, anamın ayaqqabılarını sinəmə sıxıb arakəsmənin dalına qapıldığım günlərdə arzu etdiyim dəqiqə, nəhayət, gəlib çatıb, iradə və qüvvət indi mənə hər vaxtkından daha çox lazımdır; düşmənim də olsa, bu adam bir zaman mənə əlifba öyrədib, toplamaq, çıxmaq öyrədib, "Ana dili" oxutdurub, adının böyründə "müəllim" sözü olub, nə qədər nifrətəlayiq olsa da ona əl qaldırmaq çətindir. Əmma mən bunu eləməliyəm! Bu mənim borcumdur! Bu, Komsomol Tahirin Qılınc Qurbanla birlikdə başladığı, yarımçıq qalmış işin, ölüm-dirim mübarizələrinin davamıdır!

Dediyim kimi, tələsmədən, addım-addım onun üstünə yeriyirdim, o isə, böyümüş, durğunlaşmış gözlərini mənim gözlərimdən ayırmadan addım-addım dala çəkilirdi.

Birdən Nurunun qışqırtısını eşitdim:

– Şöşü, farağat dur!

Mən daynmadım.

– Şöşü! Eşidirsənmi nə deyirəm?!

Sağ-solumda başqa səslər də eşidildi:

– Müəlliminə əl qaldırırsan?!

– Atan yaşdadı!

Kimlərdi bu sözləri deyənlər? Molla Gülən kimi vəhşinin haqqında belə sözlər?!

İrəli şığıdım.

Əmma iş belə gətirdi ki, birdən Ramazanı gördüm və bununla da vəziyyət dəyişdi.

Sıpa, yəqin ki, atası sarıdan narahat olmuşdu. Yoxsa, əlbəttə, gözümə sataşmağa cəsarət eləməzdi. Mənim şığıdığım anda, Mollanın əlində hörmə məftil parçası peyda oldu: Ramazan gətirmişdi.

Məftili atasının ovcuna basanda bizim baxışlarımız qarşılaşdı və mən Sıpanın üzündə tanış ifadə gördüm. Klubda stuldan qalxmayanda şüşə gözlərində parıldayan həmin inad ifadəsi idi. Bilmirəm, özümə həddindən çox inandığımdanmı, ya Ramazanın rəzilliyinə şübhə eləmədiyimdənmi, hər nə isə, mən o ifadənin təkrar olunacağını gözləmirdim. "O da bir işiydi", – deyirdim. İndi o parıltını təkrar görəndə, həmişə Sıpada nə isə bir fəaliyyət əlaməti gözümə dəyəndə necə olurdusa, indi də elə oldu: onun ətrafında hamı, o cümlədən atası da dumana büründü, ortalıqda, bir dairədə təkcə o – mənim nifrət hədəfim qaldı və mən atasını unudub oğlunun üstünə atıldım.

Çiyinlərimdən çoxlu adam asılmışdı. Əmma sol əlimi Ramazanın yaxasından, sağ əlimi isə xirtdəyindən qoparmağa heç kəsin gücü çatmırdı. Mənə elə gəlirdi ki, belimə, boynuma zəncir bağlayıb traktora qoşsaydılar, yenə də Sıpadan ayıra bilməzdilər.

Sıpa xırıldayırdı. Gözləri, necə deyərlər, sözün əsl mənasında, hədəqədən çıxmışdı. Əmma mənim sağ əlimin barmaqları bir an da boşalmayıb, əksinə, dəmirə dönüb onun xirtdəyinin sağ-solundakı yumşaq yerlərə yeriyirdi, sol əlimin barmaqları isə, bayaq Mollanın ovcuna basılan hörmə məftili xatırlada-xatırlada düyünləşib hədəfimin gonbul sifətini döyəcləyirdi. Burnu, əlbəttə, çoxdan qanamışdı; yumruqlarım çiriş kimi yapışqanlı qatı qanın üstünə şappıldayırdı. Əmma Sıpa bu yumruqlardan daha heç bir ağrı hiss eləmirdi. Çünki boğulurdu; ovcumun lap ortasında yumru döş kimi duran hulqumu sıxılıb əzildikcə heydən düşüb, qollarını qaldırmağa, qorunmağa da cəhd eləmirdi.

Necə oldusa, arada əkini, kotanı, traktoru gördüm və işimi axıra çatdırmaq üçün onu – Sıpanı kotana doğru itələdim. Əvvəlcə traktorun tırtılına sıxdım, sonra çəkib kotanın üstünə sıxdım, qolunu qamarlayıb, iki dəmirin arasında qaralan boşluğa basıb qanırdım. Deməliyəm ki, nə iş tutduğumu mən çox gözəl başa düşürdüm. İki dəmir arasına sıxdığım qol indi təkcə Ramazanın qolu yox, bir zaman anamın əllərini qızmar oda basıb tuluqladan, dəyənəyi anamın topuqlarına döyəcləyib, hələ sağalmamış yaralarının qanını axıdan, illər ötəndən sonra yenidən hərəkətə başlayıb Tahir müəllim Tahirlinin adını yer üzündən silməyə çalışan əllər, qollar idi; bu

əllər, qollar mənim Ruhumu şikəst edən, əziz müəlimimi toz-torpaq içinə yıxıb “Panturkist köpəyoğlu” qışqıran arxalı köpəyin əlləri, qolları idi ki, iki dəmir arasına basmışdım; mən bu əlləri, qolları sındırmalı, əzməli idim ki, bir daha fəaliyyət göstərməsin... Köynəyimin çiyinlərindən, boynundan çoxlu əl yapışıb dartırdı. Kim isə, güclü bir adam qolunu boğazımın altına yerləşdirib başımı dala çəkir: “Pa atonna! Zırpı ki, Zırpı!” – deyirdi, məni nifrət hədəfindən aralamağa çalışırdı. Hiss etdim ki, bir az da keçsə heç nə eləyə bilməyəcəm, yəni özüm də taqətdən kəsilib, boğazımı sıxan adama tabe olacam; odur ki, son gücümü toplayıb əlləri, qolları bir də, bir də qanırdım və nəhayət, dövrəmdə, başımın üzərində camaatın hay-küyü nə qədər güclü olsa da əllərimin altında sınan sümüyün şaqqıltısını eşidib, Sıpanı kotanın üstündə sərili qoyub ayağa qalxdım.

Birdən-birə hər şey dəyişmişdi; elə anlaşılmaz, qıjıltılı, xırıltılı sükut çökmüşdü ki, nə camaatın tamam hərəkətsiz durub Sıpaya baxa-baxa susmağının səbəbini başa düşürdüm, nə də beynimdəki qıjıltı ilə birlikdə qələmələrin küləkdən yırğalanan budaqlarında vıyıltını belə aydın eşitməyimin səbəbini. Əl-qolum, bütün bədənim də birdən-birə tamam başqalaşıb yoxa çıxmış kimi olmuşdu. Yalnız bayaq boğazımı sıxan o güclü adam – Qurban əminin milisioneri Yekə Cavad qolumdan tutanda bədənimi hiss etməyə başladım, sonra isə ətrafımdakı gözlərin dikildiyi yerə – Sıpanın boğazında buğlanan qanın içində hulqumunun qırılıb çıxdığını görüb ayıldım: Ramazanı öldürmüşdüm.

## 9

Nə qədər ki, gəlib-gedən yoxdu harda olduğumu bilmirdim. Hadisə isə bütün incəliklərinə qədər yadımda idi. Məktəbin yandığını güman eləyib yüyürməyim, toz-duman içərisində nə baş verdiyini görəndə qışqırmağım, Molla Gülənin anlaşılmaz hökmü-hikkəsi də, traktorun qabağına yıxılıb “Meyitimin üstdən keçəcəksiniz!” – deyən müəllimimin qar kimi sifəti, kənarda başını endirib susan qardaşım... Ramazanın atasına hörmə məftil parçası verən əli də, üzünün ifadəsi də qardaşımın: “Şöşü, farağat dur!”

deməsi də... buğlanan qan içində hulqumunu da bir daha bütün aydınlığı ilə görürdüm.

Sümük şaqqıltısından sonra baş verən hadisə isə elə bil yuxuda olmuşdu; bu soyuq döşəməli, qaranlıq yerə necə gəlib çıxdığımı, burda necə yıxılıb arxasıüstə döşəli qaldığımı bilməmişdim. Soyuq canıma işləyəndə qalxıb, kor kimi əllərimi uzadıb gəzinmək istəyirdim. Əllərim nəm və xışıltılı şeylərə toxunurdu, ayaqlarım nəyə isə ilişirdi.

Birdən işıq parıldayıb gözlərimi qamaşdırdı.

Mən ətrafımda kələm yığınlarına, alçaq tavan əltında nazik teldən asılı elektrik lampasına, suvaqsız daş-divarda qaralan xırda-xırda pəncərələrin cərgəsinə, dəmir barmaqlıqlara baxdım və başa düşdüm ki, bura Molla Gülənin sevimli guşəsi – təsərrüfat korpusudur.

Divarların dibi uzunu qalaqlanmış kələm tığlarının arasında dar cığır bozarırdı. O yanda, lampanın işığından uzaq dərinlikdə dəmir qapı, avtomobil şinləri, internat aşxanasının qazanları, çadır, çəllək və sair şeylər gözə dəyirdi.

Açar-qıfıl şaqqıldadı. Dəmir qapı açıldı. Kandarda balaca bir qaraltı göründü, çəkmələrinin nalları sementin üstündə bir neçə dəfə çıqqıldayandan sonra, lap uşaqlıqdan mənə tanış və doğma səs eşidildi:

– Hə, halındı, dəmin?!

Əynində qara meşin pencək vardı, başında qara meşin şapka. Pencəyin dəmir düymələri və şapkanın qabağındakı ulduz parıldadı. Qurban əmi – Qılınc Qurban məni başdan-başa süzüb üzünü kənara çevirdi.

– Gəl görək! – dedi. – Sonra gözlənilməz bir kəlmə: – Heyvan!

Mən yavaş-yavaş ona doğru getdim.

Çatıb qarşısında ayaq saxladım, diqqətlə üzünə baxdım. Heroqliflə oxuduqlarımı, yəni Qılınc Qurbanın hamıdan yaxşı bildiyi hadisələri xəyalımda dolandırıb, başa düşməyə çalışdım ki, bu kişi mənlə niyə belə rəftar eləyir?! Bu sualın cavabında birdən-birə klubumuzu, Sıpanı, gilənar ağacları altında itin boğazında zəncir cingiltisini, Ruqiyyənin heyrətli, dəhşətli sözlərini, sonra Yekə Cavadın yanınca bu dəmir qapıya doğru gəldiyimi xatırladım və o dəqiqələrin hiddətli səslərini eşitdim: “Gör necə öldürdü, əşi!”, “Lap heyvanıymış ki bu!”, “Adam deyilmiş sənin qardaşın, Nuru

müəllim, cəllad imiş!”, “Təlim-tərbiyəniz hədər gedib, müəllim!..”, “On səkkiz yaşında belə cəllad olan böyüyəndə nə olacaq?!” – Səslər bir-birinə qarışıb getdikcə uğultuya çevrildi. Birdən haman bu balaca qaraltı qarşımda peyda oldu. Məktəbin həyətindəki işığın şöləsində onun qara meşin şapqasının günlüyü altında, dərin qırışlarla çalın-çarpaz doğranmış çöhrəsini və bu çöhrəyə uyuşmayan iri, ağıllı, zəhmli gözlərini gördüm. At belindən yox, Qılınc Qurban elə bil yunan teatrındakı Allah kimi mancanaqla göydən düşdü. Əlləri belində altdan yuxarı mənə baxdı.

Bu kişi bizim kənddə görünəndə öz gəlişi ilə həmişə mənim ürəyimi qürurla doldururdu. Heç də yalnız ona görə yox ki, bu məşhur sovet sədri məşhur Revkom[1] sədri Sultan Əmirli ilə birlikdə atamın dostu, silahdaşı olmuşdu və indi Nuru ilə danışanda “Tahirin ruhu”na and içirdi: “Tahirin ruhu həqqi!..” Qürurumun bir səbəbi də bu idi ki, Qılınc Qurbanla mənim özümün sözsüz-söhbətsiz ülfətimiz vardı: Müharibə illərində elə Qılıncın özü kimi məhşur olmuş Boz atın nəslindən, gözəl at üstündən mənə baxanda o, öz yoldaşı Tahiri görürdü, mən ona baxanda isə rayonumuzun, kəndimizin başqa vəzifəli adamlarından fərqli olaraq indinin özündə də şapqasının qabağında ulduz gəzdirən bu adamda öz ağ budağımın bir parçasını görürdüm. Camaatımızın məni “cəllad” adlandırdığı bir vaxtda belə bir adamın hadisə yerinə gəlməsi məni sevindirməyə bilməzdi.

Əmma, görün, mənlə necə rəftar elədi. Əlini belindən götürəndə elə bil qoburdan tapança çıxartdı və şapalağı üzümdə güllə kimi səsləndi.

İndi burda – kələm tığları arasında xatırlayırdım ki, bu balaca kişinin əlinin zərbəsinə tab gətirmədim; gözlərimə qaranlıq çökdü. Çünki şillə heç də üzümə yox, birbaş ürəyimə dəymişdi, “Tahirin ruhu həqqi” – deyə-deyə Tahir müəllim Tahirlinin ruhunu yaşadan bu adama məhəbbətimə dəymişdi!..

Kim isə, yəqin ki, yenə Yekə Cavad qolumdan çəkib kürəyimdən itələdi, məni yıxıb sürüdü. Fikrim, diqqətim yalnız o zərbədə idi. Atamla dostluğu, mənim onu budağımın bir parçası saymağım bir yana qalsın, müəllimlərimizin hamısının, o cümlədən,

---

[1] Revolyusionnıy komitet – İnqilab komitəsi

Nurunun da "Ədalət qılıncı" adlandırdığı Qılınc Qurban mənlə niyə belə rəftar eləsin?! Qaranlıqda soyuq döşəmə üstündə bir xeyli ayıq qaldığım müddətdə bu sualdan başqa məni heç nə düşündürmürdü.

İndi qarşısında ayaq saxlayıb diqqətlə üzünə baxanda da yalnız o sualın cavabını axtarırdım.

O, döşəməyə, divarlara göz gəzdirirdi.

– Əcəb sərinmiş bura! – dedi və gözlənilmədən gülümsündü. – Lap kefə baxıbsan ki, sən burda! NKVD-nin dustaqxanasında belə olmuyacaq!

Mən şübhəyə düşdüm.

Bu, o şillədən də ağır, çox pis bir şübhə idi: bəlkə bu kişinin haqqında deyilən tariflər, "Ədalət qılıncı", – filan, hamısı uydurmadır?! Doğrudan da ədalətlidirsə, yazıq, bədbəxt anamın müsibətlərini bilə-bilə, vaxtı ilə "səsini aldığı", vətəndaşlıq hüququndan məhrum etdiyi, "Sinfi düşmən" adlandırdığı o öd üzlü adamı hamıdan yaxşı tanıdığı halda məni niyə vurdu?!

– Hə, gəl görək! – Nallar yenə bir neçə dəfə çıq-çıq eləyib, birdən çəkic kimi tıqqıldadı. – Niyə belə baxırsan mənə?! Qanmırsanmı neylədiyini, a heyvan?!

Başdan-ayağa titrədim. Dedim:

– Qılıncınız... Sizin ədalət qılıncınız niyə məni kəsir, Qurban əmi?!

İndi onun üzündə nə isə bir dəyişiklik olacağını, mənə münasibətində ədalətsizlik elədiyini etirafa, təəssüfə bənzər bir şey gözləyirdim. Əmma bunun əvəzində yenə də anlaşılmaz sərtlik gördüm: gözləri qıyıldı:

– Hə-ə?! Mənim qılıncımdı səni kəsən?! Yoxsa öz beyinsizliyindi?! Eşikdə gözlüyənlər var səni. Qardaşındı, arvadıdı? İki nəfər də Aşağı kənddən gəliblər səni yola salmağa. Çıx! Gör nə deyəcəklər... Mən yox, Cavad yox, o adamlar aparacaqlar səni Zor nəçənniyin təpiyinin altına!.. – Məni bir daha başdan-ayağa və ayaqdanbaşa süzdü.

– Deyirdim, gecəni burda qalıb azdan-çoxdan bir şey qoyarsan qabına. Deməli, cəzaynan qananlardan deyilsən. Çox heyf!..

Mənə lap yaxın gəldi, eynilə axşam hadisə yerində olduğunu kimi, əllərini belinə qaldırıb dik üzümə baxdı. Yenə vurmaq istə-

yirdi?! Yox, vurmadı. Əksinə, baxışı yumşaldı, hətta bir qədər qəmli kimi oldu. Məncə bu an o yenə də öz köhnə dostunu, silahdaşını, məsləkdaşını görmüşdü, elə buna görə də əli qalxmadı, vura bilmədi; Başını bulayıb pencəyinin döş cibindən dəmir portsiqar çıxartdı.

Bu dəfə mən onun səsində məzəmmət hiss etdim:

– Sən yaşda olanda adam elə bilir dünyada bilmədiyi şey yoxdu... Nə tanıyırsan sən Molla Güləni?! Qırx üçüncü ilin yazında rəhmətə gedib Əsmət. On üç il keçib üstündən. Bu on üç ildə Nuru niyə qisas almayıb? Vəsiyyət – filan, o heç! Bu on səkkiz yaşlı qanmazın yox, ümumiyyətnən insanın qanmadığı çox şey var bu dünyada... Dedim, genə deyirəm, heyvansan!

İndicə baxışı yumşalanda, gözlərində qəm hiss olunanda mən də öz köhnə Qılınc Qurbanımı – atamın məsləkdaşını görmək istəyirdim; o şilləni, birbaş ürəyimə dəyən o zərbəni mənə məlum olmayan, yalnız Qılınc Qurbanın özü kimi dünyagörmüş, təcrübəli adamların başa düşdüyü bir səbəblə əlaqələndirmək istəyirdim. Baş tutmadı: "Nə tanıyırsan sən Molla Güləni?!" – deməyi məni çaşdırdı; axşamkı şilləsindən də gözlənilməz olan bu sözləri, indicə aramızda duyduğum yaxınlığabənzər hissimi də məhv etdi və mənim üçün o, yenə də anlaşılmaz bir adama çevrildi. Anlaşılmaz və yad!.. Bayaq dedim ki, onu görəndə ürəyim qürurla dolurdu. İndi deməliyəm ki, bu qürur adi qürur deyildi; sevinclə, kədərlə, göz yaşı ilə dolu idi! İndi bu balaca kişiyə baxa-baxa, qardaşım kimi onun da Molla Gülənlə barışdığını bildirən sözlərinə görə o qürurumla vidalaşırdım: "Əlvida, qürurum! Ədalət qılıncımız!.. Əlvida, Hümmətçi, Nərimanovçu bolşevikimiz!.."[1]

Bir də:

– Çıx! – dedi.

Çıxdıq.

Günəşin bu səhərki doğması da dünən axşamkı batmağı kimi idi; dünya qırmızı boyanmışdı. Dəmir qapıdan on-on beş addım aralıda boz-göyümtül bir "Pobeda" maşını dayanıb, o da qırmızıya çalırdı.

---

[1] "Hümmət" partiyasının üzvlərinin böyük əksəriyyəti həbs olunandan, güllələnəndən sonra "Hümmətçi", "Nərimanovçu" ifadələri qadağan edilib yalnız Hümmətçilərin ailələrində, xatirələrdə qalıb, nadir hallarda "Hümmətçi bolşevik" şəklində işlənirdi.

Maşının solunda – darvaza tərəfində Bibi kələğayısının ucunu gözlərinin üstünə tutub səssiz hönkürürdü. Nurunun gözləri şişib, yumulub itib-batmışdı... Maşının sağında eynilə o maşın rəngində – boz-göyümtül kəstümdə, boz-göyümtül şlyapalı bir oğlan dayanmışdı. Sol?! "Eloğlumuz Sol" dediyimiz qəribə, müəmmalı yazıçı nə üçün gəlmişdi bu gün buraya?!"Aparmağa?!" "Zor nəçənniyin təpiyinin altına?!" Niyə?! Hər il yaz aylarında Gəncəbasar, Qazax, Göyçə, Təhlə, Borçalı, Başkeçid tərəfləri həmin bu boz-göyümtül "Pobeda"sında gəzə-gəzə, deyilənə görə, otuz yeddi-otuz səkkizinci illərdə həbs olunub indi "reabilitasiya" alan adamlarımızla onların ailələri haqqında "material yığıb yazan" Sol nə üçün gəlmişdi?

"Komsomol Tahiri də elə güllələnmiş kimi sayan", Nuruya və mənə xüsusi hörmət və nəzakətlə baş əyən bu ağbəniz, zərif, ziyalı oğlan məni "Zor nəçənniynin təpiyinin altına" aparmaq üçün gələrdimi?! Yekə Cavadın işi deyildimi bu?! Milisioner, özünün "Rus atı"–"furqon atı" deyilən, ayaqları bizim atların ayaqlarından iki dəfə böyük, yalı bizim atların yalından iki dəfə uzun, pampaq, sarı atı ilə sədrinin atının yüyənlərindən tutub, darvaza səmtində dayanmışdı. Atının ayaqları kimi kobud "girzovoy sapoq"larının – saldat çəkmələrinin yanında su ilə dolu bir vedrə var idi. "Rus atı" başını o vedrəyə əyib, qaldırıb dodaqlarından su damcılaya-damcılaya, ağzını marçıldadıb, yüyənin gəmini cingildədib, mənə heç unutmadığım zənciri, heykəlin canlanan gözlərini, səssiz tərpənən dodaqlarını, "Xalq düşmənidir! Öldür!" – sözlərini xatırladırdı. Qılınc Qurbanın tutduğu bütün dustaqlar həmişə o sarı "Rus atı"nın qabağında, Yekənin şallağı altında aparılırdısa, məni niyə Sol aparmalı idi?! Bəlkə buradan rayon mərkəzinə qədər yolda məni danışdırmaq, yazmaq niyyətində idi? Bəs o "Zor nəçənniyin təpiyinin altına" nə deməkdi?.. Elə bil bu sualların cavabında, Sol mənə doğru gəldi, dümağ, nazik əlini uzadıb mənim böyrümdən zindan kimi asılı, şişmiş əlimi qaldırıb, yumşaq, sərin ovcunda saxladı. Səsi də özü kimi sakit idi:

– Mən səni Çürüyün məclisinə çağırmışdım. Gəlmədin... Gəlsəydin bilərdin ki, Əsmət anamız ölməyib.

Mən diksindim.

– Nə danışırsınız?!

Ağır-ağır, hüznlə gülümsündü.

– Deyirəm ölməyib, deməli, ölməyib... Gəlsəydin, bu hadisə olmazdı... belə müsibət baş verməzdi, şair!

“Şair?!” – Bu kəlmə çox gözlənilməz olduğuna görə duruxdum, utandım, qızardım.

Necə oldusa, onun hələ də əlində saxladığı əlimə baxdım və əllərimin hər ikisini, qollarımı, sinəmi quru, qara qan içində gördüm. Yenə də buğlanan qanlı hulqum, kotanın üstündə sərili Ramazan gözlərimin qabağında durub, bu murdar qana bulaşıqlı əli ovcumdan buraxmayaraq qəribə eloğlumuzu da unutdurantəhər oldu. Sonra elə bil yuxudan oyandım:

– Necə yəni ölməyib?! Bu nə sözdü, ay eloğlu?!

Bayaqkı kimicə – sakitcə dedi:

– Sən Tahir müəllimlə danışırsan, Ruhu ilə yox, sən özü ilə danışırsan, şair. Əsmət anamızla da danışacaqsan. Ruhu ilə yox, özü ilə!.. Ürəyin çırpınmasın. Çalış sakitləş və məni sakit dinlə. Çünki çətin sözlər deyəcəm.

Qılınc Qurbanın səsi araya girdi:

– Ə, o vedrəni gətir də! Atdan ötrümü gətirtmişəm mən onu?!

Yekə Cavad vedrəni götürüb, tappatap yüyürdü. Vedrənin qırağından azca-azca süzə-süzə mənim əllərimə su tökdü, yerdən bir ovuc quru torpaq götürüb, ovcuma qoyub:

– Sürt! Torpaqnan sürt, – dedi.

Sıpanın murdar qanı bütün sifətimi də batırıbmış. Bibi, Nurunun hər ay müəllimlərin məvacibini almağa gedəndə götürdüyü böyük, üçgözlü, qara portfel əlində, gəlib yerə çöküb, dizlərinin üstündə portfeli açdı; bir gözdə alt paltarımı, köynəklərimi, üz dəsmalımı, sabun qabımı, ikinci gözdə bir banka pendir, bir banka yağ, bir banka qovurma, üçüncü gözdə çörək gördüm. Bibi elə dəhşətli sızıltılı ağlayırdı ki, Cavadın tökdüyü o bir ovuc torpaqdan sonra sabunla necə yuyunduğumu, necə qurulandığımı, paltarımı necə dəyişdiyimi bilmədim. Bibinin sızıltısı ara verəndə Sol eloğlunun səsini eşitdim:

– Yaşı məlum olmayan qədim-qayım Çürük öz ustadı Alıya nəzirə yazdığı “Ustadnamə”nin şərhində deyir: “Bəni insanın şəri düz sözün əyrisində ifadə olunur, övladlarım. Düz sözün əyrisi, yəni haq dərgahından gətirilmiş haq dilimizin haq sözlərinin təhrifi. Şər

yoluna duşub, dilimizin həq sözü ƏsƏl əvəzinə "Sol" demişik, həq sözü ƏsAğ əvəzinə "sağ" demişik, "cismimiz – bədənimiz iki ƏsƏr düzülüb" demək əvəzinə "iki şər" düzülüb demişik. Həq dilimizin həq sözü ƏsƏri itirməsəydik, bilərdik ki, bədənimiz "şər" deyil, ƏsƏrdir; Əs – yaradan deməkdir, Ər – işıq deməkdir, ƏsƏr isə – yaradan işıq deməkdir; yəni "şər" deyilik biz, yaradan işıqlarıq; "sol"umuz – ƏsƏlimiz yaradan Əldir, gecəli, gündüzlü – daimi Əsir, "sağ"ımızı – ƏsAğımızı yaradır. Həq sözümüz Ağ – SafAğ deməkdir... Yəni təmiz. Nadan bəni insan "Ruh" dediyi təhrif kəlmənin əsli ƏrAğdır, övladlarım. Yalnız öz nadanlığını dərk edən, təhrif kəlmələrdən törəmiş təhrif şüurdan ayrılmağa can atan insanların "ruh"ları – ƏrAğları əbədi həyat səyyarələrində əbədi yaşayan insanlar olurlar, övladlarım. Əbədi insan irsiyyətini öz ƏsƏr cismində saxlayan insanlar "şər" yoluna düşəndə, yuxuda – röyada və ya aşikarda öz əbədilərinin səslərini eşidirlər, övladlarım.." Aşıq Çürük budu burda – maşında öz sazı, sözü ilə səni gözləyir, şair. Təəssüf, çox təəssüf ki, bu şər qüvvə hadisədən sonra görüşürük çox sevdiyimiz Şövkət Tahirlə... Ədalət Qılıncımız Qurban əmi böyük alicənablıqla izin verdi ki, bu gün Aşığımızın, mənim və Nuru müəllimin sərəncamında olasan, axşam, ya da sabah özümüz aparaq oraya, guya ədalət məkanı olan idarəyə. Keç əyləş aşığın yanında. ƏsƏl təxəllüsünü o verib mənə. Düz sözdən – həq dilindən uzaq, "şər" insan mühitində "Sol" deyirik. "Biz ƏsAğ"ıq deyənlərimizə "Aşıq" deyirik. "Aşıq" – ƏsAğımız çox şey deyəcək bu gün sənə. Buyur otur, gedək!

Quruyub qalıb gah ani sevinc, gah da heyrət içində, ol eloğluna və maşının şüşəsinin arxasında Çürüyün qara, quru üzünə baxa-baxa qalmışdım.

Dedim:

– Başa düşmürəm. O məclisdə nə olmalıydı ki, bu hadisə olmayaydı?

Sol dedi:

– O məclisdə Aşıq məndən indi eşitdiyin həq sözlərini şərh edə-edə xalqımızın qədim elmilə səni inandırmalıydı ki, qan tökmək olmaz. Sən Əsmət anamızın ayaqqabıları barədə deyilənləri biləndən sonra Nuru müəllimlə çox danışmışam mən xalqımızın elmi haqqında. İnsan insanın günahını bağışlamalıdı, şair.

Bax bunu dərk eləsən, istintaqda, məhkəmədə sənin günahını bağışlayan adamlar taparıq. Gəl, gəl əyləş, gedək. Belə ayaqüstü danışammaz Aşıq.

Mən bir az fikirləşməli oldum. Dedim:

– Belə çıxır ki, anamın vəsiyyətinə görə yox, qardaşım sizin sözünüzə görə bağışlayıb anamın qatilini?!

Sol yenə maşını göstərdi.

– Gedək, danışaq. "Qatil" də təhrif sözdü, şər törədir...

İçərim yenə necə alışdısa, üzüm yenə necə odlandısa, Sola hörmətim bir anda yoxa çıxdı.

– Necə yəni "qatil də təhrif sözdü?!" Qatil – qatildi! Qatili bağışlayan özü də qatildi! Anamın qanını almışam mən bu qannan! Siz nə haqla təzyiq göstərirsiniz mənim qardaşıma?! Bu çox hörmətli Ədalət qılıncımız, atamın məsləkdaşı niyə qisas almayıb o qatildən?!

Solun da sifəti dəyişdi – qızardı. Başını bulayıb Qılınc Qurbana baxdı.

Qılınc da başını buladı.

– Mən deyirəm vəhşidi, heyvandı bu, sən deyirsən yox, danışmalıyıq! Apar, ə, bu qanmazı! Zorba adında zor nəçənnik qənim olsun buna!

Cavad portfelin ağzını bağlayıb Bibinin dizlərinin üstündən götürüb mənə verdi. Mən portfeli yerə atdım. Bibinin hər iki əlinin dırnaqları üzünə sancılsa da, Nurunun rəngi külə dönsə də, sözümü saxlamayıb, qışqırıb:

– Ana qatilinin heç nəyi lazım deyil mənə! – dedim və hətta təpiklə vurub portfeli kənara atdım.

Cavad, sədrinin atının yüyənini sədrinə verib, öz atına mindi. Mən isə onun tərpənməyini də gözləməyib, özüm darvazaya doğru addımladım... Heç bilmirəm, bundan danışmağa dəyərmi? Nədənsə bunu da demək istəyirəm ki, mən darvazaya çatanda Nurudan qışqırtı qopdu:

– Canımdan can ayrılır, ay Aşıq! Heç olmasa, bayatılasana bir!

Atın üstündə Yekə də bağırdı:

– Əylən, ə! Biz də qulaq asaq!

Sonra maşının qapısı çıqqıldayıb açıldı. Səhərin sükutunda saz ötdü, Çürük Aşıqdan heç vaxt eşitmədiyim ah-nalə mənə yalvarmağa başladı:

Kamanını atma gəl,
Qanı qana qatma gəl.
Qardaşın dözər dərdə,
Bacını ağlatma gəl!

Nuru hönkürdü. Məni də qəhər boğdu. Köksüm sıxıldı. Əmma gözümdən damcı da çıxmadı.

Çürüyün ikinci bayatısını darvazanın arxasında eşitdim:

Bədirlənmiş ayam mən,
Çəkilməmiş yayam mən.
Ox kamandan çıxanda
Ahu-zaram, vayam mən!

Çürük susanda şallaq şaqqıldayıb kürəyimi yandırdı. Bilmədim kim vurdu o şallağı – Yekə, yoxsa "əlvida" dediyim Qurban əmi – Qılınc Qurban. Nə fərqi vardı? Yandırdı, ağrıtdı, keçdi. Əmma hiss etdim ki, Qurban əminin şilləsi "Şöşü bala"nı öldürdüyü kimi, bu şallaq da Şövkət Tahiri öldürdü. Və bununla da hər şey qurtardı; Molla Gülən anamı öldürdü, mən Molla Güləni öldürdüm, Molla Gülən də məni. Vəssalam. Uzun illərdən sonra bir aləmdən başqa aləmə, eloğlum "Sol"un – ƏsƏlin əlinin altındakı kağızda son sözləri oxuyuram: "Komsomol Tahirin budağı belə qurudu".

# FACİƏ

1941-45-ci illər müharibəsinin əvvəlində "arxa cəbhə"yə[1] nəzarət üçün "istrbitelnıy batalyon" – "qırıcı batalyon" təşkil ediləndə Sabit Mayılova da bir osmanlı beşaçılanı vermişdilər.

Beşaçılan evə gətirilən günün axşamı ailədə böyük bədbəxtlik oldu. Yadına düşəndə indi də Zəlimxanın tükü ürpənir; əlində tüfəng açılanda, qardaşı Qaraxanın üç yaşlı oğlunun necə yıxıldığı, ağbəniz, göyçək uşağın hündür, bir az qabarıq alnının ortadan necə partlayıb dağıldığı gəlib gözlərinin qabağında durur.

Sabit Mayılov tüfəngi kötüyə çırpıb parçaladı, onu – Zəlimxanı isə ayaqlarının altına saldı: "O öldü, sən də ölməlisən!.."

Zəlimxan evdən baş götürüb qaçıb, iki gecə meşədə, ot tayasının üstündə qaldı. Çörəksiz, susuz, vahimə içində... Üçüncü gün Qaraxan onu tapdı. Əmma döymək, öldürmək əvəzinə... neyləsə yaxşıdır? Qardaşının qaraltısını uzaqdan görər-görməz tayanın üstündən yumalanıb meşənin dərinliyinə qaçan Zəlimxanı yaxalayan kimi bağrına basdı: "Mənim balaca, xallı qaqaşım! Gözlərinə qurban olum, gözlərin niyə irilənib?!"

O vaxt – qırx ikinci ilin payızında qohumlarının dediyinə görə, Zəlimxanın başına hava gəlibmiş. Zəlimxanın özünün yadında qalan isə budur ki, atası ona baxdıqca boğulub qaralar, bir küncdə oturub təsbehini çevirə-çevirə saatlarla susardı. Qaraxan isə, meşədən "qorxuluq dərməni" – sarımtıl çiçək yığıb gətirib, qaynadıb suyunu "qaqaşı"na içirdə-içirdə yalvarardı: "Mənim xallı qaqaşım, qovğalı-qallı qaqaşım. Başımıza nə gəldisə, hamısı Allahın işidi. Səndə nə taqsır var, qurbanın olum?!"

Aradan düz on doqquz il keçdiyinə baxmayaraq, bu səs indi də Zəlimxanın qulağında idi. Əmma xatirələr əvvəlki kimi kövrəklik yox, acı təəssüf doğururdu. Çünki... çünki nə? Qaraxan dəyişib? Əgər dəyişməyibsə, yenə həmin Qaraxandırsa, bəs bugünkü qətrəhmlik necə izah olunmalıdır? İşin dara düşüb, qardaş köməyinə

---

[1] Cəbhədən ən uzaq arxa torpaqlar da sərt rejimə salınıb "cəbhə" adlanırdı.

ehtiyac duyursan? Götür telefonun dəstəyini, danış dərdini! Yəni başını o qədərmi itirmisən ki, düşünüb-daşınmadan, birbaş poçta girib teleqram blankı götürmüsən. “Atan can üstədir, tez gəl!” – yazanda, qocanı dünyalarca sevən qardaşıyın necə sarsılacağını, Bakıdan burayacan yeddi-səkkiz saatlıq yolu ürəyini yeyə-yeyə gələcəyini fikirləşməmisən?! Ax, Qaraxan!.. Zahirən, baxırsan ki, heç bir dəyişiklik yoxdur; yenə həmin, duruş, həmin tərpəniş... Öz təkcə sərnişinini gətirən “Pobeda” – taksi raykomun qabağından keçəndə Zəlimxan qardaşını uzaqdan tanıdı; Qaraxanın qara çəkməli azacıq əyri qıçlarını, köhnə süvari zabitləri xatırladan qədd-qamətini raykomun pilləkəninin başına toplaşmış adamların arasında dərhal seçdi. Qaraxan, şübhəsiz, qardaşının yolunu gözləyirdi: Zəlimxanın gecə qatarına qalmayıb taksi ilə gələcəyini qabaqcadan bilirmiş kimi, yolun ağzını kəsdirib dayanmışdı. Necə səbirsizliklə gözlədiyi hətta duruşundan da sezilirdi. Taksi dayanar-dayanmaz, azı metr yarım hündürlüyündə daş pilləkənin üstündən birbaş səkiyə atıldı, batan günəşin durğun, tozlu, quraqlıq havasını zol-zol doğrayan çəpəki şüaları altında çəkmələrinin lakı, tünd yaşıl köynəyinin belini tarım çəkmiş enli kəmərinin toqqası parıldaya-parıldaya quş çəldliyi ilə yüyürüb özünü qardaşının üstünə saldı.

– Sən gələn yollara qurban olum, qaqaş! Ata-baba yurdundan üz döndərib bu bir ildə bizə sarı gözünün ucuynan da baxmıyan, vəfasız qaqaş! – deyə hərarətlə sözü-sözə calayıb, Zəlimxanın boynunu qucaqladı. – Teleqrama görə məni bağışla, kişi sağ-salamatdı, gözlərin yaşarmasın, gözlərinə qurban olum! Sağ-salamatdı! Mən gələndə evimizin qabağında, əlləri geri yanında təsbehini çevirə-çevirə gəzinirdi, sənin yolunu gözləyirdi! Elə bura gəlməyi də o saldı mənim ağlıma, dedi taksi asfaltdan qırağa çıxmır, çıxsa da bizim meşə yoluna heç kəs maşın sürməz... Qocamızın ağlı-başı, hər şeyi öz yerində, qaydasındadı, saqqalının bir tükü də əskik deyil! İnanmırsan, gedib özün sayarsan! Uşaqlıqda sinəsinin üstə paçaaşırma minib saqqalının tükünü saydığın yadındadı? “Tük” yox, “saqqal” deyərdin: “Bir saqqal, iki saqqal...” Bax görürsənmi, teleqramnan qanını qaraltmağımın əvəzində güldürdüm ki!..

Yarısevincək, yarı da heç cür gizlədə bilmədiyi narahatlıqla, müəmmalı, sirli əsəbiliklə yenə nə isə hüdüləyib tökdü. Arada raykomun pilləkəninin başında, ağ mərmər tirlərin arasında dirək-

dirək durub bu səmtə boylanışan adamlara baxdı. Qardaşı ilə rəftarını adamların necə qiymətləndirdiyini bilmək istəyirdi, ya nə? O adamların baxışlarındakı marağı görəndə Qaraxan hədsiz tələsiklik və darıxqanlıqla gah o, gah bu cibini eşələyib, pul çıxarıb taksini yola saldı. Qardaşının qoluna girib onu küçənin kənarına, meşə təsərrüfat idarəsinin müharibə dövründən qalma "Villis" maşınına doğru çəkdi.

Bakıdan rayona qədər bütün yol uzunu, irəlidə onu necə böyük faciə gözlədiyini fikirləşib, indi, qardaşının and-amanına baxmayaraq hələ də fikirlərdən ayrıla bilməyən Zəlimxan təzə-təzə özünə gəlib qəddini düzəltməyə başlayanda, onlar artıq asfaltdan çıxıb meşənin içilə gedirdilər.

Torpaq yolun sağ-solu qızılı, sarılı yarpaqla örtülmüşdü. Əsrlik palıdlar, qaraağaclar, saqqızlar, tək-tək yemşənlər, bölük-bölük göyəmlər, xüsusən, ara-bərədə gözə dəyən qızılcıq kolları bu qürub çağında aşkarca od tutub yanırdı. Əmma Zəlimxan siqaretini çəkə-çəkə düz qabağa, maşının bir parça gümüştək parıldayan radiatoruna baxırdı. Demək, kişi sağ-salamatdır! "Evimizin qabağında, əlləri geri yanında, təsbehini çevirə-çevirə gəzinir". Şükür, şükür! Keçənilki davalarından sonra qocadan nə qədər incik olsa da, Zəlimxan onun ölümünü istəmir. Hansı oğul istər atasının ölümünü?!

Bəs bu teleqram, bu həngamə nə üçündür? Qaraxan yəqin ki, şoferə eşitdirmək istəməyib, pıçıltı ilə qısaca izah etdi:

– İşim dara düşüb, qurbanın olum, sənin köməyin lazımdı.

Bax burada, yuxarıda dediyimiz həmin məzəmmət başlandı:

– Kömək lazımdır, götür zəng vur, daha qocanı niyə öldürüb basdırırsan!..

Qardaşını irəlidə, şoferlə yanaşı oturdub özü arxada oturan Qaraxan isti dodaqlarını onun qulağına söykəyib yenə qısaca izah etdi ki, o barədə evdə ikilikdə ətraflı söhbət edəcəklər, hələlik isə Qaraxan yalnız bunu deyə bilər ki, Zəlimxan Zümrüddən üz döndərəndən sonra Əziz əmi, yəni rayon partiya komitəsinin birinci katibi Əziz Mayılov da onlardan üz döndərib; qoca qardaşı ilə – Sabitlə salam-kəlamı kəsməsə də, Qaraxanla bərk düşnüşüb. Elə bu?! Dayan, dayan! Bəlkə Qaraxan Zümrüd məsələsini yenidən qaldırmaq istəyir?

Zümrüd... Zəlimxanın ilk gəncliyinin arzuları, xəyalları, indi isə elə bil yad, tanınmaz dərəcədə yad bir adam!.. Ötən bir ildə Qaraxan

qardaşına dönə-dönə məktub yazıb bu yad adamın doğmalığını sübut etməyə çalışmışdı. İndi isə... yenə həmin məsələ? Nə var-nə var, "Əziz əmi düşnüşüb?" Olan işdirmi? Bu necə düşnüşmədir ki, Qaraxanı o cür bir teleqram vurmağa məcbur edib?..

Zəlimxan kim bilir neçənci dəfə arxaya çevrilib qardaşının üzündəki sirli narahatlığa diqqət yetirdi və dostları arasında "ən səbirli, ən təmkinli" sayılan bu gəncin özünü qarşısıalınmaz bir narahatlıq götürdü; meşəçilərin yaşadıqları yerə – Böyüktalaya çatmaqlarına bir az qalmış, qəfildən maşını saxladıb, yerə atılıb dedi:

– Burdan belə piyada gedək.

– Nə olar. Gedək, gedək! – Qaraxan bu gözlənilməz təklifdən əsla təəccüblənməyib, dərhal razılaşdı. – Meşəmizin sən görən cahcəlalı qalmasa da, hər halda baxmalı künc-bucağı var. Bax, burdan əlli addım o yanda akasiyalıq başlayır, qaqaş. Bildir, sən gedəndən sonra saldırmışam. Birbaş Moskvanın göstərişiynən yenə akasiya planı veriblər bizə! Rus təki meşələr məkanında tikinti materialı çatışmır?! Başa düşəmmirik niyə bizdən istəyirlər akasiyanı! Əmbə, bilirsən, dövlət planını ödəməyənlərin aqibəti necə olur. Suyunu, selini vaxtlı-vaxtında verdirmişəm, özüm xüsusi nəzarət eləmişəm, indi baxırsan, üçillik şitil elə bilirsən beşillikdi!

Zəlimxan hiss etdi ki, Qaraxanın söhbəti zahirən nə qədər təbii görünsə də, sözlər zorla, boğazdan yuxarı deyilir. Tamamilə aydın idi ki, Qaraxan qardaşların maşından nə isə gizlin söhbət üçün düşdüklərini şoferə bildirmək istəmirdi. Bu, onun sonrakı sözlərindən də məlum oldu; maşın aralanar-aralanmaz, bayaqkından da coşğun hissiyyatla, istiqanlılıqla qardaşının çiynini qucaqladı.

– Sənin həssas ürəyinə qurban olum, ürəyim partlayırdı! – dedi. – İndicə fikirləşirdim ki, nahaq yerə elə rayondaca bir xəlvətə çəkib danışmadım. Evdə ərbeşiklər[1] sənnən görüşmək bəhanəsiynən yığışıb başlayacaqlar tuluqlarını doldurmağa. Üstdən də horta-hort çay, gecə yarıyacan qurtarmaq bilməyəcəklər. Mənim isə dərd sinəmə yığılıb, gəlib dirənib, bax burda durur, qaqaş! – Qaraxan barmağının ucunu uzun, yaraşıqlı boğazında nəzərə çarpan hulqumunun üstünə dirədi. – Bax burda!

Barmağı titrəyirdi. Qırx beş yaşına toxtasa da, qalın, şəvə saçları arasında bir dənə də ağ tük tapılmayan bu çinar qamətli, oynaq

---

[1] Ərbeşik – meşə nəzarətçisi mənasında işlədilir

meşəçi qardaşın barmağının titrəməsi görünməmiş şey idi. Kiçik qardaşın aləmində qeyri-adi bir qətrəhmlik, bəlkə hətta nadanlıq əlaməti olan teleqramla əlaqədar fikirləri dərhal unuduldu.

– Nə olub?!

– Məni tutacaqlar, qaqaş! Tutacaqlar!

Son illərdə meşədə baş verən hadisələri, qardaşının işlərinin heç də yaxşı getmədiyini kənardan da olsa izləyib tez-tez sıxıntı duyan Zəlimxan, eşitdiyi xəbərdən təccüblənməsə də, ürəyi çırpındı.

– Necə yəni... Cinayət eləmisən?!

Uşaqlığın uzaqlığında beşaçılan guruldadı; bir andaca al-qana boyanan körpənin necə çapaladığını Zəlimxan yenidən bütün aydınlığı ilə gördü. Qaraxan isə qardaşının dilindən çıxan "cinayət" kəlməsini elə bil heç eşitmədi.

– Ən azı beş-altı il verib basacaqlar, balalarım çöldə qalacaq, qaqaş! Bakıda yurdunu-yuvanı təzə-təzə möhkəmləndirdiyin vaxtda sən də arzularından, istəklərindən əl çəkib, gəlib burda yetimlər içində oturmalı olacaqsan! Bir-iki də yox, bir düjün yetim içində!..

Zəlimxan maşında oturmaqdan ətəkləri qırışmış plaşının cibindən siqaret çıxartdı. Siqaret qutusu ilə birgə əlinə gələn teleqramı görüb, gərgin düşüncəli gözlərlə qan-qırmızı xəzəl yığınlarına baxdı.

– Qorxuluq dərməni içirdərdin mənə. İndii elə bil qəsdən qorxutmaq istəyirsən.

Qaraxanın səsi titrədi:

– Qəsdən niyə?.. Boş-boşuna səni qorxudarammı, qurbanın olum! Yolun ortasıynan yerimə, bəri gəl tozdan çıxaq, bu saat sənə hamısını danışım... Bu axır vaxtlar çoxdanışan olmuşam. Çünki çarəsiz dərdə düşmüşəm, qaqaş! Əziz əmin məni yaman xırxalayıb, göz görəsi bada verir! Mən qətiyyən gizlətmirəm, əksinə, özüm deyirəm açıq-açığına hər yerdə danışıram ki, son illər məndən asılı olan və olmayan səbəblərə görə, bir direktor, idarə rəhbəri kimi pis işləmişəm, işçilərimi səfərbər eləyə bilməmişəm, sən özün də gəzib görübsən ki, meşəmiz qırılıb, seyrəlib. Bunun üstündə Əziz əmi qoy mənim başıma nə oyun açır-açsın, çiynimin üstünə dönüb bircə kəlmə narazılıq eləsəm, məndən əskik adam yoxdu! Qoy vəzifədən çıxartsın, səhlənkarlığıma görə lap partiya cəzası da verilsin. Özüm öz səhvlərimə görə nə qədər vicdan ağrısı çəksəm də, bu biri ağrılara da dözərəm. Əmbə məhkəmə cəzası məndən ötrü ölümə

bərabərdi, qaqaş! Bu meşədə məndən qabaq da işləyənlər olub. Müharibə vaxtı meşəni talayıblar, heç bir dəfə tutmaq söhbəti meydana çıxıbmı?! İndi sənin istəkli Əziz əmin gözümün içinə deyir: "Get yerini təhvil ver. İşin məhkəməlikdi!" Bax, belə dərdə düşmüşəm, qaqaş... Deyirəm, Əziz əmi, axı, mən burda bir dünyalıq iş görmüşəm, cəmisi on səkkiz nəfərlik fəhlə briqadasıynan, özüm də qolumu çırmayıb, fəhlələrə qoşulub, ikicə ilin ərzində iki yüz hektar meşə saldırmışam, heç olmasa bu zəhmətimi nəzərə al, saya sal. Kimə deyirsən? "Get yerini təhvil ver, vəssalam!" Bax, belə dönük çıxıb Əziz əmimiz, əziz pənahımız, qaqaş, açıq-açığına düşmən kəsilib!..

Qaraxan qardışının gah sağına, gah soluna keçə-keçə, uzun barmaqları ilə tez-tez onun dirsəyindən, biləyindən tuta-tuta danışır, qurtarmaq bilmirdi. Kiçik qardaş gah dirsəyini, gah biləyini onun əlindən çəkib, bu cür hərəkətlərdən xoşlanmadığını hiss etdirsə də, Qaraxan heç nə duymayıb eyni qayda ilə ötürdü.

Üfüqdə ilişib duran günəş elə bil birdən-birə qopub yerin altına düşdü. Qızıllı, gümüşlü meşənin rəngi bircə saniyədə bozardı. Zəlimxanın, qardaşınınkına nisbətən sakit, əmma bu sakitliyinin özündə üzüntü duyulan iri, qırpımsız gözlərlə bayaqdan qeyri-ixtiyari tamaşa etdiyi qalın-qalın xəzəl yığınları da həmçinin bozumtul çaldı. Və bu yeknəsəq bozluğun ara-bərəsində tünd rəngli təzə-tər bənövşələr qəfildən üzə çıxdı. Zəlimxanın ağ, solğun üzündə dərhal diqqəti çəkən uzun, qara kirpikləri titrədi, Qaraxanın enli, azacıq kobud qaşlarına nisbətən zərif və uzun qaşları tərpəndi. Noyabrın ortalarında meşədə bənövşə bitməsi, demək olar ki, möcüzə idi. Əmma Zəlimxan bilirdi ki, gecələr bu ətrafdakı qara sulardan qalxıb sürünüb ağacların aralarında yerlə-yeksan sərilən yumşaq duman buraların havasını bəzən lap yaz havasıtək mülayimləşdirir, payızın son ayında da burada ilk bahar neməti bənövşə tapılır. Universitetdə oxuduğu vaxtlar, xüsusən birinci, ikinci illərdə doğma yerlər üçün darıxıb qəribsəyib, hərdən bircə günlüyə də olsa, meşəyə gələndə Zəlimxan bu yaz ətirli payız bənövşələrindən, heç olmasa üç-dördünü qoparmadan ötüb keçməzdi. Torpağın şirəsilə dolu, soyuq saplaqları barmaqlarının ucunda fırladanda, saplaqlardakı sərinlik ürəyinə işlərdi. Zəlimxan bənövşələri doyunca qoxlayıb, pencəyinin döş cibinə qoyar, Bakıda tələbə yol-

daşlarına göstərib “vətən torpağının möcüzəsi”lə sakit, əmma dərin hissiyyatla öyünəndən sonra bənövşələri yenə döş cibində, ya da ən çox sevdiyi kitabların, Cek Londonun “Martin İden”inin, Turgenevin “Atalar və oğullar”ının səhifələri arasında saxlardı. Bu gəliş birinci gəliş idi ki, xəzəl səpələntisi içində, xırda kol-kos dibinə qısılmış bənövşələr Zəlimxanı çox az çəkirdi. Əlbəttə, yaxşı əlamət deyildi; Qaraxanın bu qədər sarsıntılı vaxtında kiçik qardaşın diqqətinin söhbətdən yayınmasının, gah “qopub yerin altına düşən” günəş, gah da bənövşə dalınca getməsinin özü də, həmçinin, heç yaxşı əlamət deyildi. Qardaşının taleyinə laqeyd idi?! Yox! Bəlkə bu teleqramdan əlini cibinə saldıqca barmaqlarını qanqaltək dalayan bu kağız parçasından xoşagəlməz hiss hələ ürəyindən çıxmırdı? Yox, Zəlimxan sadəcə Qaraxanın öz söhbətinin axırını hara çıxaracağını, dara düşmüş qardaşa kömək üçün ondan nə tələb edəcəyini duymuşdu. Əslində bunu duymaq o qədər də çətin deyildi. Qaraxan isə hələ də danışırdı:

– Evdə arvad-uşaq da külə dönüb, qaqaş! Ağsaqqal vaxtında yazıq kişinin çiyninə dağ boyda dərd qoymuşam. Məndən xəbərsiz minnətə gedib ki, “Əziz, adamı belə xırxalamaq olmaz. Qaraxan altı qız atasıdır, heç olmasa, o qızların xatirinə möhlət ver, özünü düzəltsin”. Başlayıb ki, “heç bir həftə də möhlət yoxdu”. Və sairə və ilaxirə; Qaraxanın danışdığının hamısını buraya köçürmək mümkün deyil. Söhbətin elə bir nöqtəsi yetişdi ki, Zəlimxan daha dözə bilməyib birdən ayaq saxlayıb, məzəmmətli, təəssüflü gözlərlə qardaşının üzünə baxdı.

– Qaraxan, qardaş... birdəfəlik deyə bilməzsənmi ki, məsələ Zümrüdün üstündədi?!

Axır ki, Qaraxan sözünə ara verib duruxdu. Ayaqlar altında xəzəl xışıltısı kəsildi. Böyük qardaşla birgə, ətrafda axşamın toranına bürünən ağaclar da elə bil canlıtək qulaq kəsilib bu dərin sükut içində Zəlimxanın sakit və yorğun səsini dinlədi.

– Sənin söhbətin Zümrüdün üstündədir, ya yox?!

Qaraxan boynunu bükdü.

– Bir söz var, onu da sən deyirsən, daha mən nə deyim, qurbanın olum!

– Yəni Əziz əminin sənə münasibəti Zümrüdə görə dəyişib?!

Qaraxan boynunu düzəltmirdi.

– Ayrı izahı yoxdu, qaqaş, ağlına qurban olum sənin.

– Yəni Əziz əmi o qədərmi xırda adamdı, Qaraxan?

– Yox, yox!.. Mən elə deməıəm, qətiyyən deməıəm, qaqaş! Axı, necə olsa, o da atadı. Qismət olar, özün görərsən övlad nə olan şeydi, qaqaş. Övladın dırnağının ucuna daş toxunanda atanın ürəyinə tikan batır... bizim kişiyə açıqca deyib ki, "kiçik oğlun mənim balamı bədbəxt elədi".

Yenə də beşaçılan guruldadı. Və Zəlimxanı yenə üzüntü hiss edib, lap astadan yorğun-yorğun dedi:

– Zümrüdü bədbəxt eləyən mən deyiləm, Qaraxan... Mən həmişə xoşbəxtlik arzulamışam ona... Əziz əminin, görünür, hələ çox şeydən xəbəri yoxdu. Sən ki, bilirsən...

Qaraxanın yenə səsi titrədi:

– Bilirəm, bilirəm nəyə eyham vurusan. Qaqaş, qurbanın olum, mən sənə dönə-dönə yazmışam, indi də sidq-ürəknən boynuma alıram, şəxsən mənim günahım böyükdü. Zümrüd mənim balalarımın arasında, mənim əlimin altında böyüyüb, əgər onun bəzi xasiyyətləri sənin xoşuna gəlmirsə, təqsir hamıdan əvvəl mənim boynuma düşür. Əmbə qız sən deyən qədər də korlanmayıb axı, ay qaqaş, qurban olum sənə! Bilirəm, əlbəttə, orasını da bilirəm ki, bu saat münasibətiniz gərgindi. İnandırıram səni, evlənsəniz hər şey yoluna düşəcək, mənim təcrübəmə inan, qaqaş! Nə qədər ki, nişanlı qalırsan, aralıqda min cür anlaşılmazlıq olur. Oğlanla qız uzun müddət nişanlı qalanda, iraq sizdən, görürsən axırda, hətta ayrılıqnan qurtarır. Əmbə elə ki vaxtında evlənirsən, yaxın ünsiyyət hər şeyi yuyub aparır. İnan mənə, qardaş qardaşa pis tövsiyə eləməz! Nişanlı vaxtımızda Səriyyə bacınnan mənim aramda heç bilirsənmi nə qədər narazılıq olub! Sən gəl indi tamaşa elə, gör necə can-hacanıq! İnanırsanmı ki, dindirəndə bir-birimizə "can" deyirik!

Zəlimxan köksünü ötürdü.

– Siz bir-birinizi çox istəyirsiniz...

– Bəs sən?! Zümrüd özü səni az istəyir?! Keçən ildən bəri yasa batıb yazıq qız; sənin gördüyün o oynar-gülər Zümrüddən əsər-əlamət qalmayıb, xəzan vurmuş yarpağa dönüb!.. Sən məni o qədər də küt adam hesab eləmə, qardaş, gözlərindən görürəm ki, bax bu dəqiqə sən özün də onun həsrətini çəkirsən! Etiraz eləmə! Çox adam biz meşəçiləri mədəniyyətdən uzaq bilir. Siz şəhərlilərin dili

ilə desək, sivilizasiyadan kənar sayılırıq. Əmbə, məncə, sən təsdiq elərsən ki, meşə adamında olan həssaslıq heç kəsdə ola bilməz! Ağacdan, otdan, çiçəkdən savayı biz meşəçilər insan ürəyindən də xəbərdarıq. O handa da qardaş yrəyi ola! Sən onu sevirsən, qaqaş, özü də, necə deyərlər, atəşin ürəklə sevirsən. Əmbə sən tələbkarsan. Məncə, həm də həddindən artıq tələbkarsan, Zümrüd isə hələlik o tələblərin hamısına sən istədiyin kimi cavab verə bilmir. Bax, gəl əyri oturaq, düz danışaq, qaqaş, qurbanın olum, axı sən hələ ali təhsil verəcəksən ona, özünlə aparıb böyük-böyük şəhərlərdə gəzdirəcəksən, sağlıq olsun, lap xaricə də aparacaqsan...

– Mən Zümrüdlə evlənmiyəcəyəm, Qaraxan! – Bu cavab elə sakit bir inamla, elə aydın və sərrast deyildi ki, Qaraxan əvvəlcə hətta özünü itirdi. Zəlimxan isə bu cavabın Qaraxana sərt bir şillətək dəydiyini hiss edib, qardaşının çaşqınlığına baxa bilməsə də, həmin aydın və sərrast ifadə ilə təkrar etdi ki: – Evlənmiyəcəm. Bu barədə danışmağa da dəyməz, Qaraxan. Mənim Zümrüdlə keçənilki söhbətimi də, o söhbətlə əlaqədar başqa məsələləri də özün azçox bilirsən. Mənə elə gəlir ki, söhbəti təzələməyə dəyməz. Sənə, doğrudan da, kömək lazımdısa o ayrı məsələdi.

– Əşi, kömək nədi, ağzımda sənə deyirəm əlli-ayaqlı gedirəm, sənə qurban olum!..

– Bunsuz, “qurban olum”suz danış, sən Allah, Qaraxan! Mən istəmirəm sən belə sızıldayasan! – Zəlimxan bu sözləri asta, yumuşaq səslə, əmma kəskin etiraz kimi söyləsə də, Qaraxan o qədər diqqət yetirə bilmədi.

– Gör nəyə fikir verirsən! Bayaq “qorxuluq dərməni”... indi də bu “qurban olumsuz!” – deyib, öz hissini gizlətməyi bacarmayan bir adam səmimiyyətilə hətta ağlamsındı.

– Qardaş qardaşa həqiqətən qurban olmağa hazır deyilsə, o nə qardaşdı?!

Yenə də beşaçılan guruldadı və yenə də o yalvarış səsləndi: “Mənim balaca, xallı qaqaşım, qovğalı-qallı qaqaşım!..”

İndiki səs isə sərt və tələbkar idi:

– Sızıldayıb-sızıldamamaq məgər mənim özümdən asılıdı?! Ağzımda sənə deyirəm bada gedirəm, qardaş! Bir həftədi üzümə salıb yerimi təhvil vermirəm. Sabahları təhvil-təslim qurtaranda görəcəksən prokuror sanksiyasını verdi! Ağzıbirə düşəndən sonra,

tülkü tülkülüyünü sübut eliyənəcən, baxacaqsan ki, dərisini boğazından çıxartdılar. Partbilet əlimdən gedəndən sonra dizinə çırpacaqsan[1], əmbə tufan yerini almıyacaq, vaxtkən başa düş, qardaşıyın dərdinə çarə qıl, qardaş!

Zəlimxan barmaqlarını yandıran siqareti yanından ötdükləri kötüyün üstünə basdı, ətrafındakı xəzələ baxıb son qığılcıma qədər söndürdü. Dikəlib köksünü ötürdü:

– Mən, açığı, aralanmamışam ailəmizdən, hiss eləyirəm, soyumuşam. Əzab, əzab, əzab! Tilsim belədi. Sən, əksinə, taleyimizlə barışmaq istəmirsən, Qaraxan. Əvvəla Zəlimxanı qaytarmaq istəyirsən. Çətin məsələdi, qardaş!.. Sənə söz verirəm, Əziz əmi ilə danışaram, bacarsam, vəziyyətini yüngülləşdirərəm. Nə qədər soyusam da, qardaşınam! Sən çalış çox əzab vermə mənə. Demək istəyirəm ki, belə dəhşətli sözlər danışma.

– Qurbanın olum, dəhşət göz qabağındadısa, ayrı cür necə danışım!..

Yolun sağ-solunda sıx daraq dişləritək düzülmüş akasiyalıqdan birbaş talaya çıxdılar. Qaraxan qarşıda birdən-birə görünən işıqlardan diksinmiş kimi, səsini qısdı:

– Təcrübəli jurnalist, qələm sahibi olsan da, hər halda hələ çox cavansan. Qohumun, dostun düşmənə çevrilməyindən dəhşətli heç nə ola bilməz, qardaş! Bax odur, evimizin qabağında bir dəstə ərbeşik durub, sənin yolunu gözləyirlər. Qohumların hazırlaşıblar ayağıyın altında qurban kəssinlər. Əmbə, mən bilmirəm ki, sabahları yerimi təhvil verəndən sonra onlardan heç olmasa bircəciyi sözümə söykək duracaqmı?! Zəmanə dəyişib, insan mürəkkəb olub, qardaş! Sənin qardaşın qırx ikinci ilin mayından qırx beşin mayınacan, üç il gecə-gündüz müharibədə qızıl güllənin qabağında dayandı, qorxu-hürkü bilmədi, lap qorxsa da başını itirmədi. İndi, açığı, canımda vəlvələ var!.. Bundan artıq mən sənə daha heç nə demiyəcəm. Ölç, biç, fikirləş, fikirli gözlərinə qurban olum, bayaqdan üç siqaret çəkibsən... indi atannan da söhbət elərsən. Əlbəttə, heç kəs səni məcbur eləmək xəyalında deyil. Əmbə bizim vəziyyətimizi də, öz vəziyyətini də nəzərə al. “Aralanmışam... Soyumuşam”. Bədbəxtlikdi bu, qaqaş!.. Di gəl! Bir az ayaqlı gəl, yəqin evdə intizar qaldılar.

---

[1] Kommunist partiyasından çıxanlara bir daha vəzifə verilmirdi.

Meşə içinin sürətlə qatılaşmağa başlayan qaranlığında ağaclar elə bil əl-ələ tutuşub, hər tərəfdən yeriyib talanın dairəsini daraltmışdı; akasiyalığın çıxacağından baxanda irəlidəki boşluq bircə xırman yeri boyda görünürdü. Meşəçilərin alçaq çardaqlar altında ocaqları işıldayan yastı-yappa qazmaları bu axşam qaranlığında daha da yastılanıb, torpaqla bərabərləşmişdi. O başdakı fin evinin axşam şehindən islanmış şiferləri isə sanki lap ulduzların altında ağarırdı. Bu mənzərə, Zəlimxanın dünyaya göz açdığı gündən indiyə qədər min-milyon kərə gördüyü, ən xırda, incə cizgilərinə qədər bələd olduğu bir rəssam kimi, zehnində daimi iz salmışdı; böyük şəhərlərdən, qarğaşalı qəsəbələrdən, uzaq meşə içində, nədənsə Böyüktala adlanan bu kiçicik guşəni xatırlayanda həmişə ürəyində bir kövrəklik, həsrət duyurdu. Xüsusən bu son vaxtlar Bakının Nərimanov prospektində təzəcə aldığı otağında rahatca uzanıb yatdığı yerdə, gecənin bir aləmində elə bil kimsə onu silkələyib oyadıb, həmin rəsmi gətirib qarşısına qoyurdu. Zəlimxan ulduzların altında ağaran bu şiferləri də, sakit-sakit alovlanan ocaqları da, orda-burda, dirəklər dibində çöməlib papiros, çubuq çəkə-çəkə söhbət edən meşəçiləri də görürdü. Bu xəyaldan ayrılanda isə hökmən Səməd Vurğunun qəzəlindən bir sətri xatırlayırdı: "O yerlər min xəyal eylər, təbiət şeirə layiqdir". Və gözləri dolurdu: "Ayrılıram səndən, Böyüktala!.." Bu kiçikcə talada nə isə elə bir şey var ki, ondan ayrılmaq, uzaqlaşmaq, əlbəttə, bədbəxtlikdir. Gecələr hərdən Zəlimxan hətta saatlarla bu bədbəxtliyin xofu ilə nəfəs ala-ala təngnəfəs olurdu.

Bugünkü günün yetişəcəyini, Böyüktalada, ümumən bu meşə içində yeni hadisələr burulğanına düşəcəyini qabaqcadan duyurdu? Demək çətindir. Hələlik ancaq bunu demək mümkündür ki, qardaşının həddi-hüdudu aşan həyəcanla danışdığı dumanlı əhvalatdan sonra, vaxtılə özünün dediyi kimi, "həyətinin çala-çuxuruna qədər doğma olan" fin evi və onun dövrəsində ağız-ağıza düzülmüş qazmalar indi ona divarları arasında gizlin, dolaşıq intriqalar gedən bir qəsr kimi görünürdü. Əmma Zəlimxan bu deyilənlərin heç birini aydın dərk etmədən qarışıq təəssüratla yeriyirdi.

Qardaşlar fin evinin həyətinə yaxınlaşanda oradakı qaraltılar tərpənişdi. Gələnlər və qarşılayanlar hələ üz-üzə toxtamamışdılar ki, həyətin qaranlıq küncündən kim isə burmabuynuz bir qoç

gətirdi, qoçun boynunu qatlayıb Zəlimxanın qabağında yerə sərdi. Əynində torba kimi asılmış, ətəkləri yerə toxunan ağır, boz şinelin içində qeyri-adi cəldliklə hərəkət edən bu cılız adam, yəqin ki, öz işini Zəlimxanla görüşməkdən daha irəli bilib, dizini qoçun boynuna dayadı. Boz şinelin ətəyinin altından siyrilib çıxan ağdəstə xançalın tiyəsi parıldadı, ətrafdakı ocaqların az-maz aydınlaşdırdığı bu toranda qaraya çalan qan fəvvarə vurdu: Beşaçılan guruldadı, üç yaşlı körpənin qanı qoçun qanına qarışdı...

Zəlimxan, qazmaların həyətlərindən yox, elə bil göbələk kimi birbaş yerin altından çıxaraq sağ-soldan onu dövrəyə alıb əl verən, qəribə ciddiyyətlə "xoş gəlibsən, səfa gətirbsən!" – deyə eyni səpkili kəlmələri təkrar edən papaqlı, şinelli, gödəkçəli adamların tanış sifətlərinə baxıb, gözlərini göllənən qara qandan ayırıb etiraz əlaməti olaraq başını buladı. Qardaşının "təcrübəli jurnalist" adlandırdığı bu gənc jurnalistə çoxdan məlumdu ki, dinlə birlikdə bütün dini adət-ənənələr, o cümlədən qurban bayramı qadağan ediləndən sonra, "köhnə bolşevik" adlanan Sabit Mayılov hökumətin, partiyanın qadağasına ciddi riayət edənlərdəndi. İndi isə... evdən qovduğu oğlunun "ayağının altında qurban kəsməyə" izin vermişdi. Niyə?

Hamı susurdu. "Torbaşinel" adam – Kərəm Mayılov isə, başını qaldırmadan öz işində idi.

Zəlimxan, onun gəlişinə qəribə ciddiyyətlə, müəmmalı, gizlin maraqla baxan meşəçilərə, belə hallarda canqurtaran bir-iki kəlmə: "nə var, nə yox?" – deyib fin evinin pilləkəninə yönəldi.

İçəri girər-girməz, bayaqdan bəri qapının dalına toplaşıb atalarının dili ilə "qaqaş" dedikləri əmilərinin boy-buxununa, "qəşəng şəhər geyiminə" tamaşa edən qızlar, bir-birinə aman vermədən hər tərəfdən onun boynuna sarıldılar. Altı cüt hərarətli, mehriban əl eyni qayda ilə onun yumşaq ağ sifətini ovucları arasına alıb sağa-sola əydi: "Dərdin alım, ay qaqaş!", "Qabağında ölüm!", "Sadağan olum, ay qaqaş!" – və sairə deyən altı titrək səs bir-birinə qarışdı. Marçamarç öpüş-görüş kim bilir nə qədər çəkəcəkdi. Qaraxan qızlara mane oldu; birdən səbirsizliklə qabağa çıxıb təpindi:

– Yaxşı, yaxşı! Bəsdi! Gedin aşağıda ananıza kömək eləyin!

Qızlar müti kirişib həyətə töküldülər.

Zəlimxan hesabla böyüyünün on səkkiz yaşı təzə tamam olan bu meşə gözəllərindən ötən bir ildə hansının necə dəyişdiyinə belə

diqqət yetirə bilmədi. Halbuki qardaşının balalarına hər vaxt diqqətli olmaq, onları qarşılıqlı məhəbbətlə əzizləyib, ürəyində qövr eləyən köhnə yaranın ağrısını unutmaq istəyirdi. Ailədən uzaq düşsə də, Zəlimxan bilirdi ki, Qaraxanın arvadı Səriyyə bacını "azad eləmək" üçün mamaça çağrılmaq vaxtı yetişəndə evdə gərgin intizar başlanırdı. Bu ailəyə elə bil kənardan düşmüş, ağırlığı və qaradinməzliyi ilə bacılarından fərqlənən böyük qız Məryəmdən savayı, qalanları bərk təşviş keçirirdilər; gecələr pəncərə qabağında diz çöküb, qaranlıq göyə üz tutub pıçıldayırdılar: "Sən bizə bircə qardaş, bircə qardaş, ay Allah!.." O biri otaqda mamaçanın əlində çapalayıb qışqıran növbəti çağaya baxandan sonra isə əməlli-başlı yasa batıb, göyə üz tuturdular: "Kor olasan səni, ay gözəgörünməz! Muradın gözündə qalsın!.." – Nənələrindən, xalalarından eşitdikləri qarğışları yağdırıb, özlərini "bəxtsiz, qaradaban" adlandırıb, saç-birçəklərini yolurdular. Zəlimxan bunu tək bir dəfə görmüşdü, əmma yalvarışların, qarğışların təkrar olunduğuna şübhə etmirdi. Buna görə də, "atan can üstədir" yazan qardaşın indi qızları belə təşvişlə qovmağına laqeyd qala bilmədi:

– Sən də əzabkeşsən... yazıq Qaraxan! – dedi və birdən ayılıb, orta otaqdan sağa açılan qapıya baxdı...

Sabit Mayılov daranmaqdan, sığallanmaqdan pilə kimi yumşalmış nurani saqqalını meydan sinəsinə sərib, tünd-qırmızı məxmərdən, ucları qotazlı mütəkkə və ağ balınca baş qoyub, xalının üstünə nəhəng bir cəngavərtək döşənmişdi. Uzaq küncdəki stolun arxasında onluq lampa otağa dinclik, rahatlıq yayırdı. Qapağı azacıq aralı qoyulmuş divar peçində odun yanıb qurtarmışdı. Parça-parça qanqırmızı közlərin ara-bərəsində xırdaca alovlar titrəşir, qocanın tərtəmiz qırxılmış iri başında əks edirdi.

Zəlimxan yavaşca əyilib yanını xalının küncünə qoydu, atasının dümağ, qalın qaşları altında kölgələnmiş yumulu gözlərinə bir də baxıb, astadan səsləndi:

– Baba.

Dil açan gündən atasını "baba" çağırmış, sonralar hətta təəccüblənmişdi ki, nə üçün başqa oğullar öz atalarına belə demirlər.

Qəribə uşaq mülahizəsilə fikirləşmişdi ki, "ata" sözü çox lovğa səslənir, "dədə" deyəndə incə-mincə çıxır. "Baba" isə Zəlimxanın

dilinə və ürəyinə yatırdı; bu kəlmə ona həm həlim və təbii, həm də ağır və təmkinli görünürdü. Zəlimxan ümumən hər şeydə həlimliyi, eyni zamanda ağırlığı və təmkini sevirdi. Qardaşı, məsələn, lap cavanlıqdan qıvraqlığı, cəldliyi xoşlayır. Zəlimxanın yadındadır ki, Qaraxan geyim-kecimində azacıq ağırlığa, yöndəmsizliyə də dözmürdü. Altına ikinci dəfə padoş vurulan çəkmələrini geymirdi. Deyirdi: "Meşəçi, atüstü adam gərək quş kimi yüngül, oynaq olsun. Ayaqqabısından, belindəki kəmərdən tutmuş, köynəyinin boynuna qədər, gərək mum kimi yumşaq olsun. Mən heç müharibədə də "kirzovıy sapoq" geyməmişəm, bu gün altı yamaqlı geyim?" Qaraxan elə indi, altı qız atası olduqdan sonra da həmin vərdişindən əl çəkmirdi. Nə isə, hərədə bir vərdiş olur. Budur, qoca, köhnə adəti üzrə, yenə də döşəmədə, xalı üstə yatır. Qaraxandan fərqli olaraq, qoca hər şeydə bərkliyi, sərtliyi sevir.

– Baba, ay baba...

Qocanın qaşları tərpəndi, yavaş-yavaş yığılıb ortada baş-başa durdu, sonra yenə yavaşca ayrılıb iri göyümtül göz qapaqlarının üstündə çevrələndi. Zəlimxan atasının geniş, hündür alnında doğma qırışlara, balaca burnunun sağ qanadındakı qonur xala, qalın, sərt dodaqlarının sərbəst yatımına bir daha tamaşa elədi, eyni ehtiyatla əlini xalıya dirəyib ayağa durub, üslublu addımlarla yuxarı başa yeridi.

Bir il bundan qabaqkı kimi, sol divarın dibində, şüşələrinin üstündə çox təbii rənglərlə bir cüt qırqovul çəkilmiş şkaf qoyulmuşdu. Şkafdan sağda, xalça üstündə ailə üzvlərinin, qohumların şəkilləri düzülmüşdü.

Zəlimxanın gözləri şəkillərdən yalnız birinin üzərində dayandı. Zümrüd... Vaxtılə hamı elə bilirdi ki, Zümrüd bu evdə böyüyüb boya-başa çatmış bir qız kimi, kənara, bəlkə də heç ağıla gəlməyən bir ailəyə köçürüləcək. Sonra hər şey dəyişdi. İndi isə evdə yenidən hər şeyi dəyişdirməyə çalışırdılar. Görək, görək bu öykəşiklik nə ilə qurtaracaq...

Zəlimxan köksünü ötürüb, dönüb yenə atasına baxdı və geniş açılmış, qırpımsız, hirsli gözləri görəndə ona elə gəldi ki, kişi heç bir an da yatmayıb, qapı açılandan indiyədək sıx, uzun kirpiklər arasından oğlunun hərəkətlərini izləyib. Doğrudanmı belədir? Ötən bir ildə qocanın qəzəbi heç soyumayıb?

Zəlimxan bu fikrə inanmaq istəmədi.

Atasının gözləri üç addımlığındakı bədənnüma güzgüyə baxırdı. Orada qara kostyumda və qar kimi ağ köynəkdə, azacıq uzunsov, ağ sifətli, ucaboy, zərif bir oğlan dayanmışdı. Oğlanın çox erkən töküləyə başlayıb qabaq tərəfdən seyrəlmiş, sifətinin rəngilə təzadlı, qara, işıltılı saçları, iri, sakit baxışlı gözləri, eynilə Sabit Mayılovun burnuna bənzəyən xırda burnu və bir qədər ətli dodaqları vardı. Qol-qanadlı Mayılovlar ailəsində bu oğlanı sevməyən bir nəfər tapılmazdı. Sabit Mayılov isə elə bil onu nəinki sevmir, hətta heç tanımır, qocanın özündən və əziz qonaqlardan başqa heç kəsin ayaq basmadığı bu otağa oğlanın hansı cəsarətlə təpilib belə sərbəst gəzib-dolanmasına təəccüblənir, qaşlarını çatırdı. Bəlkə qoca yuxulu idi və onu doğrudan da tanıya bilmirdi?..

– Baba, xoş gördük!

Qoca gözlərini güzgüdən ayırıb, yönünü o biri tərəfə çevirdi.

Zəlimxan əyilib, dizləri üstə çöküb əlini qocanın kəmər yerində çarpazlanmış cod əllərinin üstünə qoydu.

– Üzümə niyə baxmırsan, baba?

Qoca, yavaş, əmma inadlı hərəkətlə oğlunun əlini kənara itələdi, heyrətli yüngüllüklə kürəyini yerdən qaldırıb ayağa durdu, gövdəsinin bütün əzəmətilə dikəlib, nəhayət, oğluna baxdı. Sonra yenə üzünü kənara çevirdi.

– Hə, gəlib çıxıbsan...

– Qaraxan çox pis teleqram vurmuşdu, baba.

– Mən gəlinimi gətirib qoymuşam evimə!

Nə?! Zəlimxan əvvəlcə heç nə anlamadı. “Xoş gəldin” əvəzinə deyilən bu hökmlü sözlərin mənasını dərk edəndə isə, əslində bəlkə də faciəli hadisə ona çox qəribə və gülməli göründü.

– Necə yəni “gətirmişəm”, baba?.. Məndən bir kəlmə soruşmamış, bilməmiş... elə də şey olar?

Qoca hökmlü idi:

– İstəyirsən qal, ərrik elə, istəmirsən – o yol, o da sən! Gəlin mənim ocağımın başındadı. Adı burda çıxıb, canı da burda çıxacaq!

Zəlimxan başa düşdü ki, iş-işdən keçib. Yaxşı, bəs Qaraxan məsələnin bu tərəfini niyə deməyib? Qardaşını vaxtından əvvəl hürkütmək istəmədi, yoxsa, sadəcə, cəsarəti çatmadı? Ya bəlkə ata ilə oğul hər şeyi ölçüb-biçib, planlı iş tutublar? “Gəlinin gətirilib evə qoyulmasından”, teleqram vurulmasından, yoldakı söhbətdən

tutmuş, indi qccanın onu belə sarsıdıcı xəbərlə qarşılamasına qədər, hamısı əvvəlcədən düşünülüb? Demək belə çıxır ki, Qaraxan bütün yolu qeyri-səmimi danışıb?! Vay, vay! Zəlimxan qardaşının hər şeydən əvvəl məhz səmimiyyətinə, insaniyyətinə hörmət edirdi.

Demək indi səmimiyyət yoxdur?!

Zəlimxan mümkün qədər düzgün və dəqiq ifadə etməyə çalışaraq:

– Baba, mənə elə gəlir ki, bizim ailəyə böyük fəlakət üz verir, – dedi. – Əgər qardaş qardaşa kələk gəlirsə, ata oğulla hesablaşmırsa, bu, fəlakət əlamətidi. Sən ki, dünyagörmüş adamsan, niyə çiy iş tutursan, ay baba?!

Qoca elə bil əvvəlki sözləri heç eşitməyib, axırıncılardan yapışdı:

– Baban dünyanın quyruğunu düyüb yola salıb, ona görə də çox yaxşı bilir nə təhər iş tutduğunu! Sən nə xəyaldasan?! Əziz Mayılovun balasını gül təki qoxlayıb ayaqlar altına tullayırsan?! Olmuyacaq! – Əlini tavana qədər qaldırıb orda şəhadət barmağını silkələdi. – Nə qədər ki bu qoca Sabitin qaraltısı bu evdədi, sən deyən olmuyacaq! Mən öləndən sonra, kefiniz buyurar, bir-birinizə arxa da çevirərsiniz, nəsli-kökü dağıdıb yerində turp da əkərsiniz, öz işinizdi! Hələlik sağam mən!..

Zəlimxanın gözləri xalının qaralı-qırmızılı naxışlarında gəzib, bayaqkı qurbanlıq qoçun qanına qarışan qanı xatırlatdı. Burda ilk dəfə beşaçılan gurultusu əvəzində qardaşının səsini eşitdi: "Əlli-ayaqlı gedirəm!.."

Əgər Qaraxanın doğrudan da "əlli-ayaqlı getmək" təhlükəsi özünün dediyi qədər ciddidirsə, bəs qoca bu barədə niyə susur? Bu "xeyir iş" doğrudanmı xilas edə bilər Qaraxanı?.. Bəlkə heç bir təhlükə qorxusu-filanı yoxdur, bütün həngamə yalnız "xeyir işi" başa çatdırmaq üçündür? Yəni qurğudur?! Elə isə... dəhşət! İndi bircə bu qalır ki, Zəlimxan daha bir kəlmə də dinib-danışmadan, dönüb orta otağa adlasın, paltarasılandan plaşını, kepkasını götürsün və... çıxıb getsin?! Ataya, qardaşa, hamıya arxa çevirib, gedib yalnız özü üçün yaşasın?! Mümkündürmü? Ötən ilin ayrılığı göstərmədimi ki, insanın özü üçün yaşaması da bir cür əzabdır!.. "Gəlin..." hardadır, neyləyir, nə fikirləşir? Doğrudanmı Zümrüd indi bu qonşu otaqlardan birində, "ocaq başında" oturub ərini gözləyir?

Özünü biləndən indiyə qədər heç vaxt heç kəsə boyun əyməyən Zümrüd bu dəqiqələrdə bəzəkli gəlin otağında boynunu burub taleyinin əmrini gözləyir?! Bəlkə qocanın bu xəbəri də yalandır? Bəlkə Zümrüdü də, Qaraxanın teleqramı kimi bir vasitə ilə, al dililə gətiriblər?

Gətiriblər ki, bu otaqda Zəlimxanın razılığını alandan sonra o biri otaqda Zümrüdə şad xəbər versinlər?!

Zəlimxan atasına baxdı.

Qocanın kükrək qəzəbi də, sözləri də eynilə keçənilki vəziyyəti, Zəlimxanın evdən çıxıb getdiyi dəqiqələri xatırladırdı. Demək vəziyyət təkrar olunurdu?! Evdən ikinci dəfə qovulmalı idi?!

Buna imkan vermək ömürlük ayrılıq deyilmi?!

– Bəlkə oturaq, baba?

Qocanın gözləri təəccüblə bərəldi. Qəzəbi və əzəməti ilə heç tutuşmayan qəribə sadəlövhlüklə üstdən-aşağı oğluna baxdı:

– Necə yəni oturaq?.. Bu nə deməkdi?

Zəlimxan səsini lap endirib, hətta bir növ yazıqlaşdı.

– Mən yoldan gəlmişəm. Özüm də acam. O cür bədxəbər teleqramla ürəyimi üzməyiniz bəs deyilmi ki, üstəlik burda da zülm eləyirsiniz, baba?

– Hm... Bilmirəm kim-kimə zülm eləyir!.. – Sabit Mayılov küt adam deyildi; oğlunun öz təmkini və iradəsilə onu tərksilah edə biləcəyini başa düşüb, birdən yenə dimdik dartıldı. Gurultulu addımlarla yeriyib, qapını araladı: – Ay uşaq, kim var orda? – deyib, qayıdıb oğlunu şübhə ilə süzdü: – Sözü belə yayındırmaqda məqsədin nədi?!

– Sənnən üz-üzə oturub ata-oğul kimi, açıq, səmimi söhbət eləyib dərdləşməkdən başqa heç bir məqsədim yoxdu, baba! – Zəlimxan bu dəfə elə müqəssir dilləndi ki, qoca istər-istəməz gözlərini yerə dikdi, qaşlarını çatdı. – Keçən il mənə qulaq asmadın. Bu il də belə top-tüfənglə qarşılayırsan. Niyə soruşmursan ki, ay oğul, dərdin nədi, bir ətraflı danış, izah elə görüm, beş il nişanlı qaldığın bir adamdan niyə üz döndərirsən?! Qaraxanın qızları mənə yazıblar ki, "baba hər gecə sənin kitabından bir səhifə oxutdurub qulaq asır, sonra yatır". Oxudum o məktubu, gözlərim doldu, baba. Xəyalıma gəldi ki, bayaq burda uzandığın kimi arxasıüstə uzanmısan, Məryəm qiraətlə oxuyur,

sən qulaq asırsan. O məktubda mən sənin ürəyini gördüm, baba. Həm bir ata kimi, həm də insan kimi, gözəl ürəyini gördüm. Çünki onda mən səni başa düşdüm. İndi isə, açığı, başa düşmürəm. Nə olar bir az da mənim özümə qulaq asasan. Mən kitab deyiləm, canlı insanam!.. Gecəni gündüzə qatıb dalbadal məqalə yazıram, adamları ədalətə, ucalığa çağırıram, əmma özüm öz taleyimi həll eləyə bilmirəm. Belə olmaz, baba!..

Qoca, nədəncə, birdən qızarmış gözlərini qaldırıb pəncərədən talanın alaqaranlığına baxdı, Zəlimxana elə gəldi ki, atası qəhərləndiyini gizlətməyə çalışır. Əmma qocanın səsindən nəinki qəhər, heç adi kövrəklik də hiss olunmadı.

– Yaxşı danışırsan! Danışmağı başarırsan!..

Zəlimxan köksünü ötürdü.

– Mən sənin qabağında heç vaxt belə açıq danışmamışam, baba. Bilirsən ki, hörmətini saxlamışam, həmişə pərdə gözləmişəm. İndi məcburam açığını deyim ki, bu işdə səndən də, qardaşımdan da əvvəl mənim sözüm eşidilməlidi. Axı ömür-gün sövdasıdı bu, baba!..

Qoca əlini cibinə atıb təsbehini çıxartdı. Zəlimxanın ürəyində ümid qığılcımı yandı: təsbeh ki ələ gəldi, demək təmkin qəzəbi üstələməlidir.

Əmma zənni düz çıxmadı; qoca təsbehi şaqqıldadıb, yenidən alışdı:

– Ömür-gün sövdası!.. Sizdən olsa ömrünüzü subaylıqnan çürüdərsiniz, o dünyaya da subay gedərsiniz! Mən sizin o aya, ulduza uçurtduğunuz quyruğu tüstülü şeytan əməlindən-filandan, yerdə oturub göynən əlləşməyinizdən baş açmasam da, özünüzün dabbaxda gönünüzü tanıyıram! Sürçəkləyib xarab olubsunuz! Ailə düşmənisiniz hamınız! Barmağımı qatlayıb saymışam, təkcə bu meşənin içində, Qaraxanın o şitillikdə işləyən fəhlələrinin arasında bircə düjün gözüyaşlı gəlin var. Hardadı onların ərləri, hə?! Deyə bilərsənmi, canlı insan?! Canlı insan o göz yaşlarını da görər, tək öz canının qeydinə qalmaz! Niyə dillənmirsən?! Sizi şəhərə yollayıb ondan ötrümü oxuduruq, ondan ötrümü alim, kitabyazan eləyirik ki, bir Quran çərəkəsiycən söz yazmamış, çanaqdan çıxmamış çanağınızı bəyənməyəsiniz, bizim su sonası təki gözəl-göyçək balalarımızı bu meşənin içində gözüyaşlı qoyasınız, dizdən yuxarı tuman, açıq baldır dalınca düşəsiniz?! Hə, nə söhbət eləmək istəyirsən sən

mənnən?! Sənin yəni sözün də var?! Ay uşaq, harda qırılıb batıbsınız! Bir tikə çörək gətirsəniz, a qırılmışlar!

Qocanın pəhləvan nərəsindən lampanın alovu uzanıb-çəkildi. Bu zəhm, hökm Zəlimxanın olan-qalan ümidini də alt-üst etdi. Demək yeganə çıxış yolu yenə də evdən baş götürüb getməkdə idi?!

Elə bil tale özü lap uşaqlıqdan onu bu evə yovuşdurmaq istəmir.

Atasının ən incə cizgilərinə qədər doğma sifətinə son vidaya bənzəyən təəssüflü, qəmli bir nəzərlə baxıb yavaş-yavaş qapıya yeridi.

Demək, yenə gedir. Qocanın iradəsində tərəddüd əmələ gətirəsi bir cümlə, bir kəlmə də demədən, eynilə keçənilki kimi çıxıb gedir. O gedişlə indikinin arasında bircə fərq var ki, onda Zəlimxan bu qapıdan sarsıntıdan tamam kütləşmiş, elə bil iflic olmuş beyinlə çıxmışdı. O biri otaqda əlinə-ayağına dolaşan qızların ondan nə istədiklərini də dərk etməmişdi. İndi isə o kütlük, ağırlıq yox idi. Əksinə, çox aydın və sərrast fikirləşirdi: "Sənnən danışmaq mümkün deyil, baba. Qayasan, qranitsən, baba!.. Hm, di gəl inan ki, dodaqlarının tərpənişinə, saqqalının titrəməsinə qədər doğma olan bu adamla sənin aranda bu qədər dərin uçurum var!"

– Xudahafiz, baba... – Zəlimxan yenidən qapıya meyilləndi. Həmin dəqiqə də Sabit Mayılovun ən çox qorxduğu, Zəlimxanın isə heç gözləmədiyi bir hadisə baş verdi.

Astanada şəvə gözləri qeyri-adi parıltı ilə yanan, solğun, zərif bir qız göründü. Zəlimxana kinli bir nəzər salıb, nəm kirpiklərini endirdi, iti, əsəbi addımlarla yeriyib qocanın qarşısında dayandı, görünür ki, təmkinli olmağa, öz ləyaqətini qorumağa çalışaraq, qanı qaçıb göyərmiş dodaqlarını bir-birinə sıxıb yerə baxdı. Əmma nə bu nazikcə, solğun sifətə, nə bu nəm kirpiklərə, nə də xırdaca döşlərin arasında, qırmızı ipək koftanın yaxasına sıxılıb titrəyən balaca əllərə təmkin yaraşırdı; Zümrüd kim bilir necə bir gərginlik hesabına, nəhayət, dodaqlarını tərpətdi və təəccüblüdür ki, doğrudan da, təmkinlə dilləndi:

– Baba, bağışla, həyasızlıq eləyirəm. Mən çölə atılmamışam... – Nazik, titrək səs yarıda qırıldı.

Qocanın elə bil beli sındı. Bir neçə gün əvvəl o, Zümrüdü atası evindən gətirməyə gedəndə, Əziz Mayılov da eynilə bu sözlərlə söhbətə başlamışdı: "Mənim uşağım çölə atılmayıb, – demişdi. –

Aparırsan apar, öz evidi, getsin. Əmbə gəlin kimi yox, ailənizin doğma uşağı kimi...”

Qoca birdən-birə tor görən gözlərini Zümrüdün dodaqlarından ayırmırdı. Əmma qız deyilməli sözünü deyib qurtarmışdı... Hələ Zəlimxanın içəri girdiyi dəqiqədən pəncərəni ehtiyatla aralayıb, eşikdə, talanın iliyə işləyən rütubətli soyuğunu hiss etmədən, ata ilə oğulun mübahisəsini dinləyə-dinləyə hazırladığı, etirazla dolu odlu-alovlu sözlərdən beşdən birini belə deməsə də hər halda fikrini çatdırmışdı. Bir-ikicə kəlmə də danışsaydı, ağlaya bilərdi. Əmma nə onun haqqını müdafiə edən bu qocanın, nə də ondan üz döndərən oğlanın qarşısında ağlamaq istəmirdi. Buna görə də susdu. Sağ əli yavaşca açıldı, əti kəsib orda yuva salmış nişan üzüyü taqqıltı ilə döşəməyə düşdü, sanki həyasından qızara-qızara diyirlənib xalının saçaqlarının altında gizləndi. Qız isə qəfil gəldiyi kimi, qəfildən də dönüb otaqdan çıxdı. Bu elə bir sürəkli gediş oldu ki, hətta Zəlimxan içərinin tərpənib-dalğalanan havasını üzündə hiss etdi...

O biri otaqda hamı ayaq üstə idi. Qaraxan, Səriyyə bacı, qızlar, Kərəm Mayılov, onun sağ-solunda çaşqın, susqun adamlar... Ata ilə oğulun arasında nə oldu? Zümrüd belə hara yüyürdü?.. Dəqiqələr ötür, heç kəs sükutu pozmağa cəsarət eləmirdi.

Pilləkəndən ayaq səsləri eşidildi. Gələn adam deyəsən aradabir yıxıldı, qalxıb yüyürdü. Qaraxanın böyük qızı idi. Azacıq sarıya çalan şabalıdı hörükləri açılıb, ucu iri sümüklü, dolu bədəni uzunu səpələnmişdi. Boz çit koftanın yaxası açılmışdı, iri, hündür döşlərinin arası görünürdü. Səhərdən-axşama qədər həyətdə anası ilə çiyin-çiyinə çalışıb, ailənin qurtarmaq bilməyən iş-gücünün ağırlığı altında heç yana, heç yerə tələsməyən bu yorğun, susqun Məryəmin belə gözlənilməz təlaşı əvvəlcə təəccüb doğurdu. Sonra içəridəkilər onun nə isə bəd xəbərlə gəldiyini hiss edib tərpənişdilər.

Qaraxan irəli yeridi.

– Bu nə vid-fasondu! Nə olub sənə?!

– Qaçdı...

– Kim?!

– Zümrüd qaçdı.

– Hara?!

– Bu yana, Qarasuyun axarına sarı... Qızları çağırdım, yolunu kəsdik, əlimizdən çıxdı...

Məryəm istiyə-soyuğa düşməkdən dərisi ağac qabığı kimi codlaşmış iri əlini elə bil çətinliklə qaldırıb alnının tərini sildi. Solğun bənizli, zərifcə Zümrüdün bu cür bir əldən qopa bilməsi onun necə qaçdığı barədə aydın təsəvvür oyatdı.

Məryəm elə bil ölüm xəbəri gətirmişdi. Qaraxan özünü itirib döyükürdü. Səriyyə bacı kəlağıyısının ucunu gözlərinə yaxınlaşdırıb başını aşağı salmışdı. Qızlar orda-burda hıçqırışırdılar.

Hələ bayaqdan, üzüyün yerə atıldığı dəqiqədən beli əyili duran qoca indi bir az da əyilmişdi. Təkcə Zəlimxan əvvəlki kimi gərgin və düşüncəli idi.

Kərəm kişi dirsəyi ilə əvvəlcə sağ, sonra sol böyründəki meşəçiyə toxunub qapıya işarə etdi. Tələsik çıxıb hara isə getdilər. Zığıldaşan, titrəşən bacılarına elə bil nifrətlə baxıb, üst-başını düzəldən Məryəm də dönüb həyətə düşdü.

Zəlimxanın səssiz addımlarla, hiss olunmadan bu biri otağa keçib paltarasılandan plaşını və kepkasını götürdüyünü görəndə qızların qısıq hıçqırtıları hönkürtüyə çevrildi. Qoca o yanda dikəlib əllərini belinə qaldırdı. Qaraxanın dodaqları səyridi. Əmma Zəlimxanın ötəri baxışı necə baxış oldusa, böyük qardaş səsini çıxarda bilmədi, pilləkəndən düşən qardaşının arxasınca yönəlmək əvəzinə atasının üstünə yüyürdü.

– Neyləyim?! Bir məsləhət ver!

Sabit Mayılov qısaca əmr verdi:

– Qızı qaytarın!

Mayılovlar ailəsində görünməmiş bir çaxnaşma başlandı. Gündüzlər aramla xışıldayan, gecələr isə çox zaman küləksiz qalıb dərin sükuta batan meşə içində bəlkə də ilk dəfə hamı ayağa qalxdı, adi vaxtlarda öz qalın kürkünə bürünüb, idarənin dəhlizindən kənara çıxmayan gözətçi Mirələm kişidən tutmuş, Qaraxanın ov tulası Çapığa qədər, hamı yola-izə düşdü, rayonda, demək olar ki, ən hörmətli adam sayılan Əziz Mayılovun təkcə övladı, birdən-birə bütün meşəçilər üçün başdan-ayağa müəmməya, möcüzəyə çevrilən Zəlimxan Mayılovun keçmiş nişanlısı Zümrüdü axtarmağa çıxmayan bir nəfər də qalmadı. Yalnız səhərisi, gün doğub Böyüktalanın şehini qurutmağa başlayanda, fin evinin qabağında maşından düşən Qaraxan, qızın gedib şəhərə, atası evinə çıxdığını xəbər verdi.

Şıq süvari qaməti əyilib, beli donqarlanmış, oynaq gözləri durğunlaşmış Qaraxan, həyətə toplaşmış adamların birinə də baxmadan,

yas içində susub kənara çəkildi: arvadının, işçilərinin suallı nəzərlərini üzündə hiss etdikdə, olub-keçənlərin günahının hamısı təkcə onda imiş kimi, başını bir az da endirdi.

Bu vaxt Sabit Mayılov bütün meşəçilərin gözü qabağında Zəlimxana üz tutdu:

– Çıx get, bala... mənim Zəlimxan adında oğlum yoxdu. Zəlimxan ölüb, sən onun qaraltısısan! – dedi. Sonra böyük oğluna sarı döndü:

– Qabağına durma! Eşidirsənmi?! –dedi və gözünün ucu ilə də arxaya baxmadan, pillələri qalxıb, öz otağına girib qırmızı palıd taxtasından, ağır qapını arxasınca çəkdi...

Zəlimxan bütün gecəni meşədə gəzdiyinə görə yağışdan çıxmış kimi islanıb əprimiş plaşının boynunu qaldırdı, kepkasını qaşlarının üstünə basıb akasiyalığa doğru yönələndə, Qaraxan onun arxasınca bir neçə tərəddüdlü addım atıb dayandı: Niyə? Atasının hökmünə görəmi? Yoxsa, özü baş verən müsibətdən sonra qardaşının qabağına durmağı mənasız hesab etdi?

Bu suallar Zəlimxanın beynində dolandıqca addımları daralırdı. Qəribədir ki, akasiyalıqdan çıxana qədər hər dəqiqə Qaraxanın arxadan yetişəcəyini gözləyə-gözləyə getdi. "Qaqaş, qurbanın olum, qayıt, belə getmə! Qardaşıyın balalarının göz yaşına qıyma! Qayıt, qurbanın olum!" – Qaraxanın məhz bu sözlərlə onu dilə tutacağını gözləyə-gözləyə, dünən üstünə siqaret basdığı kötüyün yanından da ötdü, arxadan səs-səmir eşidilmədi.

Torpaq yolun meşədən çıxıb asfalta qovuşduğu yerə çatanda ümidini tamam kəsdi və burda birinci dəfə dönüb geri baxdı. Bomboz, otsuz-ələfsiz düzəngah, getdikcə daralan kimsəsiz yol, saralan meşə... Günəşin təzəcə ucaldığı, soyuq və təmiz havalı bu payız səhərində lap uzaqlarda yolun çala-çuxurları, maşın izləri ilə əl içinin cizgiləri qədər yaxın və aydın görünürdü. Böyüktala da elə bil yüz-yüz əlli addımlıqdaca idi. Orda, meşənin üzərində dümdüz, ağ tüstü sütunları qalxırdı. Bu sütunlar lap yuxarılarda da ayrı-ayrılıqda, nazilə-nazilə göyün dərinliyinə millənirdi.

Zəlimxanın üzgün beynindən bir fikir keçdi. Böyüktalada uşaqdan böyüyə, adətən, hamı quşlarla birgə oyanır, hələ hava qaranlıq ikən ocaqlar qalanır, günün bu vaxtında artıq hərə öz işinə-gücünə gedir, od-ocaq sönmüş olur. Bu gün orda həyat tərzi dəyişib. Şübhəsiz

hələ atlar yəhərlənməyib, hamı narazılıqla gözünü ocağa dikib. Bütün bu narahatlığın səbəbkarı, günahkarı isə... Zəlimxandır?! Niyə? Belə bir təəssürat hardan meydana gəldi?..

Dümdüz sütunlar çaxnaşıb bir-birinə qarışdı. Zəlimxan əlini alnına aparıb, hələ şüurunu itirməmiş, ayaq üstə ikən, dünən səhərdən, teleqram alandan bəri dilinin arasından heç su da keçmədiyini və yuxusuzluğunu ağlına gətirmədən fikirləşdi ki, yarımca saat əvvəl atasının o cür dəhşətli hökmünü tamamilə soyuqqanlı dinləyib, keçən ildən bəri cərəyan edən hadisələrin təbii məntiqi nəticəsi kimi qiymətləndirdiyi və bu vaxt acı təəssüf hissindən başqa heç nə duymadığı halda, indi ona nə oldu? Yoxsa, dünən axşam atasına xəbərdarlıqla dediyi "fəlakətin" dəhşətini yalnız indi duydu?.. Bundan o yana daha heç nə fikirləşə bilmədi. Gözünü açıb ona nə olduğunu başa düşəndə Zəlimxana elə gəldi ki, burda dayanıb arxaya baxdığı dəqiqədən sonra bir neçə saat keçib, deyəsən elə oturduğu yerdəcə yatıb. Əmma qəribə idi ki, günəş bayaqkı yerindəcə dururdu. Böyüktalanın üzərində tüstü sütunları da eyni qayda ilə yüksəlirdi. Yoldakı təkər izləri eyni aydınlıqla görünürdü. Ora yenə də kimsəsiz idi, o, Zəlimxan isə burda, yol ayrıcında, yurdsuz-yuvasız bir yolçu kimi oturmuşdu.

Demək, fəlakət!

Fəlakət onda idi ki, atası, camaatın gözü qarşısında onu oğulluqdan çıxarmış, evdən qovmuşdu. Göylər yerə enər, Sabit Mayılov dediyindən dönməz!.. Fəlakət bunda idi ki, Qaraxanın gözəl, uca qaməti əyilmişdi, beli donqarlanmışdı... Fəlakət bunda idi ki, indiyə qədər hamının qibtə ilə baxdığı Mayılovlar ailəsinə çaxnaşma düşmüşdü, ümidsizlik, kədər gəlmişdi. Bu ailənin çörək qazananını, sevimlisini dumanlı təhlükə gözləyirdi. Dumanlı, əmma labüd təhlükə! Zəlimxan indi buna inanır və haraya isə, kimə isə müraciət etməyə, qardaşının taleyi ilə maraqlanmağa ehtiyac duyurdu. Başını itirib, özünü dağa-daşa vuran, qətrəhm qardaşın taleyi ilə!.. Böyüktaladan yol ayrıcına qədər ayaqlarını sürüyə-sürüyə gəlməsinin, hər dəqiqə Qaraxanı gözləməsinin səbəbi elə bu idi. Yalnız bu? Zəlimxan illər uzunu beşaçılan gurultuları ilə dolu, üzüntülü təmkinini itirmədən ardıcıl gərginliklə diqqətini cəmləməyə, beynində qu tükünə çevrilib üzən bir fikri tutmağa çalışdı və tapdı ki, Qaraxanı gözləməsinin bir səbəbi də Zümrüd haqqında yeni düşüncələridir.

Nə qədər təəccüblü olsa da, həqiqət belə idi ki, indi o, Zümrüdün qarşısında özünü günahkar kimi hesab edirdi. Təəccüblü yox, bu heyrətli idi. "Mən çölə atılmamışam!" – deyən o titrək, eyni zamanda qürurlu səs hələ də Zəlimxanın qulaqlarında idi; Zümrüdün baxışları, o sürəkli gedişi Zəlimxanı nədə isə təqsirləndirirdi. Dəqiqələr ötdükcə, o özünü daha çox günahkar hiss edirdi. Əmma indi bu hissin izahını sonraya saxlayıb, hekayəmizin gedişinin ləngiməsi bahasına olsa da, keçmişə qayıtmalı və bir sıra başqa təfsilatlar danışmalıyıq. Çünki əslində, hekayə elə bu təfsilatlardan ibarətdir.

## *Birinci təfsilat*

### ZÜMRÜD

Sabit Mayılovun at belində, qucağında gətirdiyi qızcığaz nə qədər tez-tez "Mamamı istəyirəm!", "Mamamı istəyirəm" – deyirdisə, qoca da bir o qədər tez-tez onu Qaqaşla əl-ələ tutdurub Qarasuyun qırağına gəzdirməyə çıxarardı. Böyüktala, fin evi, qazma damları, ocaqları ilə Zəlimxanın gözlərində necə daimi həkk olunmuşdusa, Qarasuyun qırağı da eləcə həkk olunmuşdu. Xüsusilə, axşamlar ay aydınlığında gəzinəndə gördükləri. Altında ocaq qalanmış kimi, buğlanan Qarasuyun dumanı sazağın istiqamətində sürünəndə meşə təsərrüfat idarəsinin binası ilə ətrafdakı xırda tikililər dumanın içində elə bil asta-asta sağa doğru üzər, arxada qaralan meşə isə əks istiqamətdə fırlanardı. Ay dumanının üzərində nazik bir layı gah cəhrayı, gah da dümağ boyayırdı. Zəlimxana elə gələrdi ki, oraya ara-bərədə xal-xal solğun, uzun çit parça salınıb. Babanın Böyüktalada qəribsəyib "mama"sını, "papa"sını istəyən qızcığaza danışdığına görə o "çit parça"nın altında, Qarasuyun qışda isti, yazda, yayda sərin sularında "elə Zümrüd bala kimi gözəl-göyçək" su pəriləri yaşayırdılar. Gündüzlər "çit parça"nın altında gizlənən, gecələr isə sudan çıxan çılpaq pərilər həmin "çit parça"nın üstündə oturub uzun-uzun saçlarını darayırlar. Ay batmamış hörüklərinin dolaşığını aça bilməyənlər səs-səsə verib ağlaşırlar, açanlar isə, parçanın bir tərəfində oynaşıb gülüşürlər.

Dörd il bundan əvvəl, universitetin ikinci kursunda oxuyarkən Zəlimxan öz nazikcə hekayələr kitabı ilə bütün Mayılovları sevindirəndə meşəçilər həmin əfsanəni bu kitabçanın səhifələrində oxumuşdular. Hələ o vaxtlar baba hər gecə o kitabçadan qiraətlə oxutdurub dinləməyə vərdiş eləmişdi. Qaraxanın isə sevincinin həddi-hüdudu yoxmuş. Dostu-tanışı çağırıb böyük şadlıq məclisi düzəltmək istəyirmiş. "Bu bizim qanımızda var, qanımızda! Yazıq anam elə anadangəlmə şairdi, hər ota, hər çiçəyə bir söz qoşurdu, qafiyəynən danışırdı: "Günəbaxan günə baxar, dibindən sular axar, oğlum bir də Səriyyəni vursa, anasını yandırıb yaxar". – Anamın sözləridi! Mən ömrümdə bircə dəfə Səriyyəyə əl qaldırmışdım, belə, barmağımın ucuynan vurmuşdum. Anam da mənim onsuz da yumşaq ürəyimi yumşaltmaqdan ötrü söz qoşmuşdu" – Qaraxan aramsız ötərdi ki, qardaşının kitabçası heç də təsadüfi deyil.

Böyük qız Məryəmdən başlamış altıncı qız Bəbəyə qədər hamısı "ağlaşan, gülüşən pərilər"i əzbər bilirdi. Bütün Böyüktalada Zəlimxanın yazdığına dodaq büzən, "Babanın danışdığını mən də yazaram!" – deyib rişxənd edən yeganə oxucusu vardı ki, o da Zümrüd idi.

Kitabçanın çıxdığı vaxtlar, yəni ikinci kursda oxuyanda Zəlimxan Zümrüdə demək olar ki, tamam laqeyd idi, hətta ondan acığı gəlirdi. Zümrüd elə işlərmi tuturdu ki, acığı gəlməyəydi? İlin yarısını şəhərdə, atası evində, yarısını meşədə keçirdiyinə görə Qaraxanın qızlarının "iki evli pişik" adlandırdıqları bu arıq, balacaboy qız doğrudan da pişik kimi bir şey idi; səhərdən axşamadək qazmaların belində, ağacların başında gəzirdi. Damdan hər gün bir qurut yox olurdu. Kimin işidir? Zümrüdün! Badyada südün qaymağı yalanıb. Kimin işidir? Əlbəttə, Zümrüdün! Qışda kanikula gələndə Zəlimxan səhər-səhər oyanıb çəkmələrini tapmırdı. Acığından, başqa ayaqqabı geyinməyib, dizə qədər qara bata-bata, qıçları göynəyə-göynəyə gedib Zümrüdü tapırdı. Zümrüd: "Vay, vay! Sənin çəkmələrindirmi?" – deyib gözlərilə uyuşmayan itaətlə, dərhal çəkmələri çıxarıb, onun qabağında cütləyib yazıq-yazıb boynunu bururdu:

– Bəs mən indi ayaqyalın necə qayıdım, ay qaqaş, bu qarda?

Zəlimxan dinməzcə, yaş ayaqlarını zorla çəkmələrə salıb nəfəsini dərirdi.

– Necə mən gəlmişəm, elə də sən qayıt! – deyib vaxtilə Qarasuyun qırağında gəzəndə də “Mamamı istəyirəm!” deməkdən usanmayan yetimlə bədrəftara dözməyib, yola düzəlirdi. Əmma beşcə addım aralanmamış geri qayıdırdı, dinməz-söyləməz əyilib qızı belinə götürürdü.

Zəlimxanın belinə toxunan xırdaca döşlərin titrəyişindən də bilinirdi ki, Zümrüd uğunub-keçinirdi. Səsi isə yalvarışlı çıxırdı.

– Bağışla, qaqaş, sənə yaman əziyyət verirəm...

Böyüktalaya yetişib evə yaxınlaşanda isə, birdən pişik cəldliyilə yerə atılıb, nazik, cingiltili qəhqəhə ilə, qardan, soyuqdan çəkinmədən qaçıb aralanırdı. Məlum olurdu ki, bütün bu oyun ancaq “qaqaşı minmək” üçün imiş. Niyə bir başqasını yox, məhz qaqaşı? Zəlimxan bu barədə heç fikirləşmirdi də. Soruşan olanda isə laqeydliklə əlini yelləyirdi: “Nə bilim? Başı batsın! Bir vaxt ağladırdı, indi güldürür hamını”.

Yazda səhərlər çəkmə əvəzində şalvar çarpayının başından yox olurdu. Hanı şalvar? Əlbəttə, Zümrüd geyib Qarasuyun qırağında tut ağacına çıxıb tut yeyir. Lənət sənə, şeytan! Neyləyəsən indi? Şalvarları Bakıda, yataqxanada! Əynindəki də belə! Yeniyetmə oğlan durub dizliyi ağara-ağara düzə düşsün?! Məcbur olurdu ki, Məryəmin, ya da Səriyyə bacının şalını belinə dolayıb Qarasuyun qırağında, tut ağacının altında dayanıb mat-məəttəl yuxarıya tamaşa etsin.

– Əcəb zəmanədi, Zümrüd xanım, qızlar şalvar geyinir, oğlanlar yubka.

– Sən ki, yubka geyinməyibsən, ay qaqaş. Mən heç razı olarammı sən təkin gözəl oğlan yubka geyinsin!

–Gözəlliyin, çirkinliyin dəxli yoxdu məsələyə, – Zəlimxan “gözəl oğlan” sözlərindəki açıq eyhamdan pərt olub yan-yörəyə boylanırdı. – Soyun şalvarı tulla bəri, ay qız! Dərdim-azarım var.

Qız usanmırdı.

– Bıy, Allah məni öldürsün, nə dərdin var sənin, ay qaqaş? Səni ki, Xan əmi bəy balası kimi saxlayır, səhərdən axşamacan elə kitab-dəftərnən oynayırsan, o nə dərd-azardı mən bilmirəm, qaqaş?

Zümrüd budaqdan sallanıb şalvarın balaqlarını yellədir, sonra ağacın haçasında qəsdən ləng hərəkətlə, səliqə ilə əyləşib qıçını qıçının üstə aşırırdı.

– Adam bunda elə ləzzətnən oturub-durur ki qaqaş. Yubka da sənə ləzzət verirmi?

Hirslənməmək mümkün olmurdu.

– Zümrüd, qurtar! Bəsdi məni oynatdın! Camaatdan ayıbdı!

Zəlimxan "yubka"nın arasında qıçlarını utana-utana, ehtiyatla ata-ata ağaca dırmaşmağa məcbur olurdu. Məsələnin ciddiləşdiyini görəndə, nəhayət, Zümrüd yenə itaət göstərir, şalvarı çıxarıb sahibinə qaytarırdı.

Bütün bunlar Zəlimxan üçün adi şıltaqlıqdan, dəcəllikdən, qaqaşa ərkdən başqa bir şey deyildi. Əmma bir dəfə...

Bir dəfə axşamın aydınlığında Səriyyə bacı qızlarını başına toplayıb Qarasuyun qırağında qaynar[1] asmışdı. Zəlimxan ailənin buraya yığışdığını bilirdi. İdarənin yaxınlığında, "Rusetdən göndərilmiş fəhlə qızlar üçün tikilmiş baraklarda[2] həmin qızların həyatı, məişəti barədə söhbətlərdən qeydlər götürüb qayıdanda ocaq tərəfə buruldu. Belə sərin, aylı-ulduzlu yay axşamlarında o heç vaxt evə baş salmaq istəməz, meşədən əl-ayaq tamam çəkilib, ağacların arasında ancaq tək-tük sirli şıqqıltılar eşidilən saatlarda yavaş-yavaş gəzib-dolanmağı, kötük üstündə, təpə belində oturmağı, Qarasuyun otlar üzərinə narın şeh düzə-düzə sürünüb çökəklərdə yatan, zolaq-zolaq duran ağır, tənbəl dumanına, çinarların, palıdların ulduzlara yüksələn sakit əzəmətli budaqlarına tamaşa eləməyi çox sevirdi. Qaraxan hələ o vaxtlar qaqaşının başını sığallayaraq, bir növ peyğəmbərlik eləyib: "Axırda səndən əla qələm adamı çıxmasa, mən bu dünyadan heç nə qanmıram. Nə qədər ki qardaşıyın ayağı üzəngidədi, sən gəz, qurbanın olum", – demişdi. Əslində, elə bu sözlər də Zəlimxanda yorulmaq bilmədən gəzib-dolaşmaq, rus qızlarının özlərinin işlətdikləri "neofitsialnaya ssılka" – "qeyri-rəsmi sürgün" ifadəsi altında gizlənən həyatı öyrənib yazmaq həvəsi oyatmışdı.

Əmma o axşam, yəni Səriyyə bacının qaynar asdığı axşam Zəlimxanı Qarasuyun dumanının zolaqları arasında nəmlənən baraklara, ordan da seyrək kol-kos arasında yazı-pozu həvəsi şölələnib çataçat yanan ocağın yanına çəkib aparan heç də adi həvəs deyildi.

---

[1] Axar su sahilində paltar-palaz yumaq üçün qaynar (*qazan*) asmaq

[2] Müvəqqəti yaşayış üçün taxta "olacaq"lar – evlər

İki gün əvvəl meşəçilərin arvadları fin evinin həyətində, kölgəlikdə kilim sərib çubuqla yun çırpırdılar. Zümrüd adətinin əksinə bir yanda səssizcə oturub maddım-maddım gah Zəlimxana, gah da arvadların əllərində vıyıltı ilə havanı yarıb küt tappıltı ilə yunun içinə cuman çubuqlara baxır, elə bil sakitliyindən və yaşmağı burunlarının üstünə çəkib yunun tozundan qorunan qadınların ciddiyyətindən darıxırdı. Zəlimxan onun belə dinc, hətta bir qədər qəmli oturmasına təəccüblənirdi: "Bu qızdan nə əcəb?" Zümrüd elə bil onun fikrini duydu və birdən dik atılıb, indiyə qədərki hərəkətlərinin hamısına şükür oxutduran bir hərəkətlə Zəlimxanı mat-məəttəl qoydu: əvvəlcə Kərəm kişinin özündən iki dəfə cavan, qırmızıyanaq arvadının çubuğu endirdikcə tərpənən ağır döşlərinə baxdı, sonra Zəlimxana ani, oynaq bir nəzər fırlatdı və... gözlənilməz, həm də anlaşılmaz bir hərəkət – iki cəngə yun götürüb, çit donunun yaxasından içəriyə təpişdirdi, sinəsinin üstündə, sağ-solda yumruladı, parıltılı qara gözlərini Zəlimxana dikib, qarayanıq əllərinin uclarını yumurlanmış döşlərinə vura-vura güldü: "Bax, bax, qaqaş!.." Arvadlar əl saxlayıb yerbəyerdən hoqquldaşdılar: "Bıy, sənin günün qara gəlsin!" "Az, bu batmış neylədiyiydi?.." təkcə Səriyyə bacı yaşmağın altında gülürdü. "Üç-beş yaşımızda ər-arvad oynayırdıq hamımız. Yadınızdan çıxıb?" Qazmaların alçaq çardaqları altında kölgələnən kişilər, oğlanlar da, dindən, mövhumatdan uzaq, qoca ərbeşiklər də qaqqıldaşırdılar. Zəlimxan isə, ömründə bir kəsə bir kəlmə ağır, acı söz belə deməmiş bu sakitcə oğlan isə, bu dəfə yerindən necə qəzəblə atıldığını, şapalağı necə çəkdiyini bilmədi. Tək onu hiss etdi ki, bayaqkı parıltılı, təbəssümlü gözlər indi geniş açılıb, heyrətlə onun üzünə dikilib, güllü-çiçəkli çit donun altında sinəni hündürlətmiş bir cüt yun cəngəsi tez-tez qalxıb enir... Zəlimxan əziz, ərköyün əmiqızının yanaqlarından süzülən iri damlaları görər-görməz beynində beşaçılan guruldadı: indi də Əziz əminin yeganə övladını öldürmüş kimi, başdan-ayağa tir-tir əsdi. Zümrüd isə birdən yenə dəyişdi; yun çəngələrini çıxarıb kilimin böyrünə tullayıb, kürəyində bir cüt hörüyü atıla-atıla qaçıb Böyüktaladan çıxdı, ağacların arasında yox oldu. Çox keçmədi ki, Sabit Mayılov oğlunun başının üstünü qara quş kimi aldı: "Qızı niyə vurubsan?" Böyürdən Məryəmin qalınaraq səsi eşidildi: "Pambıqdan döş düzəltmişdi özünə!" Qızların hamısından kiçik, beş

yaşlı bəbə Məryəmin sözünə düzəliş verdi: "Pambıqdan yox, deyirdi, yundan məmə düzəldəcəm özümə, qaqaş baxsın". Qoca gah Bəbəyə, gah da Zəlimxana baxa-baxa, birdən qəhqəhə çəkdi. "Ay qeyrət dağarcığı, nə olar məmə düzəldəndə? Sən özün qarğıdalı saçağından bığ qayırmırdın?.. Bax, yadında saxla! Əzizin balası bu evdə hamınızdan əzizdi! Bir də mənim Zümrüd balamın xətrinə dəysən qulaqlarını çəkib bir qarış uzadaram. Aydındı?!"

Zümrüdün heyrətlə dolu gözləri, yaşlı yanaqları iki gün Zəlimxanın xəyalından getmədi. Tez-tez enib qalxan hündür sinə, kilimin böyrünə atılan yun çəngələri hətta yuxusuna girdi. Biləyindəki sızıltı düz iki gün ona öz qəbahətini xatırlatdı: Niyə vurdu axı?! Altı yaşında ikən Məryəmin ardınca məktəbə – birinci sinifə getdiyi gündən bəri, on səkkiz yaşlı gənc sayıldığı bu günə qədər, Kərəm əminin Məmlük adlı oğluna, yəni öz şən, oynaq, gözəl səsli yoldaşına həmişə yalvarmırdımı ki, "Məməli" oxusun? Və Məmlük sinifdəki qızların arasında "Hoppur-hoppur məməlim" mahnısını oxuyanda hamı ilə birlikdə bu "qeyrətdağarcığı" da "qəşş" eləmirdimi, yəni uğunub keçinmirdimi? İndi niyə vurdu?! Əzizərköyün əmiqızının zarafatında nə isə başqa şey – ciddi niyyət gördü, ya nə?! Qarasuyun qırağına, sakit-sakit buğlanan qaynar qazanın yanına gedəndə, Zəlimxan artıq üzr istəməyə hazır idi. Xəcalətindən ilk addımı atmağa çətinlik çəksə də qəti qərara almışdı ki, Səriyyə bacını vasitəçi eləsin. Əmma Zəlimxan nə Səriyyə bacıya bir söz deməyə imkan tapdı, nə də ki, kol-kos içində oynaşan qızların arasında Zümrüdü seçə bildi: onun gözləri idarə tərəfdə yerə yatmış ağ dumana dikildi. Azca bundan əvvəl bu dumanın içindən keçəndə, o istər-istəməz öz uşaqlığını, ağlaşan, gülüşən pərilər haqqında əfsanəni xatırlamışdı. Zəlimxan belə hesab edirdi ki, bu meşədə nə cür desən möcüzə baş verə bilər: Kərəm əminin qaynının – yalançı İbişin uydurduğu kimi, burda lap ağ ayı da görünə bilər. Əmma əfsanənin həqiqətə çevrilməsi?! Duman içində gördüyü qəribə məxluqdan gözlərini ayırmadan əlini uzadıb Səriyyə bacının dirsəyindən yapışdı, bədəninin çimildədiyini, saçlarının necə tərpənib qabardığını hiss edib qışqırmaq istəyirdi: "Pəri! Dəli Pəri!" – Səsi çıxmadı... Əfsanəyə və kitabçadakı hekayəyə görə, ağlaşan-gülüşən pərilərdən biri nə zamansa saçlarının

dolaşığını aça bilməyib bacılarını köməyə çağıranda səsə böyürdən bir çoban çıxıb onun hörüyünə toxunmuşdu. O zamandan, yəni saçına bəni insan əli dəyib "günaha batdığı" gündən Pəri dəli olub, dəstədən ayrılıb meşələrə düşmüşdü, hər gecə günahının bağışlanması üçün gəlib gölün qırağında ayaqlarından asılır, bacılarınıa yalvarırdı. İndi həmin Dəli Pəri, eynilə Zəlimxanın təsəvvür etdiyi libasda – dümağ, uzun köynəkdə, qara saçları dağınıq, dumanın içi ilə yavaş-yavaş gölə doğru yaxınlaşırdı. Zəlimxan Pərinin ətəklərinin asta-asta yelləndiyini, köynəyinin üstündə gur saçlarının sağa-sola axdığını da görürdü. Pəri elə bil heç yerimir, dumanın içində üzürdü. Zəlimxan gözlərini yumub-açdı. Dəli Pəri isə yoxa çıxmaq əvəzinə, ay işığında, yumşaq duman içində üzə-üzə gölün o tərəfinə keçib, ordakı yemşən kollarının kölgəsində daldalandı. Zəlimxan indinin özündə də inanır ki, əgər o anda Səriyyə bacı gülüb, "Qorxma, hoppur-hoppursuzdu, deməsəydi və qızlar da gülüşməsəydilər, əməlli-başlı dəli ola bilərdi. Zümrüd yemşən kollarının arxasından çıxıb, qaça-qaça gəlib, çit donun üstündən əyninə taxdığı gen, uzun köynəyi Səriyyə bacının qucağına tulladı, dağınıq saçlarını başının cəld hərəkətilə kürəyinə atdı və Zəlimxanın qabağında dimdik dayanıb, öz qələbəsinə şübhə etməyən adamlar kimi, parıltılı, təbəssümlü gözlərlə ona baxdı. Yəni: "Hə, necəsən indi?!" Bu cür barışmağı heç gözləməyən Zəlimxan "əvəzi çıxdı", – dedi və həmin bu dəqiqədə də şübhəyə düşdü: axı, deyəsən, bütün bu oyunlarda doğrudan da ciddi niyyət vardı!.. Əmiqızının çör-çöpdən cızılmış balaca, qonur ayaqlarına, çit donun altından sümükləri hiss olunan zərif çiyinlərinə, nazik, uzun boğazına, dəcəllik, şıltaqlıqla birgə həm də uşaq sadəlövhlüyü ilə baxan parıltılı gözlərinə ilk dəfə diqqətlə fikir verdi. Dünənə-sırağagünə qədər Qaraxanın qızları ilə yorğan altında təpikləşən, qızlardan küsəndə özünü Zəlimxanın yorğanının altına salıb, böyrünə qısılıb "qaqaş, qaqaş", – deyib yaltaqlanan, gündüzlər isə atılıb-düşməkdən canaqana gəlməyən bu quru-taqqanaq Zümrüdün ürəyində gizlin döyüntülər vardı. Zəlimxan o qara parıltılı gözlərdə ilk dəfə həsrət də gördü. Güclü həsrət, istək! O, burda ilk dəfə həmin həsrət, istək qarşısında ürəyində titrəyiş duydu.

İlk məhəbbətin ilk qığılcımı beləcə alışdı...

Alışdı, əmma alova çevrilmədi.

Zəlimxan o qığılcımı ürəyində gizlədib özü ilə birgə Bakıya apardı və yay kanikuluna qədər canında o qığılcımın hərarətini hiss etdi.

Axırıncı imtahandan sonra auditoriyadan çıxanda yataqxanadan çamadanını götürməyə yüyürdü ki, qatara çatsın. "Sessiya" – imtahan günlərində əmiqızıdan məktubsuz konvertdə şəkil almışdı. Şəkilin altında yazılmışdı: "İndi bax, gör yundandı, ya yox?.." Qatarda bütün yolu tez-tez şəklə baxıb yazını oxuyub gülürdü. Fin evinin qabağında qızların marçamarçı qurtarandan sonra "hoppur-hoppursuz"un od dodaqları üzünə sehrli od yapışdırdı.

Sabit Mayılov ciddi, qürurlu görkəmlə oğullarını və Kərəm əmi ilə Məmlükü otağına dəvət etdi, xalının yuxarı başında, döşəkcə üstündə bardaş qurdu, qotazlı təsbehini çıxarıb imtahanlar, müəllimlər, yataqxanada oğlunun "çörək yoldaşları" haqqında bir növ hesabat aldı. Bu təfərrüatlı söhbət zamanı Zəlimxan yanağında daim od dodaqların təmasını hiss edirdi və atasının bu ləngərli söhbətindən darıxıb, otaqdan çıxmağa tələsirdi. Ailədə həmişə yaşına uyuşmayan ləngəri ilə seçilən Zəlimxan bəlkə də ömründə birinci dəfə belə tələsirdi. Atası nəhayət əlini saqqalına çəkib, eşiyə çıxmasına izin verdikdə, Zəlimxanın elə bil üstündən ağır yük götürüldü.

Həyətdə Məryəm, adəti üzrə, anası ilə yanaşı ocaq qırağında məşğul idi. Zümrüd paltarını dəyişib tox qırmızı şal don geyinmişdi, bir az kənarda, yayın bürküsündən azacıq ölüşgəyib yapıxmış göy otluqda Çapıqla oynayırdı. Biləklərindən tutub tulanı dal ayaqları üstə qaldırır, öz fındıq burnunu onun işıldayan burnuna toxundurur, şirin-şirin gülüb, gözaltı Zəlimxana baxıb səfeh-səfeh şeylər danışırdı:

– Qaqaş, mən heç Çapığın hürdüyünü eşitməmişəm. Sən bilən, tulanın adam kimi qaradinməzi olur, ya yox? Birdən elə bilərsən sənə sataşıram. Allah eləməsin. Məmlük deyir Zəlimxan qaradinməz deyil, içində danışır. Nə olar danışasan, görək içində nə danışırsan, ay qaqaş!

Qızlar yenə Zəlimxanın başına toplaşdılar. Bir-birinin sözünü kəsə-kəsə, gah pıçıltı ilə, gah da ucadan bir aləm xəbər verdilər. Demə, bu ötən aylar ailədə əməlli-başlı yeniliklər olub. İki dəfə elçi gəlib, ikisi də baş tutmayaıb. "Kimə? Zümrüdə?!" – Zəlimxan

yalnız bir dəfə uşaqlıqda bu cür ürək döyüntüsü duymuşdu. Unudulmaz beşaçılan gurultusu ilə bağlı olan o döyüntülər indi təkrar olunduqda, heç şübhəsi qalmadı ki, yeni bədbəxtlik baş verib: Zümrüd əldən gedib! Əmma o dəqiqə də fikirləşdi ki, axı "qızlar deyir baş tutmayıb", demə Kərəm əmi Zümrüdü şəhərə aparıb, orda ona dörd dəst bahalı paltar tikdirib, sonra babaya söz açıb ki, bəs Zümrüd balanı ya oğlu Məmlükə almaq istəyir, ya da böyük qaynı İbişə; qız özü hansını istəyir, ona da getsin. Əlbəttə, baba razılıq verməyib. Qış girəndən yaz açılana qədər burnunun ucundan su daman qrip İbiş hara, Zümrüd hara?! Ayağının biri baraklarda, rus qızlarının yanında olan Uxajor Məmlük hara, Zümrüd hara?! Yaxşı, bəs Zümrüd özü nə deyib?

– Zümrüd?.. Pişiyin könlü samanlıqdaydı, it də qovdu saldı ora. Zümrüd lap çoxdan saçını kəsdirmək istəyirdi.Kərəm əminin elçiliyini eşidəndə paltar qayçısını qapdı, hörüyünün ikisini də xırç eləyib kəsdi dibindən, hörüyün biri sağ əlində, biri sol əlində, yüyürüb evin o tərəfində yaxaladı Kərəm əmini ki, bəs "torbaşinel əmi, qaynın İbişnən oğlun Məmlük gödəksaç qız istəyərlərmi?"

Qızlar səs-səsə verib gülüşdülər. Tək Məryəm ocağın qırağında başını buladı. Zümrüd özü isə qımışıb, eyni parıltılı gözlərlə Zəlimxana baxdı. Zəlimxan bayaqdan onda nə isə bir dəyişiklik hiss edirdi, arada diqqət yetirir, tapa bilmirdi. Yalnız indi gördü ki, hörüklər yoxdur. Heyif! Doğrudur, boynunda, çənəsinin yanlarında qıvrılmış bu saçlar Zümrüdün sifətini bir qədər dolu və daha yaraşıqlı göstərirdi. Əmma o bir cüt sanballı hörük də pis deyildi.

Qızlar yenə də nə isə danışırdılar. Məryəmin, bir də Qaraxanın müavini qara Davudun adını çəkirdilər. Əmma Zəlimxan bu ikinci xəbəri çox pis eşidirdi; indi bütün diqqəti Zümrüddə idi. Saç əhvalatı mərd, açıq-saçıq əmiqızı Zəlimxanı sevindirirdi. O da qızlara qoşulub "torbaşinel əmi"yə gülürdü:

– Necə yəni ya Məmlükə, ya da İbişə?! Məmlükə Məryəmi istəyirdi əvvəllər, indi Zümrüdü istəyir? Niyə?!

Demə Davud Məmlükü hədələyib, deyib: "sən əvvəl burnuyun suyunu yığ, sonra qız istə! Direktor Qaraxan Mayılovun qızı savadsız ərbeşik malı deyil!"

Qızların qatqarışıq danışığından məlum oldu ki, baba Məryəmə gələn elçiləri, yəni Davudun elçilərini geri qaytarıb. Deyib: "Davud meşədə təzə adamdı, hələ işləsin tanıyaq, bilək, sonra baxarıq".

Qızların zarafatyana eyhamlarından anlaşılırdı ki, qara Məryəmin qara Davuda könlü var, əgər baba razılıq versə, bu yaxınlarda meşədə "dambır-dumbur olacaq". Zəlimxan bu xəbərə sevinirdi. "Dambır-dumbur" baş tutanda Məryəmin böyük külfət xörək-çörəyindən, qalaq-qalaq paltar yumaqdan canının qurtaracağına sevinməyə bilmirdi. Əmma Zümrüdə baxdıqca, anbaan sevinci azalırdı.

Zəlimxana elə gəlirdi ki, Zümrüd daha uşaq xasiyyətlərini, yüngül, şit oyunlarını yerə qoyacaq, bundan sonra sevən, sevilən, yetkin bir qız kimi hərəkət eləyəcək. Saç əhvalatı – "torbaşinel əmiyə" verilən qəti cavab da Zəlimxanı məhz buna görə sevindirirdi ki, demək Zümrüd doğrudan da yetkindir, yeri gələndə özünü qoruya bilir. Bunun üçün əmiqızına "sağ ol" deyilməlidir. Əlbəttə, təkcə "sağ ol" yox, başqa sözlər də. Zəlimxan fürsət tapanda həmin "başqa sözləri" necə söyləyəcəyini fikirləşirdi və elə buna görə də qızların Məryəmlə Davud barədə danışdıqlarını yaxşı eşitmirdi. Xəyalən Böyüktaladan kənarda, Qarasuyun – Pəri gölünün qırağında sıx yemşən kollarının arasında, bəlkə daha gizlin, daha sakit bir guşədə Zümrüdün saçlarını sığallayırdı, "başqa sözlər" pıçıltı ilə, həzin şırıltılı bulaq suyu kimi axırdı: "Mənim Dəli Pərim, dünyada heç kəsə, heç kəsə oxşamayan ağıllı Zümrüdüm! Yetkin Zümrüdüm!.." Əmma axın dayandı, sevinc azaldı və... hətta yox oldu. Dilxorçuluq, əməlli-başlı qanqaralıq gəldi: "Ağıllı, yetkin Zümrüd" əvəzində Zəlimxan donunun yaxasına yun çəngələri dürtüşdürən bir uşaq gördü; uşaq gah sağ, gah sol əlini qoftasının yaxasından salıb, lifçiyinin altına salıb, yundan, pambıqdan, hər nədənsə, bu dəfə tələsmədən, çox səliqə ilə özü üçün bir cüt "məmə düzəltmişdi!"

Zəlimxan qızardığını, pərtliyini gizlədə bilməyəcəyini hiss edib, qardaşı qızlarının arasından çıxdı, bir cüt iri "hoppur-hoppur"larını qabarda-qabarda Çapıqla oynayan "ana uşağına" tərs-tərs baxıb meşəyə üz tutdu. Paltar qayçısını qapıb hörüklərini xırçıltı ilə dibindən üzən, "torbaşinel əmini" dolayıb gülən qız da indi ona ayrı cür görünürdü: "Dəli, axmaq!.."

Axşama qədər meşədə gəzib-dolaşdı. Axşam süfrə üstündə Qaraxan qaqaşının haralarda olduğunu, nə gördüyünü soruşanda isə Zəlimxan heç nə deyə bilmədi. Necə deyəydi ki, gəzdiyi yerlərdə meşə, əkin-tikin əvəzində şəkildən-şəklə düşən Zümrüdün minbir oyunundan başqa heç nə görməmişdi!

Səriyyə bacı ilə Məryəm süfrəyə qulluq eləyirdilər. Baba başda, qalan ailə üzvləri isə onun dövrəsində yeyib-içirdilər. Zəlimxan elə bil nədənsə şübhələnmiş Zümrüdün ciddi baxışlarını üzündə hiss etsə də, başını qaldırmırdı.

Həmişə yay gecələrində olduğu kimi, Səriyyə bacı ilə Məryəm içəridən xalı-xalça, yorğan-döşək daşıyıb, evin quzey tərəfində yer döşədilər, yan-yana ağarışan dörd miçətkən qurdular. Baba, öz köhnə vərdişi üzrə, Qarasuda çimməyə getdi, "komsastav[1] şineli" çiynində, qayıdıb öz otağına çəkildi. Onun lampasının işığı öləziyəndən sonra Qaraxanla Səriyyə bacı lap başdakı miçətkənin, qızlar ikincinin, "Əziz əminin əziz balası" isə öz xüsusi yorğan-döşəyində, üçüncü miçətkənin altında paltarını soyunub uzandı.

Təkcə Zəlimxan, siqaret yandırdı, yenə də gəzib-dolaşmağa başladı.

Yastı-yappa daxmalar, həyətlərdə yatışan heyvanlar, fin evi, ağarışan miçətkənlər, talada baş-başa verib dayanmış atlar, meşə, hər şey qaranlığa, sükuta batıb qalmışdı. Durğun, bürkülü havada hərdən ancaq ağcaqanad vızıltısı, hərdən də atlar quyruqlarını budlarına çırpıb sükutu pozurdular. Siqareti sümürdükcə Zəlimxan hətta tütünün çıtıltısını eşidirdi. Arxadan yaxınlaşıb onu adıdm-addım izləyən, tez-tez dönüb miçətkənlərə və babanın qaranlıq pəncərəsinə baxan Zümrüdün addım səslərini isə eşitmirdi. Çünki bu addımlar tamam səssiz idi, – Zümrüd ayaqqabılarını çıxarmışdı.

Zəlimxan qızın onu kölgətək izlədiyini bəlkə də heç hiss etməyəcək, eyni narahatlıq və küskünlüklə miçətkənin altına qayıdacaqdı. Əmma Zümrüdün səbiri çatmadı, – əlini uzadıb onun dirsəyinə toxundu.

Zəlimxan diksindi, geri çevrilib, heyrətdən dondu.

– Sənsən?!

–Mənəm, qaqaş...

Zümrüdün pıçıltısı açıq-aşkar yalvarırdı. Əmma bu yalvarış Zəlimxanı daha da hirsləndirdi.

– Qaranlıqda nə gəzirsən burda?!

– Sənin dalınca gəlmişəm, qaqaş. Görmürsənmi?..

---

[1] Müharibə illərindən qalan zabit şineli

Zəlimxan dərindən nəfəs aldı. "Nahaq gəlmisən, qayıt!" – deməkdən özünü saxlayıb, axşamdan bəri beynində dolanan sualı xatırladı:

– Sən uşaqlıqdan nə vaxt əl çəkəcəksən?!

Talanın qaranlığında Zümrüd təccüblə baxırdı. Zəlimxanın üzünü yaxşı görmək üçün hətta pəncələri üstə dikəldi.

– Uşaqlıqdan?.. Necə bəyəm, qaqaş?

– Sən uşaqsan! Ana uşağı! Bu nədi yenə?! – deyib Zəlimxan əlinin hər ikisini onun yaxasına atdı və... və sonra nə olduğunu o qədər də yaxşı başa düşmədi. Yalnız miçətkənin altına qayıdıb yerində uzanandan sonra, nə olduğunu elə bil təzədən dərk etdi. Zümrüd qaranlıqda arabir hıçqırırdı. Ağlayırdımı, gülürdümü, məlum deyildi. Deyəsən gülürdü. Zəlimxan isə, insafsızcasına basıb ağrıtdığı "yun cəngələrini" elə bil hələ də ovuclarında tutub sehrlənib qalmışdı.

Zümrüdün gülüşü kəsildi. Zəlimxan miçətkənin böyründə ot xışıltısı eşidib, nə isə dumanlı bir ümid və həyəcanla miçətkənin ətəyini qaldırdı. Çapığın bir cüt fənərtək yanan gözlərini gördü. Sonra Zəlimxana elə gəldi ki, qaranlıqda kim isə Çapığı onun miçətkəninə itələyir. Nəfəsini içinə çəkib gözlədi ki, Çapıq yaxınlaşsın, tulanın arxasınca gələn adam görünsün. Əmma Çapıq birdən zingildəyib hara isə qaçdı.

Meşənin üzərində elə bil nəhəng bir tonqal qaladılar; dəsdəyirmi, qıpqırmızı ay qəribə iti sürətlə ağacların arasından çıxıb üfüqdə dayandı. Babanın otağının enli, hündür pəncərəsində ikinci ay göründü. İki dəyirmi ay qabaq-qarşı dayanıb, bayaqdan qaranlıqda qalın, ağ çadırtək görünən qonşu miçətkəni tənzifə döndərdi, Zəlimxan bu tənzifin arxasında böyrü üstə, üzü bəri uzanmış, ağ köynəkli, qara saçlı pərinin hətta gözlərini də seçdi, hiss etdi ki, o gözlər açıqdır.

Ay ucalıb buludların arxasına keçdi. Babanın otağının pəncərəsi qaraldı, tənzif yenə qalınlaşdı, ağ köynəkli, qara saçlı Pəri yoxa çıxdı, gözləri isə Zəlimxanın gözləri önündə qaldı.

Zəlimxan yavaşca durub ehtiyatla miçətkənin altından çıxdı, səssiz, yüngül addımlarla qonşu miçətkənə yaxınlaşdı. Orda əyilib dizlərini soyuq şehli otların üstünə qoydu.

– Pəri... Dəli Pəri, – deyib nəfəsilə miçətkəni titrətdi.

O tərəfdən ikinci nəfəs miçətkəni titrətdi:

– Qaqaş, mən sənə qurban olum...

Zəlimxan əlini irəli uzatdı.

– Əlini mənə ver, əmiqızı.

Miçətkənin altından balaca, qonur bir əl uzandı. Zəlimxan o əli ehtiyatla tutub yanağına qoydu, dodağına yaxınlaşdırdı. Bu an heç şübhə etmədi ki, ürəyinin döyüntüsü bütün talaya səs salır, bu dəqiqə hamı oyanıb tamaşaya duracaq. Elə bil Zümrüd də eyni şeydən ehtiyatlanıb əlini çəkdi.

Zəlimxan dikəlib ətrafa boylandı. Uzaqda, talanın ortasında atların gözləri parıldayırdı. Atların hamısı başlarını bəri çevirmişdi. Deyəsən gecənin bu vaxtında eşitdikləri sirli pıçıltıya qulaq asırdılar.

Zəlimxan bir daha dövrəsinə baxdı, atlardan başqa heç kəsin eşitmədiyinə əmin olub, yenə dodaqlarını miçətkənə yaxınlaşdırdı. Miçətkən yenə gah o tərəfdən, gah bu tərəfdən üfürülüb titrəməyə başladı.

– Dəli Pəri... sən məni də dəli elədin.

– Qaqaş, mən sənə qurban olum.

– Elə demə!.. – Zəlimxan öz müsibətini xatırladı. – Qurban demə!

– Yox, deyəcəm. Çünki mən istəyirəm sənin qurbanın olum, qaqaş.

– Mənə "qaqaş" da demə.

– Bıy, niyə?

– Qaqaş qardaş deməkdi axı.

– Sən mənim həm qardaşımsan, həm atamsan, həm anamsan, qaqaş! Mən dil açanda sənə "qaqaş" demişəm, ömrümün axırınacan da "qaqaş" deyəcəm.

– Toyumuz olandan sonra da?

– Lap qoca qarı olanda da!

– Yaxşı düşməz, Dəli Pəri.

– Niyə axı?

– Gizlətmək istəmirəm, "qaqaş" kəlməsinin qovğası-qalı var.

– Gör neçə illər keçib, sən hələ də unutmursan o "balaca, xallı qaqaşı, qovğalı-qallı qaqaşı".

Zəlimxan köksünü ötürdü.

– Mənə elə gəlir ki, yer üzündə hamının, hərənin bir cür faciəsi olur. O faciəni ancaq insanın insana məhəbbəti unutdurar. Çox sev məni, əmiqızı! Unudum...

– Mən səni lap balaca vaxtımdan sevirəm, əmioğlu! Əmbə sən insafsızsan. Üstəlik fəhmsizsən. Tulanın burnundan öpürəm ki, bəlkə ağıla – fəhmə gəlib sən də heç olmasa burnumdan öpəsən. Yerimiz dəyişik düşüb, qaqaş. Sən qızsan, mən oğlan. Özüm öpəcəm səni.

Zümrüd miçətkənin ətəyini qaldırdı. Əmma bu an lap yaxında hənir duyub geri çəkildi...

Öz miçətkəninin altından onlara tamaşa edə-edə sakitcə gülümsünən Səriyyə bacı, Qaraxanı oyadıb əhvalatı danışdı. Səhərisi Qaraxan da atasına çatdırdı. Bir evdə, bir ailədə başlayan bu "siçan-pişik oyununu" təhlükəli hesab edən Sabit Mayılov isə Əziz Mayılovu Böyüktalaya dəvət etdi, ailə üzvlərini, yaxın qohum-əqrəbanı topladı, Zəlimxanı stolun ayaq tərəfində oturdub rəsmi sükut içində məsələni rəsmiləşdirmək, yəni nişan qoymaq haqqında fikrini bildirdi.

Əziz Mayılov ılıq təbəssümlə: "Qız da sizindi, oğlan da. Bir-birini istəyirlərsə, mənim nə sözüm ola bilər?" – dedi. Bu hadisədən beş ay sonra, Zəlimxan qış tətilinə gələndə isə meşədə nişan toyu oldu. Əmma indi həmin toy məclisindən daha vacib bir təfsilat nağıl edilməlidir.

## *İkinci təfsilat*

### QAQAŞIN AKASİYASI

Böyüktalada, fin evinin pilləkənindən üç addım sağda, vaxtılə Zəlimxanın əkdiyi cavan bir akasiya bitmişdi. Günün birinci yarısında bol şüalar altında, günortadan sonra isə hündür damlı evin qatı kölgəsində qalan bu ağac, Qaraxanın yol, əkin kənarlarında saldırdığı akasiyalardan fərqli olaraq, çox tez yüksəlib qol-budaq atmış, canlanmışdı. Hələ aprelin ortalarında, meşənin günbatanında, çox zaman sis-dumana bürünən üfüqdən baş vurub ucalan dağların zirvələrindən qar çəkilməmiş, yol, əkin kənarlarındakı akasiyalar təzəcə yarpaqlayanda, bu həyət və mətəris ağacı salxım-salxım dümağ çiçək tökür, yastı-yappa damların çardaqlarının dirəkləri dibində ildən-ilə qalan peyin yığınlarının, yaz yağışlarından islanıb yayılan gərmə qalaqlarının üfunətini öz məstedici ətri ilə üstələyirdi. Sivri uclu, yamyaşıl yarpaqların arasında qartək ağaran sıx-sıx

ləçəklər, talada kom-kom bitən biyanın, nədənsə, burda adları unudulmuş müxtəlif əlvan çiçəklərin ətrini də elə bil öz dövrəsinə toplayıb, Qaraxanın qızlarının rus barakları yanındakı dükandan tez-tez aldıqları "Krasnaya Moskva" duxusundan da xoş ətirlə buraya qədəm basan adamları öz gözəl qanadlarının altına çağırırdı. Uzun qış aylarında meşə içində xırda-para dərə-təpələri, düzləri, talaları basan qalın qarın yalnız quş və heyvan izlərilə ləkələnən yeknəsək mənzərəsinə, qar yağmadığı halda isə rütubətdən çürüyən sarı, boz xəzəlli çılpaq budaqlara, çəlpəşik kol-kosa baxmaqdan yorulmuş gözlər baharın lap erkən çağında belə təravətli qız libası geyən təkcə akasiyaya sataşanda istər-istəməz gülümsünürdü, burun pərələri tərpənir, sinə qabarırdı. Akasiyanın ətri ilə birgə ürəyə nə isə bir kövrəklik, yumşaqlıq gəlirdi. Bu günlərdə, yəni budaqlarının qızlibas, gəlinlibas çağlarında ağac hamının diqqət mərkəzində dururdu. Qaraxanın qızları hər səhər, gün doğar-doğmaz pəncərələri taybatay açır, ilkin şəfəqlərlə birgə içəriyə doluşub boyun-boğazlarına, çılpaq biləklərinə soyuq şeh çiləyərək onları üşüdən budaqlardan ipçin-ipçin ağ salxımlar dəstələyirdilər, babanın otağında xalçanın üstündə qızıl suyuna çəkilmiş gümüş çərçivədə, sakit, dalğın baxışlı iri gözləri olan şəklin dövrəsinə çələng bağlayırdılar. "Qaqaşın ağacı" bu günlərdə dillərdən düşmürdü.

– Məryəm, qızım, içəri nə yaman soyuqdu, peçi niyə qalamayıbsan?

– Yaz deyilmi daha, baba? Görmürsənmi qaqaşın ağacı necə çiçəkləyib? – Hər şeyə laqeyd kimi susqun, yorğun, qaraqabaq Məryəm belə vəcdə gəlib dillənəndə onun sözlərindən qocanın canına hərarət axırdı. Və qoca da ovuclarını şehlə isladıb üzünə, saqqalına çəkirdi.

– Hə, yazdı, yazdı daha, qızım. Elə oraya – ağacın altına palaz sal, mütəkkə qoy, günəqarşıda oturaq, sümüyümüz isinsin, Məryəm bala!

Qoca mütəkkəyə dirsəklənib təsbehinə əl atanda, hələ qış libasından çıxmamış şəlit geyimli meşəçilər damların həyətlərində bir-bir qımıldanıb ağır, ləngərli yerişlə yaxınlaşır, xüsusi ədəb-ərkanla salam verib, elə bil plov sinisi ətrafında dövrələmə bardaş qururdular. Məryəmin güllü sinidə gətirdiyi çay stəkanları ortalıqda buğlananda, yoldan ötüb-keçənlər də bu səmtə meyil göstərirdilər. Hətta səksən yaşlı gözətçi Mirələm kişi də elə bil yarım kilo-

metrlikdən çay və şirin söhbət iyi çəkib, ora-burasından çəngə-çəngə pambıq pırtlamış ağır kürkünün ətəklərini sürüyə-sürüyə böyürdən çıxır, beləliklə, çiçəkli akasiyanın altı qocalar, cavanlar yığnağı, məclis-mərəkə məskəni olurdu. Bu ilk günlərdə, adətən, Qaraxanın ayağı çöldən yığışmırdı. Öz köhnə "Villis" maşınında hələ hava ağaranda Böyüktaladan çıxır, meşədə əkin üçün yer istəyən kolxoz sədrlərilə dava-şavadan, ətrafdakı susuz düzlərdə ot qalxmadığı üçün meşəyə göz dikən sürülərin, naxırların sahibləri ilə dartışmada-çırpışmada qanını qaraldırdı. Həyətinə, akasiyanın altındakı məclisə yaxınlaşanda isə Qaraxan, tədricən də olsa, hər şeyi unudur, o da öz işçiləritək arxayın və rahat ürəklə çay süfrəsində əyləşirdi. Burda hər cür tələsməkdən, əsəbilikdən uzaq gənc yazıçı Zəlimxan Sabitin öz "Ağlaşan, gülüşən pərilər"ində yazdığı kimi, "epik bir həyat" öz aram axını ilə davam edirdi; meşəçilər ikibir-üçbir, meşəbəyinin dövrəsinə toplaşır, səhər süfrəsi günorta süfrəsinə, günortanınkı axşamınkına qarışır, heç bir şey bu "epik həyatın" axınını poza bilmir, qaqaşın akasiyası isə öz ətri ilə bu aləmin havasının yastı-yappa damların iyindən qoruyurdu, meşə üzərində yüksələn günəşin altında bərq vurub, Böyüktalanın başının tacı kimi ucalırdı. Səhərlər akasiya öz incə şivləri, hərəkətsiz yarpaqları ilə birgə çox şax dayanıb, sanki dövrəsindəki mənzərədən heyrətə gəlirdi. Günəşdə, torpaqda bu qədər gözəllik, bu qədər ətir olduğu halda, orda-burda dümələnən qalın geyimli adamların peyin, his-pas iyindən çıxmağa tənbəllik elədiklərinə, bal arılarının, kəpənəklərin də ılıq havaya çıxdıqları günəşli gündə bu və ya başqa meşəçinin damda – torpaq altında eşələndiyinə təəccüblənirdi. Günortaya yaxın. "ayağı üzəngidən üzülmüş" qoca meşəbəyinin mərəkəsi şənləndikdə isə, akasiya isti şüalar altında şivlərinin və yarpaqlarının şaxını sındırıb qanadlarını onların üzərinə sallayırdı. Bu vaxt adamlarla ünsiyyətdən qəlbi riqqətlənmiş kimi, ətri daha da güclənirdi.

Əmma nə edəsən ki, bu günlərin ömrü qısa idi. Özü də necə qısa!

Ləçəklər qar lopalarıtək sıx-sıx tökülüb talanın yaşıllığı üzərinə səpələnir, ətir kəsilir və... çiçəkli, barlı dəmlər gedən kimi, adamların baxışları da, rəftarları da dəyişirdi; gözlərdəki məftunluğu laqeydlik və soyuqluq, əllərdəki nəvazişi sərtlik, qətrəhmlik əvəz edirdi; səhər-səhər taladan atlananlar bıçaqlarını çıxarıb akasiyanın şivlərindən çubuq kəsirdilər. Bir çubuq, beş çubuq, on çubuq –

qəfildən ayılıb baxırdın ki, akasiyanın bir şaqqası gedib! Bel, kətmən sapı qayırmaq üçün damdan çıxanlar, uzağa, yəni cəmi-cümlətanı bir kilometrliyə yeriməyə tənbəllik eləyib, dərhal gözlərini akasiyanın budaqlarına dikirdilər. Bu gözlərdən adamların niyyətini oxuyan Qaraxan təəssüflə başını bulayır: "Ay qardaş, heyifdi axı, qurbanınız olum, ağacın da canı var axı!" – deyib söylənirdi. Hər il yay aylarında Bakıdan Böyüktalaya qayıdan Zəlimxan, ondan heç kəsin gözləmədiyi bir qızğınlıqla əməli-başlı üsyan qaldırırdı: "Əliniz necə gəlir, insafınız yoxdurmu?.. Yazacam, biabır eliyəcəm!.." Əmma Zəlimxan "oxumağının dalınca gedəndən" sonra, yavaş-yavaş burda yenə əvvəlkilər təkrar olunurdu; çubuqlar kəsilirdi; hər səhər-axşam direktorun ailəsi üçün odun yarmağa gələn ərbeşik, qeyri-qanuni yolla ağac kəsənlərdən alınıb pilləkənin altına yığılmış baltaların, nacaqların itiliyini yoxlayanda, beş addımlıqdakı quru kötüyün yanına yeriməyə ərinib, onları akasiyanın gövdəsinə vururdu, balta dərinə işləyəndə: "Hə, bu qiyamətdi" – deyir, akasiyanını yaralarından isə gözyaşıtək damlalar süzülürdü. Əmma o, bu qətrəhmliyə dözürdü, səbirlə qida və qüvvət toplayırdı ki, yazda bir də çiçəkləsin, kəsilmiş şivlər əvəzinə təzə-təzə şivlər uzatsın. Bu sözləri oxuyanlar, ola bilər, fikirləşərlər ki, əşi, ağac-ağacdır, insan-insandır, baltası da baltadır; biri kəsilmək, o birisi kəsmək üçün yaranmayıbmı?! Necə yəni "akasiyanın yaralarından göz yaşıtək damlalar süzülürdü?!" Ciddi "Faciə" başlığı altında bu dərəcədə şit sözlərin səbəbi nədir?

Oxuyaq, görək nədir.

Keçən ilin yayında, Zəlimxanın universiteti bitirib Böyüktalaya gəldiyi günlərdə "qaqaşın qonaqlığından ötrü" maşina doluşub şəhərə "bazarlıq eləməyə" gedən qızlar qayıdanda bir-birinin əl-ayağına dolaşa-dolaşa, hay-küylə içəri yüyürüşdülər. "Qaqaşın qəzeti çıxıb! Qaqaşın qəzeti çıxıb!" – deyə səs-səsə verib, qoyun-qoltuqlarında yığın-yığın gətirdikləri qəzetləri birbaş süfrənin üstünə, xörək-çörəyin arasına tökdülər. Həmişəki kimi, indi də "qaqaşın qəzeti" ailədə böyük sevincə, canlanmaya səbəb oldu. Stolun ayaq tərəfində buğlanan samovarın arxasında, əllərini dizlərinin üstə qoyub sakitcə oturub qayınatasının, ərinin yemək-içməyindən diqqətini bir dəqiqə də yayındırmayan Səriyyə bacı da hərəkətə gəlib Məryəmin ətəyindən çəkdi: "Göstər, göstər!" Qaraxan əlindəki

dolu qaşığı nimçəyə qaytardı, köynəyinin biləklərinə dovğa sıçramasına əhəmiyyət vermədən, qaqaşının bayramdan bayrama "vətənin gözəllikləri" haqqında təsvirlərini çap edən bu sevimli qəzeti qapdı: "Hanı, hanı?.." Təkcə qoca öz adi davranışından kənar hərəkətə yol vermədi, Qaraxanın əlində xışıldayan qəzetə gözünün ucu ilə baxmaqla kifayətləndi. Tələsmədən nimçəsini boşaldıb, bığını, saqqalını sığallayıb ayağa durdu, öz otağına adlayıb, xalının üstündə uzanıb yastığa dirsəkləndi, yalnız bundan sonra öz daimi "katibəsi" böyük nəvəsini səslədi: "Hə, Məryəm bala, di gətir oxu görüm qaqaşınız orda nə qırıldadır".

"Akasiya"da Böyüktalanın və orda yaşayan adamların adları çəkilməsə də, qaqaşın nə "qırıldatdığını" başa düşməyən bir nəfər də yoxdu. Öz dediyi kimi, "qaqaşının öz dilindən" təsirləndiyinə görə, qəzetdə təsvir olunan "qətrəhmlikdən" ona da pay düşdüyünü duyduğundanmı, ya da nə isə başqa, gizlin bir səbəbdənmi qızarıb pörtmüş Qaraxan, "qələminə qurban olum, qaqaş! Barmaqlarına qurban olum!" – deyib ora-bura vurnuxdu, aydınca görünən həyəcanla qəzetdən beş-altı nüsxə yığışdırıb həyətə endi.

Zəlimxan "Bakıda həsrətini çəkdiyi doğma guşələrdə" gəzib, yorğun-arğın həyətə qayıdanda, burda, demək olar ki, qətiyyən gözləmədiyi bir həngamənin şahidi oldu.

Damların çardaqları altında beş-altı məktəbli oğlan, qız birdən qarhaqar salıb "Akasiya"nı qiraətlə oxuyur, böyüklər isə çox ciddi, beynəlxalq bir xəbər dinləyirlərmiş kimi, hərəkətsiz dayanıb, hərdən qəmli-qəmli başlarını tərpədirdilər.

Bir tərəfdən də Qaraxanın səsi eşidilirdi:

– Mən elüzəri danışmıram. Hamı eşitsin, bilsin ki, qardaşımın yazdığıynan razıyam. Ürəyimin sözünü çatdırıram camaata ki, lap yaxşı eləyib. Mənim sözümü bu qulağınızdan alıb o qulağınıza verirsiniz, indi görüm bunun qabağında cavabınız nə olacaq! – Qaraxan lap ucqardakı damın çardağının qabağında danışırdı. Onun baxdığı yerdə, qapının arasında Kərəm əminin qırxıq başı ağarırdı. Çardağın altında isə Kərəm əminin üç qaynı ilə istəkli Məmlükü taxt üstündə yanaşı oturub yerə baxırdılar. Qaraxan onlarla danışırdı, ya kiminlə?

Camaat yavaş-yavaş akasiyanın altına yığışdı. Uşaqlar da, arvadlar da gəlib dövrə vurdular. Demə, Zəlimxan "öz qohumlarını

yazıb!”. “Kərəm kişiynən qayınlarının, Məmlükün paxırlarını açıb!”. “Akasiya deyəndə, yanı akasiya dediyi ha döyül. Əsl qətrəhmlər burdan beş-üç çubuq kəsənlər yox, gecəni gündüzə qatıb, meşəni çapıb-talayanlardı”. “Meşə qalıb ki?! Elə buralardadı da az-çox”. “Arifə işarədi bu “Akasiya!..” – Meşəçilər ordan-burdan atmaca ata-ata gözgörəsi çaxnaşırdılar. Zəlimxan həyətdə görünəndə çaxnaşma azaldı. Camaatın arasına müəmmalı səssizlik çökdü.

Zəlimxanın həmişə dalğın gözlərində indi hamının aydın gördüyü narahatlıq vardı. Duruxub ona maraqla tamaşa edən meşəçilərin çoxu şübhə etmirdi ki, Zəlimxan “öz qohumlarının paxırını açdığına” görə belə narahatdır, bəlkə lap peşmançılıq keçirir. Çünki qohumluqdan başqa, bir para adamın fikrincə, Zəlimxan Kərəm kişiyə xüsusi hörmət bəsləməli idi. Çünki Zəlimxanın “başına hava gələndə” Kərəm kişi ona “yeddi qoç qurban” demişdi. Hər il yazbaşı Kərəm kişi fin evinin qabağına burmabuynuz bir qoç gətirərdi. Qayınları ilə Məmlük də ciddi, təntənəli görkəmlə gəlib cərgələnərdilər. Bunu da deməyə dəyər ki, Məmlüklə qayınlar çox qəribə idilər: böyük qayın uzun, ortancıl qayın ortaboy, kiçik qayın balaca, gözəl səsli, sazlı-sözlü Məmlük isə lap Kərəm kişinin özü kimi cılız. Danışırdılar ki, qayınların ataları çox pozğun, şorgöz bir tip imiş. İldə bir arvad alıb boşayarmış. Buna görə də, hətta qardaşların hansının hansı arvaddan olduğu da, Kərəm kişiyə verdikləri bacılarının kimə ögey, kimə doğma bacı olduğu da bəlli deyildi. Əmma meşədə adları tamam unudulub, Böyük qayın, Ortancıl qayın, Kiçik qayın çağırılan bu qardaşlar, nə lap çoxdan itib-batıb səsi-sorağı eşidilməyən analarının taleyi sarıdan narahatlıq göstərirdilər, nə də ümumən öz keçmişləri sarıdan. Bəlkə, əksinə, hər şeyi unudub razılıq eləyirdilər ki, Mayılovlar kimi “arxalı bir nəsildən” olan Kərəm kişi “bacılarını alıb, onları qanadının altına çəkib”, vaxtıilə “kərpic zavodunda palçıq ayaqladıqları” halda, indi ayaqda xrom çəkmə, böyürdə qırmızı sumka, at belində, əli təmiz, ayağı təmiz, “bığlarını bura-bura ərbeşiklik eləyirdilər”. Deməli, həmin bu qayınlar, hər il yazbaşı gəlib həyətdə təntənə ilə cərgələnərdilər. On iki dam, on iki ailə arasında “qurban payı” paylamaq üçün Kərəm kişinin öz ağdəstə xançalı ilə əti bölüşdürməsini gözləyərdilər. Düz yeddi il ardıcıllıqla beləcə xidmət göstərmişdilər ki, “qaqaşın dəliliyi qurtarsın”. Bu qayğıya qoca

meşəbəyi ilə Qaraxan bir qədər müəmmalı qaşqabaqlı baxsalar da, "qaqaşın dəliliyi" Böyüktalada hamını yandırdığına görə, qurbanda heç bir başqa məna görməyib, köyrək səmimiyyətlə, ürəkdən: "Allah qəbul eləsin!" – deyirdilər. Tək bir nəfər – Zəlimxan özü, növbəti qoçun boğazına xançal çəkilər-çəkilməz diksinib, gözlərini yumub, sarsılıb dümağ ağarırdı. Bu sarsıntının bir səbəbi – yaddaşdan getməyən beşaçılan gurultusu bizə məlumdur. Əmma o gurultudan qat-qat dəhşətli bir səbəb də vardı ki, "qaqaşın qəzeti" çıxan günü Zəlimxan məhz o dəhşətli səbəbə görə narahat idi.

## *Üçüncü təfsilat*

### SARSINTININ SƏBƏBİ

"Akasiya" ətrafında danışıq zamanı heç kəsin xəbəri yoxdu ki, bundan bir gün əvvəl, öz köhnə dostları – müəllimləri ilə görüşməyə gedərkən Zəlimxan orda həmin bu "yeddi qoç qurbanı kəsən" qohumu ilə onun qayınları və oğlu haqqında başqa bir söhbətin şahidi olmuşdu. Söhbət hamıya, bütün Mayılovlara məlum olan köhnə bir məsələ ətrafında getsə də, o köhnə məsələ barədə Zəlimxan nə qardaşından, atasından bir kəlmə eşitmişdi, nə də başqa ailə üzvlərindən. Axşamlar məktəbin qabağına toplaşanda, xüsusən öz aralarında təzə adam görəndə, meşədə baş verən hadisələrdən danışmağı sevən müəllimlər isə Zəlimxandan heç nə gizlətməmişdilər. Onların – müəllimlərin "çoxdan bəri ürəklərində qövr eləyən bir dərd indi, "yaralarından göz yaşıtık damlalar süzülən akasiya" ətrafında danışıq gedən vaxt ortalığa çıxıb, söhbətin iştirakçıları ilə birlikdə Zəlimxanı da sarsıtmışdı. Nə Qaraxan, nə də işçiləri, heç kəs bilmirdi ki, bu dəqiqələrdə Zəlimxan, ondan bəlkə də heç gözlənilməyən bir iş görməyə hazırlaşırdı. Bu "iş" görüldükdə meşədə çaxnaşma düşəcək, aləm bir-birinə dəyəcəkdi. Əmma qabağa qaçmayaq, mümkün qədər yerli-yataqlı danışaq ki, hər şey aydın olsun.

Demək, sarsıntı müəllimlərlə söhbətdən başlandı.

Onlar ildən-ilə meşəyə gələndə "öz köhnə müəllimlərini yaddan çıxartmayan" köhnə şagirdlərini sevinclə və "İllər nə tez keçir!" deyən qəribə hüznlü gözlərlə qarşıladılar. "Tez keçən illər" bu

adamların hərəkətlərinə aydın hiss olunan bir ağırlıq gətirmişdi. Əmma azacıq sonra Zəlimxanın bu ilk təəssüratı silinib getdi.

Sol qolunu müharibədə qoyub gəlmiş tarix müəllimi birdən əlini nimdaş, boz pencəyinin yan cibinə salıb, bir qarğı tütək çıxartdı. Tütəyi üflədi, sonra gülümsünüb gözlərini Zəlimxana dikdi.

–Yadındadırmı?

Necə yəni "yadındadırmı", məgər belə şeyi unutmaq olarmı?

Bir dəfə sinifə girəndə müəllim, meşəətəyi kəndlərdə Dəli Cümrü adı ilə məşhur bir oğlanın düzəltdiyi həmin bu qarğı tütəyi üfləyib, hamını heyrətə salmışdı; şagirdlər bir-birinin üzünə baxıb məəttəl qalmışdılar. Müəllim isə daha heyrətli bir avazla "İskəndərin buynuzu var, buynuzu!" – deyib ucadan gülmüş və soruşmuşdu ki, "indi hansı qoçaq tapa bilər, bu dərsimizdə mən kimdən danışacam?" Uşaqlar Nizaminin "İskəndər və bərbər" hekayəsini xatırlayıb, yerbəyerdən səslənmişdilər ki, "Makedoniyalı İskəndəri keçəcəyik!". "Məgər bunu unutmaq olar, müəllim?" – Zəlimxanın hətta gözləri doldu. Bu təkqollu tarix müəlliminin hərəkətlərində bir ağırlıq duyulsa da, o, usanmadan, bezikmədən, öz köhnə "azad tədris prinsipi" ilə, sabah sentyabrın birində sinifə gi-rəndə yenə tütəyini üfləyəcək: "İskəndərin buynuzu var, buynuzu!"

Demə, tarix kitabında tərifi başdan aşan İskəndər dünyanın ən qəddar başkəsən vəhşilərindən biri imiş və Nizami öz hekayəsində "buynuzlu", – vəhşi İsgəndərin vəhşiliyini car çəkibmiş. Kiminin "təkqol direktor", kiminin də "tarix" adlandırdığı bu müəllim isə, Nizaminin hekayəsinin adını çəkə-çəkə iddia edirdi ki, "buynuzlu İsgəndər" ölməyib, bu gün də yaşayır, qiyafəsini dəyişdirib, yenə də baş kəsməklə məşğuldur. Əgər onun – "təkqol direktor" – Əbdürrəhman müəllim Tarixin şagirdləri Nizaminin dastanlarını oxuyub, "buynuzlu İskəndərin əlamətlərini öyrənib İskəndər axta-ran ziyalılar olsalar və İskəndəri tapıb bəşəriyyətə tanıtdırsalar, yer üzündə qan-qada olmaz". "Necə yəni yadındadırmı? Kim unudar sənin tütəyini, müəllim?!"

Uzun ayrılıqdan sonra adam körpəlikdə yatdığı çarpayısını gö-rəndə necə olursa, Zəlimxan da elə bir hiss keçirdi.

Təzəcə nişanlandığı vaxtlardakı kimi, müəllimlər yenə də onun "qayınatası"ndan, yəni Əziz Mayılovdan söz saldılar. Əcəb işdi: Zəlimxanın boyu görünən kimi "qayınata" yada düşürdü. Raykom katibinin göyü – kürəkəni elə bil maqnitə çevrilib, küncdə-bucaqda

qalanları da məclisə çəkirdi: gündüzlə Qaraxanın məktəb üçün ayırdığı təcrübə sahəsində qarğıdalı alağı vuran, bostan suvaran, öz həyətyanı sahələrində işləyən, axşam dərslərini dedikdən sonra isə süst düşüb dərhal gözlərini yatağa dikən bu adamların bəziləri hətta yorğan-döşəkdən qalxır, alçaq, uzunsov taxta evdə yerləşən məktəbin qabağındakı qoca palıd ağacının altına, böyük, dəyirmi stolun dövrəsinə toplaşıb, kətillərdə səliqə ilə əyləşirdilər. Yaxınlıqdakı taxta zavodundan, kərpic zavodundan, Böyüktaladan yığışan uşaqların və rus baraklarından gələn şagirdlərin sayından asılı olaraq sinifləri gah birləşdirilib azalan, gah da adi qaydada qalan məktəbin hərəsi bir kənddən, şəhərdən gəlib burda bir ailədə isinişmiş müəllimləri Zəlimxanın dövrəsində daha da sıx birləşmiş kimi görünürdülər. “Təkqol direktor”un ortalığa qoyduğu Kazbek” qutusu bircə dəqiqədə boşalır, mətbuat aləmindən, ictimai vəziyyətdən başlayan söhbət gəlib mütləq Əziz Mayılovun üstündə dayanırdı. Kətildə söykənəcəksiz oturmaqdan yorulan Zəlimxan çiynini qoca palıdın damar-damar qabığına dayayır, bir az sonra bu damar-damar, kərtdəş qabıq köynəyini əzib çiyninin ətinə batırdı. Əmma daha Zəlimxan nə yorğunluğu hiss edirdi, nə də ağrı. Qoca palıdın azı on-on beş metr ətrafa süzmüş nəhəng, sıx budaqlarının altında qatılaşan qaranlıqda sifətləri görünməyən, orda-burda közərib, havada uzaq təyyarə işıqlarıtək üzən papiros közərtiləri arxasında hərdən gözləri parıldayan bu adamların söhbəti getdikcə ciddiləşib mətbuata və “şəxsən Əziz Mayılova çatdırılmalı məsələlər” ətrafında cəmləşirdi. Əlbəttə ki, bu “məsələləri” Əziz əmiyə müəllimlər özləri də deyə bilərdilər. Qəzetlərə özləri də yaza bilərdilər. Əmma neyləyəsən ki, heç bir nəticəsi olmurdu. Məhz “nəticəsi olmadığı” üçün də “Mayılovun ən yaxın adamına” gileylənirdilər, çünki ayrı cür hərəkət etmək, “məsələləri olduğu kimi” qatı cinayətlər şəklində yazmaq, “Mayılovun başının üstündən iş görmək” istəmirdilər. Çünki Mayılov onlara yad deyildi. Əksinə, “bu kollektivin ən doğma, ən istəkli” adamı idi. Cavanlığında həmin bu “təkqol direktorla” birgə uzun müddət müəllimlik eləmiş, tarix dərsi demişdi. Sonra birdən-birə partiya işinə çəkilmişdi. Əmma danışırdılar ki, partiya işçisindən çox yenə də köhnə müəllim, pedaqoq kimi tanınırdı. Təsadüfi deyildi ki, bütün idarələrdə, təsərrüfat sahələrində, o cümlədən meşədə də ona qəbul olunmuş adi qayda ilə “yoldaş Mayılov” yox, “Əziz müəllim” deyirdilər.

Bəziləri belə fikirləşirdilər ki, bu cür münasibət Mayılovun bir insan kimi sadə və səmimi olmasından irəli gəlir. Meşədə isə əksəriyyətin rəyi belə idi ki, "o elə müəllimdi, müəllim də deyirlər". "Səbirli intelligent adamdı, qabağa baxır, camaatla yola gedir".

"Yola getməyi" belə izah edirdilər ki, Mayılov rayonun təsərrüfatının qayğılarından ayılıb, hərdən, ildə bir-iki kərə meşəni gəzəndə, açıq-aydın oğurluq, cinayət eləyən işçiləri, deyək ki, nəzarəti altında olan meşə sahəsində kolları köklədib yerində gizli yer əkən, ağac satan ərbeşikləri "milisə verdirmir", əksər hallarda yoldaşlıq məhkəməsi ilə, ictimai yaşayış qayda-qanunlarına çağırmaqla, zərəri ödətdirməklə kifayətlənir. Zəlimxanın müəllimləri Mayılovun bu iş üsulunu onun humanizmi ilə, şəxsi insani keyfiyyətləri ilə bağlayırdılar. Müəllimlər Mayılovun "kasıb dolanmasından", evinin "bir həsir, bir Məmmədnəsir" olmasından söhbət salırdılar. Xüsusən, təkqol direktor "öz köhnə məsləkdaşı" haqqında "həqiqi xalq adamı", "əsl ictimai xadim" deyib, bu kimi sözlər işlətməyi sevirdi. Əmma... Bütün söhbət elə bu "əmma"nın üstündədir. Onun üstündədir ki, "xalq adamı" Əziz müəllim meşə təsərrüfat idarəsindən çıxıb gedən kimi Kərəm kişi "torba şinelin" içində qısıq çiyinlərini tərpədib, qırışıq boğazını sağa-sola uzadıb, qınından çıxır, "yaxşı ki, bizim hörmətli Əziz müəllimin kəsən əli yoxdu. Genə yoldaşlıq məhkəməsiynən qurtardıq", – deyib pıqqıldayır. "Varam raykomumuzun bu təzə çıxan yoldaşlığıynan!" – deyə böyük qayın yeznəsinin ardınca öz razılığını bildirir. Ortancıl qayınla kiçik qayın "bir, iki, üç" sayıb xorla: "Yaşasın Əziz müəllim, öz yoldaşlıq məhkəməsiynən!" – deyirlər. Məmlük isə, əlini qulağının dibinə qoyub, hırıltı ilə həcv oxuyur: "İrəhbərin başına bax. Bu Məmlük yoldaşına bax!.."

Zəlimxanın ürəyi ağır-ağır, zərblə döyünür. "Təkqol direktor" bu döyüntüləri dinləyirmiş kimi, bir az susub ona baxır, sonra qəfildən yumruğunu stola endirib barmaqları arasındakı papirosundan qığılcım səpələyir.

– Soyğunçu, talançı olub hamısı! Hır-hır hırıldaşırlar ki, "Əşi, hürriyyətdir ey, hürriyyət! Qadasın alım o kukuruznik Xruşşovun[1]! Stalinin dədəsini yandırdı, Mirqəzəbimiz Mir Cəfəri güllələdi,

---

[1] Stalinin hakimiyyəti dövrünün axırlarında dağılmış kənd təsərrüfatının, xüsusən, maldarlığın bərpası üçün hədsiz qarğıdalı əkdirdiyinə görə Xruşşova xalq "kukuruznik" ləqəbi vermişdi.

canımızı qurtardı cəlladların əlindən. İndi yaşamağa nə var! Qoy Əziz müəllim tərbiyəsini versin, kommunizmdən danışsın. Sən “bəli, bəli”ni deginən, sonra da get baltanı ovxarlat!..” Əvvəllər bizdən çəkinirdilər, müəllimlərdən. İndi kimdi müəllim? Milis rəisinin, prokurorun qapısının qulluqçusundan da əskik adamdı müəllim! Açıq-açığına deyirlər: “Sizdən qorxu-hürkümüz yoxdu daha. Siz yuxarıya yazırsınız, yuxarı yollayır Əziz müəllimin üstə, Əziz müəllim də ki, “bizi tərbiyə eləyir...” Pozğunluq, bax bu yerə çatıb! “Torbaşinellərin” sayı artdıqca artır: dəmir yoluynan əlaqəyə girib, odunnan, taxta-şalbannan dolu vaqonları dal-dala calayırlar! Meşə nədi, xeyir-bərəkət nədi, təki cib dolsun!.. Yapışıram yaxalarından, qışqırıram ki, qanmırsınız, ay qılınc müsəlmanları! Vaxtılə Mir Cəfər Mirqəzəbin qorxusundun tir-tir əsirdiniz. İndi nəfəs veriblər sizə, insan kimi yaşamağınıza şərait yaradıblar. Bəs siz necə yaşayırsınız?! Meşə qırılıb, duzlaq dünyanı basır. Cənnətmisal meşəətəyi kəndlərdə quyular da şoranlaşıb, sizin vecinizə deyil!.. Deyirəm, danışıram, Böyük qayın Ortancıla baxır, Ortancıl Kiçiyə baxır, sonra gözlərini dikirlər yeznələrinə. Yeznəni də ki, tanıyırsan! Dərhal büzüşüb çəkilir qınına, “düz buyurursan, hörmətli Əbdürrəhman müəllim, düz buyurursan...” Bilirəm ki, olun dalına çəkilib gözdən iraq olanda yenə qınından çıxacaq. Yenə ağız-ağıza verib hırıldaşacaqlar! Gecələr dəli təkin güzgüyə baxıb öz-özümə danışıram: “Necə olub, nə təhər olub bu adamlar adamlıqdan çıxıblar, ay Əbdürrəhman müəllim?!” Matməəttəl qalmışam, cavab tapa bilmirəm, qardaş!.. – Direktor danışdıqca danışırdı, qurtarmaq bilmirdi.

Zəlimxan Əbdürrəhman müəllimi – Tarixi heç vaxt belə görməmişdi. Nə isə gizlin kədərlə qarğı tütəyini üfləyən, sakit və həlim müəllim yoxa çıxmışdı, əvəzində burda uzun, arıq boğazının damarları qabaran qəzəbli bir adam oturmuşdu. Toranlıqda Zəlimxan hətta onun tək əlinin titrədiyini görürdü.

Müəllimlər susurdular. Sükutun özü də Əbdürrəhman müəllimin monoloqu kimi qəzəb və hiddətlə dolu idi.

Zəlimxan yəqin ki, hələ çox oturacaq, bu ağır və dərin sükutun ahənginə qulaq asacaqdı.

Əmma birdən ahəng pozuldu.

Qəzəb, hiddət və etiraz müqabilində qəribə görünən istehzalı bir səs eşidildi:

– Daha mat-məəttəl niyə qalırsan, ay Əbdürrəhman müəllim? Özün-tarixçi, humanitar elmlərin atası, adicə bir məsələyə cavab tapa bilmirsən?!

Qaranlıqda elə bil köklü bir ağac yerindən oynayıb qopdu. Rezin plaşının xışıltısı və gümrah səsi ilə aləmi başına götürən hündür bir adam irəli yeriyib, əlindəki uzun çin fənərinin iti şüasını dəyirmi stolun ətrafında dolandırdı. Palıdın gövdəsində sınıb yayılan işıq bir an onun özünün də sifətini aydınlaşdırdı: el arasında "daraqbatmaz" deyilən bir topa qara saç, yaş kömür kimi işıldayan qara, hündür alın, istehza ilə gülümsəyən azacıq qıyıq gözlər, qartal burnu altında təzəcə dən düşmüş qalın bığ, qalın, bir qədər kobud dodaqlar: Davud, Qara Məryəmin istəklisi Qara Davud.

Zəlimxan bilirdi ki, Davudla Məryəm lap çoxdan tez-tez meşədə xəlvəti görüşürlər. Zümrüd danışmışdı ki, bunun üstündə baba bir dəfə Məryəmi "möhkəm əzişdirib", Davudu isə söyüb, biabır eləyib, qəti deyib ki: "Məryəmdən əlini üz!" Niyə? Nə Zümrüd, nə də başqaları, heç kəs aydın cavab verməmişdi. Məryəmin özü isə Zəlimxanın təkidindən sonra yalnız bunu demişdi ki, "babanın ondan xoşu gəlmir, qaqaş". Zəlimxan həmişə üstündən xəzəl qoxusu hiss olunan bu iri qol-budaqlı, səs-küylü "lesniç"in – meşə mühəndisinin haqqında çox fikirləşib belə nəticə çıxarmışdı ki, olsa-olsa, bu oğlandan babanın ancaq kobudluğuna görə xoşu gəlməz. Davud doğrudan da kobud idi, "xörəyi öz qabağından yeməyən" adamlardandı. Zəlimxan bu oğlanın barəsində "naxal", deyənlərə də müəyyən dərəcədə haqq qazandırırdı. Əmma "naxal" ya hər nə, axı Məryəm onu sevirdi! Gör necə sevirdi ki, Mayılovlar ailəsi kimi adlı-sanlı bir ailənin adına ləkə gəlməsindən ehtiyatlanmır, Sabit Mayılov kimi qəzəb mücəssiməsinin qəzəbindən çəkinməyib, Davudla xəlvəti görüşürdü! Böyük, ağır ailənin iş-gücündən təngə gəlmiş Məryəmin üstəlik son vaxtlar meşədə – şitillikdə işləməsi də, yəqin ki, Davudla görüşmək üçün imkan, şərait axtarmasına görə idi. Bütün bunları billə-bilə baba niyə o qədər insafsızlıq eləyirdi? Zəlimxan gözünü Davuddan çəkmədən fikirləşdi ki, "görünür, nə isə başqa ciddi səbəb var".

Davud onun fikrindən keçənləri duydumu, yoxsa, sadəcə, Məryəmi "əzişdirdiklərinə" görə xoşlamadığı Mayılovlardan birini burda gördüyü üçünmü, nədəncə, hələ stola yaxınlaşmamış duruxdu.

Gözlərinin ifadəsi dəyişdi. Əmma bu heç bir neçə saniyə də çəkmədi. İri, azacıq qıyıq gözlər yenidən güldü, gur səs yenidən guruldadı:

– Salaməleküm, müəllimlər! Əşi, yarasa kimi qaranlıqda niyə oturubsunuz? Yoxsa qorxursunuz işığa gəlib meşəçilər əleyhinə sui-qəsdinizdən xəbər tutan olar? – Ucadan qəh-qəhə çəkib, çiynindəki qoşalülə tüfəngi taqqıltı ilə stolun üstünə qoydu, hamıya bircə-bircə əl verdi, Zəlimxana isə barmağının ucunu uzadıb tezcə çəkdi.

– Qanacağın olsun, müəllim, qonağa yer ver! – deyib Əbdürrəhman müəllimlə yanaşı oturmuş cavan, arıq, utancaq riyaziyyatçının qollarından yapışıb hop qaldırdı, əmma o dəqiqə də çiynindən basıb, cürəfəsiz oğlanı kətilin üstünə yıxdı. – Zarafat eləyirəm, otur, otur, müəllim, zəhmət çəkmə, qardaş! Sözün açığı, bir az xətrimə dəydi ki, mən gəlirəm, məndən beş bayram kiçik yoldaş heç olmasa nəzakət xatirinə ayağa durub yer göstərmir.

Riyaziyyat müəllimi utancaq gülümsünüb qalxmaq istəyəndə, Davud yenə onun çiynindən basdı.

– Əşi, otur! Bircə dəqiqəliyə narahat eləyəcəyəm sizi... Bayaqdan bu yanda dayanıb qulaq asıram, müəllimlər. Son vaxtlar gecələr mən bizim meşədə icazə bileti almamış, üstü möhürsüz ağac kəsənlərin balta taqqıltısından, mişar cingiltisindən başqa, adam səsinə də qulaq asıram. Xahiş eləyirəm, mənim bu hərəkətimi üzürlü hesab eləyəsiniz. İcazə bileti almamış ağac kəsənlərin balta taqqıltısına birtəhər dözmək olar, Əbdürrəhman müəllim, yanlış söz deyən adam səsinə isə heç cür dözmək mümkün deyil. Sizi bilmirəm, müəllimlər, yanlış sözə cavab verməmiş ötəndə mən, vallah, azı bircə sutka rahatlıq tapa bilmirəm. Elə ona görə bəri buruldum ki, ikicə kəlmə deyim, çıxım gedim işimin dalınca.

– Buyur, buyur! – Riyaziyyat müəllimindən, bir də Zəlimxandan başqa hamı səs-səsə verdi. Davud isə sola burulub, bu dəfə təkcə direktora müraciət etdi:

– Mən, Əbdürrüəhman müəllim, cəmiyyətimizi ağzına alan pozğunluq barədə sənin mülahizənə şərik deyiləm!

–Niyə?! – Direktorun səsi haçalandı. – Sən o torbaşinelə tərəf durursan?! Onun o dələduz qayınlarına, oğluna?! Sən məyər bilmirsən ki, o dələduzlar kolxozlarla əlbir olub meşəni kökləditlər?! O cür adamları müdafiə eləyirsən?!

– Əksinə! Əlimdə imkan olsa, məhkəmədən-zaddan qorxmasam, bax bu qara Davudun ölmüşünə, o Kərəm Mayılovu öz

torbasının içinə salıb, üstündən də ağır bir daş bağlayıb sürüyüb ataram Qarasuyun gözünə, heç səsi-ünü də çıxmaz! Gecənin bu zülmətində mənim meşəyə düşməyimin səbəbi elə o torba deyil?! Bu yazbaşı meşəətəyi kəndlərin sədrləri yığışıb gəlmişdilər ki, əlavə qarğıdalı planı qoyublar boynumuza, əmbə torpağımız yoxdu, meşədən yer verin. Qaraxan yumşalmışdı. Mən qəti üsyan elədim. Sədrlər çıxıb getdilər. Bu axşam milisəyə çağırıblar ki, Kərəm Mayılov, o sədrlərdən pul yığıb. Ulğunluq deyilən yerdə bircə gecənin içində kolu köklədib tökdürüb Qarasuya. Bunun üstündə mən onun dədəsini yandıracam, Əbdürrəhman müəllim! Məcbur elədin, işimin dar vaxtında mətləbdən uzaq düşdüm. Sənə demək istədiyim budu ki, camaatın varlanmaq həvəsiynən belə yırtıcılaşması barədə çox nahaq dağa-daşa düşürsünüz. Necə yəni "cavab tapa bilmirəm"? Məncə, burda oturanların hamısı, o cümlədən, sən özün də hər şeyi çox yaxşı bilirsən, Əbdürrəhman müəllim. Camaatı korlayan elə Əziz müəllim özü deyilmi?!

Dayan, dayan! Xahiş eləyirəm, bircə dəqiqə də səbirini bas, müəllim! Mən də siz kimi bu barədə çox fikirləşirəm, içəridən odlanıram. Açıq deməliyəm ki, sevimliniz Əziz müəllim o kukuruznik Nikita Xruşşovun astar üzüdü. Demokratiya adı altında qanunsuzluq, mənəviyyatsızlıq, yırtıcılıq yaratmaq hara, humanizm hara?! Cəmiyyətdə o torbafason həşərata humanist münasibət antihumanizmdi, xalqa sui-qəsddi, müəllim! Peyğəmbər deyiləm mən, adi meşəçiyəm, əmbə qabaqcadan deyə bilərəm ki, bir vaxt gələcək, bu kukuruznik Nikitaya lənət oxuyacaqsınız!

Aydın deyilmi ki, həşəratı adam eləməkdən ötrü boş-boş danladalaş, "yoldaşlıq məhkəməsi" yox, maarif lazımdı! Maarif! Şüur! Bir vaxt ayılıb görəcəksən bu meşədə adam əvəzinə torbalar diyirlənir, mənim ağıllı müəllimim! Sözümü qurtardım. Bayaq dediyim kimi, bu meşədə balta taqqıqltısına birtəhər dözürəm, türmələrin qapısını taybatay açıb meşələri torbaşinel uqalovniklərlə dolduran kukuruznik səsi eşidəndə dözə bilmirəm! Bağışla məni. Məclisinizə müdaxilə elədiyimə görə üzr istəyirəm. Xudahafiz!..

– Dayan!..

– Bir daha xudahafiz, Əbdürrəhman müəllim! – Davud tüfəngini çiyninə aşırıb, fənərin mil şüasını meşənin dərinliyinə doğru yönəltdi.

Əbdürəhman müəllim yerindən dik atıldı.

– Başa düşmürsən! Əsrlərlə qadağan olunmuş tarixi həqiqətlərin tədrisindədi maarif, o da mümkün deyil! "Qanun! Qanun!" qışqırma! Hardadı sən deyən qanun?! Mir Cəfər Mirqəzəbin otuz yeddi-otuz səkkizinci illərdə, əlli-əlli birinci illərdə kütləvi tutqularını qaytarmaq istəyirsən?! Əziz Mayılov isə imkan daxilində həşəratı da adam eləmək istəyir!..

Fənərin işığı ağacların arasında oynayıb yox oldu. Davud gözlənilmədən gəldiyi kimi, gözlənilmədən də çıxıb getdi.

Dəyirmi stolun ətrafına yenə sükut çökdü...

Kim bilir, neçə il bundan əvvəl belinin bəndi qırılıb sallanan, ətəkləri yerlə sürünən boz şinelin içindən Kərəm əmi əvəzində bir iblis çıxdı və Zəlimxan bu iblisin indiyədək edib-tutduqlarını sanki təzəcə gördü. Gördü ki, bu iblis səhər-axşam əyilə-əyilə, büzüşə-büzüşə Sabit Mayılovun otağına girir, "Qaraxana deynən məni çox incitməsin, başına dolanım, ay Sabit. Altı qız onundu, səkkizi mənim, bir bölük külfət yiyəsiyəm. Qohum qohumun ətini yeyər, sümüyünü çölə atmaz, başına dolanım. Qaraxan elə həmişə məni ayağa verir. Ərbeşiklərin içində hörmətim-zadım qalmayıb. Deynən, oğlun yola gəlsin, başına dolanım!" və sair, bir sicilləmə söz üyüdüb tökür. Sonra səssiz addımlarla otaqdan-otağa keçir, Zümrüdü tapır. "Əziz əmioğlunun əziz balası, təkcə balası, başına dolanım!" – deyib şinelinin qoyun-qoltuğunu eşələyir. Zümrüdün gah çiyinlərindən al-yaşıl parçalar sallanır, gah başında saçaqlı şal yellənir, gah da qulağında sırğa titrəyir. Dəli Pəri babanın otağında, bədənnüma güzgünün qabağında dabanları üstə fırlanıb, parıltılı gözlərlə Zəlimxana baxır: "Qaqaş, yaxşıdı? Necədi, qaqaş?" İblisin aybaay, ilbəil təkrar olunan, Zəlimxanın ürəyində xoşagəlməz hisslər oyadıb keçən bu hərəkətləri bütün çılpaqlığı və iyrəncliyi ilə məhz indi görürdü. "Torba şinelin" qoyun-qoltuğuna dürtülüb çıxan kirli əl uzanıb Zəlimxanın ürəyini sıxdı. Çox tez ehtizaza gələn yaralı, həssas ziyalı ürəyi o barmaqların arasında elə dəhşətlə ağrıdı ki, ilk anlarda Zəlimxan hətta özünü itirdi və müəllimlərin yanından qayıdanda, gecənin bir aləmində Zümrüdü yuxudan oyatmaq fikrinə düşdü.

Sarsıntı belə başlandı. Və elə gücləndi ki, Zəlimxan səhərə qədər çimir eləmədən, siqaretini işıldada-işıldada otaqların açıq qapıları arasında gəzindi, azı beş-altı kərə Zümrüdün çarpayısına

yaxınlaşıb, qayıtdı. Dan yeri sökülüb qaranlıq evdə avadanlıq seçilməyə başlayanda isə həyətə düşüb, babanın çoxdan belinə yəhər qoyulmayan kəhərini yəhərlədi. Zəlimxanın lap ilk gənclikdən bəzən səhərə qədər yatmayıb siqaret çəkə-çəkə, asta, səssiz addımlarla gəzinməsinə, hələ ulduzlar sökülməmiş, quşlar civildəşməyə başlamamış, obaşdanın dərin səssizliyində meşəyə yollanmasına evdə hamı alışmışdı. Onun qeyri-adi hərəkətləri heç kəsi təəccübləndirmir, əksinə, sevindirirdi ki, "qaqaş" fikirləşir, qaqaş yazı yazacaq", – küncdə-bucaqda pıçıldaşırdılar. Qaraxandan, Səriyyə bacıdan tutmuş, kiçik qız Bəbəyə qədər cınqırlarını çəkmədən onun siqaretinin işıltısını izləyirdilər. Bu gecəki hərəkətlərini də, yəqin ki, eyni xoş arzu, istəklə dolu, gülümsər gözlərlə izlədilər. Bu hərəkətlərdə ancaq bir cəhət – qaqaşın hərdən Zümrüdün çarpayısına yaxınlaşması xoşa gəlməyə bilərdi. Əmma, necə deyərlər, bir Zəlimxan özü, bir də Allahı bilirdi ki, həmin "cəhət" onun xəyalına da gəlmirdi. Bəs nə düşünürdü? Əslinə baxsan, bu gərgin narahatlıq saatlarında Zəlimxanın beynində aydın fikir dolandığını demək düzgün olmaz. Aydın fikirdən çox, bu saatlarda Zəlimxan müxtəlif, güclü təəssüratlarla yaşayırdı. Kərəm əminin "torba şinelinin" altından sıyrılıb çıxan ağdəstə xəncər erkəyin boğazına çəkilir, beşaçılan guruldayır, qızıl qan fəvvarə vurub, buğlana-buğlana axıb göllənirdi. Qayınlar ağız-ağıza verib, xısınlaşır, pıqqapıq gülüşürdülər: "Yaşasın Qarğıdalımız öz qarğıdalısıynan!" Yaşasın Əziz müəllimimiz, öz yoldaşlıq məhkəməsiynən!" Məmlükün gözəl səsinə hırıltı qarışırdı: "İrəhbərin başına bax!.." Müəllimlər Əziz əmini ortalığa alıb danışdıqca danışır, qurtarmaq bilmirdilər, Əziz əmi indi artıq Zəlimxana tamamilə anlaşılmaz görünən süstlüklə dinləyib, "səbir eləyin, müəllimlər, səbir eləyin. Həşərat da canlıdı. Səbir eləyin. Həşərat da canlıdı" – deyirdi. Zəlimxanda isə daha səbir, təmkin deyilən şey qalmamışdı. Əvvəlki Zəlimxanı yalnız sifətindəki daimi kədər möhürü, siqaretini gec-gec, bərk sümürüb dərin qullab vurması xatırladırdı. Ürəyinə daman dammışdı, elə buna görə də səhərin açılmasını gözləməyib atlandı.

Göyün üzü aydınlaşmağa başlasa da, ağacların altı hələ də zülmət kimi idi.

Zəlimxan qarşısında ancaq bir cüt qarğıtək çatılmış qulaq seçir, bir də səhərin ayazında kəhərin haçalanıb sağa-sola vuran təpərli

nəfəsini görürdü. Qulaqları dibindəki aramsız vıyıltı anbaan gah azalır, gah güclənirdi. Vıyıltı güclənəndə kəhərin yeri döyəcləyən ayaqlarının tarrap-tarrap səsləri tamam kəsilir və bu vaxt at elə bil qaranlıq bir dərə üzərində uçurdu. Bu dərənin qaranlığında səmti-sorağı itirib yolu azmaq, günbatana üz tutduğun halda gedib gün-doğana çıxmaq da ola bilərdi. Əmma meşədə doğulub meşədə də boya-başa çatmış hər bir ağacın, kolun şəkli gözlərində həkk olunmuş bu ziyalı süvarinin xəyalında minbir yol-rizli, minbir şərti işarəli bir xəritə vardı. O xəritəyə kəhər də bələd idi. Hər ikisi bilirdi ki, təxminən yarım saat da getdikdən sonra bu dar araba yolu keçilməz bir cəngəlliyin söykənəcəyilə sağa burulub, əkilmə palıd meşəliyinə girəcək.

Bu yol on iki il bundan əvvəl, Stalinin sağlığında, meşə zolaqları planı dəbdə olanda salınmışdı ki, rus baraklarının yanındakı şitillikdən şitil daşıyıb, müharibə illərində meşəsi qırılıb toz-tozanaq məkanına çevrilmiş köhnə palıdlıqda təzə palıd meşəsi salınsın.

O vaxt burda nə meşə təsərrüfat idarəsi vardı, nə də Pəri gölünün sahlindəki tikintilər. Babanın başçılıq etdiyi meşəçilər qonşu rayonun meşə idarəsinə baxırdılar. Üzərində Zəlimxanın müxtəlif təbiət lövhələri çəkdiyi idarə blanklarının başında rusca "Beyuktalinskoye lesniçestvo" yazılırdı. Haman "lesniçestvo" vaxtında Rusyanın müxtəlif şəhərlərindən "vaqonlara basılıb göndərilmiş", başqa sözlə, sürgün edilmiş qızlardan ibarət fəhlə briqadası, Böyüktalanın on beş kilometrliyindəki tozanaqlıqda palıdlıq salmışdı.

"Öz-özünə bitmiş" meşə içində meşə salmaq o zaman Zəlimxana möcüzə kimi görünürdü. Onda belə bir təsəvvür vardı ki, Babanın öz doğma övladlarıtək sevdiyi xan çinarlar, nəhəng topa-topa qara-ğaclar, ilbəil çiçəkləyib bar verən cır-yabanı almalar, armudlar ali bir qüvvənin qüdrətilə yaranıb və o qüvvənin yaratdığına heç kəs toxuna bilməz. Hardan biləydi ki, hətta ali qüvvənin yaratdığını lap asanca məhv edənlər var.

Yol cəngəlliyə yetişəndə birdən Zəlimxan diksinib yəhərdə dikəldi. Əvvəllər burdan keçəndə o, qoynunda illərin qalaq-qalaq xəzəli, çürüntüsü yatan cəngəllikdən kəhərin ayaq səslərinin, hətta tövşüyünün, fınxırtısının əks-sədasını eşidərdi, cəngəlliyin rütubətli, ılıq hənirini duyardı. İndi isə... Nə əks-səda, nə hənir?! Yolun

sağ-solundan Zəlimxanın üzünə dəhşətli bir xərabəliyin soyuq yeli əsdi. Meşəbəyi oğlu o an da hiss etdi ki, bu həndəvərdə ağac-zad qalmayıb, torpaq quruyub, duzlaşıb. Bu hisslə də kəhərin cilovunu çəkdi, ayazdan yaşarmış gözlərini silib toranlıqda ətrafına baxdı. Kaş heç gəlməyəydi, görməyəydi! Cəmi bir neçə il əvvəl maral, cüyür oylağı sayılan, nəinki təkcə bir rayonun camaatının sevdiyi, hətta Moskvadan, Bakıdan gələn böyük-böyük adamların tərifləsaid diyi, şairlərin vəsf etdiyi bu yerlər nə kökə düşmüşdü?! Hanı qovaqların, xan çinarların pıçıltıları, niyə eşidilmir, Zəlimxan?! Uzaq-uzaq ölkələrdən uçub gələn ağ qanadlı, ləngərli quşların yuvalarını öz nəhəng ovuclarında, göyün yeddi qatında saxlayan o vüqarlı qovaqlar hanı?! Qovaqların gövdələrinə, budaqlarına sarıla-sarıla günəşə doğru yüksələn, yamyaşıl həmişəcavanlar hanı?! Hayana baxırsan kötük, kötük, kötük! Ax, odur həmişəcavanlar torpaqda sürünürlər! Həmişəcavanlar dayaqsız, köməksiz qalıblar, qocalıb-qartımağa, çürüməyə üz qoyublar! Ax, əllərin qurusun, Kərəm əmi! Kirli qoyun-qoltuğuna dəstə-dəstə pul dürtüşdürən, “torba şinelin” içində qırışıb-büzüşən, “Qaraxana deynən məni çox incitməsin, başına dolanım, bir bölük külfət yiyəsiyəm” – deyib sızıldayan Kərəm əmi! Himayədarının adını “Qarğıdalı” qoyan uqalovnik! “Rəhbər”inə gülə-gülə qoyun-qoltuğuna pul basan, acgöz torba oğlu Məmlük! Necə humanist olum indi, ay Kukuruznik köpək oğlu?!

Səhərin şehilə birgə, Zəlimxanın kirpiklərində titrəyən yaş damlaları qurudu. Ağlına heyrətli fikir gəldi: ilbəil, ardıcıl kəsilən qoç qurbanları ona görə kəsilmirdimi, “qaqaşın dəliliyi qurtarsın” sözləri ona görə dönə-dönə təkrar olunmurdumu ki, bugünkü gün yetişəndə qaqaşın üsyanı o beşaçılan gurultusunu yada salıb, gözükölgəli bədbəxti susdursun?! Bu ağlasığmaz fikirdən Zəlimxanı hövl götürdü.

Şallağı əlində bərk-bərk sıxıb, necə hərəkət etdisə, özünə heç vaxt şallaq vurdurmayan kəhər də hövllənib, yerindən qopub yol boyunca götürüldü. Palıd meşəliyinə, daha doğrusu, keçmiş palıdlığa yetişəndə isə sahibinin əhvalında dəyişikliyi hiss etmiş kimi, yavaşıyıb dayandı. Zəlimxan, doğrudan da dəyişmiş əhvalla yasa batıb ətrafına boylanırdı: kötük, kötük, kötük! Duzlaq, duzlaq, duzlaq!.. Elə bil öz sələflərinin taleyini görüb qorxa-qorxa baş qaldıran nazik, cılız pöhrələrlə əhatə olunmuş, yan-yörələrində ağac

göbələkləri bitmiş kötüklərin ara-bərəsində tək-tək qotur ağaclar!.. Zəlimxan gözlərini yumdu, qarşısında şümşad qamətli, topa taclı palıdlar cərgələndi. Bir zaman bu palıdların budaqları arasında qeyri-adi iri, alaqanad göyərçinlər gecələyirdilər. Gündüzlər ətrafdakı qara suların, yaşıl talaların üzərində göyün dərinliyinə millənən, öz gözəlliklərindən fərəhlənib coşmuş kimi, qanadlarını bir-birinə vurub şaqqıldadanda deyərdin səmada güllləbarandır... Oynaq, havalı quşlar! Quşdularmı? Öz gözəllikləri, fərəhləri ilə insanı da gözəlləşdirən, fərəhləndirən möcüzə deyildilərmi! Günəş batanda, meşə içinə toran düşəndə Alaqanadlar birdən-birə fağırlaşıb palıdların budaqları arasında toplaşıb, ay-ulduz işığında başlarını qanadlarının altına qoyub yatışardılar. Zəlimxan, qoşalüləsi çiynində, səssiz addımlarla yeriyə-yeriyə, hündürdə, göyün fonunda ən zərif şivinə, zoğuna qədər aydın seçilən çal-keçir budaqlar arasında bir-birinə qısılmış möcüzələrə tamaşa edərdi. Baba bu Alaqanadların məskənini şəxsən özü qoruyardı. Möcüzələrin növrağını pozmağa heç kəs cəsarət etməzdi. Zəlimxan hətta evdə oturanda da möcüzələr onu özlərilə birgə günəşin altına qaldırardılar. Zəlimxan orda – ucalıqda qərar tutub yurdunun tamaşasına dalardı. Sonra riqqətdən sinəsi atlana-atlana Babanın otağının yuxarı başında, pəncərə qabağında onluq lampanın işığında səhərə qədər oturub riqqətini kağızlara köçürərdi, Bakıya öz sevimli qəzetinin redaksiyasına yollayardı ki, başqa ürəklər də eyni qürurla döyünüb, onun vəcdini təkrar etsinlər: "Vətənim gözəldir! Vətənimə qurban olum!" – desinlər. Hanı o oynaq, havalı möcüzələr, Zəlimxan?! Gözlərini bir daha ətraflara boylandı. Kötük, kötük, kötük!.. Beynində iki kəlmə dolandı: "Kötüklər səltənəti..."

Kəhəri çapa-çapa getdiyi yolu, bütün dünyaya laqeyd kimi, elə bil gözüyumulu qayıtdı. Yalnız hərdən meşədə yad nəfəs duyub diksinən kimi olub, yolun sağ-solundakı akasiya cərgələri arxasında uzandıqca uzanan kötüklər, duzlaqlar görüb, dərddən ağırlaşmış başını köksünə əyirdi, daha heç yana baxmasa da, yol qıraqlarında sıx-sıx cərgələnmiş akasiyaların arxasında bayaq "kötüklər səltənəti" adlandırdığı kötüklüyü görürürdü. Qaraxanın ayrı cür həvəslə, "qollarını çırmayıb fəhlələrlə bir yerdə" becərdiyi bu akasiyaların həddindən artıq sıxlığı təəccüb doğururdu. Və Zəlimxan istər-istəməz qaşlarını çatırdı ki, niyə belə? Rayon yolunda da,

Böyüktalanın dövrəsində də belə sıx akasiyalıqlar Moskadan göndərilən o "plan" üçün idi, yoxsa kötüklər səltənətini, duzlaqları gizlətməkdən ötrü?!

Birdən elə bil mürgüdən ayılıb o yan-bu yana baxdı. Traktor tırıltısına bənzər gurultular meşəni başına götürmüşdü. Bu nə idi? Yer əkirdilər? Xeyr, sadəcə, bir-birinin ardınca düzülmüş, ağacla dolu yük maşınları cərgələnib Zəlimxana doğru gəlirdi.

Yad-yabançı, yorğun şoferlər və kəsilmiş, arıtlanmış ağacların üstündə mürgüləyən adamlar, tırıltılar keçib getdi. Sonra isə... bu nə idi?! Mayılovun "M-1" maşını?! Yüklü karvandan təxminən yarım kilometr arxada yavaşıyıb dayananda Zəlimxanla qayınatasının xoflu gözləri biri-birinə sancıldı.

– Əmi?!

– Zəlimxan? Bu vədə burda neynirsən?

– O nə maşınlardı, əmi?! Sənin gözüyün qabağında daşıyıb aparırlar?!

– Aparırlar, bil.

– Niyə?! Nə deməkdi bu?!

– Bu heç... Sən get meşəətəyi kəndləri gəz, içmək üçün bir stəkan su istə. Su quyularının hamısı duzlaşıb. Hamısı! Mən çoxdan bilirəm bu bəlanı. Ətraflarda meşə qalmayıb. Qırılıb hamısı, qarğıdalı əkilib. Camaat gözümün içinə söyür! Lap uzaqda, dağ döşündə "Qayım qaya" deyilən yer var. O tərəfdə, Zaqatala tərəfdən sızaq su gəlir, "Qayım qaya"nın altına dolur. İçməyə suyu bütün kəndlər arabaynan, eşşək arabasıynan ordan gətirirlər! Bədbəxt olmuşuq, əzizim!.. O yanda da ermənilər zəhərli zavod tikiblər, az-çox içməli suyu olan "Sızqa çayı"mızın suyu da zəhərlənib!.. Tiflisə gedirəm, bəlkə orda söhbətləşib Moskvaya zəng vuraq. Çünki daha dözmək olmur... Sağ ol! Görüşərik, inşallah...

Bu söhbət də elə bil yuxuda oldu, qurtardı. "M-1" uzaqlaşıb getdi. Zəlimxan isə, yüyəni əlindən salıb, başını əyib haraya, nə üçün getdiyini anlamadan, ağır-ağır yol getdi...

## *Dördüncü və axırıncı təfsilat*

### SARSINTININ NƏTİCƏSİ

Nə üçünsə Babanın otağına çağırılmış Zümrüdün arxasınca gedəndə, hələ astanadan adlamamış Zəlimxan fikirləşdi ki, burda, Babanın hüzurunda azı yarım saat danışmalı, sinəsində qövr edən dərdini tələsmədən Zümrüdə başa salmalıdır. Əmma qəribədir ki, söhbət heç beş dəqiqə çəkmədi. Kərəm əmi ilə Qaraxanı da burda, xalının yuxarı başında, Babanın sağ-solunda görəndə o, anlaşılmaz sıxıntı hiss edib, özünü də təəccübləndirən quru, soyuq sözlərlə qısaca izah etdi ki, Kərəm əmi pis adamdır, əli əyridir, çapqınçı-talançıdır, "Əziz əminin əziz balası" üçün gətirdiyi hədiyyələrin hamısını qaytarmaq lazımdır.

Zəlimxan bunları deyib duruxdu. Elə bu? Bütün narahatlığı, sarsıntısı elə bu kəlmələrlə ifadə olunurdu? Əlbəttə yox. O, hər dəfə Zümrüdün əlində yeni hədiyyə gördükcə keçirdiyi hisslərini, müəllimləri ilə söhbətini, "təkqol direktor"la Davudun mübahisəsindən aldığı təəssüratını, Əziz əmi ilə əlaqədar məsələləri, xəyalından getməyən dəhşətli kötüklər səltənətini, duzlaqları, duyduğu fəlakəti bütün incəliyinə qədər danışmalı, nişanlısına – yəni həyat yoldaşına birər-birər çatdırmalı idi ki, bu açıq, mərd söhbət Sabit Mayılovu da özünəməxsus mərdliyə çağırıb, öz qəddar, yassar, torbaşinel əzizindən gizlin narazılığını daha gizlətməsin.

Niyə tutuldu? Niyə?

Əlini qeyri-iradi cibinə atıb, siqaretə toxunub, söhbətini yenidən başlamaq üçün Zümrüdə baxdı və... və birdən-birə başa düşdü ki, içərisindəki təlatümü heç bir sözlə ifadə edə bilməyəcək. Niyə? Niyə? O ki heç vaxt söz üçün məəttəl qalmır, ən mürəkkəb hisslərini də çətinlik çəkmədən izah edirdi, indi nə olmuşdu? Yoxsa qorxurdu? Qorxurdu ki, Zümrüd fəlakəti başa düşməsin?!

Gözləri Babanın otağından o yana – "iki evli pişiyin evi" sayılan otağa açılan qapı ilə üzbəüz divar dibində kitab tərəcəsinin üstündə dolandı; Dəli Pərinin Qaqaşsız keçən günləri, ayları o tərəcədəki "seçmə kitablar"la keçmişdisə, şuxluğu, oynaqlığı ilə tən gələn ağlına, dərrakəsinə heç şübhə yoxdusa, niyə başa düşməsin?

– Eşitdinmi, Zümrüd? Kərəm əmi özü də burdadı. Bu söhbəti Baban özü eləməliydi onnan. Adı, familiyasıynan çağrılan Sabit Mayılovun ağsaqqallıq işlərinə qarışdığıma görə üzr istəyirəm ondan. Gətir hədiyyələri! Qaytar özünə!

– Qaqaş!.. – Qaraxan ayağa qalxdı. – Qaqaş, qurbanın olum, yaxşı deyil, axı!.. Kərəm əmi böyük günah sahibidi. Özün gördün ki, mən necə alıb-yatdım... Camaatın gözünün qabağında biabır elədim... Əmbə bu... bu heç yaxşı iş deyil ki, sən tutursan, qurbanın olum!.. Atlandın, getdin, gəzdin, gördün. Maşında, dalınca gəzirdim. Gözün dünyanı seçmirdi, gözlərinə qurban olum. İnanarsanmı, ağladım, qardaş?! Həm də fəxr elədim ki, belə ürək, vicdan mücəssəməsi qardaşım var. Yazdığın "Akasiya" tək Kərəm əmiyə görəmi yazılıb, qurbanın olum? Çapqınçıların, talançıların sayı-hesabı yoxdu! Qarşısını almaq mümkün deyil!..

Zəlimxan hələ də tutqun və hərəkətsiz idi. Zümrüd nə isə çox ləng tərpənirdi.

Zəlimxan ağır-ağır sıxıntı ilə nəfəs ala-ala təkrar dedi:

– Qaytar!..

– Qaqaş!.. Qurbanın olum!..

Zəlimxan daha qulaq asmayıb, Qaraxanın sözünü kəsdi:

– Bəs sən elüzəri danışmırdın, Qaraxan? Bu nə yalvarışdı?

Birinci dəfə idi ki, Qaraxanın dilindən düşməyən "qurban olum" ona bir cür görünürdü. Söz yox ki, bu iki kəlmə qardaş ürəyindən qopurdu. Əmma... Zəlimxan hiss etdi ki, bu iki kəlmə həm də adi vərdişlə deyilir; Qaraxan öz "qurban olum"unun mənasını o qədər də hiss etmir.

Birdən tarappatarap qopdu; Zümrüd "evi"nə yüyürüb taxta sadağın yan qulpundan yapışıb, sürüyüb gətirib, qapağını qaldırdı, sandıqdakı müxtəlif rəngli, ağır parçaları qucaqlayıb xalının üstünə tökdü.

Zəlimxan dərindən nəfəs alıb toxtadı.

Zümrüd öz təbiətinə uyğun açıqlıqla "torbaşinel" əmiyə baxdı: əmma nədənsə dillənmədi. Zəlimxan fikirləşd ki, Dəli Pəri öz sözünü elə bu hərəkəti ilə çatdırdı.

Gözləri Dəli Pərinin buxağına, sinəsinə işıq saçan "komplekt"ə – iri ağ qızıl sırğalara, üstü brilyantla dolu ağ qızıl boyunbağına dirənmişdi.

– Sırğaları da çıxart... boyunbağını da!.. Kərəm əminin səndə heç nəyi qalmamalıdı, – dedi və... hələ sözünün axırını qurtarmamış, dəhşətli bir mənzərə qarşısında bütün fikirləri alt-üst oldu. Zümrüd dodağını dişləri arasına alıb, Zəlimxan üçün tamamilə anlaşılmaz bir çılğınlıqla, yumru, qızıl sırğaları dartışdırdı.

Zəlimxan bir vaxt ayıldı ki, qızın qulaqları, boğazının sağı, solu qan içindədir, bir cüt qanlı sırğa parçanın üstündə qızarır, elə bil tamam başqa, yad bir adam isə, onun qarşısında gözlərini bərəldib, ağzını açıb-yumur, Zəlimxan üçün yad bir dildə bayağı sözlər qışqırır:

– Tək mənəm?! Hamı geyinmir?! Səriyyə bacının, qızların, Məryəmin geyindikləri hardandı?!

Zəlimxan dəhşət içində geri döndü, qapının arasında qısılıb dayanmış Səriyyə bacı ilə Məryəmə baxdı:

– Səriyyə bacı!.. Məryəm!.. Bu nə danışır?!

Səriyyə bacı qızardı, kəlağayısını qaşlarının üstünə çəkdi, səssizcə çevrilib getdi.

Məryəm getmədi. İri, ağır əllərini yanına salıb, yorğun, hətta laqeyd görkəmlə çiynini qapının çərçivəsinə söykədi. Gözləri eynilə Davudun gözləri kimi qıyılıb Zümrüdün üzünə dikildi.

– Anamı, qızları demirəm... Öz adını mənə qoyma, “Əziz əmimin əziz balası”. Mən qızıl teştə tamah salıb axırda içinə qan qusanlardan deyiləm!

Babanın təsbehi əlindən düşdü. Məryəm qocanın dizlərindən taqətsiz sallanmış əllərinə və təsbehə baxdı, həmin qıyıq – hiddətli gözləri bu dəfə Zəlimxanın gözlərinə dikdi.

– Dünyadan xəbərin yoxdu sənin, qaqaş! Bir əlində dəftər, o biri əlində qələm rus baraklarını gəzdin dönə-dönə, hekayə yazdın: “Sürgün”. Babannan, qardaşından savayı bu talada hamı gülürdü sənin o hekayənə! Niyə? Bilirsən? Bax bu kaftar əmin o pozğunlardan birini də yox, ikicəciyini qızıla-gümüşə, ala-şala bələyib! Böyük qaynıynan ortancılı, kiçiyi də bu murdar yeznənin elədiyini eləyirlər o baraklarda! “Hoppur-hoppur” oxuyan istəkli əmioğluyun bir sürü oğul, qız küçüyü var o baraklarda! O da bəsi deyil hələ, hər bazar günü bir sürü qonağı gəlir şəhərlərdən, kəndlərdən! Sənin bu ağsaqqal babanı ağsaqqal nədi, heç adam yerinə də qoymurlar, axşamdan sabahacan qarmona, zurnaya, dəfə süzəsüzə çıxmırlar baraklardan! Hamısı da vəzifəli paqonnu-filannı.

Necə yanı “pis adamdı Kərəm əmin?!” Necə yanı “soyğunçudu, talançıdı?!” İnsandımı o?!

Qoca ağır-ağır ayağa qalxdı. Boğuq qışqırtı ilə: “Bəsdi!” – dedi.

Zəlimxan gözlərini Zümrüdün qanlı qulaqlarından, boğazından çəkə bilmirdi. Əmma fikri atasında idi.

Babanın təsbehi əlindən düşdü. Çəkməsini öz qiymətli təsbehinin üstünə basdığını, kəhrəba dənələrini xınc-mınc əzdiyini hiss etmədən, yerindən qopub Məryəmin üstünə yeriyən qocanın niyyəti Zəlimxanı bir an hər şeydən – Zümrüddən də, “tobaşinel əmi”sindən də ayırdı. Bu anda Zəlimxan, qardaşı qızlarının arasına elə bil doğrudan da kənardan gəlmiş ucaboy, yorğun, tox nəfsli və qürurlu qızı müdafiə etməkdən başqa heç nə düşünmədi. Zümrüdün otaqdan çıxıb hara isə qaçdığını da görməyib, özünü toplayıb Məryəmlə Babanın arasına keçdi.

Əmma müdafiəyə ehtiyac qalmadı. Məryəm vaxtında dönüb uzaqlaşdı. Həm də heç pəsinmədən, öz adi, yorğun, bir növ laqeyd addımları ilə çıxıb getdi. Qoca onun arxasınca yönəlmədi. Ailə üzvlərindən birisinə cəza vermək lazım gələndə, Sabit Mayılov fin evindən kənara çıxmayıb bu işi ancaq öz otağında icra edərdi, yəni sirrin çölə düşməsini istəməzdi. Görünür, indi də eyni mülahizə ilə ayaq saxladı, bir xeyli dayanıb, evdəki dərin sükut içərisində ağır-ağır töyşüdü.

Zəlimxan elə bil yuxudan ayılıb Zümrüdü axtardı

Zümrüd yox idi.

Zəlimxan kim bilir neçənci dəfə yenə al-şal yığınına, qanlı sırğalara baxdı. İçərisindən elə bil nə isə qırılıb düşmüşdü. Bu qırılıb düşən şey o qədər qiymətli idi ki, daha Zəlimxanı öz itkisindən başqa heç nə maraqlandırmırdı. “Tək mənəm?! Hamı geyinmir?! Səriyyə bacının, qızların, Məryəmin geyindikləri bəs hardandı?!” – Zəlimxanın tanımadığı bir nəfər hələ də onun qulaqları dibində qışqırırdı.

Sabit Mayılov oğluna yaxınlaşdı; Zəlimxanın qarşısında ikinci tanımadığı bir adam ağzını açıb-yumdu, saqqalını əsdirdi:

– Yığışdır bu parçaları! Öz əlinnən doldur o sandığa! Özün də üzr istə o kişidən! Eşidirsənmi?! – Qoca əlini atıb “torba şinelin” çiynindən yapışdı, qov kimicə qaldırıb oğlunun qabağında yerə qoydu. – Murdardı, pozğundu, hər nədi özü bilər, öz Allahı bilər. Elədiyi günahın cəzasından heç kəs qaçammaz bu dünyada. Qələm əhli oldun. Ağıllı sayılırsan. Ağıllısansa, bə o “Sürgün” nə idi?! Niyə

qanmırsan ki, təzə rəhbəriniz Xruşşov yoldaşınız niyə sürüb bura o tumansızları?! Budu bax, danışdır, gör nə deyir qardaşın. Mingəçevir tikilisinə də sürüynən göndəriblər o tumansızları! Vaqona basıb Bakıya da doldururlar! Orduynan yox, indi tumansızlar sürüsüynən məhv eləyirlər sənin millətini, ay bədbəxtim! "Köhnə bolşevik" çağırılan Sabit Mayılov deyir bunu sənə! Qeyrətin varsa, millətiyin dərdini çək! Nə yapışıbsan bu murdarın yaxasından?! Bu murdar Kərəm o Kərəmdi ki, xurcununun altından suyu süzülə-süzülə, kürəyi islana-islana sənin dalınca azuqə daşıyıb, oxutdurub, adam eləyib! O hörmətdimi qoyursan Kərəm əminə?! Əmi-dayı qanırsan sən, ya yox?! Üzr istə bu dəqiqə, naxələf oğlu naxələf! Bu çaqqal deyil meşəni dağıdan, kolxoz sədrlərinə, sovxoz direktorlarına hökm eliyəndi, palıdı köklə, pambıq, qarğıdalı ək deyəndi! Qandınmı, qələmli köpəyoğlu! Üzr istə bu murdardan! Soyğunçudan! Çapqınçıdan!

– Başına dolanım, mən sənin istəyəninəm, dost-doğma əmin, canın-ciyərinəm! Başına dolanım, tapdama məni, evimi yıxma, ocağımı qaraltma! Əmisi Zəlimxanın böyründə zığıldaya-zığıldaya əyilib-düzəlirdi.

Qaraxan da o biri tərəfdən, qardaşının biləyini, dirsəyini qarmalaya-qarmalaya hüdüləyirdi:

– Qaqaş, qurbanın olum, qızın könlünü al! Qoyma Zümrüd mənim evimdə göz yaşı töksün. Bu əmini tapdadın, heç olmasa, o biri əmini tapdalama! Nəslimizi, kökümüzü parçalama, qol-qanadımızı sındırıb bizi bədbəxt eləmə, qurbanın olum!

Zəlimxan bu sızıltılı yalvarışlara, öz məntiqi olan ittihamlara axıra qədər qulaq asa bilməyib, yavaşca dönüb otaqdan çıxdı.

Zümrüd qızların otağında, divar dibindəki stula çöküb əllərilə üzünü qapamışdı. Zəlimxanı görəndə stuldan atılıb, çiynindən düşən şalı havada qapıb, dümağ, ağır ipək saçaqları arxasınca sürüyə-sürüyə dib otağa cumdu. Qapını çırpmaqla da kifayətlənməyib, şaqqıltı ilə açarı burdu. Qapının altında qalan ipək saçaqlardan tükürpədici xırçıltı eşidldi.

Zəlimxan qapını döydü. Eşiyə çıxıb, evin böyrünə hərlənib pəncərəni taqqıldatdı, faydası olmadı. Baş vermiş müsibəti hələ o qədər də aydın dərk etməsə də, Zəlimxan kənara getməyib, axşama qədər gözləyib, atası ilə mümkün qədər sakit söhbət eləmək fikrinə düşdü. Həmin söhbət və bir il sonra "Atan can üstədir, təcili gəl!" sözlərilə başlanıb, oğulluqdan çıxarılmaqla, evdən qovulmaqla

nəticələnən söhbət də oxucuya məlumdur. Bir halda ki, məlumdur, demək, təfsilatlara son qoymaq və nəhayət, yol ayrıcına qayıtmaq olar.

Bəli, Zəlimxan Zümrüdün yanında özünü günahkar hiss edirdi. İndi aydındı ki, onun Pərisini dəyişdirib əvəzində, doğrudan da, "bəni-insan əli təmasından dəli olmuş", tamam başqa – yad bir "Pəri" yaradan səbəbləri vaxtında görməyib, Zümrüdü vaxtında xilas etməmişdi. İndi isə... Əfsanədən doğulmuş Dəli Pəri əfsanəyə çevrilib Qarasuyun dumanı ilə birgə ələgəlməz, tutulmaz olmuşdu. Zümrüdlə birgə Baba da, Qaraxan da, Böyüktalanın sakit – epik həyatı da, hətta təkqol direktorla müəllimlər də əfsanəyə dömüşdü. Elə isə, bəs Zəlimxanı bu yol ayrıcında dayanmağa məcbur edən nə idi?

Blaknotunu çıxarıb dizinin üstündə açmışdı. Əmma qələm başlanğıcındaca ilişib dururdu. Hardan başlasın, necə yazsın, meşənin, təbiətin, insan gözəlliklərinin, doğruluğun, saflığın düşmənləri haqqında necə yazsın, bütün qəzetləri, jurnalları öz patriot humanist nitqləri ilə dolduraraq "Qarğıdalı"nın, əziz, can-ciyər "Əziz müəllimlə yoldaşlıq məhkəməsi"nin haqqında necə yazsın ki, dərdinin böyüklüyü, qəzəbinin, kininin dərinliyi bütün aydınlığı ilə görünsün?!

Zəlimxanın əli titrəyirdi. Beyni uğuldayırdı.

Açıq səhifəyə baxa-baxa neçə saat oturduğunu, sonra blaknotu, qələmi plaşının cibinə qoyub ayağa qalxdığını, hara və nə üçün getdiyini də dərk etmədi. Pəri gölünün sahilində, tənha tut ağacının ətrafında gəzindi, köhnə ocaq yerində xırda, nəm kömür qalıqlarına tamaşa elədi. Əmma heç nə düşünmürdü. Heç nə! Çünki "Atan can üstədir, təcili gəl!" sözlərini oxuduğu andan keçən müddətdə – iki gündə yuxusuz qalmışdı. Üstəlik, bir tikə çörək də yeməmiş, su da içməmişdi.

Həmin ocaq yerində huşunu itirib yerə döşəndi.

Səhərisi Qaraxanın qolları üstündə gözlərini açanda elə bil illərin uzaqlığından gələn yalvarış eşitdi:

– Mənim xallı qaqaşım, qovğalı-qallı qaqaşım! Gözlərin niyə irilənib, a gözlərinə qurban olum!

Taqətsiz qollarını zorla qaldırıb, Qaraxanın boynuna sarılıb hönkürdü. Bir az sonra "qaqaşın getmədiyini" eşidib, yüyürüb gələn qızlarla birlikdə bütün Mayılovlar baş-başa verib hönkürən qardaşların ətrafına yığışa-yığışa ağlaşırdılar. Demə, hətta "torbaşinel əmi" ilə "hoppur-hoppur" oxuyan abırsız da ürəkdən ağlaya bilirmişlər...

## ŞƏPPƏLİ

Sovxozun direktorundan, baş mühasib Mursaquludan tutmuş fəhlələrə, çobanlara qədər, hamı bilirdi ki, Şəppəliyə işin düşübsə və işin tez düzəlməyini istəyirsənsə, gərək "salam-məlik"dən də əvvəl doktor Məmməni xəbər alasan, oturub heç olmasa bir-iki dəqiqə Məmmə haqqında yeniliklərə qulaq asasan; məsələn, onun, yəni Məmmənin anası Pəricahanı Bakıya aparmaq, orda anasına yaxşı şərait yaratmaq üçün təzə mənzil tədarükündə olduğuna, professor qızı Zemfiranın öz qayınanasına, yəni Pəricahan arvada şal parçadan paltarlıq göndərdiyinə və sair bu kimi söhbətlərə qulaq asasan və həm də bunların sənə xoş gəldiyini bildirəsən; başqa cür olsa, Şəppəli ilə dil tapa bilməyəcəksən.

Hər kəsin ki Bakıda "kəndçi balnisəsi"nə işi düşürdü, birbaşa Şəppəlinin yanına gedirdi, doktor Məmmənin kefini-əhvalını soruşub, nəhayət, mətləbini açırdı. Şəppəli isə stolun orta siyirməsində "xüsusi işlər üçün saxladığı "yağlı kağızlardan" birini çıxarır, eynəyini alnından burnunun üstünə endirib, qələmi mürəkkəbə batırıb tələsmədən, siliqə-sahmanla yazmağa başlayırdı: "Əzizim-gözüm Məmmə..." Əgər "kəndçi balnisəsinə" işi düşənlərdən biri səhvən Şəppəlinin öz kefini xəbər alsaydı, bozumtul, seyrək kirpiklər arasında xırdaca gözlərin hirsli baxışı ilə qarşılaşardı. Bu vaxt Şəppəlinin alnında duran eynəyin şüşələri də elə bil qəzəblə parıldayırdı: "Doktor Məmmənin kefi necədi, mənimki də elə!" Di gəl bil görüm necə bilərsən ki, beş yüz kilometrlikdə Məmmənin kefi necədir?!

Baş mühasib Mursaqulu evli-eşikli, arvadlı-uşaqlı adamdı. Düz saat səkkizdə işə gəlir, düz dörddə çıxıb gedirdi. Şəppəlinin isə, tale belə gətirmişdi ki, nə ev-eşiyi vardı, nə də arvad-uşağı. Ta işıqlar yanana qədər stolunun arxasında "çötkə çaqqıldadır" və yalnız kəmərinin altında bağırsaqlarının tərpənişdiyini hiss edəndə durub aşxanaya gedirdi. Küncün birində oturub "bala-bala araqlayır, pivələyirdi". Məhz "bala-bala". Şəppəlinin ifratçılıq elədiyini, küçəyə çıxanda azacıq də olsa səndələdiyini hələ görən yoxdu. Əmma dildə-ağızda bir ifadə gəzirdi: "Şəppəlinin balans stəkanı".

Həmin bu "balans sətkanı"nı o, yalnız həftənin axırında, ya da bazar günlərində aşxana bağlanana yaxın doldururdu. Bu vaxt Şəppəli ayağa qalxanda aşxanada hamı əvvəlcədən bilirdi Şəppəli nə deyəcək: "İçirəm doktor Məmmə Orucoğlunun sağlığına!" Bu, o deməkdi ki, kimin içməyə meyli varsa, buyursun hesabdarın süfrəsinə. Sağlıqlar da həmçinin, əvvəlcədən məlum idi: "Məmmənin canı sağ olsun!" "Məmənin şəfalı əlləri vap olsun!", "Məmmənin anası Pəricahanın sağlığına!", "Məmmənin nişanlısı professor qızı Zemfiranın sağlığına!" Ən axırda "Məmmənin dostu Şəppəlinin sağlığına!"

Hamı içər, Şəppəli isə, "balans stəkanı" əlində, yorulmaq, usanmaq bilmədən doktor Məmmədən danışırdı.

Hesabdarın sözü-söhbəti nə qədər yeknəsəq, uzun və hətta bezdirici olsa da, bu söhbətlərdən hamını sevindirən bir nəticə çıxırdı: "Kəndçi balnisəsi" deyilən xəstəxanada cavan, gözəl bir həkim var ki, hamı onunla fəxr edə bilər. Məmmə insanlıq, yaxşılıq timsalı idi. Məmmə ağıl, istedad mücəssəməsi idi. Nəhayət, Məmmə, böyük şəhərlərdən uzaq, dağətəyi qoyunçuluq sovxozunda, balaca bir otaqda oturub "çötkə çıqqıldadan" balaca bir adamın özü üçün yaratdığı dünya idi.

Bir yay səhəri xəbər çıxdı ki, bu dünya uçub-dağılıb: Şəppəlinin məktubu ilə "kəndçi balnisəsinə" getmiş baş mühasib Mursaqulu sovxoza qayıdıb xəbər verdi ki, doktor Məmməni xəstəxanadan qovublar. Nə üstündə? Rüşvət?! Dəhşət!.. Eşidib bilənlər, qəribədir ki, Məmmənin doğmaca anası Pəricahanın yox, Şəppəlinin haqqında düşündülər: "Şəppəli bu dərdə dözməz!"

Bu fikri Şəppəlini hamıdan yaxşı tanıyan iş yoldaşı Mursaqulu da təsdiq etdi; kontorun həyətində, camaatın arasında dedi:

– Şəppəli öləcək.

Mursaqulu qaradinməz adamdı. Camaat içində, iclasda, yığıncaqlarda sözü ondan, necə deyərlər, kəlbətinlə qoparırdılar. Burda isə Mursaqulu könüllü, həm də belə qətiyyətlə fikir söyləyəndə, hamı inandı ki, demək, doğrudan da Şəppəli öləcək.

Tək bir nəfər Mursaqulunun sözünə etiraz etdi:

– Tələsməyin Şəppəlini basdırmağa, – dedi.

Bu, Şəppəli özü idi. Əlində bir vərəq kağız, eynəyi alnında, üç addımlıqda durmuşdu.

– O vaxt ölərəm ki, Məmmə mən deyən Məmmə olmasın.

Yaxınlaşıb əlindəki vərəqi Mursaquluya verdi.

– Qol çək, Bakıya gedirəm. Əgər Məmmə sən dediyin Məmmə olsa, onda əlbəttə, daha Şəppəlinin bu dünyaynan işi yoxdu. Bakıdanca bildirəcəm, qəbirimi qazıb hazırlayarsınız, gəlib girərəm içinə, torpaqlarsınız, qurtarıb gedər.

Mursaqulu kağıza qol çəkib qaytardı.

Camaat lal-dinməz dayanıb baxırdı.

Doktor Məmmə ilə Şəppəlinin dostluğunun hardan, necə başlandığını və nəyə görə bu qədər möhkəmləndiyini doğru-dürüst bilən yox idi. Bircə bunu bilirdilər ki, Şəppəli Məmməsiz yaşaya bilməz, buna görə də indi, hesabdarın belə təcili getməyini təbii hesab edirdilər.

Şəppəli eynəyi alnından endirdi, illər uzunu kağız üstündə hər şeyi yerində və vaxtında yoxlamağa adət etdiyindən, Mursaqulunun yazdığı dərkənarı burdaca oxudu: "Sentyabrın maaşı verilsin".

Maaşı alandan sonra Şəppəli, həmişə onun Bakıya hazırlıqlı getməsinə kömək edən aşxana müdirinin, sonra da Pəricahan arvadın yanına dəydi.

– Mursaqulunun çərənləməsinə inanma. Camaatın içində özünü sındırma, Pəricahan! Əgər Məmmə Mursaqulu deyən Məmmə olsa, onda bil ki, mən bu dünyaya eşşək gəlib, eşşək də gedirəm! – dedi və dərhal yola düşdü.

Onu hələ lap gənclikdə, evlənmə ərəfəsində şəppə vurmuşdu, yəni iflic. Öz dediyi kimi "ağzı gedib qulağının dibində durmuşdu". O vaxt, yenə də Şəppəlinin öz dediyi kimi, "dünyanın nadan vaxtı idi", həkim-filan tapılmırdı.

Qardaşlığı Oruc onu qonşu kəndə – bir mollanın yanına apardı.

Kənardan baxanda torpaqdan seçilməyən yastı qazma damların arasında yeganə insan mənzili kimi görünən, balkonunun dirəkləri və pəncərələrinin çərçivələri göy rənglənmiş, divarları və döşəməsi sarı torpaqla suvanmış ev bu gün də Şəppəlinin yadında idi. Çünki o evə o, düz bir ay ayaq döymüş, bu evdə gündə bir kərə "cəhənnəmi gözü ilə görmüşdü".

Hər səhər qapıda onu kök, bəstəboy, ağzı yaşmaqlı, qaradinməz bir qadın qarşılayırdı. Bu, mollanın bacısı idi. Qarşılayıb Orucla Şəppəlini içəriyə, üstünə təzə, əlvan xalı salınmış taxta dəvət edirdi. Hərəsinin dirsəyinin altına bir mütəkkə qoyub, buğlanan samovar,

dümağ yuxa, yağ, bal, qaymaq gətirib, xəstəyə yox, elə bil əziz qonaqlarına qulluq eləyirdi. Oruc bu nemətlərdən həmişə iştaha ilə, ləzzətlə yeyirdi. Şəppəli isə könülsüz. Bilirdi ki, səhər-səhər çay qırağında dəstəmaz almağa gedən molla tezliklə gəlib, qolunu çirməyib onu şapalaqlamağa başlayacaq, "yediyini burnundan gətirəcək". Eynilə bacısı kimi kök, bəstəboy, topqara saqqal mollanın geniş pəncəli ağır əli, bir də şapalaqları çatıldadıqca qırpılan iri gözlərinin parıltısı bu gün də Şəppəlinin yadında idi.

Molla düz otuz gün hər səhər Şəppəlini şapalaqladı, otuz birinci gün ona bir kasa qızılgül şirəsi tamında "birtəhər su" verdi. Şəppəli bu suyu içib, birdən-birə süstləşdi və yuxuya getdi.

Ayılanda başı üzərində dayanıb gülümsəyən molla ilə əlindəki güzgünü ona sarı uzadan Orucu gördü.

Şəppəli güzgüyə baxdı: ağzı qulağının dibindən qayıdıb öz yerində durmuşdu. Təkcə alt dodağı bir az səyriyirdi. Şəppəli baxıb-baxıb birdən güldü: "Ay molla, imanına qurban olum, otuz gün məni şapalaqlayanacan bircə kərə o sudan içirdəmmirdinmi ki, bu zülmü çəkmiyəydim".

Oruc şaqqanaq çəkdi, çünki hikmət, doğrudan da, şapalaqlarda yox, o "suda" idi. Dostu Şəppəlinin müdrikliyinə lap çox güldü. Molla isə onu "naşükür bəndə" adlandırdı. Əmma sonra Şəppəlinin üzündə nə gördüsə, bığının altında qımışıb, əyilib qulağına pıçıldadı ki, "səni otuz gün şapalaqlamasaydım, dostun Oruc mənə hər gün bir toyuq gətirərdimi? Düzünü de!" Şəppəli dedi: " Gətirməzdi". Bu, mollanın xoşuna gəldi. Dedi: "Bir də naxoşlasan birdəfəyə otuz toyuq gətir, əlüstü sağaldım, çıx get".

Şəppəli də qəhqəhə çəkdi: "Lotu loğmansan, xoşum gəldi səndən!" – deyib çıxdı. "Bir də naxoşlamaq" təhlükəsi barədə, əlbəttə, heç fikirləşmədi də. Əmma, demə, molla bu sözləri zarafat xətirinə deməyibmiş; hadisədən on il sonra, Şəppəli şəppəsini tamam unudanda üzünü yenə şəppə vurdu.

Bu, Oruca məhkəmədə on dörd il həbs cəzası kəsilən günü baş verdi. Orucla axırıncı dəfə öpüşüb ayrılanda, Şəppəli ətrafdakı adamların ona qəribə, müəmmalı diqqətlə baxdıqlarını hiss edir, əmma buna əhəmiyyət vermirdi. Sonra adamların hara baxdıqlarını görüb, birdən təlaşla əlini üzünə çəkdi və dərhal, illərin uzaqlığında qalıb unudulmuş molla yadına düşdü.

Əmma molla çoxdan vəfat etmişdi.

Şəppəli, hər ehtimala qarşı, bazardan bir neçə toyuq alıb, mollanın mülkündə qalmış qoca bacısının yanına getdi. Qarı and-aman eləyib onu inandırdı ki, Molla "şəppə suyunun" sirrini özü ilə o dünyaya aparıb.

Sakit, ılıq yaz səhəri idi. Dağ ətəyində yan-yanaşı tikilmiş daş kahaların qarşısında cığırlarla, yollarla çal-çarpaz doğranmış geniş, yaşıl çəmənlikdə, iki cərgə dayanmış adamların arasında quzular qaçışırdı; döl qurtarandan sonra sovxozun ayrı-ayrı sürülərində quzu sananıb "uçota" alınırdı. Şəppəli də burda idi. Başqaları kimi, o da ovcunda xırdaca hesablayıcı cihaz tutmuşdu. Quyruqları atıla-atıla qaçan quzular gəlib qarşısından keçdikcə, Şəppəlinin barmaqları cihazın düyməsini basır, çırıqqaçırıq sürətlə artan rəqəmlər sovxozun təzə ildə dövlətini onun balaca ovcuna yığırdı. Bu dəqiqələr Şəppəlinin elə vaxtı idi ki, necə deyərlər, top atılsaydı eşitməzdi. Buna görə də cəmisi on addımlıqda dayanmış maşının siqnalı ona çatmırdı. Yalnız Mursaqulu kişi dirsəyinə toxunub hesablayıcı cihazı əlindən alandan sonra Şəppəli süd rəngli "Volqa"nı və sükanın arxasında işarə ilə onu çağıran ağbəniz oğlanı gördü.

Maşın, xüsusən "Volqa" görəndə Şəppəli həmişə xoşagəlməz bir hərəkəti xatırlayırdı.

Bir axşam, kontordan hamı çəkilib gedəndən sonra mühasibliyə potaboy, yekəqarın, dombagöz bir adam girdi. Salamsız-kəlamsız yaxınlaşıb, qarnını stola dirəyib dayandı.

Şəppəli stolunun üstündə kağızı dəyişib, künclərə "kağız mıxı" – "knopka" sancıb, siyirmədə saxladığı əsgi parçası ilə mürəkkəbqabının kənarlarını sürtüb təmizləyirdi. Stolun üstünə sərilən kağızı başdan-başa müxtəlif qeydlərlə, rəqəmlərlə dolduran və buna görə də kağızı tez-tez dəyişdirməyi sevməyən Mursaquludan fərqli olaraq Şəppəli, axşamlar kontorda tək qalanda ayağının altına kətil qoyub şkafın üst gözündən qalın kağız "rulonlarını" endirir, elə bil həyatının yeknəsəqliyinə nə isə cüzi də olsa, bir şey artırmaq niyyətilə gündə bir rəngdə – gah ağ, gah göy, gah də çəhrayı kağız seçib stolun üstünə sərir, ovucları ilə sığallayıb-hamarlayır və künclərə səliqə ilə, muncuq kimi qatarla knopka düzürdü. Bu vaxt təsadüfən mühasibliyə gələn olanda Şəppəli çalışırdı ki, başını qaldırmasın. Bilirdi ki, uzun illər ərzində qanun şəklinə düşmüş bu vərdişinə

hamı istehza edir. Beş-üç dəqiqəlik işini knopka düzə-düzə və ya mürəkkəb qabını silə-silə uzadırdı ki, gələn adam istehzalı baxışını yığışdırıb "özündən qanıb" çıxıb getsin.

"Qarın" isə getmədi. Stola dirənib, bir müddət onun əllərinə baxandan sonra sakit, rəvan səslə güldü.

– Nahaq can yandırırsan, Şəppəli, – dedi, – nə qədər sığal versən də, məzmun etibarı ilə bu stol elə hesabdar stolu olaraq qalacaq. Bundansa gəl qulluq göstər, rəhbərlik yanında xətirin xoş olsun.

Şəppəli bu adamı tanımırdı. Rəftarından və sözlərindən başa düşdü ki, kim isə hər halda rayonun "kefi kök" adamlarındandır.

– Nə buyurursunuz?

"Qarının" izahından məlum oldu ki, sovxozun örüşlərini gəzərkən harda isə "Volqa"sını palçığa bulaşdırıb, indi burda – kontorda başqa münasib adam tapa bilmədiyinə görə Şəppəlidən xahiş edir ki, maşını yumağa kömək etsin.

Maşın büsbütün zımrıq içində idi.

Şəppəli, əlbəttə, kömək elədi. Vedrə ilə su daşıdı, təkərlərin örtüklərini – "kolpaçokları" və başqa, boyu çatan yerləri yuyub quruladı. Doğrudur, "qarın" özü də işlədi, əmma qəribədir ki, gedəndə Şəppəliyə heç olmasa dilucu razılıq da eləmədi. Yenə də həmin sakit, rəvan gülüşü ilə:

– Hə, indi gedib öz stoluna sığal verə bilərsən, Şəppəli! – deyib starteri basdı.

Bunun üstündən neçə illər keçmişdi, əmma maşın görəndə Şəppəli istər-istəməz həmişə o "qarını", o "rəvan zırramanı", o təhqiri xatırlayırdı.

Çəmənlikdə dayanmış süd rəngli "Volqa"nın nikelləri, şüşələri günəşin altında bərq vururdu. Sahibi dirsəyini pəncərədən çıxarıb, göy şüşəli eynəyini qolsuz köynəyinin yaxasına taxıb başını azca yana əyərək, çox yumşaq, həlim gülüşdən azca qıyılmış gözlərlə Şəppəliyə baxa-baxa onun yaxınlaşmasını gözləyirdi. Bu, əlbəttə, "qarın" tipli adamlardan deyildi. Üz-gözündən nur yağırdı. Təkərləri göy otluğa batdığı üçün yerə yaslanmış kimi görünən maşınıtək özü də işıq saçırdı. Şəppəli bircə baxışla onun qiymətini verdi: "Nə yaxşı mədəni oğlandı". Əmma eyni zamanda Şəppəli bunu da rayonun "kefi kök" işçilərindən hesab etdi və nə isə bir "qulluq göstərmək" üçün çağırıldığını güman edib qaşqabağını salladı.

– Nə buyurursunuz?
– Salam, dayı.
– Əleykəssəlam.
– Məni tanımadın?
Şəppəli ona baxdı. Dedi:
– Siz çoxsunuz, mən tək.
– "Siz", yəni kim, dayı?
– Siz, yəni maşında gəzənlər.
Oğlan Şəppəlinin bircə arşın boyunu, bircə əlcə sifətini maraqla süzür və altmış yaşında kişidən çox, elə bil uşaqla danışırdı.
– İstəmirsən maşında gəzən çox olsun?
Şəppəli dikəlib, daha da ciddiləşdi.
– Mən iş adamıyam, – dedi. – Buyur görək, nə qulluq göstərməliyik!
Onun rəftarı, deyəsən, oğlanı təəccübləndirirdi.
– Mən özüm sənə qulluq göstərmək istəyirəm, dayı, – dedi və bununla Şəppəlini tamam çaşdırdı.
– Mənə?! Qulluq?!
Oğlan bir daha Şəppəlinin boy-buxununu gözdən keçirdi.
– Sən Mədəd kişi deyilsən?
Sual necə gözlənilməz oldusa, Şəppəli hətta gözlərini döydü. Lap çoxdan, "ağzı gedib qulağının dibində durandan" bəri Şəppəlinin əsl adı unudulmuşdu. Yüzdə, mindəbir adam onu adı ilə çağıranda Şəppəliyə dünya bağışlanırdı. Odur ki, birdən-birə dəyişib, bu ağbəniz, yaxşı oğlana rəğbətlə, minnətdarlıqla baxdı:
– Mədəd kişiyəm, ay oğul, –dedi. – Əmbə bir balaca düzəlişə ehtiyac var. Nə adım qalıb, nə də kişiliyim. İndi Şəppəli deyirlər mənə. Hesabdar Şəppəli.
Oğlan sakitcə gülümsündü.
– Çoxmu fikir çəkirsən Şəppəli deyilməyindən?
Şəppəli dedi:
– Qulağım dolub. – O dəqiqə də peşman oldu: bu cür nəzakətli oğlanla niyə səmimi danışmasın?
Dərhal səhvini düzəltməyə tələsdi:
– Adım üstümdə olsaydı, yaşayışım da, əlbəttə, ayrı cür olardı, oğul. – dedi.
– İsrəyirsənmi sənin adını özünə qaytarım?

Şəppəli diksindi.

– Hə, dayı, niyə dillənmirsən? Adını özünə qaytarsam nə verərsən? Otuz toyuq əvəzində o quzulardan birini verərsən?

Şəppəli heyrətlə baxırdı. Otuz toyuq?! Bunu bu oğlan hardan bilirdi? Axı, mərhum Orucdan, Pəricahan arvaddan, bir də Şəppəlinin özündən savayı, bu köhnəlmiş, unudulmuş toyuq əhvalatını heç kəs bilmirdi.

Şəppəli kirpik çalmadan, diqqətlə, bir xeyli oğlana baxdı.

– Sən kimsən, ay oğul?

– Yenə tanımadın? – Oğlan güldü. – Ordan bir yaxşı quyruqlu əmlik seç, gəl otur, gedək!

– Hara?

– Bakıya. Gəlmişəm səni xəstəxanaya aparım.

– Dayan, dayan, oğul... – Şəppəlinin ürəyi çırpınırdı. – Keçmişdə mənim bir dostum vardı, oğul, yaxşı-yaman günümdə böyrümdə hazır olardı. Sən o dostumu yada saldın, əhvalımı dəyişdirdin...

– Mən Orucun oğluyam də!.. Məmməyəm də!.. Bəlkə təzədən tanış olaq?

Oğlan gözlərindən gülə-gülə qapını açıb düşdü. Əlini irəli uzatdı.

Şəppəli dala çəkildi.

– Tərpənmə!.. Qoy əvvəlcə bir yaxşı-yaxşı tamaşa eləyim...

Görüm Oruca oxşarın varmı?

Oğlan bu "çudaklığı" tamamilə təbii bir şey hesab edib, itaətlə, öz sakit görkəmi ilə dayanıb səbirlə gözlədi.

Şəppəli isə bir xeyli köksünü ötürə-ötürə onun "eninə-uzununa" tamaşa etdi.

Kişinin "ürəyi yerindən oynamışdı". Mərhum dostunun oğlu Məmmənin tibb institutunu qurtarandan sonra Bakıda işlədiyini bilirdi. Nəinki bilir, hətta Pəricahanla görüşəndə, demək olar ki, ancaq Məmmə barədə danışırdılar. "Soyuyub, qəlbi daşa dönüb sağ olmuşun, elə vaxt olur, heç ildə bir kərə də yanıma dəymir. Gələndə də ayrı sözü yoxdu: "Yığış gedək Bakıya! Yığış gedək!" Daha demir ki, saçımı-birçəyimi Orucun yurdunda ağardandan sonra mən bu yurdu necə boş qoyum?!" – Pəricahan oğlundan şikayətlənirdi. Şəppəlini isə həmişə bir sual düşündürürdü: "Görəsən Oruca oxşarı varmı?" İndi, iyirmi ildən sonra mərhum Oruc elə bil möcüzə ilə dirilib qarşısında dayanmışdı; vaxtı ilə Bakıda kursda oxuyub

qayıdanda Oruc da eynilə bu cür arıq, zərif, ağbəniz oğlandı. Görəsən necə olmuşdu ki, əziz dostunun varisini Şəppəli dərhal tanımamışdı?

Kişi o qədər riqqətləndi ki, hətta illərin uzaqlığından Orucun səsini eşitdi: "Bir molla tanıyıram. Adı molladı, özü loğman. Gedək onun yanına. Var-yoxdan çıxsam da səni sağaldacam!" Bunun ardınca, "dirilmiş Orüc" – Məmmə dilləndi:

– Hə, oxşarım varmı, dayı?

Şəppəli ağladı.

– Orucun torpağı sanı yaşayasan, sənə qurban olum!

...Məmmə onu bir ay, ayrıca palatada müalicə etdi.

Hər dəfə palatanın qapısını açanda, eynilə mərhum atası kimi, sakitcə gülümsəyirdi:

– Molla gəlir şapalaqlamağa!

– Gəlsin, gəlsin, mollama qurban olum! – Şəppəli hər dəfə kövrəlirdi. Əmma "molla şapalağı" əvəzində Şəppəlinin üzünə "hallıca-dulluca bir gəlinin", olduqca xoşxasiyyət bir şəfqət bacısının "pilətək yumşaq" əlləri dəyirdi; şəfqət bacısı gündə üç dəfə onun sifətini "mazlarla massaj" eləyirdi, "şəppə suyu" əvəzində isə müxtəlif vitaminlər içirirdi.

"B-1" vitamininə Şəppəli "Bəbir" deyirdi, "S-1"-ə isə "Səbir".

Məmmə ləzzətlə qəhqəhə çəkirdi.

– Bəs bunların cəmi nədi, dayı?

Şəppəli cavab verirdi ki:

– Bəbirnən Səbirin cəmindən kişi törəyir, qurbanın olum! Mədəd kişi!

Əlbəttə, heç kəs uzun illərin vərdişini atıb Şəppəlini ayrı cür çağırmadı. "Ağzı qayıdıb yerində dursa da" adı elə Şəppəli qaldı.

Xəstəxanadan çıxandan çox-çox sonralar, pay-ülüşlə yüklənib Məmmənin yanına gedəndə Şəppəli deyirdi:

– Rayondan sovxoza zəng vururlar: "Danışan kimdi?" Deyirəm: "Mədəd kişidi". Deyirlər: "Mədəd kimdi? Biz elə adam tanımırıq". Deyirəm: "Hesabdar Mədəd!" Xəbər alırlar ki, "sizi ora təzəmi götürüblər işə?" Axırda əlacım kəsilib, deyirəm: "Danışan Şəppəlidi". Başlayırlar məzəmmətə ki: "A kişi, bayaqdan belə desənə! Altmış yaşında, durub təzədən özünə ad qoyursan!"

Beləliklə, ad qaldı, "Bəbirlə səbirin cəmindən" tamam ayrı şey – Şəppəlinin "Məmmə" adlı yeni dünyası yarandı. "Balans stəkanı",

sağlıqlar, "kəndçi balnisəsinə" məktublar... İş o yerə çatdı ki, nəhayət, Məmmə özü onu ata-baba yurdunda bunca məşhurlaşdırmış Şəppəliyə məktub yazdı, mərhum atasının ən yaxın dostu və özünün ən sədaqətli "pasient"i kimi Bakıya dəvət etdi, məşhur cərrahın – professor Məmmədəlinin qızına elçi getməyə çağırdı. Deməyə ehtiyac varmı ki, bu, Şəppəlinin həyatında ən xoşbəxt gün idi?.. Var-yoxunu yığışdırdı. Pəricahan arvadı da götürüb getdi. Burda, professor Məmmədəlinin ailəsi və qohum-əqrabası ilə tanışlıq zamanı Şəppəlini yeni, daha gözlənilməz bir xoşbəxtlik gözləyirdi; Məmmə onu "pasient"i yox, doğmaca dayısı kimi təqdim edəndə, Şəppəlinin, eynilə "şəppə vuranda" olduğu kimi, alt dodağı səyriməyə, çimildəşməyə başladı. Ona elə gəldi ki, bu dəfə xoşbəxtliyinə görə ağzı yenə gedib qulağının dibində duracaq.

Əmma, əlbəttə, heç nə olmadı; Məmmə onu lap yerli-yataqlı, həmişəlik müalicə eləmişdi.

Şəppəli təntənəli bir mühitdə, professor qızı Zemfira balanın barmağına üzük taxdı. "Lap elə Məmmənin özü kimicə, cavanca bir adam" olan professor Məmmədəli ilə üz-üzə oturub "nə ki var vurdu", sonra həftənin axırı olduğunu xatırlayıb, qədəhini kənara qoyub, stəkan istədi, bir daha Məmmənin sağlığına " balans stəkanı" qaldırdı.

– Şəppəli də adam olur ha!

– Ağzı düzələndən bəri dirçəlir.

– Sulanır!

– Qocalığında göyçəklənir kişi!

Sovxozda belə deyirdilər.

– Məmmənin qiyamət dayısı var.

– Əla kişidi!

Bakıda belə deyirdilər.

Xüsusən "Zemfira bala" "Məmmənin dayısına" vurulmuşdu.

– "Kakoy u tebya simpatiçnıy dyadka, Məmmə! Şuplenkiy, dlinnonosıy, vılitıy Buratino!..[1]

Pay-ülüşlə yüklənib Bakıya gedəndə Şəppəli həmişə taksini "Nərgiz" kafesinin yanında saxladırdı, avtomatdan zəng vururdu ki, Məmmə düşüb çamadanları qaldırmağa kömək eləsin. Bu vaxt, kafe ilə üzbəüz binanın ikinci mərtəbəsində pəncərə taybatay

---

[1] 1970-ci illərdə çox yayılmış "kukla" – oyuncaq

açılırdı, Zemfira balanın incə qaməti görünürdü, sevinclə dolu cingiltili qışqırtısı eşidilirdi:

– Dyadya Buratino!..

Bunun üstündə Məmmə həmişə onu məzəmmət edirdi:

– Mən kişinin adını qaytarmaq istəyirəm, sən təzə ləqəb verirsən!..

Məzəmmət etməyinə edir, əmma eyni zamanda sakit-sakit gülümsəyirdi.

Ümumiyyətlə, tanıyanlar arasında elə bir adam vardımı ki, Şəppəlinin adı gələndə dodağı qaçmayaydı, gözləri gülməyəydi? Yoxdu. Bakıda da, sovxozda da. Əmma Şəppəliyə görə, onu duymayan, onun adı gələndə gülümsəmək əvəzinə qaşqabaq sallayan tək bir adam vardı ki, o da öz iş yoldaşı – baş mühasib Mursaqulu idi. Uzun-uzun illər ərzində bir otaqda, yanaşı stollarda oturduqlarına baxmayaraq, Şəppəli bu qaradinməz, mısmırıqlı adamla ülfət, ünsiyyət bağlaya bilməmişdi. Bir mühasib kimi, düzlük tərəfdarı, namuslu vətəndaş kimi Mursaqulu bəlkə də pis adam deyildi. Əmma bir həmsöhbət, ürək-dirək yoldaşı kimi heç nəyə yarayan deyildi. Elə ki Şəppəli başlayırdı Məmmədən danışmağa, Mursaqulunun dərhal sifəti ciddiləşirdi. Doğrudur, nəzakət xatirinə qələmini mürəkkəbqabına söykəyirdi, hətta gözlərini Şəppəlinin gözlüyünün şüşələrinə sarı yönəldirdi. Əmma "hə, hm" eləməkdən savayı bir kəlmə də demirdi. O, Şəppəlidən işdən başqa həyatın özündə "ümumiyyətlə, ciddi olmağı, ciddi şeylər danışmağı" tələb edirdi. Mursaquludan hər dəfə bunu eşidəndə Şəppəli qəzəblənirdi.

– A kişi, insan bəyəm elektrik hesablayıcısı-zaddımı ki, həməşə ciddi olsun? İnsan insandı! Lap ciddisi də, görürsən, sarsaqlayır. Məsələn, budey, sən özün! Mən sənə Məmmədən danışıram, deyirsən: "Ciddi ol, ciddi şeylər danış!" Sarsaqlıq deyil, bə nədi bu?!

Şəppəli, onunla "düz sarımayan", onun adı gələndə mısmırığını sallayan bu şərti dostunun haqqında çox fikirləşirdi. Mursaqulunun yaşı keçmiş olsa da, Şəppəli onu da özü kimi "düzəldib adam eləmək" istəyirdi. Bunun üçün imkan da vardı, şərait də: imkan – Məmmə, şərait – "kəndçi balnisəsi".

Bir səhər işə gələndə Şəppəli soruşdu:

– Bura bax, Mursaqulu, çoxdandı xəbər almıram, böyrəklərin yenə incidirmi?

Mursaqulu başını tərpətdi, yəni, hə, incidir.

Hər il avqust, sentyabr aylarında Mursaqulu birdən iki-üç kisə dolusu qarğıdalı saçağı yığırdı və bütün qışı da, yazı da, yayı da çay əvəzində qarğıdalı saçağını qaynadıb suyunu içirdi.

Şəppəli stolunun arxasına keçdi, orta siyirmədəki "yağlı kağızlardan" birini çıxartdı, qələmini mürəkkəbə batırıb başladı:

"Əzizim-gözüm Məmmə. Bu kişi ki, göndərirəm yanına, mənim şefimdir. Babalarımızın səcdəgahı Bursanın şərəfinə adı Bursaquludu. Biz Mursaqulu deyirik. Atan Orucun sağlığında da mühasib idi. Sovxozumuzun bütün ağırlığı bu kişinin çiynindədir. Bir yandan işinin çətinliyi, bir yandan böyrəklərinin ağrısı bunu lap adamlıqdan çıxardıb, özün görəcəksən, üz-gözündən zəhər damır. Göndərirəm ki, bu Bursaqulunu da mən təki adam eləyib qaytarasan. Səni bağrıma basıb öpürəm. Orucun iyini səndən alan, qolu bağlı qulun Mədəd".

Mursaqulu düz bir həftə məktubu cibində gəzdirdi. Nə isə çox qəribə, hətta sirli inadla Məmmənin yanına getmək istəmirdi. Bu bir həftədə Şəppəli, demək olar ki, hər gün onu danlayırdı.

Nəhayət, Mursaqulu getdi.

Və dabanı üstə qayıtdı.

– Məmmə orda yoxdu.

– Necə yəni yoxdu?

– Balnisədən çıxardıblar.

– Necə yəni çıxardıblar, a kişi?!

– Qovublar... xəstələrdən pul yığırmış.

– Nə danışırsan?!

Şəppəlinin alt dodağı çimildəşməyə başladı.

Mursaqulu kiminsə, başqa bir həkimin yanında olmuş, özünü müayinə elətdirib, "analiz verib" çoxlu dərman-dava alıb gətirmişdi.

Stolunun arxasına keçib, ikicə gündə iş üçün darıxmış kimi, dərhal kağızları qabağına tökdü.

Şəppəli isə, əlbəttə, daha işləyə bilməzdi...

Dəhlizə və mühasibliyin kandarına çoxlu adam yığışmışdı. Gah Şəppəliyə, gah da yerə baxır, susurdular. Elə bil hüzrə gəlmişdilər.

Şəppəli ovcunu sol üzünə və dodaqlarının küncünə sıxıb, beləcə qurumuşdu. Ona elə gəlirdi ki, əlini buraxan kimi "ağzı gedib qulağının dibində duracaq". Əmma sonra bunu tamam unutdu.

– A Mursaqulu!.. Bir sualıma cavab, a Mursaqulu!

Baş mühasib gözlüyünün şüşələrini onun gözlüyünün şüşələrinə sarı çevirdi.

Şəppəli udqundu.

– De görüm... sənə kim deyib onu?.. A qurbanın olum, Məmmə hara, belə xəbər hara?!

Cavab əvəzində gurultu eşidildi.

– Bəsdi! Bəsdi, Şəppəli, bəsdi!.. – Mursaqulu bəlkə də ömründə birinci dəfə belə çılğın qışqırıb yumruğunu stola döydü. – Nə qədər Məmmə, Məmmə demək olar, Şəppəli! Bəsdi, eşidirsənmi?! Daha az qalıb atçot əvəzində Məmmə, Məmmə yazım! Canımız xirtdəyimizə yığıldı daha! Səhər – Məmmə! Günorta – Məmmə! Axşam – Məmmə! Yuxuda da sənin səsini eşidirəm! Ya xətm elə, yığışdır bu Məmməni, ya da bu otaqda ikimizdən birimiz oturacayıq! Ya sən və sənin Məmmən, ya da mən! Eşitdinmi, Şəppəli?!

Mursaqulu birdən qışqırmağa başladığı kimi, birdən də susdu. Mühasibliyə sükut çökdü.

Mursaqulu bir əlini böyrünə – kəmər yerinin üstünə, o biri əlini alnına sıxıb, donqarlanıb hərəkətsiz oturmuşdu. Quru, göyümtül sifətində, gözlüyün şüşələri altında kənarları qırışmış yarımqapalı gözlərində elə ifadə vardı ki, elə bil indicə ağlayacaqdı. Canımı ağrıyırdı, yoxsa otuz il ərzində onunla yanaşı stolda oturan, onun xəstəliyi üçün ürəkdən yanan bir adama belə qəfildən qışqırdığına görə peşman olmuşdu? Hər nə isə, baş mühasib əzab çəkirdi. Şəppəli isə, ömründə birinci dəfə öz şərti dostuna laqeyd idi. Daha doğrusu, bir növ kütləşmişdi. Necə yəni "rüşvət?!" Necə yəni "xəstələrdən pul?!" Bu sualları dönə-dönə beynində dolandırmaqdan savayı bir kəlmə də düşünə bilmirdi.

Kandarda kim isə köksünü ötürdü.

– Fikir eləmə, Şəppəli. Çıxardıblar, canı sağ olsun, sənətini də əlindən almayacaqlar ha?! Oturar evində işlər, neynək!..

Pəncərədən Şəppəlinin stolunun üstünə şüa düşüb tər-təmiz silinmiş mürəkkəbqabını və knopkaları parıldadırdı. Şəppəli gözlüyünün altından gözlərini bu parıltılara dikib duruxub qalmışdı.

Haçandan-haçana başını qaldırdı. Günəş şüasının içərisində də xırda-xırda parıltılar vardı: tozcuqlar, zərrəciklər sakit-sakit fırlanıb işıldaşırdı. Şəppəli şüanın arxasında – kandarda dayananlara

və ona təsəlli verənin kim olduğuna diqqət yetirmədən, işıldaşan zərrəciklərə baxa-baxa ağır-ağır dilləndi:

– Mənim gözüm çox şey görüb, – dedi. – Bu stolun üstündə haqq-hesab çəkdikcə ağlayanlar, gülənlər görmüşəm. “Elə yazma, belə yaz”, – deyib ayağıma yıxılanlar görmüşəm. Rayondan gəlib ilbəil “katibin, prokurorun, enkevedinin paylarını ver!” – deyə-deyə hər il balans vaxtı bizi çarmıxa çəkiblər, ikimiz də zar-zar ağlamışıq bu kabinetdə... Belə rəzillik görə-görə, kasıb qanı içən rəzillər düşməni olmuşam!..

Oruc bir qəpik də kəsməyib fəhlənin pulundan. “Rüşvət alan direktorlardan alın “pay”ınızı” deyib. Belə insanlıq görə-görə insan aşiqi olmuşam mən!.. Məmmə o insanın oğludu!

Mursaquluya sarı çevrilib, birdən səsini qaldırdı:

– İndi mən necə Məmmə, Məmmə deməyim, a Mursaqulu?! Necə yəni yığışdır bu Məmməni?! Sən mənə de görüm, hansı dili qurumuş deyib sənə o xəbəri?! Məmmə hara, bu xəbər hara, a Mursaqulu?!

Baş mühasib cavab əvəzində qeyri-müəyyən bir tərzdə “hm!” eləyib ayağa qalxdı, hər iki əli böyrəklərinin üstündə, qaməti əyili, qapıya doğru addımladı. Kandarda toplaşanlar çəkilib hörmətlə baş mühasibə yol verdilər, sonra bir-birinə baxıb onun arxasınca çıxdılar.

Bir az sonra kontorun həyətində, camaatın arasında Mursaqulu, bayaqkı qışqırtısının əksinə, hüznlü, dərdli səslə deyirdi:

– Şəppəli dözməz bu dərdə... Şəppəli öləcək...

... Telefonda əvvəlcə Zemfira balanın səsi eşidildi. Şəppəlinin ürəyi çırpındı: “Şükür! Şükür! Dar gündə Məmmənin yanındadı!..”

– Zemfira bala! Ay mənim gözəl gəlinim! Şirin gəlinim! Tanımadın?! Dyadya Buratinodu də!..

Zemfira bala susurdu. Niyə?..

Dəstəkdən Məmmənin səsi gəldi:

– Dayı, hardan danışırsan?

Şəppəli təəccübləndi.

– Necə hardan, ay oğul? Həmişəki yerdən, “Nərgiz”in yanından!

– Gəl, dayı, gözləyirik.

– Bıy...– Şəppəli mat-məəttəl qaldı. O tərəfdə isə dəstək asıldı: “Dut-düt!..”

Şəppəli budkadan çıxdı. İkinci mərtəbədə taybatay açıq, gur işıqlı pəncərələrə, sonra nübar yemişlərlə dolu iki səbət və içə-

risində erkək cəmdəyi olan taxta çamadana baxdı. Bu nə müsibət idi cavanlar göstərdilər? Necə yəni "gəl, gözləyirik?"

Şəppəli bir müddət gözlərini pəncərələrdən ayırmadı. Orda heç kəs görünmürdü.

Kafe ilə evin arası iyirmi addım olmazdı. Əmma meydançanı keçənə qədər kişinin nəfəsi qaraldı.

Kəmərini səbətlərin qulplarına keçirib çiyninə almışdı. Çamadan əlində idi. Bir tərəfdən çiyni üzülürdü, o biri tərəfdən qolu. Qıçları titrəməyə başlayırdı.

Bir dəfə, həmin dağətəyi kahaların qabağında, həmin çəmənlikdə ətlik üçün tərəzidə qoyun çəkiləndə çobanlar bir-birinə göz elədilər, Şəppəlini hop götürüb tərəzinin üstünə atdılar. Azca əvvəl burmabuynuz bir qoçun çəkisi qırx kilo gəlmişdi. Şəppələlininki otuz kilo gəldi və Şəppəli bundan çox məyus oldu. Öz cürəfəsizliyini, əlbəttə, bilirdi. Əmma ömründə bir dəfə də tərəziyə qalxmadığından, bu dərəcədə vəznsizliyindən xəbəri yoxdu. Buna görə də məyus oldu. Bəraət üçün dedi: "Stol adamıyam, qardaş. Stol canımı alıb". Bəraət üçün dedi, əmma əslində bu həqiqət idi: Şəppəlinin bədəni, demək olar ki, əzələdən məhrum idi. Bu əzələsiz bədənin indi təxminən yetmiş kilo, yəni özündən iki kərə ağır yükü qaldırması möcüzə idi. Əmma Şəppəli bu barədə fikirləşmirdi. Orda, mənzildə nə isə ciddi bir şey olmuşdu. Əgər Zemfira bala pəncərədə görünüb "dyadya Buratino!" qışqırmırdısa, yəni sevinmirdisə və əgər Məmmə qarşılamağa, kömək eləməyə çıxmırdısa, demək, nə isə bir hadisə baş ermişdi.

Meydanca, nəhayət, qurtardı.

Şəppəli səki boyunca düzülmüş cökələrin altındakı yaşıl ot zolağını – "qazonu" da müvəffəqiyyətlə keçdi. Ayağını səkiyə qaldıranda isə birdən xırp dayandı: nə kökə düşmüşdüsə, kişinin cəmi bir qarış hündürlüyə qalxmağa taqəti çatmadı. Beləcə, bir ayağı "qazon"da, o birisi səkidə, ilişib qaldı.

Məmmənin pəncərələri lap yaxında, onun başının üzərində idi. Əmma Şəppəli Məmməni çağırmadı. Əvvəla, çağırmaq istəsə də səsi çıxmazdı. İkincisi də, tamam mübaliğəsiz demək olar ki, öz qeydinə qalmırdı: beynində yalnız bayaqkı fikir dolanırdı: orda – yuxarıda nə isə olmuşdu. Məmmə gör nə halda idi ki, qarşılamağa çıxmırdı.

Şəppəlini təpədən-darnağa tər basdı. Gözləri qaraldı. Çamadan əlindən düşdü.

Birtəhər əyilib səbətləri də səkiyə qoymaq, tezcə yuxarı qalxmaq, nə baş verdiyini öyrənmək istədi. Bu vaxt Məmmənin "paradnısından" kim isə səkiyə çıxdı. Dayanıb Şəppəliyə baxdı. Sonra arxasınca çıxan "zənən"in qolundan tutub sürətlə addımladı.

Şəppəli bu bəstəboy, şlyapalı adamı professor Məmmədəliyə – "Məmmənin özü kimicə, cavanca qayınatasına" oxşatdı. Əmma buna inanmadı. Daha doğrusu, inanmaq istəmədi ki, professor onunla üz-üzə gəlib, dindirməyib, heç olmasa dilucu salam verməmiş gedə bilər. Şəppəli zənənə diqqət yetirdi və... əhvalı nə qədər xarab olsa da, o zənənin gözəl, zərif qamətini tanımaya bilmədi. Bu şlyapalı adamın professor Məmmədəli olduğuna şübhəsi qalmadı.

– Professor!.. Ay oğul!..

Səbətlər aşırılıb düşdü, yemişlər dığırlanıb səkiyə dağıldı. Əmma Şəppəlinin gözünə yemiş-zad görünmürdü:

– Zemfira bala!.. Ay oğul!.. A qohum!..

Sürətlə uzaqlaşıb, elə bil nə isə qorxunc bir təhlükədən qaçan qohumlarından Şəppəlinin yadında həmişəlik olaraq iki şey qaldı: parça mağazasının vitrininin işığında, professorun əsəbi əlində parıldayıb gözlərini qapayan qara sağanaqlı, tutqun şüşəli gözlük, bir də gedə-gedə dönüb "dyadya Buratino"ya baxan Zemfira balanın yanağında yaş damlası.

Başı dumanlı, yenidən yüklənib ikinci mərtəbəyə qalxanda, qapını açan kimi danışmağa başladı:

– Professornan gəlinimin elə getməyi belimi sındırdı. Aranızda nəsə olub. Əmbə hələ onu xəbər almıram, o qoy dursun. Əvvəlcə mənə de görüm, dayıyın Məmməsisən, yoxsa Mursaqulu deyən Məmmə?! Bax, nəm-nüm eləmə, baş-ayaq vurma, sənə qurban olum. Birdəfəlik açıqca de ki, ya birdəfəlik ölüm, ya dirilim. Bu saat mən yarımcanam!.. Birbaşa, açıqca!.. Mursaqulu o xəbəri deyib-deməyib, yenə dodağım çimildəşir. Əgər sən təmizsənsə, düz yolun yolçususansa, ağzımı-burnumu yox, istər var bir şaqqamı şəppə vursun, vecimə almaram, başın haqqı, indiyəcən necə yaşamışamsa, indən belə çalışıb birə beş qat artıq kefnən yaşayacam! Yox, əgər ürəyin ləkəlidisə, onu da, dediyim kimi, lap açıqca, utanıb-eləmə birbaşa de, mən də işimi bilim, oğul, xəbər verim sovxoza, qəbrimi qazıb hazırlasınlar, gedim girim içinə, uzanım, torpaqlasınlar üstümü, qurtarsın getsin. Onsuz da, yaranıb-yaranmamışam,

fələkdən şapalaq yemişəm. Bir dəfə, lap cavan vaxtımda, təcrübəsizliyimin üzündən haqq-hesabı dolaşıq salmışdım, məni silistə çəkdilər, dedilər, "sosialist əmlakını dağıdırsan". Bir onda fələyin şapalağı dəydi, ağzım əyildi, öz doğmaca əmim qızı – nişanlım məndən üz döndərdi. O əyrimi Oruc düzəltdi. Sonra da sən düzəltdin. Məni yaşadan sənsən, sənə qurban olum! Sən mənim işıqlı dünyamsan! Əgər dilim qurusun, belə deyilsənsə, daha mənim yaşamağımın nə mənası var?!

Şəppəli Məmmədən pis cavab eşitmək qorxusu ilə, özü də hiss etmədən vaxtı uzadırdı. O divanda, Məmmə isə divanla üz-üzə divarı başdan-başa tutmuş kitab rəflərinin tən ortasından yataq otağına açılan qapının arasında, alçıq kürsüdə oturub, başını sinəsinə əyib aramsız siqaret tüstülədirdi. Onun böyründən yataq otağında üstünə yaşıl ipək çəkilmiş qoşa taxt, bir açıq jurnal və Zemfira balanın rəngli portreti görünürdü. Əvvəllər Bakıya gələndə və Zemfira balanı burda tapmayanda, onun əvəzində Şəppəli həmin bu rəngli, elə bil canlı portreti öpürdü, "gəlininin" çiyinlərinə dağılmış sarı saçları arasında tamam gözlənilməz təsir bağışlayan zil qara, gülümsəyən gözlərinə baxıb başını bulayırdı: "Ay kələkbaz şeytan!.." Bu sözləri o, heç də nə isə demək xatirinə demirdi. Bu sözlərin arxasında böyük bir aləm vardı.

Professorun ailəsi ilə ilk tanışlıqdan cəmi bir həftə sonra Zemfira bala sovxoza, "dyadya Buratino"nun üstünə məktub yazmışdı. Şəppəli məktubu Pəricahana göstərdi, tərcümə edib başa saldı ki, Zemfira bala Məmmə ilə zaksa getmək üçün onlardan, yəni Pəricahanla Şəppəlidən izin istəyir.

Pəricahan gələcək gəlininin tamam ayrı bir aləmin adamı olduğunu lap ilk baxışdan hiss etmişdi. Zemfiranın qayınanası ilə öz dilində sərbəst danışa bilməməsi, çox zaman Məmmənin tərcüməçilik eləməsi bir yandan, gəlinin musiqi məktəbində "artistlik oxuması", qaynanasının qabağında "üzü o yana oturub" "dalını dingildədə-dingildədə" pianinoda öz "saçinenisini" çalması da bir tərəfdən Pəricahanı açmırdı. Ancaq sonralar, Məmmənin "Zemi"ni çox istədiyini nəzərə alıb hər şeyi qəbul etdi. Bir dəfə Şəppəli ilə Zemfira haqqında danışanda hətta gülümsədi də: "Şirin şeydi", – dedi. "Təki oğlum xoşbəxt olsun, mən gəlinimin dilini qanmasam da dözərəm", – dedi.

Şəppəli hiss edirdi ki, arvad "dili qanmamağa" hünərlə dözürdü. Məktub və zaks söhbətinə isə dözə bilmədi. Heyrət nişanəsi olaraq dırnaqlarını üzünə çəkdi: "Allah, mənə ölüm ver! Bu nə təhər gəlindi?! Bircə həftə bundan qabaq barmağına üzük taxmışıq, hələ heç nişan toyunu da eləməmişik, bu nə üznən zaks istəyir?! El nə deyər bizə! Bir də, niyə Məmmə özü yox, bu yazır sənə, a kişi?!"

Nə üçün Məmmənin yox, gəlinin yazdığını Şəppəli də başa düşmürdü. Əmma zaksın nəyə lazım olduğunu bilirdi, bu barədə məktubda yazılmışdı, hələ Şəppəli o yeri tərcümə etməmişdi. Pəricahana izah etdi ki, Bakı Sovetində Məmmənin adına birotaqlı mənzil yazıblar. Həm də şəhərdən kənarda, "lap biyabanda", beşinci mikrorayon deyilən yerdə vermək istəyirlər, cavanlar isə, Zemfira balanın yazdığı kimi, "Baksovetə kələk gəlmək", kəbin kağızını təqdim edib ikiotaqlı mənzil almaq istəyirlər. Zemfira bala yazırdı ki, "kəbin şəhadətnaməsi əlimdə olsa, Məmmənin qolundan tutub özüm gedəcəm Baksovetə".

Zemfira bala məktubun bir yerində yazırdı: "Çox çətinliyə düşsəm, deyəcəm hamiləyəm. Bununçün də kəbin lazımdır". Şəppəli əvvəlcə nəzərdə tutmuşdu ki, bu sözləri Pəricahana çatdırmasın. Əmma özü də bilmədən, məktubun ahənginə qapılıb "deyəcəm hamiləyəm" sözlərini də tərcümə etdi və bununla da Pəricahanı dəhşətə gətirdi.

Arvad bütün gecəni söyləndi, "ağzı əppək kəsməyən, qeyrətsiz" oğlunu asıb kəsdi.

Şəppəli bərk peşmanlamışdı. Axı necə oldu ki, məktubun "o yerini" də tərcümə etdi? İndi neyləsin, nə çıxış yolu tapsın?.. Əgər Məmmə ilə Zemfira bala əvvəlcədən geniş mənzil almağa çalışırdılarsa, bununçün kimə isə "bir balaca kələk gəlmək" istəyirdilərsə, burda böyük qəbahət yoxdu, bunu onlara bağışlamaq olardı. Əgər Zemfira bala bu qədər açıq-saçıq yazırdısa, bunu da bağışlamaq lazımdı, çünki, axı Zemfira bala, ümumiyyətlə açıq təbiətli qızdı. Bəs bunları Pəricahara necə başa salasan?..

Şəppəli poçta getdi. Professorun evinə zəng vurub Zemfira balanı telefona çağırdı, dedi ki, Bakı Sovetindən savayı, Pəricahan anaya da "kələk gəlməsələr, iş düzəlməz", yəni kəbini kəsdirib Pəricahan anadan gizlin saxlamalıdırlar.

Kəbin də kəsildi, mənzil də alındı, professorun puluna cehiz – "stolovı" və "spalni" də alındı. Əmma, Zemfira bala, Şəppəlinin

dediyi kimi, “Pəricahan anadan bir balaca sızdı”. Məhz “sızdığına”, yəni qorxduğuna görə idi ki, “dyadya Buratinonu” qarşılayıb, onun boynuna sarılıb öpüşəndən sonra, göz vurub birinci növbədə soruşurdu: “Kələyimizin üstü açılmayıb?..” Şəppəlinin hər dəfə Bakıya gələndə gəlinini mənzildə tapmayıb portreti önündə dediyi: “Ay kələkbaz şeytan” sözlərinin arxasında belə bir aləm gizlənirdi.

Cavanların xoşbəxtliyi üçün “bu qədər qüvvə” sərf edəndə “azdan-çoxdan bir iş” görə biləndə, Şəppəli ürəyində indiyə qədər duymadığı hisslər duyurdu. Bu hisslərdən bəzən kövrəlib gizlincə gözlərini silirdi. Bəzən isə hisslərini bölüşmək üçün adam axtarırdı. Tapmayanda əlacsız qalıb üzünü şərti dosta tuturdu:

– Bəri bax, a Mursaqulu, bilirsənmi nə fikirləşirəm?.. Ailə, oğul, uşaq, hamısı yalan söhbətdi. İnsan insana yaxşılıq eliyəndə, baxırsan ki, lap yadın yadı da gəlib sənnən dost-doğmaca canbir qəlbdə oğul-uşaq olur! Məsələn, Zemfira bala mənim nəyimdi? Heç nəyim! Əmbə di gəl sən məhəbbətə bax!..

Şərti dostun “hə”, “hm” – qeyri-müəyyən mızıltılarından bezikəndə, vaxt tapıb Pəricahan arvadın yanına gedirdi.

– Bizim Mursaquluya söz danışanacan bir kor quyuya danışasan, quyudan qamış bitə, kəsib tütək eliyəsən, həmdərd ola sənnən! – deyib söhbəti burda təzələyirdi: – Mənim əqidəm belədi ki, Pəricahan, insan insana arxa, dirək olmalıdı. Onda həyat bal dadır, Pəricahan! – deyirdi.

Bu hisslərini Bakıda Məmmənin özü ilə də bölüşürdü:

– Sən yaxşı yol tutubsan, sənə qurban olum. Bu qədər ki, sən yaxşılıq eləyirsən adamlara, məktubnan üstünə göndərdiklərimin hamısını ki, belə can-dildən çalışıb sağaldıb qaytarırsan, bir vaxt gözünü açıb görəcəksən, bütün el-oba hamı sənin can-ciyərindi! Özgə nə lazımdı insana bu fani dünyada?! Düz demirəmmi, a qurban olum?..

Şəppəli belə danışanda, qəribə idi ki, şərti dost kimi Məmmə də susurdu. Yalnız hərdən, Şəppəli “düz demirəmmi?” – deyib təkidlə xəbər alanda Məmmə sakitcə gülümsəyib təsdiq edirdi və bu vaxt kişi özünü saxlaya bilməyib onu qucaqlayırdı. “Mənim doktorum! Mənim balam! Gözümün işığı!..” Nəhayət, Məmməni də kövrəltdiyini görəndə daha dözməyib yaxasından əl çəkirdi...

Bu gün onlar bu hisslərdən uzaqdılar.

Birisi divanda, o birisi kürsüdə oturub mətbəxə qədər hər yerin pəncərələrinin taybatay açıldığına baxmayaraq, havası tərpənməyən mənzildə “təmizlik”, “insanlıq” böhtançılıq”, “arxasızlıq”, “məhkəmə”, “on dörd il həbs cəzası”, “səssiz-səmirsiz yoxa çıxan ata, dost” və sair haqqında düşünürdülər. Məmmənin susqunluğu, yorğun və qapalı görkəmi getdikcə Şəppəlini daha çox qorxudurdu. Məmmədən pis cavab, Mursaqulunun sovxoza apardığı xəbərə uyğun bir bəd kəlmə eşitsə, bütün həyatının birdən mənasızlaşacağını, “Məmmə” adlı işıqlı dünyasının qaralacağını fikirləşdikcə Şəppəlinin səsi titrəyirdi.

– Atan rəhmətlik, bədbəxt Oruc o boyda sovxoz yaratdı. Fəhlələrnən bərabər, toz-torpağın, palçığın içində tütün şitili əkə-əkə, on-on iki sırxananı[1] böyük sovxoza çevirdi, dördcə yüz qoyunu gətirib iyirmi minə çatdırdı. Dələduz, yırtıcı köpək uşaqları dolaşdırıb gudaza verməsəydilər, atan günü bu günəcən təmiz adnan, şan-şöhrətnən qulluq elərdi. Sən Orucun oğlusan! Mən inanmıram ki, sən əyri yola getmiş olasan. Rüşvət hara, sən hara, a sənə qurban?! Rüşvət elə zəhrimardı ki, adamın yerişinəcən, otruşuna-duruşunacan dəyişirik eləyir. Bə nə! Adamın baxışınacan dəyişdirir o zəhrimar! Otuz ildə mən başımın tükü sanı görmüşəm o cür dəyişirik olanları!.. Biri vardı, əvvəl tanımırdım mən onu, dombagöz, yekəqarın adamdı, bir dəfə xahiş elədi, maşınını yudurtdu mənə, sonra gedəndə ikicə kəlmə “sağ ol” da demədi. Baxdım dalınca, Mursaquluya dedim: “Kimdisə, bu adamyeyən adamdı”. Mursaqulunun mənə acığı tutdu, dedi: “Məsələ qarında deyil”. Məni yaman yandırmışdı o adamın mənnən rəftarı. Harda maşın görürdüm, o saat gəlib dururdu gözümün qabağında. Bildirrəri, bir də görürəm Mursaqulu gəlib dayanıb stolumun qabağında, altdan-altdan mənə baxıb başını sambayır. Deyirəm nə olub, başını niyə sambayırsan, a Mursaqulu? Nə desə yaxşıdı? “O adam ki, o illəri sənə maşın yudurtmuşdu ha, doğrudan da o adamyeyənmiş, a Şəppəli! Sənin gözün nə yaman itiymiş, a Şəppəli!” Demə o adam Bursaqulunun dost-doğmaca əmisi nəvəsiymiş. Gedib onun yanına ki, bəs, əminəvəsi, rayonda adın tutulur, hörmətin var. Zəng elə, mənə bir yaxşı yerə bir yaxşı putyovka versinlər, gedim böyrəklərimə bir əlac eləyim. Əvvəl bir söz deməyib,

---

[1] Zirxanə – qazma dam

götürüb zəng vurub putyovkanın yerini eləyib. Sonra deyib: "Çıxart ver iki yüz qırx manat. Yüz iyirmisi putyovkanın qiyməti, yüz iyirmisi də mənə əlxərci". Sonra, deyir, əminəvəsi başladı ki, "mən bəyəm putyovkanı yox yerdən düzəldirəm? Gərək putyovka verən adamı, onun böyründə bir-ikisini qonaq eləyim!" Nə isə... İnsanlıqdan məhrumluqdu rüşvət! Bədbəxt millətin belini sındırır bu rüşvət, ay oğul! Varlını daha da varlandırıb qudurdur, kasıbın ocağını qaraldır!

Şəppəli dərindən nəfəs alıb bir az susdu.

– Allah heç kəsə qismət eləməsin adamlıqdan çıxmağı! – deyib yanıqlı, düşüncəli əlavə etdi: – Qonaqlıq da olar. Ağız şirinləmək, bir töhvəynən könül ovlamaq da olar. Biz də adam içində yaşayırıq... Mən özüm məktub yazıram, sənin yanına xəstə yollayıram, burdan – Bakıdan qayıdanda bir kilo qənfetnən adımı anan olanda mən də xoşhal oluram. Əmbə o cür rəzillik eləmək, xəstədən pul yığmaq?! Mən bilmirəm hansı dili qurumuş deyib o xəbəri Mursaquluya nə əsasnan deyib. Bircə onu bilirəm ki, Orucun oğlu o yola qulluq eləməz! Mənim Məmməm xəstənin xirtdəyindən yapışıb "ver" deməz! Deməz!.. Səhər evdən çıxanda Pəricahana dedim: "Mursaqulunun çərənləməsinə inanma. Camaatın arasında sınıq gəzmə!" Nədən ki, Oruc sarıdan anan çox sınıq gəzib. Sən sağ ol, yerindən qalxalı şəhərdə, oxumağında olubsan, bir mən görmüşəm yazıq anan nələr çəkib! Orucun belinə bir milyon rastrata[1] qoydular, özün bilirsən, neçə kərə danışmışam. Rayondan da yox, birbaş Bakıdan kəmisyə çağırdılar, kağız-kuğazı nə vardı, hamısını surğucladılar. Mursaquluynan biz sonra bildik ki, kəmisyədəkilər o yırtıcıların öz adamlarıymış. Surğucladılar, sonra da aləmi elə qarışdırdılar, nəinki Mursaqulu, heç fələk də baş açmazdı. Bircə milyonu qoydular Orucun belinə, hamı da dedi ki, yeyib, dağıdıb, canavarıymış, yırtıcıymış. Məktubu uc-uca calayırdı ki, qayıdıb düzlüyümü sübuta yetirəcəm, adımı-sanımı qaytaracam!.. Orucun bircə dərdi vardı, o da sən idin, sənə qurban olum! Qorxurdu ki, atayın başına gətirilənləri fikirləşib sınarsan, əyri yola gedərsən. Məktubun əvvəlində yazırdı: "Məmmə əmanəti!" Axırında da yazırdı: "Məmmə əmanəti!" "Məmmənin

---

[1] Müəssisənin pulunda əskiklik, qanunsuz mənimsəmə və s

ürəyini qoruyun!” – deyirdi. Heyif, görmədi! Məmməsinin nə təhər şəfalı, şöhrətli doktor olduğunu heç olmasa eşitmədi də bədbəxt Oruc! Ancaq Orucun ruhu hər şeyi görür! Görür, Məmmə! Başını qaldır, üzümə bax, deynən eşitdiyin yalandı, Mədəd dayı. Mursaqulunun dediyi yalandı! Mən bilirəm, yalan olmağına yalandı. Mən bilmək istəyirəm, görüm səni doğrudanmı çıxardıblar işdən, çıxardıblarsa, nəyin üstə? Mən gərək öyrənim, hər şeyi yerli-yataqlı bilim ki, gedim sovxozda camaatı yığım danışım, sənin işıqlı adıyın üstə kölgə düşməsin... – Məmmə dillənmirdi. – Görürəm, olmağına nəsə olub, Zemfira bala gözüyaşlı getdi... Özün də belə susqun, elə bil heç o Məmmə deyilsən... – Şəppəli yenidən başlayıb, kim bilir hələ nə qədər danışacaqdı. Birdən burnuna pis qoxu dəydi. Pəncərələrin arxasında çinarların yarpaqları xışıldadı, mənzildə hava tərpəndi və dərhal, səhərdən çamadanda qalmış ətin qoxusu içəri yayıldı. Şəppəli Məmmədən eşidə biləcəyi qorxunc cavabı bir az da ləngitməyə fürsət tapmış kimi tez qalxıb, bayaqdan dəhlizə atılıb qalmış çamadanı mətbəxə apardı, təxminən iyirmi kiloluq cəmdəyin tamam göyərib zay olduğunu görəndə, bu onda heç bir təəssüf doğurmadı. Bu saat özünün sovxozdakı təkotaqlı mənzilindəki “var-yoxdan” da, son bir neçə ildə “Məmmənin istirahəti üçün” əkib-becərdiyi bağ-bağçadan da, “Məmmənin xeyir işi üçün” bəslədiyi erkəklərdən də, qısası, dünya malı adlanan hər şeydən keçərdi, təki Məmmə “Mursaqulunun dediyi Məmmə olmayaydı”.

Mələfəyə bükülü cəmdəyi çiyninə atıb həyətə düşdü, evin meydan və kafe tərəfindəki gur işığın, təmizliyin əksinə, yarımqaranlıq, çirkli həyətdə gözünü ətrafına dolandırdı ki, münasib yer tapıb cəmdəyi atsın. Burda, heç gözlənilmədən, Şəppəlinin başına bir iş gəldi.

O, cəmdəyi zibil yeşiyinə atanda birdən nəhəng bir qadın peyda oldu.

– Kişi! Bu nədir atdığın, nə pis iy verir!

Deyəsən, dalandardı:

– Ət?! İti-pişiyi bura yığmaq istəyirsən?! Çuma yaymaq istəyirsən?! – Bu sayaq sözlərə ara vermədən, cəmdəyin qıçından yapışıb, dartıb, oradakı kağız-kuğuzla, zir-zibillə bir yerdə çıxarıb, şappıltı ilə Şəppəlinin belinə yüklədi, sonra kişinin yaxasından bərk-bərk tutub qaranlıq bir yerə apardı.

Qadın hey ötürdü, ütülü, səliqəli parusin kostyumda, boğazı qalstuklu, gözləri gözlüklü kişinin heç də kəndliyə oxşamadığına baxmayaraq, hansı bir əlamətindənsə onun məhz “kənddən gəldiyini” müəyyənləşdirib, “qanmaz, nadan kəndçilərə” vurhay söyüş yağdırırdı.

Əvvəllər Şəppəlini “ayağı yerə dəyməyə qoymayan” Şəppəli mənzilə gələn kimi onu “vannaya basıb”, “yoldan gəlmisən, çim rahatlan”, – deyə nəzakətlə qayğı göstərən, Şəppəli yuyunub çıxana qədər çay dəmləyən, “stoliçnı” araq, yanında da “balans stəkanı” qoyub öz əli ilə süfrə hazırlayan Məmmə, indi, Şəppəlinin cəmdəyi çiyninə alıb çıxdığını elə bil heç görməmişdi. Parusin pencəyin yaxasını qalstukla birgə ovcuna yığışdırıb çəkən qadının ardınca qaranlığa gedəndə də, cəmdəyi quyutək gumbultu ilə dərinliyə atıb həyətə qayıdanda da, o, kürsüdə hərəkətsiz oturub siqaret çəkən Məmməni görür, “nadanlar, eşşəklər!” – deyə ötən qadın onun qulaqlarında milçək vızıltısıtək səslənirdi. Gör bir Məmmənin çiynində necə dərd yükü vardı ki, yol yorğunu kişinin üstəlik də burda zəhmət çəkdiyinə diqqət yetirmirdi!

– Ey, sən kimin adamısan?!

Şəppəli bayaqdan bəri, burda birinci dəfə bu qadının üzünə baxdı və qəribədir ki, onun sualı əvəzində, gözlərinin altından asılmış tuluqlara diqqət verdi: “Hə, bildim, bunun da böyrəkləri zaydı, onçun belə zəhər tuluğudu”. Sonra yenə tamam ayrı fikir: “Bu böyrək naxoşluğu gör necə bəladı ki, bizim şərti dost təki pak adamın da xasiyyətini zay eləyib. Bu səhər necə qışqırdı üstümə! Ömrümdə birinci dəfədi mənə qışqırırlar, bircə bu gün. Səhər Mursaqulu, indi də bu heyvərə! Nə istəyir bu məndən? Cəmdəyi o yana at dedi, atdım...”

– A kişi, karsan, lalsan, nəmənəsən?

– A kişi!.. – Qadın pencəkdən necə dartdısa, Şəppəli daha dözə bilmədi:

– Nə istəyirsən, ay arvad?! Niyə bu qədər rəhmsizlik eləyirsən?!

– Dilin varmış... Mənə de görüm, hansı mərtəbəyə çıxırsan?

– Tutaq ki, ikiyə. Sonra?

– İkidə kimin kvartirasına?

– Sənə nə var, nə zəhləmi tökürsən, arvad?!

– Bilmək istəyirəm: rüşvəti kimə gətirmisən?

– Nə?! Rüşvət?! Başına at təpib?!

Qadın əllərini belinə qaldırdı.

– O doxdur, Orucoğludu, nədi, kababının tüstüsündən gözümüz kor olub! Özü də süpürgə çöpü, napnazik, bilmirsən harasına yeyir!..

Şəppəli özünü içəri salıb bayaqkı yerində – divanda oturmuşdu, dalandar isə, hələ də danışırdı.

– Məmmə, qurbanın olum, mən daha dözəmmirəm! Başını qaldır mənə bir kəlmə de!

– Mən başa düşəmmirəm, dayı.

Şəppəli buna təəccüb elədi:

– Nəyi? Nəyi başa duşəmmirsən, a qurbanın olum?

– Mənim rüşvət aldığımı indi bilmisən? Dünya-aləm rüşvətnən dolanmırmı, dayı?! Sovet hökuməti nə verir bizə?!

Məmmə siqaretini sümürdü. Tüstü dağıldı, Şəppəli hamanca, illərlə alışdığı, ağ bənizli, sakit baxışlı, zərif, göyçək Məmməsini gördü. Ən dəhşətlisi bu idi ki, Məmmə həmişəki kimi gülümsəyirdi.

Şəppəli udqundu.

– Yalandı!

– Nədi yalan olan, dayı?

– Yəni səni də böhtana salıblar o rəhmətlik təki. Alan adama oxşamırsan!

Məmmə gülürdü.

– Oxşamaq üçün necə olmalıyam ki?

– Mən sənə dedim, haram yeyən adam dəyişirik olur. Yerişinəcən, oturuşuna-duruşunacan, gözünün içinəcən!

– Məndə dəyişiklik görmürsən?

– Görmürəm!

– Bir yaxşı-yaxşı bax.

– Görmürəm! Görmürəm!

Şəppəli inadla təkrar edəndə Məmmə köksünü ötürdü.

– Görmürsənsə, demək, dəyişiklik mənim içərimdədi, dayı. Buna nədi sözün?

– Sözüm əvvəlkidi: inanmıram! Necə ola bilər ki, sən elə şey eliyəsən, mənim xəbərim olmuya?!

– Məni təəccübləndirən elə odu də, dayı. Bir saatdı danışırsan, baxıram ki, görəsən, nə olub bu kişiyə. Birinci rüşvəti mənə sən özün verməmisən?

– Mən?! Sənə – rüşvət?!

Məmmə yenə güldü.

– Birinci dəfə sən mənə quzu vermisən. Yadındadı? Sonra da ki, erkəklər!

Şəppəli boğazında quruluq hiss etdi.

– A sənə qurban olum, məni niyə öldürürsən! Mənnən belə zarafat eləmə!.. Quzu! Erkək! Hı!.. Mənə de görüm, hansı dili qurumuş deyib, nə təhər olub Mursaqulu elə xəbərnən gedib sovxoza? Səni doğrudanmı çıxardıblar işdən?

– “Çıxarıblar” yumşaq sözdü, dayı. Qovublar.

– Nə üstə?

– Rüşvət üstə. Xəstələrdən pul almamış yer vermirdim palatada.

Şəppəli özünü toxdatmağa çalışdı.

– Yəqin hansı vicdansızlarsa özləri alıb səni böhtana salıblar?

– Yox, dayı. Böhtan deyil. Bütün xəstəxanalarda hamı alır, mən də onlar kimi.

– Dünya dağılsa, inanmaram!

Məmmə başını buladı.

– Çox nahaq. Sürdüyüm maşını... bax o televizoru... soyuducunu... bu evdə nə görürsən, bax bu nadir kitablaracan, hamısını rüşvətnən almışam. Dolanmaq olmur, dayı, Vallah, billah, a kişi! Kapital dünyasına lənət deyir hökumətimiz, əmma əslində, dünyanın ən nəhəng kapitalistidi Sovet hökuməti. Quluq biz! Bütün qulluqçular, hamımız quluq, dayı. Hər ayın axırında cədvələ qol çəkib qul pulu almırsanmı sən özün?! Məni niyə qınayırsan?! İçərim dəyişib, dayı. Çox dəyişib!..

Şəppəlinin nəfəsi təngiyirdi.

– A sənə qurban olum, bu evdəkiləri mənim öz gözümün qabağındaca, qayınatayın puluna almadınmı?! Niyə zülm eləyirsən mənə?! Zemfira balanın cehizi deyilmi bunlar?!

– Adını cehiz qoymuşam də, dayı.

Şəppəli özünü toplayıb son dəfə:

– İnanmıram! – dedi. – Rüşvətxorun bax burasında – qaşqasında möhür olur! – Əlini alnına vuranda ovcu qatı, yapışqan tərə bulaşdı. Yenə də alt dodağı çimildəşirdi.– Səndə mən möhür görmürəm!

Məmmə, nəyə isə təəssüflənən kimi, yenə köksünü ötürdü.

– Möhürü mənim əmək kitabçama vurublar, dayı. “İşdən kənar edilsin. İşi prokurorluğa verilsin”.

– Nə?! – Şəppəli, əli alt dodağının üstündə, qışqırdı. – Səni də?! Tutqu?!

Məmmə, əksinə, laqeydləşdi.

– Qorxma... Qorxma, dayı. Cinayətkarları tutanların özləri də alandılar indi. Neyləsinlər axı, ay dayı?! Demirəmmi quldu hamı?! Siqaret çəkməkdən dilimə zəhər çöküb. Yemişlərin şirindimi, dayı?

Şəppəlidən səs çıxmadı.

Məmmə mətbəxə keçib nimçə, çəngəl, bıçaq gətirəndə də, yemək otağına qayıdıb yemiş kəsəndə, səliqə ilə doğrayıb: "Hava yaman istidi, amma sən istiyə baxan deyilsən, içəndə içirsən", – deyib soyuducudan araq çıxaranda da Şəppəli bir kəlmə danışmırdı; donuq, demək olar ki, tamam ifadəsiz gözlərlə onun hərəkətlərini izləyirdi.

Məmmə iki qədəhə araq süzüb, öz qədəhini götürdü.

– İçək, dayı... Yayda mən dilimə içki vurmuram. Əmbə sən gəlmisən, içməmək olmaz... Bəlkə aclığın var? İstəyirsən bir yana gedək? Parka? "Drujba" restoranına! Hə?

Şəppəli dillənmirdi. Daha hər şeyi dərk etmişdi. "İşıqlı dünyasının" qaraldığını, yox olub, nağıla, əfsanəyə çevrildiyini başa düşmüşdü. Məmməyə yox, indi Şəppəli elə bil boşluğa, heçliyə baxırdı.

– Getmək istəmirsən?.. Di qaldır! Sənin sağlığına, dayı. Nə qədər qəribə, oriyinal kişisən, bir o qədər də etibarlı, sədaqətli adamsan. Mənim pis günümdə ki, gəlmisən, bu sənin Mədəd kişi olduğunu təkrar sübut eləyir. Sənin sağlığına!

Mursaqulu kişi necə demişdi, elə də oldu: Şəppəli dözmədi. Sovxoza qayıdıb, aşxanada oturub, "balans stəkanı"nı içəndən sonra:

– Gəlirəm, ay Oruc. Bu dünya mənim yerim deyil, sənin yanına gəlirəm, – dedi və başını stola endirib, elə qəribə – sakit, rahat öldü ki, oturduğu yerdəcə yatdığını güman eləyib, aşxana bağlanana qədər, öldüyünü bilmədilər. Biləndə isə, təəccüblənmədən, həyəcanlanmadan, – həəə, qurtardı... qurtardı. Şəppəli də belə getdi, – dedilər.

Tək bir adam – şərti dost ağlayırdı:

– Aləm idin... dünyaydın, ay Mədəd!.. Ay Mədəd kişi!..

# KOLLU KOXA

*Mirzə Cəlilin əziz xatirəsinə*

## 1

Cında qarı, Dingə Dəmir, Həsir Haşım!.. – Bu adlarda nəsə axtarmayın, əmma əlbəttə, qəribədir ki, bizim Qaracalarda uşaqları, yeniyetmələri çıxmaq şərti ilə, neçə adam varsa, bir o qədər də ləqəb var. Hamısını uydurub yaraşdıran da Koxadır. Daha doğrusu, Koxa idi. Daha yoxdur Koxa – kənddə deyil. İndi onun özünün də ləqəbi var: Kollu Koxa. Bu ləqəbi kim qoşub? Koxa bunu bilmir. Çünki, dediyim kimi, kənddə deyil. Gələndə görəcək ki, özünün də ləqəbi var. Əmma... gələcəkmi? Ümumiyyətlə, bir də Qaracalara üz tutarmı? Aramızda baş vermiş hadisədən sonra mənim sədr olduğum kolxoza ayaq basarmı? Gəlsə nə olar?.. Bu barədə fikirləşəndə məni dəhşət götürür. Hərdən mənə elə gəlir ki, Koxa kəndə qayıdanda mən hətta idarə heyətinə ərizə verib işdən çıxmalı, evimi satıb, arvad-uşağımı da götürüb buradan getməliyəm. Qorxuram? Bəli. Açığı, Koxanın yenidən Qaracalara qayıdacağını düşünəndə məni xof götürür. Çalışıram heç olmasa bircə saatlığa unudum onu, mümkün olmur. Koxa qarşımda dayanıb sinəsi qabara-qabara nəfəs alır, azacıq çəp baxan iri, bir az çıxıq gözlərindən qəzəb saça-saça başlayır sadalamağa: “Cında qarı, Dingə Dəmir, Həsir Haşım...” Bununla da mənim işgəncəm başlanır. Bəli, bəli, sözün əsl mənasında ingəncə! Məsələyə bələd olandan sonra görəcəksiniz ki, ilk baxışda çox adi, hətta gülməli, duzlu-məzəli bir əhvalat kimi görünən bu ləqəb əhvalatı, əslində dəhşətli və mənim üçün işgəncəli əhvalatdır.

Deyirlər, bu azar, yəni adamlara ləqəb qoşmaq azarı Koxaya atasından keçib; otuzuncu illərdə “kolxoz” təzə-təzə qurulanda, kolxoza girmək istəməyən az-çox varlı adamlar “qolçomaq” elan olunub tutulduğu vaxtlar Çopur kişi Qaracalarda ona-buna ləqəb – “laylağı” yaraşdırıb, axırda rayonun rəhbər işçilərinə də “laylağı” qoşub onlarla savaşmış, bundan sonra arvadını da götürüb buradan

gedib, ömrünün axırına qədər Samuxda meşəbəyi olmuşdu. Mən onu – Çopur kişini tək bir dəfə, ömrünün son günlərində buraya – ata-baba kəndinə qayıdanda gördüm. Eynilə oğlu kimi, yəni Koxa kimi nataraz, çopur adamdı. Mingəçevir Su Elektrik Stansiyasının tikintisi başa çatanda, yəni Samux meşəsi su altında qalanda Çopur kişi meşə idarəsinin maşınında Qaracalara düz bir ay kötük daşıdı, yanacaq naminə pambıq çöpündən savayı bir şeyi olmayan qaracalıların qapı-bacalarını kötüklə doldurdu, axırda isə, yəqin ki, çox işləyib özünü zora saldığına görə xəstələndi, ikicə gün yatıb vəfat etdi. O vaxt bığ yeri təzəcə tərləyən, ata-anasız Koxa əvvəl Mingəçevirə getmək istədi. Nədən ki, onda hər yerdən fəhlə yığırdılar, yaxşı maaş, yataqxana, hətta ev vəd edirdilər. Bizim kəndə də gəlmişdilər və başqa cavanlarla birlikdə Koxa da fəhləliyə yazılmışdı. Əmma gedəsi olmadı. Mərhum meşəbəyidən yadigar qalmış mişarı və baltanı götürüb, gündə bir həyətdə işləyib, atasının gətirdiyi kötükləri yarıb doğradı. Qocaların dediyinə görə Koxa yalnız atasına rəhmət oxutdurmaq xatirinə bu işə girişibmiş. Bir parası da bu fikirdə idi ki, Çopurlar, ümumiyyətlə, nəsilbənəsil, elə-obaya yaxşılıq eləyib bundan ruhlanarmışlar; Koxa da öz ata-babalarına oxşayıb. Hər nə isə, fakt budur ki, Koxa uzun müddət həyətlərdə kötük yardı. İndi dənizin altında qalmış Samux meşəsində anadan olub, orada da böyüdüyünə baxmayaraq, ata-baba kəndinin camaatına isinişdi, kötükləri yarıb kəndi, demək olar ki, bir illik odunla təmin etdikdən sonra, biz hamımız onu Mingəçevirə yola salmağa hazırlaşdığımız halda, o, burdan heç yana getməyəcəyini elan etdi. Bu vaxt mən hələ kolxoz sədri olmasam da, Qaracalarda yeganə ali savadlı aqronom kimi hamı mənə hörmət edirdi. Ortalığa çıxıb: "Koxa bizə gedəcək" deyəndə, bu xeyirxah və qoçaq oğlanın müştərisi çox olsa da, heç kəs mənim qabağıma keçmədi. Koxa il yarıma qədər bizdə qaldı. Mən toya, yəni Suğranı evə gətirməyə hazırlaşanda isə camaat yığışıb ona daxma tikdi. İllər keçdi, mənim Məmmə balam, arxasınca Şəmmə balam dünyaya gəldi, mən yüzbir qayğısı olan ata, minbir qayğısı olan kolxoz sədri oldum, əmma o il yarımda o çopur, çəpgöz oğlandan gördüyüm təmənnasız qulluqdarlığın, tabeçiliyin oyatdığı kövrək istilik ürəyimdən getmədi. Hardan, necə biləydim ki, bir vaxt olacaq, mərhum atası kimi Koxa da ləqəb – "laylağı" qoşmaq həvəsinə düşəcək, həngamələr, dəhşətlər törəyəcək. Koxanın dostu ikən

düşməninə çevriləcəm, hamının hörmət etdiyi, mötəbər vəzifəli bir adam ikən, eyni zamanda hamının nifrətini qazanacaq, gözükölgəli, ürəyiyüklü, vicdanı ləkəli bir bədbəxtə çevriləcəm!..

Yetimlik, deyirlər, guya heç vaxt unudulmur, adam böyüyüb lap yaşa dolandan sonra da uşaqlıqda və cavanlıqda çəkdiyi məhrumiyyətlərin izi ürəyindən getmir. Yəqin ki, belədir. Əmma Koxa yetimliyi çox tez unutdu. Nataraz, dəli-dolu bir oğlana çevrilib, onabuna ləqəb qoşmağa başladı. Və nəhayət, günlərin birində, camaatın arasında dimdik dayanıb nərildədi ki:

– Mən sənin başıyın tacını sevirəm, ay sədr!

Ara-bərədə qəribə–müəmmalı pıçıldaşma gəzdi. Mən isə heç nə anlamadım:

– Bu nə deməkdi? – dedim. – Necə yəni "başıyın tacını sevirəm?!"

Dedi:

– Qardaşın başının tacı bacı deyilmi? Koroğlu deyib: "axçasız-pulsuz aşiqəm". Bir daxmam var, onu da bilirsən camaat tikib. Bir tək canım var o da sizə qurbandı. Söz verirəm, ömrümün axırınacan qapınızda qul olacam. Adı Bacı tacını ver, başımda gəzdirim!

Qızardım, pörtdüm, necə deyərlər, şişdim qaldım.

Bacı-Tacı kimi, bütün başqa ləqəblər də elə sərrast və tutarlı idi ki, hətta rayondan gələn qonaqlar da maraqlanırdılar. Sahədə, yaxud kiminsə evində, süfrə başında Koxadan təkidlə xahiş edirdilər ki, ləqəbləri sadalasın. Koxa isə "laylağılarını" ucuz satmırdı: hər biri bir idarənin məsul işçisi olan mötəbər qonaqlara "hərəniz bir şey boyun olun" – deyib, onları Qaracalar üçün nə isə xeyirli bir iş görməyə məcbur etməyincə sadalamırdı.

– Məsəl var, atamı öldürmüşəm ki, goruna and içim. Haşım kişini Həsir Haşım eləmişəm ki, bunun ona xeyiri dəysin, – deyirdi.

Ləqəblərin guya hərəsinin bir tarixçəsi vardı və guya hərəsinin altında bir məna gizlənirdi.

Soruşurdum. Özü də dəfələrlə. Əmma Koxa açmırdı.

– Fikirləş özün tap, – deyirdi.

Bizim cavanlardan kimisi "importnı tavar" alverinə, kimisi şeir yazmaq azarına tutulmuşdu. Xüsusilə, bu axır vaxtlar, şair olmaq asanlaşandan bəri, yəni "sərbəst şeir" dəbə minəndən bəri hansı cavanı iş üstündə tapmırdımsa, bilirdim ki, xəlvətə çəkilib şeir yazır. Koxa isə "laylağı" qoşmaq azarına tutulmuşdu.

– Ey, Xain Xıdır! – deyirdi. – Ey, Çənə Bağır! – deyirdi.

“Xain Xıdır”, necə deyərlər, diri gözlü ölürdü, “Çənə Bağır” qızarırdı, ağarırdı, bozarırdı.

– Yaxşı, yaxşı, a Koxa, çalışıram heç olmasa sən olan yerdə az danışım, – deyirdi.

– Tülkü Nəsib! Bic Bəbir!.. və sairə. Sadalayıb, axırda hökmən mənə baxırdı:

– Niyə “Tülkü”, ay sədr?! Niyə “Bic”, ay sədr?! Niyə öyrənmirsən, niyə bilmirsən?!

Mən təəssüf edirəm, təəssüf nədir, yanıb-yaxılıram ki, başısoyuqluq elədim, vaxtında hər şeyi öyrənmədim. Öyrənsəydim, əlbəttə, heç bir müsibət olmazdı. Nə isə...

Koxa kənddən gedəndən sonra nə iş üstundə, nə də məclis-mərəkələrdə ləqəbləri sadalayan vardı. Bəlkə kim isə, haradasa isə, sadalayırdı. Mən eşitmirdim. Sonradan bildiyim kimi, hərəsinin doğrudan da öz tarixçəsi, gizli mənası olan bu ləqəblər unudulan şeylər deyildi, çox güman ki, sadalayan vardı. Mənim yanımda isə onları heç kəs dilinə gətirmirdi. Yalnız hərdən, yoldan ötəndə, yaxud axşamlar həyətdə oturanda, harada isə, kiminsə “Cında” və ya “Dingə” dediyini eşidirdim. Bununla da əhvalım dəyişirdi. Başqaları üçün, indi, bəlkə də adi kəlmələrə çevrilmiş bu ləqəblər qulağıma dəyəndə hər dəfə sarsılırdım. Çünki, indi, Koxa ilə mənim aramda baş vermiş hadisədən sonra bu ləqəblərin hər birində mən öz bağışlanmaz günahlarımın tarixçəsini görürdüm. Nə idi bu günahlar? Necə deyərlər, danışmasam ölərəm...

## 2

Gün əyiləndən sonra bütün kənd kanal boyunda otururdu ki, istidən təntiyən olanda özünü suya təpsin. Bakıdan gələnlər danışırdılar ki, orda da isti keçir: camaat səhərə qədər dəniz kənarından çəkilmir, skamyalarda yer tapmayanlar sahilə qəzet sərib otururlar... Qaracalılar hərdən belə və buna bənzər söhbətlər eləyirdilər. Əksər hallarda isə susurduq.

Gündüzlər motorlar qızdığına görə, adətən gecələr işləyən maşınlarımız da susurdular. İtlər, pişiklər də susurdu. Göyün üzünü tutmuş durğun buludun altında hava elə bil getdikcə sıxılıb, bizi də

sıxıb əzirdi. Quru palaz üstündə sərilib heysizlikdən qımıldanmayan uşaqlarımızın, ömürlərində belə müsibət görmədiklərini deyib, ikicə kəlmə danışmamış təngənəfəs olan qocalarımızın, günbəgün yox, saatbasaat yanıb əldən gedən əkinlərimizin dərdini çəkə-çəkə qan-tər içində oturub susurduq. Əmma bu mənalı sükut idi: atom sınaqları təbiətin, necə deyərlər, altını üstünə çevirmişdi; ən fəal "atomşik" isə elə "bizimki" idi, yəni Sovet hökuməti. Üstüörtülü "baisin evi yıxılsın" deyib, deyinməkdən başqa nə danışaydıq!

Birdən, bu ölgünlükdə gümrah bir səs eşitdim:

– Salam əleyküm, a Qaracalar camaatı!

Kanalın beş addımlığında, asfaltdan ayrılıb bizim kəndin böyründən, əkinlərimizin arası ilə uzanıb düzənliyin dərinliyindəki kəndlərə gedən torpaq yolda bir "Moskviç" dayanmışdı. Yəqin ki, bürkü məni lap əldən saldığına görə maşının səsini eşitməmişdim. Gecənin yarısında Qaracalar camaatını belə gümrah salamlayan adamın səsini isə, nə qədər üzgün olsam da, eşitməyə bilməzdim. Çünki bu, Qılınc Qurbanın səsi idi:

– Ölənlərinizin ehsanına, sərin sudan, atlamadan nəyiniz var.

Məndən savayı kanal boyunda daha bir neçə nəfər başını qaldırıb maşina tərəf baxdı. Faraların işığından xeyli kənarda, əllərini belinə qoyub dayanmış xırdaca qaraltını görən kimi sağ-solumda pıçıldaşdılar:

– Qılınc Qurbandı. Axır ki, gəldi!

– Xeyir ola, gecənin bu vaxtı niyə?..

– Su istəyir. Tez olun!

– Tək deyil, deyəsən. Böyük qabda apar.

– Atlama istəyir!

Qaranlıqda əlimi yan-yörəmə atıb, bir ucunu daş parçasının altına qoyduğum kəndiri tapdım. Kəndirin o biri ucunu Suğranın axşamdan uşaqlar üçün hazırladığı qatıq atlaması ilə dolu bitonun qulpuna bağlayıb, kanala sallamışdım. İpi dartıb bidonu çıxartdım. Sonra kibrit çəkib, palazın künc-bucağında dəmir dolçanı axtardım.

Şofer yalxı maykada başını rulun üstünə əyib hərəkətsiz qalmışdı. Arxada oturan adam da qurşaqdan yuxarı soyunduğuna baxmayaraq, deyəsən, lap taqətsizləşib başını yana söykəmişdi. Qurban kişi isə boğazının altında yalnız bir-iki düyməsi açılmış boz kiteldə, dimdik dayanıb, yanına gələnlərə bircə-bircə əl verirdi. Kanal boyundan yeni-yeni adamlar qalxıb görüşməyə tələsirdilər.

Bu hörmət, əlbəttə, səbəbsiz deyildi.

Qılınc Qırbana əl vermək özü də şərəf sayılırdı.

Rayonda hara ayaq basırdısa, Qılınc Qurbanı hər yerdə, o cümlədən raykomda, icraiyyə komitəsində və başqa rəsmi yerlərdə də ehtiramla qarşılayırdılar. Hər rayonun öz şöhrətli adamları olduğu kimi, bizimkilər də vardı. Qurban kişi isə həmin adamlar içərisində birinci idi. Rayon mərkəzinin ən səfalı yerində, bağ-bağat içində ev vermişdilər ona. Qurban kişi hər ay təqaüdünü alıb, bu səfalı evdə rahat oturub ömrünün sonunu yaşamalı idi. Əmma onu rahat qoymurdular. Bakıdan, qonşu rayonlardan qonaqlar gələndə, Qılınc Qurbanı geyindirib-kecindirib, rayonun fəxri sayılan köhnə bolşevik kimi, məclisin başında oturdurdular. Sağlığına içirdilər. Onun da nə isə bir söz deməsini, dünyagörmuş, təcrübəli qoca kimi, nəsihətini-filanını gözləyirdilər. Bayram günlərində ordenlərini, medallarını taxıb zəhmətkeşlərin rəsmi keçidini qəbul etmək üçün tribunaya qalxmasını gözləyirdilər. Bütün bunların nəticəsində, hansı bir jurnalist isə maraqlanıb, bu kişini geniş miqyasda şöhrətləndirməyi özünə borc bilib, onun haqqında "Qılınc Qurban" adında bir kitabça yazmışdı. Mən bu kitabçanı oxumamışdım. "Bələd olanlar bilirlər ki, işə az-çox can yandıran kolxoz sədrinin çox vaxt gündəlik qəzetə baxmağa vaxtı qalmır. Əmma eşitmişdim ki, həmin kitabçada Qurban kişinin vaxtı ilə, cavanlığında "Gəncə qiyamı" deyilən üsyanın[1] yatırılmasında iştirakı, qaçaqlarla vuruşmaları, sonra öz kəndində sovet sədri vəzifəsində gördüyü işlər barədə danışılırdı. Bu kitabça çap olunub yayılandan sonra Qurban kişini hamı "rayonumuzun fəxri" adlandırırdı, əmma mən qəti bilirdim ki, o, təmtəraq xoşlayan adam deyildi. Öz şəxsiyyətinin qiymətini başa düşüb, lazım olanda bu qiymətə münasib, mötəbər görünsə də, axır vaxtlar təriflərdən bezikmişdi, eşidəndə dərhal üz-gözünü turşudurdu. Dərin, sıx qırışlarla çalın-çarpaz doğranmış bir əlcə qara sifəti elə bil daha da qaralırdı, hətta iri, işıqlı gözləri də kölgələnən kimi olurdu: "Öldük! Canımız çıxdı mədhiyyə eşitməkdən! Bəs deyilmi, ay camaat?!" – Qurban kişi belə deyəndə, mən görmüşdüm ki, bəziləri bir-birinə göz vurub belə güman edirdilər ki, "mədhiyyələrin" əleyhinə danışmaqla qoca özünü dartıb bir az yuxarıkı pilləyə qoyur.

---

[1] 1920-ci ildə Sovet hakimiyyətinə qarşı üsyan

Səhv edirdilər.

Bir dəfə kolxoz sədrlərinin, kənd soveti sədrlərinin və ilk partiya təşkilatı katiblərinin birgə rayon müşavirəsində tənəffüs vaxtı Qurban kişi sərin limonad istədi. Ona qulluq göstərmək istəyən kolxoz sədrlərindən azı beş-altı adam hamısı birdən bufetə cumub, hamısı da əli butulkalı qayıdanda Qurban kişi əvvəlcə qəhqəhə çəkdi, sonra isə birdən qapqara qaraldı, dediyim kimi, elə bil hətta gözlərinin içi də kölgələndi. Bircə kəlmə: "Bezmişəm!" – dedi. Sonra adəti üzrə deyinməyə başladı: "Stalini tərifləyib göylərə qaldırdınız, sonra da "kultliçnostun zərərləri" deyib yerə vurdunuz! Heykəlləri heç, şəkli də qalmadı! İndi də mən təki bədbəxtləri qaldırırsınız ki, bizi də yerə vurasınız?!" Bu deyintidəki dərdi, faciəni görməmək mümkün deyildi: kişi əzab çəkirdi.

Bufetdən limonad gətirənlər içərisində mən də vardım. Həmin deyintidən sonra, ömründə birinci dəfə elədiyim canfəşanlığımdan qızarıb bir kənarda qalmışdım. Qurban kişi, yəqin ki, mənim əhvalımı duyub gülümsündü: "Gətir, səninkini içəcəm", – dedi.

Bəzi sırtıq, sürtük sədrlər zarafata, məsxərəyə salıb, hərəsi öz butulkasını irəli soxmağa çalışdısa da, Qurban kişi tək mənim gətirdiyim limonaddan içdi, sonra milçək qovurmuş kimi, əlini yellədi, həmin sırtıq-sürtükləri başından qovub, məni yanında oturtdu.

– Təmiz adama oxşayırsan. Səndən xoşum gəldi, Cavanşir,– deyib orda ilk dəfə mənimlə xeyli söhbət elədi. Mən bir daha inandım ki, bütün ömrünü kəndlərdə at belində keçirmiş bu kişini indiki həyatı doğrudan da darıxdırır. – Ələlxüsus da ki, bu yaltaqlıq! Dad bu yaltaqlıq əlindən, Cavanşir! – dedi. – Əvvəllər nə kənddə-kəskdə, nə də bu şəhərdə belə sırtıqlıq yoxdu. Lap zibili çıxıb bu vəzifəli adam deyilənin! Pis qırdı bu yaltaqlıq, yapışdımı, daha qopartmaq olmur! – dedi. – Gedəcəm! Əvvəl-axır gedib dədəmin o uçuq komasında oturacam! – dedi.

Mənim gətirdiyim limonadı son damlasına qədər içəndən sonra, Qurban kişi "bu zəhrimarın" adamı daha da yandırdığından şikayətlənib, vaxtı ilə kənddə sovet sədri olanda yayın istisində yaylağa atlı göndərib qarlı dağlardan xurcunda, saman içində buz gətirtdiyi dəmləri xatırladı. Bunu elə yanıqlı danışdı ki, mən mütəəssir oldum, bu saat ona buz tapmağa söz verdim. Raykomun bufetinə, oradan da su dükanlarına yüyürdüm. Son vaxtlar rayonda işlənən süni

buz qalaqları arasında, nəhayət bir parça əsl buz tapdım, pivə dolçasının içində müşavirə gedə-gedə rəyasət heyətinə aparıb Qurban kişiyə verdim.

– Pah! Pah! Sağ ol, bala, sağ ol! – dedi və cibindən iri bıçaq çıxarıb açıb, müşavirəni-filanı saymadan, elə o pivə dolçasının içində şaqqaşaq doğrayıb, xırdalayıb, dişinə salıb xartaxart yedi.

Müşavirənin axırında hamı xahiş etdi ki, "rayonumuzun fəxri" də danışsın. Qurban kişi başını buladı. Sağ-solunda oturan raykom katiblərinə şikayət tərzində nə isə deyib, nəhayət, ayağa qalxanda isə, cəmi beş-on kəlmə danışdı. Mən orda öyrəndim ki, rayonda çağrılan bütün iclaslarda, müşavirələrdə, bayram şənliklərində, qonaqlıqlarda iştirak etdiyinə baxmayaraq, Qurban kişini üstəlik də məhkəməyə xalq iclasçısı seçiblər. Çıxışında o, bütün bu həngamənin əvəzində ürəyinə yatan "atüstü bir qulluq" istədi. Rəyasət heyəti də, zalda oturanlar da hamı "rayonun fəxrinin" müşavirədə haqqında söhbət gedən təsərrüfat məsələlərindən, pambıqdan, üzümdən, suvarma işlərinin çətinliyindən danışmasını gözləyirdilər. O isə "atüstü bir qulluq", yəni "adı, ünvanı olan bir vəzifə" istəyib oturdu.

Və yenə deyinməyə başladı:

– Yığışırıq, elə danışırıq! Danışırıq! İclas! İclas!.. Moskvada hər gün iclas, Bakıda hər gün iclas, rayonda hər gün iclas! Nədi bu belə?! Niyə işləyən yoxdu, ay bala?!

Rəyasət heyətində də, zalda da pıçıldaşma gəzirdi. Hamı birtəhər, məyus olmuşdu.

Qurban kişi o yan-bu yana baxdı. Deyəsən, nə isə fikirləşib yenə ayağa qalxdı. Zalı göstərib:

– Buna baxın! Səhər saat doqquzdan indiyə qədər bu bir orduluq adam boş-bekara oturub burda! Buydumu biz bolşeviklərin qurmaq istədiyimz dövlət?! Deyirdik: " Hərəyə öz zəhmətinə görə..." Zəhmət çəkənlər çöllərdə günün altında ac-yalavac, biz burda belə! Limonad dartırıq! Buz xırtdadırıq! Deyirəm genə kəndə göndərin məni! Hamınız gedin! İclas nədi?! İşləmək lazımdı, bala! Kolxozlara, sovxozlara sahib olun! Hər vəzifəli adam bir kolxozu podrata götürsün, hamilik eləsin, xeyir versin! Yoxsa, bu nədi?!

Mənim ürəyim çırpınırdı. Ağlıma bir fikir gəlmişdi, əmma dillənməyə cəsarət etmirdim. Qorxurdum münasib düşməsin.

Qurban kişi pivə dolçasını götürüb buzun suyundan bir qurtum içib: "Oxay!" – dedi. Gördüm yenə buz sındırmaq istəyir. Yerimdən necə atıldığımı, cibimdəki qaşıqlı, çəngəlli bıçağı necə işlətdiyimi bilmədim. Sonra isə, beynimdəki fikirdən sehirlənmiş kimi, dayanıb, indi yadıma gələndə ətimi tökən, axmaq bir təbəssümlə gözlərimi onun üzünə zillədim. Əzabla düşünürdüm ki, necə edim, bir az əvvəl dediyi "hami"lik məsələsini necə xatırladım?

İxtisasca aqronomluğuma baxmayaraq mən partiya tarixi ilə də çox maraqlanırdım. Tribunaya qalxmadan, bıçaq əlimdə, başladım ki:

– Rusiyada inqilab illərində təsərrüfat yerli-dibli dağılanda Lenin neyləmişdi, yadınıza salın. İyirmi beş min fəhləni səfərbər eləyib kəndlərə göndərmişdi ki, təsərrüfatı qaldırsınlar. "Dvadsatipyatitısyaçniki" – "İyirmibeşminçilər" adlandırılan o vətənpərvər adamlar Rusiyanı aclıqdan xilas etdilər!

Qılınc Qurbana elə bil dünyanı bağışladım. Dolçadan bir qurtum da içib, ucadan:

– Afərin! – dedi. – Afərin, Cavanşir Ocaqov! Sənin kolxozunu şəxsən podrata götürürəm! Hamilik deyirlər, şefliyə götürmək deyirlər. Mən bax o iyirmibeşminçilər təki kəndlərə çağırıram bütün bu vəzifəli, savadlı adamları! Gedək qaldıraq təsərrüfatımızı! Yoxsa, bu nədi, a yoldaşlar?! Kolxozlar dağılır, əmbə biz elə iclas eləyirik!

Yazın məni bu Ocaqovun kəndinə! Podrata!

"Şeflik" demək istəyirdi, "podratçı" – dedi. Ancaq heç kəs bunun üstünü vurmadı. Mənə gəlincə, mənim üçün bu saat dünyada bu "podrat"dan gözəl ikinci bir söz yoxdu. Bu söz Qurban kişinin dilindən çıxar-çıxmaz, mən hərəkətimin necə görünəcəyini düşünmədən, rəyasət heyətinə cumub, qocanın tarım çəkilib kip düymələnmiş kitelin içində elə bil sümükdən savayı heç nəyi olmayan xırdaca bədənini qucaqladım, sonra büt qarşısında əyilən kimi əyilib, əllərini öpdüm.

Bu təfsilatı mən indi belə aydın xatırlayıram. Onda isə qocanı qucaqladığımı da, əllərini öpdüyümü də bilmədim. Bir də o vaxt ayıldım ki, böyründə dayanıb mənim başı bəlalı kolxozumu "podrata" götürən bu möhtərəm şəxsin xırdaca boyundan uca görünməmək üçün qəsdən qıçlarımı əyib, boyumu balacalaşdırıb var qüvvəmlə əl çalıram.

"Başı bəlalı kolxozum" deyirəm, ona görə ki, neçə ildən bəri mən Qaracaların qumlu, gilli torpaqlarında pambığın vaxtsız yanmasını, bu torpaqlarda üzümçülüyün və qoyunçuluğun daha sərfəli olduğunu sübut edə bilmirdim; köhnə, ixtisaslı aqronom kimi dəlillər gətirirdim, fayda vermirdi; hər il təsərrüfatın planlaşdırılması başlananda, iclaslarda pambığa ehtiyacdan danışıb, sahələri pambıq əkini üçün yararlı olan kolxoz və sovxozlarla bir yerdə Qaracalara da öhdəlik verirdilər. Qaracalar isə, hər il haqq-hesab vaxtı üzü qara çıxırdı. Bunu bizim məsul işçilərin hamısı bilirdi. Mənim sonsuz şikayətlərimin cavabında: "Neyniyək, Cavanşir, əlacımız yoxdu. Moskva elə pambıq-pambıq deyir. Orta Asiya da biz gündədi, dözməliyik", – deyirdilər. "Vaxt gələr, planlaşdırmadakı nöqsanlarımızı aradan qaldırarıq", – deyirdilər. Mən onların danışıqlarındakı səmimi etirafı duyurdum, necə deyərlər, ürəyimə daş basıb susurdum, dözürdüm. Günlərin bir günü Qurban kişinin – "rayonumuzun fəxri Qılınc Qurbanın" belə gözlənilmədən Qaracaları "podrata" götürüb mənə dayaq, hamıya şef olacağını, əlbəttə, güman eləməzdim. Odur ki, birdən-birə xoşbəxt olmuşdum; var qüvvəmlə əl çalırdım. Üç katibin üçü də, icraiyyə komitəsinin sədri də, rayon qəzetimizin redaktoru da – hamı əl çalırdı.

Tay-tuşlarım – kolxoz sədrləri zaldan qibtə ilə baxırdılar.

– Allahın verdi!

– İşin düzəldi, Ocaqov!

Həmin bu anlarda məndə nə isə çox pis bir dəyişiklik oldu; birdəncə əlimi qaldırıb qışqırdım:

– İndi ki, Qurban kişinin adı mənim üstümdədi, pambıq planını nəinki azaltmaq, hələ artırmaq istəyirəm! Əlavə öhdəlik götürürəm! Yüz əlli faiz ödəyəcəm pambıq planını!

Zal susdu. Mənə təəccüblə, hətta heyrətlə baxdılar.

Əmma mən içərimdə titrəyən qorxağa təslim olmadım; hamıya müraciətlə sual verdim ki, məgər siz Qılınc Qurbanın adındakı qüdrətə bələd deyilsinizmi?! Qarşımda qapılar öz-özünə açılmıyacaqmı?! Yüz əlli faiz öhdəlik üçün nə lazımsa, hamısı öz-özünə düzəlmiyəcəkmi?!

Bu səmimiyyətə yenidən əl çaldılar və bununla da hər şey qurtardı.

Müşavirədən sonra katiblər məni saxladılar.

– Çox sevinmə, Ocaqov! – Bunu birinci katib dedi. O birilər başlarını tərpətdilər. Yəni: biz də bu fikirlə şərikik. Bu nə deməkdi? Niyə sevinməyim?

Mənim çaşqınlığımı görüb gülümsündülər və başa saldılar ki, əgər bundan sonra Qaracalarda iş axsasa, bu, kəndə ziyan vurmaqdan başqa, həm də Qılınc Qurban kimi bir adamın şöhrətinə ləkə olacaq. Qurban kişinin adının ləkələnməsi isə, rayonun adının ləkələnməsi deməkdir. Buna görə də, əgər qaracalılar indiyə qədər ikiqat artıq səylə işləyirdilərsə, bundan sonra dörd qat artıq qüvvə ilə çalışmalıdırlar.

Mən qətiyyən ruhdan düşmədim.

– Təki Qurban kişinin adı üstümüzdə olsun, hər şey düzələr! – dedim.

Gözlədiyim kimi, o kişinin adının üstümüzdə olması bizə az kömək eləmədi; bizə əlavə iki yük maşını verdilər. Vəd etdilər ki, su qalxmayan yerlərdə artezian quyuları qazmaq üçün ssuda buraxacaqlar. Yüz əlli faiz pambığın gəliri hesabına iki yüz hektar sahədə üzümlük salmaq barədə təklifimə də etiraz etmədilər.

Mən, dediyim kimi, Qılınc Qurbanın adını əlimdə bayraq eləyib hansı idarənin qapısına ayaq basırdımsa, qapı qarşımda doğrudan da öz-özünə açılırdı. Suğranın dediyinə görə, ruhumun təzələnməsindən başqa, mənim hətta yerişim də, oturuşum-duruşum da dəyişmişdi.

Əvvəllər, rayon mərkəzində mənlə yalnız uzaqdan-uzağa başlarını tərpətməklə salamlaşan adamlar, indi boyumu görən kimi yanıma gəlirdilər, əlimi sıxırdılar.

– Qılınc Qurban yüksəldir səni! Ən azı üçüncü katib olacaqsan, ay xoşbəxt karyerist!.. – Çəkib restorana, pavilyona salırdılar, qonaqlıqdan sonra da ciblərimi şokoladla doldururdular ki, "uşaqların yanına əliboş qayıtmayım".

Əvvəllər, yorğun-arğın evə qayıdanda cüt balalarım – Məmmə ilə Şəmmə çənəmin altını kəsdirib üzümə baxanda, uşaqları iki kəlmə xoş sözlə dindirməyə də həvəsim qalmırdı. İndi isə, nə qədər yorğun olsam da, Məmməni bir dizimin, Şəmməni o biri dizimin üstünə alırdım. Suğra baxıb gülümsünürdü:

– Allah o kişinin atasına rəhmət eləsin, səni adam elədi! – deyirdi.

Qısası, mən xoşbəxt idim.

Əmma xoşbəxtlik uzun sürmədi.

Pambıq səpini başlanar-başlanmaz, Qurban kişi zəng vurub məni yanına çağırdı. Xəbər verdi ki, öhdəlik məsələsi onun "ürəyinə tıqqıltı salıb", quraqlıq belə getsə, fəxri sədrlikdən imtina edəcək. "Nahaq yerəcə döşünə döydün, gərək ayağını yorğanına görə uzadaydın", – dedi. Sonra da xəbər verdi ki, həkimlər onun qanında şəkər tapıblar, çox işləməyə, əsəbləşməyə qoymurlar. Bu, əlbəttə, mənim üçün gözlənilməz xəbərdi. Qurban kişinin adının qüdrətini təcrübədə gördüyümdən, eşitdiyim qanımı qaraltdı. Hətta çox pis narahatlıq və qorxu duydum. Neyləməli idim? Geri çəkilmək? Yox, daha gec idi.

Qorxunu ürəyimdən çıxarmağa çalışdım. Yenə də: "Hər şey düzələr, təki sənin adın bizim üstümüzdə olsun", – dedim. Əmma hiss etdim ki, bu dəqiqədən başlayaraq, müşavirədən sonra duyduğum xoşbəxtliyim gedir, əvəzində nə isə dumanlı bir narahatlıq gəlir.

Həmin bu vaxtlar Koxa mənə ləqəb yapışdırdı: "Cəfalı Cavanşir!"

Yaz keçdi. Yay girdi. İstilər düşdü. Eynilə keçən ilki kimi, inişilki kimi Qaracaların gilli-qumlu torpaqları yarıq-yarıq oldu. O yarıqlar timsah ağzıtək açılıb suyu xorhaxor udurdu. Doymaq bilmirdi. Həmişəkitək yenə də iki qarışdan yuxarı qalxmayan, camaatın dediyi kimi. gədələyib qalan pambıq kollarının yarpaqları saralır, qozalar hələ ucları çatlamamış soğulub, quruyub daşlaşırdı. Mən ara-sıra Qurban kişinin yanına gedirdim, ondan gah su idarəsinin müdirinə, gah da kanal boyunda bizdən yuxarıkı kolxozların sədrlərinə məktub alırdım. Özünə də yalvarırdım ki, hamilikdən, fəxri sədrlikdən imtina eləməsin. Qoca susurdu. Kip düymələnmiş kitelin içində həmişəkitək qıvraq və yaşından çox-çox cavan görünsə də, hiss olunurdu ki, vaxt artıq öz hökmünü verib, bu son aylarda kişi qocalıb, ürəyi köyrəlməyə başlayıb və bu səbəbə görə də mənim yalvarışlarımın müqabilində sərt cavab verə bilmir. Axırıncı görüşümüzdə qoca, yığıncaqlardan, qonaqlıqlardan. "bu boş danışıqlardan, yaxasını qurtarıb", tezliklə Qaracalara gələcəyinə, "dərdimizə iş üstündə əlac eləyəcəyinə" söz vermişdi.

İndi, nəhayət, gəlmişdi! Həm də istilərin belə dəhşətli vaxtında, gecə yuxusuna haram qatıb gəlmişdi! Hamimiz! Şefimiz!..

## 3

Özümü onun üstünə saldım.

– Xoş gəlmisən, Qurban əmi! Səfa gətirmisən bu başı bəlalı kəndə!

Yorğun-yorğun gülümsədi.

– Yanı gəlmiyə bilərdimmi, a Cavanşir?!

– Axır ki, qopdun iclaslardan!

– Yaman qopmuşam!.. Danışıqdan keçib bizim hökumətimizinki. Kimin beş qəpik gəliri var, o işləyir. Zəhmət adamının gəliri yoxdu, ay oğul! İşləmir! Təsərrüfat dağılır! Biz də qalmışıq, neyləyək? Hər vəzifəli adam bir sahəni podrata götürsün! Xeyri nədi?! – Əlimə baxdı. – Nədi o?

– Atlamadı, – dedim. – Pis deyil, az-maz sərnidər ürəyini.

– Gətir görək! – dedi. – Tök görək, tök! Allah qara eləsin qocalığın üzünü.

Dolçanı alıb bir-iki qurtum içdi. Köksünü ötürdü:

– Eh, – dedi, – bir zaman vardı Qurban əmin səngərə yatanda birdən iki sutka daşın dalından qalxmazdı. Susuz-selsiz, birdən iki sutka! Ağzım quruyanda dilimin üstə yastı daş qoyardım! Şəhərə köçəndən bəri içimdən əjdaha peyda olub. Əjdəhanın adı da nə olsa yaxşıdı? Şəkər! İndi naxoşluqların adı da məzəli olub. Raykomda deyirəm, bu üç-dörd ildə mənə o qədər tort-mort, şirni-mirni yedirtdiniz ki, axırda, deyirəm, damarımda qanım da dönüb şəkər oldu.

Atlamanı qurtum-qurtum, ləzzətlə içib, dolçanı mənə qaytardı.

– Burda məndən savayı da ürəyi yanan var. Ver içsin, ha dedim ki, Qaracalar sənin yerin deyil, otur şəhərdə, bağın sərinində, sözümə baxmadı sağ olmuş. Yoldaca təntidi. Ver, içsin. Bundan sonra tövbə deyər yay vaxtı kəndlərə ayaq basmağa! – Maşına baxdı.

– Bağışla ha, qocalar bir az tamahlı olur. Dözə bilmədim, ay oğul, səndən əvvəl özüm içdim.

Məlum oldu ki, maşındakı qonaq Qurban kişinin haqqında kitab yazan jurnalistdir. Bakının istisindən qaçıb Qurban kişiyə qonaq gəlib ki, beş-üç gün dincəlsin, əmma gəlib burda da istiyə düşüb. Cavanca oğlandı. Yazıq elə təntimişdi ki, atlamanı dolçaya tökməyimi gözləməyib, bidonun qırağından içib tamam boşaltdı, sonra isə, çılpaq sinəsində damlaları silə-silə "ah-uf" eləyib, bir sərinlik

üçün elə yalvardı ki, hamımız əl-ayağa düşdük: sərin yeri hardan alaq?! Evlərimizdə, həyətlərimizdə, ümumiyyətlə, kəndin arasında tər adamın bədənindən su kimi axırdı, yeganə az-maz havalı yer bura – kanalın kənarı idi ki, qonaq burdan da qaçmaq istəyirdi.

Mən lap özümü itirdim. Qurban kişinin haqqında kitab yazmış bu cavan oğlana lazımınca hörmət edə bilməyəcəyimi düşünüb, necə həyəcanlandımsa, hətta babalarımızın bu yerə daş qoyduğu günə lənət dedim.

Çağırdım ki:

– Ay Süğra! Ay Bacı! Gedin evdə pəncərələrin hamısını açın, bəlkə bir az yelhayı ola!

Suğradan səs çıxmadı. Bacım-Tacım ağ kəlağayı altından hara-yasa kənara baxdı. Onun baxdığı səmtdən Koxa peyda oldu.

– Qorxma, cəfadan qurtaranın var sənin, ay Cəfalı! – deyib çöl-də yeri fənər işığında suvaran suçularla birlikdə gəlib, Qurban kişi ilə görüşdü.

– Qonağın əlacı məndə! – dedi.

Bir əlində fənər, o biri əlində lapatka vardı. Kəmərindən pambıq kolu sallanırdı. Mən onu hər axşam bu vəziyyətdə görməyə adət et-mişdim. Koxa gəlib, kanalın üstündə fənəri yerə qoyar, suvardığı sahədən nümunə gətirdiyi pambıq kolunu mənim dizimin üstünə atıb, lapatkasının sapına dirənib, mənim nə isə deyib-danışmağımı gözləyərdi.

Yenə fənərini yerə qoydu. Pambıq kolunu mənim üstümə atdı. Yeriyib maşının qapısını açdı.

– Düş görək, a nərmə-nazik yoldaş!

Qonaq tələsmədən köynəyini əyninə taxdı, ölüm-zülüm sürü-nüb maşından çıxıb bizimlə görüşdü. Şiv çinartək napnazik, qıztək göyçək oğlandı. Ətəyini şalvarın üstündən salladığı ağ, qolsuz köynəyinin altında belinin incəliyi hiss olunurdu. Arıq, bir az uzun-sov və elə bil tamam qansız sifətində iri, yorğun gözləri fənərin işığında solğun-solğun parıldayırdı. Zil qara gur saçları bu bürküdə ağırlıq eləyirmiş kimi, uzun, zərif boynunu əyib başını bir az sallağı tuturdu. Qaracalılara bir-birinin ardınca əl verəndə tək bir dəfə, onda da pıçıltı ilə: “Məlik”, – dedi, sonra isə nə səsini çıxardı, nə də başını qaldırıb kimlərlə tanış olduğu ilə maraqlandı. Halı özündə

deyildi. Axırıncı adama da candərdi əl uzadandan sonra çəkilib böyrünü maşina söykədi, torpağından toz və yanıq iyi qalxan bu cəhənnəmtək isti yerə gəldiyinə peşman olduğunu gizlətmədən köksünü ötürüb hərəkətsiz qaldı.

Mən Koxanı kənara çəkib soruşdum ki, qonaqları hara aparacaq. Astadan soruşdum ki, qonaqlar eşitməsinlər. Koxa isə, öz həmişəki sərbəst, nəriltili səsi ilə:

– Əşi, nəyinə gərəkdi? – dedi. – Bu saat bunlara bir kef düzəldim, qayıdanda aləmə car çəksinlər ki, Qaracalar adında təzə kurort açılıb!

Qurban kişi yaxınlaşıb altdan-dik diqqətlə Koxanın üzünə baxırdı. Hələ bayaqdan Koxa ilə xüsusi maraqlanırmış kimi görünürdü. Mənlə söhbət edəndə də, atlama içəndə də, qonağının haqqında danışanda da ara-sıra gözlərini qıyıb diqqətlə Koxaya baxırdı. Mən, əlbəttə, bunu adi bir maraq hesab eləyib, o qədər də əhəmiyyət vermirdim. Qaracaların, aran yerinin quraqlığında bitən yağtikan kollarıtək quru, cod adamların arasında öz nəhəng, nataraz boy-buxunu ilə, dizlərinə qədər qalxmış palçıqlı rezin çəkmələri ilə dərhal seçilən bu çopur, çəpgöz oğlana buraya gələnlərin elə hamısı diqqətlə, maraqla tamaşa etmirdimi? Mən hardan biləydim ki, Qurban kişinin bu baxışı boş-boşuna deyil?

Qoca birdən-birə sərtləşmişdi.

– Sən kimsən?

Kişi bunu elə ciddi soruşdu ki, mən cavan jurnalist sarıdan qayğımı dərhal unutdum. Qəribə idi ki, Koxa da Qurban kişiyə birtəhər baxırdı. Cavabı da birtəhər oldu, əlində lapatkanı göstərib:

– Kolxozçuyam. Suçuyam, – dedi.

– Adın, familiyan yoxdu?

– Adıma Koxa deyirlər.

– Haman o, camaata laylağı qoşan Koxa?

– Bəli, haman Koxa.

Qurban kişinin sifəti daha da sərtləşdi.

– Eşitmişəm, əməlindən xoşun gəlir?

Koxa gülümsədi.

– Əlbəttə. Gəlməsə elərəmmi?

Qurban kişi duruxdu. Dillənəndə, bu dəfə mən qocanın səsində məzəmmət hiss etdim:

– Onun-bunun adının böyrünə söz yapışdırmaq yaxşı deyil axı, oğlum!

Koxa tamamilə sərbəst idi.

Dedi:

– O baxır necə sözdü!

– Məsələn, Dingə. Yaxşıdı?

Koxa çiynini çəkdi.

– Nəyi pisdi ki?

– Dingəni arvadlar qoyardılar. Kəndinizdə arvadlardan birinə Dingə desəydin, bundan heç kəsin xətri qalıq olmazdı. Ancaq sən Dəmir kişi təki ağsaqqal adama Dingə Dəmir deyibsən. Mən yaxşı tanıyıram onu. İnqilab vaxtı silah yoldaşım olub. Ağadan, bəydən xilas eləyib xalqımızı. Mükafatı budu?! Dingə?! Kişini niyə təhqir eləyibsən?!

Koxa yenə də sərbəstcə yan-yörəyə baxdı.

– Çağır Dəmir kişinin özündən soruş, gör təhqir eləmişəm, yoxsa...

Qurban kişi onun sözünü kəsdi:

– Mən səndən soruşuram! Camaatı niyə təhqir eləyirsən, bala?! Kim ixtiyar verib sənə?!

Bu gözlənilməz sorğu-sual indi kanal boyunda çoxlarını maraqlandırırdı. Rəsmi vəzifəsi-filanı olmasa da Qılınc Qurban dövlət adamı hesab olunduğundan, onun Koxanı danışdırdığını eşidib, yavaş-yavaş buraya, suçuların əllərində tutduqları fənərlərin işığına sarı gəlirdilər.

Qulaq asan çox olanda, məlumdur ki, danışan tərəflər özlərində daha çox məsuliyyət hiss edirlər. Mən Qurban kişinin üzündə belə bir şey gördüm.

Koxa isə əvvəlki kimi idi:

– Bizim kənddə mənim bu laylağılarıma görə məndən inciyən yoxdu, Qurban kişi.

– İncimirlər?!

– Bəli, inciyən yoxdu.

– "Həsir Haşım" deyirsən, "Tülkü, Çənə-filan" deyirsən! Bunlardan da incimirlər?! "Tülkü Bəbir, Xain Xıdır!" İncimirlər?!

Nəhayət, Koxada da dəyişiklik oldu. Çənəsini lapatkanın sapına dirəyib öz uydurduğu ləqəbləri Qurban kişinin adından eşitməkdən

ləzzət alırmış kimi çəp gözlərini titrədə-tətrədə gülümsəyirdi. Əmma birdən ciddiləşib çənəsini lapatkanın sapından ayırdı.

– Dayan, dayan, – dedi. – Mən ki, laylağıları sənin yanında bir kərə də sadalamamışam, hardan belə yığıb təsbehə düzübsən, əşi? – Koxa camaata baxdı: – Sizdən deyən olmayıb? – Cavab verdilər ki: – olmayıb.

Qurban kişi kitelinin döş cibindən portsiqar çıxarıb papiros yandırdı. Tüstünü altdan-dik Koxanın gözlərinin içinə üfürüb, bu dəfə boğuq səslə:

– Sənin bu laylağı söhbətin gedib raykomacan çıxıb! – dedi. – Bu söhbətnən xüsusi məşğul olacaqlar! Vaxtıynan qan töküb hökumət quran, ləyaqətli kişiləri ləyaqətdən salmaq bilirsənmi nə deməkdi, ay oğul?!

Koxanın gözləri bərəldi, amma bu qorxudan-filandan deyil, maraqdandı.

– Mən bilirəm nə deməkdi inqilab veteranları. Deməli, gülləm dəyib hədəfə, hə?

Kişi çox pərt idi.

– Məsləhət görürəm, bu gündən xətm elə! Yoxsa altını çəkərsən! Cəzalandırarlar səni! Yanı məhkəməyə verərlər!

Koxa başını buladı.

– Adını bir qatar dəvə çəkmir. Qılınc Qurban deyəndə dilimiz ağzımıza sığışmır. Əmma gör nə danışırsan, – dedi. – Sən yetmiş il, səksən il, bilmirəm nə qədər ömür eləyib Qılınc Qurban olubsan. Mən sənin yaşıyın hələ heç yarısıycan da yaşamamışam, əmbə hələ indidən Qaracalarda özümə görə hörmətim var. Sənin yaşına çatanda, nə bilirsən, bəlkə mənə daha çox hörmət eləyəcəklər. Odey, özün deyirsən, söz-söhbətim gedib raykoma çıxıb. Çağırıb lap elə məhkəməyə versələr, sorğu-sual eləsələr, danışdırsalar, görərlər ki, mən də özümə görə bir kişinin oğluyam.

– Darıxma, danışdırarlar! – Qurban kişi susub kənara çevrildi.

Papirosunu sümürməyindən də görünürdü ki, qoca getdikcə əsəbiləşirdi. Məncə, ona toxunan, hər şeydən əvvəl Koxanın rəftarındakı sərbəstlikdi. Belə düşündüm, çünki Koxanın həddindən artıq sərbəst davranışı mənim də xoşuma gəlmirdi: görmürdümü, başa düşmürdümü ki, qarşısında adına Dingə deyib güldüyü suçu

yoldaşı Dəmir kişi yox, adı-sanı bütün respublikaya yayılmış Qılınc Qurban dayanmışdı! Koxa nə hünərlə belə mübahisə edirdi?!

Özümü saxlaya bilməyib, yaxınlaşıb Koxanın ətəyindən çəkdim. Gözucu mənə baxdı, nə demək istədiyimi, əlbəttə, başa düşdü, əmma əhəmiyyət verməyib yenə üzünü Qurban kişiyə tutub, gözlənilməz bir sual verdi:

– Soruşmaq ayıb olmasın, bura niyə gəlibsən, Qurban kişi?

Burada mən lap qəribə, anlaşılmaz bir mənzərə gördüm: Qurban kişi diksinib papirosu əlindən saldı. Hətta rəngi dəyişdi: fənərlərin şüşələri hisli olduğuna görə işıq nə qədər zəif olsa da, mən qocada son vaxtlar tez-tez gördüyüm əlaməti – gözlərinin elə bil içəridən kölgələndiyni gördüm.

Üzünü Koxaya çevirəndə baxışından yenə də gərginlik sezildi. Səsi isə bayaqkı kimi boğuq çıxdı:

– Necə?! Mənim Qaracalara niyə gəlməyim bəlli deyil?!

Koxa ilan kimi baxırdı:

– Bəlli deyil, Qurban kişi! Daha doğrusu, bu camaata bəlli deyil. Mən, əlbəttə, bilirəm, onçun da xəbər alıram ki, özün de, camaat da bilsin.

Qurban kişi portsiqarından təzə papiros çıxara-çıxara, dönüb mənə, sonra qonağa baxdı.

Qonaq, deyəsən, bürkünü tamam unudub nağıla qulaq asan uşaq marağı ilə, hətta ağzını açıb mübahisəni dinləyirdi.

Qurban kişi alışqanın tətiyini basıb papirosu yandırdı.

– Mənim Qaracalara gəlməyimin səbəbini sən hara yozursan?! Sədriniz bilir! Sən çərənləyirsən!

Koxa yenə başını buladı:

– Siz böyükləri elə belə gördüm. Çətinliyə düşəndə o saatca təpinib adamı qorxutmaq istəyirsiniz. Mən qorxaq deyiləm.

Birdən qoca elə bil çaşıb Koxaya təəccüblü bir sual verdi:

– Balam! Oğlum! Məndən nə istəyirsən?!

Bu suala, deyəsən, Koxa da təəccübləndi.

–Mən?.. Nə istəyirəm? – Camaata baxdı. – Mən nə istəyirəm, a kişilər?

Qaranlıqdan dedilər:

– Xəbər aldın ki, Qurban kişi nə əcəb gəlib Qaracalara.

– Atana rəhmət! – Koxa baş əyib razılıq elədi. – Xəbər aldım ki, niyə gəlib. İstədiyim onda nə olar? Bu olar ki, Qurban kişi, bax,

bu camaatın gözünün qabağında, adlı-sanlı Qılınc Qurbanın şəninə yaraşan mərdliknən deyəsən ki, bu gecə vaxtı sən bura Qaracaların dərdinə qalmağa yox, laylağı söhbətinə gəlibsən!

Qurban kişinin gözləri qıyılıb qırışların arasında parıldayırdı.

– Cavanşir! Oğlum, sənin bu suçun nə danışdığıdı?! Necə yanı mən dərdə qalmağa gəlməmişəm? laylağı söhbətini eləyirəm, çünki mən belə şeylərin yanından düz ötəmmərəm! Mənim adıma niyə Qılınc deyirlər? Çünki harda bir əyrilik, pislik görürəm, qılınc çəkib kəsməsəm, ötmürəm. Ömrümün əlli ildən çoxunu belə yaşamışam. Sizin Qaracalarda hər kəs məni yaxşı tanımırsa, qoy tanısın, bilsin ki, nə qədər qocalıb əldən düşsəm də, mən ömrümün qalan beş-üç ilini də belə yaşayacam! Pislik gördümmü, kəsəcəm, Cavanşir!.. Sənin bu suçunu kəsmirəm hələ, tövsiyə eləyirəm. Mən, necə ki, bu millətin bir nümayəndəsi, ürəyim götürməz ki, mənim millətimin ləyaqətli oğulları, qızları quyruğu laylağılı olsunlar! Millətin gərək özü də gözəl olsun, adı da! Düzmü deyirəm, a Qaracalar camaat?

Hər tərəfdən təsdiq etdilər ki, düz deyirsən, əlbəttə, millətin özü də gözəl olmalıdır, adı da. Buna kim etiraz edə bilər?

Qurban kişi yenə Koxaya döndü:

– Düz deyirəm?!

Koxa başını tərpətdi:

– Əlbəttə, Qılınc Qurban gərək əyri danışmasın.

– Şəriksənmi ki, millətə şəvədə qoşmaq olmaz?!

Koxa, lap astadan və nədənsə birdən-birə:

– Şərikəm, – dedi.

Qurban kişi üstələdi:

– Bəs niyə yapışdırırsan o çirkin laylağıları bizim gözəl adlarımızın quyruğuna? Özün belə cavan, pəhləvan təki oğlan, niyə məşğul olursan belə şeylərnən, oğul?!

Mən güman etdim ki, bundan sonra Koxa pəsləyər.

Əmma onun cavabı, deyəsən, əvvəlcədən hazır imiş:

– Xahiş eləyirəm, səbirini bas, bir az sakit bax mənə, Qurban kişi... Mənim uşaqlığım Samux meşəsində keçib. Orda, meşədə bizim böyük-böyük kəndlərmiz vardı: Muğanlı, Kəsəmən, Poylu... Atam lap körpəlikdən dərs deyirdi mənə öz evimizdə. O kəndlərimizin adları elə deyilmiş. Özləri də orda, meşədə yox, Muğandaymış. Rus bir yandan basıb, Fars bir yandan. Kəndlər qaçıb dolub

Samuxa. Adlarını da dəyişdiriblər. Əmbə düşmən bilirmiş ki, o kəndlərdə bizim millətin böyük-böyük alimləri gizlənibmişlər. Meşədə kök salıb ordan bütün millətə elmi yazılar göndərirmişlər, tariximizi, kökümüzü saxlayırmışlar. Düşmən bilib bunu. Su Elektrik Stansiyasının proyektini dəyişdirib, Samuxa salıblar, O kəndlərimizi, o alimlərmizi it unu təki dağıdıblar!.. İndi gəz o tay-bu tay Azərbaycanı, soruş hara köçürüblər o əhalimizi, o alimlərimizi?! Atam bilirdi hər şeyi. Atam da yoxdu indi. Heç kəsin xəbəri yoxdu ki, zəhərlədilər mənim o nər meşəbəyi atamı! Alim atamı!.. Vəsiyyət eləyib. səsi indi də qulağımdadı: "Samux deməyin, Simağ deyin... Samux deməyin. Simağ deyin..." Uzun vəsiyyətdi.

Qurban kişi düşüncəli olmuşdu. Soruşdu:

– Deyərsənmi mənə?

Koxa bir ara fikrə getdi.

– Ağlarımız Bağdadı, Qurban kişi, – dedi.

– Mənim savadım azdı, səkkiz sinif qurtarmışam. Kəndlərimiz meşədən köçürüləndə məktəbimizi sökdülər, daşını daşıdılar Mingəçevir tikintisinə. Sonra atam getdi əlimdən. Gəldim sığındım bu Cavanşirə... Otuz iki yaşım var. Deyirlər, qırx beş yaşa qədər girmək olar instituta. Əmbə diləyim gözümdə qalıb. Açığı, istəyim yoxdu. Ürəyimdə fərəhim qalmayıb, Qurban kişi... Deyirlər, sən hər yerdə qorxusuz-hürküsüz deyirsən hökumətimizin işi Allaha qalıb. Gör mən nə deyirəm: millətimizin işi Allaha qalıb, Qurban kişi. Niyə? Heyif mənim meşəbəyi alim atamdan! Sağ olsaydı, o yaxşı izah eləyərdi – niyə axırı yoxdu millətin. Axırı yoxdu, çünki adı yoxdu, Qurban kişi!

– Nə?! Nə?! – Məndən qopdu bu heyrət. – Necə yəni adı yoxdu... millətin?!

Koxa dərindən nəfəs aldı.

– Yoxdu, Cavanşir! Dingədi! Həsirdi! Nəsirdi!.. Nədi Nəsir?! Nə deməkdi, bilirsən?

Dedim:

– Onu mollamız Məmişdən soruşarsan, izah eləyər.

– Həəə... Budu bax atamın vəsiyyəti, Qurban kişi, – Koxanın gözlərində parıltı göründü. – Qısasını deyirəm: "Quran"dan verilib adlarımız. Ərəb adlarıdı. Bə özümüzünkü nədi, Qurban kişi? Yoxdu! Qədimdə Asorular gəlib dolublar buralara, bir ad onlar qoyublar!

Yunanlar dolublar, ayrı cür ad qoyublar! Farslar, ərəblər dolublar, "Quran"dan qoyublar!.. Atamın vəsiyyətinin canı budu ki, gəzək hər yeri, Simağ meşəsindən açıq-aşkar sürülən alimlərimizi tapaq, yazdıqları kitabları yığaq, dərs alaq o kitablardan...

Qurban kişinin əli elə sərt qalxdı ki, papirosun qoru töküldü.

– Dayan, oğul, dayan! Mən bilirəm nədi sən deyən. Məsləhət görürəm, belə açıq danışma o barədə. Axundova[1] yox, birbaş Xruşşova çatdırarlar! Bildin?! Razısanmı mən deyənnən?

Koxa susqunlaşdı.

– Yüz faiz razıyam, – dedi. – Elə ona görə də alimlərimizdən, kitablarından əlimi üzmüşəm. İnstituta-zada getmiyəcəm. Bax belə əli lapatkalı qalacam. Nə qədər ömrüm var, tanıdığım-bildiyim adamların hamısının adının yanına gözəl-gözəl laylağılar yapışdıracam. Qoy desinlər, bu da belə adamıydı, hamını təhqir eləyə-eləyə cəhənnəmlik oldu!

Qurban kişi xeyli susub, birdən əllərini yanlarına çırpdı.

– Heyif savadsız qalıbsan sən də mən təki! – dedi. – Elə ona görə də dolaşıq danışırsan. Bir yandan istəyirsən adımız gözəl olsun, o yandan da kiminin quyruğuna həsir yapıdırırsan, kimininkinə tülkü bağlayırsan. Yox, bala, mən sənin dilini qanmıram! Cavanşir, sən necə, bir şey başa düşürsənmi?

Mən tamam çaşıb mat-məəttəl qalmışdım. Dedim:

– Başa düşmürəm, Qurban əmi.

Koxanın çiyinləri qalxıb enirdi.

Mən çaşqın olduğum qədər də əsəbi idim.

– Nəyə gülürsən?! – dedim. – Burda gülməli nə var?!

Dedi:

– Çox şey var, yoldaş sədr.

Dedim:

– Bəs mən niyə görmürəm o çox şeyi?

Dedi:

– Çünki... düzünü deyirəm. Sən görmürsən, çünki gözündə pərdə var.

Mən qızardım. Dedim:

– Bunu da başa düşmürəm!

---

[1] Azərbaycan KP MK-nın birinci katibi

Koxa yenə çənəsini lapatkanın sapına dirədi.

– Qurban əmin səni başa sala bilər. Demək istəsə, ikicə söz deyəcək sənə, ikicə laylağı. Özün hər şeyi başa düşəcəksən. Bu gün çöldə, raykomun maşınında bir yoldaş gəlmişdi. Ona mən iki dənə qatı açılmamış təzə laylağı dedim. İndiyəcən qoşduğum laylağıların hamısı bir yanadı, o bir yana! Özünü tərif olmasın, hikmətli laylağılardı. Haman o yoldaş mənə dedi, günü bu gün həmən laylağıları Qılınc Qurbana çatdıraram, qoy fikirləşsin. Nədən ki, bu iki laylağının üstündə fikirləşməli iki adam varsa, biri, özü də əvvəlincisi Qurban kişidi. Görükür, fiikrləşib, bu gecə vaxtı bura da elə ona görə gəlib. Fikir vermədinmi, bayaq özü dedi ki, laylağı söhbəti gedib çıxıb raykoma! Görmədinmi Qurban əmin necə hirsləndi, necə təpindi üstümə. İndi necə gülməyim mən, yoldaş sədr. Qılınc Qurban təki dağ boyda adı olan bir adam, bu əli lapatkalı, üstü palçıqlı Koxanın ikicə laylağısından qorxuya düşüb, bu cəhənnəm istisində uça-uça qırx verst yol gəlibsə, bəs gülməli deyilmi bu, a Cavanşir!

Qurban kişi ara vermədən papirosunu sümürürdü. Diqqət yetirəndə mən burda ikinci dəfə onun gözlərinin kölgələndiyini gördüm.

Birdən camaatda tərpəniş hiss etdim. Baş-başa verib nə barədəsə pıçıldaşırdılar.

Qurban kişi susurdu.

Qonaq mat-mat baxırdı.

Koxanın gözləri gah istehza ilə gülürdü, gah da əzablı, sirli olurdu.

Mən bir daha Qurban kişiyə baxdım və birdən ürək ağrısı ilə dərk etdim ki, onun Qaracalara bu gəlişinin səbəbi, doğrudan da "gedib raykoma çatmış", oradan da Qurban kişiyə çatdırılmış həmin o iki laylağıdır. Dərk etdim, əmma bu fikrə inanmaq istəmədim; bu fikir hamının tanıdığı Qılınc Qurbana əskiklik gətirirdi.

İstər-istəməz xəbər aldım ki:

– Nə laylağılardı o, nə hikmət var onlarda?

Koxa sərtləşdi.

– Yaxşı olar ki, Qurban kişi özü danışsın.

Bu vaxt qonağın nəzakətli səsi eşidildi:

– Olmazmı gedək Koxa qardaşın dediyi o kurortda danışasınız?

Mən dərhal əl-ayağa düşdüm.

– Əlbəttə, əlbəttə! Gedək, gedək! – dedim.

Koxanın bu tünlükdə Qurban kişi ilə dilləşməsi məni sıxırdı, onsuz da burdan – camaatdan uzaqlaşmağa ehtiyac duyurdum. Qonağın təklifi lap yerinə düşdü. Mən ona minnətdarlıqla baxdım.

– Bu dəqiqə gedək, – dedim.

Kanal üstündən adam çağırıb tapşırıq verdim ki, maşını qaraja salsınlar, şoferi yedirib-içirib rahatlasınlar.

Sonra Suğranın yanına yüyürdüm. Bayaqdan bəri özüm də hiss etmədən əlimdə saxladığım bidonu və dolçanı palazın küncünə qoyub, arvaddan xahiş elədim ki, uşaqları qonşuya tapşırsın, bu bürküdə ocaq istisində dayanmaq nə qədər çətin olsa da, zəhmətə qatlaşıb qonaqlar üçün hazırlıq görsün.

Bacıma–Tacıma tərəf baxammırdım. Özümü günahkar hiss edirdim. Niyə? Koxanın xətrinə dəyirdim?

Gözucu baxdım: ağ kalağayı altında, günəşdən də tündləşməyən dümağ sifətdə zil qara gözlər narahatlıqla dolu idi... Uşaqlıqda biz – qardaş, bacı da yetimlik çəkmişdik; cırıq-sökük palaz-paltarla böyümüşdük. Yəqin ki, elə buna görə Tacımın lap az-maz fikirli görünməyinə də dözmürdüm.

Bizim, demək olar ki, hər həftə iki-üç kərə qonağımız gəlsə də, Suğranın qaşqabaq salladığını görməmişdim. O, kolxoz sədrliyində işləyənin qonaq-qarasız keçinməsinin mümkün olmadığını birdəfəlik başa düşüb, axşamdan başlayıb gecəyarıya, bəzən hətta səhərə qədər davam edən məclislərə qulluq eləməyin necə çətin olduğunu heç vaxt dilinə gətirmirdi. Bacım-Tacım isə mızıldanırdı: “O çopur, çəpgöz köpəyoğlu aparsaydı, canım qurtarardı sənin qonaqlarından”, – deyirdi. Bu dəfə də hirsli xəbər aldı ki, süfrə harda açılmalıdır.

Koxanı səslədim. Qurban kişi ilə xoşagəlməz mübahisəsindən narazılığımı gizlətmədən soruşdum ki:

– Yaxşı, deməzsənmi görək harda oturacayıq?

Koxa müəmma ilə qımışırdı.

– Kurortda! Dedim ki, mən.

– Kurortun adı, ünvanı yoxdu?

– Var, niyə yoxdu?

– Haradı axı?

– Desəm, qorxuram razılıq verməzsən, yoldaş sədr, o cavan oğlan bürküdə qalıb lap təntiyir. Yazığım gəlir ona. Şəhər uşağıdı.

– Yaxşı, bəs Suğra xörək-çörəyi hara aparsın?

Koxa bir az fikirləşib dedi:

– Heç nə lazım deyil. Əlbət, bir tikə çörək tapılar.

– Bu adamlara biz gərək yaxşı hörmət eləyək, Koxa! Nəzərə al ki, o oğlan Bakıdan bura Qurban kişini deyib gəlib. Gərək hər şey Qılınc Qurbanın adına layiq olsun ha!

Koxa nədənsə köksünü ötürdü.

– Çalışarıq olsun, – dedi.

Fənər əlində, qabağa düşdü.

## 4

Gedə-gedə fikirləşirdim ki, fürsət tapıb bu saat Koxa ilə danışmalıyam. Qoy desin, izah eləsin görüm o nə təzə, “qatı açılmamış” ləqəblərdir ki, hətta raykomda söz-söhbətə səbəb olub, Qılınc Qurbanı da bu qoca vaxtında belə narahat eləyib. Ümumiyyətlə, nə baş verib ki, Koxa hamımızın ehtiramla qarşısında baş əydiyimiz bir adamla belə kobud danışır? O nə idi mənə dedi ki, “sənin gözündə pərdə var?” Nə pərdə? Niyə açıq danışmadı? Koxanın mənə münasibəti niyə dəyişib? Nə üçün belə soyuq, bədrəftar kimi olub? Bu haman Koxa deyilmi ki, arada bircə gün mənlə söhbət eləməyəndə darıxırdı? Hətta açıq-saçıq zarafat eləyirdi: “Tacım var, taxtım yoxdu. Bəlkə elə sənin otaqlarıyın birində taxt qoyum?!” İndi niyə soyumuşdu?!

Fikirləşdim ki, qonaqları rahlayan kimi Koxanı bir kənara çəkib hökmən danışdırmalıyam, – desin, izah eləsin.

Əmma başım elə qarışdı ki, iki kəlmə söhbətə də vaxt tapmadım.

Mən elə güman edirdim ki, “kurort” deyəndə Koxa, yəqin ki, bizi üzümlüklərin arasında-filanda ancaq özünün və suçu yoldaşlarının bələd olduğu yaşıl bir guşəyə aparacaq, şəhərli qonaqların “təbiət qoynu” adlandırdıqları bir yerdə rahatlayacaq. Əmma birdəncə ayılıb gördüm ki, kəndin ortasındayıq.

Təəccüblə yan-yörəmə baxdım. Hamı kanal boyunda olduğuna görə evlərdən işıq gəlmirdi. Əmma mənə işıq lazım deyildi; lap

uşaqlıqdan həyət-bacalarının girinti-çıxıntılarına qədər əzbər bildiyim bu küləş damlı evlərdə, yəni mənim bələd olmadığım yer də vardı? Koxa bizi hara aparırdı?

İrəli keçib soruşmaq istəyirdim ki, bu vaxt Koxa dayanıb fənəri yuxarı qaldırdı.

– Buyursun, əziz qonaqlar!

Fənərin işığında, beş addımlıqda qazma damın alçaq, dar girəcəyi qaralırdı: biz Cında qarının həyətində idik!

Mən bədənimin soyuduğunu, sonra birdən istiləndiyini hiss etdim.

Koxanın üstünə cumub hirsimdən titrəyə-titrəyə fənəri onun əlindən çəkişdirdim.

– Bu nə hoqqadı?! Dəli olmusan?! Hara gətirmisən Qılınc Qurbanı?! Dolamısan bizi?!

Bilmirəm daha nə dedim. Əmma mənim bu qəzəbli pıçıltım Koxanın, necə deyərlər, tükünü də tərpətmədi.

Tamamilə sakitcə:

– İçəri keç, sonra danış, Cavanşir, – dedi.

Dedim:

– Nə var içəridə?! Cında qarının iyili-qoxulu damını tanımıram?!

Koxa sakit idi.

– Tanımırsan, Cavanşir... Buyurun, a qonaqlar! Kurort, cənnət, nə desəniz, bax bu damın altındadı.

Koxa fənəri girəcəkdə dirəyin haçasına keçirib, başını əyib, birdən elə bil quyuya düşdü. Ordan qapının cırıltısı, sonra Koxanın səsi eşidildi:

– Axşamın xeyir, a qarı! Qonaq gətirmişəm!

Qapının cırıltısından o qədər də fərqlənməyən ikinci səs eşidildi:

– Sənə də qurban olum, qonağına da! Gəlin, gəlin!

Koxa, deyəsən, orda nə isə pıçıldadı. Bəlkə də mənə belə gəldi. Bir az sonra quyunun ağzında, fənərin işığı altında Cında qarı göründü. Əllərini, necə deyərlər, üzükdən keçən incə belinə qoyub, qamətini düzəldib bizə baxdı.

– Bə niyə boy-boya veribsiniz, a bala! Xoş gəlibsiniz, səfa gətiribsiniz! A Cavanşir, sənsənmi? Sən də xoş gəlibsən, a sədr!

Mən danışa bilmirdim. Əmma bu artıq Koxaya hirsimdən yox, xəcalətdəndi; bir az əvvəl Koxaya dediyim “iyli-qoxulu dam”

sözlərinə görə idi. Çünki mən özüm də bu damda böyümüşdüm. Hələ içəri girməmiş, Cında qarının üzünə baxandaca, uşaqlığımın unudulmaz uzaqlığından burnuma doğma torpaq ətri gəldi. İyirmi beş il bundan əvvəl, müharibə vaxtı, Qaracaların bürkülü günlərində Cında qarının mənimlə ünsiyyət bağlamış nəvələri ilə oynayıb əylənəndə bu qazma damın gün düşməyən dərinliyində damarlarıma hopmuş sərinlik elə bil bədənimin hüceyrələrində yenidən oyandı.

O vaxt Cında heç də Cında deyildi. Biz, yəni müharibə illərinin on-on iki yaşlı uşaqları, kimimiz ona Pəpə nənə, kimimiz də Kökə nənə deyirdik.

Müharibə illərində bizim Qaracalarda olanlar bilirlər ki, onda dolanma ucundan adam hər şeyə gedirdi, kolxozda can-dildən işləməklə bərabər, kimi alver eləyirdi, kimi də şəhərdə pambıq çöpü satırdı. Pəpə-Kökə nənə isə Qaracalarda heç kəsin ağlına gəlməyən bir dolanma yolu tapmışdı. O vaxtlar nisbətən cavan olanda da indiki kimi incəbel idi. Yüyürüb-yıxılıb ordan-burdan köhnə mis qab-qacaq, cır-cındır yığışdırar, arabaya doldurub, aparıb şəhərdə "cında idarəsinə" təhvil verərdi, oradan aldığı iynə-sancağı, şagird dəftərlərini, karandaşları satardı, qəpik-quruşu əski-üsküyə düyünləyib, qoyun-qoltuğunda saxlardı. İl pis gələndə Qaracalarda hamı taxıldan korluq çəkərdi. Pəpə-Kökə nənənin həyətində isə, demək olar ki, hər axşam ocaq qalanıb sac asılardı. Ocağın ətrafında dövrə vurub gözləyən bir düjün yetim nəvələrindən savayı, biz, ata-anaları çöldə – pambıq yığımında olan qonşu uşaqları da gah buğda çörəyinin, gah da qarğıdalı cadının ətrinə uzaqdan burnumuzu çəkib ağzımızı marçıldadardıq.

Sacı çevirəndən sonra Pəpə-Kökə nənə, elə bil uzaqdan-uzağa ürəyimizdən keçəni duyub bizi də səsləyər və tezliklə qara dam uşaqla dolardı. Əlimizdə parçalandıqca buğlanan isti pəpələrdən, kökələrdən doyunca yeyib, kefimiz durulandan sonra burda, dərin, yarımqaranlıq qazmanın təkcə bacasından düşən işığı da tutub, zil qaranlıqda "gizlənqaç" oynardıq. Bəzən elə burda da yatışardıq.

Müharibə qurtardı. Biz böyüyüb, oxuyub "adam olub", Pəpə-Kökə nənədən də, onun qara damından da uzaqlaşdıq.

Qarının qız nəvələri ərə getdilər, oğlan nəvələri isə diplom alıb Bakıda qaldılar, rayonlara təyinatla dağılışdılar. Doğrudur, tez-tez

Qaracalara gəlib, qarıya yalvarıb aparmağa çalışırdılar. Əmma qarı getmədi; nə qara damından əl çəkdi, nə cır-cında yığıb "cında idarəsinə" satmağından, nə də pəpə-kökə bişirməyindən. Əmma Qaracaların müharibədən sonrakı uşaqları daha çörək iyinə yığışmadılar.

Həyətdə ocaq qaraldı. Sac soyudu. Əvvəllər kəndin ara-bərəsində yortub-yüyürən incəbel Pəpə-Kökə nənə özü də yavaş-yavaş soyuyub, yavaşıyıb, nəhayət, qara damın qaranlığına çəkildi, gözümüzdən iraq olub, könlümüzdən də uzaq oldu.

Hərdən-birdən kəndin ortasında təsadüfən rastlaşıb "kefin necədi, a qarı?"– deyərdik, bununla da "borcumuzu verib" sakitləşərdik.

Mən birdəncə ayılıb gördüm ki, bizim Pəpə-Kökə nənəmizin adını Cında qoyublar, indi bütün kənd ona Cında deyir.

Çöldə, iş üstündə Koxanın yaxasından yapışdım.

– Qarıya sənmi qoyubsan o adı?

– Əlbəttə, mən, – dedi, – özgə kimdi belə şeylərnən məşğul olan?

– Sən ki, dünənin uşağısan, özün də Samuxdansan, – dedim, – hardan bilirsən o cında əhvalatını?

– O əhvalatı mən eşitmişəm. Əmbə bu adı o əhvalata görə qoymamışam. Bu Cındanın mənası ayrıdı.

– Nədi?

Koxa boynunu qaşıdı.

– Fikirləş, tap, – dedi. – çətin deyil. Fikirləş.

Fikirləşdim. Tapa bilmədim.

– Məni dolayırsan, nədi? – dedim. – Müharibə vaxtı cır-cındır yığıb util-sıryoya satdığına görə qoymamısansa, bəs nəyə görə qoymusan o laylağını?

Yenə dedi:

– Fikirləş, tap, Cavanşir.

Dedim:

– Tapa bilmirəm!

Dedi:

– Yaxşı fikirləşmirsən.

Dedim:

– Dəyişdir o adı.

Dedi:

– Mümkün deyil.

Sonra izah etdi ki, onun yaraşdırdığı ləqəblərin hamısı ciddi məsələlərdən əmələ gəlir, əgər həmin məsələlər dəyişsə, ləqəblər də dəyişər, yaxud öz-özünə unudulub gedər.

– Yaxşı, tutaq ki, elədi, – dedim, – olarmı açasan görüm bu "Cında" hansı məsələdən əmələ gəlib?

Dedi:

– Məsələni desəm, onda "Cında" da aydın olar. Deməyəcəm, incimə, Cavanşir. Gərək fikirləşib hamısını özün tapasan. Nədən ki, özü tapdığı şeyi adam daha heç vaxt yaddan çıxartmır.

Bundan sonra isə Koxa mənə qəribə bir təklif elədi:

– Get sakit bir yerdə otur, – dedi, – yüz kərə öz-özünə "Cında qarı, Cında qarı" de, hər şeyi özün başa düşəcəksən. O vaxt üstümə belə şeşələnmək əvəzinə mənə "sağ ol" deyəcəksən.

Dedim:

– Sənin bu söhbətin lap uşaq sözünə oxşayır. Necə yəni "yüz dəfə?" Hökmən yüz dəfə təkrar eləməliyəm?

Güldü. Dedi:

– Hökmən!

Bu söhbət məni necə maraqlandırmışdısa, yüz yox, "Cında qarı, Cında qarı", – deyə bəlkə min kərə təkrar etdim, əmma mənə heç nə aydın olmadı.

Həmin gün ikinci dəfə Koxa ilə rastlaşanda yenə yaxasından yapışıb, hətta qışqırdım ki:

– Sən bu tapmacanı izah eləyəcəksən, ya yox?

Koxa bu dəfə lap ucadan qəhqəhə çəkdi. Dedi:

– Tapmacanı izah eləməzlər axı, yoldaş sədr. Tapmacanı taparlar.

Mən əlimi yelləyib aralandım. Bir daha onu sorğu-suala tutmadım və tezliklə hər şeyi unutdum. Bu söhbəti bir də yalnız indi, qonaqlarla birgə qara damın dar və quyutək dərin girəcəyindən aşağı düşəndə xatırlayırdım.

## 5

Bayaq yolda maşının yanında dayananda mən cavan qonağımızın köksünü ötürüb astadan "skuka" dediyini eşitmişdim. Orda diqqətim Qurban kişi ilə Koxanın ləqəblər – "laylağılar" haqqında mübahisəsində olsa da, o "skuka" kəlməsi qulağıma dəyəndə mən qızardım və bu gənc jurnalistin Qaracalardan pis təəssüratla qaydacağını düşünüb, bərk narahat oldum. İndi, qonaqları irəli ötürüb onların arxasınca dama girəndə isə, əməlli-başlı sarsıntılı idim, Cında qarı olmuş Pəpə-Kökə nənə ilə əlaqədar kövrək hisslərimi dərhal unudub, ürəyimdə yenə də Koxanı yamanlayırdım: "Biabır olduq! Allah səni biabır eləsin, Koxa!" Əmma bayaq qarının üzünə baxandaca damarlarımda oyanan sərinlik indi üzümə vurduqda, sarsıntım qəfildən sevincə çevrildi. Bayırın nəfəs qaraldan kürə havası əvəzində sinəmə bulaq suyu axdı. Oda dönüb bədənimi yandıran köynəyim birdəncə soyuq kompresə çevrildi. Qaracaların istisində bişib bərkimiş bir adam belə ləzzət duyurdusa, bəs qonaqlar nə hiss etməli idilər! Baxdım ki, oğlan hətta gözlərini yumub, onu yuxarı başa dəvət edən Koxaya: "Dayan, Koxa qardaş, dayan qoy cana gələk!" – deyir, "Oxay! Oxay!" – deyir. Təri birdəncə soyuduğuna görə sifəti daha da ağarıb müşəmbəlitək işıldayırdı.

– Tərpətmə məni, Koxa qardaş, qoy dirilim! – dedi.

Koxa dinmədi. Palçıqlı çəkmələrini çıxarıb küncdə yerə atılmış quru pambıq kollarının yanına atdı, yalın ayaqlarının uclarına çəkələk taxdı, içəridə fırlanan qarıya kömək eləməyə başladı. Damın dərinliyində tərsinə çevrilmiş qara qazanın üstündə yanan onluq lampanı götürüb dirəkdən asdı. Döşəmənin demək olar ki, yarısını tutmuş boz kilimin kənarlarından çəkib qırışlarını düzəltdi, qarının gətirdiyi xırda döşəkcələri yan-yana salıb böyürlərinə mütəkkə düzdü.

– Məni də, suçu yoldaşlarımı da saxlayan buradı, – deyirdi, – istidən təntiyən kimi özümüzü veririk nənəmizin damına!

Jurnalist lap dirçəlmişdi.

– Off! Nənənin damına qurban olum! – deyib əlini çılpaq sinəsinə şappıldatdı.

Koxa yenə qəhqəhə çəkdi.

– Bir azdan üşüyəcəksən, qonaq qardaş! İnanmırsan?

– Necə inanmayım, Koxa qardaş, necə inanmayım?!

Koxa da sevinirdi.

– Qorxuram hələ can qızdıran bir şey istəyəsən. Əmbə bəri başdan deyirəm, nənəmiz burda içkiyə izin vermir. Hə, qonaq qardaş, bacaynan qapının arasında çox durma, cığara kağız təki şeysən, keç əyləş, dincəl. Burdan çıxanda elə biləcəksən yaylaqdan qayıdıbsan... O söz-söhbət, görürdüm, səni də açmırdı heç. Qurban kişi də inciməməlidi. Qonağımsan, əzizimsən, Qurban kişi.

Qılınc Qurban qaşqabaqlı soruşdu:

– Qonağımsan deyəndə, yanı bura sənin evindi?

Koxa dedi:

– Mənim olmasa da, elə mənimki kimidi. Yeməyim-içməyim də, çox vaxt elə yatmağım da buradadı. Buyurun əyləşin!

Koxa yalnız qonaqlarla danışır, məni isə nəinki dindirmir, heç üzümə də baxmırdı.Bayaq dediyim "iyli-qoxulu dam"a görə? Yoxsa, ayrı səbəbi vardı? Bəlkə mən öz kəndimdə, öz kolxozumda olduğuma görə, məni qonaq hesab etmədiyinə görə belə rəftar edirdi? Çalışdım əhəmiyyət verməyim.

Elə bil uzun ayrılıqdan sonra öz doğma evimə qayıtmışdım. Tən ortada külü bozaran ocaq yerinə, solda dirəklərin arasındakı taxtın üstündə yorğan-döşək yığınına, sağda qədim, irili-xırdalı, naxışlı mis qabları elə bil sərgiyə qoyulmuş taxçaya, vaxtilə pəpəsini, kökəsini yediyim qara saca, teştə, siniyə, samovara göz gəzdirirdim. Hətta bu dəmir, mis qab-qacaqdan da adamın canına sərinlik gəlirdi. Adam uzaqdan baxandaca bilirdi ki, məsələn, bax o ağ, qalaylı sini buztək soyuqdur, ovcunu söykəsən səni diksindirər.

Mən hey ətrafıma baxırdım. Burda hər şeydə bir möhkəmlik və daimilik hiss edirdim. Yəqin ki, azı yarım metrədək torpağa basdırılmış yoğun dirəklərdə də, taxçada, qab-qacaqda, hətta yorğan-döşəkdə də sərinlik, bərklik, daimilik!

Qarı böyür-başımda dümələnirdi. Cüssəsi nə qədər xırda olsa da, damındakı əşyalartək o özü də qayım-qədim görünürdü. Bir saniyə dayanmırdı. Nəyi isə götürüb, nəyi isə qoyurdu. Hərdən, deyəsən, baxışlarımız qarşılaşırdı. Əmma mən tezcə çəkinirdim – üzünə baxa bilmirdim. Şübhə etmirdim ki, baxışlarımız üzümüzdə dirənəndə məni töhmətləyəcək, iyirmi beş ildə bircə kərə onu xatırlamadığıma görə məni danlayıb, qonaqların yanında qızardacaq. Əmma mən burda da yanılmışdım. Sonradan gördüm ki, töhmət,

məzəmmət onun heç yadına da düşmür. Əksinə, mənim, nəhayət, buraya ayaq basmağıma sevinir. Gördüm ki, ara-sıra üzümə baxdıqca gözlərindən nur yağır. Fikrindəki də yəqin təkcə budur ki, mənim qonaqlarıma necə qulluq eləsin, nə yedirib-içirtsin.

Ayaqqabılarımızı çıxarıb, döşəkcələrin üstündə oturub təzəcə dincəlirdik ki, birdən damın girəcəyində samovar buğlandı.

Koxa cəld atılıb samovarı qarının əlindən aldı, gətiririb böyük sininin ortasına qoydu.

Mən təəccübümü gizlətmədim:

– Bu samovarı nə vaxt qaynatdın, a qarı?

Koxa dedi:

– Qarımızın özü də aftamatdı, samavarı da!

Nə isə gizlin məna ilə parıldayan gözlərlə mənə baxırdı.

– Əmbə hayıf ki, adı dönüb Cında olub! – dedi.

Sonra:

– Görürəm, hələ də tapmayıbsan, – dedi.

Sonra açıq süni nəzakətlə soruşdu ki:

– Heç olmasa, öz adı yadındadımı Pəpə-Kökə nənəmizin?

Unutmuşdum. Dəhşətə gəldim ki, bütün uşaqlığımı evində keçirdiyim qarının adını unutmuşdum!

İçəriyə sükut çökdü.

Yalnız samovar zümzümədəydi, bir də taxçada qarının tərpətdiyi qab-qacaq cingildəyirdi. Yay girəndə, yəni bürkülər başlayanda bizim evlərdə hətta qab-qacağın da səsi batır. Burda isə qablardan qomrov cingiltiləri çıxırdı.

Qurban kişi ara vermədən papirosunu tüstülədirdi. Jurnalistimiz, yəqin ki, döşəkcə üstündə oturmağa adət etmədiyindən, mütəkkəyə dirsəklənib, tamam rahatlanıb damın tavanında bu başdan-o başa uzanmış yoğun tirə, pərdilərə, dirəklərə tamaşa edirdi. Hərdən də, gizlincə gah Qurban kişiyə, gah Koxaya, gah da mənə baxıb qaşlarını çatırdı: həssas oğlan idi!

Mən gərginlik hiss etdim.

Sükut nə qədər uzun çəksə də, hamımızın eyni şey haqqında fikirləşdiyimizə əmin olduğumdan, birdən üzümü Koxaya tutub:

– Yaxşı eləmirsən, – dedim. – Kişi tapşırmadımı ki, laylağıları yığışdır?! İncimə, sırtıqlıq eləyirsən, Koxa! Unutmuşam də! Qayğılıyam də! Özün demisən: "Cəfalı Cavanşir!"

Nəhayət, Qurban kişi də dözmədi:

– Cında!.. Sözə bax! Bir sicilləmə söz danışdım mən sənə, ay oğul, elə bil qulağıyın dibində milçək vızıldadı! Üstündən yarımca saat keçməmiş genə "Cında!.." Heç olmasa mənim yanımda dilini farağat qoy!

Onun ləqəbi haqqında danışdığımıza baxmayaraq, qarı dillənmirdi.

Stəkan-nəlbəkiləri gətirib siniyə yığdı, süfrə açıb parça-parça pendir və mənə tanış gələn sac çörəyi qoydu. Qısası, yanımızda xeyli fırlandı, əmma "Cında"-filan barədə dilini tərpətmədi. Bu, mənə müəmmalı görünürdü. Açıq ürəkli, dilavər qarı, hesabla, bu söhbətə münasibətini bildirməli idi. Əmma bildirmədi.

Qəlyanaltı üçün süfrə hazır olandan sonra Koxa samovarın yanına keçdi.

Və birdən qəribə, anlaşılmaz şaqqıltı ilə gülüb, pencəyinin yan cibindən islaq əskiyə bükülü bir şüşə çıxartdı.

– Bayaq yalan dedim sizə. Burda biz hər gecə Pəpə-Kökə nənəmizin sağlığına vururuq! Suçulara hazırlamışdım bu tutovkanı, sizə qismət oldu!

"Tutovka" – tut arağı islaq əskinin arasından çıxıb siniyə taqqıldayanda jurnalistimizdən də qaqqıltı qopdu.

– Üşüyürəm mən, Koxa qardaş! Uje xolodno! Tök! İçək nənəmizin sağlığına. Əmma adını de!

Yaş əskinin arasından lap üskük kimi xırdaca, möhkəm – qalın qədəhlər töküldü. Və Koxa araq süzə-süzə, gözlənilmədən:

– Yoxdu, nənəmizin adı, yoxdu, – dedi.

Mən yavaş-yavaş qızara-qızara lap pörtdüm. İndicə xatırlayırdım ki, axı, nənəmizin də əsli Samuxdan idi və Koxa Qaracalarda hamının "Samux qızı" dediyi bu qohumuna görə gəlmişdi.

Niyə belə dinməz-söyləməz içdik? "Adı yoxdu" sözləri altından eşidilən "Cında"ya görəmi? Koxanın öz qonaqları ilə kobud rəftarına görəmi?

İçdik. Susduq.

Koxa çay stəkanlarını silməyə başladı.

Gözləri indi elə bil daha çox çəpləşmişdi. Üzündəki çopurlar da elə bil həmişəkindən xeyli dərinləşib, dənəbir-dənəbir olub, ayrı-ayrılıqda seçilib sifətini daha da kobudlaşdırmışdı, Koxa ciddiləşəndə həmişə belə görünürdü: ayar, lotutəhər oğlan yoxa çıxıb,

əvəzində nisbətən yaşlı, cod və sərt bir adam peyda olurdu. Mən bilirdim ki, belə vaxtlarında kənddə heç kəs, hətta öz yaxın suçu yoldaşları da ona yaxınlaşmağa cəsarət etmirdi. Çünki belə vaxtlarında Koxa adamı acılayırdı.

Dedi:

– Qurban kişiynən söhbətimiz yarımçıq qalmamalıdı. İndi ki gəlib bu boyda yolu, gərək danışaq, aramızda örtülü şey qalmasın.

Koxanın gözünün biri qocaya baxırdı, o birisi kənara.

– Bir sualıma cavaab ver, Qurban kişi.

Qurban kişi bunun necə sual olacağını hiss etmiş kimi, elə bil qəsdən ləngitmək istədi,

– Əvvəl çay tök, sonra sual ver. Ağsaqqala hörmət borcundu, – dedi.

Mənə elə gəldi ki, o "ağsaqqala hörmət" sözlərini də niyyətlə işlətdi. Koxa isə, deyəsən, qəsdən əvvəlcə cavan qonağımıza, sonra mənə, axırda Qurban kişiyə çay süzdü. Mən, əlbəttə, dərhal öz stəkanımı Qurban kişinin qabağına ötürüb, axırda gələn stəkanı özümə aldım, əmma bu, məsələni dəyişdirmədi: Koxa "ağsaqqala hörmətini" göstərmişdi. Bu, ilk baxışda bəlkə də əhəmiyyətsiz kimi görünə bilən hərəkət onların arasındakı gizlin çəkişməni daha da gərginləşdirmişdi.

Mən narahatlıqla yerimdə tərpənirdim... Axı bu çəkişmənin kökü hardadır, əsas səbəbi nədir?.. Koxa mənim fikrmi qırdı:

– De görüm, Qurban kişi, sənin prinsipin varmı?

"Prinsip?!" Bu sual mənə gözlənilməz olduğu qədər də qəribə göründü.

Qurban kişi papirosu dodaqlarından ayırıb şübhə ilə dikəldi:

– Necə yəni?! Qılınc Qurbanın elə bütün varlığı prinsipdən yoğrulmayıbmı?!

Koxa səsini endirdi:

– Xahiş eləyirəm, hirslənmiyəsən.

Qurban kişi çox pis tutulmuşdu.

– Sözünü buyur!

Koxa dedi:

– Nə söz? Sualıma cavab ver! Əsas prinsipin nədi bu həyatda?

Qurban kişi daha dözə bilməyib, stəkanı qaldırıb taqqıltı ilə nəlbəkiyə vurdu.

– Sənin mənnən belə danışmağa haqqın yoxdu! Bütün rayona da, yəqin sənə də bəllidi ki, Qılınc Qurbanın prinsipi, işi-əməli düzlükdü! Ədalətdi! Boş-boşunamı "ədalət qılıncı" deyilib mənə vaxtıynan! Qocalsam da, dəyişməmişəm mən, oğul!

– Çox yaxşı... – Koxa qədəhləri də doldururdu. – Bilirəm, lap cavanlıqdan yaxşı içənsən sən, Qurban kişi. Xörək hazır olana qədər bir qədəh də addat pendir-çörəknən. Sonra da görək özün prinsipial kişi ola-ola bu prinsipial Koxadan niyə xoşun gəlmir, Qurban kişi? O vəzifəli yoldaşdan xahiş eləmişəm sənə çatdırsın ki, elə mən də bir cür Qılınc Qurbanam. Mən də sən təki əyriliyi xoşlamıram.

Mən Koxanı mümkün qədər səbirlə dinləyib, bir şey başa düşmək istəsəm də, özümdən asılı olmayaraq sözünü kəsdim:

– Qılınc Qurban təkdi! – dedim.

Əmma Koxa mənim atmacama cavab vermədi.

– Sən, Qurban kişi, öz zəmanəndə əyrilik kəsirdin, – dedi. – Həm də öz bildiyinsayaq kəsirdin. Mən də öz zəmanəmdə əyrilik kəsirəm, həm də öz bildiyim sayaq kəsirəm.

Bu artıq mənim tanıdığım Koxa deyildi. Nə isə, yalnız özünəməxsus fikirləri, mühakimələri olan, lazım gələndə hətta Qılınc Qurban kimi bir adamla döşləşməyi bacaran, təkrar edirəm ki, mənim tanımadığım bir oğlandı. "Əcəb zəmanədə yaşayırıq! Gör camaat necə dəyişir, gözümün qabağındaca öz kolxozçumun, öz suçumun haçan dəyişdiyindən xəbər tuta bilmirəm!"

Birdən heyrətli səslər eşitdim:

– Bu gün mən, Qurban kişi, səni də, bizim sədri də öz bildiyimsayaq kəsmişəm!

"Nə?! Necə yəni səni də, bizim sədri də... kəsmişəm?!"

Mən dik atıldım.

– Koxa! Bu nə deməkdi?! Sən kimsən, Qurban kişini, ya məni necə kəsə bilərsən?! Nəyə görə?! Ümumiyyətlə, bir məni başa sal görüm bu nə söhbətdi?

O mənə yenə də yanakı, yəni çaşlığı düzəlmiş gözlərlə baxıb səsimi xırp kəsdi:

– Sən dillənməsən yaxşıdı, Cəfalı Cavanşir.

– Niyə?!

– Çünki bütün işlərin, necə deyərlər, mayeyi-fəsadı sənsən.

– Nə iş?! Nə mayeyi-fəsad, canım?!

Bir az ara verib yenə astadan dedi:

– Mənim bu gün Qılınc Qurban təki hörmətli, əziz adamımızın üstünə qılınc qaldırmağımın günahı səndədi, Cavanşir.

– Mən bu danışıqdan heç nə qanmıram! Sən Qılınc Qurbana qılınc qaldırırsan?! Niyə?! Necə qaldırısan?!

Koxa bu dəfə təkcə içib, bir tikə pendir yeyib, birdən yenə əlini cibinə atdı və bu dəfə ordan iki qatlanmış dəftər vərəqləri çıxartdı.

– Al, bax! – dedi.

Vərəqlərdə uzun bir siyahı vardı: "Dingə Dəmir, Həsir Haşım, Xain Xıdır, Çənə Bağır, Təkayaq Cəbiş..." – Koxanın dilindən dəfələrlə eşitdiyim ləqəblərin uzun siyahısı.

Koxanın səsi boğuq idi:

– Çağırtdır bu adamların hamısını! Qurban kişini mən çağırtdırmışam, Qaracalar camatının adından. Sən də bunları çağırtdır. İclasvarı bir şey olacaq burda, Cavanşir. Orda – kanalın qırağında olmalıydı bu. İş belə gətirdi, bura yığışsınlar. Qurban əmin iclasdan qaçıb, iclasa düşəcək indi.

Beləcə boğuq danışıb, yəqin ki, mənim tərpənmək istəmədiyimi hiss edib səsini qaldırdı. Daha doğrusu qışqırdı mənə bu nataraz adam:

– Çağırtdır deyirəm! – Qoşa əlini qarşımda açıb, az qaldı barmaqlarını gözlərimə soxsun. – Bu qabarlardı çağırtdır deyən! Bu qabarlardı bu gecə burda kolxoz sədri, sən deyilsən! Çağırtdır!..

Qarı həyətdə ocağın qırağında çöməlib toyuq ütürdü. Koxanın suçu yoldaşlarından biri kötüyun üstündə, keçən qışdan qalma pambıq çöpü doğrayırdı, o birisi çöpləri yığışdırıb ocağın qırağına daşıyırdı. Onlara tapşırdım ki, ikisi gedib burda adları olan adamları çağırsınlar.

Suçular qəribə–müəmmalı, parıltılı gözlərlə bir-birinə baxdılar:

– Baş üstə! Baş üstə! – dedilər.

Mən nə isə dumanlı təhlükə hissi ilə, ağır-ağır içəri qayıtdım.

Koxa indi jurnalist ilə söhbət edirdi. Damın yarımqaranlıq dərinliyində asta-asta Qurban kişinin papirosu közərirdi.

## 6

Bir az əvvəlki danışıq heç olmayıbmış kimi, Koxa döşəkcənin üstündə rahatca bardaş qurub gülürdü:

– De, de! Mən yəni o qədərmi qorxunc adamam ki, çəkinirsən?

Məlik çətinliklə ayaqlarını altına yığıb, yorğün-arğın irəli əyildi. Uzun, yağlı, ağır saçları alnından aşağı sallanıb gözlərini kölgələndirdi.

– Mən burda qonağam, heç də səni və ya bir başqasını pərt eləmək niyyətində deyiləm. Bayaqdan qulaq asıram. Qəsdən müdaxilə eləmədim ki, xətrinizə dəyərəm. Məni bağışlayın, söz gəldi, öz təəssüratımı deməyə məcburam. Tamamilə doğru, heç bir mübahisəyə, müzakirəyə ehtiyacı olmayan fikirdir ki, xalqın özü kimi adları da gözəl olmalıdı! Doğrudu ki, dünyanın lap əvvəlindən faşistlərin çox hiyləli siyasətinin qurbanı olmuşuq: adlarımızı tarix boyu dəyişdirə-dəyişdirə tariximizi – kökümüzü məhv eləyiblər. Tamamilə aydın faciədi bu, Koxa qardaşım. “Samux” hara, Sim ağ hara?! Ağlar biz türklərin böyükləri olublar tarixən. Bəs Sim Ağlar – Uca Ağlar kimdirlər? Düşmən niyə su salıb Sim Ağların yurduna?! İtkimiz böyükdür, qardaşım. Məncə, nə bizim tariximizi bərpa eləmək mümkündü, nə də xalqımızın özünü. Əmma heç olmasa son əsrlərin adlarını qorumalıyıq. Çox vacibdi bu, çox! Gözəllik qalıbsa, onu da qorumalıyıq. Məsələn, sizin sədrinizin adı: Cavanşir – gözəldi?! Şübhəsiz! Həm bizim Ağvan sərkəri Cavanşiri yaşatdığına görə, yəni məzmunca gözəldi: Cavanşir!.. Rütbədi bu, Koxa qardaş. Hərbi rütbə. Qızıl Arslan, Körpə Arslan, Cahan Pəhləvan və sairə tarixən hərbi rütbələrdi. Biz ədəbiyyatçılar, tarixçilər bilirik belə şeyləri. Əmma təəssüf, siyasi mühit hələ də aman vermir ki, həqiqəti yazaq. Hal-hazırda, heç olmasa, deyirəm, mövcud adların məzmununu, gözəlliyini qorumaq da balaca iş deyil, Cavanşir. Bu cür adın yanına ləqəb – laylağı qoşub, çirkinləşdirmək nə dərəcədə məqsədəuyğundu, Koxa qardaş? Cavanşir gözəldi, qoy gözəlliyində qalsın. Yaxud Dəmir! Yaxud Zəbi! Hər biri bir məna daşıyır! Bu mənalara xələl gətirmək, e-e-e... sizi necə başa salım, e-e-e-mm... estetik gözəlliyə, xalqın uzun əsrlər boyunca yaratdığı gözəllik təsəvvürünə də xələl gətirmək deməkdi, Koxa qardaş! Bu çox dərin məsələdi, üzr istəyirəm, səni başa

salmaq üçün münasib söz seçməkdə çətinlik çəkirəm. Zəhmət olmasa, mənə çay!

Koxa fikirli idi. Dedi:

– Yaxşı oğlansan. Biliyin-zadın da var. Əmbə... çox uzaqlara getmə. Bugünkü dərdimizdən danışaq. Kitab yazıbsan: "Qılınc Qurban". Hanı o Qılınc Qurban?! Yoxdu axı, qonaq qardaş!

Qocanın ayaq səsləri kəsildi. Məlik dikəlib saçlarını dala atdı. Gözləri böyümüşdü.

– Sən nə danışırsan?

Koxa çox pis çəp baxırdı.

– Cavan şir! Hanı o şir?! Yoxdu!

– Heç nə başa düşmürəm! – Məlik təəccüblə bizə baxdı. Bu vaxt Qurban kişi yenə gəzinməyə başladı.

Lampanın böyründən keçdikcə qocanın alt dodağının səyridiyini görürdüm.

Məlik, deyəsən, söhbətin çox pis yerə gəlib çıxdığını duyub birdən-birə susmuşdu. Çaşqın və günahkartək görünürdü. Yazıq hardan biləydi ki, gözəllik haqqında danışa-danışa, söhbəti Koxa ilə Qurban kişinin mübahisəsinin əsas səbəbinin üstünə gətirib çıxarmışdı (Bunu o vaxt, əlbəttə, mən də bilmirdim).

Koxanın elə bil yenə sifətinin çopurları da dərinləşmişdi. Başını qaldıranda gördüm çopurlarının içəriləri ağarıb. Bu, yaxşı əlamət deyildi. Nə isə olmalı idi.

Oldu.

– Cavan şir... Cavan şir, – boğuq-boğuq təkrar etdi. – Gözəldi!

– Koxa... Ko-xa... Ko-xa, – öz adını da təkrar etdi. – Pisdi!

Və birdən ayağa qalxdı.

– Limbuz... Lim-buz... Bəs Limbuz necədi?

Bu qəribə, anlaşılmiaz sözü Koxanın dilindən eşidəndə məndən ani, axmaq bir gülüş qopdu. Özüm də dərhal pərt oldum, çünki bu vaxt Qurban kişinin xırdaca bədəninin böyrümdə necə əsəbiliklə dartıldığını hiss etdim.

Koxa bizi bircə-bircə gözdən keçirib, təkgöz baxışını mənim üzümdə saxladı.

– Hə, niyə dillənmirsiniz?! Limbuz necədi?!

Mən soruşdum ki:

– O nə olan şeydi?

– Şey yox, addı, – dedi. – Adam adı! Bunu hamıdan əvvəl, birinci gərək sən başa düşəsən, Cavanşir. Yoldaş kolxoz sədri Limbuz Cavanşir! Genə başa düşmədin? Lim – limonad deməkdi, buz da ki, buz! Çatdımı, a Cavanşir?! Bu gün çöldə mənim dediyim haman o təzə, qatı açılmamış laylağılardan biri bax budu: Limbuz Cavanşir! Bir şüşə limonadnan bir dolça buza iki maşın aldın bu möhtərəm bolşevikin adıynan. Pambıq zavodundan çiyidi vaxtında daşıdıq. Gübrəni vaxtında daşıdıq. Pambığı vaxtında səpdik. Vaxtında da cücərmə oldu. Adın, şəklin qəzetdə! Qılınc Qurbanın şəkli ilə yanaşı! Tərifnamə: "Şefliyin bəhrəsi". Sonra?! Nə oldu sonra?! Min hektar pambıq öhdəçiliyini kim versin?! Yanmış, çiniyi çıxmış koldan necə verim mən min hektarın hər hektarınddan iyrimi sentner pambığı?! Aktlaşdıracaqsan: "İl quraqlıq keçdi, min hektar sahə yandı". İmza: Qılınc Qurban-filan! Bəs biz?! Min hektar yer əkən, min hektar yer suvaran qaracalı nə yeyəcək, a Limbuz Cavanşir?! – Bar-bar bağırırdı.

Bu, Koxanın birinci zərbəsi idi.

Qarı Koxanın qışqırtısına gəlib astanada dayanmışdı. Əlləri belində, lal-dinməz bizə baxırdı. Koxa onun baxışını hiss edib geri döndü.

– Başlamışam deməyə! Özləri vadar elədilər, incimə məndən, a qarı! Sənin evində, sənin süfrəyin üstündə mən dillənmək fikrində deyildim... Mən buna dəfələrlə demişəm, – məni göstərdi. – Demişəm: get xəlvət bir yerdə otur yüz kərə "Cında, Cında" de, hər şeyi başa düşərsən. İndiyəcən heç nə başa düşməyib!

Koxa üstümə yeridi.

– Bilirsənmi niyə Cında qoymuşam Pəpə-Kökə nənəmizin adını? Onun nəvələriynən işim yoxdu, uzaqdadılar, əlim çatmır. Səndən xəbər alıram ki, Pəpə-Kökə nənə niyə dönüb Cında olub?! Çünki pəpəsini, kökəsini yeyib, özünüzün əliniz pəpəyə çatandan sonra onu lazımsız cında təki atıbsınız! İyirmi beş ildi çıxıbsan bu qara damdan. Uzağa getməyibsən. Burdaca, gözümüzün qabağındaca gəzirsən, sədrlik eləyirsən, de görüm bu iyirmi beş ildə bircə kərə baş salıbsanmı bu qara dama ki, görəsən Pəpə-Kökə nənəniz necə dolanır, dərdi-səri nədi?! Baş salmayıbsan! Çünki səndən ötrü bu saat bu qarıynan səhər-səhər evdən çıxanda çəkməni silib tulladığın cındanın heç bir tafoutu yoxdu! Çünki sənin sinəndə ürək əvəzində

daş asılıb, Cavanşir! Özündən savayı heç kəs sənin vecinə deyil! Yapışıbsan Qurban əmiyin ətəyindən, onun adını götürübsən üstünə, elə bilirsən Qılınc Qurbanın adının altında nə təhər istəsən o cürə də yaşayıb kef sürəcəksən?! Mən Cəfalı deyirdim sənə. çünki o vaxt doğrudan da cəfa çəkirdin. Daha Cəfalı deyilsən, Limbuz Cavanşir!

Bu, Koxanın ikinci zərbəsi idi!

Küncə yeriyib, ordan, əlində quru pambıq kolu, Qurban kişiyə doğru qayıdanda mənə elə gəldi ki, üçüncü zərbə qocaya dəyəcək. Əmma sonra gördüm ki, hələ mənlə işini qurtarmayıb.

Astanadan qarı yox olmuşdu, əvəzində Qurban kişi kimi balaca, eynilə onun kimi quru, ağsaqqal bir adam görünürdü. Dəmir kişi idi. Arxada, damın girəcəyində başqaları dayanmışdı. İçəridə deyilənləri eşidib duruxmuşdular.

Koxa qışqırırdı:

– Gəlin! Nə vaxta qədər ölüvay qalacaqsan ay bədbəxt ölüvay qaracalı?! – Dəmir kişinin qolundan tutub, çəkib mənim yanıma gətirdi. – Niyə Dingə deyirəm mən bu ağsaqqala? Deyəmməzsən, çünki sənin fikrin ayrı yerdədi, Cavanşir, bunun dingəsi gözünə görükmür! Otuz ildi bu kişi Qaracalarda suçuluq eləyir. Qışın ayazında taxılın don suyundan başlayıb, ta bir də payızacan ayaqları suyun içindədi. Bir ildən çoxdu bu kişinin başında ağrı var. Gedir sənin yanına, xahiş eləyir ki, daha dözəmmirəm, qoy mənə ayrı naryad versinlər. Kişinin dərdini xəbər almaq əvəzinə hələ təəccüb də eləyirsən, deyirsən, nə iş istəyirsən, səninki sudu, lapatkadı, get lapatkada işlə. Bir balaca ürəyin yansa, öyrənib bilərsən ki, axır vaxtlar Dəmir kişinin bir ayağı həkimin yanındadı. Həkim dərman verir, sonra da, deyir, xeyri olmayacaq, peşəni dəyişməsən, deyir, dərmanın xeyri dəymiyəcək. Bu kişinin qoca anası var. Öz kəndiyin qocasını, qarısını tanıyırsansa, bilərsən ki, Dəmir kişinin anası Xallı arvad hələ rəhmətə getməyib. Xallı arvad tutub oğlunun əlindən, aparıb mollanın yanına ki, bəs, molla, həkimin dərmanı güc eləmir, oğlumun dərdinə çarə elə. Molla da lotunun birisi, baxıb Dəmir kişinin təhər-tövrünə, deyib oğluyun üstündə bədnəzər var, dingə qoy başına, baxıb gülsünlər, bədnəzər sovuşub getsin... İndi bildinmi, niyə Dingə deyirəm mən Dəmir kişiyə?!

Bu, Koxanın üçüncü zərbəsi idi.

Sonra dördüncü, beşinci, onuncu zərbələr yağıb məni tamam əzdi. Koxa qaracalıları bir-birinin ardınca qarşıma çağırıb, onların ləqəblərinin tarixçələrini danışırdı. Əmma mən daha qulaq asa bilmirdim. Koxanın lap əvvəlinci zərbələrindəncə özümü itirmişdim.

Əmma birdən ayıldım, daha doğrusu, Koxa ayıltdı.

Məndən əl çəkib Qurban kişinin qabağında dayanmışdı. Əlindəki quru pambıq kolunu yelləndirirdi.

– Buyur bax! Bax! Nə deyirsən buna, Podrat Qurban?! Qılınc Qurban deyilsən daha, Podrat Qurbansan! Bu gün çöldə demişəm, raykom bilir, bu bir. Özün eşidib gəlibsən, bu iki! İndi ki camaat da eşidir, bu da üç! Bir söz ki, üç kərə dilə gəldi, bil ki, o söz obaya, elə gəldi! İndiyəcən Qılınc Qurbandın, indən belə oldun Podrat Qurban!

Baxdım ki, Qurban kişinin rəngi qaralıb. Qonaq isə Qurban kişi ilə Koxanın birinci mübahisəsində olduğu kimi, ağzını açıb nağıla qulaq asan uşaqtək sonsuz maraqla baxırdı. Dərk edirdimi ki, bu "Limbuz"un, "Podrat"ın altında nə gizlənir?! Mən isə artıq bilirdim: yay girəndən bəri rayon mərkəzindəki təzə mənzilindən, oradakı sərin kölgəli bağdan heç yana çıxmayan qocanı birdən-birə gecənin bu vaxtında Qaracaların cəhənnəm istisinə gəlməyə məcbur edən səbəbi də, onun Koxa ilə ləqəblər – laylağılar haqqında uzun-uzadı mübahisəsinin, "millətin özü də gözəl olmalıdı, adı da!" – deyib təkidlə təkrar etməyinin nədən törəndiyini də bilirdim. Şan-şöhrətli köhnə bolşevik bütün rayonun gülüş hədəfinə çevrilmişdi. Mən isə... bütün kənddə, bütün rayonda "Limbuz"a dönən Cavanşirdən nə qalırdı?!

Koxa, yarpaqları quruyub tökülmüş, qozaları hələ də xırdaca ikən soğulub, qaralıb daşlaşmış kolu əlində silkələyə-silkələyə yenə nə isə qışqırırdı. İçəri doluşub Koxanın böyür-başında dayanmış qaracalılar da Qurban kişini məzəmmət edirdilər, öhdəlik-filan haqqında danışırdıdlar. Əmma mən daha heç nə eşitmirdim. Limbuz Cavanşir! Podrat Qurban! Limbuz Cavanşir! Podrat Qurban! Ha-ha! Xa-xa!..

Daha qapılar qarşımda öz-özünə açılmayacaq, geri qalmış bir kolxozun sədri olduğum halda məni görəndə ehtiramla baş əyən adamlar indi bir verstlikdən qaçacaqlar, nəinki restorana, pavilyona dəvət etməyəcək, ciblərimi şokoladla dodurub "uşaqların yanına

əliboş getmə" deməyəcəklər, əksinə, "Limbuz! Limbuz!" – deyib ələ salacaqlar!.. Dəhşət içində Koxaya baxdım. "Sən məni məhv elədin! Sən məni öldürdün, Koxa!" Tacın düşdü başından, ay bədbəxt!

– Əclaf! Sən kimi təhqir eləyirsən?! Necə yəni Podrat Qurban?! Bu boyda camaatı ələ saldın, bütün rayonda rüsvay elədin, rahat olmayıb indi də Qılınc Qurbanı dilə-dişə salırsan?! Rayonumuzun fəxrini, personal pensiyaçını, adı dillərdə dastan olan köhnə bolşeviki! Sən kimsən ki, Qılınc Qurbanın qabağından söz qaytarırsan, uca adının yanına ləqəb qoşub məsxərəyə qoyursan?! Türmə! Padsud!..

Mən mən deyildim. İndiyə qədər Qaracalarda bir kəsə güldən ağır bir kəlmə deməyən sakit, işgüzar Cavanşir – Cəfalı Cavanşir yoxa çıxmışdı, əvəzində murdar bir demaqoq, rəhmsiz bir yırtıcı peyda olmuşdu. Nə idi, hansı qüvvə idi məni belə dəyişdirən? Fikrimdəki yalnız bu idi ki, nəyin bahasına olur-olsun, Qurban kişinin yüksək, ləkəsiz adını öz mövqeyində saxlamalı və özüm də o mövqedən yapışıb dayanmalıyam. Bunun üçün isə bircə vasitə var: Koxanı məhv etmək!.. Onun əlində mənə qarşı maddeyi-sübut kimi tutduğu pambıq kolunu çəkib öz əlimə alıb, onun bütün il boyu gecə-gündüz çöllərdən yığılmadan becərdiyinə baxmayaraq amansız quraqlığın nəfəsindən qurumuş bu kolu suçunun üzünə çırpdım.

– Padsud! Padsud!.. – Hiss edirdim ki, indiyə qədər bir kərə də dilimə gəlməmiş bu kəlmə indi, bu məqamda yeganə kəsərli silahdır, mənim üçün nə qədər yad-yabançı olsa da, bu kəlmə indi dilimə çox yaxşı yatırdı: – Padsud! Padsud!..

Bir vaxt ayıldım ki, qaracalılarla birgə, qoca ilə jurnalist də, Koxa da içəridə deyillər. Hay-küy, sarsıntı, faciə əvəzində yas məclisi kimi bir şey əmələ gəlmişdi. Bacım-Tacım damın bir küncündə donub qalmışdı, Suğra ilə uşaqlar o biri küncündə...

Kim idi ölən?..

# ÖMÜR KARVANI

Bu hadisə bir həftə idi ki, hər gün eyni vaxtda və demək olar ki, eyni şəkildə təkrar olurdu.

Axşam düz saat altıda elə bil görünməz bir əl Heybəti yuxudan sərsəm oyadıb aynabəndin gün görməyən, sərin küncündə kürsüdən hop götürüb pilləkənin başına doğru itələyirdi. Bu qırx yaşlı ağır adam, avtobusdan düşən qıza – çiyinləri açıq, sinəsi yarımaçıq "platya"lı, "dekalteli" gözələ tamaşa eləmək üçün ərinməyib bəzən hətta həyətə də enirdi. Orda, ilk gənclik hissləri təzəcə oynayan cəsarətsiz bir yeniyetmə kimicə naçar dayanıb, qəsəbənin qurtaracağındakı bu son duracaqda düşən təkcə sərnişini həsrətli, məftun gözlərlə ötürürdü. Qız yüz addımlıqdakı fin evinin darvazasından içəri girib gözdən itəndən sonra o, özü-özünü cinayət üstündə tutmuştək qəfildən hirslənirdi, ya da qəbahətindən xəcalət çəkib, başını bulaya-bulaya aynabəndə qayıdıb, yenidən kürsüsünə yayxanırdı...

Əvvəlcə Heybət belə güman etdi ki, deyəsən, təqsirin hamısı Tükəzdədir. O gün, yəni bir həftə əvvəl Tükəz dedi ki, nahardan sonra divanda yatanda gündə bir kilo ət götürürsən, yatma, sən Allah, Heybət, dincəlmək istəyirsən, get aynabəndə, "səbət kürsüdə" otur.

Heybət məsləhətə yatdı. "səbət kürsü" cır-cır cırıldayıb elə bil bu nəhəngin ağırlığından şikayətləndi. Heybət on sotluq həyətyanı sahəsində işləməkdən kobudlaşıb qaralmış iri əllərini qarnının ora-burasına basdı. Bircə dəqiqədən sonra başını çiyninə əyib sağlam, güclü adamlara məxsus dərin yuxuya getdi.

O, Tükəzin necə mənalı qımışdığını görmədi. Yarımca saat sonra evin düz qabağında nərildəyən ekspresin beyinə işləyən səsindən diksinib gözlərini açanda isə, arvadının mənalı təbəssümünü görməkdən başqa, onun kələyini də duydu. Çox ciddi bir narazılıqla: "Bu zırıltı məni yaman narahat eləyir", – dedi. Söhbət, əlbəttə, ancaq fiziki narahatlıqdan gedirdi. Heybət hardan biləydi ki, Tükəzin nahardan sonra iki-üç saat "köpməyi" sevən və günbəgün "şişib evə-eşiyə sığmayan" ərinə çox adicə bir kələk gəlməsi, bir gün onün qəlbən narahatlığına səbəb olacaq...

“On beş ildi evlənmişəm, bir kərə də qadın dalınca baxmamışam. Bu nə işdi?!” – deyə heyrətlə düşünürdü və elə zənn edirdi ki, əgər Tükəz onu aynabənddə oturtmasaydı, heç bir bədbəxtlik üz verməzdi. Bədbəxtlik?! Əcəb gülməli fikirdir! Əmma bir həqiqət var ki, daha əvvəlki Heybət deyil, qəfildən yüngülləşib, atılıb-düşən, dingildəyən olub! Bu ağırlıqda gövdəni yerindən oynadan nədir? Kimdir o qız, nəçidir? Məlum deyil. Hərdən Heybətə elə gəlir ki, onu hardasa görüb. Harda, nə vaxt?

Heybət dodaqlarını büzdü: “Bircə o qalıb deyəm ki, ürəyimdə xəyal bəsləmişəm, bu misalda bu nişanda bir gözələ qovuşmaq istəmişəm. H-m! Necə deyərlər, potensial məhəbbət! Yaxud, gecikmiş məhəbbət! Ay-hay!.. Dünyamalı kişinin qızını burda boynu buruq qoyub, ayrısının dalınca düşəcəm? Daha yerimdən qalxan deyiləm! İstər Bakının bütün gözəlləri tökülüb səf-səf düzülsün, evimin qabağında gözəllərin rəsmi keçidi başlansın, qalxan deyiləm!”

Bu dəfə doğrudan da qalxmadı. Yenə düz altı tamamda avtobus qıjıldadı. Beş dəqiqədən sonra tanış qıjıltı təkrar olundu, avtobus getdi. Sükut çökdükdə Heybət, deyəsən, qızın tuflilərinin taqqıltısını da eşitdi, əmma yerindən qımıldanmadı. Qəribədir ki, indi hətta fikrini də çox asanlıqla başqa səmtə yönəltdi; fikirləşdi ki, ekspresin şoferi, görünür, çox intizamlı adamdır, sərnişin oldu-olmadı, təfavütü yoxdur, həmişə düz beş dəqiqə saxlayır. Nə artıq, nə əskik.

Sonra Heybət, şəhərlə bu qəsəbənin arasında işləyən qoca şoferin həyatı ilə öz həyatı arasında bir oxşarlıq tapdı. Səkkiz-doqquz ildi ki, qoca bu yolla gəlib-gedirdi. Hər gün eyni cədvəl üzrə hərəkət edir, eyni dayanacaqlarda tormozunu basır, bəlkə, hətta eyni sərnişinlərin üzünü görürdü. Heybət isə düz on ildi ki, daim baş məqalə yazırdı, qələminin altında çox zaman eyni ruhlu cümlələr, min-milyon kərə işlənib sürtülmüş, dadını-duzunu itirmiş sözlər görürdü. Dəqiq işləməyindən belə güman etmək olardı ki, qoca şofer öz peşəsindən, əlinin altında sağa-sola fırlatdığı “çörək ağacın”dan hələ bezikməmişdi, həyatının yeknəsəliyi onu yormamışdı. Əksinə, belə həyat tərzini o, bəlkə də bir zərurət hesab edirdi. Heybət isə...

Fikrini məşğul etmək xatirinə bu müqayisəni bir az uzatmaq istəyirdi. Əmma bu ara həyətdən Tükəzin öskürəyi eşidildi Heybət ağır-ağır başını buladı, düşündü ki, bu ötən həftə ərzində arvadını

bir dəfə də ürəkdən dindirib-danışdırmayıb, heç haqqında fikirləşməyib də. Halbuki Tükəz barədə ciddi fikirləşmək lazımdı.

Ərinin burda, aynabəndin bu sərin güşəsində qara, yöndəmsiz bir qayatək düşüb qaldığı vaxtlarda Tükəz bir dəqiqəliyə belə qıçlarını qatlamırdı. Hərdən həyətdə, tut ağacının kölgəsindəki skamyada oturanda isə hədsiz bir işgüzarlıq və qənaətçilliklə yırtıq-sökük büzələşdirirdi – paltarı çox pərtov geyinən Heybətin günaşırı çıxarıb atdığı corabları incə-incə közəyir, köynəklərin boynunu, biləklərini təpçiyirdi. Hərdən də ilin əvvəlindən ərinin təhriki ilə oxumağa başladığı "Kerri bacı"nın qat kəsmiş səhifəsini açırdı. Bir neçə sətirdən, uzaqbaşı bir səhifədən sonra gözləri süzülür, adətkərdə barmaqları vərəqi qat kəsmiş yerindən qatlayırdı. Heybət bilirdi ki, Tükəz qadının gündüz yatmasını tənbəllik, yaxud kübarlıq əlaməti hesab edir, səhərdən günortayadək qapı-bacada vurnuxduqdan sonra tut ağacının altında oturub çimir almağı da az qala günah sayır. Bəzən istər-istəməz "günaha batacağını" duyanda isə, "sol böyrü üstə uzanıb yuxu bişirmək" qorxusundan içəri getmir, qəsdən tutun kölgəsində oturur ki, avtobus gəlib oyatsın. Bu vərdiş, bu xasiyyət Tükəzdə nə vaxt əmələ gəlmişdi? O öz canına niyə qəsd edirdi? Heybət bütün bunlar haqqında vaxtında niyə düşünməmişdi?

Tükəzin öskürəyi bu dəfə pilləkənin altında eşidildi. Heybətin gözləri arvardının müəmma ilə gülümsünən bozumtul, yorğun gözləri ilə qarşılaşdı. Tükəz sözlü adama oxşayırdı. Amma Heybət soruşmaq "niyə elə baxırsan?" demək əvəzinə, birdən qüssə ilə fikirləşdi ki, əgər səhv etmirsə, bir zaman Tükəzin gözləri qumral idi, didələrində hələ bir azacıq yaşıllıq da vardı, elə bil orda bir cüt lap xırda, mikroskopik yarpaq bitmişdi. İndi isə, Heybət təəccüblə baxdı ki, rəng bir-birinə qarışıb gözlər boz-bulanıq olub. Niyə belə? O körpəcə yarpaqları xəzan nə vaxt vurmuşdu? Heybət bunu nə üçün ancaq indi sezirdi? Laqeyd qalmışdı?..

Bu sualın cavabını aramaqdan çəkindi. Fikrini toplayıb soruşdu:

– Nə var, Tükəz, niyə elə baxırsan?

– Bu dəfə nə əcəb qalxmadın?

Heybət şübhə ilə dikəldi.

– Hara qalxım?

– Qız səni çağırır.

– Nə? Kim?!

Tükəz arxaya işarə etdi:

– Kimliyini sən bilərsən. Mənim bildiyim budu ki, həmişə burdan tamaşa elədiyin qızdı.

Heybət bədənində çimildəşmə hiss etdi; nə danışdığını o qədər də başa düşmədən, heyrətlə pıçıldadı:

– Demək, sən hamısını görmüsən?!

– Niyə görmürəm, kor ha deyiləm. – Tükəzin səsində anlaşılmaz sərbəstlik vardı. – Dur, dur. Xalxın qızını günün altında gözdətmə. Gör nə deyir?

“Qız səni çağırır” sözləri əsl mənasında Heybətə indi çatdı. Necə olur-olsun öz siqlətənini, sanbalını qorumağa çalışan adamlar kimi, bir xeyli yerindən tərpənmədən döşəməyə baxdı.

Ürəyinin döyüntüsünü sakitləşdirmək cəhdilə bir-iki kərə dərindən nəfəs aldı.

Sonra zahiri laqeydlik və soyuqqanlılıqla ayağa qalxıb, aynabəndin xırda gözcüklərindən o yana boylandı. Qız doğrudan da orda idi!

Heybət, oddan qorxmuş kimi, dərhal gözünü çəkib geri döndü. Bu nə deməkdi?! Qız onu nə üçün çağırırdı?!

Heybətin həyətdən necə heyran-heyran tamaşa elədiyini o, bir neçə dəfə görmüşdü. Əmma heç əhəmiyyət vermədən, başını aşağı salıb yoluna davam etmişdi. İndi isə...

Birdən-birə nə olmuşdu?!

Heybət nə qədər baş sındırdısa, heç yana yoza bilmədi.

– Nə dedi çağırdı?.. Bəlkə tərs gəlib, ayrı adamı çağırır?

Tükəz içəri keçmişdi. Orda qurdalanırdı.

Heybətə elə gəldi ki, arvadı eşitmir, ya da eşitmək istəmir. Əmma azca sonra Tükəz qapının arasında göründü. Nəyə isə heyifsilənən tərzdə, yüngülcə köksünü ötürdü.

– Səni çağırır! Dedi, zəhmət olmasa, Heybətovu çağırın.

– Heybətovu!.. Mənim familyamı hardan bilir?

– Soruşmadım.

Heybət bu səsdə açıq inciklik duydu. Tükəz bəlkə də demək istəyirdi ki, “məni axmaq yerində qoyma, tanışsan qıznan”. Onun sözlərində bəlkə də ağır tənbeh gizlənirdi: “Qızın dalınca baxdığın, tanış olduğun, gəzdiyin bəs deyilmi, üstəlik məni də incidirsən? Mən ki ömrüm boyu səndən bir kəlmə xəbər almamışam, hara

gedirsən, hardan gəlirsən? İndi niyə məcbur eləyirsən üzünə qayıdım? İstədiyin budumu ki, aramız açılsın, evdə üz-gözlük düşsün? Mən istəmirəm bunu, Heybət, hara gedirsən get, könlün nə istəyir elə, öz vicdanına, öz insanlığına!"

Tükəz bəlkə heç belə düşünmürdü. Bunların hamısı Heybətin həyəcanlı beynində dolanırdı.

Özünü içəri saldı. Üzü o yana dayanıb stolun üstündə salfetlə nimçələri silən arvadına arxadan yaxınlaşıb, əllərini onun çiyninə qoydu.

– Tükəz... Tükəz... Birdən ağlına ayrı şey gələr... Sənin əziz canına and olsun, bu vaxta qədər gözümün ucuynan da baxmamışam zənən deyilənə.

Tükəz vəziyyətini dəyişmədən, işindən qalmadan deyinirdi:

– And içmə. Gözümnən görmüşəm, qulağımnan eşitmişəm ki, "zənən deyilən"in hamısı "əsl kişi" deyir sənə. Qır-saqqız olub yapışırlar. Bu da o yapışanlardandı da, ay Heybət! Geyimi-kecimi də haray təpir ki, "kişi lazımdı mənə!" Danışdırma məni, sən Allah, məcbur eləyirsən layiqsiz söz çıxsın dilimdən!

Heybət özünü pilləkən başından o yana boylanan, Tükəzi isə qapı arasından baxan vəziyyətdə təsəvvür etdi. Xəcalətindən əllərini onun çiyinlərindən götürdü.

– Mən onnan kəlmə də kəsməmişəm!

– İnanıram.

– Familyamı da mən deməmişəm!

– İnanıram, Heybət.

– İnanmırsan!

– Yaxşı, tutaq ki, inanmıram, sonra?

– Zəhmət çək, ona deynən çıxsın getsin.

– Özün desən yaxşıdı.

– Yox! Deyirlər, kişinin ən ləyaqətlisinə də etibar yoxdu. Mərdmərdanə boynuma alıram ki, doğrudan da baxıram ona. Gözəlliyi öz yerində. Dekaltesi də çox qeyri-adi şeydi, axı, ay Tükəz! Kim bilir, bəlkə elə sən deyənlərdəndi. Rədd elə getsin! Qab-qacaq qaçmır, gəlib silərsən.

Tükəz çiyni üstdən onun qara, enli sifətinə qeyri-adi gözəllik verən açıq mavi gözlərinə baxıb yorğun-yorğun gülümsündü:

– Bəlkə vurulub sənə. Yazığın gəlmirmi?

– Mənə bircə zənən vurulub, o da sənsən, Tükəz. Get qov onu!

– Deməzmi Heybətovun nə qanmaz, mədəniyyətsiz arvadı var. Əri evdə ola-ola məni qapıdan qovur. Yeri, özün de...

Heybət qaşlarını sıx-sıx çatıb yerə baxdı, ayaqlarını götürüb-qoydu, hirsindən fısıldadı.

– İndi gəlirəm... Gedək tənəklərimizi suvaraq.

– Bəs məqalə yazmayacaqsan?

Heybət eşitmədi, geri dönüb aynabəndin açıq qapısından qızı təkrar görəndə, indi onunla üz-üzə gəlib söhbət edəcəyini fikirləşəndə, qulaqlarında ürəynin güclü döyüntüsü səsləndi.

Qız "platya"sı rəngində dümağ redikülünün uzun qulpunu dümağ, zərif biləyinə dolaya-dolaya, gah ağacların başına, gah da səki ilə paralel uzanan teleqraf xətlərinə sarı boylanırdı. Zahirən belə təsir bağışlaya bilərdi ki, Heybətin on ildən bəri xüsusi qayğı ilə becərdiyi bağından, küləksiz havada sirli-sirli, sakit uzanıb gedən bu teleqraf xətlərindən, yay günəşinin əyilib gücdən düşdüyü vaxtda ürəyə sərinlik, dinclik gətirən mavi göydən zövq alır, şəhərin şimalındakı bozluqda ildən-ilə sürətlə böyüyən, bu sərt təbiətin camalına yeni nəqşlər vuran qəsəbənin yaşayış üçün heç də pis olmadığını, ya da buna bənzər bir şey düşünür, şəhərin uğultusundan, bürküsündən ayrılandan sonra qəsəbənin bu qulaq cingildədən sakitliyində, ilkindi çağının gözəlliyində yalnız gənclik duyğularına, xülyalarına aid bir romantika duyur, özünü də, bəlkə lap evdən çağırdığı adamı da unudub, gözəl bir şeir kimi sərbəst axınlı fikirlər, hisslər aləmində gülümsünür; qızın duruşu, tərpənişi, baxışları belə təsir bağışlayırdı və bu, həqiqətə çox yaxın idi. Əmma Heybətin fikri bu deyilənlərin heç yaxınınıdan da ötmədi. Çünki bu dəfəki ötəri baxışdan sonra yadında qızın ancaq dümağ, gözəl çiyinləriilə döşlərinin arası qaldı və bu, Heybətdə tamam başqa bir təəssürat oyatdı.

Həmin təəssürat bir azacıq izahat tələb edir.

İş burasındadır ki, Heybət Heybətov sözün əsl mənasında əqidə ilə "Şərq mədəniyyəti"ni, daha doğrusu, bu iki kəlmə altında əxlaq saflığını qorumağa çalışan qəzetçilərdəndi. Və son illərdə dəbə düşüb yayılan qısa "platya"ları, "dekalte"ləri "vəhşiliyə doğru gedən Avropa mədəniyyətinin mənfi təsiri" kimi qiymətləndirirdi. Qətiyyətlə yazırdı ki, "əlli üçüncü ildən sonra sərhədlərin açılması,

o yandan bəriyə çəyirtkə kimi turist axını başlaması sovet respublikalarının heç birinə, xüsusən Azərbaycana xeyir verməmişdi", əksinə, "milli mədəniyyətin, milli psixologiyanın yanlış istiqamətə yönəlməsinə səbəb olmuşdu". Redaksiyada bu mövzuda söhbət düşəndə Heybət həmişə tək qalırdı. "Sən hər şeyi bayağılaşdırırsan", – deyirdilər. Axır vaxtlar Heybəti "gözündən almış" sərt və amansız baş redaktor isə əməlli-başlı ittihamnamə oxuyurdu: "Sən əlli üçüncü ildən bəri keçməmisən! İndi ən geri qalmış rayon qəzeti əməkdaşlarına da məlumdu ki, Stalinin "jeleznıy zanaves"i[1] xalqı nadan saxlamaqdan ötrüydü, eşşək kimi palanlayıb minməkdən ötrüydü! "Çəyirtkə kimi turist axını"nın otuz dərəcə istidə geyindiyi dizdən yuxarı şortikə dəhşətlə baxırsansa, deməK, sən hələ də palanlısan! Hələ də Stalinin eşşəkləri kimi anqırırsan: "Vəhşiliyə doğru gedən Avropa mədəniyyəti!"

Belə dəhşətli təhqirdən sonra kim olsa yumşalıb öz fikir və mülahizələri üzərində düşünməyə başlardı. Əmma Heybəti şəxsi qənaətlərindən döndərmək çətin idi; özündə cüzi təbəddülat hiss edən kimi, eşitdiklərinin hamısına yekunlaşdırıcı etirazla cavab verirdi: "Avropa mədəniyyəti çılpaq qadındı! O cür pozğunluqdansa, elə palanlı qalmaq yaxşıdı!"

Bu, o deməkdi ki, Heybəti mübahisəyə – "qəzetin mövqeyi"nə çəkmək üçün daha heç kəs özünə zəhmət verməsin; hamı susur və beləliklə, Heybətin özünün dediyi kimi, əxlaqda ənənəvi "gerilik" qalib gəlmiş olurdu. "Döşü-başı açıq"lar, "şortiklilər". Heybətin təsəvvüründə, "çılpaq qadın mədəniyyəti"nə qapılanlardılar. Buna görə də qızın açıq gözəlliklərini yaxından görəndə, Heybət onu da Avropa təsirindən korlanmış "seksual tiplər" qisminə daxil etdi. Onda dərhal belə bir qənaət hasil oldu ki, arvadını yollayıb kişisini çağırtdıran bu həyasız indi onunla nə isə bir oyun oynayacaq. "Bir ona bax, ona bax, gör necə də irim-irim irişir!"

Əslində isə qızın təbəssümü də gözəl və sehirli idi.

Heybət məhəccərin bu tayında, qızla üzbəüz dayanıb başını qaldırmadan, qaşlarını sıx-sıx çatıb, gözlərini asfalta dikdi. Elə bil dilini ağzında güclə hərləyib könülsüz mızıldandı:

---

[1] Jeleznıy zanaves – keçmiş SSRİ-nin daxilinə kənar ideyalar buraxmayan "dəmir pərdə"

– Buyurun...
Qızın səsi də gözəl və sehrli idi:
– Salam, Heybət yoldaş!
– Əleykəssəlam!
– Bağışlayın, sizə zəhmət verdim... Fikirli görünürsünüz. Allah eləməsin, bir hadisə-zad olmayıb?
– Heç bir hadisə yoxdu! Buyurun, sizi dinləyirəm!
– Niyə belə birtəhər danışırsınız?
– Necə "birtəhər"?!
– Rəsmi... quru...
Heybət ayaqlarını götürüb qoydu, gövdəsi bütün əzəməti ilə yırğalandı. Bu yandan, aynabəndin şüşələri arxasından bəri dikilmiş gözləri – Tükəzin kədərini aydınca təsəvvür etdi və daha özünü saxlaya bilməyib çımxırdı:
– Buyurun, sözünüzü deyin!
– Siz məni tanımadınız?
– Xeyr!.. Tanımaq da istəmirəm!
İnadla asfalta baxsa da, "klyoş platya"nın çətir kimi dövrəyə süzmüş ətəklərinin birdən titrədiyini gördü. Qız diksindi. Heybət hətta onun gözlərinin necə geniş açıldığını da hiss etdi. Sonra isə bayaqkı yumşaq, sehirli səsə heç bənzəməyən, heyrətlə dolu, titrək pıçıltı eşitdi: – Çto za povedeniye?![1] Bağışlayın.
– Allah bağışlasın!
– Deyəsən... Deyəsən, mən pis vaxtda gəlmişəm.
– Heç gəlməsən daha yaxşı olar!
Bu dəfə Heybət onun əlini üzünə apardığını, eyni böyümüş gözlərlə baxa-baxa geri çəkildiyini hiss etdi. Səkinin qurtaracağında qız səndələyib az qaldı yıxılsın, nazikcə bədəni əyilib düzəldi. Sonra dolaşıq ayaq səsləri eşidildi; tuflilərin tıqqıltıları sürətlə uzaqlaşdı.
Hələ də tərpənmədən küt-küt asfalta baxan Heybət yerində ləngərlənib, tərini silib geri dönəndə, uzaqda, fin evinin darvazası ağzında ağ ləkə kimi şey gördü. Ləkə dərhal əriyib xəyaltək yoxa çıxdı. Heybət qarışıq, dolaşıq hisslərin yaratdığı gərginlikdən qurtarıb, dərindən nəfəs alıb alnını ovuşdurdu. Elə bil hər şey təkrar olunurdu, uzun illər yenidən geri qayıdırdı...

[1] Bu necə davranışdır?!

O vaxt, o uzaq illərdə Heybət hərbi qəzetdə işləyirdi. Əmisi – mal ferması müdiri Dünyamalı kişi tez-tez kənddən onun yanına gəlirdi, həmişə də qızı Tükəzdən söhbət salmamış ayrılmırdı. “Qocalıram, ay oğul, başıma bir iş gəlsə, təkcə balam – Tükəzim damın altında tək qalacaq...” Əmma bu söhbətlər Heybətin tükünü də tərpətmirdi. Çünki bu vaxt o, ömründə ilk dəfə böyük sarsıntı keçirirdi. “Salyanski kazarma”dan[1] aşağı küçədə, qoca anası və qıçının birini qospitalda qoyub gəlmiş qardaşı ilə birgə yaşayan Tutugildən ayağını yenicə kəsmişdi. Səbəbi isə... səbəbi isə indinin özündə də Heybəti diksindirən bir hadisə olmuşdu...

Bir bazar günü qəzetin redaktoru Mayılov Zəlimxan Sabitoviç “Azərbaycanda müsəlman ətalətinin canlı mücəssəməsi” adlandırdığı katibini, yəni Heybəti güc-bəla ilə maşina basıb, danlaya-danlaya “plyaj”a – çimərliyə apardı. “Həmişə hamıda saflıq, ucalıq axtarmaq özü də bir cür nadanlıqdı, Heybət. Budu bax, məhz hamıda saflıq axtara-axtara axırda tək qalmışan. Plyajda yalnız əxdaqsızlıq görmək nadanlıqdı!” – Mayor Mayılov bütün yolu belə danışıb, çimərliyə çatanda soyunmaq istəməyən Heybətin pencəyini zorla çıxartdı: “Soyun!” – dedi.

Heybət könülsüz soyunub, saatını, sənədlərini “Villis”in şoferinə tapşırıb, başını qaldırıb qumluqda sərilmiş çılpaq adamlara baxar-baxmaz, heyrətdən donub qaldı: Tutu? Tutu – plyajda?! Heybət onun kürəyinin arasında lifçiyinin iri düymələri ağaran mis rəngli bədəninə – incə belinə, dolu budlarına baxdı. Sonra... Sonra isə aləm gözlərində qaraldı. Yumşaq, qızılı qumluqda qol-qıçlarını uzadıb döşənmiş bədənlər çınqıl kimi bir-birinə qarışdı, sakit dənizin xırda ləpələrinin şırıltısı eşidilməz oldu. Heybətin dumanlanan gözləri önündə təkcə Tutu qaldı. Qız gül ləçəkləri kimi baş-başa verib dairəvi uzanışmış rəfiqələri ilə nə barədə isə gülüb danışır, narın qumu ovuc-ovuc götürüb biləkləri uzunu dirsəklərinin dibinə axıdırdı. Heybəti görmürdü. Ötən yazdan bəri hər gün ona sonsuz məhəbbətlə baxan açıq mavi gözlərin necə qorxunc qığılcımlandığını, hər gün şirin sözlər söyləyən qalın qara dodaqların necə titrədiyini görmürdü. Bilmirdi ki, elə həmin günün axşamı, kazarmanın darvazası ağzında görüşə gedəndə bu dodaqların

---

[1] Hərbi qəsəbə

arasından necə müdhiş sözlər çıxacaq: “Sən mənim istədiyim adam deyilsən!” İzahat əvəzində – şillə! Axı niyə? İzahat əvəzinə bircə kəlmə: “Qəhbə!..” – “Sən məni tanımırsan, Heybət!” – “Tanımaq da istəmirəm!” Bununla da hər şey bitdi. Tutu da eynilə bu qız kimi, əlini üzünə qaldırıb, böyümüş gözlərlə, addım-addım geri çəkildi, eynilə bu qız kimi səndələdi, sonra... tuk-tuk... tuk-tuk... Uzaqda, kazarmanın darvazasından bir az aşağı, yarımqaranlıq küçənin tinində ağ bir ləkə kimi şey göründü...

Heybət alnını ovuşdurdu. Qızların plyaja getməsi də, bax bu döşü-başı açıq platyalar da, hamısı xaricdən gəlmədir, Heybətə, onun xalqına, mənəviyyatına yaddır! Belə şeylər onu öz məhvərindən qoparda bilməz! Elə isə, bəs niyə qəmləndi? Bu barədə düşünməyə dəyməz! Yaddır, yabançıdır “çılpaq mənəviyyat”, vəssəlam!

Tənbəl-tənbəl gözlərini ətrafına dolandırdı, təbiətdə nə isə bir durğunluq, son dərəcə ağır sükut duydu. Teleqraf məftillər uzaqlara getdikcə kiçilən lal-dinməz dirəklərin arasında qarın verib sallanır, dalğa-dalğa uzanıb, çökəkdə üzərini qaramtıl hava layı bürümüş şəhərin içinə – dərəyə gedirdi. Qoca şoferin qoca avtobusu da qaramtul rəngə çala-çala, elə bil ölüvay, sürünə-sürünə hava layının altına gedirdi. Burda – qəsəbədə isə sükutun ağırlığı sıxıntı gətirirdi. Damı Tükəzin zövqü ilə qıpqırmızı rənglənmiş ev, yarpaqları tərpənməyən ağaclar Heybətə hardasa gördüyü multiplikasiya filminin bir kadrını xatırladırdı. Tut ağacının altındakı skamyada əllərini dizlərinin üstə qoyub hərəkətsiz oturmuş arvadı bu kadrı tamamlayırdı... Bu nə sıxıntı idi?! Nə faciə baş vermişdi?! Birdən-birə hər şey niyə belə ölü idi?!

Heybət yenə düşünmək istəmədi. Laübalı sifətlə, yavaşca çevrilib məhəccərin o yanına baxdı. Səkinin çopur üzündə yapıxıb qalmış narın qum üzərində ayaq izləri də qalmamışdı. Bir az əvvəl gördüyü uşaq oyuncağıtək balaca ağ tuflilər, titrəyən ətəklər, həyasız adam səsinə heç bənzəməyən pıçıltı... elə bil xəyal idi. Bir ara Heybətə elə gəldi ki, düz bir həftə gecə-gündüz narahatlıqdan sonra yenə də o naməlum sərnişini görmək üçün durub buraya, məhəccərin yanına gəlib və burda xəyallanıb.

Dönüb bir daha aşağıya, qaramtıl hava layı altında yoxa çıxan avtobusun dalınca boylandı. Sonra əks tərəfin evinin qapalı darvazasına baxdı. Bu nə dəhşətli sıxıntıdır?! Həyat niyə donub?!

Dünya niyə ölüb?! Uzun müddətdən sonra bütün aydınlığı ilə gördüyü o incəbel, zərif, doğma insan, o sevgi o plyajda yox, indicə qovduğu gözəllə birgə indicəmi ölmüşdü?!

Heybət nə qədər inadla düşünmək istəməsə də, daxilini sıxıb qabaran bir həqiqəti boğmağa çalışsa da, etiraf etdi ki, Tükəzə məhz Tutuya oxşadığına görə evlənmişdi. Əmma... Tükəz Tutunu əvəz edə bilməmişdi, ya nə?!

Ömründə ilk etirafın ağırlığı altında daha da ağırlaşıb-üzgünləşib, əyri-üyrü yerişlə geri qayıtdı. Tükəzə yaxınlaşdıqca, hər addımdan-addıma ayaqları da ağırlaşırdı, qırx beş nömrə ayaq-qabıların dabanlarının quma batması ilə burunlarının yerə enməsi arasında hiss olunacaq qədər vaxt keçirdi.

Tükəzin bərabərində dayanıb duruxdu. Hər bir adamın həyatında nə isə qəribə qəziyyələr, təsadüfi macəralar olmamış olmur; yəqin ki, "dekalte"li qız macərası da bir təsadüf idi, oldu qurtardı.

Heybət daha "səbət kreslo"da yatmayacaq, avtobusun səsinə dəli kimi yerindən dik atılıb pilləkənin başına, ya da həyətə qaç-mayacaq. Qurtardı!

Hər şeyə biganətək oturan arvadına baxdı.

– Dur gəl...

Sağa buruldu, iki cərgə uzanan əncir ağaclarının arası ilə, kiçik bir xiyabana bənzəyən cığırla meynəliyə çıxdı.

Al-qırmızı üfüqün rəngi Tükəzin nə üçünsələklərin yanı uzunu düzdüyü şüşə parçalarında əks edirdi. Narın qumun üzünə elə bil seyrəkcə qızıl tozu səpələnmişdi. Dünən bərk külək əsib ləkləri qumla doldurduğundan, körpəcə meynələrin yarpaqları orda-burda batmışdı. Meynələr elə bil bütün günü dartınıb, əl-qollarını qumdan çıxarmaq üçün çalışıb, indi isə yorulub başlarını sallamışdılar.

Heybət bir az qabaqkı əhvalının necə tez dəyişməyini hiss etmədi.

– Bunlar lap boğulur ki, ay Tükəz! Bel hardadı, gözümə dəymir?

– Beli səhər ertə Zəlimxan qardaş apardı.

– Sənə neçə kərə demişəm qapıdan şey vermə! Unudurlar, qaytarmırlar.

– Bu saat gedim gətirim.

– Yox, getmə.

– "Özüm gətirərəm" demək istədi, söz xirtdəyində qaldı; Heybət özü öz ixtirasından heyrətləndi: axı, o qız bayaq Zəlimxan

Mayılovun evinə getdi! Məgər elə hər gün ora getmirdi?! Heybət bu barədə niyə düşünməmişdi? Qəribədir!..

Heybət özünü yenə də qızın haqqında fikirləşən görüb pörtdü. "Şeytana dönüb, girib ürəyimə! Onda da Tutuya oxşarlıq var?! Pahoo! Bu nə işdi gəldi başıma?!"

Hərbi qəzetin redaktoru mayor Mayılov Zəlimxan Sabitoviçin yalnız öz ailəsi yox, lap yeddi arxadan dolananları da Heybətə məlum idi. Bu qız Mayılovun nəyidir? Qohumudursa, ailə üzvüdürsə, bəs niyə Maılovun maşınında gedib-gəlmək əvəzinə həmişə avtobusdan düşür?"

Köhnə ləklərin arasına atılıb qalmış köhnə, qırıq beli götürüb, qayıdıb təzə ləklərin arasında quma sancdı. Çöməlib ayaqqabılarını çıxartdı, şalvarının balaqlarını çırmadı. Fikri isə yenə də "dekalte"linin yanında idi: bəlkə indi qalxıb beli gətirmək üçün getsin və sözarası soruşub öyrənsin, görsün o kimdir, nəçidir? Nə?! Əmma nə yaxşı oldu acıladı, başından rədd elədi. Qurtardı daha, qurtardı!

– Tükəz, zəhmət çək krantı aç, – dedi. Su şlanqının ucunu ləkin içinə atıb, Tükəzin laqeyd sifətinə gözaltı baxıb fikirləşdi ki, bəs o, nə əcəb bir şey soruşmur? Heç olmasa, niyə xəbər almır ki, qızla nə danışdın, niyə belə qayğılısan? Ay hay! Dünyamalı kişinin qızı ərinin hər işinə burun soxan arvadlardandır? Bu gün Heybətin ağlına əcəb axmaq fikirlər gəlir!..

Tükəz doğrudan da heç nə soruşmadı; bağda işlədikləri müddətdə bayaqkı əhvalata cüzi maraq belə göstərmədi. Yalnız gecə, yatağa uzanandan sonra ərinin stolüsütü lampanın işığına əyilmiş ciddi, düşüncəli çöhrəsini, gicgahlarındakı ağ tükləri hüznlü gözlərlə süzə-süzə sakitcə soruşdu ki:

– O nə deyirdi? Bağışla, işindən ayırıram. Ha deyirəm soruşmayım, əmbə beynimdən çıxmır... Rəhmətlik dədəm tez getdi. İnstituta girəmmədim. Əlbəttə, sənin tayın deyiləm mən, Heybət. Yaxşı ki, uşağımız da yoxdu hələ. Mən istəmirəm bədbəxt olasan. Gözəl insansan sən, Heybət. İşdə yoldaşlarınnan, redaktorunnan yola getməsən də, hamısı bilir ki, namuslu, qeyrətli adamsan. Heç kəs qınamaz səni məni boşasan. Ya da istəyirsən heç ayrılma. Get öz babınnan evlən. Dözərəm mən, vallah! İnan! Bircə sən əzab çəkmə, Heybət!..

Heybət qələmi mürəkkəb qabının üstünə söykəyib, adəti üzrə, alnını ovuşdurdu.

– Nələr danışırsan, Tükəz!.. Utandırma məni! Belə dəhşətli güzəştli sevgiyə layiq deyiləm mən. Necə yəni “tayın deyiləm?!” Güzgüyə baxıram: qara camışam! Dəvəyəm! “Dağdan gəlir Dağ Qaraca. Dalını sürtür ağaca. Hinkir-Minkir qabaqlı. Məmməd Şərif dodaqlı”. Dəvə! Sən isə yorğun maralsan, dayıqızı! Bu nataraz dəvənin hinkir-minkir qaşqabağı yorub səni!.. Mənim peşəm yorub səni! Darıxdırıcı, bezdirici hərbi qəzetdən çıxanda, dedim qurtardı bu türmə! Əmbə ondan betər türməyə düşdüm. “Professionalsan! Baş məqalələri sənə tapşırıram, yoldaş Heybətov!” Öləydim baş redaktor Əzimzadədən bu sözləri eşidəndə! Gör neçə ildi zəncirlənmişəm stola! Səni də zəncirləmişəm məişətimə! İldə bir-iki kərə işçilərimizin xeyir-şər işlərindən savayı nə görürsən?!

“Gözlərini mazol eləmiş standart sözlərlə dolu”, qara-quralı səhifəni pəncəsində xışmalayıb ayağa qalxdı, iki barmağı ilə köynəyinin döşündən tutub, birdən-birə istilənən bədənini yelləyə-yelləyə həyətə endi: “ Çevir tatı, vur tatı! Ət, süd! Ət, süd! Yoldaş Xruşşovun ərzaq proqramı! Qarğıdalı, süd, ət! Nə qədər yazmaq olar?!”

Yenə də Əzimzadənin bu mövzuda qışqırtısı yada düşdü: “Nikita Sergeyeviç Xruşşov nə qədər “Ət, süd” deyəcək, biz də o qədər deyəcəyik! Xruşşovun dilindən çıxan kəlmələr camaatın dilində şuara çevrilənə qədər deyəcəyik!”

“Mən yorulmuşam! Özünüz deyin! Özünüz yazın baş məqaləni!” – Heybət kifayət qədər ucadan danışdığını hiss etmədən, barmaqları arasında yuvarlanıb daş kimi bərkimiş kağızı tut ağacının gövdəsinə çırpdı. Və bununla da, axşamdan bəri çəkdiyi əzabdan yaxa qurtardığını güman etdi.

Avtobus dayanacağındakı təkcə lampa sakit-sakit şölələnir, Heybətin məhəccərindən o yandakı dar səkinin bir qismini ancaq aydınladırırdı. Heybət öz ağır, ətalətli addımları ilə, yumşaq qumlu cığırla səssiscə yeriyib, məhəccərə dirənənə qədər necə getdiyini bilmədi. Bakının üzərindən gecələr də çəkilməyən hava layı altındakı uğultusundan aralı sükuta batmış bu qaranlıq guşədə, seyrək ulduzlu göy altında lunatik kimi yeriyirdi. Qabağına çıxan olsaydı, bu hərəkət edən zorba, qara heykəldən çəkinib, şübhəsiz, kənar gedərdi. Əmma məhəccərin o tayından dikələn ağ “dekalte” çəkinmək əvəzinə, lap göz-gözə gəldi. Hətta əlini uzadıb yaxasından tutdu, tanış cingiltili səslə: “Siz məni təhqir eləmisiniz!” – dedi. Bir

an sonra Heybət qarşısında boz səkidən başqa heç nə görmədi. Əmma səs qulaqlarında qaldı: “Siz məni təhqir eləmisiniz!”

Heybəti tər basdı. Bu səs onu bütün gecə rahat yatmağa qoymadı, ertəsi günü qapı-bacada qurdalananda tez-tez əl saxlayıb sıxıntı çəkməyə məcbur etdi. Bu qədər sıxıntı-üzüntüdən sonra, axşam saat altıda avtobus boğuq tormoz cingiltisi ilə dayanandan sonra, son duracaqdakı son sərnişinin birdən-birə həyətə burulub düz qapıya yönəldiyini görəndə isə Heybət yenə vəlvələyə düşdü...

Kürsüdən təzəcə qalxıb, Tükəzin boş oturmamaq, bəlkə də darıxdığından nə isə bir iş görmək xatirinə dönə-dönə sildiyi şəffaf şüşə gözcüklər arxasında dayanmışdı. Bir az əvvəl fikirləşirdi ki, dünənki hadisədən sonra, işdir, qıza bir də baxsa, heç şübhəsiz, tamamilə soyuqqanlı davranacaq, təmkinini, dəyanətini əlindən alan o əzablı ürək döyüntüsünü bir daha duymayacaq; bu günkü soyuqqanlı Heybət, srağagünkü, daha srağagünkü yüngülməcaz Heybəti ələ salıb güləcək. Bəlkə hətta Tükəzi də çağırıb “bir ona bax! Nifrətim var mənim bu çılpaq mədəniyyətə!” – deyəcək və bununla ötən həftə əcayib-qərayib hərəkətlərilə Tükəzi şübhəyə saldığına görə üzr istəmiş olacaq. Bu fikirlə də Heybət avtobusun boğuq tormoz cingiltisini eşidəndə doğrudan da soyuqqanlılıqla ayaca durdu və quruyub qaldı. Qız birbaş buraya gəlirdi! Evə! Onun yanına gəlirdi!

Heybət döyükdü. Tükəz hanı? Odur, həyətdə dayanıb, bu müəmmalı gəlişə, deyəsən, o da təəccüblə baxır. İndi Tükəz: “Gözəldir – demirmi? Bu dəfə sürüb birbaşa evə gəlir! – demirmi? Məni heç saymır!” – demirmi? Bu nə müsibətdir?! Tale özü Heybətlə təhlükəli oyun oynamağa başlayır, sınağa çəkir nədir?!

– Qonaq gəlir, qapıya çıx! – Tükəz onun yanından tələsik ötüb içəri keçdi. Qonaq?! Bəlkə düz deyir? Əlbəttə, qonaq olmağına qonaqdır. Qapısını hərdən köhnə redaktoru Mayılovdan başqa açmadığı bu evə yad adam gəldiyinə görə Tükəzin belə tələsik tərpənməsi də təbiidir. Hamı, o cümlədən Heybətin iş yoldaşları da bu fikirdədirlər ki, Heybətovun arvad sarıdan bəxti gətirməyib: Dünyamalı kişi “ev qızı, ev gəlini” deyib öz qızını təklif eləyib, Heybət də razılıq verib, daha sonrasını düşünməyib, görməyib ki, Dünyamalı kişinin orta savadı da tam olmayan sırf kəndçi qızı “Mərkəzi Komitə orqanı olan hörmətli qəzetin hörmətli əməkdaşına tay olmuyacaq!” Heybət belə və buna bənzər fikirləri

"qulaqları mazol olana qədər" eşitsə də, hamısını onun "müsəlman təbiətini bəyənməyən" zəvzəklərin çərənləməsi hesab edir. Tükəz isə ehtiyatlıdır; bütün varlığı ilə çalışır ki, Heybətə nöqsan olmasın. Şübhəsiz, elə buna görə də içəri keçdi. "Nöqsan!" Yazıq Tükəz! Bu qarğıdalı, ət, süd mədəniyyətinin əsirinə tay olmaqdan ötrü xüsusi savadmı lazımdı?! Bu savadlı "dekalte" "qonaq"nan lap bir gün də yola gedəmmərəm, a yazıq Tükəz!" – Belə düşünə-düşünə, Heybət doğrudan da qonaq qarşılayan adam kimi davranmağa çalışıb, pilləkənin başına yeridi və ilk dəfə özünü toplayıb qonağın sifətinə sərrast baxanda, bu ana qədər sehrli, təhlükəli bir məxluq kimi təsəvvür etdiyi gözəlin qarşısında sıxılmadığına təəccüblənməyə bilmədi.

Elə bil Heybətin, necə deyərlər, "adam kimi baxması"na bənddi ki, hər şey birdəncə dəyişsin – nə isə dumanlı təhlükə, gərginlik, sıxıntı da qəfildən yoxa çıxsın, ürək də öz qaydasında, aramla döyünsün, nəfəs də genişlənsin.

Heybət bu gözlənilməz dəyişikliyin səbəbini düşünmək, vəziyyətini aydınlaşdırmaq istəməyib, sevindiiyindən, olub-keçənlərin hamısını unutmuş kimi, gümrah üç-dörd pillə endi.

– Buyurun, – deyib tamamilə sərbəst hərəkətlə içərini göstərib, pilləkinin kənarına çəkildi. Əmma qız tut ağacının altında yerə baxa-baxa qaldı.

– Çox sağ olun... içəri getmiyəcəm, – dedi və birdən kirpiklərini qaldırıb gülümsündü. – Əgər dünənki rəftarınız bü gün də təkrar olunmayacaqsa, xahiş edirəm qabaqcadan deyin ki, mən özümü sərbəst hiss eləyim. Sizdən əvvəl də məni təhqir eləyən olub. Əmma belə şeylərə alışa bilmirəm, Heybət yoldaş. Gecə səhərəcən fikirləşmişəm, bu gün də işdə əlimi ağdan-qaraya vurmamışam. Sizin qəzəbli sifətiniz gözümün qabağından getməyib. Ancaq bunu fikirləşmişəm ki, axı Heybət yoldaş mənlə nə üçün belə rəftar eləsin?.. Səbəbini tapa bilməmişəm, bəlkə özünüz deyəsiniz?

Heybət birdən ayıldı ki, qızı içəriyə dəvət edəndə qapıya doğru uzatdığı əli hələ də havadan asılı qalıb. Tez özünü toplayıb aşağı endi.

Nə desin? Əgər qız da kobud danışsaydı, öz növbəsində o da acılasaydı, Heybət bəlkə də söz tapa bilərdi. Əmma, görünür, güzəştə getməyi bacaran, nəzakətli zənənin şirin dili ilə söylənən bu ılıq sözlər onu çaşdırdı.

– Əyləşin, – deyib özü də hiss etmədən əyilib, əlinin pəncəsi ilə skamyanın üstünü sildi, çaşıb qızdan əvvəl özü oturdu. Xırda sü-

müklü, zərif zənənin yanında daha da yontulmamış görünən gövdəsini çətinliklə qabağa əyib, dirsəklərini dizlərinə dayadı, biz-biz cod saqqallı qaralan sifətini ovuclarında xışılıtı ilə övkələdi və üzr istəməyə alışmamış adamlartək, ağır-ağır dilləndi:

– Dünən halım özümdə deyildi...

– Bədbəxtlik olmasın!

– Xeyr... Elə bir şey yoxdu... Kobud adamam mən. Bədxasiyyətəm. Həyatım darıxdırıcı olub, xasiyyətimi korlayıb. Budu... Başqa səbəb yoxdu... – Heybət hiss etdi ki, "başqa səbəbi" gizlətməyindən pərtləşdi.

Qız isə, əksinə, səmimi rəftarla əyilib onun qara sifətdə mavi gözəlliyinə heyranlıqla baxa-baxa sərbəst danışırdı:

– Məncə, belə nurlu sifətin sahibi bədxasiyyət olmamalıdı... Üzr istəyirəm, Heybət müəllim, hər halda çox maraqlıdı ki, axı, siz nə üçün elə danışdınız? "Tanımıram, tanımaq da istəmirəm!.. Heç gəlməsəniz daha yaxşı olar!.." Zəlimxan Sabitoviç: "Heybət boş-boşuna kobudluq eləməz! Nədənsə xoşuna gəlməmisən!" – deyir. Kişilərdə qadına qarşı kobudluğu az görməmişəm mən. Əmma, açığı, bu cür yox. Özümü elə itirdim ki, heç iki kəlmə də deyə bilmədim... Siz o sözləri təsadüfi demədiniz. – Qız dikəlib, əllərini arxadan gətirib, zərif hərəkətlə donunun ətəyini qıçlarına yapıxdırıb yenidən oturdu, redikülünü dizlərinin üstünə qoyub, gözlərini yenə Heybətin gözlərinə dikdi.

"Tutu!.. Tutu!.." Heybətə o da "nurlu sifət sahibi" deyərdi. Tükəz, sadəcə, "yaxşı adamsan" deyir. Bu isə, eynilə Tutu kimi deyir, Tutu kimi baxır. "Tükəz də elə Tutudu. Bu isə lap kopyadı!" "Birinci Tutunu niyə itirdin, ay bədbəxt?! O nə şillə idi?! Necə yəni "qəhbə?!"

Çılpaq çiyinlər birdən-birə alov saçıb Heybətin üzünü qarsdı. Fısıldayıb skamyada dikəldi. Yenə özündə deyildi; eynilə əvvəlki günlərdəkitək cəsarətsiz bir yeniyetmə kimicə matdım-matdım tamaşa eləyirdi; ondan izahat tələb edən canlı adama yox, hansı möcüzə iləsə danışmağa başlamış bir rəsmə baxırdı, ipək kimi yumşaqlığı kənardan hss olunan, azacıq rəng sürtülmüş dodaqların, dümağ çöhrədə tuşla çəkilmiştək nazikcə qaşların tərpənişinə fikir verirdi: "Tutu!..Tutu!.." O plyajda, o şillədən sonra ölmüş Heybət dirilib qızın döşlərinin arasına ötəri baxıb üzünü kənara tutdu.

– Bu “nurlu sifətin sahibi”nin sifəti aldadıcıdı. Görün indi necə nursuz bir sual verirəm sizə: niyə belə geyinmisiniz?!

Qızın qaşları yerindən oynayıb alnında gəzdi. Gözləri lap iriləndi.

– Necə?! Mənim geyimimin nə dəxli var sizə, Heybət müəllim?!

Heybət duruxdu. Nə desin? Dedi:

– Əvvəlcə bilmək istəyirəm, məni hardan tanıyırsınız? Bura nə əcəb gəlmisiniz?

Qız da duruxdu. Sonra gülümsündü.

– Zəlimxan Sabitoviçin bu bağ evində qulluq eləmişəm sizə. Əla çay süfrəsi açmışam özümün bişirdiyim nemətlərlə. Keçən yaz “Ordu və xalq” adında baş məqalə lazımdı bizə. On birinci Qızıl Ordunun Azərbaycana gəlməsi münasibətilə... Zəlimxan Sabitoviç dedi: “Nə olaydı, Heybətov yenə qayıdaydı qəzetimizə, baş məqalə yazmaqdan qurtaraydı canımı”. Dedim çağırın, söhbət eləyin, baş redaktorun büdcəsindən nadbavka[1] vəd eləyin. Yediniz, içdiniz, söhbət açılanda dediniz: “Sibirə sürgün olunaydım, baş məqalələrdən canım qurtaraydı”. Əmma yazdınız. Ordunun xalqa, təsərrüfata gönüllü, təmənnasız köməyi haqqında gözəl oçerk kimi bir şey.

Qız redikülündən iki qatlanmış “nabor listləri” çıxarıb açdı.

– Qlavlit buraxmadı o vaxt bu məqaləni. Dedilər: “Xaricdə deyərlər qızıl əsgərləri qul kimi göstərir bu məqalə...” Dünən Zəlimxan Sabitoviç dedi, apar Heybətov bir az əl gəzdirsin, çap eləyək. Siz isə... elə qəribə, anlaşılmaz rəftar!.. Bəlkə keçən il orda – evdə narazı qalmısınız Zəlimxan Sabitoviçdən, hayıfı məndən çıxırsınız bu il?!

Heybət məqaləni alıb könülsüz ora-burasına baxdı.

– Bunu yazanda mən azı min dəfə söymüşəm mayor Mayılovu. Özlüyümdə söymüşəm. Əmbə... hayıf nədi?! Mən o dərəcədə kinli deyiləm ki, o incikliyimi bir il saxlayım ürəyimdə. Siznən elə rəftarın səbəbini dedim bayaq.

Qızın yenə qaşları oynadı.

– Gedim?!

– Hə... inciməyin məndən. Çılpaqsınız. Bunun üstündə mən gözəl bir qızın barmağına taxdığım nişan üzüyümü çıxardıb dənizə tullamışam! Mayor bilir. Təsadüfən plyajda gördüm nişanlımı.

[1] Aylıq maaşa əlavə pul

Dözəmmədim... Lap açıq deyirəm. Siz ona oxşayırsınız. Siz də bir mən təki geri qalmışı bədbəxt eləməyin... Bağışlayın, xalqımızın şəhər qisminin kosmopolitliyinə dözəmmirəm.

Qızın baxışlarından, Heybətin müsahibini bütün incəliyinə qədər başa düşdüyünü bildirən dərin səmimiyyət oxundu:

– Sizdən üzr istəyirəm, Heybət müəllim. Demək, geyimdə də kosmopolitizm görürsünüz.

– Əlbəttə!.. Yad-yabançı dəb təsirindən başlamırmı hər şey?! Psixologiyanın, dünyagörüşünün dəyişməyindən xəbər vermirmi bu "dekalte"?! Xaricilər "veçerinka"larda, "bal"larda geyinərlər belə "platya"nı. Bizimkilər indi hətta küçədə də geyinirlər! Mən yadam sizə. İxtiyarım çatmır belə danışmağa. Əmbə o biri tərəfdən, millətimin övladısınız. Bütün azərbaycanlılar bir-birinə bir ailə üzvü kimi səmimi münasibət bəsləsələr, belə açıq səmimiyyətnən danışsalar, görün nələr olar!

Qız güldü.

– Fantastikadı – dərindən nəfəs aldı.

Heybət dərindən nəfəs aldı.

– Əlbəttə... Fantastikadı. Vahid milli etiqad, milli psixologiya... qısası, birlik yoxdu bizim millətdə.

Qız, nəhayət, vəziyyətin aydınlaşmağından sevinib əlini redükülünə şappıldatdı.

– Siz nadir adamsınız!.. Mənə elə gəlir ki, sizin köhnə redaktorunuz da elə belədi. O da deyir, millətimiz mənəvi sərvətlərini itirib, yırtıcılaşıb, qanun-zad tanımır. Yalnız orduda az-çox əxlaqi keyfiyyətlər var, deyir, elə buna görə hərbi qəzetə qaçdım, deyir.

Bu sözləri eşitdiyi dəqiqələrdə Heybətin necə yazıq, məzlum görkəmlə boynunu burduğunu heç bir sözlə demək mümkün deyil. Elə bil indicə sızıldayacaqdı ki, sən mənə niyə indi rast oldun, ay zalım balası, niyə on beş il bundan əvvəl tuş gəlmədin?!

Qız bu baxışdakı məftunluğu hiss etdimi? Yəqin ki, belədir. Çünki bir qədər ciddiləşib gözünü Heybətdən çəkdi.

– Xahiş eləyirəm, bir də göz gəzdirin bu məqaləyə... Yoldaşınız da birtəhər baxdı mənə... O qadın sizin yoldaşınız deyil?

Heybət yenə birdən-birə dəyişdi; aludə baxışlar tutqunlaşdı:

– Hə... – Fikri dağınıq mızıldanıb qapıya baxdı: Tükəz orda nə edirdi? Niyə qapılıb qalmışdı? Elə bil qəsdən şərait yaradırdı ki, Heybət öz "qonağı" ilə doyunca söhbət eləsin!

Heybət isə daha söhbəti kəsmək, tək bir şeyi bilmək istəyirdi.

– Siz mayorun nəyisiniz?

–Katibəsiyəm.

– Bir sual da... Keçən il o qonaqlıqda niyə görməmişəm sizi?

– Görməmisiniz?

– Mən sizi birinci kərə bir həftə əvvəl, avtobusdan düşəndə gördüm.

– Birinci dəfə?! Bu lap möcüzə oldu ki, Heybət müəllim! Mən bir ildi... bəli, düz bir ildi katibəsiyəm Zəlimxan Sabitoviçin.

– Doğrudan da möcüzədi!.. Sizin adınız...

– Şükufə... – Qız ayağa qalxdı. – Axşam mən bizim dünənki söhbətimizi danışırdım. Zəlimxan Sabitoviç güldü, dedi Heybət zənənlərlə yaxın ünsiyyəti əxlaq normalarından kənar sayır. – Şükufə dilindən yersiz söz qaçırdığını hiss edib susdu.

Heybət isə qızarmaq, küt-küt şişib qalmaq qorxusu ilə nə isə bir hərəkət eləməyə ehtiyac duyub dizlərini ovuşdura-ovuşdura yan-yörəsinə baxdı. “Zənənlərlə ünsiyyətim yoxdur? Mayor bunu nə əsasla deyib? Dayan, dayan! Axı bu heç də birinci hadisə deyil: Mayılovun köhnə katibəsini görəndə də eynilə bu ötən həftə duyduğu hisslərlə yaşamırdımı? Elə o vaxt da “Tutu!.. Tutu!” – deməmişdimi?! Bu necə tale idi?! Niyə hamını Tutuya oxşadırdı?! Niyə hamısını sevirdi və heç birini sevə bilmirdi?! Tükəzi də sevə bilmirdi?! Əlbəttə! Sevirdi və sevə bilmirdi. Niyə?!

Şükufəni necə ötürdüyünü bilmədi. Ayaqlarını sürüyə-sürüyə qəfildən meydana çıxan həqiqət və dilemma-sual qarşısında gücsüzləşmiş gövdəsini daş pillələrlə çəkib yuxarı qaldırdı, aynabəndin toran küncünə çatanda, əlindəki kağızları birbaş döşəməyə atdı, kürsünün çökəyinə batıb hərəkətsiz qaldı. Tut ağacının sıx yarpaqlı budaqları şər vaxtının tutqunlaşan havasında daha da sıxlaşıb, yaxın ağ üfüqlə aynabəndin arasında bütöv bir kütlə halında qaralırdı. Boş, dəyirmi aynabənd toranlıqda İçərişəhərdəki qədim, kimsəsiz karvansaranın həyətini xatırladırdı. Yalnız lap o başda, sacayaq şəklində quraşdırılmış taxtaların üstündə su daşı bozarırdı. Orda Dünyamalı kişinin kənddən gətirdiyi, əsrin əvvəllərindən qalma küpə fasilə ilə duşən damlaların boğuq şappıltıları hər keçən dəqiqənin Heybət üçün nə qədər ağır olduğunu təsdiqləyirdi: Şap... Şap... Şap... Necə dəhşətli dərəcədə ağır keçən dəqiqələr!..

Tükəz kölgə kimi səssizcə qapının arasına çıxdı, bir əlində Heybətin köhnə "bağ köynəyi" ilə üstü iynəli sap tağalağı, o biri əlində boz cildli "Kerri bacı" lal-dinməz dayanıb ərinə baxdı.
– Qonağın getdi?
– Mayorun katibəsiymiş.
– Hə?.. İçəri niyə çağırmadın?
– Gəlmədi.
Tükəz, yəqin ərinin daha nə isə deyib, nəyi isə izah edəcəyini gözlədi. Əmma Heybətin hərəkətsiz qaraltısından hənirti də çıxmadı. Tükəz, görünür, onun şər vaxtı qaranlıqda oturmasını istəməyib işığı yandırdı, əmma hələ əlini divardan çəkməmiş küncdən Heybətin mavi gözləri parıldadı.
– Söndür!
– Söndürərəm indi. İcazə ver bir söz soruşum. Əmbə düz de.
– Soruş... Necə yəni düz de?! Bu vaxtacan nə gizlətmişəm səndən?! Soruş!
– De görüm nə oldu? Niyə belə yasa batıbsan?
– Yasa batmışam?!
– Düzünü de, Heybət, qurbanın olum. Ürəyim partlıyar yoxsa.
– Hm... Müsibətimizə bax!.. Heç nə olmayıb. Əmbə yasa batmışıq. Sən özün də, Tükəz!
– Düz deyirsən.
Heybətin gözləri kitaba dikildi.
– Əvvəlcə sən bir suala cavab ver. Sonra mən çalışaram öz vəziyyətimi izah eləyim... De görüm o kitabı niyə oxumursan? Açırsan, örtürsən. Qalır elə. Məncə, maraqlı kitabdı axı o "Kerri bacı".
Tükəzin sinəsi qalxıb-endi.
– Maraqlıdı... Əmbə oxuyammıram.
– Niyə axı?!
– Nə mənası var, ay Heybət, oxudum, ya oxumadım, bir deyilmi? İnsan az bildi, çox bildi, fərqi nədi? Ömür ki, puçdu! Heçdi, puçdu!
Heybət diksindi.
– Səndə bu qədər ruh düşkünlüyü yoxuydu, Tükəz. Niyə belə danışırsan?.. Qısqanırsan məni, nədi?!
– Yox!
– Yalan demə!

– Vallah!.. Vallah, yalan demirəm, Heybət. Sən təki insan... belə peyğəmbər təki insan belə kökələ-kökələ əslində şam təki əriyir gözümün qabağında. Hey elə fikir-zikir eləyirəm; neyləyim fikrin dağılsın?! Həyatımız yoxdu, ömrümüz çürüyüb gedir, mən əlacsız, sən əlacsız! Niyə belə darıxırıq? Niyə ölürük, ay Heybət?!

Heybət kürsüdən dik qalxdı. Yaxınlaşıb Tükəzi bağrına basdı.

– Əzizim! Canım-ciyərim Tutu!

Tükəz də diksinib, dartınıb onun qollarının arasından çıxdı.

– Tütü?!

– Çaşdım, Tükəz... Danışmışam, sən kopyasısan onun, çaşdım.

Tükəzin sinəsi bir neçə dəfə hündürlənib endi. Gözlərində təbəssüm işardı.

– Ona da razıyam demişəm sənə.

– Sağ ol! Nursan, Tükəz!

– İndi sən de. Cavab ver o suala.

– Yasa-zada batmamışam. Sən düz deyirsən, sadəcə, həyatımız yoxdu... Heç bilmirəm neyniyək, nə iş görək ki, belə olmasın.

Aynabəndə sükut çökdü.

Tükəz bir az da lal-dinməz dayanıb geri döndü, aşağı səmtdə o yan-bu yana vurnuxub, ayaqlarının ucunda yenə yuxarı qalxdı. Heybət özü əlini "vıklyuçatel"ə atdı.

Lampanın son qızartısı öləziyib yox olanda, azca əvvəlki toranlıq əvəzində aynabəndə zülmət çökdü. Su daşından küpəyə daman damlaların şappıltıları şiddətlənən ürək döyüntüsü kimi bərkidi. Heybət Tükəzin həyətdə, toranda əriyib yoxa çıxan qaraltısını anlaşılmaz narahatlıqla arayıb, tapmayıb kürsüyə çökdü.

Nədənsə yorulmuş, üzülmüşdü. Əmma bir az sonra küt tormoz cingiltisi eşidib, kürsüdən lap yüngül hərəkətlə ayağa qalxdı. Əmma bu artıq röya idi. Heybət dərin yuxuda, can verirmiş kimi, ağır-ağır xırıldayırdı. Tükəz küncdə, köhnə həsir üstündə qıçlarını yığıb, boynunu büküb hərəkətsiz qalmışdı.

# KİTABDAKILAR

## POVESTLƏR

Saz . . . . . . . . . . 7

Tütək səsi . . . . . . . . . . 76

Quru budaq . . . . . . . . . . 210

Faciə . . . . . . . . . . 271

Şəppəli. . . . . . . . . . . 333

Kollu Koxa . . . . . . . . . . 359

Ömür karvanı. . . . . . . . . . 400

# İSA MUĞANNA

## Seçilmiş əsərləri

Altı cilddə
I cild

POVESTLƏR

BAKI
"AVRASİYA PRESS"
2009

Buraxılışa məsul | *Vaqif Bəhmənli*

Tərtib edəni | *Firuzə Muğanna*

Redaktor | *Umud Rəhimoğlu*

Nəşriyyat redaktoru | *Rəhilə Gülgün*

Texniki redaktor | *Mübariz Piri*

Kompyuter səhifələyicisi | *Turab Məhərrəmli*

Dizaynerlər | *Məmməd Qarabağlı*
*Samir Məmmədli*

Kompyuter operatorları | *Maral Rəisqızı*
*Asifə Əfəndi*
*Tərgül Sahibqızı*

Korrektor | *Sevinc Muğanna*

"Avrasiya press" nəşriyyatı
Bakı, Mehdi Hüseyn küçəsi 1[a]
Tel: (994 12) 439 76 97